Nəriman
ƏBDÜLRƏHMANLI

# YOLÇU




ROMAN

**Əbdülrəhmanlı N. Yolçu.** Roman.
Bakı, Qanun Nəşriyyatı, 2013. 560 səhifə, 1000 tiraj.

Redaktor: **Tapdıq Yolçu**
Korrektor: **Ceyran Abbasova**

*O, yeddi yaşınacan çarvadar Nüsrəddinin oğlu Yusif, on dörd yaşınacan özündən ixtiyarsız İosif Eliqulaşvili, otuz yaşınacan Jozef Qrenyö, qırx doqquz yaşınacan Cozef Tiflisi, ondan bəri Mirzə Yusif Tiflisi olan Allahın həqir bəndəsi, Dar-üs-sürürlu, yəni Tiflis-ül-əsl kimsədir...*

*O, Güney Batı məmləkətlərindən, Firəngistandan, Veneziadan, İstanbuldan, Anadolu çöllərindən, Konyadan, Bağdaddan, Ərzurumdan, Qarsdan, Nəqşivandan, Rəvandan, Ərdəbildən, Təbrizdən, Qəzvindən, İsfahandan, Muğandan… keçən yolçudur...*

*O, krallar, sultanlar, şahlar, hersoqlar, paşalar, xanlar, ağalar, bəylər, knyazlar, sərkərdələr, üləmalar, mirzələr… görən, mərhəmət, qəddarlıq, satqınlıq, nəvaziş, vəcd, şəhvət, aclıq, firavanlıqla rastlaşan, yaşanan eşqlərin, yıxılan xanədanların, vurulan başların, məkrlərin, riyakarlıqların, çəkilməz dərdlərin şahidi olan səyyahdır.*

*Allahın bəxş elədiyi ağlagəlməz macəralarla dolu həyatının izsiz-soraqsız tarixin qəbiristanlığına gömülməsini istəmir.*

*"Yolçu" romanı oxucunu tariximizin fırtınalı bir dövrünə – XVIII yüzilin birinci yarısına aparır, onu sevgi, nifrət, xoşbəxtlik, fəlakət, işıq, zülmət qarşıdurmasının dolanbaclarına salır.*

ISBN 978-9952-26-

© N.Əbdülrəhmanlı, 2013
© Qanun Nəşriyyatı, 2013

Bakı, AZ 1102, Tbilisi pros., II Alatava 9.
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az

***

*İlahi, indi bu sətirləri oxuyan kəsə Səndən dilədiklərimin hamısını bəxş elə!*

*Həm də bol-bol, təkcə Sənin bacardığın kimi ver!*

*Qoy həmin adam ömrü boyu, əgər bu mümkün deyilsə, heç olmasa, bir müddət xoşbəxt olsun.*

*Ona möhkəm can sağlığı ver, qoy həmişə doğmalarının yanında olsun, onlardan sevgi və şəfqət görsün...*

*İlahi, Sən bu bəndənin qəlbini həmişə bütün məxluqata qarşı sonsuz sevgiylə nurlandır, onu pis gözlərdən, pis sözlərdən, həsəddən, kindən, davalardan və ölümlərdən qoru!*

*Amin!!!*

*Mirzə Yusif* TİFLİSİ

# BİRİNCİ KİTAB

## MƏĞRİBLƏ MƏŞRİQ ARASINDA

*... De ki, Məşriq də, Məğrib də Allahındır.*
*O istədiyi insanı doğru yola çəkər.*

*Qurani-Şərif,*
*Bəqərə surəsi, 142-ci ayə*



# I

# FAŞ ELƏMƏK İSTƏDİYİM SİRR

***Mən yanar od kimiyəm, sirlərim buz kimidir,***
***Qorxuram öylə yanam, faş ola min sirr bir-bir.***

***İskafi ZƏNCANİ***
***(XI yüzil)***

1. ... Yaz ki, mən, yeddi yaşınacan çarvadar Nüsrəddinin oğlu Yusif, on dörd yaşınacan özündən ixtiyarsız İosif Eliqulaşvili, otuz yaşınacan Jozef Qrenyö, qırx doqquz yaşınacan Jozef Tiflisi, ondan bəri Mirzə Yusif Tiflisi olan Allahın həqir bəndəsi, Dar-üs-sürürlu, yəni Tiflis-ül-əsl kimsə, aradan Peyğəmbər ömrü qədər illər ötəndən sonra yaddaşımı ələk-vələk eləməyi, yaşadıqlarımı, yaşantılarımı kağıza köçürməyi niyə istədim, yəqin ki, bunun izahını özüm də verə bilmərəm. Güney Batı məmləkətlərindən, Firəngistandan, Venesiyadan, İstanbuldan, Anadolu çöllərindən, Konyadan, Bağdaddan, Ərzurumdan, Qarsdan, Naxçıvandan, Rəvandan, Ərdəbildən, Təbrizdən, Qəzvindən, İsfahandan, Muğandan… keçib ömrüm boyu can atdığım Tiflisin beş-üç ağaclığındakı Şəkinin balaca bir karvansarasında başa çatan uzun-uzun yollarda gördüklərimi, duyduqlarımı, yaşadıqlarımı mərhəmət sahiblərinə çatdırmaq üçünmü? Bəlkə niyyətimin bir başı buna bağlıdı, amma ömrümün bu çağında faş eləmək istədiyim bir sirrim var: *Allahın bəxş elədiyi ağlagəlməz macəralarla dolu həyatımın izsiz-soraqsız tarixin qəbiristanlığına gömülməsini istəmirəm.* Mən krallar, sultanlar, şahlar, hersoqlar, paşalar, xanlar, ağalar, bəylər, knyazlar, sərkərdələr, üləmalar, mirzələr… görmüşəm, mərhəmət, qəddarlıq, satqınlıq, nəvaziş, vəcd, şəhvət, aclıq, firavanlıqla rastlaşmışam, yaşanan eşqlərin, yıxılan xanədanların, vurulan başların, məkrlərin, riyakarlıqların, çəkilməz dərdlərin şahidi olmuşam, istəmirəm ömrümdən keçənlər də əvvəlcə qəbrim, sonra

adım kimi unudulsun. Bu səbəbdən, Allahın rizası, yaddaşımın təhrikilə görüb-bildiklərimi mərhəmətli cavan mirzəyə söyləmək istədim ki, kağıza köçürüb saxlasın, əgər könlündə səxavət varsa, lazım biləndə üzə çıxarsın. Mən əlim qələm tutandan yazmışam, başıma gələnləri söyləməkdə nə qədər məharət göstərdiyimi bilmirəm. Dörd ildən bəri qərq olduğum zülmətin içindən nələri üzə çıxara bilsəm, Allahıma şükür eləyəcəyəm.

2. Dedim ki, Tiflis-ül-əsləm, atam da, babalarım da yeddi arxa dönəninəcən Tiflisdə, Şeytanbazar meydanından bir az yuxarıda yaşayıblar. Çarvadarlıq da atama nəsil mirası kimi keçib. Babalarım, ən azı, Böyük Şah İsmayılın vaxtından Gəncəyə, Bərdəyə, Naxçıvana, Təbrizə gedib mal gətiriblər, gətirdiklərini Borçalıda, Kaxetdə, Car-Balakən tərəflərdə satıblar. Bu ənənəni, mən bilən, bircə nəfər pozub – babam Mirzə Sədrəddin bir az yazı-pozu bildiyindən, Böyük Şah Abbasın Tiflis əmirinin yanında qulluq eləyirmiş, Şeytanbazar meydanının yaxınlığındakı, düz çayın qırağındakı Şah Abbas məscidinin inşası vaxtı haqq-hesab işləri də ona tapşırılıbmış. Amma Mirzə Sədrəddin haqq-hesab sarıdan elə qorxaqmış ki, ondan sonra pul-para işlərinə bilmərrə yaxın düşməyib, çünki gəlir-çıxarında bir abbası oyan-buyan olanda gecələr yata bilmir, yeməkdən-içməkdən kəsilirmiş. Bəlkə elə ona görə, məscidin inşası başa çatandan sonra evinə çəkilib, cüzi haqq müqabilində namə, ərzi-hal, başqa cürbəcür şeylər yazmaqla məşğul olub. Atamqarışıq üç oğlu da çarvadar olmuşdu, amma əmilərimin ikisinin də taleyi gətirmədi: biri Alazan çayını keçəndə boğuldu, heç meyiti də tapılmadı, o biri namərd fitnəsinin qurbanı oldu: hallavarlı erməni tacirlər əlinin yaxşı gətirdiyini görüb ona tor qurmuşdular, atamın dediyinə görə, şirin dillə qonaq aparıb yeməyinə zəhər qatmışdılar, zavallı üççə günün içində gül kimi saralıb-solub canını Allaha tapşırmışdı. Hələ ağlım bir şey kəsməsə də, o vaxtdan atamın fikirli, qaşqabaqlı, kədərli olduğunu görürəm, *ocağımızı dağıdan məşum gecəyəcən* alnının qırışı açılmadı.

3. Anamı həmişə *zülmət içində nur topası* kimi xatırlayıram. O, beş-on ev o tərəfdə yaşayan sərrac Əhmədin yeganə övladıydı, necə deyərlər, atamın gözünün qabağında böyümüşdü, arada eşq-filan olmuşdumu, bunu deyə bilmərəm, amma evdə canbir

qəlbdə yola gedirdilər. Anamın gözəl qamətini, ağ yelənli örpəyini, adamın canına işləyən baxışlarını, sol yanağındakı dodaqlarına yaxın xalını xatırlayıram. Danışanda azacıq gülümsəməyi, atam səfərlərdə olanda gözlərinin yol çəkməyi, tez-tez eyvana çıxıb Şeytanbazar meydanına boylanmağı, Hallavar tərəfdən enən yola baxmağı yadımdadı. Gecələr otuzluq çırağın sısqa işığında yanımızda uzanıb başımızı sığallaya-sığallaya, arabir ah çəkə-çəkə nağıllar, rəvayətlər danışdığı gözlərim önündən getmir. Deyirdi, sən boynuma düşən il qonşuya gəzərgi aşıq gəlmişdi, deyəsən, Faxralı tərəflərdəndi, adına Aşıq Ömər deyirdilər, «Yusif və Züleyxa» dastanını elə gözəl danışıb-oxudu ki, atam dedi, oğlum olsa, adını Yusif, qızım olsa, Züleyxa qoyacam. Yusif adı mənim qismətimə düşdü, amma sən demə, aşağı məhəllədən çörəkçi Salman da bu arzudaymış, Züleyxa adı da məndən altı ay sonra dünyaya gələn qonşu qızının taleyinə yazıldı. Anam bunu sonralar danışanda «Adı biz verdik, qismətinizi Allah versin» deyirdi. Əlbəttə, qismət anamın əlində deyildi. Məndən dörd yaş böyük qardaşım Qəribin adını da atam özüylə Borçalıdan, hər dəfə yolu o tərəfə düşəndə görüşdüyü Yadigaroğlu Bağır bəyin ocağındakı dastan gecəsindən gətirmişdi. Təkcə bacıma nənəmin adı qismət olmuşdu, yatalaq Mirzə Sədrəddinlə nənəm Mələyi aparandan sonra atam çox sevdiyi anasının xatirəsini yaşatmağı vacib bilmişdi.

4. Məhəlləmiz cürbəcür qövmlərin ağlagəlməz qatışığıydı: türk, gürcü, çərkəz, kürd, erməni, avar, ləzgi, fars, aysor, minqrel… danışığını, demək olar, hər gün eşidirdik, amma ayrı-ayrı qövmlərə mənsub adamlar bir-birini türkcə dindirirdi. Yay günlərində tez-tez Qəriblə Şeytanbazar meydanına enir, misgər, dəmirçi, dabbağ, papaqçı, bəzzaz, dulusçu, sərrac, dərzi, xalçaçı, çörəkçi, şirniyyatçı, əttar... dükanlarına baxır, at, eşşək, qatır, arabayla keçib-gedənlərə tamaşa eləyir, alıb-satanların söhbətlərinə qulaq asırdıq. Hərdən Kürə tərəf enib çayın qırağında paltar yuyan qadınlara göz qoyduğumuz da olurdu, sonra anam bundan xəbər tutub o tərəfə hərlənməyi bizə qadağan elədi, dediyinə görə, suya çox yaxın gedəndə adamı çəkib aparar, amma güman ki, gözdən iraq yerdə yaşmaqsız, tumanlarının ətəyini bellərinəcən qaldırıb qıçlarını açığa qoyan qız-gəlinə

naməhrəm nəzərlərin baxmasını istəmirmiş – bunu ağlım bir qədər kəsəndən sonra anladım. Başlarındakı iri sinidə meyvə, şirniyyat, pendir, çoxlu cürbəcür şeylər satan, qollarından tərəzi asılmış, əllərində səbət olan kintolara baxmaq, arabaların çağından sallaşmaq, meyxanadan gələn saz, tar, kamança, rübab, ney, davul, çonquri... səslərinə qulaq asmaq, çayın bu tayındakı məscidə, o tayındakı qalaya, bir az uzaqdakı kilsəyə, yuxarıdakı Narınqala divarlarına tamaşa eləmək xoşuma gəlirdi. Bir dəfə Qəriblə qala divarlarına lap yaxın getdik, hətta qardaşım enli divarın üstünə də dırmaşdı, amma anam bundan xəbər tutanda ikimizə də qulaqburması verdi ki, oradakı pis ruhlar sizi çəkib aparar – görünür, yıxılıb əzilməyimizdən qorxurdu. Heç körpüdən Hallavar səmtinə keçməyə də izin vermirdi, Şah Abbas məscidindən o tərəfə keçməyi atam da qadağan eləmişdi.

5. Səhərin, günortanın, axşamın çatdığını məsciddən ucalan azan səsindən bilirdik. Xüsusilə, axşam azanı vaxtı eyvana çıxıb ilahi səsin dalğa-dalğa meydana, məhəllələrə, evlərə yayılmasını duymaq, qürub günəşi altında minbərdəki qara əbalı, ağ çalmalı azançının üzü Qibləyə durub, əllərini qulaqlarına aparıb necə şövqlə oxuduğuna baxmaq məni vəcdə gətirirdi. Məscidin ağ və göy kaşılarla dama-dama bəzədilmiş minarəsinə, yeddi dirəkli, məhəccərli minbərinə, minbərin örtüyü üzərində alov dili formasında qüllə üstündə üç girdə, qızılı rəngli lövhəni tamamlayan ayparaya, cüt qübbəsinə, məhəccərli eyvanına doya-doya baxırdım, hərdən mənə elə gəlirdi, minarədən Allahın yanına uzanan gözəgörünməz yol var. Atam səfərlərdə olmayanda cümə günləri namazını məsciddə qılırdı, hər dəfə də evə gözgörəti dincəlmiş, rahatlanmış qayıdırdı. Artıq Qərib də atamla namaza durmağa başlamışdı, üstəlik, atamın verdiyi haqq müqabilində həftədə üç dəfə axund Səməndərin yanına savad öyrənməyə gedirdi. O, Qurani-Şərifi höccələyə-höccələyə oxuyanda, kağıza yöndəmsiz hərflərlə anlamadığım sözlər cızanda sehrli aləmə tamaşa eləyən təki gözlərimi dodaqlarından, əllərindən çəkə bilmirdim. Atam deyirdi, yeddi yaşın olanda sən də gedib savad öyrənərsən, çarvadarlıq alnımıza yazılmayıb, istəmirəm ki, balalarım da mənim kimi yollarda pəsələng olsunlar; yola çıxırsan, deyirdi, bilmirsən başına nələr gələcək, qarşına kimlər çıxacaq, külfətini bir də

görəcəksən, ya yox; deyirdi, savad öyrənərsən, ya mirzə olub baban kimi rahat yaşayarsan, ya da sarayda mustoufi olub pul-para hesablayarsan. Atamın arzusuna onun yoxluğunda əməl elədim, saraylarda yaşadım, amma pul-para yox, *söz hesabıyla* məşğul oldum.

6. Həftədə bir dəfə anamla Şeytanbazar meydanındakı Sərin hamama enirdik. Anam fitə sərib bizi kisələyir, sabunlayır, çir-kimizi-pasımızı tökür, sonra özüylə məşğul olurdu. Biz də hamamın divarlarından qaynaya-qaynaya hovuza tökülən kükürdlü suya, lampaların zəif işıqlandırdığı salona, taxtların üstündə uzanıb saçlarını, dırnaqlarını boyadan, üzlərinə ənlik-kirşan çəkdirən qadınlara, bir-birinə su atıb zarafatlaşan qız-gəlinə baxırdıq. Biz ancaq üçtağlı salondakı ılıq sulu hovuzda çimirdik, böyüklər qaynar sulu axırıncı salona keçirdilər. Hamamdan çıxandan sonra canımızdakı kükürd qoxusu, az qala, növbəti həftəyəcən çəkilib getmirdi. Qardaşım beş yaşına keçəndə qadın hamamında çimməkdən məhrum oldu, mən də elə o yaşda eyni aqibətlə üzləşdim, daha bizi atam evdə olduğu günlərdə şəhər məliyi Eynalı bəyin təzəcə tikdirdiyi hamama aparırdı, onun səfəri çox çəkəndəsə, anam su qızdırıb evdəcə çimizdirirdi. Bəzən də əli gətirəndə atam bizi gəzməyə aparırdı. İki dəfə Qarpız meydanında qoç döyüşünə, bir dəfə xoruz döyüşünə, bir neçə dəfə də ilan və meymun oynadanlara tamaşa elədiyim yadımdadı. Bir dəfə də iki dəstənin bir-birinə xəncər çəkdiyini gördük: nə üstəsə sözləri çəp gəlmişdi. Amma ağaya oxşayan bazburudlu bir nəfər iki tərəfi də sakitləşdirdi, bununla belə, basılan qoçun yiyəsi bir göz qırpımında heyvanını yıxıb xəncəri boğazına çəkdi: «*Camaatın içində papağımı yerə soxan qoç mənə lazım deyil!*» – bunu elə qəzəblə elədi ki, qorxumdan qıçlarım tutuldu. Bir dəfə də çarın doğum günündə Çar bağına getməyimiz yadımdadı: bağdakı gözəl ağaclar, qalaya doğru qalxan pilləkən, bir də al-əlvan geyinmiş adamlar gözümün qabağındadı.

7. Yeddiyaşlı uşağın yadında atalı-analı günlərdən daha nə qala bilər?!. Qonşumuz çərkəz Şamilin təkbətək döyüşdə kürd Memonu qanına qəltan elədiyi yadımdadı; erməni Mamikonun evdə arvadını yad kişiylə tutub hönkür-hönkür ağladığı yadımdadı, gürcü İvanenin evinin yanması yadımdadı, mən doğulan-

dan bir il qabaq Tiflisə firəng səyyahın gəlməsi barədə danışılanlar *(deyirdilər, yaxşı şəkil də çəkirmiş)* yadımdadı, fars Mehranın türk qızı Səlmanın dərdindən dəli-divanə olub özünü Kürə atması yadımdadı, bir il bərk qıtlıq olub yaza çətinliklə çıxmağımız yadımdadı – amma bütün bunların təfərrüatlarına varmaq niyyətində deyiləm, qorxuram ömür möhlətim tükənər, söyləmək istədiklərim yarımçıq qalar. Bununla belə, anamın əndişələrini yenə xatırlatmalıyam: ərinin səfərlərə çıxması onu heç açmırdı, neçə dəfə eşitmişdim, atama deyirdi, əlindəkini-ovcundakını yığışdır, elə meydandanca dükan al, həm külfətinə yaxın olarsan, həm də ayağın yollardan çəkilər; atam da gülüb deyirdi, a sərrac qızı, bu bir azardı ki, hələm-hələm canımdan çıxmaz, *Allah yazan qisməti bəndə dəyişdirə bilməz, alnımıza nə yazılıbsa, o da olacaq.* Anam gözlərinin yaşını axıdanda atam ona ürək-dirək verirdi, Sonam, deyirdi, Allaha sığın, o gözəgörünməz məsləhət görübsə, dünyanın odu, seli, tufanı heç nə eləməz. Amma Sonası özünə rahatlıq tapmırdı, qar yağanda, yağış tökəndə, gün şaxıyanda eyvanın bir küncündə oturub gözlərini yollardan çəkmirdi. Ağladığını da görürdüm, amma bizim yanımızda üzə vurmamağa çalışırdı. Bəzən gecələr yatağından dik qalxıb səksəkə içində bayırı dinşədiyinin də şahidi olmuşdum.

Bu həqiqətmiş ki, *yalnız bir şeyi itirəndən sonra qədrini bilməyə başlayırıq, nəyəsə gecikəndə tələsirik, yalnız ölümü görəndə yaşamağı öyrənirik...*

# II

# DÖRD GÜN ƏVVƏLİN YUXUSU

***Yuxuyozan duşunda əlini Günəşə uzadıb dörd yuxa alan adama deyir:***
***– Get vəsiyyətini elə, ölümünə dörd gündən çox qalmayıb.***
***– Bunu nədən bildin? – kişi soruşur.***
***– Haqq-taala kəlamından dörd yuxa almağın ömründən cəmi dörd gün qalmasıdı.***

*Əbülfəzl Hübeyş TİFLİSİ,*
*«Kamili -təbir» (XII yüzil)*

8. Yeddi yaşım tamam olub qardaşımla axund yanına gedəndə bəlkə də dünyanın ən xoşbəxti olmuşdum. Atamla namaza durmaq bir yana, Axund Səməndərdən yazıb-oxumağı öyrənmək məndən ötrü yeni bir aləmin qapısını açmağıydı. Yadımdadı ki, hərfləri tanıyanda, höccələyə-höccələyə oxuyanda, hesablamağı öyrənəndə qardaşımın köməyilə doğum tariximi təxmini də olsa dəqiqləşdirdim: əgər bizim, az qala, yarım günlük haqq-hesabımızın, höcətləşib-dalaşmağımızın, barışıb-razılaşmağımızın nəticəsinə inansaq, həm də Axund Səməndərin dəqiqləşdirməsini qəbul eləsək (*dediyinə görə, firəng səyyahı Pyer dö Şardənin gəlişindən bir il sonraya düşür, o hicri 1085-ci ildə gəlibmiş*), hicri 1086-cı il Novruz bayramına on gün qalmış, yəni yazın əvvəlində doğulmuşdum. Yaxşı ki, sonralar Firəngistanda milad hesabını öyrənəndə bunun təxmini də olsa, 1673-cü il mart ayının onuna uyğun gəldiyini hesablayıb yadımda saxladım. Axundun yanına yeddi yaşıma bir-iki ay qalmış getmişdim, atam bunu elm-mərifət öyrənməyə marağımla izah eləyib, səxavət kisəsindən bir abbası vermişdi, qardaşımla özümüzü dərhal şirniyyat dükanına salmışdıq. Anam gözəl bir darbalaq tikib, dağarcıq tədarük eləmişdi, həmin dağarcığa mürəkkəb-qələmimi, kağızlarımı qoymalıydım.

Axundun yanına getdiyim birinci gün Tiflisə qar düşməsini də anam xeyirliyə yozdu, dedi, yazı-pozuda baxtım qar kimi ağ olacaq, ancaq gözəl şeylərdən yazacaqsan. Üstündən keçməyib deyim, anamın bəlkə də məğzinə varmadan dediyi o sözlər yaddaşımda özünə nə təhər yer tutmuşdusa, sonralar saraylarda yetərincə yüksək məqam təklif olunanda məhz həmin səbəbdən boyun qaçırmışdım. Bunu gözü-könlü toxluğumla bağlayanlar da olurdu, amma *əsl sirri* buydu: *mənim əlimlə nahaq fərmanlar yazılmasını istəmirdim.*

9. Yeddi yaşımdan, axund yanına getməkdən başqa yadımda nə qalıb – bəziləri elə bil dünən baş verib, bəzilərini duman içində yadıma salıram. Birincisi, əlbət ki, Novruz günlərinin birində anam, bir də bacımla aşağı məhəlləyə, çörəkçi Salmangilə getməyimdi. Salmanın arvadı anamın bibisi qızıydı, tez-tez də olmasa, gediş-gəlişimiz vardı. O gün nə səbəbdən məni özüylə apardı, bunu xatırlamıram, amma qapıdan girən kimi, nədənsə gözlərim yaşıdımı – Züleyxanı axtardı. Yazbaşının ılıq havasında Züleyxayla, bir yaş kiçik qardaşı İsmayılla, bir də bacım Mələklə həyətdə cürbəcür oyunlar oynadıq. Züleyxanın zərif vücudunu, iri qara gözlərini, şaqraq gülüşünü, işvəli baxışlarını onda yaddaşıma yazdım. Əlbəttə ki, buna ilk sevgi-filan kimi rəng vermək fikrində deyiləm, o hissə beş-altı il sonra gəlib çıxacaqdım, amma şübhəsiz, bizi bir-birimizə bağlayan gözəgörünməz nəsə vardı, özümüzdən xəbərsiz şəffaf tellərlə ətrafımızda tor qururdu. Qəfildən dayanır, gülümsəyə-gülümsəyə bir-birimizə baxırdıq, nəyə görə baxışdığımızı, təbii ki, dərk eləmirdik – hələ duyğularımızdan baş açası yaşda deyildik. Mənə elə gəlirdi, içimizdən nəsə qopub, aralanıb göylərdə birləşir, hələ unaya bilmədiyim şəklə düşür, nə vaxtsa özümüzə qayıdıb bizi hər şeydən agah eləyəcək. Bacım həmin məqamların birində təəccüblə bizə baxıb qaşlarını çatdı, zarafatla Züleyxanın qolundan dartıb dedi, ay qız, pişik kimi nə marıtlamısan uşağı, Züleyxa da qəfil ayıldı, yanaqlarına xəfif qızartı çökdü, cavab verdi ki, ayda-ildə bir kərə gəlirsiniz, ona görə. Öz-özlüyümdə belə məna çıxardım ki, Züleyxa məni tez-tez görmək istəyir. Əlbəttə, icazə versəydilər, bu evə gündə baş çəkərdim.

10. Bir də yayın ortalarında qonşuluğumuzdakı ikiqatlı, yaraşıqlı, gen-bol evə bir gürcü ağanın ailəsi köçdüyü yadımdadı. Ev yiyəsinin əsl adının Qriqol Eliqulaşvili olduğunu sonra öyrəndim, hamımız onu Görgü ağa kimi tanıyırdıq. Atam deyirdi, böyük adamdı, Xosrov Mirzənin (*çar Rostomu hamı belə çağırırmış*) sarayında qulluq eləyib, sonra şəhər məliyi Eynalı ağanın qulluğunda olub, indi Xoca Behbudun zərbxanasının gəlir-çıxar işlərinə baxır. Elə o gün də Görgü ağanın uşaqlarının – məndən beş-altı yaş böyük Davidin və Ketinonun – küləfrəngidə dayanıb şəhərə tamaşa elədiklərini gördük. Gözəl paltar geyinmişdilər, tox görünürdülər, amma elə bil hələ təzə yurdlarına alışmağın xiffətini çəkirdilər. Səhəri gün Görgü ağanın xanımı Rusudan bizə qonşu halallığı – sini dolu şirniyyat göndərdi. O günün axşamı da xəbər tutduq ki, uşaqların "Madam Qrenyö" çağırdıqları firəng mürəbbiyəsi var. Madam Qrenyö zərif vücudlu, ciddi, kədərli baxışları olan solğunbənizli xanım idi, nədənsə mənə elə gəlirdi, o cür kədərli gözlərin ürəktərpədən hekayəti olmalıdı. Üç gün sonra həmin evdə bir qadın da peyda oldu, anamın dediyinə görə, Dariya çağırdıqları qadın asyordu, külfətini itirəndən sonra kimsəsiz qalıb. Hər nəsə, Görgü ağanın ailəsi köçüb qonşuluğumuzda yerləşəndən sonra, elə bil məhəlləmizin havası da dəyişdi. Əlbəttə, Görgü ağanın uşaqları bizim kimi fürsət tapıb meydana, dükan-bazara qaçmırdılar, tez-tez üstüörtülü faytona minib harasa gedirdilər, evdə olandasa, ancaq madam Qrenyönün icazəsilə külafirəngiyə çıxır, ya da düşüb həyətdə vüqarla gəzişirdilər. Görgü ağa dilimizi yaxşı bilirdi, bir axşamüstü faytondan düşəndə məni yaxınlıqda görüb adımı soruşmuşdu, üstəlik, oxuyub-oxumadığımla maraqlanmışdı, mən də onun bu iltifatından çox razı qalmışdım. Amma sonralar dərk elədim ki, *həyatın nağıla çevrilməsinə mane olan üç şey var: biri zamandı, ona çatmaq olmur; ikincisi yalandı, onu unutmaq olmur; üçüncüsü də taledi, onu da dəyişmək olmur...*

11. O ilin payız günlərinin birində səfərdən dönən atamın ovqatı evimizdə çox şeyi dəyişdi. Atam bu dəfə bərk həyəcanlıydı, üzünün rəngi qaçmışdı, əllərinin titrədiyini, dodaqlarının dartındığını, gözlərinin qəzəblə alışıb-yandığını apaydın xatırlayıram. Anamın israrlı sorğu-sualına toxtaq cavab verməyə çalışsa da,

əndişəsini gizlədə bilmədiyi görünürdü. Deyəsən, mənim hələ dünyadan baş açmadığımı düşünüb yanımdaca başıma gələnləri danışdı: Bor çalıdan, Dəmirçihasanlıdan qayıdanda yolda qardaşının ömrünü bitirən namərdlərə rast gəlib, sözləri çəpləşib, atam üç nəfərlə təkbətək döyüşməli olub, xəncər zərbəsilə birini çiynindən yaralayıb, o birinin qulağını üzüb, üçüncüsü qaçıb aradan çıxa bilib. Bilirəm, deyirdi, əl çəkməyəcəklər, məni də aradan götürməyə çalışacaqlar, ona görə sərvaxt olmaq lazımdı. Anam da ağlar səslə əvvəl dilinə gətirdiklərinin üstünə qayıtdı, dedi, sənin başına bir iş gəlsə, mən üç tifillə neylərəm, gəl sözümü qəribliyə salma, olan-qalanını cəmlə, bu yaxında dükandan-filandan aç, yollardan yığış. Ata-baba yolundan əl çəkməyin atamdan ötrü nə qədər çətin olduğunu o vaxt anlamasam da, sonralar, özüm yollara düşəndə dərk elədim. Amma görünür, olub-keçənlər yetərincə ciddiydi, susdu, deyəsən, anamla razılaşdı, qəfildən danışıqlarını eşitdiyimin fərqinə vardı, mənə sarı dönüb uzun-uzadı üzümə baxdı. Bəlkə də o baxış bircə an çəkdi, bununla belə, aradan bu qədər müddət ötəndən sonra yadımda həmin məqamdakı görkəmində qalıb: əndişəli, üzgün, kədərli, bizi itirmək qorxusundan, az qala, çaşqın haləti Venesiya sarayında gördüyüm rəsmlər kimi gerçəkdi.

12. Səhəri hamıdan qabaq oyanıb bayıra çıxanda anamı eyvanımızda əli qoynunda durub ağlayan gördüm. Yəqin, göz yaşlarını görməyim deyə, tələm-tələsik örpəyinin ucuyla silib mənə ağartısatanı gözlədiyini söylədi. Şübhəsiz, dediyinə inanmadım, amma olub-keçənlərdən düz-əməlli baş çıxara bilmədiyimə görə susdum, bədənimdən keçən giziltini payız havasının sərinliyinə yozdum. Amma nagahan bir duyğu məni onun böyründən çəkilməyə qoymurdu, bunun da səbəbini atamın sorğulu baxışlarına cavab verəndə dərk elədim. Səsi qırıla-qırıla dedi, pis yuxu gördüm, gördüm ki, bardaqla bulaqdan su götürürəm, bu vaxt bardağa hardansa atılan qara daş dəyir, bardaq dörd parça olur. Eyvana açılan qapının arasından eşitdiyim o səsdən bədənimdə yenə bayaqkı gizilti dolaşdı, ancaq bu artıq payız havasıyla bağlı deyildi. Atam iri əlini anamın yanağına çəkdi, dedi, yuxunu xeyirliyə yoz, inşallah, yaxşı olar. Sonra dedi, çox götür-qoy elədim, belə qərara gəldim ki, sizin xətrinizə yollardan yığışma-

ğım məsləhətdi. Ardınca əlavə elədi ki, olan-qalanımı cəmləyib bir həftəyə neyləyə biləcəyimi deyərəm, bəlkə elə Meydanda qumaş dükanı açdım, tanış çarvadarlar Təbrizdən, Gəncədən, Bərdədən qumaş gətirirlər, satıb külfətimizi dolandıraram. Üzünü görməsəm də, anam, yəqin, azacıq rahatlanmışdı, bir qədər toxtaq səslə, Allah ağzından eşitsin, dedi, bu vaxt geri dönəndə nəzərləri qapının arasından mənə sataşdı. Sonrakı dörd gündə anamı dəfələrlə görsəm də, nədənsə yadımda eləcə, yarıaçıq qapının arasından baxdığı görkəmdə qalıb. Ardınca eyvana çıxdı, örpəyini düzəldib gözlərini gizləyə-gizləyə ağartısatanın gəlib-gəlmədiyini soruşdu, özü də aşağı boylandı.

13. Sonrakı dörd gündən yadımda açıq-aydın bir əhvalat qalmayıb, yaddaşıma hopan ancaq həmin anlaşılmaz duyğuyla bağlıydı. Atam hər gün Meydana enib tanış-bilişlə görüşür, fikrində tutduğunu gerçəkləşdirməyə çalışırdı. Qardaşımla axundun yanından qayıdandan sonra eyvandakı balaca taxtda oturub yazdığımızı oxuyub-əzbərləyir, arabir Görgü ağanın külafirəngisinə baxırdıq. Davidlə Ketino günün dəqiq vaxtlarında görünürdülər, mürəbbiyələri də mütləq yanlarında olur, tez-tez anlamadığımız firəng dilində onlara nəsə deyirdi. Qalan vaxtlar qulluqçu qadın Dariya görünür, xalça-palaz çırpırdı. Gündə bir neçə dəfə də tanış kintoların evə meyvə, ağartı, çərəz, çörək gətirdiklərini görürdük. O tutqun günlərin ağırlığı, elə bil, canımıza hopmuşdu, nə Meydana enməyə həvəsimiz vardı, nə də Mələyin oxuduqlarımız barədə suallarına cavab verməyə. Eləcə taxtın üstündən Şah Abbas məscidinin ayparalı minarəsinə, Narınqalanın bəzi yerləri uçmuş divarlarına, çayın bulanıq suyuna, Hallavar yoluna, Metex qalasına baxır, axşamın düşməyini gözləyirdik. Elə bil nəsə ağır bir şey duyğularımıza çökür, şəffaf olduğu qədər də qatı hava evimizin havasına qarışırdı. Anam da işi olmayanda əlini qoynuna qoyub eyvandan aşağı baxırdı, bir neçə kərə qorxu içində əllərini qoynundan çəkib qoymağa yer tapmadığını sezmişdim. Atam özünü dik saxlamağa çalışsa da, oturaq həyatın ona nə qədər ağır başa gəldiyini duyurdum. Əlbəttə, o məqamlarla bağlı təfərrüatları sonralar Görgü ağanın himayəsində olanda da, firəng macəraçısına qoşulub Firəngistana gedəndə də, pansion deyilən yerdə ömrümün on ilini keçirəndə də, yolları əriş-arğac

eləyəndə də dönə-dönə yaşayıb, hətta xırda-para qeydlər aparmışdım, ona görə belə, az-çox yerli-yataqlı danışıram.

14. O məşum gecədə yerimdən dik atılanda əvvəl elə bildim, göy guruldayır. Sonra atamın "Namərdlər!" bağırdığını eşitdim. Ardınca pəncərəmiz işıqlandı, deyəsən, alova oxşayırdı. Bir an sonra anamın fəryadını eşitdik. Qəriblə Mələk qorxudan qıc olmuş halda yerə çökmüşdülər, aradabir boğuq iniltiləri gəlirdi. Necə qaçıb eyvana çıxdığım yadımda deyil. Atamı pilləkənin üstünə yıxılmış gördüm, anam da onu qucaqlayıb qaldırmağa çalışa-çalışa fəryad qoparırdı. Aşağıda iki nəfər dayanmışdı, cumub anamın qollarından yapışdılar, həmin anda birinin bağırtısı eşidildi, görünür, zavallı anam o qansızın əlindən qurtulmaq üçün əlini dişləmişdi. O biri qulaylanıb xəncəri anamın kürəyinə saplayanda get-gedə böyüyən yanğının ziyasında çaqqal kimi parıldayan gözlərini, sağ qulağının yerinə bağlı əski parçasını gördüm. Bilmirəm, niyə özümü anamın üstünə atmadım, sonralar ağlım kəsəndə özümə bu sualı çox verdim, amma dəqiq cavab tapa bilmədim, görünür, əsl səbəb həmin məqamda hisslərimin qıc olmasıyla bağlıydı. Qulağıkəsik xəncəri geri çəkəndə məni gördü, çaqqal sifətindən ürəkbulandıran həzz dalğası keçdi. O pilləkənə cumanda mən eyvandan aşırılıb dirəklə aşağı sürüşdüm, pilləkənin arxa tərəfindəki çəlləyin dalına sindim. Bir an sonra bacımın bədəni başımın üstündən keçib bir neçə addımlıqdakı uçurumda yox oldu. Sonra eyvanda qardaşımın qısa qışqırtısını eşitdim. Ardınca ayaq səsləri gəldi, Görgü ağanın evi tərəfdən səs-küy eşidildi, evimizi söndürməyə çalışan adamların harayı qaçanların dalınca düşənlərin bağırtılarına qarışdı. Başımın üstündə eyvanın döşəməsi od tutanda yerimdən tərpəndim. Bu vaxt qolumdan kimsə yapışdı. Əl sahibinin Görgü ağa olduğunu dərhal anışdıra bilmədim. Sonralar fikirləşdim ki, *görünür, Allah adama istədiyi adamları yox, ehtiyacı olan adamları verir; o adamlar sizi sevir, həyatın dolanbaclarından keçirir, ömür yolunu müəyyənləşdirirlər...*

# III

# ALLAHIN HİFZİ

***Bu bəlanı mənə Allah özü göndərdi, fəqət,***
***Özü də hifz eləyər, etsə bəladan, əlbət.***

***Musa ŞƏHƏVAT***
***(VIII yüzil)***

15. Görgü ağanın hələ gözəlliyini, dəbdəbəsini duya bilmədiyim böyük salonunda buxarının qabağına uzadılanda, Rusudan xanımın qulluqçu Dariyaya öz dilimizdə *«su gətir, tifil yaman qorxub»* deyəndə fərqinə vardım ki, yatağımdan dik atılandan indiyəcən nə qışqırmışam, nə ağlamışam, eləcə qax-qurut olub qalmışam. Bu müddət nə qədər çəkmişdi, bir namaz vaxtı boydamı, axundun dərsi qədərmi, bilmirəm, hisslərim qıc olmuşdu, gözlərimin qabağındakıları tanıyırdım, amma dərk eləmirdim, dediklərini eşidirdim, bununla belə, mənə aid olduğunu tam qavramırdım. Artıq ikigözlü yarıtaxta evimiz tamam yanandan, Görgü ağa qayıdandan sonra nələr baş verdiyi aydın oldu. Görgü ağa yatdığımı zənn eləyib yarıpıçıltıyla arvadına, yəqin, bir də qulluqçuya deyirdi, xatakarlar iki nəfərmiş, rəhmətliklə *(bu şübhəsiz, atama aiddi*) çəkişmələri varmış, qaçıb aradan çıxdılar; sonra əlavə elədi ki, meyitləri *(bunlar da anama, qardaşıma, bacıma aiddi)* məscidə göndərtdim, sabah günorta namazından sonra müsəlman qəbiristanlığında dəfn eləyirik. Bəs bu tifil nolacaq, Dariya soruşdu, Görgü ağa da dedi, bir çarə taparıq, yaxın qohumu-filanı olmasa, elə bilərəm, üç övladım var, qalar burda. Sonra Rusudan xanım Dariyaya dedi, sən uşağın yanında yat, gecə oyanıb qorxar. Az sonra Dariyanın nəfəsini boynumda hiss eləyəndə gözlərimin çeşməsi qaynadı-qaynadı, üzüaşağı axdı, amma səsim çıxmadı. Dariya nəsə duyub elə qaranlıqdaca əlini yanağıma çəkdi, sonra başımı sinəsinə sıxdı, deyəsən, mənim müsibətimə o da ağlayırdı. Amma hələ tamam anlamadığım bir

şey vardı: Allah özü göndərdiyi bəladan məni niyə hifz elədi? Bunu uzun-uzun illər dönə-dönə fikirləşəcəkdim, sualın cavabınısa çox-çox sonralar, ömrüm qüruba əyiləndə dərk eləyəcəkdim. Bəs o, *yeganə cavab* idimi – bilmirəm…

16. Səhəri gün məni nəinki bayıra, heç eyvana da çıxmağa qoymadılar. Bu, Dariyaya tapşırılmışdı, o da buyruğu yerinə yetirmək üçün bütün bacarığını ortaya qoydu, hətta madam Qrenyönün dərs saatından sonra Rusudan xanım Davidlə Ketinonu çağırıb mənimlə tanış elədi. Onların ağlı bir qədər çox kəsirdi, fəlakətin miqyasını məndən yaxşı qavrayırdılar, bu səbəbdən qarşılarındakı zavallıya – mənə *sudan çıxarılmış pişik balasına* göz qoyan kimi, mərhəmətlə baxırdılar. Dariyanın geyindirdiyi, yəqin ki, artıq Davidin əyninə gəlməyən təmiz paltarda buxarının böyrünə qısılmışdım, elə bilirdilər, qaçmağa fürsət axtarıram, amma getməyə yerim vardımı, bunu ağlıma gətirə bilmirdim. Səhər Dariya zorla bir-iki tikə yedirtmişdi, günorta da boğazımdan nəsə ötürənəcən xeyli əziyyət çəkdi. Görgü ağanın böyük evini də indi-indi qavramağa başlamışdım. Evin alt qatında mətbəx, Dariyanın otağı, anbar, bir də nəsə başqa bir otaq vardı. İç pilləkənlə ikinci qata çıxanda böyük salon qonaq otağı, Görgü ağayla Rusudan xanımın, Davidin, Ketinonun, bir də mürəbbiyənin otaqları vardı. Hələ təkcə qonaq otağındakı müxəlləfatı görmüşdüm, o vaxt gördüklərimi, təbii ki, sözlə ifadə eləyəcək halda deyildim, bircə onu deyim, o yaşımacan belə şeylər görməmişdim, elə bil kasıb evimizdən çıxıb nağıllardakı şah saraylarına düşmüşdüm. Hündür tavan, tağlı pəncərələr, tül pərdələr, tünd qırmızı ağacdan şkaflar, iri bədənnüma güzgü, zəngli saat, gümüş şamdanlar, salonun ortasında uzun masa, yerdə, divarlarda gözəl xalı-xalçalar, divar diblərində yumşaq kreslolar… indi də gözlərimin qabağındadı. Bir divardan da xalçanın üstündən xəncərlər, qılınclar, bir tüfəng asılmışdı; tüfəngi Çar bağında gəzəndə atam göstərmişdi, amma nəyə yaradığını hələ dərk eləmirdim.

17. Axşama yaxın qulluqçu Dariya məni otağına apardı. İçəri girəndə Züleyxanın anası Rusxara xalanı gördüm. Başımı sinəsinə sıxdı, gözlərini bir yumub min tökdü, tifil balam, dedi, bu nə müsibətdi, başımıza gəldi, Allah sizə əl qaldıranları

cəzasına çatdırsın. Görünür, məndən qabaq nəsə danışmışdılar, görüm, Görgü ağanı min budaq olsun, dedi, kimsəsizə yiyə durmağının əvəzini Gözəgörünməz qat-qat artıq verəcək. Sonra, ürəyin istəyəndə, qapımız üzünə həmişə açıqdı, oğlum, əlavə elədi, Görgü ağa belə məsləhət bilibsə, mənim sözüm yoxdu. Elə alxış eləyə-eləyə də çıxıb getdi. Həmin axşamda Dariya xalanın otağında mənə yer hazırladılar, geyim-kecim tədarük elədilər. Şübhəsiz, bu məndən ötrü daha məqbul idi, əvvəla, evin üst qatındakı zənginlik məni sıxırdı, kasıb evimizdən çıxıb dərhal o şıqlığa, dəbdəbəyə alışmağım çətiniydi, ikincisi, daha vacibi yanımda anamı xatırladan kimsənin olmasına ehtiyacım vardı, elə bil yerdəki nizamın gözəgörünməz sahibi ehtiyacımı nəzərə alıb hifz eləyən mələk kimi aysor Dariyanı göndərmişdi. Axşam yeməyindən qabaq Görgü ağa başımı sığalladı, oğlum, dedi, qəzavü-qədərdən qaçmaq bizim əlimizdə deyil, bundan sonra ailəmizin bir üzvüsən, Allah qoysa, əlin çörəyə çatar, evinizin yerində daha yaxşı ev tikərsən, böyüdükcə yaraların qaysaqlanacaq, hər şey yoluna düşəcək. Amma masa arxasında sıxılırdım, gözaltı Davidlə Ketinonun necə çəngəl-bıçaq işlətdiklərinə baxa-baxa boğazım kilidlənirdi. Deyəsən, bunu Görgü ağayla xanımı da duydular, o gündən sonra yeməyimi iri salonda yox, elə öz otağımızda Dariya xalayla yeyirdim, üst qata ancaq ehtiyac olanda, məclis-filan qurulanda qalxırdım. Bunun Dariya xalaya daha çox xoş gəldiyini duyurdum, görünür, Görgü ağanın evində qalmağımın əsas səbəbkarı da elə o idi.

18. Evimizin halını dəfn gününün səhəri gördüm, ayaqlarım məni Görgü ağanın evinin yüz addımlığındakı o xarabalığa aparıb çıxardı. Ev deyilən şeydən dörd yarıyanmış divar, kösövə dönmüş dörd dirək, nə olduğunu anışdıra bilmədiyim qaralmış dəmir parçaları, hislənmiş çay daşları qalmışdı. Yerə çöküb uzun-uzadı xarabalığa baxdım, atamın əndişəli üzünü, anamın yaşlı gözlərini, bacımın fəryadını, qardaşımın qışqırtısını, bir də çaqqal gözlərinin parıltısını, kəsik qulağın yerinə sarınmış əski parçasını xatırladım. Ağlamaq, qışqırmaq, özümü xarabalığa atmaq istəyirdim, amma nə gözlərimdən yaş gəlir, nə səsim çıxırdı, təkcə içimdə boğuq inilti duyurdum. Sonra eləcə çöməldiyim yerdən aşağı, Meydana baxdım: orda heç nə dəyişməmişdi, bir

ailənin dağılması, dörd nəfərin qanına qəltan edilməsi, mənim kimsəsiz itkin qalmağım o qələbəliyin halına təfavüt eləməmişdi, yenə dükanlar, meyxanalar, hamamlar açıq idi, cürbəcür səslər eşidilir, yüklü-yüksüz atlar, dəvələr, eşşəklər, qatırlar, at və öküz arabaları gedib-gəlir, kintolar başlarındakı iri sinilərə yığdıqları malları satmaq üçün qışqırışırdılar. Beləcə, nə qədər durduğumu bilmirəm, çiynimə əl toxunanda dönüb baxdım. Dariya xalaydı, gözlərinin nəmindən ağladığını duydum, qalx, oğlum, dedi, olacağa çarə yoxdu, bu dünyada dərdli təkcə sən deyilsən, hər kəsin özünə görə dərdi var. O gecə də mənə – yeddi yaşlı uşağa öz hekayətini danışdı. Dağlıların kəndlərinə basqınında ailəsini itirmişdi, özü əsir aparılıb bir müddət dağlarda saxlanmışdı, sonra elə əsir götürən də onu özünə arvad eləmişdi, amma Dariya günlərin birində qaçıb Tiflisə yetişməyi bacarmış, tale onu Görgü ağaya rast gətirmişdi.

19. Görgü ağanın evində qəribə nizam vardı: qulluqçuyla türkcə, öz aralarında gürcücə, Madam Qrenyöylə kələ-kötür firəng dilində danışırdılar; Davidlə Ketino mürəbbiyəylə, həm də öz aralarında firəngcə, ata-analarıyla gürcücə anlaşırdılar; üstəlik, madam Qrenyönün dediyi David və Ketinodan ötrü qanun idi, onun buyruqlarına sözsüz-sovsuz əməl eləyirdilər; bütün günü böyük salondan mürəbbiyənin hökmlü səsi eşidilirdi, uşaqlar nəyisə oxuyur, əzbərləyir, gözəl yerimək, zərif danışmaq öyrənir, həftədə bir kərə onunla gəzməyə çıxırdılar. Adını bilmədiyim bu daim ciddi, kədərli olan qadının hələ harda yerləşdiyini təsəvvür belə eləyə bilmədiyim uzaq Firəngistandan bura nəyə görə gəldiyi mənə qaranlıq idi. Davidlə Ketino dincələndə, ya tapşırıqları yerinə yetirəndə onu kresloda oturub kitab oxuyan, ya da küləfrəngidən şəhərə baxan görürdüm. Axund Səməndərdəki əl yazısı Quran-i Şərifdən sonra basma kitabı ilk dəfə Madam Qrenyönün əlində görmüşdüm, bir qarış eni, iki qarış uzunluğu, dörd barmaq da qalınlığı olardı, qurğuşun qoxusu verirdi. O günlərdə ən böyük arzularımdan biri Madam Qrenyönün kitabını əlimə götürmək, vərəqlərini çevirmək, orda nə yazıldığından xəbər tutmaq idi. Bəlkə də Axund Səməndərin yanında dərsimə davam eləmək istəyimə elə o kitab təkan verdi. Dariya xala da məndən xəbərsiz ürəyimi oxuyub Görgü ağayla danışıbmış, deyibmiş,

getsə yaxşıdı, başı qarışar. Səhəri gündən Dariya xalanın tikdiyi dağarcığı götürüb məscidə üz tutur, hər dəfə evimizin xarabalığının yanından keçəndə ata-anamın, qardaş-bacımın fəryadlarını eşitməmək üçün addımlarımı yeyinlədirdim. Bir müddət sonra Görgü ağa hərdən Meydana enməyimə, məhəllə uşaqlayırla oynamağıma da icazə verdi, görünür, məni bu vaxtacan alışdığım mühitdən ayırmaq istəmirdi.

20. Yayda üç aylığa Görgü ağanın Qocordakı yaylaq evinə gedirdik. Hazırlıq işləri yazın axırında başlanırdı, yaylağa aparılası şeylər seçilib-qablaşdırılırdı. Görgü ağa yay müddətində evə baxmaq üçün uzaq qohumunu gətirdir, sonra ailəsilə faytonda, Dariya xalayla mənsə müxəlləfat yüklənmiş öküz arabasında yola düzəlir, Meydandan üzüyuxarı qalxır, Qocor qapısından keçib yaylağa doğru üz tuturduq. Yolda bulaq başında dincəlib çörək yeməyimiz, gül-çiçəyin ətrindən bihuş olmağımız yadımdadı. Gün əyiləndə Koroğlu qalasından bir az aşağıdakı yastanada birqatlı, üçotaqlı evə çatırdıq. Dərhal evə baxan, Görgü ağanın Kişi çağırdığı Təhməz külfətilə tökülüb hər şeyi yerbəyer eləyir, öküz arabasıyla yaxınlıqdakı Təhlə kəndinə gedirdilər. Sonra Təhməz həftədə iki dəfə gəlib göy-göyərti, ağartı, meyvə-filan gətirirdi. Yay müddətində Təhməzin həyətin bir tərəfindəki təkgözlü balaca otağına, daha doğrusu, keçə alaçığına Dariya xalayla mən yerləşirdim. Madam Qrenyö dərslərini qonaq otağında davam etdirir, elə ordaca yatıb-dururdu. Yaylaq vaxtı da Davidlə Ketino mürəbbiyənin dediyindən çıxa bilmirdilər. Mənsə azad quşdum, Dariya xalaya xəbər verib istədiyim yerə gedir, hətta qalaya belə dırmaşırdım. Sıldırım qayanın üstündə dikələn qayaya dolama cığırla qalxır, yarıuçuq divarların üstündən vadiyə, çaya, qoyun, mal sürülərinə, ilxılara, burula-burula gedən yollara baxırdım. Davidlə Ketino hərdən yanlarında madam Qrenyö qalaya yaxın gəlir, mənim divar üstündə durmağıma qorxuyla, bir az da heyranlıqla baxırdılar. Əlbəttə, mürəbbiyənin qadağası olmasaydı, yanıma dırmaşmaq istəyərdilər. Həftənin bir neçə gününü şəhərdə olan Görgü ağa və Rusudan xanım yaylaqdakı tanış-bilişlərinə qonaq gedir, ya da onları qonaq çağırırdılar.

21. Ömrümün yeddi ili də bu düzənlə keçdi: axund Səməndərin yanında dərsimi başa vurdum, heç özüm də hiss eləmədən gür-

cü dilini əməlli-başlı öyrəndim, üstəlik, firəngcəni də ala-babat mənimsədim. Madam Qrenyönün dediklərini anlayır, dindirəndə öz dilində cavab verirdim, bundan da çox xoşhal olurdu. Artıq böyüyürdüm, Dariya xala öz taxtıyla mənim yatağımın arasına pərdə çəkməli oldu. Günlərin birində Ruxsara xalayla müsəlman qəbiristanlığına, doğmalarımın qəbrinin üstünə də getdim. Dörd qəbir, dörd xırdaca təpəcik, dörd ağac başdaşıydı, heç başdaşılarında adları da yox idi, yəqin, bir vaxt itib gedəcəkdilər. Bayram günlərində, ya da bir bəhanəm olanda Ruxsara xalagilə gedirdim, Züleyxanı görmək, beş-on kəlmə danışmaq məndən ötrü dünyanın ağlagəlməz xoşbəxtliyiydi. Həddi-büluğa çatmışdı, necə deyərlər, qızlar bulağından su içən vaxtıydı. Duyurdum ki, daha aramızda əvvəlki uşaqsayağı ünsiyyət yoxdu, yerini anlaşılmaz istəyin yönləndirdiyi utancaq, çəkingən, həyəcanlı münasibət tutur. Bəzən baxışlarımız toqquşurdu, oğurluq üstündə tutulmuş kimi qızarırdıq. Görünür, Ruxsara xala qadın sövqi-təbiiylə nəsə duymuşdu, ola bilsin, öz-özlüyündə Allahın bu işindən razıydı. Elə o vaxt Şamaxıya, Bərdəyə, İrəvana, ya da Təbrizə mədrəsədə oxumağa getmək barədə Görgü ağayla söhbət eləmək fikrindəydim. Bu yeddi il ərzində ondan da, xanımından da, övladlarından da insani münasibət görmüşdüm, bilirdim ki, mənə doğru-dürüst məsləhət verəcək. Əlbəttə, təhsilimin xərci birinci çətin məsələydi, bu Görgü ağanın qərarından asılı olacaqdı. Amma namərdlərin basqını kimi qəfil bir hadisə bütün həyatımı dəyişdirməyə bəs elədi.

*Hicri 1100-cü, miladi 1687-ci ilin yaz günlərinin birində, daha dəqiq desəm, Novruz bayramında bir neçə həftə sonra hər şey başayaq oldu…*

# IV

# AH, BU JOZEF QRENYÖ…

*Sən səni əfv elə qarşında belə təqsir üçün,*
*Mən səni fərmanına böylə əməl eyləyirəm.*

***Xətib TƏBRİZİ***
***(XI yüzil)***

22. Axır illər mənə nəvazişlə "İosif" deyirdilər, Görgü ağanın buyruğu, Rusudan xanımın göstərişi, Dariya xalanın xahişi-filanı olmadan evin zəruri işlərini görməyə başlamışdım: məsələn, tanış kintoları görüb ağanın evinə nədən, nə qədər, nə vaxta lazım olduğunu, hamama enib ağanın, xanımın, ya da madam Qrenyönün, Davidin, Ketinonun nə vaxt çimməyə gələcəklərini çatdırırdım, qohumlarının, tanış-bilişlərinin evinə gedib, nə vaxta qonaq çağırıldıqlarını yetirirdim, yaxud madam Qrenyönün namələrini Seyidabad tərəfdəki çapara verirdim. Unutmamış deyim ki, o namələr Parisə, sonrasa cürbəcür şəhərlərdəki Jozef Qrenyö adlı şəxsə yazılırdı, hələ o adamın qardaşı, yoxsa sevgilisi olduğunu bilmirdim, heç onu da bilmirdim ki, həmin kimsə hər şəhərdə yaşayan bir Jozefdi, yoxsa eyni Jozefdi ki, düşüb şəhərbəşəhər gəzir. Səhv elmirəmsə, axırıncı naməsini Dərbəndə yazmışdı, əgər dünyanın düzənindən bir az başım çıxırdısa, get-gedə Tifisə yaxınlaşırdı, günlərin birində Görgü ağanın evində peyda olsaydı, heç təəccüblənməzdim. Bir sözlə, üstümə düşən işləri görməkdən həzz alırdım, bu həm itkilərimlə bağlı ağrılarımın dinməsinə yardım göstərirdi, həm də özümü az-çox rahat hiss eləyə bilirdim. Görgü ağa da, Rusudan xanım da, uşaqlar da, elə madam Qrenyö, Dariya xala da mənə xidmətçi kimi yox, evin adamı, ailənin kiçiyi kimi yanaşırdılar, nə gizlədim, bu da xoşuma gəlirdi. Hətta axır illər madam Qrenyö dərslərinə qatılmağıma izin verirdi, mən də bir küncdə oturub onun zərif vü-

cuduna, incə hərəkətlərinə göz qoyur, gözlərinin kədəri barədə düşünürdüm. Bəzən mənimlə ayrıca məşğul olur, söylədiklərinin mənasını hərəkətlərlə başa salır, sözlərin düzgün tələffüzünə diqqət yetirirdi. Onun sayəsində firəng əlifbasını öyrənmişdim, üstəlik, arzuladığım o kitabı əlimə götürüb vərəqlərini çevirmişdim.

23. O günün ərəfəsində evdə qonaq olacağının, həm də bir müddət qalacağının əlamətlərini görülən hazırlıqdan duydum. Davidin otağında dəyişiklik eləyib bir çarpayı yerləşdirdilər, məni cürbəcür şeylər sifarişlər vermək üçün göndərdilər. Axırıncı tapşırıqlarını yerinə yetirib qayıdanda Görgü ağanın evinə qalxan yoxuşda – evimizin xarabalığının bərabərində qazalaqla rastlaşdım. Çərkəz paltarındakı kişinin yanında qəribə geyimli bir adam əyləşmişdi, başında tərsinə çevrilmiş, amma kənarları enli mis qazana oxşayan papaq vardı, üzü tüksüz idi, göy gözləri parıldayır, papağının altından sarışın saçları görünürdü. Nədənsə addımlarımı yavaşıtdım. Qazalaq Görgü ağanın qapısına çatanda həmin adam çevik hərəkətlə yerə atıldı, bu vaxt məni görüb gülümsədi, firəngcə «Müsyö Qriqolun evi budurmu?» – soruşdu, görünür, Qriqol ağanın adını çəkməyimdən kimi axtardığını anlayacağımı düşünmüşdü. Mən də gələnin gözlədiyimiz qonaq olduğunu duyub, «Bəli, müsyö, – dedim, – düz gəlmisiniz». O, firəngcə cavabımı eşidib duruxdu, nəsə demək istədi, amma demədi, əllərini uşaqsayağı qaldırıb «Kolett» Kolett!» qışqıra-qışqıra *(sonra öyrəndim ki, madam Qrenyönün adı Nikoletta imiş)* evə doğru getdi. Səsə əvvəlcə Dariya xala, ardınca madam Qrenyö çıxdı. Madam Qrenyö elə pilləkəndəcə ucadan «Ah, əzizim Jozef, axır ki, gəlib çıxdın!» səsləndi, qaçıb özünü qonağın qolları arasına atdı. Sonra pilləkəndə Rusudan xanım, ardınca Davidlə Ketino göründülər, hamı dayanıb onların görüşünə tamaşa elədi. Madam Qrenyönün gözləri yaşarmışdı, «Ah, Jozef, – deyirdi, – haralarda itib-batmısan, on ildi, hey yollara baxıram ki, gələcəksən». Sonra qonaq papağını çıxardı, Rusudan xanıma, Davidə, Ketinoya, Dariyaya bir-bir baş əydi, dəvəti qəbul eləyib evin üst qatına çıxdı. Mən də qazalaq yiyəsinin köməyilə onun iri sandığını evə apardım.

24. Olub-keçənin məğzini Dariya xaladan öyrəndim. Bu Jozef

deyilən qonaq madam Qrenyönün qardaşıymış, bir növ səyyah kimi bir şeymiş. Qrenyölər Tiflisə on il qabaq gəliblərmiş, Madam Qrenyö Görgü ağanın evində uşaqların mürəbbiyəsi kimi qalandan sonra qardaşı səfərinə davam eləyib, indi Davidin oxumaq üçün Firəngistana getmək məsələsi var, deyəsən, Görgü ağa artıq razılığını verib, mürəbbiyə də qardaşını bura ona görə çağırıb. Əlbəttə, Dariya xalanın dediklərində madam Qrenyönün gözlərindəki kədərlə bağlı bir şey yox idi, amma başlıca mətləb aydın olmuşdu. Dərhal Şamaxıya, Bərdəyə, Ərdəbilə, yaxud Təbrizə mədrəsədə oxumağa getmək istəyim içimdə yeni qüvvəylə baş qaldırdı, amma hiss elədim ki, *o duyğuya hələ anışdıra bilmədiyim nəsə qarışır, istəyimin yönü dəyişir*. Axşam Görgü ağa qulluqdan qayıdandan sonra qonaq otağında ziyafət süfrəsində əyləşmişdilər, ağa məni də çağırtdırdı, həyəcandan əsə-əsə Davidin yanında əyləşməli oldum. Daha çox qonaq danışırdı, gördüyü yerlərdən, gəmilərlə, atlarla, arabalarla getdiyi yollardan, gəzdiyi çoxlu şəhərlərdən elə vəcdlə söz açırdı, hamı qulaq asmalı olurdu. Davidlə Ketino onun danışdıqlarını gürcücəyə çevirirdilər, mən tam anlamasam da müsyö Jozefin haralardan, nələrdən söz açdığını başa düşürdüm. Axırda qonaq gəminin Batum limanından iki həftə sonra çıxacağını, bu barədə elə bu səhər Tiflisə girəndə xəbər tutduğunu, Kolettlə Davidin yola hazırlaşmalı olduğunu söylədi. Həmin məqamda Davidə paxıllıq yox, həsəd hissilə baxdım: gedib dünyanı görəcək, Firəngistanda oxuyacaq, böyük adam olacaqdı. Bəs mən, heç olmasa, Şamaxıya gedib çıxa biləcəkdimmi? Şübhəsiz, həmin gecə gözümə yuxu getmədi.

25. Dariya xala halımdan xəbər tutmuşdu, səhər dedi, Davidin Firəngistanda oxumağının mənasını başa düşmür; tutaq ki, firəngcə oxudu, deyirdi, Tiflisdə oxuduğu nə işə yarayacaq, yox, əgər oxuyub Firəngistanda qalacaqsa, bunun Görgü ağaya nə faydası var? Əlbəttə, bütün bunlar mənə də aydın deyildi, amma o məqamda fayda-filan fikirləşəsi halda da deyildim, başlıcası içində olduğum aləmin hüdudlarından qırağa çıxmaq, görmədiyim yerləri görmək, tanımadığım adamları tanımaq, qanımdakı çarvadar ehtirasını təmin eləməkdi. Görünür, bu müsyö Jozef Qrenyö gəlib çıxmasaydı, David Firəngistana getməsəydi

də, *mən qulaqlarımı yolların çağırışına qapamayacaqdım.* Bu halımda heç Züleyxanı da düşünə bilmirdim: yaxşı ki, hələ söz verib, söz almamışdım, ancaq gözlərimiz danışmışdı, Şamaxıya, Bərdəyə, Ərdəbilə, yaxud Təbrizə getsəydim, Züleyxanın məni gözləyib-gözləməyəcəyini bilmirdim. Əgər Tiflisdə qalıb yaşamalı olsaydım, yəqin, qismətimə baqqallıq, mirzəlik, uzaqbaşı, Görgü ağanın qulluq elədiyi zərbxanada babat bir iş düşə bilərdi. Amma bu cür oturaq işlərin mənlik olmadığına əmindim, *mütləq yolların ağrı-acısını duymalıydım.* O gecə də yuxumda qəribə yolayrıcı gördüm: var gücümlə həmin yolayrıcına doğru qaçırdım, amma tanımadığım adamlar qollarımdan dartıb məni ora çatmağa qoymurdular, mən də çırpınırdım, qollarımdan yapışanları itələyirdim, onlardan birinin də Züleyxa olduğunu görürdüm; Züleyxa qəfildən göyərçin olub havaya qalxır, məndən uzaqlaşırdı. Dik atılıb yatağımda oturanda Dariya xalanın pərdəni aralayıb mənə baxdığını gördüm. Bir söz demədi, başını bulayıb köksünü ötürdü, sonra dilləndi: «*Səni də yol çəkir, oğul…*»

26. Görünür, müsyö Jozef ona firəngcə cavab verən, ziyafət vaxtı dinməzcə qulaq asan oğlanı, yəni məni qəfildən xatırlayıb bacısından sorğu-sual eləmişdi, səhəri gün günorta yeməyindən sonra yanına çağırdı, mehriban görkəmlə dedi, hə, dostum, bəlkə mənə şəhəri gəzdirəsən, görüm bu on ildə nə dəyişib, istəyini anlayıb-anlamağımı bilmək üçün zənlə üzümə baxdı. Dedim, mənimçün də çox xoş olar, müsyö, nə vaxt istəsəniz, qulluğunuzda hazıram. Müsyö Jozef firəngcə dediyimdə, deyəsən, bir səhv tutdu, amma heyrətini üz-gözündən oxudum. Durub papağını başına qoydu, əsasını götürdü, aşağı enib Meydana doğru getdik. Qonaq əsasını fırlaya-fırlaya ətrafına maraqla baxır, aradabir nəsə, məsələn, camaatın ilin bu vaxtınacan meyvəni necə saxladıqlarını soruşurdu. Ayaq saxlayıb Şah Abbas məscidinin minarəsinə uzun-uzadı baxdı, xeyli təriflədi, bəzi sözləri anlamasam da başa düşdüm ki, tikilişin gözəlliyinə heyranlığını bildirir. Məscidin yanından ötüb Hallavar körpüsünə çıxdıq, müsyö Jozef Metex qalasının əzəmətinə tərif yağdırdı, sonra Narınqala səmtinə çıxıb, ordan aşağı baxdıq. Müsyö Jozef deyirdi, çox yerlər gəzib, amma təbiətinə görə İstanbuldan, bir də Tiflisdən gözəl yer görməyib. Sonra Parisdən danışdı, dedi, şəhərdən belə

bir çay keçir, amma havası o qədər də xoşəgələn deyil, Bulon meşəsi olmasa, yaşamaq çətinləşər. Geri qayıdanda yaraq-əsləhə dükanının qənşərində dayandı, xeyli qılınclara, xəncərlərə, qəmələrə baxdı, birini almaq istəyirdi, amma nədənsə fikrindən daşındı. Dükandan aralananda qəfildən ayaq saxlayıb üzümə baxdı, dedi, *bura bax, dostum, niyə Parisə oxumağa getməyəsən, b*əlkə mən müsyö Qriqolla danışım? Ayaqlarım yerə yapışdı, deyəsən, həyəcanımdan dilim-dodağım təpimişdi.

27. Bir neçə kəlmə söz bütün düşüncələrimi elə alt-üst eləmişdi ki, axşam düşüb, Görgü ağa qulluqdan qayıdanacan özümə yer tapa bilmədim. Nədənsə ağlıma evimizin xarabalığına baş çəkmək düşdü. Qaralmış dirəklərin ikisinin yağışdan-küləkdən yıxıldığını indi gördüm. Az qala, daşlaşmış kösövlərin arasından yaz otları fışqırıb qalxmışdı. Gözümə anamın yarıyanmış bir tay başmağı sataşdı, götürüb tozdan-hisdən təmizlədim, göz yaşlarımı saxlaya bilmədim. Hücrəmdə başmağı təmiz parçaya büküb yastığımın altına qoydum: əgər burdan getsəydim, mənə doğmalarımı xatırladan bir şey kimi özümlə aparacaqdım. Bütün bunları fikirləşsəm də qulağım üst qatdan gələn səslərdəydi, güman ki, elə bu məqamda taleyim həll olunurdu, gələcəyim Görgü ağanın bircə kəlməsindən asılıydı. Amma yuxarıdan uzun müddət səs çıxmadı, yalnız intizardan süst düşüb yatağa uzanmaq istəyəndə pilləkəndə addım səsləri eşitdim, kürəyimdən anlaşılmaz gizilti keçdi. Dariya xala dedi, ağa səni çağırır, səsinin titrəməsindən də kefsiz olduğunu duydum. Görgü ağa, müsyö Jozef, madam Qrenyö və David salonda oturmuşdular, salam-kalamdan sonra ağa dedi, oğlum, bilirsən ki, səni bu vaxtacan öz balalarımdan ayırmamışam, sən də özünü layiqli övlad kimi göstəribsən. İndi müsyö Qrenyö səni Davidlə Parisə aparmaq istəyir, həm oxuyarsınız, həm də bir-birinizə göz olarsınız, nə deyirsən? O məqamda soyuq başla düşünüb-daşınmaq, əlbəttə, möhkəm iradə istəyirdi, mənsə ancaq bunu deyə bildim: «Ağam, siz nə məsləhət bilsəniz, qəbulumdu». Vəssalam, hər şey bitdi. Sonra müsyö Qrenyö əlini kürəyimə vurdu, onda hazırlaş, dedi, üç-dörd gündən sonra yola çıxacağıq, gəmiyə yetişməliyik». Madam Qrenyö və Davidsə gülümsəyib başlarını tərpətdilər.

28. Aşağı enəndə Dariya xalanı oturub ağlayan gördüm: as-

ta-asta başını yırğalayır, göz yaşları yanaqlarından axır, lampa işığında sirli yola oxşayırdı. Bu yeddi ildə mehrini yetim oğlana salmış dərdli qadını mən gedəndən sonra üzləşəcəyi təklik ağladırdı. Boynuma alıram, bəlkə onun mehri olmasaydı, ailəmizin fəlakətini belə dözümlə qarşılaya bilməzdim. Boynunu qucaqladım, dedim, ömürlük Firəngistanda qalmaq fikrim yoxdu, oxuyub qayıdaram, bir qulluğa girərəm, ev tikdirərəm, evlənərəm, yaşayarıq. Dariya xala gümüş qolbağını ovcuma basdı, dedi, yanında məni xatırlamağa bir şey olsun, sonra özündən aralayıb üzümə xeyli baxdı, yenə həmin sözünü dedi: *«Səni yol çəkir, oğul…»* Bəlkə də düz deyirdi, nəslimiz çarvadar olmasaydı, yolları əriş-arğac eləməsəydi, səfərə çıxmaq sevdasına düşərdimmi, bilmirəm. Amma o nəsildə mirzə də olmuşdu, səfərlərə çıxmasa da, yazı-pozu adamı kimi tanınmışdı, deməli, mənim səfərə çıxıb yazı-pozuya baş qoşmağım heç də Allahın təsadüfi deyildi, bəlkə də zərurətiydi. Bu zərurət qarşısında Görgü ağa da, müsyö Jozef də, Dariya xala da, elə mən özüm də gücsüzdük, taleyə yazılanı silə bilməzdik. Bu həqiqəti gərək Züleyxa da anlayaydı, əgər qəlbində vardımsa, gərək səbirlə oturub yolumu gözləyəydi. Amma bu səbir məsələsini ona necə anladacaqdım, bunu heç cür kəsdirə bilmirdim. Şübhəsiz, yolqabağı Ruxsara xalayla vidalaşmağa getməliydim, elə o vaxt da Züleyxanı görməliydim, qalanı Allahın məsləhətindən asılıydı. Yəqin, xəbəri eşidəndə münasibətini bir cür bildirəcəkdi. On dörd yaşında olasan, qəfildən qarşına uzaq, naməlum, macəralar vəd eləyən bir yol çıxa, bu fürsətdən boyun qaçırarsınızmı? Mən qaçıra bilmədim, o gecə də yarıyuxulu dənizlər keçdim, yollar yordum, ağlagəlməz təhlükələri aradan qaldırıb mənzilbaşına çatdım. Onda elə bilirdim, bütün yollar Romaya apardığı kimi, Parisdən də ancaq Tiflisə qayıda bilərəm. Amma sonralar başa düşdüm ki, *ola bilsin, hər bir adamın həyatında elə bir kəs peyda olur ki, bundan sonra dəyişməyə məhkumdu; bu dəyişikliyin mahiyyəti birmənalı olmasa da, daha əvvəlki adam olmayacağını dərk eləyir...*

# V

# YOL VƏ QƏMLİ GÖZLƏRİN HEKAYƏTİ

***O qəmlər ki, mənim var, dağları da parçalar,***
***Amma bir bax səbrimə, dost-düşmən də əl çalar.***

***Eyn-əl-Qüzat MİYANƏÇİ***
***(XII yüzil)***

29. *Tale çox şıltaq şeydi: bəzən başımıza ağlagəlməz oyunlar açır, bəzən də buraxdığımız səhvləri düzəltmək, həyatımızı yaxşılığa doğru dəyişmək üçün şərait yaradır, bəzən də heç gözləmədiyimiz şahanə bəxşiş verir. Mənim Parisə getməyim də belə bir tale bəxşişiydi.* O gedişi yerli-yataqlı danışsam, çox uzun çəkər: hər halda, on dörd yaşındaydım, üstəlik də sonralar bəzi şeyləri kağıza köçürüb dönə-dönə oxumuşdum. Yəqin, sövqi-təbiiylə nəsə yazmaq istəyirdim, amma o kağızlarım olan sandığı *aclıq ilində* İsfahana qaçan vaxt itirdim. Xülasə kimi, Ruxsara xalagilə, daha doğrusu, Züleyxayla vidalaşmağa getmədiyimi deyim: Züleyxanın baxışlarındakı töhməti görüb sına biləcəyimdən qorxurdum, ola bilsin, Dariya xalaya dedim, olub-keçəni yetirsin Rübabə xalaya, qalanı qismətdən asılıydı. Dariya xalayla halal-hümbət eləməyimiz ağır olmadı, artıq taleyilə barışmış, üç gün ərzində gizli-gizli ağlayıb toxtamışdı. Davidin vidalaşmağa gələn qohumları seyrələndən sonra Görgü ağadan və Rusudan xanımdan halallıq istədim, Ketinoya xoşbəxtlik dilədim. Görgü ağa bizi Batum limanına aparmaq üçün ikiatlı, dördçarxlı, üstüörtülü araba sifariş eləmişdi, özü yanında iki atlıyla şəhərdən çıxanacan ötürdü, atlıların biri də bizi limana çatdıranacan yanımızda oldu. Yəqin, hisslərimin bolluğundandı, o yaz gününün başqa təfərrüatları o qədər də yadımda qalmayıb. Ən çox xatırladığım başımızın üstündəki iri, gur işıq saçan Günəşdi, zümrüd donlu dağlardı, geniş vadilərdi, qıvrıla-qıvrıla gedən çaylardı, aradabir tələsib bizdən irəli keçən yolçuların atlarının dırnaqlarından, arabalarının çarxlarından qal-

xan tozdu. Müsyö Qrenyö arabanın qozlasında oturub ətrafa baxır, tez-tez geri çevrilib daha çox bacısına xitabən təbiətin gözəlliklərini öyürdü. Madam Qrenyö gözümə qüssəli dəydi, vətəninə qayıtdığına sevinib-sevinmədiyini ayırd eləyə bilmədim. David onun yanında əyləşmişdi, kübar görkəmilə öz mülkünü seyrə çıxmış ağaya oxşayırdı. Mən atla getməyə daha çox üstünlük verərdim, amma başımı yan tərəfdəki nəfəslikdən çıxarıb baxmağa məcburdum.

30. İki gecə hansı kəndlərdəsə gecələdiyimiz yadımdadı: birində yol qırağındakı cəmi beş hücrəsi olan balaca karvansaraya düşmüşdük, bizdən savayı da müştərisi yox idi, ona görə gen-bol yerləşə bildik; ikinci gecə qonaqpərvər bir Allah bəndəsinin qonağı olduq, Qrenyölər bir otaqda, Davidlə mənsə o biri otaqda yatdıq, bizi ötürən qaradinməz, zəhmli kişiyə – Paranoza tövlənin bir bucağında yer tapıldı. Üçüncü gün axşama yaxın mənzilbaşına yetişdik, o gecəni də limana yaxın bir evdə – ahıl türk ər-arvadın qonağı olduq – gəmi səhəri gün günorta namazından bir saat qabaq yola çıxmalıydı, bizi yerbəyer eləyəndən sonra məni də dilmanc sifətilə götürüb gəmiçibaşını axtaran müsyö Qrenyö danışıb-razılaşmamış, behini verməmiş əl çəkmədi. Arabanı da, bələdçimizi də yola salandan, ev sahibəsinin elə xalçanın üstündə açdığı süfrədə aclığımızı yatırandan sonra ümmanın yüz əlli-iki yüz addımlığındakı o evdə keçirdiyimiz narahat gecə də yadımdadı; daha doğrusu, Davidi bilmirəm, mən ömrümdə ilk dəfə ümman gördüyümdən, elə bil hövllənmişdim. Alçaqtavanlı balaca otağın açıq kiçik pəncərəsindən dalğaların uğultusuna qulaq asa-asa yatağımda ehtiyatla o tərəf-bu tərəfə çevrikirdim, çalışırdım ki, rahatca yuxuya gedən Davidi oyatmayım. Özümü butasına yetişmək üçün yola çıxan dastan qəhrəmanı sayırdım: ümmanda başıma gözlənilməz macəralar gələcəkdi, tufanlarla, quldurlarla döyüşəcək, axırda sağ-salamat mənzilbaşına çatıb butama yetişəcəkdim. O açıq pəncərədən süzülən Ay işığına baxa-baxa Züleyxa barədə də düşündüm. Müsyö Qrenyö uzaq səfərimizin nə qədər çəkəcəyini deməmişdi, amma həmin məqamda mənə elə gəldi, *bu gedişimin dönüşü yoxdu*, yəqin, bu səbəbdən göz yaşlarım axıb yanağımı islatdı.

31. Mindiyimiz ikidorlu Veneziya gəmisi əvvəlcə İstanbul səmtinə yönəlmişdi, sonra yavaş-yavaş quzeyə sarı səmt götürməyə başladı. Bunu gəmiçibaşıyla dil tapmış, tez-tez ona baş çəkən müsyö Qrenyödən öyrəndik. Madam Qrenyö qardaşıyla balaca otaqcığa oxşayan, arası pərdəylə kəsilmiş bir guşədə yerləşmişdi, həmin otaqcıqda Davidlə mənim üstü örtüklü taxta oxşar yatacağımız vardı. Gəmidə təxminən əlliyə yaxın adam, o qədər də avarçı olardı, göyərtə cürbəcür mallarla – parça topları, xalı-xalça bükülüləri, sandıqlar, ədviyyat qutularıyla... doluydu, avarçıların tərdən islanmış bədənləri gün şüaları altında parıldayırdı. Gəmiçibaşı deyir, müsyö Qrenyö şux görkəmlə danışırdı, ilin bu vaxtında Konstantiniyyə boğazı qasırğalı olur, ona görə də Konstansada gəmidən enib quru yoluyla getmək daha təhlükəsizdi. Konstansanın harda olduğunu bilmirdim, mənə qalsa, Konstantiniyyədən, yəni İstanbuldan keçməyimiz daha yaxşı olardı. David nədənsə əndişəsini üzə vurmurdu, dinməzcə ətrafa baxır, güman ki, rahat evlərinin, ata-anasının, bacısının xiffətini çəkirdi. Madam Qrenyönün görkəmi solğundu, bu ümman havasındandı, müsyö Qrenyö deyirdi, bir neçə gündən sonra keçib gedəcək. Ola bilsin, Davidin süstlüyü də bundandı, amma müsyö Qrenyö gəmiylə çox səfərlər elədiyindən alışmışdı, mənsə, düzünü deyim, əvvəlcə bir az ürəkbulanması hiss elədim, sonra hər şey ötüb-keçdi. Arabir yaxında-uzaqda gəmilər görürdük, müsyö Qrenyö dərhal təcrübəsini büruzə verirdi, bu portuqal gəmisidi, o ispan karavellasıdı, bu biri rus gəmisinə oxşayır, o ötən türk kalyonudu, deyirdi, bir firəng gəmisi də görüb uşaq kimi sevindi, bacısını zorla dartıb göstərməmiş əl çəkmədi. Hərdən də diqqətlə suya baxıb havanın necə olacağından xəbər verirdi, Haqq üçünə, çox vaxt da dedikləri düz çıxırdı.

32. Göy kaftanlı, göy gözlü, sarı saqqallı, qəribə papaqlı gəmiçibaşı firəngcə çox yaxşı danışırdı, müsyö Qrenyönün dediyinə görə, uşaqlığı Marseldə keçmişdi. Gündə azı bir kərə guşəmizə baş çəkir, halımızla maraqlanırdı. Artıq Madam Qrenyö də artıq səfər havasına alışmışdı, vaxtını kitab oxumaqla keçirməyə çalışır, ya da bizə Firəngistanın tarixindən bildiyi şeyləri danışır, hava xoş olanda bir az aralanıb dənizə uzun-uzadı baxırdı. Belə məqamların birində özümü saxlaya bilməyib

müsyö Qrenyödən *bacısının gözlərindəki kədərin səbəbini* soruşdum. O, qəfildən duruxdu, sifəti kölgələndi, bacısı xeyli aralıda olsa da, səsini qısıb, Kolettin əri də gəmiçiydi, dedi, Havrdan Genuyaya gedən gəmidə gəmiçibaşıydı, Portuqal sahillərində quldurlar gəmisinə basqın eləmişdilər, o vaxtdan itkin düşdü. Sonra dedi, on il qabaq Koletti bu səbəbdən özümlə səfərə götürdüm, fikirləşdim, dərdini unudar, amma görünür, unuda bilməyib. Parisə qayıdanda onillik səfərlərim haqqında kitab yazmaq fikrindəyəm, müsyö Qrenyö özü də gözləmədən bizə daha bir sirrini də açdı, Kolettin köməyinə ehtiyacım var, onun evə qayıtmasına həm də bu səbəbdən sevinirəm. Madam Qrenyö guşəsinə qayıdanda, elə bil havanın dəyişdiyini, söhbətin bayaq ondan getdiyini duyub sorğulu nəzərlərini qardaşına dikdi, müsyö Qrenyösə dərhal ağlına gələn ilk şeydən – Bulon meşəsinin gözəlliyindən danışdı. Yeddi ildən bəri məni rahat buraxmayan mətləb – *o gözlərdəki kədərin səbəbi* aydın olmuşdu. Ağlımdan keçdi ki, uzaq səfərə çıxdığımı eşidəndə Züleyxanın da *qara gözlərində belə bir kədər peyda olacaq*, qayıtmasam, o kədər get-gedə qatılaşacaq, ömrünün axırınacan silinməyəcək. Bunu düşünə-düşünə Madam Qrenyönün gözlərinə baxmamağa çalışırdım.

33. Səfərimizin üçüncü, ya dördüncü günü ehtiyatsızlıq ucbatından Davidin, az qala, suya yıxılacağını, bir neçə gün sonra kiçik də olsa, qasırğaya düşməyimizi, bolqar tacirinin haqq-hesab üstündə fars tacirini yaralamasını, başqa xırda-para şeyləri *(məsələn, gəmiçibaşının hər fürsət düşəndə gəlib madam Qrenyöylə söhbətə girişməyə çalışdığını, ona izafi iltifat göstərdiyini, müsyö Qrenyönün də bunu çox sakit qarşıladığını, mənim kimi Davidin də veneziyalıya artan nifrətimizi*) nəzərə almasaq, dördhəftəlik yolumuz rahat keçdi. Konstansa limanında gəmidən enəndə sevincimizin həddi-hüdudu yox idi. Gəmiçibaşı sandıqlarımızı, bağlamalarımızı aşağı endirmək üçün yükçülərə buyruq verdi, bizimlə, daha doğrusu, madam Qrenyöylə uzun-uzadı vidalaşdı, açıq-aşkar görünürdü ki, ondan qopmaq istəmir, amma madam Qrenyö, deyəsən, gəmidən canını qurtardığına hamımızdan çox sevinirdi. Ola bilsin, gəmi də, sular da ona adını bilmədiyim o sevdiyi adamı xatırladırdı, bu səbəbdən amanını kəsmiş kədərdən azacıq da olsa, yüngülləşmək istəyirdi. Elə limandaca araba da, karvan-

sara da tapıldı, müsyö Qrenyö yarıalman-yarıfirəngcə, daha çox da əl-qol hərəkətilə bizə nə lazım olduğunu anlatdı. Arabaçının gətirdiyi karvansara qalın divarlarıyla qəsrə oxşayan birqatlı daş tikiliydi. Müsyö Qrenyönün məsləhətilə iki, ya üç gün burda qalıb yolun yorğunluğunu canımızdan çıxarmalı, yola çıxmaqla bağlı tədarük görməliydik. Madam Qrenyönün dediyinə görə, burdan Parisə bir aylıq, uzaqbaşı, qırx günlük yol qalırdı, müsyö Qrenyö də onunla razılaşırdı. Davidlə mən vaxt hesabına diqqət yetirəcək halda deyildik: hər şey o qədər maraqlı, qeyri-adiydi ki, fikrimiz-zikrimiz bir yerdə qərar tutmurdu.

34. Madam Qrenyö təxminən düz hesablayıbmış: mənzilbaşına çatmağımız *otuz altı gün* çəkdi. O otuz altı gündə neçə araba dəyişdik, neçə karvansarada, müsafirxanada gecələdik, nə qədər adamla rastlaşdıq, bunu sadalasam – *çoxu da ya indi yadımda qalmayıb, ya da dumanlı halda xatırlayıram* – uzun çəkər. Adını xatırlamadığım kəndlərdən, şəhərlərdən keçirdik, meşələrdən, vadilərdən, eniş-yoxuşlardan ötürdük, qəsrlər, kilsələr, saraylar, daxmalar görürdük. David, deyəsən, ailəsi üçün qəribsəməyə başlamışdı, dindirməsən, ağzını açmırdı, mən aradabir artıq korlaşan ağrılarımı yaşasam, Dariya xalanı xatırlasam, Züleyxanın üzünü yadıma salsam da, ondan dözümlü çıxmışdım, xiffətimi üzə vurmurdum. Müsyö Qrenyö dillərini bildi-bilmədi, daim arabaçılarla nəsə «danışır», bizi söhbətə tutur, bacısının könlünü açmağa çalışırdı. Madam Qrenyönün əhvalındakı qüssənin yerini həyəcan tuturdu, görünür, ömrünün iyirmi bir ilini keçirdiyi yerə *onillik ayrılıqdan* sonra qayıtmaq onu tərpədirdi. Rumın, macar, çex, alman torpaqlarında yolumuza çıxan şəhərləri, kəndləri, vadiləri, çayları bir-bir arxada qoyduqca həyəcanı daha da artırdı. Firəngistanın hüdudlarına yaxınlaşdıqca müsyö Qrenyö də coşur, daha da çox danışırdı. Dediyindən belə çıxırdı ki, Paris dünyanın mərkəzidi, bütün yollar ordan başlayıb, orda qurtarır. Mən, deyirdi, iki dəfə səyahətə çıxmışam, dünyanın, az qala, yarısını gəzmişəm, yenə Parisə qayıtmışam. Otuz yeddi yaşlı Jozef Qrenyönün atasından qalan malı-mülkü satıb dünyanı dolaşmağının mənasını hələ dərk eləyə bilməmişdim. *Görünür, onun da hələ bilmədiyim ömür hekayəti vardı, həyat düzəni vardı, yoxsa yolların ağına düşüb sərgərdan dolaşmazdı.*

35. Firəngistan hüdudlarındakı Sarbur adlı balaca şəhərə çatanda madam Qrenyönün həyəcanının son həddə çatdığını açıq-aşkar gördük. Yerləşdiyimiz karvansarada duruş gətirə bilmədi, Davidlə məni yanına salıb ensiz küçələrdə, balaca meydanlarda, səsli-küylü bazarda gəzdi, hiss eləyirdim ki, rastlaşdığı hər adamla danışmaq, bununla özünün vətənində olduğuna inandırmaq istəyir. Elə Sarburdan Parisə altı günlük yolumuzda da arabaçıları tələsdirir, yola erkəndən çıxmaq üçün qardaşını dilə tutur, rastına çıxan hər şeyi bizə tanıtmaq istəyirdi. Bu vaxtacan möminliyini hiss eləmədiyim madam Qrenyö gecələdiyimiz şəhərlərin bir neçəsində kilsəyə ibadətə getdi. Müsyö Qrenyönü hələ ibadət eləyən görməmişdim, Davidin kilsələrə rast gələndə xaç çevirdiyini sezmişdim, mənə gələndəsə axırıncı kərə axund Səməndərin yanında namaza durmuşdum, sonra nə Görgü ağanın evində, nə iki aydan artıq davam eləyən səfərimizdə belə bir imkan tapmışdım. Əlbəttə, bu Görgü ağanın himayəsində yaşamağım, yeddi yaşından bəri İosif çağırılmağımla bağlı deyildi, kimsə mənə *dinimi dəyişməyimlə* bağlı eyham belə, vurmamışdı. *Görünür, hər şey daxili müvazinətimlə bağlıydı, hələ özümü ibadətə hazır hesab eləmirdim.* Bəzən səssiz-səmirsiz dua oxuyurdum, dualarım doğmalarımın ruhuna, səfərimin uğuruna, məni gözləyənlərə aid olurdu. *Taleyim məni hicri 1100-cü, miladi 1687-ci ilin yayında gətirib Firəngistan adlı məmləkətə çıxarmışdısa, deməli, qismətimə belə yazılıbmış, bundan sonrası – Tiflisə dönməyim, ya da hələ görmədiyim yerlərə üz tutmağım da alın yazımda yazıldığı kimi olacaqdı…*

# VI

# AH, PARİS, PARİS…

***Paris şəhər deyil, bütöv bir aləmdi…***

***V KARL,***
***Firəngistan kralı***
***(XIV yüzil)***

36. Parisə gecə girdik, bəlkə bu səbəbdən şəhəri dərhal görə, duya bilmədim. Hansısa küçələrdən, döngələrdən keçdik, kiçik meydanda dayananda madam Qrenyö özünü saxlaya bilməyib «Ah, Paği! Paği!» qışqırdı, onda bildim ki, evlərinə çatmışıq. Qrenyölərin var-dövlətindən qalan bu ikiqatlı, Görgü ağanın imarətindən xeyli böyük mülkün gözəlliyini səhəri gün duya bildim: o gecə ancaq yerbəyer olduq, ağalarının, üzünü görmədikləri xanımın – madam Qrenyönün gəlişinə bərk sevinən qulluqçular – Giyom və arvadı Katrin bir göz qırpımında hər şeyi hazırladılar, yuyunduq, qarnımızı bərkitdik, sonra Davidlə mənə ayrılmış otaqda, ola bilsin, uzun yolda bərk yorulduğumuza görə, dərin yuxuya getdik. Səhəri gün biz oyananda günortaya yaxın idi, gözümü açıb xeyli huşsuzluq içində harda olduğumu, bayırdan gələn səslərin mənasını anlamağa çalışdım. Davidi oyatmaq daha çətin oldu, bundan ötrü müsyö Qrenyö aşağı enib ona səhər tez oyanmağın xeyri barədə xeyli öyüd verdi. Yemək süfrəsində oturanda bildik ki, bura, Qrenyölərin mülkü olan yer şəhərin Lö Marö məhəlləsidi, daha çox ədəbiyyatçıların *(madam Qrenyö izah elədi ki, Parisdə başqalarının oxuması üçün kitab yazanlar, ancaq bu peşəylə məşğul olanlar var)* yığışdıqları salonlar hissəsidi. Əvvəllər Beşinci Karlın vaxtında məhəllə hasara alınmışdı, Jozeflə biz səyahətə çıxmazdan qabaq kralın buyruğuyla söküldü. Jan-Batist Molyer adlı tamaşalar yazan vardı, sən doğulan il *(madam Qrenyeyə yaşımı söyləmişdim)* öldü, onun kitablarındakı əhvalatların çoxu həmin salonlarda baş verənlərdi. Sonra söhbət

bizim təhsilimizin üstünə gəldi. Jozef və Nikolettta Qrenyölər bu fikirdəydilər ki, David Sorbonn universitetinin təbabət, yaxud ilahiyyat bölümündə oxusun, mənsə pansionda *(belə başa düşdüm ki, qapalı mədrəsə kimi bir yerdi) təhsilimi* başa vurandan sonra bu barədə düşünərəm.

37. O günlərdə artıq payızın nəfəsi duyulurdu, David də, mən də Parislə erkən payızda tanış olduq. Bir gün sonra müsyö Jozef keb dedikləri ikiatlı, üstüörtülü araba çağırtdırdı, bizə Parisin məhəllələrini, kilsələrini, saraylarını, meydanlarını, çayqırağını göstərdi. Madam Qrenyö oxuduqlarını, öyrəndiklərini danışmaqdan zövq alırdı, qardaşıyla ağız-ağıza verib «Paği» dedikləri şəhərin tarixini danışırdı. Onda bildim ki, Parisi firənglər, qallar yox, romalılar salıblar, uzun müddət Lütesia adlanıb, miladi beşinci yüzilində kral Xlodviqin qurduğu firəng krallığının baş şəhəri 987-ci ildə Paris olub. Qrenyölər bizə Notrdamı, Luvru, latın məhəlləsini, Sorbonnu, Sən-Jak qülləsini, Zəfər tağını, özlərinin görməyə darıxdıqları yerləri göstərdilər, günorta yeməyini Köhnə Göyərçinxana adlanan məhəllədəki bir meyxanada yedik. İki günün təəssüratı o qədər çox idi ki, bəzən gördüklərimi dərk eləyib-eləmədiyimə şübhəylə yanaşırdım. O möhtəşəm saraylar, kilsələr, qüllələr Tiflisqarışıq buracan gördüyüm şəhərlərin heç birində yoxudu, bununla belə, Tiflisdən ötrü burnumun ucu göynədi, indi evimizin xarabalığı olan yerdən şəhərimin doğma mənzərəsinə tamaşa eləməyi o qədər çox istədim ki, qəhərdən boğazım tutuldu. David məndən də betər gündəydi, on doqquz yaşına girmiş oğlanın axşam necə qəhərləndiyini görəndə öz halıma dönə-dönə şükür oxudum. Qrenyölərin doğma olmasa da, mehriban, nəzakətli münasibətləri ürəyimizə toxtaqlıq verirdisə, o biri tərəfdən, Davidi deyə bilmərəm, *mən özümü kökündən çıxarılmış ağac hesab eləyirdim*. Ən ağırıma gələn də firənglər kimi geyinmək, burum-burum taxma saç, qəribə papaq qoymaqdı, qalanlarına dözmək olardı. Jozef Qrenyö bunu Paris həyatına alışmağın başlıca şərtlərindən biri sayırdı, madam Qrenyö də təsdiqləyir, David dinməzcə razılaşır, mənsə münasibətimi büruzə vermirdim.

38. Qrenyölərin Sorbonn sevdası baş tutmadı, Davidin hazırlığını qənaətbəxş saymamışdılar, bundan da onun özündən çox madam Qrenyö pəjmürdə olmuşdu. Gəldiyimizin ikinci həftəsi

ancaq Kollej dö Frans adlanan mədrəsəsayağı məktəbdən razılıq ala bildilər, elə o həftənin axırında da mənə Monmartr tərəfdəki oğlanlar üçün qapalı pansionda yer tapıldı. Jozef və Nikoletta Qrenyölər məni pansionun birinci adamı müsyö Koleyə tapşırıb rahatlandılar. Müsyö Kole uzun-uzadı mövcud qaydaları başa saldı. Onun dediklərindən belə çıxırdı, on il ərzində ömrümü bu ikiqatlı böyük binanın divarları arasında keçirməliyəm. Yaxın adamlarla həftədə bir dəfə – bazar günləri görüşə icazə verilirdi, ayda bir dəfə, üstəlik, bayram günlərində müsyö Kolenin xüsusi icazəsilə ailənə gedə bilərdin. Mənə baxanda Davidin bəxti gətirmişdi: Qrenyölərin mülkünə istədiyi vaxt gedib-gələ bilirdi. Pansionda məni xaç suyuna çəkdilər, görünür, Qrenyölərlə razılaşmışdılar, adımı da «Jozef Qrenyö» kimi qeyd elədilər, müsyö Kolenin dediyinə görə, bu firəngcəyə daha uyğun idi, həm də Qrenyölərin himayəsi altında olduğumun sübutuydu. Mən, yeddi yaşınacan Yusif Nüsrəddin oğlu, on dörd yaşınacan İosif Eliqulaşvili olan kimsə indi ömrümün qalan hissəsini Jozef Qrenyö olmalıydım. Sonra öyrəndim ki, Davidi Kollej dö Fransda David Tbileli adıyla tanıyırlar. Əlbəttə, o vaxt bütün bunlara xüsusi məna verəcək halda deyildim. Qarşımda yeni aləm açılmışdı, hələ ki, o aləmdə taleyin gərdişinə boyun əyib əlhavasına gedirdim. Bundan sonra nə olacaqdı, on ilin sonunda Tiflisə dönə biləcəkdimmi? Bu qapalı aləmdə başqalaşıb, kökümdən tamam qopacaqdımmı? O vaxt bu suallar beynimdə dumanlı halda fırlansa da, görünür, *başıma gələcəkləri sövqi-təbiiylə duyurammış,* amma hər şeyi aydın dərk eləyəndə artıq çox gec idi.

39. Pansionda italyan, ispan, alman mənşəli yaşıdlarımla xüsusi firəng dili dərslərinə gedirdik, bundan başqa da ilahiyyatı, cəbri, təbiət elmlərini öyrədirdilər. Bir hücrədə yerləşdiyim ispan Xose Karvalyodan başqa yaxın ünsiyyətdə olduğum bir kimsə yox idi. Pansionun bağına açılan ikinci qatdakı otağımızın pəncərəsindən gördüyüm qış günlərində cansıxıcı, həddən artıq kədərli, yazın orta ayından payızın ortalarınacan dəyişən, rəngdən-rəngə düşən mənzərə indi də gözlərimin qabağından getməyib. Yaz günlərində Xoseylə bağban Jeroma kömək eləməyimiz, ilahiyyat dərsi verən Valentin atanı dolaşıq suallarla çaşdırmağımız, təbiət elmlərini öyrədən müsyö Krömonu

təqlid eləməyimiz, Burqund ləhcəsində danışan çilli Teryönü ələ salmağımız yadımdadı. Əvvəllər madam Qrenyö hər bazar baş çəkir, müsyö Qrenyö ayda bir dəfə gəlirdi, ayda bir dəfə də Davidlə Qrenyölərin evində görüşürdük. David ilahiyyata yaxın durmamışdı, Kollej dö Fransda təbiət elmlərini öyrənirdi, dediyinə görə, Tiflisə qayıdanda bu daha gərəkli olacaq. O bir gün ərzində ilk vaxtlar Qrenyölərlə, sonralar Parisə bələd olandasa, özümüz küçələri, meydanları dolaşır, saraylara, kilsələrə tamaşa eləyirdik. Luvr qəsrinə, Bastilia qalasına, Döfin meydanına, Sena üzərindəki Yeni körpüyə, Lüksemburq sarayına, o sarayın üzbəüzündə təzə salınmış bağa, Yelisey çölünə doya-doya tamaşa eləməyimiz yadımdadı. Elə o vaxtlarda Davidə Tiflisdən bir namə də çatdırdılar *(görünür, Qrenyölər hansı yollasa Tiflisə namə göndərə bilmişdilər).* Görgü ağanın adından yazılmış namədə hamının sağ-salamat olduğu, Ketinonun ərə getdiyi, hamının, o cümlədən Dariya xalanın da bizdən ötrü çox darıxdığı yazılmışdı. Naməni oxuyanda Davidin əllərinin necə titrədiyi gözlərimin qabağındadı.

40. Amma Qrenyölərin ailə faciəsi bitib-tükənmək bilmirdi. Parisə qayıtdıqlarının ilk illərində Jozef və Nikoletta Qrenyölər xəyalında olduqlarını gerçəkləşdirməyə, səyahətlərini qələmə alıb kitaba salmağa girişdilər, hər dəfə mülkə gələndə onları nəsə yazan, mübahisə eləyən, hətta bir-birini acılayan görürdük. Bu üç il, ya dörd il beləcə davam elədi. Sonra maddi vəziyyətlərinin pisləşdiyini, üstəlik, Görgü ağanın bizim təhsilimiz üçün verdiyi pulun tükəndiyini öyrəndik. Az keçmədi ki, Qrenyölər Giyomun və Katrinin xidmətindən də imtina eləməli oldular – daha ev işlərilə heç səriştəsi olmayan madam Kolett özü məşğul olurdu. Bütün bunların səbəbi heç bir gəlir mənbələrinin olmaması, ikisinin də Lö Marödəki ədəbi salonda görünmək üçün geyim-keçimə çoxlu pul xərcləmələriydi. Bir müddət keçdi, Jozef Qrenyönün Veneziaya, ordan da Konstantiniyəyə getmək üçün mülkü satdığından, bacısına birqatlı, üçgözlü balaca bir ev aldığından xəbər tutduq. Görünür, madam Qrenyönün qeyrəti sayəsində qardaşı Davidlə mənim təhsil xərcimizi qabaqcadan ödəməli olmuşdu. David hələ də onun kiçik Vogezlər meydanı tərəfdəki evinin bir otağını tuturdu, o otaqda məndən ötrü də çarpayı qoyulmuşdu.

Hələ illər qalsa da, bir-birimizdən xəbərsiz artıq Tiflisə qayıtmaq barədə, daha doğrusu, yolpulu tapmaq haqqında düşünürdük. David hər şeyi atasına yerli-yataqlı yazmışdı, altı aydan çox idi ki, Tiflisə getmək fikrinə düşmüş bir Allah bəndəsi axtarırdı. Madam Qrenyönün yolsuz qardaşının ucbatından düşdüyü bu cür vəziyyət ürəyimi ağrıdırdı. Onun üzümüzə baxa bilmədiyini, gizlicə əzab çəkdiyini, get-gedə solub-qocaldığını sezirdim, amma qeyri-adi iradəsi hesabına ayaq üstdə qalmağı bacarırdı. Görünür, ona daha çox əziyyət verən on il ərzində Görgü ağanın evində gördüyü hörmət, bunun müqabilində qardaşının yolsuzluğu ucbatından üzləşdiyi vəziyyət idi. Üstüörtülü də olsa, ona ürək-dirək verməyə çalışır, qayğımızı büruzə verməməyə can atırdıq.

41. Madam Qrenyöylə söhbətlərim mənə pansiondakı dərslərimdən də çox bilgi verirdi. O, taxt-tacda olan on dördüncü Lüdovikin sülaləsindən, kraliça Anna Avstriyalıdan, kardinallar Rişelyö və Mazarinidən, isveçlər, ispanlar, hollandlarla aparılan savaşlardan, o məqamda davam eləyən Pfals mirası uğrunda savaşdan danışırdı. Amma mən sənətdən söhbət eləməsini daha çox istəyirdim. O vaxtlar Parisin həyatında sanballı yer tutan Jan-Batist Molyeri, Jan dö Lafonteni, Jan Rasini, Pyer Korneli, hersoq dö Laroşfukonu mənə madam Qrenyö tanıtdı, onun sayəsində Davidlə birgə Molyerin fırıldaqçı, arvadbaz Don Juan barəsində tamaşasına baxdım, Lafontenin təmsillərini, Laroşfukonun hikmətli kəlamlarını oxudum. Parisə gəldiyimizin, səhv eləmirəmsə, səkkizinci ilinin (*miladi 1695-ci il*) bir yaz günündə Lafontenin dəfnində iştirak elədim. Madam Qrenyö ad günümdə – iyirmi yaşım tamam olanda mənə hersoq de Laroşfukonun hikmətli kəlamları toplanmış kitabının 1665-ci il çapını bağışlamışdı, o kitab indi də sandığımdakı əlyazma kitabların arasındadı. Madam Qrenyö məni kitab basılan yerə aparmışdı, sonralar İstanbulda, Təbrizdə, Qəzvində, İsfahanda xəttatların necə işlədiklərini görəndə dönə-dönə o iri qurğuları, dəmirdən kəsilmiş hürufatı, qurğuşun qoxusunu xatırlamışdım. Madam Qrenyönün sayəsində ilk dəfə Nəbatat bağına getdim, dünyanın ağlagəlməz bitkisini, ağacını, gül-çiçəyini gördüm. Sonra Davidlə həmin bağa tez-tez gedirdik, o, dərslərində öyrəndiyini

mənə əyani göstərməyi çox sevirdi. Tutqun, darıxdırıcı pansion günlərimə rəng qatan həmin məqamlar olmasaydı, ola bilsin, xiffətdən bağrım çatlayırdı. Müddətim daraldıqca Tiflisi, Görgü ağanın ailəsini, Dariya xalanı, Züleyxanı daha çox xatırlayırdım, narahatlığım özünü gün-gündən daha çox bildirirdi.

42. Dil, həm də hünər və mərifət öyrənmək üçün gəldiyimiz Parisdəki son ilimiz bizdən ötrü çox çətin keçdi. Əvvəla, iki il qabaq Davidin madam Qrenyönön səyilə atasına yolladığı namədən bir nəticə hasil olmadı, bu səbəbdən də əndişəmiz daha da artdı. Sonra madam Qrenyö sağalmaz azara mübtəla olub həyatdan köçdü. Onu beş-on nəfərlə adını indi xatırlamadığım bir qəbiristanlıqda dəfn elədik. Jozef Qrenyödən səs-soraq çıxmadığından rəhmətlik evini Davidə vəsiyyət eləmişdi, üstəlik, bu barədə kağız da hazırlatmışdı. Neçə illərdən bəri tanıdığımız talesiz qadının ölümü bizi yandırsa da, Tiflisə qayıtmağımız üçün, heç olmasa, ümid yarandığına sevinib toxtamışdıq; son məqamda evi satmaq, əldə elədiyimiz pulla yola çıxmaq mümkün idi. David Kollej dö Fransı, mənsə, müsyö Kolenin pansionunu bitirməyimiz barədə vəkalətnaməmizi alıb bir neçə ay şəhərdə yarıac-yarı tox dolanmalı, evin satılmasını gözləməli olduq. David Tiflisdən gətirdiyi gümüş işləməli xəncərini, mən Görgü ağanın bağışladığı gümüş kəmərimi satdım. Axır ki, evə müştəri tapıldı, amma onun təklif elədiyi qiymət o qədər az idi ki, birimizin yolpulumuza güclə bəs eləyərdi. Naəlac qalıb Allaha təvəkkül razılaşmalı olduq, Parisdə qalmaqdansa, gedib Konstantiyyəyə çıxmaq daha ağıllı hərəkət olardı. David evin pulunu alanda hisslərini soyutmaq üçünmü, ümidsizliyini gizlətmək məqsədiləmi, sorağını eşitdiyimiz bir meyxanada içkili-qadınlı ziyafət təşkil elədi. İyirmi dörd yaşında pansion tutqunluğundan çıxıb şərabın dadına baxmaq, qadınla təmasda olmaq duyğusunu təsvir eləmək çox çətindi. Görünür, bu şəhəri elmdən, gəzintilərdən, sıxıntıdan başqa daha nəyləsə yadda saxlamaq istəyirdik. Davidi bilmirəm, məndən ötrü Parisin siması yolsuz Jozef yox, mehriban, işıqlı, amma faciəvi həyatıyla yaddaşımda dərin iz qoyan madam Qrenyöydü. Onda dərk elədim ki, *elə adamlar var, sağ ola-ola bizdən ötrü ölürlər, elələri də var, öləndən sonra belə, uzun illər qəlbimizdə yaşayırlar...*

## VII

# ALTI İL VƏ BÜTÖV BİR ÖMÜR

> ***Qadın xoşbəxt eləmək üçün yox, xoşbəxt olmaq üçündü...***
>
> ***Sonralar bir Anadolu karvansarasında dərvişdən eşitdiyim kəlam***

43. Onillik Tiflis həsrətinə son qoymağa ümid və imkan *(bir tərəfi portuqal dənizçilərindən olan pansion yoldaşım Xose Karvalyo, demək olar, pulsuz getməyin yolunu öyrətmişdi: Marseldə, yaxud Veneziada o tərəfə gedən ticarət gəmilərinə yükçü düzələ bilərdim)* ola-ola Parisdə niyə qaldım? Sonralar Parisdə də, Veneziada da, Konstantiiyyədə də, Anadolu karvansaralarında da, Səfəvi məmləkətində də bunu özümdən dönə-dönə soruşdum, amma dəqiq cavab ala bilmədim. Gələcəyimlə bağlı müsyö Kalenin öyüd-nəsihətlərini, Davidin kollec dostu Jilber Sorelin Sorbonna hazırlaşdığı barədə ağızdolusu danışmasını, Davidin məndən bir addım irəlidə olmasının izzəti-nəfsinə toxunmasını, Parisin o biri üzünü – şərabı və qadını dadmağımmı məni fikrimdən döndərdi, bilmirəm. Sonralar bunun üstünə Züleyxayla bağlı əndişələrimi də gəldim: xəbərsiz-ətərsiz itən, qayıdıb-qayıtmayacağı barədə Allahın sözünü də verməyən bir kəsi on il oturub gözləyəcəyi, əlbəttə, ağlasığan deyildi, bu səbəbdən gedib onu başqasının ocağında görməyimin ruhumu necə viran qoyacağından da qorxmuşdum, – amansız həqiqət məni Parisdəki umudsuz günlərimin birində yaxaladı. Hər nə oldusa, oldu, şeytan yoldan çıxardı, bəlkə də şeytanın günahı yoxdu, Allah belə yazıbmış: altı il də Parisdə qalası oldum. David qərarımdan xəbər tutanda pərişan oldu: hər halda, neçə illər ərzində bir-birimizə alışmışdıq, dilimizə gətirməsək belə, qardaş sayılırdıq, onu tanıdığım on yeddi il ərzində bir kərə də olsun, aramızda anlaşmazlıq olmamışdı. Tiflisdə nəbatat bağı salmaq arzusuyla yaşayan

David Tbilelinin – David Eliqulaşvilinin tərbiyəsi, mərifəti, əxlaqı həmişə məndən ötrü örnək olmuşdu, yəqin, bundan sonra da olacaqdı.

44. Davidi Marselə yola salmağa üç nəfər getdik: Jilber Sorel, Xose Karvalyo və mən. Kollej dö Fransa hazırlaşan Xose qalmağıma bərk sevinirdi, elə birgə kirayə ev tutmaq ideyası da onun ağlına gəldi. Jilber Sorel Nəbatat bağında işə düzəlmişdi, amma Sorbonnda oxumaq arzusundaydı, bu səbəbdən işini itirməməklə bağlı yollar arayırdı. Jilberin Sən-Lui tərəflərdəki bir karvansaradan kirayələdiyi keb sürücüsü Davidi Dicönə qədər aparmağı razılaşmışdı, ordan o tərəfə başqa keb tutacaqdı. Onacan ilk dəfə Davidlə fikrimiz üst-üstə düşmədi: o, madam Qrenyönün evinin satışından aldığımız pulu yarıbayarı bölmək istəyirdi, mənsə buna etiraz eləyirdim; birincisi, madam Qrenyö Davidin mürəbbiyəsi olmuşdu, onların evində yaşayıb hörmət görmüşdü, ikincisi David yola çıxırdı, mən Parisdəydim, bəd ayaqda oxumağın daşını atıb çörəkpulu qazana bilərdim, üçüncüsü, canıma cəfa basıb yaxşı oxuyardım, təqaüd qazanardım. Ona görə də cəmi səkkiz yüz frank götürməyə razı oldum, bu pulla azı yarım il çulumu sudan çıxara bilərdim. Hər nəsə, Marsel yolunda Davidlə qucaqlaşdım, dönə-dönə öpüb-qoxuladım, Görgü ağaya, Rusudan xanıma, Ketinoya, Dariya xalaya, tanıyanların hamısına çoxlu-çoxlu salam-dua göndərdim, qismət olsa, gələcəyimi vəd elədim. Əlbəttə, imkan tapıb Rüxsara xalagilin halından xəbər tutmasını da rica elədim. Aramızda açıq söhbət olmasa da, David Züleyxaya meylimi duymuşdu, ona namə-filan göndərmədiyimə təəssüflənsə də, yəqin ki, xəbər tutar, sağ-salamat olduğumu çatdırardı. Elə ilk fürsətdəcə ətraflı naməylə məni hər şeydən hali eləyəcəyinə söz verdi, Tiflisdən bəri ayrılmadığı gümüş işləməli qədimi mücrünü də mənə bağışladı, bura ən qiymətli şeylərini qoyarsan, dedi. Yenə qucaqlaşdıq, kebə minib toz qopara-qopara getdi, ondan sonra bir daha görüşmədik.

45. Xose Karvalyo seçimini eləmişdi, Jilber Sorel də Sorbonnda təbiət elmlərinə davam eləmək, ya da təbabəti öyrənmək istəyirdi. Mənim təbiətimdə təbabət yoxudu, xristian ilahiyyatını, İsa Məsihin yaratdığı dini öyrənməyimin anlamını görmürdüm, təbiət elmlərini öyrənsəydim, gərək hardasa oturaq həyat

keçirəydim, dini hüquq bəlkə də işimə yarayardı, amma o da mənlik deyildi. Yeganə məqbul olan azad sənətlər idi, yazını, natiqliyi, poeziyanı, rəsm çəkməyi, musiqini… öyrədirdi, bu da hər yerdə lazım gələrdi. Neçə illərdən bəri Sorbonnda oxumaq xəyalıyla yaşayan Lilber hər şeyi yerli-yataqlı öyrənmişdi, dediyinə görə, sınaqlar həddən artıq ağır keçir, on il o sınaqlara dözməyib oxumağı atanlar da az deyil. Axırıncı ildə, təhsilini bitirəndə bütün gün ərzində dincəlmədən, yeyib-içmədən iyirmi nəfərin suallarına cavab verməli olur. Məndən ötrü başlıcası ilkin sınaqlara dözüb Sorbanna düşmək idi, qalanı taleyin işiydi. Müsyö Kalenin dediyinə görə, bu qüvvəm, biliyim daxilindəydi, on il ərzində firəngcəni mükəmməl mənimsəmişdim, qalan fənlərdən də bu vaxtacan pansionu bitirən şagirdləri arasında ilk üçlüyə layiq idim. Davidi yola salandan sonra Jilber Sorellə bir aya yaxın ünsiyyətimiz, Xose Karvalyoyla ciddi məşğul olmağımız, deyəsən, nəticəsini verdi. Mən, iyirmi dörd yaşlı Cozef Qrenyö Sorbonnu nazad sənətlər bölümünün tələbəsi oldum. Xose də Kollec dö Fransda sınaqlardan uğurla çıxdı. Amma Jilber son məqamda fikrindən döndü: nəbatat bağında işinə davam eləməyə üstünlük verdi. Mənə görə ağıllı seçim idi, artıq evlənməyə hazırlaşırdı, elə bir gəlir yeri yoxudu, ona görə də Nəbatat bağındakı, özünün dediyinə görə, abırlı və maraqlı işini itirmək istəmirdi.

46. Xose Karvalyoyla təxminən Sorbonnla Kollec dö Fransın arasında birotaqlı ev kirayələmişdik, Xosenin təsadüfi işdən qazandığı iki yüz frankı və mənim səkkiz yüz frankım elə hesabladığımız kimi, altı aydan bir qədər çox vaxta bəs elədi. Ayda on iki frank ev kirayəsinə, üç o qədər də yeməyimizə verirdik, həftədə iki dəfə gəlib otağımızda yır-yığış aparan arvad ayda altı frank alırdı, hərəmiz on frank da cibxərci götürürdük, üstəlik, abırlı paltar da almaq lazım gəlirdi. Bu səbəbdən pulumuz tükənənə yaxın münasib iş axtarmaqla ciddi məşğul olmağa başladıq. Uzun axtarışdan sonra Xose bir ispan ailəsinin iki uşağına firəngcəni öyrətməyə razılaşıb ayda qırx frank qazanmağa başladı. Üç ay sonra da tale mənim üzümə güldü: müsyö Kalö ayda otuz beş franka pansionunda dərsdənkənar məşğələlər aparmağa dəvət elədi. Bəzi xərclərimizi azaldanda *(məsələn, mümkün qədər kebə pul xərcləməməyə çalışırdıq; piyada gəzmək həm də sağlamlığa*

*xeyir idi – Xose zarafatla belə deyirdi)* birtəhər dolanmaq olurdu. Günümün çoxunu Sorbonnun dərsxanasında keçirir, həftədə üç dəfə müsyö Kalenin pansionuna *(divarları arasında ömrümün cansıxıcı on ilini keçirsəm də, indi həyat mənbəyim olmuşdu)* gedirdim. Sorbonnda çox ünsiyyətdə olduğum yazı sənəti müəllimim müsyö Can Klöber, Liondan gəlmiş Kristof Duatyö idi. Elə o vaxtlar da nəsə yazmağa başlamışdım; hələ bəlli forması, başı-ayağı olmayan o yazılar xatirələrlə təəssüratların qarışığından ibarət idi, Tiflisdən, Paris yolçuluğumuzdan, burdakı həyatımdan, tanıdığım adamlardan bəhs eləyirdi. Bir parasını Xose gizlicə oxumuşdu, dediyinə görə, çox duyğuluydu. Mənə belə gəlirdi, işim də elə yazmaqdan ibarət olacaq, amma onun nə iş olacağını hələ aydın təsəvvür eləmirdim.

47. Daviddən gözlədiyim namə iki il yarımdan sonra təsadüfən Tiflisdə rastlaşdığı, Parisə gedəcəyindən xəbər tutduğu bir yunan tacirinin iltifatı üzündən gəlib yetişdi, David üstəlik, özünü Georgios kimi tanıdan adama etibar eləyib bir qədər də pul göndərmişdi – görünür, o üç yüz frank yol pulundan artmışdı, David də ikimizin hesab elədiyi pulun qalığını mənə göndərməyi məsləhət bilmişdi. Yazdığına görə, yolda elə macəralarla rastlaşıb ki, yazmaqla qurtarmaq olmaz; axır ki, sağ-salamat gedib Tiflisə çıxıb, hamını olduğu kimi görüb sevinib, üstəlik, Ketinonun da bir oğlu, bir qızı var; təbii ki, ata-anası bir qədər yaşlaşıblar, amma pis deyillər; Dariya xala məndən ötrü çox darıxır, nə vaxtsa qayıdıb gələcəyimə ümid bəsləyir. Amma David Rüxsara xalagil barədə bir kəlmə də yazmamışdı, ya unutmuşdu, ya məsləhət bilməmişdi, ya da başqa səbəbi vardı. Özü ətraf yerlərin bitki örtüyünü öyrənməklə məşğul idi, gələcəkdə Parisdə gördüyü Nəbatat bağına oxşar bağ salmaq arzusundaydı. Bir də ki, imkan tapan kimi evimizin xarabalığının yerində xudmani ev tikəcəkdi ki, mən Tiflisə qayıdanda öz ocağım olsun. Züleyxa barədə dəqiq bir şey yazmaması ürəyimi köz-köz elədi. Bundan sonra mənim Tiflisə getməyim, yəqin, ikimiz üçün də dözülməz yaradan başqa bir şey olmazdı. Davidə cavab yazmaq *(necə göndərəcəyimi fikirləşmirdim)* üçün özümü uzun müddət zorladım, amma nə yazacağımı kəsdirə bilmədim: o gedəli iki il yarım ərzində Sorbonnda oxumaq haqqı qazanmağımdan və

müsyö Kalenin cansıxıcı pansionunda dərs deməyimdən başqa ciddi bir şey baş verməmişdi. Arabir ödəməli olduğum ehtiyaclarımı nəzərə almasaq, nə şərablıq, nə qadınlıq halım vardı, öyrənməyə, sağ qalmağa, düşdüyüm çıxılmazlıqdan çıxmağa can atırdım. Amma hər halda, həyatımı tərpədən iki şey baş verdi, bu da ki, sonrakı taleyimi həll elədi.

48. Sorbonnda oxuduğumun beşinci ili hiss elədim ki, içimdə nəsə dəyişib: tutaq ki, oxudum, təhsilimi tamamladım, lap canıma cəfa basıb docteur en Sorbonne – yəni Sorbonn məzunu oldum, bəs sonra neyləyəcəkdim? Parisdə qalıb Müsyö Kalenin pansionunda, Kollec dö Fransda dərs demək imkanından başqa məni nə gözləyirdi? Bundan ötrü ömrümün beş ilini də yelə verib qalmağa dəyərmi? Üstəlik, axır illər məni gündoğan məmləkətləri çəkirdi, Osmanlıda, Səfəvi məmləkətində olmaq, görüb-duyduqlarımı qələmə almaq beynimə elə yerləşmişdi, get-gedə böyüyüb dözülməz hala çatdığını hiss eləyirdim. Elə o ildə təsadüf üzündən dilmancı olduğum Bursalı ayna taciri Turxan ağanın İstanbul *(sonralar Osmanlı məmləkətində rastlaşdıqlarımın çoxu Konstantiniyyəni belə adlandırırdı, mən də istisnalıq fikrinə düşmədenyönim)* Ədirnə, Bursa, Konya barədə danışdıqları məni yerimdən-yurdumdan elədi. Turxan ağayla tanışlıqdan sonra içimdə bir duyğunun asta-asta, amma inadla özünü bildirdiyini sezdim. Nə Xose Karvalyonun məsləhətləri, nə Jilber Sorelin xahişləri, nə müsyö Jan Klöberin öyüd-nəsihəti, nə də Kristof Duatyönün dostyana ərki kömək elədi. Artıq dərslərə getmirdim, gündüzlər Turxan ağanın dilmanclığıyla başımı qatır, axşamlar Parisin cəlbedici məkanlarını gəzirdim. Turxan ağanın sayəsində cibim pul tanımışdı, gündə on frank az pul deyildi, üstəlik müsyö Kalönün pansionundakı dərslərə hələ davam elədiyimdən, artıb qırx iki frank olmuş donluğum vardı. Bir aydan sonra Kristof Duatyö Sorbonndan xaric olunmağım barədə xəbər gətirdi. Bu barədə Müsyö Klöberə özüm demişdim, üstəlik də, artıq Parisdə öyrənəcəyim bir şey olmadığını qərarlaşdırıb İstanbula getmək barədə düşünürdüm. Əlbəttə, Turxan ağayla getmək daha ağıllı olardı, amma mənə indiyəcən gizlədiyim bir təfərrüat mane olurdu, cavanlığın əfvə layiq olduğunu nəzərə alıb o sirri də açım.

49. Madam Qrenyönü və qulluqçuları nəzərə almasaq, Parisdə olduğum illər ərzində Violetta Kabrini uzun müddət ünsiyyət saxladığım yeganə qadın idi. Onunla Sorbonnda oxuduğumun üçüncü ilinin bir payız günündə, əhvalımın yaxşı olduğu nadir məqamların birində xoş təsadüf üzündən Lüksemburq bağında rastlaşmışdım. İndi xatırlamadığım səbəbdən bir-iki kəlmə kəsmişdik. Pozuq firəngcəsindən başqa məmləkətdən gəldiyini duyub sorğu-suala tutmuşdum, məlum olmuşdu ki, Veneziadandı, altı ay qabaq bir firəng dənizçisinin yağlı vədlərinə aldanıb Parisə gəlibmiş, dörd aydan sonrasa dənizçi izsiz-soraqsız yoxa çıxıb, indisə Veneziaya qayıtmaq ümidilə yaşayır. Onda Violettaya cibimdəki on iki frankı verdim, özünün razılığıyla kirayəyə qaldığı yeri bələdlədim. O gündən həftədə bir dəfə baş çəkir, ürəkdirək verir, öz xərclərimdən artırdığım pulla kömək eləyirdim. Bundan nə Xosenin, nə Jilberin, nə Kristofun xəbəri vardı, heç artıq qadınım olmasıyla qürrələnmək fikrinə də düşməmişdim. Ünsiyyətimiz öz-özünə, minnətsiz-filansız axarına düşmüşdü, Violettanın yanında taleyimin ağrılarını unudur, Parisdən getmək qərarımın qətiləşdiyini duyurdum. Artıq yol üçün pul da yığmağa başlamışdıq. Davidin göndərdiyi iki yüz frankı, Turxan ağanın səxavətindən qazandığımın bir hissəsini xərcləməməyə çalışırdım. Sorbonnla üzülüşəndən sonra Xose Karvalyonu da taleyin ixtiyarına buraxdım: bilmirəm buna xəyanət çaları vermək olarmı, onsuz da nə vaxtsa çıxıb gedəcəkdim, yollarımız ayrılacaqdı. Jilber Sorel artıq evlənmişdi, öz qayğıları vardı. Beləcə, Daviddən ayrılmağımın altıncı ilində – 1703-cü ilin bir yay günündə binəsib Violettayla Veneziaya doğru yola çıxmağı qət elədik. Cibimdə altı yüz frank, yanımda taleyini mənə tapşırmış cavan qadın, beynimdə dolaşıq fikirlər güneyə doğru yollandıq. Onda fikirləşirdim ki, *görünür, insanın həyatında baş verənlərin hamısı yaxşılığa doğrudu; bəzən adama elə gəlir, hər şey bitib, yolu çıxılmazlığa dirənib, sonra məlum olur ki, rastlaşdığı çıxılmazlıq yox, taleyin dönüşü, yeni, başqa bir həyatın başlanğıcıdı...*

# VIII

# VENESİYADA ÜÇ İL, YAXUD EHTİRAS GİRDABINDA

*Ehtiras çox vaxt ağıllı adamı səfehə çevirir,*
*amma çox vaxt da səfehlərə ağıl bəxş eləyir.*

*Hersoq dö LAROŞFUKO*
*(XVII yüzil)*

50. Görkəmindən mənə gürcü qızlarını xatırladan, bir az laübalı, bir az sadəlövh, amma vətənindəki, sorağını eşitdiyim kurtizan qadınlar kimi sevgi məsələlərində məharətli olan bu iyirmi üç yaşlı Violetta Kabrinidən nə umurdum? Hələ ki, Parisdən üzü güneyə doğru şığıyan keblərdə pozuq firəngcəsilə cürbəcür məzəli əhvalatlar danışır, yorulanda başını çiynimə qoyub mürgüləyir, karvansaralarda, qonaq evlərində böyrümə sığınıb mışıl-mışıl yatırdı – elə bil taleyini mənə əmanət eləmişdi. O vaxt otuz yaşım tamam olmuşdu, gəncdim, Violettanın dediyinə görə, kişi kimi yaraşıqlıydım, damarımdakı qan məni yataq məsələlərində üzüqara eləmirdi, varlı olmasam da, Allahın mərhəməti üzündən Parisdə keçirdiyim on altı il ərzində dolanmaqdan ötrü pulum olmuşdu. İndi də Meleni, Sansı, Juanyini, Dijonu, Lionu, Oranjı, Avinyonu, Arlı… arxada qoyub Marselə doğru can artırdım. Gecələdiyim karvansara hücrələri, qonaq otaqları, yolqırağı daxmalar, görünür, bundan sonra həyatımın keçəcəyi yerlər olacaqdı. Hələ bir gecə atlar bərk yorulduğundan, Lionla Oranj arasında bir çayın qırağında, ulduzların altında gecələdik. Üzdən Parisdə gördüyüm məzhəkəçilərə oxşayan qaskon kebinin içindən arabir başını uzadıb otluqda bir-birinə sarmaşmış bu cütlüyə baxırdı, yəqin, öz-özlüyündə bizi xoşbəxt sayırdı, həmin məqamlarda ikimizin də gələcəklə bağlı ümidsizliyimizi gizlətmək üçün bir-birimizdən bərk yapışdığımızı anlaya bilməzdi. Marseldə üç gün qalıb uzun-uzadı Veneziaya

gəmiyləmi, yoxsa kebləmi getməyi qərarlaşdırmağımız bəlkə də Violettanın evinə yetişəcəyi, sonra bu nağılın bitəcəyi qorxusuyla bağlıydı, bunu mən etiraf eləyirdim, qadınımın nə fikirləşdiyinisə soruşmadım. Axır ki, yönümüzü günbatana çevirməyi Tulondan, Nissadan, Turindən, Milandan, Veronadan keçib Veneziaya varid olmağı qərarlaşdırdıq.

51. Yəqin ki, hər şəhərdə gördüklərimizi, yaşadıqlarımızı, tanıdıqlarımızı *(ən azı, yadımda qalanları)* danışsam, bu hekayət əndazədən çıxar, ona görə də təkcə Veronada qarşılaşdıqlarımı xatırlatsam, bəsdi. Rəhmətlik madam Qrenyödən qalan kitablar arasında əlimə üstündə ingilis tamaşa yazarı Uilyam Şekspirin adı olan əlyazma tapdım. Madam Qrenyö narın xəttilə adamların mükaliməsindən, hərəkətindən ibarət olan əhvalatları firəngcəyə çevirmişdi. O əhvalatlardan bir neçəsinin adı yadımdadı: «İki veronalı əsilzadə», «Venesyia taciri», «Romeo və Cülyetta»… Bunları həmin əhvalatlar Veronada baş verdiyinə görə xatırladım. İki aşiqin əhvalatını burda hamı bilirmiş, hətta biri, guya hadisələrin baş verdiyi evi, meydanı göstərdi. O vaxt Leyliylə Məcnunun, Fərhadla Şirinin əhvalatlarını rəvayət kimi eşitmişdim, amma hələ Şeyx Nizaminin neçə yüz il qabaq o eşq macəralarını qələmə aldığını bilmirdim. Verona vaqiələrini qələmə alansa zənnim aldatmırdısa, yaxın zamanlarda yaşanmışları yazmışdı. Hər halda, ayrıca sənət növü yaratmışdılar: o vaqiələri mükalimə şəklində yazır, sonra bir binanın içində, ya meydanda qurulmuş hündür, böyük taxt üzərində təqlid eləyirdilər. Tiflisdə Novruz bayramı günlərində məhəllə cavanlarının cürbəcür paltarlar geyinib oyun çıxarmalarına, bir qədər də meydan tamaşalarına oxşayırdı. Xülasə, Veronadan Veneziaya yola çıxanda Violetta şəhərin son tərifinə başladı, duruxa-duruxa suların içində tikilmiş röya kimi bənzərsiz şəhər təsvir elədi. Əlbəttə, min dəfə eşitməkdənsə, bir kərə görmək yaxşıdı, amma doğulub-böyüdüyü şəhərə yaxınlaşdıqca Violettanın sevinclə yanaşı narahatlığı da artırdı. Bunu açıq-aşkar sezsəm də, hələ səbəbini bilmirdim.

52. Veneziaya – qədim venez qövmünün adını daşıyan şəhərə *(bunu madam Qrenyödən eşitmişdim, gündoğandan sel kimi axan «Allahın qırmancı» Atillanın hun qoşunlarının keçib buralara çatdığınısa Davidin Kollej dö Fransda öyrəndiklərindən mənimsəmişdim)* yaxın-

laşdıqca məni harda yerləşəcəyimiz əndişəsi bürüyürdü. Hələ ki, cibimdə üç yüz frankacan pulum qalmışdı, bu vəsaitlə bir neçə ay çulumu sudan çıxara bilərdim. Violetta ailəsinə qayıdacaqdımı, sular şəhərində nə qədər duruş gətirəcəkdim, bundan sonra necə yaşayacaqdım – bütün bunlar dumanlı fikirlər içində çıxılmazlıq divarıyla rastlaşırdı. Görünür, bu barədə Violetta da çox düşünmüşdü, quzey səmtdən şəhərə girəndə dedi, yəqin, ailəsinə qayıtmayacaq, çünki fransız dənizçisinə qoşulub qaçmasını nə atası, nə də qardaşları bağışlayar, ona görə də münasib yerdə ev kirayələyib bundan sonra neyləyəcəklərini fikirləşmək daha düzgün olar. Sonuncu kebin sahibilə haqq-hesabı üzəndən sonra Violettayla qıraqları hörülmüş böyük arxın içində qaynaşan qondola adlı qayıqlardan birinə mindik. Qayıqların hamısı qara rəngdəydi, Vilolettanın dediyinə görə, neçə illər əvvəl şəhərdə taun xəstəliyi peyda olub adamları çəyirtkə kimi qırmışdı, bir neçə il ərzində əlli min nəfərəcən adam tələf olmuşdu, bu səbəbdən qayıqların matəm rəngində boyanmasına qərar verilmişdi, həmin vaxtacansa qayıqlar al-əlvan rəngdəydi, sahiblərinin zövqünə uyğun bəzədilirdi. Sol yanı sağ yanından daha geniş olan, bir avarçının asanlıqla hərəkətə gətirdiyi o qayıqda möhtəşəm saraylara, gözəl evlərə tamaşa eləyə-eləyə gedirdik, bütün bunlar tozlu yollardan, tutqun karvansaralardan, miskin daxmalardan sonra mənə nağıl kimi gəlirdi.

53. Cəmi-cümlətanı mənim bir sandığımdan, bir də Violettanın bağlamasından ibarət olan yükümüzü Rialto körpüsü yaxınlığında sahilə çıxardıq. Violetta qayıqçıyla italyanca bir qədər söhbət eləmişdi, güman ki, harda münasib otaq kirayələyə biləcəyimizi soruşurdu. Sahildə də yükçülərlə danışdı, axır ki, iki nəfər yükümüzü götürüb bir neçə yüz addımlıqdakı ikiqatlı binalara doğru apardı. Daha iki nəfərlə uzun-uzadı söhbətdən sonra məlum oldu ki, ayda on iki dukata *(frankla dukatın məzənnəsini bilmədiyimdən qiymətin ucuz olub-olmadığını ayırd eləyəmmədim)* otaq kirayələmək mümkündü. Gözdən-könüldən iraq yerdi, Violetta nəyisə izah eləməyə çalışırdı, dəyib-toxunan olmaz. Əslində, harda yerləşəcəyimizin məndən ötrü fərqi yoxudu, fikrim-zikrim taleyimin bu şəhərini doya-doya gəzməyin, gələcəyimlə bağlı dolaşıq duyğular burulğanından çıxmağın yanındaydı. Axır ki,

Violettanın sinyora Kapuççi çağırdığı yaşlı və kədərli qadının evinin birinci qatındakı balaca otağı tutub yerləşməli olduq. Violetta sonra dedi ki, ev sahibəsi ər-arvad olub-olmadığımızla maraqlanıb, o da nikaha girməyə hazırlaşdığımızı söyləyib. Firəng olmağım (*hələ də Jozef Qrenyö idim, Violetta da məni belə tanıyırdı)* sinyoranın heç xoşuna gəlməmişdi, italyanca danışa bilməməyim də ürəyincə deyildi, amma görünür, ayda on iki dukat ona çox lazım idi, bu səbəbdən yarıkönül razı oldu. Parisdən bu sular şəhərinəcən olan iyirmi altı günlük yolçuluğumuzun sonunda bizi nə gözlədiyini unutmağa çalışıb umuda sığınmaqdan başqa əlacımız yox idi. Sinyora Kapuççinin köməyilə aclığımıza əlac qılandan sonra sevgi dənizinə çıxıb ehtiras yelkənlərini açdıq…

54. Sular şəhərindəki üç illik həyatımın ilk ayları yarıbayğınlıq içində keçdi. Bir vaxtlar dünyanın sayılıb-seçilən, qüdrətli məmləkətlərindən olan Veneziaya şöhrətinin qürub çağında gəlsəm də, o əzəmətin izlərini görməkdən zövq alırdım. Bir vaxtlar, bütün xristian aləminin qızılına sahib olan, Məğriblə Məşriq arasında ticarəti əlində cəmləşdirən möhtəşəm şəhəri dolaşmaq məndən ötrü Allahın bəxş elədiyi xoşbəxtlikdi. San-Marko məbədinin və Doclar sarayının yanından axıb Pyasale Romanı San Marko sututarıyla birləşdirən, latın hürufatındakı «S» hərfini xatırladan Böyük arxla qondolada üzmək, Kalerci, Qrimani, Korner-Spinelli, Moçeniqo, Kontarini, Bernardo, Roskari saraylarının möhtəşəm mənzərəsinə tamaşa eləmək mənə yuxu kimi gəlirdi. «Türk anbarı» *(görünür, Veneziayla uzun illər döyüşmüş Qanuni Sultan Süleymanın vaxtından qalmışdı)* mənasını verən Fondako Dey Turkinin Bizans və Venezia üslubunda tikilmiş binası qarşısında heyrətlənmək, şəhərin rəmzi sayılan Rialto körpüsündə gəzmək, Qızıl Ev adlanan tikilinin gözəlliyi müqabilində susmaq… izaholunmaz duyğuydu. Bunlar barədə Sorbonndakı memarlıq üslublarından dərs deyən müsyö Dümondan öyrənmişdim, indi gözlərimlə görür, bütün bunların mənə tanış olduğu izzəti-nəfsimi oxşayırdı. Belə gəzintilərə tək çıxanda Violettadan öyrəndiyim italyan sözlərilə, firəng kəlmələrilə, əl-qol hərəkətlərilə vəziyyətdən çıxırdım. Violettasa alışdığı bu şəhərdə məni heyrətləndirən nəyinsə tapıldığına sevinir, rahatlanırdı. Gördüklərimi, duyduqlarımı söyləsəm, mətləb çox uzanar,

bu səbəbdən bir qədər yüyrək danışmağa, təfərrüatlara çox uymamağa çalışıram.

55. Amma nağılın bitdiyi vaxt da olur. Veneziaya gəldiyimizin üçüncü ayında olan-qalan pulumuz da tükəndi. Təkcə sevgiylə yaşamaq mümkün olsaydı, dünyada bu qədər faciələr yaşanmazdı. Çox düşünüb-daşınandan sonra hər gün ticarət gəmilərinin boşalıb-dolduğu limana getməyə başladım ki, bəlkə dilmanca *(Allahın nemətindən türkcəmlə yanaşı firəngcəni, Axund Səməndərin sayəsindəsə ərəbcəni, farscanı bilirdim)* ehtiyacı olan bir Allah bəndəsilə rastlaşdım. Ümidlə çıxdığımın üçüncü günü türkcəni bilən bir yunana firəngcə dilmanc lazım oldu, gündə üç dukata altı gün ona xidmət elədim; sonra Allah məni təbrizli tacirə rast gətirdi, on altı illik ayrılıqdan sonra *(Davidlə hərdən bir-iki kəlmə atdığımızı nəzərə almasaq)* doğma dilimdə danışdım. Veneziadan şüşə və ayna aparıb İrəvanla Xorasan arasındakı şəhərlərdə satan Mərdanəli bəy Şamlu Səvəfi məmləkətində olub-keçənlərdən danışdı. O qədər mehrləşmişdik ki, ticarətini bitirib, yüklərini bağladıb gəmisini gözlədiyi günlərdə də yanına gedir, liman yaxınlığındakı karvansara hücrəsində, ya da o ətrafda gəzə-gəzə söhbət eləyirdik. Ayrılıq məqamı yetişəndə ikimizin də gözümüz yaşardı. Bu mehrdən də mənə otuz iki dukat qaldı. Beləcə, Allah ruzimi yetirdi, mənə elə gəlirdi, dünyanın dərdini çəkmədən bu cür yaşaya, Violettanın sevgisindən məst ola, kefim istəyəndə də sənət gözəlliklərindən zövq ala bilərəm. Artıq məbədlər, saraylar, körpülərlə yanaşı, rəsmlərə də maraq göstərməyə başlamışdım, Sorbonndakı illərdə adlarını eşitdiyim Messina, Bellini, Corcone, Tisian, da Vinçi, Rafael, Veroneze, Tintorettonun rəsmlərini görmüşdüm. Şəhərin baş meydanında öküz döyüşünə, canbazların oyunlarına, vəhşi heyvanları ram eləyənlərə baxmışdım. İçi əskiylə doldurulmuş girdə zamşı ayaqlarıyla vurub iki dirəyin arasından keçirməyə çalışanlar məni çox nəşələndirmişdi. Artıq Bohem və Parisin kölgəsində qalsa da, muncuqların, şüşələrin, aynaların gözəlliyinə baxmaq da ayrı bir duyğuydu.

56. Allahın məsləhətiymiş, bu nəşəli günlər qəfil, həm də faciəvi şəkildə başa çatdı. Günlərin birində qayıdıb Violettanı evdə tapmadım, üstəlik, sinyora Kapuçği sandığımı dəhlizin küncünə atıb məni içəri buraxmaq istəmirdi. Onda iki il yarım

idi, Veneziadaydım, italyancanı mükəmməl olmasa da, babat bilirdim. Ev sahibəsinin dediyindən belə çıxdı ki, Violettanı kurtizan qadın, yəni yolsuz hesab eləyib, qanunları pozduğuna görə həbsə almağa qərar veriblər, o da bundan vaxtında xəbər tutub, izini itirməyi bacarıb, mənim də bəxtim gətirib ki, onun oduna yanmamışam. Pyasetta meydanında, Fialto körpüsü üstündə bir neçə dəfə belə günahkarları necə cəzalandırdıqlarını görmüşdüm, ona görə daha fikirləşmədim, sinyora Kapuççiylə haqq-hesabı üzüb, sandığımı qondolalardan birinə atıb yeganə sığınacaq yerimə – limana doğru getdim. Bu məqamda başqa bir şey barədə *(məsələn, Violettanı axtarmaq, o səmtdə başqa ev kirayələmək)* düşünmək, şübhəsiz ki, səfehlik olardı. Onsuz da Violetta və Venezia macəram gec-tez bitməliydi, təbrizli tacirlə rastlaşandan bəri gözlərim limana yan alan gəmilər arasında «Səadət astanası»ndan – İstanbuldan gələnləri, dənizə çıxanlar arasındasa İstanbula gedənləri arayırdı. Liman yaxınlığındakı karvansaranın dar hücrəsində yerləşəndə hər şeyin bu cür bitməsinə sevinsəm də Violettaya yazığım gəldi: mənim kimi o da taleyin yollarında özgə bir şey ummamışdı, üç il ərzində bütün sevgisini mənə qızırğalanmadan, bol-bol vermişdi, yəqin ki, yollarımızın nə vaxtsa ayrılacağını da bilirdi. Taleyi onu kimə rast gətirəcək, yanımda olduğu günləri nisgillə xatırlayacaqmı, haqq eləmədiyi cəzadan canını qurtaracaqmı – bunu tək Allah bilir. Mənimsə ən azı yaxın taleyim bəllidi – səadətimi Səadət Astanasında arayacaqdım. Fikrimcə, *keçmişdən yapışıb qalmaq düzgün olmazdı, nikbin olmaq, yaxşı şeylər barədə düşünmək, İlahinin bütün göndərdiklərini, sorğu-sualsız qəbul eləmək lazım idi; nə qədər ağlasığmaz olsa da, baş verənlərin hamısı yaxşılığa doğruydu...*

# IX

# YEDDİ TƏPƏ ÜZƏRİNDƏKİ XƏYAL

*«Onlar Konstantiniyyəni fəth eləyəcəklər!*
*Bunu bacaracaq əmir də,*
*qoşunu da şöhrət içində üzəcəklər...»*

***Muhamməd Peyğəmbər (ə)***

57. Tarixi dəqiq yadımdadı: miladi 1706-cı il may ayının 19-da Veneziayla vidalaşıb Səadət Astanasına doğru yola çıxan «Müqəddəs Marko» gəmisinin göyərtəsinə ayaq basanda Jozef Qrenyö öldü, yəni mən köhnə həyatımla vidalaşdım *(əsl Jozef Qrenyö, ola bilsin, hələ də hardasa yaşayırdı),* marselli tacirin dilmancı olan, şərqlilər sayaq saqqal saxlayıb, alimanə görkəm alan Jozef Tiflisi simasında təzədən doğuldum. Allah bir tərəfdən bağlayanda o biri tərəfdən açır, Leon Lemezyöyə – gəmi sahibinə razılaşıb, olan-qalan bütün pulumu verib, cəmi altı dukatla qalandan sonra rast gəlmişdim. İstanbulda qalacağı müddətdə – təxminən iki ay çəkərdi – dilmanclığım əvəzində qırx beş dukat alacaqdım, üstəlik, müsyö Lemezyönün hesabına yeyib-yatacaqdım. Bir hami *(madam Qrenyö),* bir dost *(Xose Karvalyo),* bir məşuq *(Violetta Kabrini)* itirəndən *(Tiflisdəkilərlə görüşəcəyimə əmindim),* üstəlik, Violettanı gözləyən təhlükəyə qarışmaqdan qurtulub bursalı Turxan ağayla görüşəndən bəri arzuladığım Səadət Astanasına gedirdim. Bu məmləkət barədə Turxan ağadan eşitdiklərimdən, bir də təbrizli tacirin danışdıqlarından başqa çox şey bilmirdim, o vaxt heç Konstansadan German hüdudlarınacan uzanan torpaqların Osmanlı padşahlarının fəth elədiklərindən belə xəbərim yox idi. Mən Parisdən Veneziaya gələn il Osmanlı quzey hüdudlarındakı savaş təzəcə bitib Avstriyayla razılıq əldə olunmuşdu, üstəlik, Sultan İkinci Mustafanı taxtdan salıb yerinə Üçüncü Əhmədi oturtmuşdular. Maraqlısı buydu ki, olub-keçənlər doğulduğum məmləkətlə – Gürcüstanla bağlıydı: o yay

məmləkətimdə qalxan qiyamı yatırtmaq üçün göndərilən qoşun İstanbulda itaətdən çıxıb Mustafanın qoşununu dağıtmış, özünü Topqapı sarayında atası Dördüncü Mehmet kimi gözdustağı eləmişdi. Şübhəsiz, məni həmin məqamda bu cür məsələlər az maraqlandırırdı, amma gəmidə keçirdiyim günlərdə saray oyunlarına xəstəhal marağı olan müsyö Lemezyönün sayəsində xeyli mətləblərdən xəbər tutdum. Dediyinə görə, İstanbulda dövlət qulluğunda olan tanıdığı adamlar vardı, onlarla da görüşəcəkdi.

58. Krit adası yaxınlığında yunan, yaxud başqa qövmdən olduqlarını bilmədiyimiz bir quldur gəmisinin bizə həmlə eləmək niyyətini nəzərə almasaq, səfərimiz sakit keçdi. Gəmimizin burnundakı balaca top bir kərə atəş açandan sonra yaxınlaşmaq istəyən karavella yönünü çevirib tələsik uzaqlaşmalı oldu. Gəmi sahibinin iltifat göstərib müsyö Lemezyöyə ayırdığı rahat yerdə oturub saatlarla danışır, Paris sarayında baş verənləri eşitməyə məcbur olurdum. Müsyö Lemezyönün xidmətçisi, həmişə qaşqabaqlı və donquldanan Qaston hərdən ağasının gözündən yayınır, əlini boğazına çəkib bezdiyinə işarə eləyirdi; görünür, o danışmağa bir kəs tapmayanda xidmətçini çənəsinin altına salırdı. Amma bir şərqlinin firəngcəni bu qədər yaxşı bilməsi, oxumaq üçün uzun yollar keçib, əzablara dözməsi müsyö Lemezyönün xoşuna gəlirdi, ona görə də mənə dilmancı kimi yox, həmsöhbəti kimi baxırdı. Hətta mənə sirr açan sayaq kral on dördüncü Lüdovikin naziri Kolberin Muranodakı ayna ustalarının üçünü necə qızıl, daş-qaşla ələ alıb Firəngistanda ayna hazırlatdığını, bununla Veneziaya sarsıdıcı zərbə vurduğunu da danışdı. İndi Müsyö Lemezyö İstanbula firəng aynası, bir də Veneziadan aldığı bəzəkli qab-qacaq aparır, malını tanışlarının əlilə sultan sarayına satmağa ümid eləyirdi. Düzü, müsyö Lemezyönün bu məharətinə heyran qaldım, dedim, şübhəsiz, zənginliyi sevən sultanlar belə şeylər üçün pul xərcləyərlər, bundan da çox xoşhal oldu. Kritdən ötüb Ege dəryasına çatanda ötəri qasırğa da yaşadıq, amma gəmiçibaşı ürək-dirək verib artıq hər şeyin ötüşdüyünü söylədi. Səfərə çıxdığımızın on səkkizinci günü uzun bir boğazdan keçib Mərmərə dəryasına girdik, iki gündən sonrasa yeddi təpə üzərindəki xəyalın cizgilərini gördüm, anladım ki, Səadət Astanasındayam.

59. Gəmimiz Boğaza səpələnmiş cürbəcür gəmilərin, Veneziada gördüyüm qondolalara oxşamayan qayıqların arasından, Üsküdar səmtindəki Qız qülləsinin yanından ötüb Xalicə girənəcən göyərtədə dayanıb möhtəşəm şəhərin mənzərəsinə baxdım. Təpələr üzərindəki minarələri göylərə baş çəkən camelər, şahanə saraylar, əzəmətli sədlər, əlçatmaz qüllələr yamaclara və çökəklərə səpələnmiş kasıb evlərinin miskinliyini görməyə qoymurdu. Müsyö Lemezyö İstanbulda iki dəfə olmuşdu, bu səbəbdən fikri-zikri gətirdiklərini sağ-salamat yerinə çatdırmaqla bağlıydı, mənsə, ona verdiyim vəd olmasaydı, gəmidən enən kimi, pay-piyada şəhəri dolaşar, gördüklərimdən aldığım ləzzətin ömrünü uzadardım. Amma indiki halımda bu ləzzət gəmi körpüyə yan alanacan sürdü, sonra çörəkpulu üçün özlərini fəda eləməyə hazır olan yükçülərin qələbəliyini gördüm. Hava qaralanacan seçdiyimiz dörd yükçü müsyö Lemezyönün mallarını daşıyıb körpünün iki yüz addımlığındakı anbara yığdılar. Müsyö Lemezyö anbarın və yaxınlıqdakı karvansaranın sahibilə ötən dəfələrdən ünsiyyət qurmuşdu, hər şey iki tərəf üçün də sərfəli şəkildə həll olundu, gecələmək üçün karvansaranın xüsusi döşənmiş hücrəsində yer ayırdılar, mən də Qastonla adi hücrələrin birində yerləşdim. Axşam yeməyi vaxtı müsyö Lemezyö sabahdan saraydakı tanışlarıyla görüşəcəyini, gətirdiyi malları satmaq barədə danışacağını söyləyib, yorğun olduğunu, tez yatacağını bildirdi. Mən də yorğun idim, amma gözümə yuxu getmədi, Qaston yatağına girəndən sonra şamı söndürdüm, bayıra çıxıb gecənin pərdəsinə bürünmüş şəhərə, qırçınları ay işığında bərq vuran dalğalara baxdım. Qəfildən Tiflis üçün darıxdım, uzun illərdən bəri həsrətini çəkdiyim məmləkətimin bu qədər yaxın olması məni əməlli-başlı kövrəltdi.

60. Müsyö Lemezyönün saraydakı tanışı nə Xəzinədarbaşı, nə Bostançıbaşıydı, yaxın illərin savaşını qələmə almış Dəftərdar Sarı Mehmet Paşaydı. Dediyinə görə, o yeni sultanın taxta çıxmasında çox əmək sərf eləmişdi, hətta əvvəlki sultanın tərbiyəçisi və Şeyx-ül-islamı Feyzulla Əfəndinin Ədirnədə zindana salıb, başını kəsdirib, Tuna çayına atdırmışdı, indi yeni sultanın yanında söz yiyəsiydi. Əslində, mən bir neçə gün dincəlib şəhəri gəzmək niyyətindəydim, müsyö Lemezyösə tələsirdi, üç-dörd

həftə ərzində gətirdiyini satıb, alacaqlarını alıb elə həmin gəmiylə qayıtmaq fikrindəydi. Bu səbəbdən günorta namazından sonra qayığa minib Boğazın qarşı səmtinə keçdik, sonra ikiatlı araba kirayələyib saraya getdik. Əzəmətli Sultanəhməd camesini ötdük, Ayasofya camesinin qənşərində, müsyö Lemezyönü dilə tutub bir qədər dayandım, o möhtəşəm tikilinin gözəlliyinə doya-doya baxdım. Topqapı sarayına Bab-üs-səlamdan yaxınlaşdıq, Gözətçilərə dərdimizi anladanacan xeyli tər tökməli oldum, ya anlamaq istəmirdilər, ya da Dəftərdar Mehmet Paşanın qorxusundan ricamızı ona çatdırmaq istəmirdilər. Sonra gözətçilərin biri kiminləsə danışıb Dəftərdar Sarı Mehmet Paşanın sarayda olmadığını, Padşah Həzrətlərinin buyruğunu yerinə yetirməkdə olduğunu, bir həftə-on gün keçmiş gələ biləcəyini və firəng qonağın ismarışının çatdırılacağını söylədilər. Müsyö Lemezyö də uğursuzluqdan bərk mütəəssir olmuşdu, mənsə üzə vurmasam da, öz-özlüyümdə buna bərk sevinirdim: o bir həftə-on gün ərzində vaxtımı şəhəri gəzməyə sərf eləyəcəkdim. Saraydan aralananda onun deyintisinə fikir verməyib Ayasofya camesinə bir də tamaşa elədim, At Meydanını dolaşdım, karvansaraya yalnız şər qarışanda gəlib çıxdıq.

61. Gözləmək müsyö Lemezyödən ötrü işgəncəyə bərabər hal idi, ara vermədən donquldanır, vurnuxur, məni özündən uzağa buraxmaq istəmirdi. Aramızda, azı, iyirmi yaş fərq olardı, amma uşaq qədər hövsələsi yoxudu, bu da məni həm əyləndirir, həm də bezdirirdi. Hövsələmi basıb dilə tutdum, bir gün Qalata qülləsinə, o biri gün Rumeli hisarına, üçüncü gün Fəthiyyə camesinə, sonra Süleymaniyyə camesinə… baxmağa apardım. Gəzintilər vaxtı deyinməyə o qədər də macal tapmırdı, bəzən də Firəngistanda, Veneziada, German torpağında, başqa yerlərdə gördüklərini dilinə gətirib maraqlı müqayisələr aparırdı. Mən günbatan məmləkətlərdəki qala və qəsrlərin insanda tutqun duyğular oyatması barədə fikri ilk dəfə ondan eşitdim, həqiqətə yaxın olduğunu təsdiqlədim. Memar Sinanın adını Süleymaniyyə camesinə tamaşa eləyən gün içəridən çıxan bir mömindən eşitdim, bu cür sənət incisi yaratdığına görə ruhuna dua oxudum. Belə günlərdə müsyö Lemezyönü ləziz yeməklər verilən meyxanalarla da tanış elədim. Aradabir etirafını dilinə gətirirdi, mənsiz

bu on gündə ya dəli olacağını, ya da xəstələnəcəyini deyirdi. Günün yorğunluğundan sonra müsyö Lemezyö tez yatırdı, onsuz da azdanışan, çox vaxt yarıyuxulu olan Qaston da hava qaralmamış yatağına girirdi, mənsə dəryanın qırağında gəzir, Ay işığı düşən suda gəmilərin qaraltısına, camelərin göy üzünə millənən minarələrinə baxırdım. Əlbəttə, gördüyüm ilk məcid – Tiflisdəki Şah Abbas məscidi nəinki Süleymaniyyə, heç Fəthiyyə, Mehrimah, Validə Sultan camelərilə müqayisəyə gəlməzdi, heç Parisdə, Marseldə, Veronada, Veneziada gördüyüm kilsələr də Ayasofya ola bilməzdi. Bütün bunlar məndən ötrü Osmanlının əzəmətinin ifadəsiydi.

62. Dəftərdar Sarı Mehmet Paşanı heç on gündən sonra da tapmadıq. Karvansara sahibi Xeyri Əfəndinin dönə-dönə vəd alıb açdığı sirdən belə çıxırdı, sarayda Padşah Həzrətləri Sultan Əhmədə dönük çıxanlar baş qaldırmaq, taxta onun oğullarından birini çıxarmaq hazırlığındaymışlar, amma aralarından kimsə bu niyyətlərini Sultan Həzrətlərinə çatdırıb, ola bilsin, Dəftərdar Sarı Mehmet Paşanın başı bu işlərə əncam çəkməyə qarışıb. Doğrudan da sonrakı həftə saraya gedəndə dönə-dönə sorğu-suala tutulduğumuzu, yoxlandığımızı görəndə deyilənlərin şayiə olmadığına inandım. Müsyö Lemezyönün Allahı varmış, Bab-üs-səlamdakı gözətçilər hücrəsində bir az gözlədib içəri buraxdılar, başımızı qaldırmadan geniş həyətdən keçib üzbəüzdəki tikiliyə sarı getdik, bizi iki qapı oğlanının müşayiətilə Divani-Hümayunun yerləşdiyi qülləli tikiliyə apardılar. Dəftərdar Sarı Mehmet Paşa qonağını xalılar döşənmiş böyük bir otaqda qəbul elədi. Təxminən altmış yaşlarında uzunboy, arğaz adamdı, əyninə zərli göy xalat geyib qurşaq bağlamışdı, başında ağ rəngli hündür dördkünc papaq vardı. Yorğun görünürdü, ola bilsin, ona görə söhbətə həvəs göstərmədi. Müsyö Lemezyönün üdüləyib tökdüyünü sakit tərzdə, aramla izah elədim, Dəftərdar Mehmet Paşa bir müddət sınayıcı nəzərlərlə firəng tərəfə baxdı, nəsə düşündü, sonra dedi, ona çatdır ki, buyuruq verərəm, gəlib baxarlar, məsləhət olsa, sövdələşərlər. Sonra İstanbula necə gəldiyimizi, Osmanlı hüdudları içində incidilib-incidilməyimizi soruşdu, Sultan Həzrətlərinin sayeyi-mərhəmətindən hər yerdə iltifat gördüyümüzü deyib minnətdarlıq elədim. Divani-Hüma-

yunun binasından çıxıb elə başıaşağı da Bab-üs-səlama qayıtdıq. Müsyö Lemezyönün dili Ayasofyaya tərəf dikələndə açıldı. Cismini sevinc dalğası sarmışdı, fikrincə, sövdələşmə mütləq baş tutacaqdı, çünki Dəftərdar Sarı Mehmet Paşa demişdisə, nəticə uğurlu olacaqdı.

63. Müsyö Lemezyönün istədiyi oldu: səhəri Dəftərdar Sarı Mehmet Paşanın buyruğuyla iki nəfər gəldi, mallara baxdılar, sövdələşdilər, behini verib getdilər, axşamtərəfisə haqq-hesabı üzüb firəng taciri xoşbəxt elədilər. Sonrakı bir həftə ərzində də müsyö Lemezyö şəhəri dolaşıb məmləkətinə aparacağı malları axtardı, amma ən ağır yükü Misir çarşısından aldığı ədviyyat oldu. Dediyinə görə, bu ədviyyatı Veneziada Docun, Parisdə Kralın saray mətbəxinə verir, əməlli-başlı xeyir götürürdü. Sonrakı iki günü məni Veneziaya qayıtmaq üçün dilə tutmağa başladı, deyirdi ki, həm dilmancı, həm köməkçisi olar, yaxşı qazanc götürərəm. Amma mən günlərin birində Batuma gedən gəmiyə minmək, qismətimdə vardısa, Tiflisə yetişmək, Parisdəkisayaq mədrəsə açmağa çalışmaq, ömrümü yazı-pozuyla başa vurmaq istəyirdim; əlbəttə, Züleyxaya qovuşacağıma ümidim-filanım qalmamışdı, bu vaxtacan məni gözlədiyini düşünmək *(Davidin naməsində onu xatırlatmamasından belə çıxırdı ki, artıq bu kitab bağlanıb)* əbləhlik olardı, amma onun yaxınlığında yaşamaq da məndən ötrü bəs eləyərdi. Daha gördüyüm yerlər də məni çəkmirdi, görünür, get-gedə yaşlanırdım, hələ cəmi-cümlətanı otuz üç yaşım olsa da, az qala, dünyanı yorub yola salmışdım. Müsyö Lemezyönü aparan gəmi Xalic körpüsündən aralananda elə tənhalaşdım ki, elə bil dibi görünməyən boşluğa düşmüşdüm. Cibimdə müsyö Lemezyönün verdiyi altmış dukat *(Dəftərdar Srı Mehmet Paşanı gözlədiyimiz günlərin haqqını da ödəmişdi),* Veneziadan qalan altı dukat, əynimdə bir dəst paltar karvansaranın hücrəsində bir sandığım, beynimdə dolaşıq fikirlərim, ürəyimdə anlaşılmaz duyğularım vardı. Ağlıma gəldi ki, əvvəlcə altmış altı dukatımı axçaya dəyişim, sonra özümə bir dəst münasib paltar alıb firəng görkəmindən çıxım, Xeyri Əfəndiylə dil tapıb münasib hücrələrdən birinə köçüm, sonra iş axtarmağa başlayım. İşi harda axtaracağımı bilmirdim, yenə ağlıma gəmilərin yan aldığı limanlar, dilmanc axtaran

tacirlər gəlirdi. Yenə Allahın mərhəmətinə sığınıb yaşamalıydım, nədənsə əmindim ki, günlərin birində səadət qapıları açılacaq. Əlbəttə, cibimdəki pulla Tiflisə gedib çıxa bilərdim, amma nə sirdirsə, könlüm getmək istəmirdi. Mənə belə gəlirdi, *bu dünyada hər sınaqdan keçməli, yaxşını-pisi ayırd eləməli, ağrını, kədəri, bədbəxtliyi, xəyanəti yaşamalıyam, yalnız bundan sonra özümü kamilliyin astanasında hesab eləyə bilərəm...*

# X

# SƏADƏT ASTANASINDA ON BİR İL

*Xidmətdən qovulmuş bir kəsdir ürək,*
*Adın-sanın yoxsa həyatdan əl çək.*
*Bu dünya elə bir karvansaradır –*
*Ki, qara pula da dəyməzmiş, gerçək.*

*Məshəti GƏNCƏVİ*
*(XII yüzil)*

64. Bu gəlişimdə İstanbula – rumluların Megara şəhərindən köçüb qurduqları, ilk kralları Bizansın adıyla Bizantium adlandırdıqları, sonra Böyük Konstantinin Gündoğan Roma səltənətinin paytaxtı Konstantinopolisə çevirdiyi, kral Yustinianın şöhrətləndirdiyi, Sultan Fateh Mehmetin ələ keçirib Kostantiniyyə adlandırdığı, Qanuni Sultan Süleymanın əzəmətli görkəm verdiyi şəhərə ömrümün on bir ilini verdim. Mənə görə, o illərin cəmi üç cəhətdən dəyəri vardı: çox gəzdim, çox oxudum, çox öyrəndim, qalanını nəzərə almamaq da olar. Müsyö Lemezyönü yola salandan bir həftə sonra fikirləşdiklərimi elədim: əvvəlcə Xalicin o biri qırağına köçüb, Süleymaniyyə camesinə qalxan yoxuşda ikigözlü ev kirayələdim, otaqların biri qonaq qəbul eləmək, yemək, digəri işləmək və yatmaq üçündü; sonra Bitbazarına gedib mümkün qədər abırlı paltar aldım, Firəngistandan və Veneziadan yadigar qalanlarısa dəyər-dəyməzinə satdım (*bu geriyə dönüşün olmayacağına işarəydi, amma özümə əmin deyildim, taleyin təsadüfü lap Yeni Dünyaya da aparıb çıxara bilərdi),* ardınca Xeyri Əfəndi də daxil, bir neçə karvansaranı gəzib yerimi nişan verdim, firəngcəni, italyancanı, gürcücəni, farscanı, ərəbcəni bilən dilmanc lazım olsa, məni axtarmalarını rica eləyib müəyyən bəxşiş də boyun oldum. Üç ilim beləcə, dünyanın dörd yanından gələn gəmilərin yan aldığı körpülərdə – iskələləfdə keçdi, cürbəcür – insaflı, mərhəmətli, xəsis, səxavətli, yalançı, hiyləgər,

üzdəniraq – tacirlər, səyyahlar, sərgərdanlarla rastlaşdım, liman qələbəliyini sevən oğrular, canilər, yolsuzlarla üz-üzə gəldim, bir dəfə körpüdən Xalicin sularına yıxılıb, az qala, dünyayla vidalaşdım, təsadüfi qadınlarla qorxa-qorxa, çiyrənə-çiyrənə canımın atəşini söndürdüm, ayağım gedən, könlüm istəyən yerləri pay-piyada dolaşıb haqqında eşitdiklərimi gözlərimlə gördüm. O üç ildə yazmağı da öyrəndim, daha doğrusu, Firəngistandan bəri yaşadıqlarımı kağıza köçürməyi təcrübə elədim, görünür, az-çox bacarmışdım – yazdıqlarımı cırıb atmır, sandığımın bir küncünə yığırdım ki, gələcəkdə gərək olar. Veneziadakı duyğularıma hakim olan qəfil bir hiss məni təzədən yaxalamışdı: özümü dünyanı görüb-götürməyə çıxan səyyah hesab eləməyə *(əgər Tiflisə dönməyə cəhd göstərmirdimsə, deməli, beləydi)* başlamışdım, İstanbulda müvəqqəti qalmışdım, gəzib-görəndən sonra başqa məmləkətlərə üz tutacaqdım.

65. Xeyri Əfəndi mənə İstanbulu iki misrayla – bircə beytlə tərif eləmişdi. Qanuni Sultan Süleyman dövrünün adlı-sanlı dənizçilərindən Seydi Ali Rəis Hindistandan qayıdanda yolunu Təbrizdən salıb Şah Təhmasiblə görüşür; Şah ondan soruşur ki, cahanın yarısını dolaşmısan, ən çox bəyəndiyin şəhər hansıdı; Seydi Ali Rəis onun sualına bu beytlə cavab verir: *Gəzib seyr eylədim hər şəhrini bu deyanın, Bənzərin görmədim hərgiz İstanbul-ü Qalatanın.* Amma o illərdə Osmanlı xanədanı sıxıntılı çağlarını yaşayırdı, Qanuni Sultan Süleymandan qalan mirası qorumağa qüdrətləri çatmadığından sədrəzəmlərin biri gedir, biri gəlirdi. Mən Baltaçı Mehmet Paşanın, Çorlulu Ali Paşanın, Köprülü Fazil Mustafa paşanın sədrəzəmliyini yaşadım, Səfəvi məmləkətinə gedəndə Silahdar Ali Paşanın öldürüldüyünü, orda olanda yerinə Nevşehrli Damad İbrahim Paşanın gətirildiyini eşitdim. Bu tərəfdən də quzey qonşuları isveçlərlə ruslar arasında savaş gedirdi, Dəmirbaş Karlla, Dəli Petro dəryalarda hakimi-mütləq olmaq üstündə bir-birini didirdilər. Üstəlik, Sultan həzrətləri Dəli Petroyla savaşa girib Dəmirbaş Karla tərəf çıxmış, Sədrəzəm Baltaçı Mehmet Paşanın bacarığı sayəsində Dəli Petronu razılığa gəlməyə məcbur eləmiş, hətta savaşda sınıq çıxan Dəmirbaş Karl qaçıb Osmanlıya sığınmışdı, amma Belqradın itirilməsi, Avstriyanın quzey hüdudlarında möhkəmlənməsi Dövləti-Ali

üçün başlıca təhlükəydi. Bütün bunları rastlaşdığım cürbəcür adamlardan, meyxanalarda eşitdiklərimdən, bəxtimin gətirdiyi günlərin birində uğuruma çıxan Kitabdar Mühiddin Əfəndidən, sonralar Sarayda ünsiyyət qurduğum dilmanclardan, katiblərdən, xəttatlardan eşidir, götür-qoy eləyir, fikirlərimi kağıza yazırdım. Əlbəttə, orda Tiflis üçün darıxmağa da, madam Qrenyönü, Co-zef Qrenyönü, Xose Karvalyonu, müsyö Koleni, Cilber Soreli, Violettanı yada salmağa da vaxtım olurdu. Fəslin isti günlərində axşam bürküsündən qurtulmaq üçün evin qənşərindəki dikdə oturub Xalicin sularına baxa-baxa yaşantılarımın üstünə bir də qayıdırdım. Günaşırı gəlib evə əl gəzdirən sahibəm – kimsəsiz çərkəz qadını *(əri Bağdad səmtində öldürülmüş damadının evinə köçmüşdü)* Xədicədən başqa o illərdə məhrəm kimsə tanımıram.

66. Üç il bu cür həyat sürəndən sonra özüm də gözləmədən bəxtimə gün doğdu: günlərin birində ömrünün qırx ilini Sa-rayın kitabxanasında keçirmiş, sinni yetmişə yaxınlaşdığından dincəlməyə qərar verib Ox Meydanı tərəfdə açdığı dükanda günlərini yola verən Kitabdar Mühiddin Əfəndiylə tanış oldum. Mühiddin Əfəndi Sultan həzrətlərinin səxavətindən həyatını təmin eləyəcək qədər axça alırdı, amma cürbəcür adamların gətirdikləri əlyazma kitablarını alıb-satmaq ondan ötrü baş-lıca zövq mənbəyinə çevrilmişdi. Həftə bir neçə kərə ikiqatlı evinin birinci qatındakı dar, kağız, mürəkkəb, rəng, dəri, toz qoxusu gələn təkpəncərəli hücrəsində oturmaq, kitablardan, salnaməçilərdən, xəttatlardan, katiblərdən söhbət eləmək, aram-aram söylədiyi nəzm parçalarını, cürbəcür əhvalatları dinləmək, xəstəliyin apardığı arvadı, savaşda öldürülmüş oğluyla bağlı dərdli söhbətini eşitmək, bəxtsiz qızı Ruhiyyənin gətirdiyi şərbəti qurtum-qurtum içmək xoşuma gəlirdi. Mühiddin Əfəndiyə ömür hekayətmi danışmışdım, halıma yanıb könül evinin qapılarını qarşımda açmışdı, əgər Səadət Astanasında yurd salmağa ta-bım-tavanım olsaydı, qızına sahiblənib evində yerləşə, ömrümü dinclik içində başa vura bilərdim. Amma Mühiddin Əfəndiyə də, hərdən istəkli baxışlarını tutduğum Ruhiyyəyə də bu ümidi vermədim, daha doğrusu, verib-verməmək barədə düşünmədim. Nagahan bir duyğu məni hardasa kök salmağa qoymurdu, ötərilik hissinin gec-tez yerimdən tərpədib haralarasa qovacağı-

nı dumanlı da olsa, dərk eləyirdim. Kitablardan bəzilərini alıb sandığıma yığır, bəzilərini oxumaq üçün götürürdüm, gecələr şam işığında o kitabları oxumaq, könlümə yatan parçaları kağıza köçürmək xoşuma gəlirdi.

67. Mühiddin Əfəndinin sayəsində Saraydakı bir neçə katib və dilmancla ünsiyyət qura bildim. Daha iskələləri dolaşmırdım, Babi-alidən arxamca qapı oğlanı göndərirdilər, yaxşı ödənc müqabilində firəngcədən, italyancadan, farscadan namələri, fərmanları, buyrultuları çevirirdim, ya da Sədrəzəmin, vəzirlərin yanına gələn cürbəcür elçilərin dilmanclığını eləyirdim. Görünür, dillərə bələdliyim, neçə illərin təcrübəsi özünü büruzə verirdi, üstəlik, Köhnə Dünya məmləkətlərinə, orda yaşayan xalqlara bələdliyim də işimi asanlaşdırırdı, məni dəyərləndirir, haqqımı artıqlamasıyla ödəyirdilər. Bir neçə ildən sonra, ən azı, çərkəz qadını Xədicənin evini ala, evlənə, az-çox rahat yaşaya bilərdim. Şübhəsiz, dilimə gətirməsəm də, ailə sahibi olmaq, övlad duyğusundan bəhrələnmək istəyirdim, amma bunu gerçəkləşdirmək üçün o illər ərzində bir dəfə də olsa, cəhd eləmədim. Daha Züleyxa məndən ötrü ömrüm boyu havasıyla yaşayacağım şirin xatirəydi, yəqin bir Allah bəndəsilə taleyini birləşdirib oğul-qız yiyəsi olmuşdu, zamanın tozanağında itib-batmış Yusifi hərdən, həm də şirin utanc hissi duya-duya yadına salırdı. Bəlkə də mən həmin məqamda axşamın qaranlığında maraq dolu gözlərdən yayına-yayına Unqapanı tərəfdəki dar küçələrin birindəki dar həyətli, alçaq tavanlı, ikigözlü evdə canımın yanğısını erməni qızı Məryəmlə söndürürdüm, sonra da halımdan sıxıntı duya-duya üzümü qaranlığın içində gizlədir, ayaqlarım bir-birinə dolaşa-dolaşa evə qayıdırdım. Məryəm də ki öz işinin ustasıydı, bir neçə saatın içində məni sümürüb boşaltmağı, haqdan başqa cürbəcür bəxşişlər qoparmağı bacarırdı; hər dəfə geri qayıda-qayıda bir daha onunla görüşməyəcəyimə and içirdim, amma olmurdu, ayda bir-iki dəfə yolumu o tərəfdən salmaqdan özümü saxlaya bilmirdim. Sonra bir müddət Mühiddin Əfəndinin də Ruhiyyənin də üzünə dik baxmağa taqətim qalmırdı, ardınca hər şey qum saatı kimi təzədən təkrar olunurdu.

68. Günlərin birində Mühiddin Əfəndi mənə gözləmədiyim müjdə verdi: Saraydan bir qapı oğlanı gəlib məni Divani-Alinin

mütərcimi Yenaki bəyin çağırdığını söyləyibmiş. Yenaki bəyi tanımırdım, fikirləşdim, yəqin Sultan həzrətlərinin yeni məqama gətirdiyi şəxslərdəndi. Xeyir olar, inşallah, Mühiddin Əfəndi salavat çəkib ümidlə dilləndi, o cür ali məqamdan axtarıblarsa, deməli, ortada sanballı mətləb var. Qapı oğlanın dediyi vaxtda, səhəri gün ikindi çağı sarayın yolunu tutdum. Yenə Bab-üssəlam qapısında bir müddət gözlətdilər, sorğu-sual eləyib yoxladılar, sonra bir vaxtlar Dəftərdar Sarı Mehmet Paşanın hüzurunda olduğum qülləli tikiliyə apardılar. Yenaki bəy məni zəngin döşənmiş otağında qəbul elədi, oturmağa yer göstərdi, bir qədər Divani-Alinin işindən danışıb axırda məqsədini açıqladı: Sarayla təmasda olduğum müddətdə işimdən razı qalıblar, bu səbəbdən Yenaki bəy məni yanında görmək istəyir, hər gün Saraya gəlib tapşırılan işləri görəcəyəm, məvacibim filan qədər olacaq, əgər ehtiyacım varsa, qalmaq üçün münasib hücrə də ayrıla bilər. Deyəsən, birdən-birə qarşımda açılmış bu imkandan karıxmışdım, dərhal cavab verə bilmədim, bir qədər düşünüb-daşınandan sonra dedim, əgər mənə Sultan Həzrətlərinin himayəsi altında çalışmaq fürsəti verirsinizsə, bundan yalnız şərəf duyuram. Yenaki bəy əlini seyrək saqqalına çəkib məmnunluqla gözlərini qıyaqıya gülümsədi, dedi, buyruq verərəm, hər şeyi yoluna qoyarlar, günü sabah işinin başında olmağın məsləhətdi. Bağır basıb təzim elədim, bircə ricamı bildirdim: Saraya köçməməyə izin versin, artıq alışdığım evdə qalmaq, qulluğumdan imkan tapanda yazı-pozu işlərimlə məşğul olmaq istəyirəm. Bilmirəm, bu qərarıma hələ baş açmadığım anlaşılmaz duyğumu, Mühiddin Əfəndidən uzaqlaşmaq qorxusumu, Unqapanıya gecə səfərlərimin kəsilməsilə bağlı narahatlıqmı təsir eləmişdi, amma Yenaki bəyi inandıra bildim, istəyimə qarşı getmədi.

69. Öncəduyumumun nə qədər güclü olduğunu qulluğa başladığımın elə ilk ayındaca dərk elədim: Yenaki bəyin nursuz üzü məni ifrat bağlılıqdan qurtarmışdı. Hansı qövmdən olduğunu dəqiqləşdirə bilmədiyim *(deyilənə görə, türkləşmiş bolqarmış)* hər şey şübhəylə baxan tutqun gözləri, tez-tez kinlə sıxılan dodaqları, yarı ağarmış seyrək saqqalı, asta, amma etiraza yer qoymayan hökmlü səsi elə ilk görüşümüzdəcə məndə xoşagəlməz təəssürat yaratmışdı. Amma onu da duyurdum ki, təklifindən

boyun qaçırmamaqda düzgün hərəkət eləmişəm, çünki imtina Sarayla bağlarımın birdəfəlik *(hər halda, Yenaki bəy o məqamda olduğu müddətdə)* qırılması demək olardı. O, əksəriyyəti şəxsi mülahizələri olan iradlarını başqalarının yanında bildirməyi, hamını özündən asılı vəziyyətə salmağı sevir, üstəlik bundan şeytanı ləzzət alırdı. Buyruqlarına qaydasınca əməl eləyirdim, əsasən Firəngistandan və Veneziadan gələn elçilərin dilmancı olurdum, o zatlarla iki dəfə Bursaya, bir dəfə Təkirdağa, ordan Ədirnəyə getmişdim, amma duyurdum ki, bütün bunlar uzun çəkməyəcək, günlərin birində sanballı bəhanə gətirib Saraydan ayrılacağam. Bu fikirlə onun yanında, az qala, iki il, miladi 1717-ci ilin yaz günlərinin birində Firəngistanın ticarət elçisi müsyö Syör dö Gardən gələnəcən işlədim. Elə Yekani bəyin yanında ünsiyyətdə olduğum axırıncı qonaq da həmin firəng oldu. Müsyö dö Gərdan ticarət anlaşılmazlıqlarını nizama salmağa gəlmişdi, burdan da Səfəvi məmləkətinə, İsfahan sarayı yanında elçi kimi bəzi məsələləri yoluna qoyacaqdı. Düzü, bundan xəbər tutanda ağlıma başqa bir şey gəlmədi, həmin vaxt artıq bütün bu həyatdan canımı qurtarıb Tiflisə qayıtmaq barədə düşünməyə başlamışdım. Xahişimi də Yenaki bəyə belə yetirdim: qürbət məni sıxır, öz yurduma-ocağıma qayıtmaq istəyirəm. Həmin vaxt o, Urdin səfərindən qayıtmışdı, Sədrəzəmin buyruğuyla Əflaq və Yudlicə yola çıxmağa hazırlaşırdı. Gözlədiyimin əksinə, bir qədər mütəəssir oldu *(görünür, qürbət duyğusu ona da yad deyildi),* Sultan həzrətlərinə xidmətə görə təşəkkür eləyib vidalaşdı.

70. Səhəri gün asudəlik duyğusunu Kitabdar Mühiddin Əfəndiyə bölüşdüyüm məqamda taleyimin başqa bir şəxs tərəfindən həll olunduğunu ağlıma gətirə bilməzdim. Günorta namazından sonraydı, Mühiddin Əfəndi Şəms Təbrizidən danışmağa başlamışdı, onun Mövlanayla görüşünə çataçatdaydı, Yenaki bəyin yanında rus mütərcimliyi eləyən, firəngcəni az-çox bilən qırımlı Sadiq Əfəndi içəri girdi, firəng elçisi müsyö Şevalyö dö Gardənin məni axtardığını söylədi. Düzü, təəccübləndim, durub bayıra çıxanda qonağın təkatlı, üstüörtülü arabada əyləşib gözlədiyini gördüm. Onunla ünsiyyətdə olduğum günlərdən məndə oyatdığı xoş duyğuların təsiri altında görüşdüm. Müsyö Syör dö Gardən Yenaki bəyin xidmətindən ayrıldığıma həm

təəssüfləndiyini, həm də sevindiyini söylədi, çünki bir neçə həftəyə İstanbuldakı işlərini nizama salıb Səfəvi məmləkətinə, İsfahana yola düşəcəkdi, mənim firəng dilini, üstəlik, Məğrib və Məşriqə bələd olmağım ondan ötrü hava-su kimi gərəkdi, xülasə, məni elçiliyin mütərcimi görmək, birgə səfərə çıxmaq istəyirdi. Əlbəttə, ona təşəkkür eləmək, düşünüb-daşınmaq üçün vaxt istəmək daha ağıllı iş olardı, amma mən elə bil oturub firəng elçisinin yolunu gözləyirəmmiş, onun da təəccübünə rəğmən dərhal razılıq verdim. Bir halda ki, Tiflisə qayıtmaq üçün özümdə taqət tapa bilmirdim, İsfahana gedib yurduma bir az da yaxınlaşmaqla təskinlik tapa bilərdim. Müsyö dö Gardən sevindiyindən qıpqırmızı qızarıb Trabzona gedəcək gəmini gözlədiyini, günü sabahdan özünü Firəngistan dövlətinin xidmətində saymağımı rica elədi, beləcə on bir illik İstanbul macərama son qoyuldu. Onda taleyimin məni bir də bu yerlərə gətirib çıxaracağını, üstəlik Anadolunu dolaşacağımı heç ağlıma belə gətirmirdim. Onda fikirləşirdim ki, *insan gərək özünü sıxıntılı hiss elədiyi yerə bir də qayıtmasın, sözünü saya almayan adama bir də ağız açmasın, pislik gördüyü adamı bir də yaxına buraxmasın...*

# XI

# ÜZÜ GÜNÇIXANA DOĞRU

***Yusif mənim quyumdan gözəl anda çıxacaq,***
***Qaf dağından Simurqum***
***birdən qalxıb uçacaq...***

***Qivami MÜTƏƏRRİZİ***
***(XII yüzil)***

71. Hələ uşaq vaxtlarımda kimdənsə eşitmişdim: *nə qədər ki söz ağzından çıxmayıb, ağasısan, elə ki çıxdı, qulusan.* Səfəvi məmləkətinə getmək barədə qərar verdiyim məqamdan həyatımın dəyişdiyini açıq-aşkar duydum. Həyatımın on bir gözəl, həm də kədərli illərini verdiyim Səadət Astanasında gəzmək görmək, öyrənmək xoşbəxtliyindən başqa bir səadət qismətim olmadı. Əlbəttə, Boğaz boyundakı təpələrə səpələnmiş möhtəşəm saraylardan, camelərdən, məbədlərdən, qəlbimə həkk olmuş Xalic mənzərəsindən – bədirlənmiş Ayın sulardakı əksindən, pansionda, Sarbonnda Məğribi öyrətdikləri qədər mənə Məşriqi öyrədən xəzinə sahibi Kitabdar Mühiddin Əfəndidən, bəlkə də Züleyxadan sonra ümidini daşa vurub, özümü günahkar saydığım Ruhiyyədən, canımdakı yanğını sorub bayğınlıq içində qoyan Məryəmdən ayrılacaqdım, bir daha da buralara dönmək barədə düşünmürdüm, Allahın işlərinəsə qarışa bilməzdim – *nə yazmışdısa, o da olacaqdı.* Hər halda, Firəngistanda təsadüfi ölümə, Veneziada gülünc həbsə, dəryada quldurların basqınına, İstanbulda hər hansı bir azğının xəncərinə rast gəlməyib sağ qalmışdımsa, üzü Gündoğana getməyim məsləhət görülmüşdüsə, deməli, taleyimə boyun əyməliydim. Cəmi-cümlətani bir sandığım vardı, içinə Parisdə, Veneziada, İstanbulda aldığım basma və əlyazma kitabları, iki dəst paltarımı, bir neçə xırım-xırda şeylərimi yığmışdım, qurşağımın altında Sultan həzrətlərinin səxavətindən axçayla dolu pul kisəm vardı, qəlbimdə yeddi təpə üzərində qərar

tutmuş bu xəyal şəhərinə, hələ hüdudlarını xəyalıma düz-əməlli gətirə bilmədiyim Osmanlı məmləkətinə heyrət və ehtiram duyurdum. İnsan ömrünün nə vaxt, harda bitəcəyini bilsə, yəqin yaşamaq mənasız olar – həmin məqamda belə fikirləşirdim. Məni gözləyən yolların daha haralara uzanacağını hardan biləydim? O yolların sonunda Tiflisin olub-olmayacağını hardan biləydim? Qırx yaşını ötürmüşdüm, səyyahları nəzərə almasaq, xeyli gəzib-görmüşdüm, bundan sonra inzivaya çəkilib yaşantılarımı qələmə ala, rahat ömür sürə bilərdim. Amma…

72. Elə o günün səhəri müsyö Syör dö Gardənlə razılaşmamıza əməl eləyib çərkəz qadını Xədicənin evindən Firəngistan elçiliyinin tutduğu ikiqatlı, geniş imarətə daşındım. Müsyö dö Gardənin səfarəti özüylə on dörd, artıq mənimlə beş nəfərdən ibarətdi: katiblər, məsləhətçilər, kamerdiner dedikləri xidmətçilər, xəzinədar, aşpaz bir də hamıya qulluq göstərən nökərlər vardı. Belə başa düşdüm, səfarətin başlıca vəzifəsi Əcəm şahı Sultan Hüseynin yanında olmaq, onun məmləkətində Firəngistanın alqı-satqı məsələlərini yoluna qoymaqdı, Səadət Astanasındakı bəzi işləri də yolüstü nizama salmaq buyruğu alıb. İndi bir namə hazırlayıb Dəre-dövlətə – Saraya yetirmək gərəkdi ki, Əcəm hüduduna çatanacan əmniyyətimizin Sultan Həzrətlərinin himayəsində olduğu barədə buyrultu verilsin. Xidmətə razılıq verməyimdən məmnunluğunu gizlədə bilməyən müsyö dö Gardən yazı sənətinə bələdliyini də büruzə verdi, fikrini elə aydın, elə təsirli ifadə elədi ki, namənin tərtibi mənə də zövq verdi. Naməni Saraya özüm apardım, firəng elçisinə bir həftə ərzində gərəkli cavabın veriləcəyini söylədilər, elə o gündən də Trabzona yola çıxacaq gəmiyə minmək üçün hazırlaşmağa başladım. Müsyö dö Gardənin altı sandığında çoxlu paltarından, Əcəm şahına, yüksək məqamlı şəxslərə cürbəcür hədiyyələrdən başqa kitablar da gördüm, məlum oldu ki, o bundan qabaq İspan dövlətində, Moskovda, Veneziada olub, öz padşahının bu cür buyruqlarını yerinə yetirib, hər yerdə görüb-eşitdiklərini qələmə almağı sevir. Səfarətdəkilərdən kök, qırmızısifət məsləhətçi Fransua, arğaz, alimanə görkəmli katib Klod elçinin həm şəxsi xidmətçisi, həm də aşpazı Simon, susqun və işlək buyruqçu Nez, yəni Burun

*(bu ayamasıydı, əsl adını bilmədim, heç soruşmaq da ağlıma gəlmədi)* yadımda daha çox qalıb, bir də mən – Allahın fağır bəndəsi, mütərcim Jozef Tiflisi… Elçiliyimizin heyəti beləydi. Müsyö dö Gərdan artıq adamlar götürməyi lüzum bilməmişdi, fikrincə, bu heyət bəs elərdi.

73. Gözlədiyimiz cavabı vaxtında aldıq. Artıq müsyö dö Gardənin əlində Sultan Həzrətlərinin mübarək möhürüylə şərəflənmiş namə vardı ki, Firəngistan dövlətinin Əcəm ölkəsinə gedən elçisi müsyö Syör dö Gardən və heyəti Osmanlı sınırları daxilində Allahın və Sultanın himayəsindədi. Həmin vaxtacan Kitabdar Mühiddin Əfəndiylə vidalaşıb əllərindən öpmüş, ayrılığımla onu da ağlatmışdım. Ruhiyyəylə sağollaşmasam yaxşıydı, dil deyən gözlərinin kədəri adam öldürürdü. Dərhal yüklərimizi atlara, qatırlara yüklədib Xalicə sarı endik. Deyilənə görə, mindiyimiz bu Venezia gəmisi Trabzona, ordan Batuma, sonra Qırım səmtinə gedəcəkdi. Əlbəttə, Batum adını eşidəndə ürəyim bərk-bərk döyündü, gözlərim doldu, amma artıq ox yaydan çıxmışdı, ən azı, müsyö dö Gardən aldığı buyruğu yerinə yetirənəcən onun yanında olmalıydım. Venezialı gəmiçibaşıyla italyanca danışanda müsyö dö Gərdanın gözlərindəki heyrəti görmək, əlbəttə, məndən ötrü xoş idi. Amma bütün bunlardan ötrü ömrümü fəda eləməyə dəyərdimi – bu barədə o vaxt fikirləşib-fikirləşmədiyimi xatırlamıram. Hər halda, hicri 1129-cu, miladi 1717-ci ilin erkən payızıydı, mən – qırx üç yaşlı Jozef Tiflisi taleyin rast gətirdiyi firəng elçiyə qoşulub Əcəm torpağına gedirdim. Xalic körpüsündəki gəminin göyərtəsindən səhərin şəfəqləri altında bərq vuran qırçın dalğalara baxırdım, təpələr üstündəki qala divarlarına, qüllələrə, saraylara, camelərə, imarətlərə nəzər salırdım, elə bil gördüklərimdə onillik yaşantılarımın izlərini axtarırdım. Axşam toranlığı çökənəcən, gəmi Boğazdan dəryaya çıxanacan güman ki, bu hisslərdən yaxamı qurtara bilməyəcəkdim. Nəzərlərimlə Süleymaniyyə camesinə qalxan yoxuşdakı on il yaşadığım komanı axtarıb tapdım, Sultanəhməd camesi, Ox Meydanı tərəfdə Kitabdar Mühiddin Əfəndinin "xəzinəsinin" yerini bələdlədim, nə qədər gedib-gəldiyim Saraya sarı boylandım *(öz-özümdən utanıb Unqapanı səmtində Məryəmin kiçik həyətli, ikigözlü*

*evinə doğru baxmadım)* – bütün bunlar bir azdan xatirələr dumanında itib-batacaq, hərdən-hərdən qaysağı qopan, şirin-şirin sızıldayan yaraya çevriləcəkdi.

74. Gəmiçibaşı əmr verəndə, avarlar işə düşəndə işlərinin yaxşı getdiyindən çox məmnun görünən müsyö dö Gardənə baxdım. Əlini taxma saçının üstündən qoyduğu yanlara uzanan papağına qaldırıb sevindiyindən, az qala, qışqırmaq istəyirdi. Tərtəmiz qırxılmış, qırışları açıq-aşkar bilinən üzü, boz-qonur gözləri, hər an aralanmağa hazır dodaqları o məqamlarda halını yaxşı ifadə eləyirdi. Müsyö Tiflisi *(soyadımı diqqətlə söylədi ki, səhv olmasın),* dedi, Kollec dö Fransda oxuyandan məni bir şey maraqlandırıb: niyə Günbatanın kralları həmişə Günçıxana can atıblar, Böyük Aleksandr, Roma sezarları, səlibçilər bu yerlərdə nə axtarıblar – ümidvaram, sizin köməyinizlə bununla bağlı bəzi mətləbləri anlamağı bacaracağam. Əlimdən gələni əsirgəmərəm, faydalı olaramsa, böyük məmnunluq duyaram, dedim. Sonra əlini belinə qoyub göyərtədə gəzə-gəzə ilk dəfə getdiyi ispan ölkəsindən, ardınca rusların məmləkətindən danışdı. Dediyinə görə, rus çarı Petr – yəni Pyotr ölkəsinin quzey günbatan səmtində, dərya kənarında şəhər salıb öz adının vermişdi, səltənətini Moskovdan yox, ordan idarə eləmək üçün çox şeyi qurban vermişdi. Axırda Səfəviyyə dövlətində indi nələr baş verdiyindən xəbərim olub-olmadığını soruşdu. İstanbulda Saraya gedib-gələndə eşitdiklərimdən, Səfəviyyə dövlətinin keçmiş qüdrətindən, indiki zəifliyindən danışdım. Müsyö dö Gardənin fikrincə, Şah Sultan Hüseynlə dil tapıb məsələləri yoluna qoymaq çətin olmayacaqdı, çünki eşitdiyinə görə, Əcəm hökmdarı dövlət işlərilə o qədər də maraqlanmır, sarayındakı adamların qəlbinə və cibinə yol tapıb anlaşmaqsa, çətinlik törətməz, bundan ötrü dəyərli bəxşişlər nəzərdə tutulub. Elə bu sözündən onun getdiyi məmləkəti yaxşı öyrəndiyini bildim. Müsyö dö Gardən düşüncəli adama oxşayırdı, üstəlik də dövlətinin mənafeyi üçün çalışmağı özünün başlıca borcu sayırdı. Bu səbəbdən ona rəğbət hiss elədim.

75. Sinopda, Göyirmaq çayının mənsəbində bir gün dayanıb ərzaq və içməli su götürməyimizi nəzərə almasaq, Trabzona, yunanların Trapezus dedikləri, yastı təpə üzərində qurulan

qalaya görə, bizanslıların Trapezund adı verdikləri, bir vaxtlar Ponti krallığının və Roma xanədanının iqamətgahı olan şəhərə on dörd gündə yetişdik. Görünür, səmt küləyi kömək eləmişdi, gəmiçibaşı tez-tez məmnun görkəmlə müsyö dö Gardanin yanına gəlir, səfərimizin bunca uğurlu olduğuna sevinə-sevinə neçə illər ərzində gördüyü yerlərdən danışırdı. Onun çoxlu cürbəcür mallar yüklənmiş, təxminən yetmiş adam olan gəmisində iltifat göstərib ayırdığı taxta hücrələrdə müsyö dö Gardən kamerdineri, katiblər, məsləhətçilər, birində də mənimlə buyruqçu yerləşdik. Yekəburun, qaradinməz, həmişə kədərli qaskonun çox sıxıldığını hiss eləyirdim, amma şəraitin verdiyi imkan hələ ki, buydu, onun adamın gözünə girən burnuna da, kəsalət duyğusu oyadan görkəminə də, gecələr fırtınayabənzər xorultusuna da dözmək lazım gəlirdi. Müsyö dö Gardən yağışlı günlərdə dar hücrəsində, hava günəşli olanda göyərtədə məni söhbətə tutmaqdan zövq alır, Molyeri, Lafonteni, Rasini, dö Laroşfukonu tanımağımdan… rəsm, tamaşa, memarlıq, yazı sənətinə bələd olmağımdan əməlli-başlı heyrətlənirdi. Onun fikrincə, Kornelin ömrünü faciəylə başa vurmasının günahkarı, şübhəsiz, Rasinin qazandığı şöhrət idi, mənə görəsə, Korneli əsərlərinin uğursuzluğu, oğlunun ölümü, yaşamın sıxıntıları ölüm həddinə çatdırmışdı. Müsyö dö Gardən Günəş adlandırdıqları kralları On dördüncü Lüdovikin əzəmətli və dəbdəbəli Versal sarayını tikdirməsini Firəngistanın öz qüdrətini dünyaya göstərmək istəyilə bağlayırdı, mən dilə gətirməsəm də, Parisdə və keçdiyim əyalətlərdəki miskinliyin müqabilində o bədxərcliyi məqbul saymırdım. Bu cür məsələlərdə çox vaxt fikrimiz üst-üstə düşmürdü, amma söhbətimiz xeyli maraqlı, həm də məzmunlu olurdu.

76. Dəryaya tökülən iki çay arasındakı, rumluların Trapezund dedikləri Trabzonda sahilə yan alanda gözümə dəyən ilk tikili təpə üzərindəki qala oldu. Şəhərdə bir neçə gün qalıb gəzmək barədə müsyö dö Gardənə ağız açmağa hazır idim, amma Allahın birliyinə şükür ki, bunu özü istədi, görünür, adamların dərya havasından bir qədər toxtamasına ehtiyac duyurdu. Gəmidən endik, gəmiçibaşıyla uzun-uzadı vidalaşdıq, sandıqlarımızı, bağlamalarımızı atlara və qatırlara yüklədib Ərzurum karvansarasına getdik. Bunu bir vaxtlar sultan həzrətlərinin buyruğuyla Trab-

zonda olub qiymətli əlyazmaları Saray kitabxanasına aparan Kitabdar Mühiddin Əfəndi məsləhət görmüşdü, dediyinə görə, elə həmin karvansarada da səfər tədarükü görmək, at, qatır, araba, bələdçi tapmaq, Ərzuruma, Ağrıya, ordan da İrəvana gedib, Əcəm sınırlarını keçmək olardı. Sarbanbaşı Səlimin böyük, gəliş-gedişli karvansaranı xoşumuza gəldi, gen-bol yerləşib üç günün haqqını ödədik, yaxşı yeməkdən, hamam mərasimindən sonra dincəlmək qərarına gəldik. Müsyö dö Gardənin Trabzonla bağlı ciddi işi yoxudu, təkcə Səfəviyyə dövlətinə gələn, yaxud qayıdan firəng tacirlərinin burdan keçməsi imkanlarını araşdırmaq fikrindəydi ki, bu da bir elə çətin deyildi. Rahat hücrəmdəki yatağımda uzanıb keçdiyim yollar barədə düşüncələrə dalmaq xoşuma gəlirdi. Hesablamalarıma görə, Şah Sultan Hüseynin sarayına artıq-əskik bir aya yetişə bilərdik, əlbəttə, bu yolu keçmədiyimdən zənnimdə bir qədər yanıla da bilərdim. Beynimdən keçdi ki, günlərin birində də İsfahandan Tiflisə uzanan yolun üstündəki hansısa karvansarada, bu cür hücrədə mənzilbaşına neçə günlük yolum qaldığını hesablaya bilərəm, əgər alın yazımda varsa, bu xəyalım gec-tez gerçəkləşəcək. Ardınca ağlıma gəldi ki, Yolda Tiflisə gedən bir Allah bəndəsi rast gəlsə, Davidə namə yazıb, az qala, əlçatarında olduğumu, aradan keçən illər ərzində başıma gələn hal-qəziyyələri yetirə bilərəm. Bu fikir-xəyal içində on dörd gün ərzində ilk dəfə Burunun fırtınaya bənzər xorultusundan canımı qurtarıb dərin yuxuya getdim.

77. Sultan həzrətlərinin buyruğu öz işini gördü: Trabzon valisinin sarayında bizi böyük iltifatla qarşılayıb hökmdarın himayəsində olan hər kəsin əziz müsafir sayıldığını söylədilər, elçinin suallarına yerli-yataqlı cavab verdilər, müsyö dö Gardən də bundan xoşhal olub şəhər gəzintisi barədə ricama məmnuniyyətlə razılıq verdi. O gün özümüzlə bələdçi götürüb Ayasofya camesində olduq. Bizansın Komnenos xanədanından qalmış, Yeddinci Manuel Paleoloqosun tikdirdiyi kilsə Üçüncü Murad zamanında cameyə çevrilsə də hələ qədim divar rəsmləri öz gözəlliyini qoruyub saxlamışdı. İsa Məsihin son yeməyini təsvir eləyən rəsm müsyö dö Gardəni elə mütəəssir elədi ki, göz yaşlarını saxlaya bilmədi. Sonrakı gün getdiyimiz Quzğun dərəsi üzərindəki Zağanos körpüsü, bir vaxtlar görənlərin ca-

nına qorxu salan zindanın üstündəki Zağanos qülləsi, Tabaqxana dərəsinin dik yamacı üzərindəki Trabzon qalası, əlbəttə, görməyə dəyərdi. Qala, hərəsinin öz camesi olan üç bölümdən ibarət idi. Ortahisar qismətindəki tikili came əvvəllər Kamnenos xanədanının ən gözəl kilsəsiymiş. Camenin qübbəsi qızıl suyuna çəkilmişdi, içindəki divar rəsmlərinə baxmaqla doymaq olmurdu. Onu da deyim, firənglər artıq cameyə başmaqlarını soyunub girməyə öyrəşmişdilər, təkcə məsləhətçi Fransua Düpon köklüyü ucbatından əyilib-qalxmağa əziyyət çəkirdi, bu da müsyö dö Gardəni yaman əyləndirirdi. Üçüncü gün Yavuz Sultan Səlimin anası Gülbahar xatunun xatirəsinə tikdirdiyi cameyə, bir vaxtlar Müqəddəs Yevgenios kilsəsi olan Yeni cameyə tamaşa elədik, bazarı gəzib alış-verişə baxdıq. O axşam Sultan Həzrətlərinin himayəsindən xəbərdar olan Sarvanbaşı Səlim bizi Ərzuruma çatdırmaq üçün altı cütatlı araba, on dörd at, iki qatır, iki yaraq-yasaqlı bələdçi hazırlatdı. Kamerdiner – aşpaz Simonun və Burunun müşayiətilə yol tədarükü görmək mənim boynuma düşdü, bunu da xoş xasiyyətinə rəğmən yemək məsələlərində bir qədər vasvası olan müsyö dö Gardənin zövqünü nəzərə ala-ala yerinə yetirdim. Qarşıda yollar dururdu, o yollar bizə nələri bəxş eləyəcəkdi, bunu hələ bilmirdik. Həmin məqamda Mühiddin Əfəndinin sözləri yadıma düşdü. Ayrılanda demişdi, *oğlum, heç vaxt həyatında filan şeyin baş vermədiyinə təəssüflənmə; əgər baş versəydi, nəylə nəticələnəcəyini kim bilir, bəlkə də hər şey daha pis olardı...*

# XII

# ÖZ CİYƏRİNİN QANINI İÇƏN ÇAQQAL

*Qan içirmişsə də dünya bizə çox, eyb etməz, –*
*Öz ciyər qanını düşmən yeyərək odlanacaq!*

*Müciəddin BEYLƏQANİ*
*(XII yüzil)*

78. Bir vaxtlar Təbrizdən xalı-xalça, ədviyyat, Çin ipəyi gətirən karvanlarla çox yollar keçmiş Sarbanbaşı Səlim demişdi, çalışın, Ərzurum gədiyini qar basmamış keçin, sonrası çətin olmaz. Adlarını öyrənməyə lüzum duymadığım beş arabaçı, ağ çalmalı, ağ yapıncılı tüfəngci Qurd Nədim və qara başlıqlı, qara yapıncılı Laz İsmayılla birgə iyirmi iki nəfərlik dəstəmiz səhəri gün sübh namazından sonra yola çıxdı. Qarın nəfəsi duyulmasa da artıq payız yağışları başlamışdı, bu səbəbdən bəzən yoldan çıxıb ağacların, qayaların altında daldalanmalı olurduq, ona görə də Qurd Nədimin dediyinə görə, uzaqbaşı dörd günlük yolu yeddi günə getməli olduq. At minməyə öyrənməmiş, nehrə kimi çalxalanıb tez yorulan, bu səbəbdən elə birinci günün günortası arabalardan birinə minən Fransua Düpon kefimizi açmasaydı, yəqin ləngiməkdən ovqatımız təlx olardı. Klod Letelyör ciddi görkəmlə Fransuaya canıyananlıq göstərirdi, müsyö dö Gardən şaqqanaq çəkir, Simonla Burunsa xısın-xısın gülürdülər. Trabzondan güneyə, sonra günçıxana uzanan, Gümüşxana və Bayburtdan keçən yolumuzda gecələri kiçik karvansaralarda, müsafirxanalarda keçirir, gün doğanda *(bəzən də doğmasını görmürdük, hər yer dumanda itib-batırdı)* yolumuza davam eləyirdik. Elə Ərzuruma da dumanlı bir gündə girdik. Bələdçilərimiz Qurd Nədimlə Laz İsmayıl bizi Yaqutiyyə mədrəsəsi yaxınlığındakı müsafirxanada yerbəyer eləyib vidalaşdılar, məsləhət gördülər ki, yorğunluğu-

muzu çıxarmaq üçün hər şeydən qabaq hamama baş çəkək. Doğrudan da ancaq kişilər üçün açıq olan hamam dərdimizə əməlli-başlı dərman oldu, xüsusilə Fransuanın şam kimi yanan yanaqlarını görməyə dəyərdi. Müsyö dö Gardən Əcəm sınırını tez keçmək istəyirdi, bu səbəbdən Ərzurumda bircə gün qalmağa izin verdi, hava da yağışlı və çiskinli olduğundan Ərzurum qalasına, Üçgümbətlərə, cütminarəli cameyə uzaqdan-uzağa tamaşa elədim, o tikililərlə bağlı müsafirxanadakıları sorğu-suala tutub bəzi şeylər öyrəndim, Yaqutiyyə mədrəsəsinisə doya-doya gəzdim. Daş oymalı əzəmətli qapısından içəri girmək, dərsxanaya, hücrələrə baxmaq, xocalarla söhbət eləmək mənə xeyli təpər verdi. Bir xocanın dediyinə görə, İlhanilər dövründə Ərzurum valisi Xoca Cəmaləddin Yaqut tərəfindən on dördüncü yüzilin başlanğıcında tikilib. Həmin məqamda könlümdən belə bir mədrəsədə guşənişin olub, ömrümün qalan illərini təklik içində yaşamaq keçdi.

79. Bu dəfə nə at, nə qatır istəmişdik, yağışa görə səkkiz üstüörtülü araba bizə də, yüklərimizə də bəs elədi, üç bələdçini də nəzərə alsaq, cəmi iyirmi altı nəfərdik. Hazırlığımızı bitirib Ərzurumdan bir qədər quzeyə, Qarsa doğru üz tutduq. Yolun təfərrüatlarına varsam, çox uzun çıxar, ona görə də, nağıl dili yüyrək olar, deyiblər – on bir günə Qarsa, doqquz günə də Rəvana çatdıq, Qarsdan çıxdığımız günlərin birində, hələ qış girməmiş qar gördük, arabaların dağ yollarında əl vermədiyini başa düşüb təzədən atlara süvar olduq, yüklərimizisə qatırlara qatdıq. Üstəlik, Çıldır gölü yaxınlığında Fransua atdan yıxılıb yaralandı, mənim bir qədər təbabət fəhmim *(görünür, Sorbonndakı təbabət bölümü tanışlarımdan nəsə öyrənmişdim)* olmasaydı, üstəlik, yaxın kənddən türkəçarəçi tapmasaydıq, yazıq Fransuanın halı pisləşərdi. Qarsda da cəmi bir gün qalmışdıq, ona görə də müsyö dö Gardən Rəvanda heyətə az da olsa, dinclik vermək barədə düşünürdü. Təkcə Arpaçaydan keçməyimiz bir qədər çətin oldu, daha doğrusu, iki bələdçimiz və Burun Fransuanı çaydan adladanacan it əzabı çəkdilər. Müsyö dö Gardənsə əksinə, bu cür şeylərdən ləzzət alır, kefi kökəldi. Heyətdə Burunu deyə bilmərəm, hamımızdan yaşlı olsa da, bir dəfə də şikayətləndiyini

eşitmədim, şübhəsiz, neçə illərdən bəri yollarda olması onu dözümlü eləmişdi. Rəvana qarlı-çovğunlu gündə çatdığımızdan, iki gün burnumuzu çölə çıxara bilmədiyimizdən, bir gün də ancaq yola çıxmaq təlaşına qapıldığımızdan şəhər barədə dürüst bir şey söyləyə bilməyəcəyəm, təkcə tutqun havada gözümə dəyən boz görüntülər yadımda qaldı. Sonrakı gün dəstəmiz yola rəvan oldu, Araz boyu Dvin, Qorxun, Qarabağlardan keçib iki gün Nəqşivanda qaldıq, ardınca Əlincə çayını adlayıb Ordubada, ordan Əylisə gəldik. Əylisdəki günlərin üstündən çaparaq keçmək niyyətim yoxdu, çünki bunun mənə görə İlahinin mərhəməti olan bir səbəbi var...

80. Rəvandan Əylisəcən on bir günlük səfərimizdə içimdə baş aça bilmədiyim nagahan narahatlıq duyurdum. Əvvəlcə bunun doğulduğum məmləkətin – Tiflisin bu qədər yaxın olmasıyla bağladım. Tiflisdən düz otuz ildi çıxmışdım, artıq həmişə yaddaşımda diri olan mənzərələr get-gedə şuxluğunu itirib xəyala çevrilməyə başlamışdı – hər halda, illər öz sözünü deyirdi. Meydandan yuxarıdakı, indi yəqin xarabalığı ürək göynədən evimiz, ata-anam, qardaş-bacım, o məşum gecənin duyğusu, Görgü ağanın evində keçirdiyim illər, Qocor yaylağındakı məsud anlarım qəfildən müsyö dö Gardənin söz-söhbəti içində baş qaldırır, yaramın qaysağını qoparır, dözülməz ağrı dalğa-dalğa vücudumu sarırdı. Ya indi, ya da vədimə əməl eləyib firəng elçisinin xidmətindən çıxandan sonra Tiflisin yolunu tutsaydım, bunun nə qədər düzgün olacağını bilmirdim. Kökündən qoparılmış quru yovşan kimi Zaman küləyinin qabağına qatıb apardığı qırx beşəlli yaşlarında tənha kişi Tiflisdə kimə gərəkdi? Yəqin, Rüxsara xala da, Görgü ağa da, Rusudan xanım da, Dariya xala da çoxdan Haqq evinə köçmüşdülər, Davidlə *(ondan ötrü burnumun ucu göynəyirdi)* Ketinonun öz həyatı vardı, bundan sonra Züleyxanı görməksə, məndən ötrü lap dözülməz dərd olardı. Yaddaşımın yarası, şübhəsiz, doğmalarımın həyatına son qoyan, mənim həyatımı başqa axara döndərən o məşum gecə, çaqqal gözlü, tayqulaq məxluqun, onun əməldaşının qəddarlığıydı. Əmindim ki, o kəslər işlətdikləri günahın müqabilində öz cəzalarına çatıblar: ola bilməzdi ki, adil Allah gec-tez hər şeyi yerbəyer eləməyəydi, çünki, ən azı, bir bəndəsinə qarşı haqsızlığı cəzasız

qoyardı. Fikrimcə, mən Züleyxanın ümidlərinə könlümün qapısını bağladığıma görə bu sərgərdanlıq əzabını çəkirdim, Allah da məni belə cəzalandırmışdı; şübhəsiz, ədalətli cəzam bununla da bitməyəcəkdi, çünki bu vaxtacan heç günahımı yumağa cəhd göstərməmişdim.

81. Əylisə günorta namazından sonra çatdıq. Camaatın Bala İstanbul adı verdikləri bu gediş-gəlişli alış-veriş məkanında, azı, bir gün qalmaq barədə müsyö dö Gardəndən vəd almışdım. Rəvandan fərqli olaraq, burda qar yoxudu, güneyə getdikcə havanın mülayimləşdiyini, son ayın soyuğundan sonra sümüklərimizin qızdığını duyurduq. Məscidlərin minarələrilə kilsələrin qüllələrini yanaşı görən müsyö dö Gardən heyrətlənmişdi, mənə cürbəcür suallar verirdi, mən də dönə-dönə bu tərəflərə gəlmiş bələdçimiz rəvanlı Dərgahdan ala-babat cavablar alıb ona çatdırırdım. Belə çıxırdı, Əylis Çindən, Hindistandan, Qəndəhardan, Məşhəddən, İsfahandan, Qəzvindən, Təbrizdən, Ərdəbildən gəlib Rəvana, Tiflisə, ya da Qarsa, Ərzuruma, Konyaya, İstanbula yollanan karvanların keçdiyi, bazarında çeşid-çeşid malların olduğu yerdi. Böyük, az qala, İstanbuldakı Misir çarşısını xatırladan bazarını görəndə deyilənlərə istər-istəməz inandım. Yüklü-yüksüz dəvələrin, atların, qatırların, arabaların, cürbəcür qiyafəli, cürbəcür dillərdə danışan adamların qələbəliyi, sıralanmış dükanlarda malların bolluğu firənglərdə də heyrət doğurmuşdu. Çin ipəyi, Təbriz xalıları, Dərbənd silahları, Ordubadın quru meyvələri göz oxşayırdı. Bələdçimiz rəvanlı Dərgah bizi qələbəliyin içindən keçirib Bazarbaşındakı birqatlı, karvansaralardan fərqlənən, uzunsov müsafirxanaya apardı. Öz-özlüyümdə Burunun fırtınayabənzər xorultusuna təzədən rast gəlməyi arzulamırdım, amma daha betərilə rastlaşdım: cəmi beş boş hücrə olduğundan, üstəlik, Fransuanın da fısıltısına dözəcəkdim. Müsyö dö Gardən Klodu öz hücrəsinə iltifatla qəbul eləmişdi, dediyinə görə, onunla bəzi məsələləri götür-qoy eləməliydi. Əlbəttə, yaxınlıqda müsafir intizarı çəkən rahat evlər vardı, elə qəfiləmiz dayanan kimi, yerlilər özləri yaxınlaşıb təklif eləmişdilər, amma Müsyö də Gardən qısa müddət üçün rahatlıq axtarmağın mənasızlığını söyləyib öz hücrəsinə çəkilmişdi.

82. Rəvanlı Dərgahla o biri bələdçimiz lütf göstərib yükümüzü yerbəyer elətdirəndən, yorğunluğumuz ucbatından ilk ehtiyacımız kimi hamamı tanıdandan, müsafirxana sahibinin açdırdığı süfrədə yerli nemətlərin dadına baxandan, Təbrizə doğru yola çıxmaq üçün lazım olan minikləri və bələdçini danışıb-razılaşandan sonra çıxıb getdilər, mən də isti hamamın, ləziz yeməyin ləzzəti damağımda, xorultuyla fısıltının qorxususa canımda yatağıma uzandım. Fransuanın fısıltısı hələ eşidilmirdi *(müsyö dö Gardənıin hücrəsindəydi),* Burunun da xorultusu başlamamışdı *(o da hələ yuxuya getməmişdi),* amma müsibətim başqa səmtdən başlamışdı – qonşu hücrədən öskürək səsi asimana bülənd olmuşdu, az qalırdı, daşı-divarı dağıtsın. Binəva kim idisə, güman ki, öskürəkdən qıvrılırdı, çünki taxtın cırıltısı da ara vermirdi. Kor şeytana lənət oxuyub barmaqlarımla qulaqlarımı tıxadım, başımı bürüdüm, xeyri olmadı, üstəlik, bu tərəfdən də Burunun fırtınası başladı. Bir azdan Fransuanın da qayıdacağını fikirləşib eni-uzunu dörd addım olan hücrədə nə həngamə qopacağını xəyalımda canlandırdım. Əsəblərim tab gətirmədi, yatağımdan qalxdım, paltarımı geyinib bayıra çıxdım. Bir az o tərəfdə bazarın gündüzkü səs-küyü get-gedə öləziyir, orda-burda ulduzlar işaran tərtəmiz göy üzü sabah havanın yaxşı olacağından xəbər verirdi. Həmin məqamda başdakı hücrədən çıxan müsafirxana xidmətçisindən öskürənin xəstə olub-olmadığını soruşdum, dedi, tiflisli ermənidi, İsfahan Culfasından gəlir, daha yola davam eləməyə taqəti yoxdu, vərəmə tutulub, ciyərindən qan gəlir, kimsə də yaxın durmur, üstəlik, elə öz millətindən olan səfər yoldaşı da bədbəxtin olan-qalanın götürüb aradan çıxıb. Çox yaşamaz, xidmətçi əlacsız səslə əlavə elədi, ağamın xəstə, pulsuz-parasız adamı bayıra atmadı, dedi, Allah nə qədər möhlət veribsə, o qədər yaşayır, sonrası də məlumdu. O Bədbəxt xəstənin tiflisli olması içimi tərpətdi, özüm də baş açmadan bədənimi qəribə həyəcan sardı. Yəqin o sözü deməsəydi, qonşu hücrəyə girməyəcək, hücrəmə qayıdıb gecəni birtəhər başa vuracaqdım.

83. Hücrənin qapısını itələyib sısqa şam işığında dağınıq yatağa uzanmış qorxunc xəyal gördüm. O xəyalın sinəsi görük kimi qalxıb-enir, xırıltı qaynaya-qaynaya yuxarı qalxır, sonra boğazında əsl qasırğa başlayırdı. Sıçrantının üstümə düşməməsinə çalı-

şa-çalışa şamı götürüb yatağa yaxınlaşdırdım, ay adam dedim, mən də tiflisliyəm, kimsən, sənə nə köməyim dəyə bilər? Üzü divara sarıydı, öskürək dalğası gəlib keçəndən sonra türkcə dedi, hallavarlı çarvadar Karapetəm, mənə daha Allah da kömək eləyə bilməz, daha axırım çatıb, var-yoxum əlimdən çıxıb, qardaş bildiyim adam belə üz döndərib. Təzədən qaynayan öskürək dalğası sözünü bitirməyə qoymadı, uzun-uzadı öskürüb, azacıq rahatlanıb heysiz əlindəki əski parçasıyla ağzını siləndə dodaqlarında qan gördüm. Bir aydı ciyərimin qanını içirəm, dedi, öz dinimdən olan bir Allah bəndəsi kömək əlini uzatmır, bir musurmanın ümidinə qalmışam. Yeni öskürək dalğası gəlib keçəndən sonra dedi, əgər bu gecə ölsəm, döşəyimin altında bir namə var, onu Tiflisdə keşiş Asatura çatdırarsan, Allah səndən razı olsun; de ki, hər şeyi dediyi kimi elədim. Bu vaxt arxası üstə çevrildi… elə həmin məqamda çırağın solğun işığında əvvəlcə çaqqal gözlərini, sonra kəsik qulağını gördüm, yeddi yaşımdan yaddaşıma həkk olunmuş məşum gecəni bir daha yaşadım, amma nə dilim söz tutdu, nə əlim qalxdı. Bunca illərdən sonra doğmalarımı torpağa gömən, mənim həyatımı dəyişdirən iki adamdan birini bu cür məşəqqətli ölümlə qarşıma çıxarırdısa, deməli, Allahın ədaləti tükənməzdi. Amma yaxşı olardı, mərhəmət sahibi onu qarşıma sağ-salamat çıxaraydı, təkbətək döyüşüb qisasımı alaydım, indi ciyərinin qanını içən bu heydən düşmüş, miskin qoca çaqqal nəyimə gərəkdi?

84. Qəfildən ürəyim qalxdı, öyüdüm, qusmamaq üçün şamı kətilin üstünə qoymağa güclə macal tapıb özümü bayıra atdım. Bədənimi soyuq tər basmışdı, gecənin ayağında ağlını itirmiş adam kimi müsafirxananın dar həyətində vurnuxmağa başladım. Xidmətçi hücrələrdən birindən çıxıb məni görəndə təəccüblə ayaq saxladı. Soruşdum ki, namaz qılmağa yer olarmı? Buyur, ağa, xidmətçi öz hücrəsini göstərdi, namazlıq da var, möhür daşı da, dəstəmazı da elə burdaca alarsan. Aftafada su, dəsmal gətirdi, dəstəmaz alıb Axund Səməndərin yanından ayrılandan sonra ilk dəfə sidq-ürəklə namaz qıldım, ədaləti müqabilində Allaha dua elədim. Şübhəsiz, çaqqalın bu halı da doğmalarımı qaytarmayacaq, yaramı sağaltmayacaqdı, amma heç olmasa, ömrümün o ağır yükü azacıq da olsa yüngülləşirdi. Namazı

bitirəndən sonra xidmətçi tələsmədiyimi görüb, ağa, görürəm, yatmaq istəmirsən, dedi, onda otur, söhbət eləyək, vaxt ötsün. Bu, göydəndüşmə oldu, xorultuyla fısıltının əzabına dözməkdən, ya da qış gecəsində yaralı yalquzaq kimi ətrafı dolaşmaqdansa, Allah bəndəsilə ülfət eləmək yaxşıydı. O gecə nələrdən söhbət elədik, bunların mətləbə dəxli yoxdu, xidmətçiyə bir onu dedim ki, o bədbəxtlə uzaq tanış çıxdıq, döşəyinin altında Tiflisə çatası bir namə var onu mənə çatdırsan, borclu qalmaram. Xidmətçi naməni gətirəndə dedi, binəvanın son saatlarıdı, səhərə çıxmaz, iltifatına görə bəxşişini də alıb məmnun oldu. Dedim, namənin büküldüyü bir neçə qat qalın kağızı açıb buxarıya atsın, namənin özünüsə alıb qoynumda gizlətdim. O gecə çox uzun oldu, mənə elə gəldi, qırx dörd illik ömrümü təzədən yaşadım. Səhərə yaxın öskürək kəsildi, xeyli eşidilmədi, xidmətçi duyuq düşüb getdi, tez də qayıtdı, dedi, qurtuldu, sabah kilsəyə xəbər verərik, gəlib apararlar. Qırx dörd yaşında dəyişəcəyimi desəydilər, inanmazdım, amma olan oldu: səhər əzanı oxunanda nədənsə *Qurani-Şərifin "Həcc" surəsindən "... Haqsızlıq eləyib yolundan azan kimsəyə də bu əzabdan pay düşər" ayəsini xatırladım, durub dəstəmaz aldım, kəmali-ədəblə namazımı qıldım…*

# XIII

# ÖMRÜN UÇAN QUŞU

*Eşq oduna yanan sönməz,*
*Gedən günlər geri dönməz.*
*Ömrün quşu uçdu, qonmaz,*
*Qənimətdir səfa sürmək.*

*Məhəmməd ƏMANİ*
*(XVII yüzil)*

85. Doğrudan da bir gecədə bütün ömrü yaşamaq olarmış. O gecənin ağrısı məni, elə bilirəm, azı, on il qocaltdı. Təbii ki, ciyərinin qanını içən qoca çaqqalın miskin ölümü heç nəyi dəyişdirməyəcək, itirdiklərimi qaytarmayacaq, taleyimi döndərməyəcəkdi. Bəlkə elə bu səbəbdən səhər obaşdan yolları qar basmamış, Araz çayı donmamış güneyə adlamaq bəhanəsilə qafiləmizi tələsdirdim, müsyö dö Gardən də bundan çox təəccübləndi, şübhəsiz, səhər bir sərgərdanın öz hücrəsində öldüyünü eşitmişdi, amma olub-keçənlərdən xəbər tutmadığına görə mənimlə dərhal razılaşdı. Nəqşivandan, Əylisdən, bu məşum müsafirxanadan tez uzaqlaşmaq istəyirdim, qəfil təzələnmiş bu duyğunun yenə uzun müddət yaxamı buraxmayacağını bilsəm də, özümü bir qədər aldatmaqdan başqa yolum yoxudu. Axşamdan müsafirxana sahibinin bəlirlədiyi bələdçiləri çağırana, yüklərimizi atlara, qatırlara rahatlayıb, Əylisdən çıxanacan gün bir adam boyu qalxdı. Müsyö dö Gardən ətrafa baxa-baxa nəsə danışırdı, deyəsən, qırmızı rəngə çalan Nəqşivan dağlarının sərt gözəlliyinə heyrətini bildirirdi, arada Əlincə adını da çəkdi, amma ona qulaq asası, söhbətinə qarışası, ətrafın mənzərəsini qavrayası halım yox idi. Ancaq Arazı keçməyimiz, gecəni elə çayın qırağında çadırda keçirməyimiz, səhəri üzü güneyə yol başlamağımız, Əhərlə Zunuz arasından, Dizmər qalasının yanından keçib bir axşamüstü Təbrizə varid olmağımız yadımdadı. Böyük Bazar yaxınlığındakı

məscidli, hamamlı geniş karvansarada qərar tutanda az da olsa, özümə gəldim, öz-özlüyümdə hesabladım ki, yolumuz altı, ya yeddi gün sürüb. O gecəni susqun durmağımdan, səhəri şəhəri gəzmək sevdasına düşməməyimdən naxoşladığımı zənn elədilər, Klod Letelyör özünəxas alimanə görkəmlə bəzi məsləhətlər də verdi, Buruna ayaqlarımı isti suya salıb ovuşdurmağı tapşırdı. Müsyö dö Gardən də çox əndişəli görünür, Təbrizdə qaldığımız üç gündə tez-tez halımı soruşurdu. Mənsə qəfildən qoltuğumdakı naməni xatırlamışdım, çaqqalın niyyətindən xəbərdar olmaq istəyirdim, amma dillərini bilmirdim, Tiflis günlərindən yadımda beş-on söz qalmışdı, Təbrizdə də durub adam axtarmağı yersiz sayırdım, hələ kimsəni tanımırdım, ona görə də sinəmin altını yandıran o kağız parçasının sirrini Qəzvinə saxlamaqdan başqa çıxış yolu tapmadım.

86. Sonra Təbrizdən çıxdıq, Marağa, Zəncan, Sultaniyyədən keçib Qəzvinə gəldik. Bu səfər həzrəti İsanın milad tarixilə min yeddi yüz on yeddinci ildə baş verdi ki, Nəbəviyyə hicri tarixilə min yüz iyirmi doqquzuncu ilə bərabər olur. Şah Sultan Hüseyn də həmin il Qəzvinə gəlmişdi. Rəvandan üzü güneyə olduğumuz bütün yerlərdə, illah da Təbrizdən bu tərəfdə Səfəviyyə dövlətinin halını çox pərişan görürdüm. Təbriz Qəzvin arası üç həftəyəcən çəkən yolçuluğumuz zamanı karvansaralarda, müsafirxanalarda, dükan-bazarda ülfət elədiyimiz adamlar Şah Sultan Hüseynin hökmdarlığından əcaib şeylər danışırdılar. Deyilənlərdən belə çıxırdı bir vaxtlar Şah İsmayılın və Şah Abbasın sınırlarını dörd səmtə yaydıqları bu məmləkət indi Osmanlılar, ruslar bir tərəfə, əfqanlar, abdalilər, gilzayilərlə, hərəsi özünü bir şah sayan əyalət xanlarıyla bacarmır. Deyirdilər, abi-nuran *(arx tikintisi üçün),* şahzadə ixracatı *(şahzadələrin xərci üçün),* şeş dinar *(başqa dinə mənsub olanlardan alınan*) vergilər camaatı var-yoxdan çıxarıb, üstəlik də bəylərbəyilər o vergilərin çoxunu xəzinəyə vermirlər. Deyirdilər, başqa məmləkətlərlə ticarət ermənilərin əlində cəmləşib, onlar əcnəbi gümüş pulları yenidən kəsmək üçün zərbxanaya vermir, Hindistana göndərirdilər, bununla da səfəvi pulları dəyərsizləşir, saxta pullar artıb-çoxalır, abbasıların, mahmudilərin, şahıların hansının həqiqi olduğunu bilmək olmurdu, bu səbəbdən üz tərəfinin ortasında «Lailahəilləllah,

Muhammədən Rəsulullah Əliyun Vəliyullah», ətrafında on iki imamın, arxasında Şahın adı, kəsildiyi yer və tarix zərb olunmuş gümüş pullar əvəzinə dinara və ağcaya üstünlük verirdilər. Deyirdilər, Qibleyi-Aləmin sarayında dövlət məsələlərini ağıllı başlar yox, gecələr, münəccimlər həll eləyir, onlar nə desələr, hökmdar ona inanır. Deyirdilər, şahın sarayında «bəxşiş» verib istədiyin vəzifəni ala, imtiyaz əldə eləyə bilərsən. Deyirdilər, yol kəsmək, karvan soymaq, adam öldürmək adi işə çevrilib *(belə çıxırdı, ta Nəqşivandan Təbrizəcən bizi Allah saxlayıb).* Deyirdilər, xacəsarayların dövlət işlərinə qarışması sərəsgərləri, sipəhsaları belə yerlərindən oynada bilər. Deyirdilər, Şah Sultan Hüseynin hakimiyyətə heç həvəsi yoxdu, vəzir-vəkili, xacə-münəccimləri nə düzüb-qoşurdularsa, ona «yaxşıdır» deyib tənbəl-tənbəl başını tərpədirdi, bu səbəbdən də ona gizlicə «Yaxşıdır» ayaması qoymuşdular. Deyirdilər, hərəmxanasındakı beş yüzdən artıq zənənin heç beşilə bir yastığa baş qoymağa haləti yoxdu. Üstəlik, mollabaşı, şeyxülislam və sədr-ül-məmalik arasındakı çəkişmələrdən də söhbət gedirdi.

87. Biz Qəzvinə yetişəndə Qəndahar hakimi, gilzayilərin başçısı Mir Veys təzəcə ölmüş, taxtında qardaşı Mir Abdulla oturmuşdu. Amma az keçməmiş, Mir Veysin oğlu Mir Mahmud əmisini qətlə yetirib Qəndahar taxtında əyləşdi. Bu tərəfdən də abdalilər Heratda at oynadıb Səfəviyyə dövlətindən ayrıldıqlarını bəyan eləmişdilər. O biri tərəfdən kürdlər Həmədan və İsfahan ətrafındakı şəhərləri, kəndləri talayırdılar. Şirvanda və Dağıstanda qiyamlar baş qaldırmışdı. Bir neçə dövlət namusu çəkənlər olub-qalanı qorumağa çalışırdılar, Şah Sultan Hüseynsə hələ də «Allaha pənah» deyib durmuşdu. Abdalilərin güclənməsindən narahat olan, onları əzən Mir Mahmuda xilaskar sayaq baxıb "Hüseynqulu xan" adı vermək, üstəlik, bəxşiş kimi qılınc göndərmək ancaq onun əyanlarının ağlına gələrdi. Mir Mahmudsa qarşısındakının acizliyini görüb artıq Səfəvi xanədanına son qoymaq, Əcəm taxtına çıxmaq fikrincə düşmüşdü. Üç ay Qəzvində qaldığımız müddətdə Şah Sultan Hüseynin mühüm dövlət işlərilə məşğul olduğunu bəhanə gətirib Firəngistan elçisini gözlədən saray adamlarının əsl niyyəti də elə o məqamlarda ortaya çıxdı. Səfarətimiz əski şah sarayına yaxın yerdə, ikiqatlı gen imarətdə

yerləşmişdi. Müsyö dö Gardənin çaşqınlığı üz-gözündən oxunurdu, açıq-aşkar başını itirmişdi, demək olar, hər gün səfarətin başbilənlərini yığıb məşvərət eləyir, amma bir qərara gələ bilmirdi. Vəzifəmə daxil olmasa da, məhrəmanə söhbətlərimizdə ona səbirli olmağı, gözləməyi məsləhət görürdüm, fikrimcə, Firəngistandan gətirilən sandıqları açmaq, saraydakı bəzi şəxslərə bəxşiş verib şahın hüzuruna yetişmək, səfarətin niyyətini çatdırmaq gərəkdi. Əmin-amanlıq vaxtında qərar vermək iqtidarında olmayan hökmdarın bu qarışıq zamanda firəng elçisinin ticarət sevdasına maraq göstərəcəyini heç ağlım kəsmirdi. Fransua Düpon, əksinə, Şahın belə çətin məqamda firənglərə diqqətlə yanaşacağını güman eləyirdi.

88. Qəzvində qaldığımız üç ay ərzində tədricən Əylis hadisəsinin ağırlığından qurtulmağa başladığımı duydum. Bunu tezləşdirmək məqsədilə hər gün şəhəri dolaşır, Böyük Bazarı, Cümə məscidini, Heydəriyyə məscidini, xalça karxanalarını dolaşır, dükan-bazarda camaatla söhbətə girişir, axşamlar şam işığında olub-keçənlərlə bağlı görüb-eşitdiklərimi kağıza köçürürdüm. Herat şəhəri bəylərbəyi Məhəmməd Zaman xanın abdali uğanların, yəni əfqanların hücumuna tab gətirməyib İsfahana qaçması, Məşhəde Tus şəhərinin hakimi Məlik Mahmudun Əcəm şahının itaətindən çıxıb müstəqil hökmdar olması, Şah Sultan Hüseynin Səfiqulu xanı sərdar təyin eləyib Herat əfqanlarının başçısı Əsədulla xanın üstünə göndərməsi, səkkiz min qızılbaş əsgərinin qətl edilib, Səfiqulu xanın öldürülməsi barədə eşidib-bildiklərimi yazdım. Bu vaxt Şah Sultan Hüseyn Qəzvindəki sarayında əmin-amanlıq vaxtındakı kimi yaşayırdı. Mir Mahmud bəluc tayfalarıyla Kirman vilayətini talan eləyəndə, Kirman vilayətinin hakimi Vaxtanq xanın kiçik qardaşı qoşunla birgə İsfahana qaçanda Şah Sultan Hüseyn Qəzvindən çıxıb Tehrana yollandı, düzü, bunu nə səbəbə elədiyini şəxsən mən anlamadım. Eşitdiyimə görə, Şah Tehranda Osmanlı dövlətinin elçisi Dürri Əfəndini təmtəraqla qəbul eləmişdi. Axır vaxtlar müsyö dö Gardənlə məsləhətləşmələrdə Şah Sultan Hüseynin hüzuruna yetişmək üçün Tehrana getmək barədə Fransua Düponun fikri götür-qoy edilirdi. Mən hökmdarın İsfahana qayıtmasını gözləməyin tərəfdarıydım, müsyö dö Gardən də xeyli

fikirləşəndən, götür-qoy eləyəndən sonra mövqeyimlə razılaşdı. Bu müddət ərzində birbaşa vəzifəm sayılmasa da şah sarayında kimlərlə ünsiyyət qurmağın daha sərfəli olacağını araşdırmaq mənə həvalə edildi. Elə o günlərin birində müsyö dö Gərdanın da Səfəviyyə dövlətində baş verənləri, səfər boyu baş verənləri qələmə aldığını *(daha doğrusu, onun dediklərini Klod Letelyörün kağıza köçürdüyünü)* öyrəndim.

89. Yazdığımı «*Vaqiati Mir Veys və Şah Hüseyn*» adlandırmışdım. Qələmə aldıqlarım aydın anlaşılsın deyə, qədimlərdə, Şah Abbasın hind padşahıyla üç dəfə döyüşüb Qəndəhar məmləkətini ələ keçirməsi, uğanlar tayfasının artıb-çoxalması, Mir Veysin böyük şöhrət tapıb Əcəm şahına yağı çıxması, gürcü Vaxtanq xanın əmisi Şahnəvaz xanın dörd min gürcü, iyirmi min qızılbaş əsgərilə Qəndəhara gəlib, Mir Veysi zəncirləyib Şah Hüseynə göndərməsi, onun İsfahanda zindana salınması barədə yazdım. Bütün bunları Qəzvin sarayına firəng elçisinin qəbuluyla bağlı gedib-gələndə ünsiyyət qurduğum, məmləkətin dərdini danışmağa bir Allah bəndəsi axtaran Mirzə Mömindən eşitmişdim. Sonra sipəhsalar məqamına ucalan Şahnəvaz xanın gücü saraydakı bəzi şəxsləri, o cümlədən şikarbaşı, qullarağası, axırda etimadüddövlə vəzifəsinə qalxan ləzgi Fətəli xanın narahatlığına səbəb olub, onu aradan götürmək üçün Mir Veysdən istifadə eləmək qərarına gəliblər. Mir Veys də Qəndəhara gedib, Şahnəvaz xanın qılığına girib, onu da, adamlarını da yaxşıca içirdib, sonra hamısını qətlə yetirib, Qəndahar qalasını tutandan sonra özünü hakim elan eləyib. Şah Hüseyn uğanlardan intiqam almaq fikrinə düşüb, Qəndahar üzərinə gedib, qaladakılar bundan qorxu keçirib qaçışıblar, amma Allahın hikmətilə Şah Hüseynin də qəlbinə qorxu düşüb, Məşhəddə İmam Rzanın qəbrini ziyarət eləyəndən sonra İsfahana qayıdır. Sonra əmisinin qisasını almaq üçün Tiflisdən gələn Xosrov xan qırx min qızılbaş əsgərilə Qəndəhara yollanıb, amma sınıq çıxıb, geri qayıdıb, ardınca Məhəmməd Rüstəm xan da Mir Veysin üzərinə gedib, amma bir nəticə hasil olmayıb. Beləcə, Mir Veys səkkiz il Qəndəharın hakimi oldu, öz əcəlilə öldü, əvvəl qardaşının sonrasa qardaşı oğlunun taxta çıxmasınısa artıq söyləmişəm.

90. Bəlkə uçan ömür quşumun – Tiflisin havası başıma vurmuşdu, Qəzvində Gürcüstan məmləkəti barədə Mirzə Mömindən eşitdiklərimi yerli-yataqlı söyləmək istəyirəm. Ömrümün on dörd ilini yaşadığım o torpaq həmişə Əcəmlə Osmanlının arasında qalmışdı, kim güclüydüsə, onun yanında olurdular. Şahnəvaz xan da, Xosrov xan da, Hüseynqulu xan da, Məhəmmədqulu xan da hamısı gürcü tayfası bəylərindən olduqları halda qızılbaşlar sırasına keçmişdilər. Onların birincisi, Gürcüstan xanlarının ən məşhuru Təhmurəs xan olub. Məhəmmədqulu xan onun oğul övladından, Hüseynqulu xan qız övladından törəyiblər, həmişə də Gürcüstanda hakim olmaq istəyiblər. Hətta Tiflis taxtı Şahnəvaz xana tapşırılanda Məhəmmədqulu xanın atası Nəzərəli xan ondan qorxub Moskova qaçmışdı. Şahnəvaz xan qiyam yoluna düşəndə, şah Nəzərəli xanı bir bəylə Moskovdan gətirtdi, Gürcüstan onun ixtiyarına verildi. Əcəm qoşunu Nəzərəli xanın tərəfində olduğundan o, Şahnəvaz xana qalib gəlib onu dağlara qaçırtdı. Sonralar Şahnəvaz xan İsfahana çağırılıb günahı əfv olundu, bir qədər sonra Kirman vilayəti ona verildi, ardınca sipəhsalar məqamına çatdırılıb Qəndəhar valisi oldu, sonrakı istəyi də məlumdu. Vaxtanq xan ondan sonra İsfahana çağırılıb Gürcüstan hakimi olmuşdu. Məhəmmədqulu xan bir neçə il İsfahanın qaimməqamı olmuşdu, qardaşı Təhmurəs Kaxet valisiydi. Sonralar Vaxtanq xan Moskov çarıyla əlbir olub şaha qarşı çıxmışdı. Şah Sultan Hüseyn taxt-tacı itirəndə şahlıq iddiasına düşən Şahzadə Təhmasib Gürcüstanı Məhəmmədqulu xanın ixtiyarına verdi. İsfahan təhlükədə olan vaxt ləzgilər Şamaxını tutmuşdular, Moskov çarı Vaxtanqın və Şamxalın təhrikilə Dərbəndi tutmuşdu, gəmilərlə Gilana iki min rus əsgəri gəlmişdi, az sonra sayları yeddi minə çatdı, amma Rəşt, Mazandaran, Astarabaddan bəri gəlmədilər ki, çar buyruq verməyib.

91. Mətləbdən uzaq düşdüm, amma Şah Sultan Hüseynin Tehrandan İsfahana gəlməsi, bu vaxt baş verən ilahi möcüzə barədə danışmaya bilmərəm. Əcəm ölkəsinin münəccimləri bir neçə il idi ki, Səfəvi dövlətinin süquta uğrayacağından, xüsusilə, İsfahan şəhərinə üz verəcək səma hadisəsindən gah gizli, gah da açıq danışırdılar. Onsuz da qorxaq olan Şah cismən qorxmuş, dərin fikirlərə qərq olmuşdu. Hətta, Şah Hüseyn Tehrandan

İsfahana qayıdan gün təsadüfən havada böyük dəyişiklik baş vermiş, od kürəsinə bənzər bulud peyda olmuşdu. Bulud Şah Hüseyni başdan-ayağa elə bürümüşdü ki, qaçanda yalnız atın ayaqları və qəfildən püskürən atəş şölələri görünürdü. Hamı bu halı müşahidə eləyib heyrət barmağını təfəkkür dişlərilə dişlədi. Təkcə İsfahan şəhərində yox, bəlkə də bütün Əcəm məmləkətində söz-söhbət yayıldı – Şah İsfahana qayıdandan sonra camaatın çoxu şəhərdə asiman qəzasının üz verəcəyi fikrinə düşdü. Bəziləri «Təbriz kimi zəlzələdən dağılacaq», bəziləri «göydən atəş yağacaq», bəziləri fitnə və qətl yaranacaq deyib bərk qorxuya düşdülər, dua oxudular. Amma bütün bunlar müsyö dö Gardəni fikrindən daşındırmadı, Şah Hüseynin İsfahana dönməsi xəbərini alan kimi Qəzvindən yola çıxmaq qərarına gəldi. Düzü, məni həmin günlərdə hər şeydən artıq yolların təhlükəsizliyi maraqlandırırdı. Əgər bu tərəflərdə at oynadan kürd dəstələrinə rast gəlsəydik, Şahın müsafiri olmaq bizi xilas eləməyəcəkdi – indi hökmdarın özünün belə cani təhlükədəydi. Qəzvin qaimməqamının verdiyi bir neçə atlı qızılbaş azğın basqınçıların hücumuna tab gətirə bilməzdi. Amma hələ ki, Allahın nəzəri üstümüzdəydi, Onun himayəsilə iki həftə ərzində İsfahana yetişdik. Mən İsfahanı səfərimin sonu sayırdım, yəni müsyö dö Gardən işini bitirib geri dönəndə ayrılıb Tiflisə üz tutmağı düşünürdüm. Amma bir daha inandım ki, *həyat insana ən yaxış halda bircə təkrarolunmaz an bəxş eləyir, xoşbəxtliyin sirri də həmin anın mümkün qədər tez-tez təkrar olunmasındadı...*

# XIV

# AĞLAR GÖZLƏRİN KƏDƏRİ

*Ağlar gözümə güldün, sordun*
*bu nə matəmdir?*
*Çox gülməlidir burda hər*
*ağlamayan insan.*

*Xaqani ŞİRVANİ*
*(XII yüzil)*

92. İsfahana çatan kimi, Mirzə Möminin məsləhətinə əməl elədik: müsyö dö Gardən sandığının ağzını açdıq, qiymətdə ağır, vəzndə yüngül bəxşişlərdən götürüb Çahal-sütun sarayına, Xacə Nəcməddinin yanına getdim. O, bəxşişlərə elə yanımdaca baxdı, dəyərini soruşdu, gözəlliyini təriflədi, axırda harda məskunlaşdığımızla maraqlandı, hələ rahatlanmağa macal tapmadığımızı eşidib pərişan oldu. Dedi, arxayın gedin, Qibleyi-Alәmə firəng elçisinin arzusunu elə bu gün, uzaqbaşı sabah yetirərəm, yəqin yaxın günlərdə hüzuruna gəlmək şərəfinə nail olarsınız. Çıxanda yanıma buyruqçulardan birini qoşdu, məlum oldu ki, əziz müsafirlər üçün layiqli yer ayırmağa onun da səlahiyyəti çatırmış. Bizi saraya yaxın yerdə ikiqatlı, iyirmi iki otaqlı gözəl bir imarətdə yerləşdirdilər, Qibleyi-Aləmin əziz müsafiri olduğumuzu carçılarla o ətrafdakı camaata bildirib ehtiram göstərmələrini tələb elədilər. Müsyö Syör dö Gardən bu hala həm təəccübləndi, həm sevindi, elə səhəri gün də heyətini yığıb Şah Sultan Hüseynin hüzurunda deyəcəklərini götür-qoy eləməyə başladı. Mən, əlbəttə, mümkün qədər səfarətin işinə qarışmamağa çalışırdım, camaat arasında olur, rastıma çıxan, dərdini söyləməyə bir kəs axtaran Allah bəndələrilə ülfət eləyirdim. Bəziləri narahat, ümidsizdi, Mir Mahmudun İsfahan üzərinə yürüşə keçəcəyindən danışırdı, bəziləri də baş verəcək hadisənin dəf olduğuna inanırdı. Əylisdən başladığım, firənglərin təəccübünə rəğmən

vaxtını ötürməyə və borclu qalmamağa çalışdığım namazımı məscidlərdə qılır, şəhər əhlinin səksəkəli, həyəcanlı, çaşqın halına acıyırdım. Bütövlükdə İsfahan məndə kədərli duyğular oyadırdı, nə vaxtsa qüdrəti qarşısında təkcə qonşularının yox, yaxın-uzaq məmləkətlərin belə lərzəyə düşdüyü Səfəviyyə dövlətinin bu cür aciz halına tab gətirmək asan deyildi. Arazı keçəndən özümü Əcəm şahının təbəəsi saymağa başlamışdım, bunu izah eləyə bilməsəm də, mənə elə gəlirdi, gün-gündən əldən gedən xanədan elə öz cismimdi.

93. Bu ovqatla Xacə Nəcməddinə çox bel bağlamasam da, söz verdiyi kimi, bir-iki yox, beş gün sonra buyruqçusu gəldi, dedi, Qibleyi-Aləm günorta namazından sonra firəng elçisini hüzurunda görmək istəyir. Onsuz da hazır idik, iki sandıq bəxşiş götürüb doqquz nəfərlik heyətlə sarayın yolunu tutduq, rastımıza çıxan qorçuların, müstəhfizlərin, tüfəngçilərin, xacələrin… yetik nəzərləri altında *(firənglərin geyim-keçimi onlara çox qəribə gəlirdi)* Şahın gözləmə otağına girdik. Müsyö dö Gardən cismən də, ruhən də gərilmişdi, nə qədər ürək-dirək verirdimsə, həyəcanını saxlaya bilmirdi. Bir qədər gözlədəndən sonra eşikağalarıbaşı bizi Şahın hüzuruna dəvət elədi. İçəri girib vəzir-vəkillərinin, molla, xacə, münəccimlərinin əhatəsində taxtda yarıuzanmış Şaha təzim elədik, müsyö dö Gardənin söylədiklərini çatdırıb dedim, Firəngistan kralı Səfəviyyə dövlətilə dostluq və ticari əlaqələrini möhkəmlətmək istəyir, bu səbəbdən müəyyən məsələləri yoluna qoymaq üçün elçi heyəti göndərib. Bütün bunları söyləyəndə cəsarət göstərib Şahın üzünə baxdım. Yarıqapalı gözləri, üzgün, amma mülayim sifəti, etinasız halı yaddaşımda həkk olundu. Elə bil, xanədanı dağılan, məmləkəti əldən çıxan, təhlükəylə üz-üzə qalan bu deyildi. Firəngistan kralına hörmətini ifadə eləməyə də həvəsi yox idi, elə o vəziyyətdə Etimadüddövlə Məhəmmədqulu xana dedi, bunlarla məşğul olub, məsələləri yoluna qoyarsan. Müsyö dö Gərdan daha nələrsə söyləmək istəyirdi, amma Şah gözlərini açıb üzünü mənə çevirdi, heç gözləmədiyim halda soruşdu ki, firəngcəni harda öyrənmisən. Nitqim batdı, handan-hana cavabı məndən gözlədiyini dərk eləyib dedim, Qibleyi-aləm sağ olsun, on altı il Parisdə oxumuşam. Şah «Yaxşıdı, yaxşıdı» deyib başını tərpətdi, yenə əvvəlki halına qayıtdı. Camaat

arasındakı ayamasını yadıma salanda məni dəlicəsinə gülmək tutdu, amma vaxtında özümü ələ alıb boğazımı arıtladım, üzr dilədim, davam eləyib-eləməmək barədə bir şey anlamaq üçün Etimadüddövlənin üzünə baxdım. O da dedi, Qibleyi-Aləm firəng elçisini məmləkətində görməkdən məmnundu, ümidvaram o məsələlər həllini tapacaq, bununla da, görüşümüz başa çatdı, artıq bizi unudub huşa getmiş Şaha təzim eləyib hüzurundan mürəxxəs olduq.

94. Doğrudan da müsyö dö Gardən narahatlıqdan sonra işlərin bu cür asanlıqla yoluna düşməsindən çaşmışdı, məmləkətin halından çox üzərinə qoyulan buyruğu yerinə yetirməklə maraqlanırdı. Sonrakı həftələrdə daha çox narahatlığımızı yatırtmaq üçün firəng heyətini şəhərdə gəzdirdim. Həşt-behişt, Əli-qapu saraylarını, Şahın namaz qıldığı İmam Əli Cümə, Hakim, Şeyx Lütfulla, Darbe-kuşk məscidlərini, Allahverdi xan, Mafnan, Şəhristan, Cubi körpülərini, Çahar-Bəgh, Sədr, Hacu mədrəsələrini, Sasanilər zamanından qalma Atəşgahı, İbn-Sina məbədini, hamamları, mavi qüllələri, Şah bazarını, Şah karvansarasını… göstərdim. Bir zamanlar, daha doğrusu, Böyük Şah Abbasın hökmdarlığı vaxtında qüdrətinin zirvəsini yaşamış İsfahan indi narahat, qəmgin, baxımsız olsa da, hələ gözəlliyini itirməmişdi. Arada bəxşişlər götürüb iki dəfə Etimadüddövlənin hüzurunda olduq, nəticədə mal çeşidindən tutmuş rüsum məsələsinə qəhər hər şey firəng elçisinin istədiyi kimi oldu. Həmin günlərdə Mir Mahmud qəfil hücuma keçib Kirmanı qarət elədi, sonra İsfahanın üzərinə gəlməsi barədə şayiələr yayıldı. Eşitdiyimizə görə Şahın ətrafı bundan çox qorxuya düşmüşdü, sarayda məşvərətlər, qilü-qallar başlamışdı, bəzi ağıllı adamlar, dövlətin xeyirxahları və insaflı adamlar Osmanlı sultanına namə göndərib kömək istəməyi təklif eləyirdilər, Şah da xasiyyəti təbirincə buna razı olmuşdu. Amma bir para məğrur adamlar həmin tədbiri lüzumsuz bilib deyirdilər, bununla Osmanlı dövlətinə öz zəifliyimizi bildirmiş olarıq. Şah Sultan Hüseyn vəziyyəti belə görüb yenidən Qəzvinə getmək fikrinə düşmüşdü, bununla belə saray adamları «Söz-söhbət yayılsa ki, Şahımız bir gədanın qabağından qaçdı, bu Səfəviyyə dövlətinin şan-şövkətinə ləkə gətirər" iddiasiyla onu İsfahanda qalmağa təhrik elədilər. Günlərimiz saraydan gələn

xəbərləri götür-qoy eləməklə Səfəvi xanədanının sonunun necə olacağı barədə mülahizələr yürütməklə keçirdi. İsfahanda olan Firəngistan təbəələri gəlir – aralarında keşişlər də vardı – narahatlıqlarını bildirirdilər. İngilis və holland ticarət şirkətlərindən Şahla əlaqə qurmaq üçün gələnləri də tanımışdıq, Həmin günlərin birində Tadeuş Kruşinski adlı polyakla da tanış oldum, o səyyah Səfəviyyə məmləkətindəki hadisələri qələmə alırdı, bir müddət Təbrizdə, Qəzvində, Tehranda olmuşdu. Onunla bir neçə dəfə ülfət elədik, firəngcəni yaxşı bilirdi, türkcəni də öyrənməyə başlamışdı. Şəhərdə başıpozuqluq başlanandan izini itirdim, deyilənə görə, Rəştə, ya da Astarabada gedib fəlakətdən canını qurtara bilmişdi.

95. Həmin vaxt Osmanlı elçisi Dürri Əfəndi də heyətilə Tehrandan İsfahana gəlib Şahın buyruğuyla Şəhristandakı imarətlərin birində yerləşmişdi. Günlərin birində müsyö dö Gardenlə elçinin ziyarətinə getdik. Dürri Əfəndi Səfəviyyə dövlətinin halından pərişan olmuşdu, dediyinə görə, artıq Sultan Həzrətlərinə müfəssəl məlumatla çapar göndərmişdi, Mir Mahmudun Səfəvi xanədanına son qoyması Osmanlı dövlətinin də maraqlarına uyğun gəlmirdi. Nevşehirli Damad İbrahim Paşanın Sədrəzəmliyə gətirilməsini, Sultan həzrətlərinin Sarayda böyük kitabxana tikdirdiyini, İstanbulda yanğın olub, şəhərə böyük zərər dəydiyini ondan eşitdim. Yadıma Kitabdar Mühiddin Əfəndi, Ruhiyyə, o xəyallar şəhərində keçirdiyim acılı-şirinli illər düşdü. Həmin günlərin birində İsfahan qaimməqamının dəftərxanasında çalışan, erməniceni yaxşı bilən Mirzə Zamanla rastlaşıb yaxınlaşdım, dərhal da Əylisdə ciyərinin qanını içən qoca çaqqaldan miras qalan namə yadıma düşdü. Mirzə Zaman culfalı keşiş Gevorqun tiflisli Asatura buyruqlarından ibarət idi. Yazdığına görə, naməni çatdıran, Üçmüəzzinə, ordan da katalikosun naməsilə Culfaya göndərilən Karapet çox şeyləri dilcavabı söyləyəcəkdi. Yazırdı ki, erməni millətinin cəfakeşi İsrael Orinin başlatdığı işi başa çatdırmaq, Səfəviyyə məmləkətində ermənilərin miskin vəziyyəti barədə rus çarına namələr yollamaq, hətta Səfəvi xanədanının öz başının hayına qaldığı bir vaxtda rus qoşununun Əcəm ölkəsinə gəlməsinə hər vasitəylə təsir göstərmək, nəyin bahasına olursa-olsun, Arazdan quzeydə kilsələr tikmək, mülklər

almaq lazımdı, bundan ötrü bütün yollara əl atmaq məqbuldu. Yadıma düşdü ki, hələ miladi 1431-ci ildə Ağqoyunlu Yaqub Şahın valisi Əmir Rüstəm Üçmüəzzin və ətrafdakı yeddi para kəndi erməni katalikosu Qreqor Makuluya beş yüz otuz min Təbriz dinarına satmışdı; sonralar Böyük Şah Abbasın xariciyyə məsələlərinə baxan vəziri Xoca Səfərin əlilə çoxlu mülklər ələ keçirmişdilər, bundan sonra da boş dayanmayacaqdılar. Əvvəlcə naməni Etimadüddövlə Məhəmmədqulu xana, onun vasitəsilə Şah Hüseynə çatdırmaq istədim, amma belə bir vaxtda bir nəticə hasil olmayacağını düşünüb fikrimdən vaz keçdim.

96. Günlər, həftələr, aylar keçirdi, Şah sarayı xanədanın və məmləkətin xilası üçün təsirli bir iş görə bilmirdi. Miladi 1722-ci, hicri 1124-cü il girmişdi, dörd ildən artıq bir müddətdi ki, İsfahanda olduğumuza inana bilmirdim. Mir Mahmud Kirmanı qarət eləyəndən sonra Qəndaharda qoşun toplamış, Ənərbəyaz və Yəzd şəhərlərindən keçib İsfahan ətrafına çatmışdı. Müsyö dö Gardən vaxtında Tehrana, yaxud Qəzvinə getməməyimizdən peşman olmuşdu, artıq qaçmağa nə imkan, nə macal vardı. Şah vəziyyəti belə görüb, nəhayət, qeyrətə gəldi, qoşun toplamaq əmri verdi, süvarilər, piyada əsgərlər, tüfəngçilər cəmi on səkkiz min nəfər idilər, ətrafdakı xanlar, bəylər də öz əsgərləri, qapıxalqı, qohum-əqrabalarıyla gəldilər. Bununla belə, Şah döyüşməkdən çəkindi, İsfahana girməməsinin müqabilində Mir Mahmuda altı yüz kisə ağça göndərib sülh təklif elədi, amma Mir Mahmud qasidi qovdu, cəmadül əvvəl ayının *(1722-ci il mart ayı)* səkkizində, şənbə günündə Gülnabad kəndinə gəldi. Etimadüddövlə Məhəmmədqulu xan, qorçubaşı Şeyxəli xan, qullarağası Vaxtanq xan, onun qardaşı Rüstəm xan, tüfəngçiağası Lütfəli xan, eşikağalarıbaşı Hüseynqulu xan, Ərəbistandan Həvizə valisi Mir Abdulla xan, Həmədan xanı Fərəculla xan, Fars valisi Əli Rza xan, Bəxtiyari xanı Qasım xan, topçubaşı Məhəmməd xan, başqa xanlar, bəylər, on iki bədnam sərdar, cəmi əlli iki min qızılbaş əsgərilə Mir Mahmuda qarşı getdilər, onu qarışqa güman eləyib əvəzində mar gördülər. Əvvəlcə Mir Mahmud Əcəm əsgərinin çoxluğuna, qoşunun şan-şövkətinə baxıb canına qorxu, ürəyinə fəryad eləmək sevdasına düşdü, amma baş sərdarı Əmənulla Sultan nəsihət qapısını açıb ona nəsihət və məsləhət

verdi, Mir Mahmud onun dediklərini eşidib bəsirət gözüylə ölçüb-biçdi, xoşluqla dərk elədi, qaçmaq məqsədini səbatla, qorxu və təşvişinisə cürətlə əvəz elədi. Elə həmin gün də döyüş oldu.

97. Mir Mahmud o döyüşdə Əcəm əsgərlərini top və tüfəng gülləsinə, qılınca yem eləyib qalib gəldi. On səkkiz min dehqan və tüfəngçi döyüşə girmədən qaçıb dağılışdılar, bir çox xanlar aradan çıxdılar, qalanlarsa qaçıb şəhərə sığındı. Deyilənə görə, Şah altı min əsgər itirmişdi. İsfahan şəhəri həmin gecə Adəm dövründən bəri görmədiyi hallar görüb, matəmlər geydi. Kimi qaçır, kimi ağlayırdı, kimi də ayaq üstə ölmüşdü. Davasız dərdə giriftar olan Şah Hüseyn də aradan çıxmaq niyyətinə düşüb bu qaçılmaz bəladan qurtulmaq istədi. Amma əyan-əşrəfi onun qaçmasına razılıq vermədilər. Mir Mahmud da Əcəm hiyləsindən qorxub şəhərə girmədi, üç gün döyüş meydanında qalıb dincəldi. Şəhər qorunma tədarükünə başladı. Camaat bəndlər arxasına yatıb, xəndəklərə girib döyüşə hazırlaşdı. Şəhərin ətrafına yüz əlli top düzüldü. Dördüncü gün Mir Mahmud Şəhristan səmtinə hücum elədi, amma şəhərə girə bilmədi. Bu vaxt atlı min evlik Culfa şəhərinin erməniləri hiylə işlətdilər, Mir Mahmuda itaət göstərib, Şah Hüseynə arxadan zərbə endirib min səkkiz yüz kisə ağça və altmış qız müqabilində şəhəri xilas elədilər. Mir Mahmud Şah Sultan Hüseynin Culfa yaxınlığındakı Fərəhabad sarayında yerləşdi. Onun qoşunu dəfələrlə İsfahana hücum elədi, amma şəhəri bu cür almağın mümkünsüzlüyünü görüb uzunmüddətli mühasirəyə üstünlük verdi. Mir Mahmud üstəlik, Şaha köməyə gələn xanların qoşunlarını darmadağın eləyib onu çıxılmaz vəziyyətə saldı. Bu tərəfdən də artıq taxtda oturmağa layiq adam sayılan, bu səbəbdən gözdən düşən Astarabad hakimi Fətəli xan Qaçar sui-qəsd qorxusundan sağ qalan döyüşçülərini götürüb şəhərdən çıxdı. Bundan sonra ümidini itirən şəhər camaatı yığışıb Şahın sarayını daş-kəsək yağmuruna tutdular ki, ya vəziyyətdən çıxış yolu tapsın, ya Mir Mahmudu şəhərə buraxsın, ya da taxt-tacı şahzadələrdən birinə versin.

98. Buna görə Abbas Mirzəni camaat qarşısına çıxardılar. Amma zavallı şahzadə az müddət ərzində fitnə-felin qurbanı olub gözlərinə mil çəkiləndən sonra Bəhram Mirzəni taxt-tacın varisi elan elədilər. O da qardaşının aqibətini yaşayıb zinda-

na salınandan sonra sıra Şahın dördüncü oğlu Təhmasib Mirzə vəliəhd seçildi. Amma şahzadələrin arasında daha qabiliyyətlisi olan Təhmasib Mirzənin qaranlıq bir gecədə Tuğçu qapısından qəfil çıxıb Qəzvinə yollanması *(məsləhət görülmüşdü ki, gedib qoşun yığsın, İsfahanı Mir Mahmuddan xilas eləsin)* camaatda ümid oyatsa da dərdinə dərman olmadı. Qıtlıq, qəhətlik atəşi əhalinin canına düşdü, neçə nəfərin bədən xırmanını yandırdı. Artan alovun şiddəti neçə min canı yandırıb o biri dünyaya göndərdi. Amansız qıtlıqdan müsyö dö Gardənin heyəti də çox əziyyət çəkdi. Bu qaçılmaz bəlaya və asiman bəlasına razılıqdan başqa çarə olmadığını görən isfahanlılar şəhərin təslim edilməsinə hazır idilər. Mir Mahmud Qəndəharla yetinməyib əlli min tümən bac, Xorasan və Kirman vilayətlərini, üstəlik, Şahın qızlarından birini istəyirdi ki, şəhərə girməsin. Şah pulu da, qızını da verməyə razı oldu, amma torpaq məsələsində dirəndi. Mir Mahmudun geri çəkilmədiyini görəndəsə təslim olmaqdan başqa əlac görmədi. Şah Mir Mahmudun hüzuruna getməzdən qabaq qara paltar geyinib şəhər meydanına çıxdı, camaatın arasında gəzib-dolaşdı. Onu üzr istəyən, bağışlanmasını xahiş eləyən halda görmək qəlbimi ağrıtdı. Səkkiz ay aclıqdan, susuzluqdan əziyyət çəkmiş camaat hökmdarın bu halından riqqətlə gəldi, ürəkləri yumşaldı, göz yaşları sel olub axdı. Hətta, az qala, dünyanın yarısını gəzib məmləkətlər görmüş müsyö dö Gardənin gözlərində də yaş gördüm. Arpa çörəyi yeməkdən, qıtlıqdan xeyli arıqlamış *(daha fısıldamırdı, bundan ötrü gərək sevinəydi)* Fransua Düponun ağladığının belə şahidi oldum. İki yüz ildən artıq taxtda oturub bu qədər zəfərlər qazanmış, torpaqlar fəth eləmiş, böyük dövlət qurmuş Səfəvi xanədanının onun simasında əsil-nəcabətsiz bir səhra quldura baş əyməsi, doğrudan da, faciəvi hadisəydi. Müsyö dö Gardən baş verənləri Şekspirin, Rasinin, Kornelin qələminə layiq faciə sayırdı, fikrimcə zənnində yanılmırdı. O günlərin yaşantılarını sözə çevirmək məndən ötrü çox əzablıdı. Onda Şah Sultan Hüseynin halını görüb qəti əmindim ki, *insanın ən böyük səfehliyi qorxu – bir addım atmaq, müəyyən sözü demək, nəyisə etiraf eləmək qorxusudu: elə bütün məğlubiyyətlərin səbəbi də budu...*

# XV

# DƏRDİN MİN ÜZÜ

*Artar nə qədər dərdim, dərdim*
*nə qədər artar,*
*Ondan nə ki var, dərdim,*
*dərdim nə ki var ondan.*

*Məhəmməd FƏLƏKİ ŞİRVANİ*
*(XII yüzil)*

99. Camaatın üzgünlükdən, taqətsizlikdən küçələrdə yıxılıb öldüyü, ah-nalənin ərşə qalxdığı, hamının pəjmürdə olduğu günlərdə məni ayaq üstdə saxlayan bəlkə də Astarabadlı Fətəli xan Qacarın xidmətində olan Mirzə Mehdiylə ünsiyyətim idi. İsfahana Fətəli xanla birgə gəlmiş, Xacə Nəcməddinin yanında tanış olub bir-birimizə mehr salmışdıq. Çarəsizlik çəmbərində olduğumuz günlərdə tez-tez görüşür, tapdığımız tikəni yarı bölür, məmləkətin halından, özümüzdə tab tapandasa, tarixdən, şeirdən-sənətdən söhbət eləyirdik. Mirzə Mehdinin dərin biliyinə, iti ağlına, xoş xasiyyətinə çox bağlanmışdım, ona görə də Fətəli xan qoşununu çəkib gedəndə çox pərişan oldum, Mirzə Mehdi də onunla şəhərdən çıxdı. Ünsiyyət saxladığım Osmanlı, rus, ingilis, ispan, portuqal səfarətxanaları ayaq üstəydilər, Mir Mahmud şəhərə girsə, hallarının necə olacağını fikirləşirdilər. Sarayda neçə gündən bəri məsləhət-məşvərət gedir, barışıq müqaviləsi hazırlayırdılar, amma Mir Mahmud buna ciddi fikir vermirdi, artıq Şah Sultan Hüseynin taxt-tacdan əl çəkəcəyinə əminiydi, ona görə də Şahın Fərəhabada getməsi qaçılmazıydı. Belə bir vaxtda müsyö dö Gardən heyətilə yığılıb-dağılır, taqətdən düşmüş canları, kütləşmiş beyinlərilə bir çıxış yolu tapa bilmirdilər. Əlli yaşımı haqlasam da, on dörd yaşımdan yollara düşməyim, çoxa da, aza da qane olmaq vərdişim, hər şeyi taleyin ixtiyarına buraxmaq xasiyyətim məni sakit, təmkinli göstərirdi, amma Mir

Mahmudun adamları şəhərə girsə, sağ qurtulub-qurtulmayacağımı mən də bilmirdim. Müsyö dö Gardən həmin məqamda ümidsizlikdən doğan cəsarətli təklif verdi: fikrincə, Mir Mahmudun yanına elçi göndərib bəxşişlər müqabilində can və mal güvənliyimizin qorunmasına nail olmaq daha sərfəliydi, həm də o elçi mən olmalıydım. Düzü, bu bir qədər məntiqsiz görünürdü, başqalarıyla müqayisədə o qədər mal-dövlətim yox idi ki, qorxum, üstəlik, dil bilən şəxs kimi yararlı sayıb mənə toxunmayacaqdılar. Amma razılıq verdim: İsfahanda qalıb ümidsizlik girdabında boğulmaqdansa, təhlükənin üstünə gedib sağ qalmağa nə qədər şansım olduğunu yoxlamaq daha düz idi. Mən də razılıq verdim, müsyö dö Gardənin sandığındakı olan-qalan bəxşişlərdən götürüb Fərəhabada yollandım.

100. Hacu qapısından pay-piyada, iki xidmətçinin apardığı sandıqla çıxanda Mir Mahmudun adamlarının əlinə düşdük. Məqsədimizi biləndə sandığı yağmalamaqdan qorxdular, bir at, bir qatır verib, yanıma üç gözətçi qatdılar, beləcə, Fərəhabada sağ-salamat çatdıq. Elə həmin günün axşamı da Mir Mahmudun yerləşdiyi Şah imarətinə gəldik. Məni birbaşa onun hüzuruna apardılar. Doğrusu, Mir Veysin oğlunun bu qədər cavan olduğu heç ağlıma gəlməzdi. İyirmi üç yaşlarında cüssəli, qaraşın, qırğı gözlü oğlan idi, sağında Əmənulla Sultan, solunda Nəsrulla Sultan əyləşmişdi. Bağır basdım, salamlayıb firəng elçisi tərəfindən göndərildiyimi, quracağı dövlətin Firəngistanla xoş münasibətlər saxlaması sarıdan İsfahana girəndə firəng səfarəti heyətinin mal və can güvənliyinin qorunmasını təvəqqe elədim. Mir Mahmud cavanlığının əlaməti olan şöhrət bayğınlığı içindəydi, quracağı dövlət barədə söz açmağım döşünə yatdı, üstəlik, farsca danışmağım xoşuna gəldi. Dedi, zənn elədim, əcəmsən. Ağıllı iş görüb Osmanlı təbəəsi olduğumu, səfarətin mütərcimi sifətilə gəldiyimi söylədim, bu da ona təsir elədi, görünür, hələ taxtda möhkəmlənməmiş, Osmanlı dövlətilə ehtiyatlı davranmağı vacib sayırdı. Sonra sandığa işarə elədi ki, bu nə bəxşişdi belə. Dedim, Firəng bəxşişləridi, hökmdar, firəng elçisi göndərib, Sizə layiq olmasa da gərək üzrlü sayasınız. Sonra sandığı açıb içindəkiləri bir-bir göstərdim. Mir Mahmud bəxşişlərdən çox təsirləndi, Dedi, dövlətləri rəncidə salacaq bir hərəkətə yol vermək niyyətində

deyilik, kimsə narahat olmasın. Söhbəti bitmiş saydım, amma Mir Mahmud iltifatla dilləndi ki, mənim müsafirimsən, istəyirəm Sultan Hüseyn təşrif buyuranda onunla gələn xanları, bəyləri, əmirləri bir-bir bizə tanıdasan. Düzü, bu heç ağlıma gəlməzdi, üstəlik, təhlükəli ola bilərdi, amma həmin məqamda etiraz eləmək dəliliyə bərabərdi, ona görə də razılaşmaqdan başqa əlacım qalmadı.

101. Mən Fərəhabadda gözləməkdə olum, sonra İsfahana qayıdanda eşitdim ki, Şah Sultan Hüseyn, az qala, iyirmi günlük məsləhət-məşvərətdən sonra təslim, olmaqdan başqa əlac görməyib, təkcə tacını başına qoyub, cıqqasını taxıb, zinətsiz-filansız paltar geyib, ağlaya-ağlaya namaz qılıb, əhli-əyalıyla halallaşıb, etimadüddövləsi, Həvizə valisilə, əmirlər, xanlarla yola düzəlib. Sarayın darvazasından çıxmamış əmr eləyib ki, sağ qalmış axırıncı üç dəvəni də kəsib şəhər camaatına paylasınlar. Bir də Fərəhabad sarayına xəbər yayıldı ki, Şah Hüseyn gəlir. Onun qafiləsini bir az aralıda saxlayıb xeyli gözlətdilər, sonra divanxanaya gəlmələrini buyurdular. Mir Mahmud divanxanada oturmuşdu, Şahın içəri girib xeyli irəliləməsini gözlədi, axır ki, vüqarla ayağa qalxıb gözlərini məğlub olmuş hökmdara dikdi. Şah Hüseyn üzgün səslə salam verdi, Mir Mahmudsa salamlaşmaq qayda-qanununa əməl eləyib «salaməleyküm» dedi. Divanxana bahalı xalilər, şahanə fərşlərlə döşənsə də Əcəm adətinə uyğun mindər – balış yox idi, yalnız bir küncdə gəbə və üstü naxışlı balış qoyulmuşdu. Mir Mahmud balışın, Şah Hüseyn gəbənin üstündə oturdu, qalanlar ayaq üstdə durub gözlədilər. Şah Hüseyn nəfəsini dərib xeyli susdu, sonra farsca sözə başlayıb dedi, övladım, mülk və dövlət böyük Allaha məxsusdu, kimə desə, ona çatar; O, Əcəm mülkünü bir vaxtlar mən acizə verdi, indisə sənə layiq gördü, buna görə də, ey əziz oğlum, mən də onu ürəkdən sənə verirəm, Sübhanallah mübarək eyləyər. Sonra başından qiymətli daş-qaşlarla bəzənmiş tacını götürüb Mir Mahmudun başına qoymaq üçün Əmənulla Sultana verdi. Əmənulla Sultan tacı alıb Mir Mahmudun başına qoymaq üçün yaxınlaşdı, amma cavan hökmdar başını arxaya çəkdi. Şah Hüseyn onun üzündəki narazılığı görüb məsələnin nə yerdə olduğunu başa düşdü, çar-naçar ayağa durub tacı öz əlilə Mir Mahmudun başı-

na qoydu. Həmin məqamda onun ağlar görkəmi adamın ürəyini parçalayırdı.

102. Mir Mahmudun istəyinə əməl eləyib Sultan Hüseynlə gələnləri bir-bir təqdim elədim. Səfəvi xanədanını bu məqama gətirmiş adamlar bir-bir irəli durub cavan hökmdarın hüzurunda baş əyir, eləcə aciz, yazıq görkəmlə də çəkilib yerlərində dururdular. Mir Mahmud onlara heç oturmağı da buyurmadı, əmr elədi, qəhvə, sonra də qəlyan çəkmək üçün od qabları, tiryək, çay gətirdilər. Yeni hökmdar payimal elədiyi fəqirə təsəlli vermək üçün farsca sözə başlayıb dedi, ey şahım, qəlbinə hüzn çökməsin, dünya dövləti belədi, onun əldən-ələ, səltənət və hakimiyyətin şəxsdən-şəxsə keçməsi Allah tərəfindən həyata keçirilən bir adətdi; sən mənim izzətli və ehtiramlı atam yerindəsən; sənin rəy və tədbirinlə razılaşdırmasam, heç bir işə başlamayacağam. Zavallı Sultan Hüseyn də miskin görkəmlə razılığını bildirdi. Bu vaxt Mir Mahmudun tərəfində olan Bəluc xanı töhmətlə Sultan Hüseyndən soruşdu, Şahım, nə iş gördük ki, sənin rəiyyətin ola-ola bizi uğana rəiyyət elədin? Biçarə Sultan Hüseyn cavabında dedi, övladım, bütün bunlar Allahın istəyilə oldu, bu məqamda da Mir Mahmud söhbətin bitdiyinə işarə eləyib ayağa qalxdı. Sultan Hüseyn zinətsiz paltarda başı açıq halda, üzgün, kədərli görkəmlə ayağa duranda onun halına elə acıdım ki, riqqətimdən gözlərim yaşardı. Onu xanlar, əmirlər, əyan-əşrəflə birgə sarayın alt qatındakı hücrələrə apardılar. Elə həmin gün Mir Mahmud Əmənulla Sultanı dörd min nəfərlik qoşunla İsfahana, dövlətxananı tutmağa göndərdi, əmr elədi ki, şəhər qapılarına mühafizəçi qoysun, divana gedən yolu və dövlətxananı cəsədlərdən, üfunətdən təmizləyib onun gəlişinə hazırlasın. Mən də həmin gün işimin bitdiyini güman eləyib hökmdarın icazəsilə İsfahana qayıtmaq niyyətindəydim, müsyö dö Gardənin nə qədər narahat olduğunu təsəvvürümə gətirirdim. Amma Mir Mahmudun xidmətində olanlar tələsməməyi məsləhət gördülər.

103. Sultan Hüseyni Fərəhabad sarayında qaldığı ikinci gün görə bilmədim, güman ki, Mir Mahmudun əmrilə sərbəst gəzmələri yasaq edilmişdi. Üçüncü gün, hicrətin 1135-ci ili, məhərrəm ayının on beşində, yəni miladi 1722-ci il oktyabrın 25-də sübh çağı alaylar düzəldi, mənə də yola çıxmağa rüsxət ve-

rildi, atlara süvar olub İsfahana sarı üz tutduq. Şiraz körpüsünə çatanda Sultan Hüseyn izin istəyib dövlətxanaya başqa tərəfdən getdi, görünür, camaatın onu Mir Mahmudun yanında əsir kimi görməsini istəmirdi. Mən divan yoluyla gedən yeni hökmdarın qəfiləsindəydim. Hacu qapısından dövlətxanayacan yol atlas, qumaş, qutnu, dərabi, zərbaftayla, dövlətxana qapısından içərisə diba ilə döşənmişdi. On nəfər carçı uca səslə şiə məzhəbinə rəğbət bəsləyənləri lənətləyir, yeni hökmdarın şəninə təriflər yağdırırdı. Camaat Mir Mahmudun atının tapdadığı qumaşları dərhal qarət eləyirdi. Şah yoluyla dövlətxanaya çatıb yerləşəndən sonra mən rüsxət istəyib firəng elçisinin xidmətinə qayıtdım. Müsyö dö Gardən böyük əndişə içindəydi, məni sağ-salamat görüb hədsiz sevindi, başıma gələnləri söyləyəndən sonra qurtulacağımıza qəlbində ümid yarandı. Dilimə gətirməsəm də Mir Mahmudun verdiyi sözün nə qədər keçərli olduğunu bilmirdim, çünki Fərəhabad sarayında qaldığım üç gün müddətində onun taxtda möhkəmlənmək üçün çoxlu qoşun toplamalı, bundan ötrüsə külli miqdarda sərvət yığmalı olduğunu anlamışdım, bu səbəbdən hər an sözündən qaçıb səfarətin olub-qalanını ala bilərdi. Müsyö dö Gardən səkkiz-doqquz aylıq məşəqqətdən sonra İsfahandan çıxıb Qəzvinə, ya da Təbrizə getməyi, əgər əmin-amanlıq yaranmasa, İstanbula, ordan da Firəngistana qayıtmağı arzulayırdı. Amma bu müşkül məsələydi, hələ kimsənin şəhərdən çıxmasına izin verilmirdi, belə cəhdə görə firəng olduğuna baxmaz, sorğusuz-sualsız öldürə bilərdilər.

104. Sonrakı bir neçə ay ərzində hər şey gözlədiyim kimi oldu. İsfahanın yeni sahibi Mir Mahmud öz adına xütbə oxutdu, mahmudi adlanan pul kəsdirdi, mühüm məqamlara öz adamlarını yerləşdirdi, üstəlik, dövlətin xəzinəsilə yanaşı, hərəmxanasındakı bahalı şeylərin hamısını ələ keçirdi, on üç şahzadəni, iki şah qızını göz altına aldı. Cəmi üç gün sonra Sultan Hüseynlə qayınata-kürəkən oldular – cavan hökmdar onun kiçik qızıyla evləndi, böyük qızısa müftisinə verdi, Şahın bacısını da Əmənulla Sultan aldı. Sarayda dustaq olan Sultan Hüseynə şahzadə anaları olan beş cariyə verib hərəmxanadakı qalan qadınları öz adamları arasında bölüşdürdü. Amma deyilənə görə, sabiq şahın sarayda yaşamayan iki qızı bu pay-puşdan qurtuldular, adları-

nı, paltarlarını dəyişib ərlərilə Təbrizə qaçdılar. Mir Mahmud əməl hikmətinin əsas yolu olan barışıq, güzəşt, nəvaziş, ürəkləri ələ almaq fikrinə düşüb Səfəvi xanədanı tərəfdarlarına yüksək məqamlar verməklə rəğbət qazanmaq istədi, üstəlik, şəhərin hər tərəfinə carçılar göndərib elan elədi ki, bundan sonra Əcəmin əhli-əyalına, malına və ərzağına əl uzadanlar bərk cəzalandırılıb qətl ediləcəklər. Camaat bundan bir qədər rahat olub öz dərdi-sərinin hayına qalmağa başladı. Deyilənə görə, səkkiz aylıq mühasirə vaxtı döyüşdə və başqa bəlalardan ölənlərin sayı yüz altmış mindən, əsir alınanların, qaçanların sayısa yüz mindən artıq olmuş, şəhərdə cəmi otuz min adam qalmışdı. Küçələrdən cəsədlərin yığılıb basdırılması günlərlə çəkdi. Hələ də orda-burda ağlıqdan, üzgünlükdən, aldığı yaradan canını Allaha tapşıranlar vardı, çoxunu heç yuyub-kəfənləmədən, elə əynindəki paltarla da xəndəklərə atıb üstünü torpaqlayırdılar. Axşamlar hücrəmə çəkilib sısqa şam işığında bütün bunları kağıza köçürə-köçürə faciələri təzədən yaşamaq, ağrılara qatlaşmaq məndən ötrü əsl məşəqqət idi.

105. Bir müddət sonra qorxduğum baş verdi: Mir Mahmud gücünün yetərsizliyi qənaətinə gəlib Qəndahardan qoşun yığmaq üçün şəhərdəkiləri soymağa başladı. Əvvəlcə şəhər camaatından dörd min səkkiz yüz kisə ağca tələb eləyib, dörd min kisəni aldı, sonra hind multani tacirlərini min səksən kisə verməyə məcbur elədi, ardınca Sultan Hüseynin yaxın adamı, həkimbaşı Mirzə Kərimdən səkkiz yüz kisə tələb olundu, amma təxmin elədiyimə görə ondan alınan pul, cəvahir və mal dörd min kisədən çox idi. Şəhər mühasirədə olan vaxt ölənlərin və qaçanların evlərini yağmalayandan sonra növbə səfarətxanalara yetişdi. Flandriya elçisindən min dörd yüz qırx, ingilis elçisindən beş yüz kisə pul və mal aldılar. Portəgiz elçisinin miskin görkəminə baxıb heç nə almadılar, amma deyilənə görə, onun sərvəti heç də az deyildi. Müsyö dö Gardənin tədbirli tərpəndiyi elə bu vaxt aşkara çıxdı: İsfahana təzə gəldiyini, ticarət yoluyla mal və sərvət yığa bilmədiyini, Fərəhabad sarayına apardığım bəxşişi nəzərə alıb cəmi on kisə «hörmətlə» yaxa qurtara bildik. Amma Allahın işinə bax ki, Mir Mahmudun bu yolla topladığı sərvət heç bir fayda vermədi, çünki, Qənhardan on beş min əsgər yığmaq üçün

xəzinədarı Molla Musayla göndərdiyi altı min kisədən artıq pulu Səcistan qalasının mühafizi Mirzə İsmayıl qəfil hücumla ələ keçirib şahzadə Təhmasib Mirzəyə göndərdi. Bu hadisə Mir Mahmudu qəzəb atına mindirdi. Səfarətimiz himayə altında olsa da, şəhərin ab-havasında təzədən baş qaldıran ümidsizlik, narahatlıq, naməlumluq bizə də təsir göstərirdi. Şəxsən mən artıq Mir Mahmudun taxtda möhkəmlənəcəyinə əmin deyildim, bu tərəfdən də Şahzadə Təhmasib Mirzənin xanədan təəssübkeşlərilə dil tapıb İsfahanı geri alacağına hələ əmin deyildim. Müsyö dö Gardən Mir Mahmuda bəxşiş verib Qəzvinə getməyin tərəfdarıydı, amma mən onun qəzəbinə düçar olmaqdan ehtiyat eləyirdim. Amma, necə deyərlər, *arzuladığının həyata keçməsi pisdisə, arzulamadığının baş verməsi ondan daha pisdi...*

# XVI

# ÜÇ İLİN SƏRGƏRDANLIĞI

*Kuyində fələk dün gecə görcək məni sordu:*
*«Kim saldı məni bu hala?*
*Dur bir mənə göstər».*

*İzzəddin ŞİRVANİ*
*(XII yüzil)*

106. Mir Mahmud İsfahanı tutandan bir müddət sonra firəng elçi müsyö Syör dö Gardənlə aramızdakı münasibətdə çat yarandı. Bu da Təhmasib Mirzə hicri 1135-ci il səfər ayının 15-də, miladi 1722-ci il noyabrın 24-də atasının biabırçı təslim qərarını eşidib Qəzvində özünü şah elan eləyəndən sonra baş verdi. O, İsfahan qaimməqamı Rəcəb Əli xanı etimadüddövlə, Murtuzaqulu xanı qorçubaşı təyin eləyib şahlığa başladı. Mir Mahmud bunu eşidəndə onu hiyləyə ələ keçirmək, bu yoldan çəkindirmək üçün çox vasitələrə əl atdı, hətta Sultan Hüseynə fərmanlar yazdırıb ətraf vilayətlərə göndərdi, nəticə hasil olmayandasa, qışın oğlan çağında Qəzvinin üstünə qoşun çəkdi. Etimadüddövləsinin məsləhətilə olan-qalan qoşununu qışlalara göndərən Təhmasib Mirzə bundan xəbər tutanda Sultaniyyə-Zəncan yoluyla Təbrizə qaçdı, əlacsız qalan Qəzvin əhli də Mir Mahmudun pişvazına çıxıb ona təslim oldu. Həmin vaxt müsyö dö Gardənə bundan sonra İsfahanda qalmağın faydasız, hətta qorxulu olduğunu, Həmədan səmtdən Təbrizə, yaxud Ərdəbilə getməyi məsləhət gördüyümü söylədim. Elçi Osmanlı dövlətinin sünni uğanların hakimiyyətini tanıyıb Mir Mahmuda kömək göstərəcəyinə inanırdı, bu səbəbdə İsfahanda qalmağın tərəfdarıydı. Onda mən xidmət müddətimin bitdiyini, İstanbula, ya da Tiflisə qayıtmaq niyyətimi söylədim. Əlbəttə, müsyö dö Gardən bundan xeyli rəncidə oldu, belə bir vaxtda onu atıb getməyin şəxsiyyətimə yaraşmadığını söylədi. Artıq bunlar ağlıma batmayan sözlər idi,

mən nə Təhmasib Mirzənin taxt-tacı, itirilmiş vilayətləri qaytara biləcəyinə, nə də Qəndəhardan bu qədər uzaq olan İsfahanda Mir Mahmudun duruş gətirəcəyinə inanırdım. Bu səbəbdən Portəgiz səfarətxanasının firəngcə alababat danışan mütərcimi, Həvizə ərəblərindən olan İbn Mütəvəkkillə əlaqə qurmuşdum, ehtiyac yaransaydı, məni əvəz eləyə bilərdi. Beş ildən bəri firəng elçisinin yanında olmağım yetərliydi, mühasirə vaxtı yaşadıqlarım, gözlərimin qabağında öldürülən, ölən, miskin hala düşən adamlar mənə elə təsir göstərmişdi ki, daha İsfahanda qalmağı cəhənnəm əzabından betər sayırdım. Təhmasib Mirzə qaçandan, Qəzvin təslim olandan sonra dediyimi yerinə yetirdim, yaz açılar-açılmaz ağırımı yüngül eləyib şəhərdən çıxdım.

107. Şübhəsiz, müsyö dö Gardən bunu qaçmaq, bəlkə də xəyanət adlandıracaqdı, amma əlli yaşını haqlamış adam bütün ömrümü başqalarının xidmətində ola bilməzdi, mənim də öz istəyim, niyyətim, məqsədim vardı, heç olmasa, həyatla vidalaşmamış nələrəsə çatmalıydım. Bağlamamda beş-altı kitab, bir dəst dəyişək, xırda-para şeylər vardı, pay-piyada yol tutub gedirdim. Rastıma çıxan birinci kənddə iki nəfər tutdum, mənə qatır tapıb Həmədanacan ötürməyi boyun oldular. Amma Xansarda Əcəm əsgərlərinin zorakılığıyla üzləşdim. Türk olduğuma, Şah sarayına elçi heyətində gəldiyimə, Şah Təhmasibə qoşulmaq istədiyimi söyləməyimə *(bunu deyirdim ki, bəlkə qorxalar)* baxmayıb ta İstanbuldan bəri ağca-ağca yığdığım səkkiz kisə pulumu əlimdən alıb məni lüt-üryan buraxdılar. Xidmətimdə olan adamlar da qaçdığına görə pərişan halda, məhzun görkəmlə Həmədana pay-piyada getməli oldum. Kol diblərində yatdım, yeməli otlardan yedim, su tapmayanda yağış suyu içdim, İsfahandan çıxandan təxminən bir ay sonra Həmədan şəhərinə yetişdim. Müsyö dö Gardəni tərk elədiyimə peşman idimmi, bilmirəm, o vaxt bu hissi keçirməyə halım belə yox idi. Rastıma çıxan ilk karvansaranın bir guşəsində dincəlmək, bir ayın yox, illərin yorğunluğunu canımdan çıxarmaq istəyirdim, amma bundan ötrü bir ağcam belə yox idi. Ağlıma məscid gəldi. Son gücümü toplayıb ən yaxın məscidə getdim, namaz qılıb, Allahdan yardım istədim, sonra başıma gələnləri mollaya danışdım. O insaflı adam çıxdı, ianə pulundan bir qədər yardım elədi ki, həmin pula hamama gedib, karvansarada üç-

beş gün qalıb on gün qarnımı doydura bilərdim. Elə də elədim, bir aylıq səfalətdən sonra karvansara hücrəsində uzanıb başıma gələnləri və başıma gələcəkləri düşünməyə başladım. Hələ ki, hara gedəcəyimi – İsfahanamı qayıdım, Təbrizəmi üz tutum, Qəzvinəmi gedim – bilmirdim, amma əgər Allahım yaşamağımı məsləhət bilirdisə, hələ ömür möhlətim başa çatmamışdısa, deməli, mütləq bir çıxış yolu tapılacaqdı.

108. O ümidsiz günlərimdə, görünür, Allah üzümə baxmışdı, təsadüf məni Rəştə gedən bir kiprli erməni tacirinə rast gətirdi. Sərkis adlı həmin erməni ruslara pənah aparıb Bakıya, Şamaxıya, ordan Tiflisə getmək fikrindəydi, mən də başqa əlacım olmadığına görə ona qoşuldum, Qəzvinə sarı yollandıq. Həmin vaxtda Mir Mahmudun sərdarı Əmənulla Sultan Qəzvində zülm və təcavüz törətdiyinə görə Əcəm əsgərləri birləşib dövlətxanaya hücum eləmişdilər, deyilənə görə, min altı yüz uğan qətl olunmuşdu, üstəlik, Əmənulla Sultan da yaralanmışdı. Bu da azmış kimi, Mir Mahmudun əmisi oğlu Əşrəf həmin hadisəni eşidib iki yüz əsgərlə Qəndahara qaçmışdı. Əmənulla Sultan qoşunun qalıqlarıyla İsfahana qayıtsa da, Mir Mahmudun qəzəbi soyumamış, on beş gün ərzində səkkiz min qızılbaşı qətlə yetirmişdi. O, sərəskəri Tehrana yollayıb ətraf kəndləri qarət etdirdi, Xansarı, Kaşanı, Şirazı tutdu, amma Həmədan və Yəzdi ələ keçirə bilmədi. Mir Mahmud qoşun toplamaq üçün eşikağası Məhəmməd Kişan Sultanı min uğan və iki yüz erməniylə Qəndahara göndərdi, amma şəhərdə qaimməqam olan atası oğlunun istəyinə əməl eləyə bilmədi, çünki Əşrəf Sultan Qəndəhar dağlarını gəzib uğanları Mir Mahmuda qoşulmamağa çağırırdı. Biz Qəzvinə çatanda şəhər camaatının ayaq üstdə, əldə silah düşməni qarşılamağa hazır dayandığını gördük. Əslində, Sərkisə məcburiyyət üzündən qoşulmuşdum, onun rusların yanına nə niyyətlə getdiyini bilmirdim, amma insan ümidsiz olanda saman çöpündən də yapışır. Taleyimi dəyişdirən Karapetin Tiflisə apardığı namə kimi bir namənin də Sərkisin qoynunda olmadığını hardan biləydim. Bununla belə, Qəzvində qalmaq daha təhlükəliydi, hər gün ya Mir Mahmudun, ya Nəsrulla Sultanın, ya da Əşrəf Sultanın şəhərin üzərinə gələcəyi söylənirdi. Belə bir

məqamda hər şeyi gözə alıb Sərkislə Rəştə getmək mənə daha doğru görünürdü.

109. Hicri 1136-cı, miladi 1723-cü ilin cəhənnəm istisilə gələn yay günlərinin birində Gilan əyalətinə sarı üz tutub Rəştə yollandıq. Sərkisin altı atlıdan, on bir yüklü qatırdan, iki qatırçıdan ibarət qəfiləsində iltifat göstərib verdiyi ata süvar olub gedirdim, dərya səmtdən boğanaq kimi gələn bürküdən əynimdə paltarım suya dönürdü. Cünün şaxıyan vaxtlarında başımızı gizlətməyə bir kol, ya qaya axtarırdıq. İsti ucbatından bir həftəlik yolu iki həftəyə gəlib Rəştə yetişdik. Yolboyu Sərkis şəhərə çatanda rus sərəskərinin yanına gedib Əcəm əsgərlərinin təcavüzünə uğradığımızı, malımızın-pulumuzun qarət olunduğunu söyləməyi dönə-dönə məsləhət görürdü. Sezdiyimə görə, ondan bir qədər pul alıb toxunmamışdılar, amma mən doğrudan da müflis olmuşdum. Dərya kənarındakı Rəştdə rusların Dərbənddən və Hacıtərxandan gələn gəmiləri durmuşdu, şəhərdə cürbəcür geyimli rus, kazak, gürcü, erməni əsgərlər dolaşırdı. Sərkisin məsləhətilə karvansarada yerləşib vəziyyətdən hali olmaq, bir qədər nəfəs dərmək lazım gəldi. Camaatın danışdığına görə, Təhmasib Mirzə Təbrizdə Roma papasına, Firəngistan və German krallarına namə yazıb bir firənglə günbatana yola salmışdı, Osmanlı sultanının, rus çarının yanına da elçilər göndərmək üçün çalışırdı, amma nə Moskova göndərilən İsmayıl bəy, nə də İstanbula yola salınan Murtuzaqulu xan, ardınca Rzaqulu Mirzə onu yarıtmışdı. Bu tərəfdən də osmanlılarla ruslar Əcəm torpaqlarını bölüşdürmək barədə görüşüb-danışırdılar, şübhəsiz ki, qüvvəsi olmayan Təhmasib Mirzənin, öz əmisi oğluyla didişən Mir Mahmudun məmləkəti qorumağa gücü və dəyanəti yox idi. Bundan məmnun görünənlər də vardı. Sərkisin həyəcanlı olduğunu sezirdim, onun Bakıya, Şamaxıya və Tiflisə niyə bu qədər can atdığından aydın baş çıxarmasam da, hər halda, beynimə dolaşıq fikirlər dolurdu.

110. Sərkis əvvəlcə Levaşov soyadlı sərəskərin hüzuruna düşməyə çalışdı, səhəri gün bu istəyini gerçəkləşdirmək üçün erməni əsgərlərlə əlaqə yaratdı, amma onunla görüş çətin olduğundan Şipov soyadlı birilə ünsiyyət qurmağa nail oldu. Doğrusu, onların nə danışıb-razılaşdıqlarını bilmədim, çünki məni

gözlətdilər, ancaq ondan sonra Şipovun hüzuruna buraxdılar. Bəxtimdən Şipov firəngcəni yaxşı bilirdi, başıma gələnləri yerli-yataqlı danışdım, Əcəm əsgərlərinin özbaşınalığı üzündən hər şeyimi itirdiyimi, Tiflisə qayıtmaq üçün heç bir imkanım olmadığını söylədim. Görünür, firəngcə danışmağım, üstəlik, yalan söyləməməyim ona təsir eləmişdi, ona görə də mənə səkkiz qızıl yol xərci verib Rəştdə qalmağı, fürsət düşən kimi, Bakıya, yaxud Dərbəndə yola salacağını söylədi. Düzü, onun bu köməyindən mütəəssir olmuşdum, artıq az qala, qırx il çəkən sərgərdanlıq əzabından qurtulduğumu düşünürdüm. Məlum oldu ki, Şipovun sayəsində Sərkis də yol məsrəfini alıb, rusların himayəsinə götürülüb, gəminin yola çıxacağı günü gözləyir. O halımda sevinməyə gücüm belə qalmamışdı, çünki bu vilayətin nəm, boğanaq havası mənə həddən artıq pis təsir eləyirdi. Uzun illər yollarda, dəniz havasında, karvansaralarda, müsafirxanalarda keçirdiyim həyat, görünür, səhhətimə təsir göstərmişdi, yel xəstəliyindən oynaqlarım sızıldayır, özümü əzgin, yorğun hiss eləyirdim. Gecələr yatağıma uzananda ağrılar üzə vururdu. Gilan vilayətinin bu cür ağır havası soyuq iqlimə alışmış rus əsgərlərinə də pis təsir göstərirdi, hər gün ölüm xəbəri çıxırdı, şəhərdə, az qala, bütöv bir xristian qəbiristanlığı yaranmışdı. Sərkis, görünür, dərya havasına alışmışdı hər halda, başqaları qədər əziyyət çəkmirdi. Əlbəttə, İsfahan cəhənnəmini görmüş bir adamdan ötrü Gilan havası dözüləndi, amma nə vaxtsa yola çıxmağa tab-tavanım qalmadığını artıq duyurdum.

111. Niyyətimi Sərkisə söylədim, qəlbindəkiləri bilmirəm, ünsiyyətdə olduğumuz neçə ayda ondan elə bir pislik görmədiyimdən ürəkdən halallaşdım, fikirləşdim ki, *qoy məndən uzaq, alaha yaxın olsun.* Yola çıxacağımı Şipovun hüzuruna da çatdırıb günlərin birində Ərdəbilə gedən karvana qoşuldum. Məşhədli tacir iltifat göstərib haqqı müqabilində at vermişdi, yüküm balaca bağlamadan, içinə yeməli şeylər qoyduğum dağarcıqdan ibarət idi. Gilanın hüdudlarını adlayanacan çəkdiyim zülmləri sözə çevirməkdə acizəm, ancaq Kağızqonana, Firuzabad qalası səmtinə çatanda halım bir qədər yaxşılaşdı, Xalxalda özümü daha rahat hiss elədim, Rəşt cəhənnəmindən canımı qurtarıb sevindim. On səkkiz gündən sonra Ərdəbilə çatdıq,

orda məşhədli tacirin qafiləsindən ayrılmalı oldum. Bir neçə gün karvansara hücrəsinə qapanıb bundan sonra neyləyəcəyimi götür-qoy elədim. Qarşımda iki yol dururdu: ya üzü quzeyə gedib Tiflisə yetişməli, ya da günbatanın yolunu tutub İstanbula qayıtmalıydım. Bu sərgərdan halımla Tiflisə qayıtmaq, az qala, qırxillik ayrılıqdan sonra xatirələrimin xarabalığında dolaşmaq məndən ötrü çox ağır olardı. Məni Tiflislə bağlayan tellər çoxdan qırılmışdı, bu səbəbdən İstanbula qayıtmaq daha məntiqli olardı. Şübhəsiz, müsyö dö Gardən da belə vəziyyətdə İsfahanda çox duruş gətirə bilməyəcək, hansı yolla olur-olsun, İstanbula qayıdacaqdı, onu sağ-salamat görüb vicdanımı rahatlatmağa da ehtiyacım vardı, ondan sonra Allah kərimdi, alnıma nə yazmışdısa, o da olacaqdı. Yeddiillik ayrılıqdan sonra İstanbulda daha nə aradığımı o halımda özümə izah eləyə bilmirdim, amma daha qərarımı vermişdim, hər şeyi taleyin ixtiyarına buraxmaqdan başqa çarə görmürdüm. Əgər alnıma Haqq evinə köçənəcən yollarda olmaq yazılmışdısa, çalışıb-çapalamağımın zərrə qədər də xeyri yox idi, qədərə boyun əyib sonra başıma nələr gələcəyini gözləməliydim.

112. Günlərin birində Nəqşivana gedən karvana qoşuldum, Ərdəbildən Mişginə, ordan Əhərə gəldik, sonra üzü quzeyə doğru yönəlib Araz çayını keçdik, axır ki, Ordubada yetişdik. O günlərdə artıq ruslarla osmanlılar Əcəm ərazilərini bölüşdürmək barədə razılığa gəlmişdilər, rus qoşunları Xəzər dəryası boyu vilayətləri tuturdular, Osmanlı Sultanı Bağdad hakimi Əhməd Paşanı Həmədan üzərinə göndərmişdi, ay yarımlıq mühasirədən sonra Sultanın əsgərləri şəhəri ələ keçirmiş, sonra Təbrizi tutmağa yönəlmişdilər. Təhmasib Mirzə qaçıb Nəqşivana sığınmışdı, qoşun toplamağa, Təbrizi xilas eləməyə çalışırdı. Amma Osmanlı qoşunları artıq quzey vilayətləri də tutmağa başlamışdı, İrəvan, Gəncə, Tiflis təhdid altındaydı, yəqin növbə Nəqşivana, Ordubada, Mərəndə, Xoya, Səlmasa da çatacaqdı. Təhmasib Mirzə bunu duyub qəfəsdəki pələng kimi çırpınırdı. O, Sultan sarayından əliboş dönən elçi Mürtəzaqulu xanı edam etdirdi, Həmədan xanı olan qardaşı uğanlara basıldığına görə, etimadüddövlə Fərzulla xanın dilini kəsdirdi, baş qaldırıb Osmanlıların tərəfinə keçmək istəyən Fətəli Sultanla Sisyan ermənilərinin məlikləri qətliam

edildilər. Amma bu tədbirlərin faydasız olduğunu, Təbrizin mühasirəsinin uzandığını, Osmanlıların Nəqşivana yaxınlaşdığını görəndə Ərdəbil yoluyla Mazandarana tərəf getməkdən başqa çarə tapmadı. Bütün bu hadisələr baş verəndə mən Nəqşivandaydım, taleyimin necə olacağını düşünə-düşünə-düşünə qalmışdım. Əlbəttə, Osmanlı əsgərlərinin mənə toxunacaqlarını güman eləmirdim, Firəngistan elçisinin xidmətində Səfəvi dövlətinə gəldiyimi, bu illər ərzində başıma gələnləri, indi Sultan həzrətlərinin himayəsi altına qayıtdığımı söyləyib canımı qurtaracağıma əmindim. Amma *qəfil ölümün harda yaxalayacağını bilən varmı?*

# XVII

# YENƏ SƏADƏT ASTANASINA DOĞRU

***Vətənə can atıram, öldürür məni qürbət,***
***Nəfəsim bir udumluq, doğma havaya həsrət.***

***Xəttat Nizami TƏBRİZİ***
***(XI yüzil)***

113. Məndən ötrü Allahın cəzası yollarda sərgərdan olmağım yox, məhz… Əylisdə aylarla qalmaq məcburiyyətinə qatlaşmağım idi. Bir tərəfdən qara qış, o biri tərəfdən Osmanlı qoşunlarının yaxınlarda dolaşması xəbəri karvanımızın Əylisdə dayanmasına səbəb oldu, altı aya yaxın məşəqqətli ağrılar yaşadım. Əlbəttə, söhbət Əylis torpağından getmişdi, mənəvi ağrılarım Bazarbaşındakı müsafirxananın balaca hücrəsində yeddi il qabaq gördüyüm vaqiəylə bağlıydı: həyatımı dəyişdirmiş məxluqun, ciyərinin qanını içən qoca çaqqalın kabusu məni qarabaqara izləyirdi, elə bil, yağı kəsildiyi ailənin axırına çıxmamış əl çəkmək istəmirdi. O günlərdə Əhərdə karvanımıza qoşulmuş təbrizli Mirzə Kəmaləddin olmasaydı, yəqin ki, ya ağlımı itirərdim, ya da özümə əl qaldırardım. Mirzə Kəmaləddin təxminən qırx yaşlarında arğaz, suyuşirin, ifadəli üzü, ağıllı gözləri olan adam idi, ilk dəfə görəndə qeydsiz-şərtsiz şairə oxşatdım, sonra məlum oldu ki, zənnimdə o qədər də yanılmamışam, üzə çıxarmasa da, gizli-gizli yazmağı var. Mirzə Kəmaləddinlə Əylisdəki o sıxıntılı günlərimizdə yaxınlaşdıq, ülfət bağladıq, bir-birimizə dayaq olduq. Düzü, o vaxt İstanbula nə məramla getdiyini soruşmamışdım, ya ağlıma gəlməmişdi, ya da yersiz saymışdım, sonra bildim ki, İstanbul mədrəsələrinin birində təhsil görmək, elmə vaqif olmaq *(əslində, Osmanlı və Əcəm türkləri arasında bu qədər faciələrə səbəb olmuş sünni-şiə məsələlərini kökündən öyrənmək)* niyyətindədi. Hava əl verəndə Əylisin küçələrində, Bazarda, baş meydanda, ətraf yamaclarda gəzir, dumanlı-çiskinli günlərdəsə müsafirxana

hücrəsində söhbətlə vaxtımızı keçirirdik. Onda həyatımı Mirzə Kəmaləddinə danışdım, əlbəttə ki, bəzi məqamları – Züleyxaya sevgimi, Violettaya, Ruhiyyəyə, Məryəmə münasibətlərimi – söyləmədim, bununla belə, özümü də riqqətləndirən çox kədərli əhvalat alındı. Mirzə Kəmaləddin bütün danışdıqlarımı qələmə almağımı arzuladı, mən də İstanbulda başladığım, Qəzvində və İsfahanda davam etdirdiyim qeydlərimdən, üstəlik, Mir Veyslə Şah Hüseynin vaqiəsilə bağlı qələmə aldıqlarımdan danışdım. Əlbəttə, həmin məqamda niyyətim İskəndər Münşi, yaxud Övliya Çələbi kimi ortaya böyük bir əsər qoymaq deyildi, sadəcə başıma gələnlərdə maraqlı məqamlar vardı, o məqamların tarixdə qalıb başqalarına çatmasını istəyirdim.

114. Mirzə Kəmaləddin Osmanlıların üzük qaşı kimi dövrəyə aldığı Təbrizdən vaxtında çıxıb külfətini Ərdəbildəki qohumlarının yanında yerləşdiribmiş. Bütün ruhuyla, canıyla bağlı olduğu Səfəvi xanədanının bu halı onu çox ağrıdırdı, hətta mən Şah Hüseynin Mir Mahmudun yanına təslim olmağa getdiyini danışanda tab gətirə bilməyib ağladı. Aradabir müsafirxanaya gələn yolçulardan təbrizlilərin müqavimət göstərdiklərini, amma müqavimətin uzun müddət sürməyəcəyini söyləyənlər çox idi. Mirzə Kəmaləddin Təbrizin bu məqamında İstanbula getməsini fərarilik sayırdı, amma onun silah yox, fikir adamı olduğunu səbəb gətirib təskinlik verməyə çalışırdım. Quzey səmtdən Osmanlı qoşunlarının Rəvana və Nəqşivana yaxınlaşdığı xəbərləri gəlirdi. Bir gün Təbrizin, eləcə də Azərbaycan vilayətinin Əcəm şahlarının və Osmanlı sultanlarının hökmü altında olmasının yaxşı-pis cəhətlərindən danışırdıq. Mirzə Kəmaləddinin fikrincə, neçə yüz illərdi Əcəm şahları da, Osmanlı sultanları da bir ananın iki oğlu kimidilər, aradakı bütün savaşlar bu fani dünyanın malı-dövləti üzündən, hökmranlıq üzündəndi, bundan ötrü biri o birinə qarşı hətta, gavurla belə ittifaq bağlamaqdan çəkinməyib. Həmin gün, deyəsən, söhbət ruslarla Osmanlıların bağladıqları razılaşmadan gedirdi. Ruslar dərya sahillərini ələ keçirmək niyyətlərinə yetişmişdilər, üç tərəfi dərya olan Osmanlı dövlətisə Həmədandan ta Tiflisəcən Azərbaycan ərazilərinə yiyələnirdi. Şübhəsiz, Sultan Həzrətləri sünni uğanlara müəyyən rəğbətlə yanaşsa da, nə Mir Mahmuda, nə əmisi oğlu Əşrəf Sultana bel bağ-

layırdı, üstəlik, əsil-nəcabəti, ənənələri olan Səfəvi xanədanının yerinə soysuz uğanların gəlməsi Osmanlı sarayının da marağında deyildi. Fikrimcə, Əcəm məmləkətini xilas eləmək üçün iki yol vardı: ya Təhmasib Mirzənin ətrafında birləşib torpaqları qorumaq lazım idi, ya da ortaya fövqəlqüvvə çıxmalıydı ki, bu bəlaları məmləkətin başından rədd eləsin.

115. O ilin Novruz bayramını Əylisdə keçirməli olduq. Bayram ovqatı hiss eləməsəm də Mirzə Kəmaləddinlə ülfətim qəlbimə təpər verirdi: Mirzə Kəmaləddinin bu yolçuluqda xidmətə götürdüyü əslən qəzvinli olan qatırçı Səfər bayram süfrəsi düzəltmişdi, Ordubad nemətlərindən dadıb Allahımıza şükür elədik. Bu tərəfdən də Rəştdə rus zabitinin verdiyi qızıllar artıq tükənmişdi, ona görə də İstanbulacan Mirzə Kəmaləddinin səxavətinə sığınmaq məcburiyyətində qaldım, o da malına-puluna qızırğalanmadan qardaş kimi şərik elədi. Bir neçə aydan sonra osmanlı əsgərlərinin Rəvanı və Nəqşivanı tutması xəbəri gəldi, bunun ardınca yollar açıldı, hicri 1138-ci il, miladi 1725-ci ilin yaz günlərinin birində axır ki, Əylis girdabından qurtarıb Ərzuruma yol başlayan karvana qoşulduq. Olub-qalanımızı bir qatıra yüklədik, Səfər o biri qatıra, biz də atlara süvar olduq, məşəqqətli qışdan sonra gələn yazın gözəlliyini canımıza çəkə-çəkə Culfadan, Nəqşivandan, Şərurdan keçdik, Dvin yaxınlığında Arazı adlayıb Qarsa sarı istiqamət götürdük. Gündüzlər açıq havada, gecələr iki nəfərin güclə sığışdığı balaca çadırda *(biçarə Səfər gecə bürüncəkdə elə çadırın böyründəcə uzanıb yatırdı),* dincələ-dincələ, at belində olub-keçənlərdən danışa-danışa günlərimizi yola verirdik. Üç gün Qarsda, bir gün Xorasanda qalıb Əylisdən çıxdığımızın iyirmi birinci günündə Ərzuruma yetişdik. Burdan o tərəfə getmək üçün özümüz çarə fikirləşməliydik, çünki Məşhəd tacirlərinin karvanı Ərzurumdan o yana getməyəcəkdi. Bu səbəbdən Ərzurumda üç həftə ləngiməli olduq. Həmin müddətdə fürsətdən istifadə eləyib Mirzə Kəmaləddini ötən dəfə gəzdiyim yerlərə apardım. Yaqutiyyə mədrəsəsi könlünə yaman yatmışdı, hətta İstanbula getməyib Ərzurumda qalmağa meylləndiyini də sezdim. Şübhəsiz, onu dilə tutmaq fikrinə düşmədim, Mirzə Kəmaləddin də fikrində nəyisə uzun-uzadı

götür-qoy elədi, nəhayət, yoluna davam eləməyin xeyrinə qərar çıxarıb, əvvəlki niyyətindən daşındı.

116. Axır ki, isti yay günlərinin birində Toqata gedən karvana qoşulub yola çıxdıq. Mirzə Kəmaləddin bu yerlərin ilahi gözəlliyindən məst olub Təbriz dərdini, külfətinin qayğılarını müvəqqəti də olsa, unutmuşdu, qınayan olmasaydı, atdan düşər, hər çiçəyə, ağaca, daşa, qayaya toxunar, çeşmələrdən ovuc-ovuc su içərdi. O məqamlarda qəlbində nə fırtınalar oynadığını yaxşı təsəvvür eləyirdim. Yolların damarını qırdıqca Osmanlı məmləkətinin böyüklüyünə, gözəlliyinə, zənginliyinə heyrətini üz-gözündən asanca oxumaq olurdu. Fərat çayını keçib Ərzincana çatmazdan əvvəlki gecəmizdə hardasa oxuduğu, ya da eşitdiyi Nəmrud dağı barədə danışdı. Dediyinə görə, Kommagen kralı Antioxun Nəmrud dağının başında yondurduğu nəhəng heykəllər var. O heykəllərin sayı hər iki tərəfdə aslan və qartal olmaqla doqquzdu. Antiox özü, sevdiyi Tikbə, Zevs, Apollon, Herakl oturduqları yerdə təsvir olunublar, hərəsinin hündürlüyü iyirmi dirsək olar. Şübhəsiz, tarix məndən ötrü təkcə yazılanlar yox, həm də o daş şahidlər idi, bunu Sorbonnda qədim mədəniyyətlər barədə danışan müəllimimdən eşitmişdim. Əgər ovqatım yerində olsaydı, karvandan ayrılıb güneyə doğru yollanar, Mirzə Kəmaləddinin bu qədər şövqlə danışdığı Nəmrud dağındakı o daş heykəllərlə həmsöhbət olardım. Yadıma Tiflisdəki çağlarımda saatlarla dinməzcə oturub qalaya, məscidə, kilsəyə, tarixin izlərini saxlayan tikililərə baxdığımı xatırladım. Əlbəttə, o daş yadigarlar həmin vaxt çox şey söyləyə bilmirdi, daha doğrusu, mən o şahidlərlə ülfət bağlamaq iqtidarında deyildim, indisə əlli yaşını ötmüşdüm, ömrümün, az qala, qırx ilini yollarda keçirmişdim, dəryadan damla da olsa, öyrəndiklərim, gördüklərim az deyildi, ona görə də, elə bil tarixlə aramızda əlaqə yaranmışdı.

117. Üç günümüz Ərzincanda, iki günümüz Toqatda keçdi, sonra karvandan ayrılıb Safranboluyacan iki bələdçi tutmalı olduq. Üç həftədən artıq sürən o yolçuluğumuzda rastlaşdığımız dağları, vadiləri, irmaqları, qaldığımız karvansaraları, müsafirxanaları sadalasam, başağrısı olar, amma Safranboluda keçirdiyimiz bir həftənin üstündən sükutla keçsəm, günah sayılar. Kastamonu

yolunun üstündəki qülləli baş girişi olan dördkünc, geniş iç həyətli, ikiqatlı Çinci karvansarasının əzəməti bir yana, rahatlığı bizi valeh eləmişdi. Əcəm xalılarıyla döşənmiş hücrədə yastıqlara, mütəkkələrə dirsəklənib yolun ağrısını canımızdan çıxarmaq başqa bir aləm idi. Elə həmin axşam bir neçə yüz addımlıqdakı ikiqübbəli Çinci hamamına gedib Ərzincandan bəri canımıza hopmuş kiri-pası tökdük. Mən bu illər ərzində özümü nə sünni, nə şiə hesab eləmişdim, bir Allahı, bir Peyğəmbəri tanıyırdım, namazımı camedə də, məsciddə də qılırdım, ona görə də Köprülü Mehmet Paşa camesinə getdim, Mirzə Kəmaləddinsə boyun qaçırdı, hiss elədim ki, sünnilərin camesi və şiələrin məscidi arasında uzun illərin təsirilə çəkilmiş divar ona mane olur. Namazımı qılıb bunca sınaqlardan sonra hələ də pənahında saxladığına görə, Allahıma dua elədim, çıxanda camenin həyətindəki Günəş saatının yanında xeyli ayaq saxladım. Hansı kamil ustanınsa düzəltdiyi saat kölgədə belə vaxtı dəqiq göstərirdi. Karvansaraya qayıdanda zamanın qüdrəti barədə düşündüm: bizə ağır gəlsə də vaxt elə sürətlə gəlib keçir ki, bir də gözünü açırsan – artıq ömür tükənib. Amma insan oğlunun istəkləri bitib-tükənməzdi. Budu, Mirzə Kəmaləddin bu yaşında İstanbula oxuyub-öyrənmək dalınca gedir, aləmdəki yerini axtarır, dünyanı dərk eləməyə can atır. Yadıma hardansa neçə il ad-soyadını gəzdirdiyim Cozef Qrenyö düşdü: o da dünyana dərk eləmək üçün yolları əriş-arğac eləyirdi. Elə mənim özüm niyə Davidlə Tiflisə qayıtmadım, çoxları kimi oturaq, rahat həyat keçirmədim? Bunu izah eləmək çətindi…

118. Sonrakı günlər Qapalıçarşını gəzdik, daşdan, taxtadan tikilmiş iki-üçqatlı evlərin sıralandığı küçələri dolaşdıq. Qismətimizdən həftənin tamamında elə karvansaradaca İstanbula gedən qəfiləyə rast gəlib yola düzəldik. On altı gün də Boludan, Adabazarından keçib İzmitə çatmağımız çəkdi. Düzü, günləri dəqiq qeydə almırdım, amma o yadımdadı ki, biz İzmitə çatanda üç aydan çox idi, yoldaydıq, artıq payızın nəfəsi duyulmağa başlamışdı, arabir yağan yağışlar tez-tez daldalanmağımıza səbəb olurdu. İzmit karvansarasında rastlaşdığımız, İstanbuldan Məşhədə gedən bir tacirin söylədiyinə görə, Sədrəzəm Nevşehirli Damad İbrahim Paşanın gördüyü işlər bütün məmləkəti başına

götürüb. Məqama çatanda onun Eyyubda keçirdiyi görünməmiş təntənələri indi də xatırlayırlar, tacir danışırdı, indisə Sədrəzəmin bəzi yerlərdə zanbaq, biz tərəflərdəsə tülpan deyilən lalələrə sevgisindən ağlagəlməz şeylər söyləyirlər; deyilənə görə, İbrahim Paşanın bağında yarım milyondan artıq lalə var; hər dördüncü lalənin yanında özü boyda şam qoyulub, aralarda içində cürbəcür quşlar olan qəfəslər asılıb, güllər rəngbərəng büllur şüşələri olan çıraqla işıqlandırılır, güzgülərdə əks olunan o mənzərə heyrətamiz dərəcədə gözəl olur; üstəlik, Sədrəzm lalələr çiçək açanacan musiqi çaldırır, həmin müddət Sultan Həzrətlərini sarayında qonaq eləyib ziyafət verir. Tacirin dediyinə görə, bunu camaat «Lalə dövrü» adlandırırdı. Üstəlik, hər il ramazan ayının on beşində Sultan Həzrətləri Peyğəmbərimiz əleyhissalamın mübarək xirqəsinə baxmaq üçün əyan-əşrəfilə müqəddəs hücrəyə girir. Tacir Sultan Həzrətlərinin dərya qırağındakı Mirvari Köşkündə oğullarının sünnət mərasimi barədə eşitdiklərini də söylədi; dediyinə görə, həmin gün beş min kasıb uşağını da sünnət elətdirib böyük savab qazanıbmış. Tacirin dediklərinə qulaq asanda ilk gəlişimdə ömrümün on bir ilini verdiyim xəyallar şəhəri üçün nə qədər darıxdığımı hiss elədim.

119. Bu təsadüfi söhbət Mirzə Kəmaləddinə maraqlı gəldi, mənəsə İstanbulun yeddi ildən artıq müddətdə bir qədər yadırğadığım ab-havasını yavaş-yavaş qaytarmaqda kömək elədi. İzmitdən İstanbula üz tutanda elə hey beynimdə ömrümün on bir ilini keçirdiyim şəhərlə bağlı düşüncələr dolaşırdı. İstanbulun məndən ötrü son dayanacaq olub-olmayacağını bilmirdim. Hələ ki, gedirdim, əvvəlcə Kitabdar Mühiddin Əfəndiyə, həm də təbii ki, Ruhiyyəyə baş çəkəcəkdim, sonra firəng elçisinin başına nə gəldiyini öyrənməyə çalışıb Sarayla köhnə əlaqələrimi bərpa eləməyə cəhd göstərəcəkdim. Əlbəttə, yaşamaq üçün münasib yer, Mirzə Kəmaləddinin mədrəsə təhsilinə yardım göstərmək, güzəranımıza çatacaq gəlir yeri tapmaq lazım gələcəkdi Məryəmlə əvvəlki əlaqələri təzələmək fikrində deyildim, həm Əylisdəki sarsıntı yaddaşımın qaysağını qoparmışdı, həm də aradan, az qala, səkkiz il ötmüşdü, yəqin ehtiraslı, adama dünyanı unutduran Məryəmdən çox az şey qalmış olardı, üstəlik, artıq sinnim əllini ötmüşdü, daha abırlı addımlar atmalıydım. Əgər müsyö Syör dö

Gardən Allahın köməyilə İsfahan cəhənnəmindən sağ-salamat qurtulub İstanbula gəlmişdisə, çox güman ki, onun incikliyi, ittihamlarıyla üzləşəcəkdim. Əlbəttə, bunu istəməzdim, çünki borcumu axıracan, bəlkə də artıqlamasıyla ödəmişdim, fədakarlığa-filana heç bir əsasım yox idi. O qıtlığın tüğyan elədiyi, adamların, az qala, bir-birinin ətini yediyi, arpa çörəyinin,bir parça yavanlığın od qiymətinə olduğu vaxtlarda müsyö Syör dö Gardənin Flandriya elçisilə əlaqəyə girib Culfa ermənilərindən gizli yollarla ərzaq aldığını, mənim halımı fikirləşmədiyini üzə vurmamışdım, lazım gəlsəydi, açıb-ağardardım. İndi məni firəng elçisilə heç nə bağlamırdı, amma altı il münasibətdə olduğum adamları insanlıq naminə arayıb-axtarmaq, taleyindən xəbər tutmaq istəyirdim. Mənə görə, *insanlar da suya oxşayırlar, gec-tez soyuyur, dəyişirlər, dərinə baş vurmadan dayaza görə mülahizə yürütməyi xoşlayırlar.* Hələ bütün bunlar düşüncələrdən başqa bir şey deyildi, məni İstanbulda nə gözlədiyini, uğuruma hansı sınaqların çıxacağını hardan biləydim?

# XVIII

# AH, ƏLAHƏZRƏT DÖZÜM...

***Böylə sövdadə qazancım kədər oldu ancaq<br>Dayağım təkcə dözüm...<br>səbr məni qurtaracaq.***

***Əbu Nəsr Mənsur ibn Mümkan TƏBRİZİ<br>(XI yüzil)***

120. İstanbula yağışlı-çiskinli son payız günlərinin birində girdik. Atımın dırnaqları cökə və şabalıd yarpaqlarının səpələndiyi yoxuşları, küçələri, döngələri keçdikcə gözlərimin qabağında bu şəhərdə keçirdiyim illər canlanırdı. Yağış-çiskin içində ötəri baxışla da sezirdim ki, İstanbul səkkiz il qabaqkı İstanbul deyil, ötən illərdə çox şey dəyişib. Yolumuzun üstündə tez-tez o vaxt görmədiyim ikiqatlı, üçqatlı imarətlərə rast gəlirdim. Əlbəttə, bütün bunlara baxacaq halda deyildim, fikrim-zikrim Kitabdar Mühiddin Əfəndinin yanındaydı, uzaq olduğum səkkiz il ərzində lap qocalıb əldən düşdüyünü, Ruhiyyəninsə açıq-aşkar yaşlandığını xəyalıma gətirirdim. Ömrümün çətin vaxtlarında mənəvi dayağım olmuş o pirani qocayla bir daha kəlmə kəsmək məndən ötrü dünyalara dəyərdi. Amma Kitabdar Mühiddin Əfəndinin Ox Meydanına yaxın döngədəki ikiqatlı evinin artıq başqa bir şəxsə məxsus olduğunu öyrənib əvvəlcə çaşdım, sonra acı həqiqətin ağırlığı çiynimdən basıb, elə bil, məni yerə yapışdırdı: ev sahibi Haqq evinə köçübmüş, qızı da tək qalandan sonra evi satıb Konyaya, qohumlarının yanına gedibmiş. Bəs alt qatdakı otaq dolusu köhnə kağız, mürəkkəb, rəng, dəri qoxusu verən kitablar necə oldu – həmin məqamda bu sualı verib-vermədiyimi xatırlamıram, amma, deyəsən, dilimdən çıxmışdı, çünki tanış olmayan ləhcəylə danışan ev sahibi dedi, kiməsə dəyər-dəyməzinə satdılar. Necə sındığımı Mirzə Kəmaləddin gördü, sezdi, qəzavüqədərlə bağlı bəzi sözlər deyib toxtaqlıq verdi. O döngədən çı-

xıb Xalicdən Süleymaniyyə məscidinə sarı qalxan yoxuşa, çərkəz arvad Xədicənin evinə sarı yönəldim, görünür, ömrümün ötüb-keçən o on bir ililə bağlarımı qoparmaq istəmirdim. Özümü bir qıçını itirmiş adam kimi hiss eləyirdim, o ikigözlü, kölgəli həyətindən Xalicin böyük qisminin ovuc içi kimi göründüyü evin yerində üçqatlı daş imarət görəndə, elə bil o biri qıçımı da itirib yerə çökdüm. İlk günümün ağırlığı elə amansız idi ki, Mirzə Kəmaləddin yanımda olmasaydı, şübhəsiz, ağlagəlməz addım atardım, məsələn, Üsgüdar səmtinə keçib Məryəmin başına nə gəldiyini öyrənmək istəyərdim. Amma, doğrudan da, köhnə evdə yaşamamağım böyük faciə deyildi, bu səmtdə başqa hücrə tapmaq olardı.

121. Elə də elədik, bir az dikdə kütahyalı baqqalın evinin birinci qatındakı üç otağı tutub rahatlandıq. Səhəri gün soraqlaşa-soraqlaşa atların birini, qatırların hamısını satdım ki, həm xərçliyimiz çıxsın, həm də heyvanları saxlamaq əzabından qurtaraq: bir at Səfərə ağırlıq eləməzdi, elə baqqalın tövləsində saxlayardıq, ehtiyac olanda da ayağımızı yerdən götürərdi. Allah bir yandan bağlayanda bir yandan açır – Süleymaniyyə camesinin imamı da baqqalla uzaq qohum, yaxın tanış imiş, Mirzə Kəmaləddinin bu yaşda oxumaq istəməsindən təəccüblənsə də mədrəsəyə düzəlməsində çətinlik ortaya çıxmadı. Bütün bunlar ilk həftə ərzində baş verdi, elə görünürdü ki, itkilərlə başlanan bu səfərimizdə hər şey yoluna düşməyə başlayır, artıq müsyö dö Gardənin taleyilə maraqlanmaq, Sarayla bağlarımı təzələməyə cəhd göstərmək olar. Amma o günlərin birində şəhərdə istiqbal sədaları sezib küçəyə çıxdıq, eşitdiklərimizsə məni üzdü, amma Mirzə Kəmaləddinə amansız zərbə oldu: Osmanlı orduları zəfər qazanıb Təbrizə girmişdi. Mən hələ bunun yaxşı, ya pis olduğunu bilmirdim, çünki quzeydən ruslar, günçıxandan uğanlar gəlib Təbrizi ələ keçirsəydilər daha yaxşı olardı, yoxsa Osmalıların Təbrizə sahib olmağı daha yaxşıydı? Mən bilən, belə vəziyyətdə Sultan Həzrətləri düzgün hərəkət eləyib Azərbaycan məmləkətini uğanların cəngindən qurtarmışdı, bundan sonra nələr baş verəcəyini kimsə bilməz. Əgər məsələ Mirzə Kəmaləddinin anladığı, amma dilinə gətirmək istəmədiyi kimi sünni-şiə məsələsindəydisə, uğanlar da sünni, ruslar xristi-

an idilər. Mirzə Kəmaləddindən sünni camesinin mədrəsəsində necə oxuduğunu soruşurdum, deyirdi, elmlə ibadəti qarışdırma, mən bura elm öyrənməyə gəlmişəm. Bununla belə, günlərlə qaşqabağı açılmadı, kölgə kimi gəzib-dolandı, hələ gizlində göz yaşı tökdüyündən də şübhələnirdim, bu da mənə təəccüblü gəlmirdi – külfətinin xiffətini də məmləkət dərdinin üstünə gələndə binəvanın halını təsəvvür eləmək çətin deyildi.

122. Günlərlə firəng elçi müsyö Syör dö Gardəni axtarıb-axtarmamaqla bağlı tərəddüd elədim. Əlbəttə, mənə ondan çox şey lazım deyildi, özünün və heyətinin sağ-salamat qurtulduğunu eşitsəm, bəsim idi. Üz-üzə gəlmək istəmirdim, İsfahan cəhənnəmində yaşadıqlarımız çözələnib xoşagəlməz ovqat yaradacaqdı, bunu da indiki vaxtımda yersiz sayırdım: Mirzə Kəmaləddinin dərdi, olan-qalanımızın tükənhatükəndə olması, Sarayla köhnə əlaqələrimin hələ də müxtəlif səbəblər üzündən yoluna düşməməsi ovqatımı təlx eləmişdi. Amma elə həmin günlərin birində də Babi-Aliyə gedəndə təsadüfən rastlaşdım manisalı Camal Əfəndidən firəng səfarətinin başına nə gəldiyini öyrəndim. Dediyinə görə, müsyö dö Gardənlə heyəti nə yollasa, deyəsən, Mir Mahmudun sərəskərlərindən birinə pul verməklə İsfahandan çıxıb Həmədana gediblər, bu vaxt da Əhməd Paşanın qoşunları şəhərin həndəvərinə çatıbmış, firənglər fürsət gözləyib Osmalıların tərəfinə keçiblər, Əhməd Paşa da firəngləri yaxşı qarşılayıb, onları, Bağdad yoluyla İstanbula göndərib. Dediyinə görə, heyətdən bir xidmətçi ölüb *(ağlıma gəldi ki, Burun olacaq)* biri də ağır vəziyyətdəymiş, bir neçə ay İstanbulda qalıb dincələdən sonra bir Portəgiz gəmisilə Firəngistana yollanıblar. Əlbəttə, düz on il qabaq taleyin mənə rast gətirdiyi müsyö dö Gardənin və heyətinin qurtuluşuna sevinib xeyli rahatlandım. Ağlıma gəldi ki, müsyö Syör dö Gardən Parisə qayıdıb rahatca başına gələnləri, səfəri vaxtı gördüklərini qələmə alacaq, ola bilsin, hardasa məni də xatırlayacaq, bəlkə elə mübahisələrimizi də kağıza köçürəcək. Şübhəsiz, onunla bir də, məsələn, İstanbulda, Tiflisdə, Təbrizdə, yaxud taleyin atacağı hər hansı bir məmləkətdə rastlaşsaydıq, bu lap möcüzə olardı. Daha başqalarına nəyisə sübut eləmək vaxtım ötmüşdü, indi olub-qalan ömrümdə özüm-özümə nələrisə təsdiqləməliydim.

123. Az qala, bir ilimiz belə ötdü. Babi-Alidən ümidimi üzüb dilmanclıq məqsədilə iskələlərə getməyə, ya qələbəlik meydanların birində kətil qoyub diləkçələr yazmağa başladığım günlərdə Mirzə Kəmaləddin, deмək olar, hər həftə hücrəmizə yeni Əcəm xəbərlərilə gəlirdi. Dediyinə görə, Təbriz elə-belə təslim olmayıb, Allahqulu xan Abdulla Paşanın qarşısında xeyli dirənib, hətta osmanlılar şəhərə girəndən sonra belə Şahbaz xanın dəstəsi qəfil basqınlarla xeyli müqavimət göstərib; dediyinə görə, Təbrizin alınması İstanbulda bayram olunsa da, paşalara ənam verilsə də, döyüşlərdə yetmiş minəcən əsgər itirilib, şəhərin xeyli hissəsi top atəşlərilə dağıdılıb. Mən də eşitmişdim ki, Əhməd Paşa Luristanı alıb, quzeydə trabzonlu Mustafa Paşa yanında da Dərviş Mehmet ağa Qırım tatarlarının köməyilə Gəncəni ələ keçirib, hətta osmanlılarla rusların Əcəmə qalmasında razılaşdıqları Ərdəbil də tutulub. O vaxt rus çarı Dəli Petro ölmüşdü, Sultan həzrətləri bu fürsətdən yararlanıb, mənə görə, düz hərəkət eləmişdi. Külfətini qoyub gəldiyi Ərdəbilin Osmanlıların əlinə keçməsindən xəbər tutanda Mirzə Kəmaləddinin göynərtisi asimana bülənd oldu, amma mən belə olmasından razıydım, çünki İsfahanda olduğum müddətdə uğanlardan çəkdiyimi çəkmişdim. Elə o vaxt da Mirzə Kəmaləddin Sultan Hüseynin oğlu Səfi Mirzənin saraydan qaçdığını, bu səbəbdən də Mir Mahmudun bütün şahzadələri öldürtdüyünü, yalnız iki azyaşlı şahzadənin atalarının ağuşuna sığınıb ölümdən qurtardığını ağlaya-ağlaya danışmışdı. Üstündən bir neçə ay keçəndən sonra Mir Mahmudun sağalmaz bəlaya düçar olduğu, cismində çürümə getdiyi, dişilə xəstə bədəninin əzalarını didib-dağıtdığı barədə xəbərlər gəldi, ardınca da Əşrəf Sultanın taxta çıxdığı, atasının qisasını alıb Mir Mahmudun boynunu vurdurduğu barədə xəbər aldıq, bu dəfəsə Mirzə Kəmaləddinin sevinc yaşları sel oldu. Payız günlərinin birində də Əşrəfin elçisi Əbdüləziz xanın Sultan Həzrətlərinin hüzuruna gəldiyi, amma yaxşı qarşılanmadığı barədə sevindirici xəbər eşitdim.

124. O vaxtlar saraylarda, yaxud mədrəsələrdə ərzi-halçı olmağa da hazır idim, təki dolanışığımız üçün pul çıxsın. Tuğraya, divaniyə, nəshə, hətta siyaqata bələd idim, fərmanlara, buyrultulara, əlyazma kitablarına baxa-baxa öyrənmişdim, həftədə bir-iki dəfə Sultanəhməd camesi yaxınlığındakı vəqf kitabxanasına

gedib salnamələri, səyahətnamələri, divanları oxuyurdum. Uzun qış gecələrində Firəngistandan bəri özümlə daşıdığım üç-beş kitabdan birini, Fransua Qallanın «Smirnəyə səyahət»ini türkcəyə çevirməyə başlamışdım, Ali Yorki bəyin – Ali bin Abdullah əl-İfrancı adıyla Sarayda yaşayıb Dördüncü Mehmetin dilmancı olan polyak Alfred Baboskinin nəğmələr toplusuyla da elə o vaxtlar tanış olmuşdum. Həmin vaxtlar da Sultan Süleymanın zövcəsi, ikinci Səlimin anası olan, adını Parisdə eşitdiyim Roksolana-Hürrəm Sultan barədə iki tamaşa əsərini – «Sultan» və «Raksolana»nı türkcəyə çevirmək barədə düşünürdüm, amma bundan ötrü güzəran qayğılarım olmamalıydı, ya da mümkün qədər az olmalıydı. Şübhəsiz, o illərimin ən gözəl xatirələri Cəlal Əfəndinin sayəsində tanış olduğum, hamının Levni çağırdığı naqqaş Əbdül Cəlil Çələbiylə, bir də Əbdül Cəlil Çələbinin yanında gördüyüm şair Nədimlə bağlıdı. Düzdü, onun *Bu şəhri-İstanbul ki, bu-misl-ü bəhadır,/Bir səngınə yekparə Əcəm mülkü fədadır* beyti Mirzə Kəmaləddini cin atına mindirmişdi, amma şeriyyətini çox bəyənirdim, bunu özünə də söyləmişdim. Günlərin birində aradabir ümidlə baş çəkdiyim, qəhvəsini dadıb, söhbətləşdiyim Cəlal Əfəndinin yanında Əbdül Cəlil Çələbiyə rastlaşdım, ünsiyyətimiz ikimizi də təmin elədi, ondan sonra, azı, ayda iki kərə onun nəqqaşxanadakı hücrəsinin qonağı oldum. Sarayın əhl-i-hiraf-hassasında, yəni nəqqaşlar heyətində yetişmiş, artıq ustad məqamına yetişmiş Əbdül Cəlil Çələbinin şeirlər yazdığını, hətta dövrünün vaqiələrini qələmə aldığını da onda öyrəndim. Onun rəngləri, işığı, kölgəsi, çəkdiyi mənzərəyə baxışı Parisdə və Veneziada gördüklərimə daha yaxın idi. Məndən gördüyüm rəsmləri yerli-yataqlı təsvir eləməyimi istəyir, ağıllı gözlərimi üzümə dikib dinməzcə dinləyirdi. Bir neçə il qabaq şair Vəhbinin şahzadələrin sünnət mərasimini təsvir eləyən "Surnamə"yə rəsmlər çəkmişdi, onda Kəmaləddin Behzadın, Sultan Məhəmmədin havasını duymuşdum.

125. Hicri 1140-cı, miladi 1727-ci ilin o ümidli-ümidsiz günlərində təbii ki, qulağımız səsdəydi, Əcəm məmləkətindən ürəkaçan xəbər gözləyirdik. Elə həmin məqamda da müsyö Syör dö Gardənin qardaşı müsyö Şevalye dö Gərdan İstanbula gəlib çıxdı, eynilə qardaşı kimi İsfahan sarayına elçi gedəcəkdi. Bunu

Cəlal Əfəndidən eşidəndə üz vurdum ki, adımı çəkməsin, bir də İsfahana gedəsi, o cəhənnəmi görəsi halım yox idi. Elə o vaxt da Sultan həzrətləri Əşrəfin elçisinə qapını göstərib tələblərini yerinə yetirməmişdi, üstəlik də Təhmasib Mirzənin öz tərəfinə çəkmək məqsədilə Ruznaməçi Mustafa Əfəndini Təbrizə göndərmişdi. Bundan qeyzlənən Əşrəf Sultan Həmədanı tutmaq istəsə də sınıq düşmüşdü, bu səbəbdən Təbrizin üstünə gəlməkdən çəkinib Fərhanda düşərgə qurmuşdu. Deyilənə görə, Əhməd Paşa Fərhan döyüşündə basılıb Sultan Həzrətlərinin qəzəbinə düçar olmuşdu, Əşrəfsə ürəklənib Ordubadı ələ keçirmək istəmişdi, amma Təbriz Sərəskəri Həkimoğlu Ali Paşa onu geri oturtmuşdu. Bunun ardınca Əşrəfin göndərdiyi İsmayıl Sultanla Əhməd Paşanın əhdnamə bağladıqları, Əhər, Sultaniyyə, Zəncanın Əcəmə qaldığı barədə xəbərlər çıxdı. Mirzə Kəmaləddin o xəbərlər içində Təbrizin və Ərdəbilin adını axtarırdı – Təbriz göz açdığı, Ərdəbil külfətini əmanət qoyduğu yer idi – onun nisgilini anlamaq o qədər də çətin deyildi. Belə vaxtlarda söhbəti azdırmaq üçün şeirdən, şairlərdən, xəttatlardan, nəqqaşlardan söz salırdım, Sultan Məhəmməd, Kəmaləddin Behzad, Məhəmməd Həsən Təbrizi, Əla bəy Təbrizi, Əbdülbaqi Kitabnəvis, Əmir Dövlətyar, Übeydulla Təbrizi, Mahmud Bağır Ordubadi, Nizaməddin Ərdəbilli, Mir Abdulla bəy Danışmənd, Seyid Əhməd barədə danışdıqları, Qətran Təbrizdən, Saib Təbrizdən söylədiyi şeirlər ruhumu dincəldirdi. Bütün gecəni oturub Şeyx Nizamidən, Seyid Nəsimidən, Məhəmməd Füzulidən, Şah Xətaidən şeirlər söyləyə, misraları, beytləri, bəndləri, parçaları aça bilərdi. Şeir-sənət aləmi onu arıdır, duruldur, dərdini unutdururdu, bu səbəbdən qəm dəryasında yelkən açan kimi, dərhal yönümü o səmtə çevirirdim. Belə könül söhbətlərimizdən birində Züleyxa dərdimi ağzımdan qaçırmışdım, o da Şair Əlinin «Qisseyi-Yusif»ini, Suli Fəqihin, Xətai Təbrizinin, «Yusif və Züleyxa»sını söyləyib qubarımı az da olsa, dağıtmışdı.

126. Elə o vaxt da Cəlal Əfəndi İbrahim Mütəfərrikənin kitab basmaq üçün qurğu gətirdiyini söyləyəndə heyrətinə rəğmən o qədər də təəccüblənmədim. Günbatan məmləkətlərində yüz illərdi ki, kitabları o cür basırdılar, hər nüsxəsi üzərində xəttatlar, nəqqaşlar, cildçilər illərlə çalışmırdılar, bir qəlibini

düzəldib istədikləri qədər nüsxə basa bilirdilər. Əcəmin Bayat boyundan olan, Birinci Şah Abbasın ispan sarayına göndərdiyi səfarətin ikinci katibi Oruc bəy Bayatın Valyadolid şəhərində kitabının basıldığını da eşitmişdim. Parisdə madam dö Qrenyö-nün sayəsində kitabın necə basıldığını gözlərimlə görmüşdüm. Elə Osmanlı məmləkətində iki yüz ildən artıq idi musəvilərin, rumluların, ermənilərin kitabbasma evləri vardı. Cəlal Əfəndinin dediyinə görə, kitabbasmanın vacibliyi barədə "Vasilat-üt-Tabaa" adlı risalə yazıb, Sədrəzəm Damad İbrahim Paşaya verib, üstəlik, İyirmisəkkiz Mehmet Çələbinin oğlu Səid Çələbiylə Sultan Həzrətlərinə və Şeyx-ül-İslam Abdullah Əfəndiyə diləkçə çat-dırıblar ki, İslam ümmətinin də kitabbasma evi olsun. Bütün bunları söyləyəndə Cəlal Əfəndi barəmdə İbrahim Mütəfərrikəyə tövsiyə verilməsinə çalışacağını söylədi, onun haqqında da danış-dı. Dediyinə görə, əslən macardı, əsir götürülüb, ya özü təslim olub, bunu, eləcə də əsl adını bilən yoxdu; Sarayda yetişdirilib, islamı qəbul eləyib, yüksək məqamlarda çalışıb, paşa çini qaza-nıb, hətta Sultan Həzrətlərinin buyruğuna əsasən avstriyalılarla və ruslarla danışıqlar aparıb, üstəlik, türkcəyə tərcümələri var, özü də kitab yazır. Cəlal Əfəndiyə deməsəm də, kitab basmanın İstanbula niyə iki yüz ildən sonra gəlib çıxdığını bilirdim: o vaxt-lar, deyilənə görə, məmləkətdə doxsan minəcən katib vardı, ki-tabbasma onları ac qoymaq demək olardı, həm də nəqqaşxanaları basma üsuluna qurban vermək sultanlardan ötrü də asan deyil-di, üstəlik, dini kitabların o üsulla basılmasını «kafir əməli» sayırdılar. Amma əgər bir vaxtlar macar qövmündən əsir düşüb sarayda yetişmiş, Sultan Həzrətlərinin hüzurunda sözü keçərli olan İbrahim Mütəfərrikə bu işə qol qoymuşdusa, deməli, artıq Günbatan məmləkətlərilə ayaqlaşmağı qərara almışdılar. Cəlal Əfəndinin dediyinə görə, bu işə həm də Sədrəzəm Nevşehirli Damad İbrahim Paşanın razılığı vardı. Məndən olsaydı, öncə Övliya Çələbinin «Səyahətnamə»sini, Antuan Qallanın «Smirnəyə səyahət»ini, Qantəmirin «Osmanlı məmləkətinin tarixi»ni, Ali Ufki bəyin nəğmələr toplusunu, bir də, şübhəsiz, Mövlananın «Məsnəvi»sini basardım. Əlbəttə, Cəlal Əfəndinin dediyinə ümid eləmək *boğulanın saman çöpündən yapışmağına oxşayırdı, mən də bu fürsəti axıracan qovmalıydım…*

# XIX

# QUL OLMAQ QORXUSU

*«Ağıllı adamlar deyiblər ki, kəmərə qızıl qılınc qurşayıb qul kimi durmaqdansa, öz yavan çörəyini yeyib evdə oturmaq yaxşıdır».*

***Sədi ŞİRAZİ,***
***«Gülüstan», (XIII yüzil)***

127. O sıxıntılı vaxtlarımızda həftədə bir kərə şəhərin karvansaralarını gəzib Məşhəddən, İsfahandan, Qəzvindən, Təbrizdən, Ərdəbildən gələn karvanları soraqlayan, məmləkətindən, doğmalarından xəbər tutmağa çalışan Mirzə Kəmaləddin çox vaxt əliboş, məhzun qayıtsa da, bəzən diqqətçəkən xəbərlər də gətirirdi. Bir dəfə dedi, Təhmasib Mirzə Astarabadlı Fətəli xan Qacar, bir də Xorasanda igidliyilə ad çıxarmış Nadirqulu bəylə birləşib Əcəm torpaqlarını da, Səfəvi xanədanını da qurtarmağa başlayıb; sonra Nadirqulu bəylə Fətəli xan arasındakı çəkişmələrdən, Nadirqulu bəyin Məşhədi uğanlardan almasından, Təhmasib Mirzənin Məşhədə gəlib ona Təhmasibqulu xan adı verməsindən, Fətəli xanın öldürülməsindən *(dərhal yadıma Mirzə Mehdi düşdü, tələf olmamışdısa, yəqin indi ya Şahın, ya da Təhmasibqulu xanın xidmətindəydi)* danışdı; bir kərə qayıdanda ağladı ki, belə bir vaxtda Təhmasib Mirzəylə Təhmasibqulu xan bir kürd qızının ucbatından bir-birilə qanlı düşmən olublar, hətta döyüşə də giriblər; bir neçə aydan sonra sevinə-sevinə gəldi ki, Şah Təhmasiblə Təhmasibqulu xan təzədən birləşiblər, artıq uğanlara qarşı yürüşlər bağlayıb. Şübhəsiz, eşitdiklərim məni də maraqlandırırdı, elə Sarayla bağlı adamlar Sultan həzrətlərinin bu ittifaqdan əndişə duyduğunu söyləyirdilər. Güman ki, döyüşdə yaxşı təbərzin və əmud işlətdiyinə görə “Toppuz xan” adı verdikləri Təhmasibqulu xanın cəsarəti, şücaəti, hətta qəddarlığı barədə cürbəcür əhvalatlar danışırdılar. Mirzə Kəmaləddin hər dəfə namazdan sonra Allaha

dua eləyirdi ki, o birlik pozulmasın, Səfəvi xanədanını, Əcəm torpağını yağıların pəncəsindən qurtarsın, məmləkətinə qayıdıb külfətini sağ-salamat tapsın. Mənə qalsa, Osmanlıyla Əcəm arasında ixtilaf olmasını heç istəmirdim, ələ keçirilən torpaq da, sərvət də binəsib adamların əzablarına dəyməzdi. Şübhəsiz, şahla xanın ittifaqı öncə uğanlara qarşı yönəlmişdi, Nadirqulu bəyin ata-baba yurdunu, Səfəvilərin ana şəhərini uğanlar tutmuşdular, amma taxt-tacı qəsb eləyənlərlə haqq-hesab çürüdüləndən sonra, yönlərini Osmanlı səmtinə çevirəcəkləri də şəksizdi, güneyli-quzeyli Azərbaycanı və Gürcüstanı Sultan Həzrətlərinə bağışlaya bilməzdilər. Yenə savaş, yenə qan, yenə Şah İsmayıl-Sultan Səlim faciəsi baş verəcəkdi…

128. Cəlal Əfəndinin ümid verdiyi, mənim də gözlədiyim kimi, xəbər İbrahim Mütəfərrikədən yox, Mehmet Səid Çələbidən gəldi. Mən artıq İsfahanda olanda Sultan həzrətləri onun atası Çələbi Mehmet Əfəndini Firəngistan kralının yanına elçi göndərmişdi, o vaxt səfarətlə Parisə gedib xeyli qalmış, gəzib-görməklə yanaşı, rəsm çəkmək, mahnı yazmaq, kitab basmaq kimi işlərlə də maraqlanmışdı. İstanbula döndüyüm üç ildən artıq müddət ərzində Mehmet Səid Çələbiylə üz-üzə gəlməmişdim, ona görə də Cəlal Əfəndi görüş istəyindən söz açanda xeyli təəccübləndim. Bab-Alidə, Cəlal Əfəndinin hücrəsində görüşdük. Oğlum sinnində olan, amma ağlı, fərasəti gözlərindən oxunan Mehmet Səid Çələbi hörmət-izzətini bildirəndən sonra dedi, Mirzə Yusif Əfəndi, möhtərəm Cəlal Əfəndi mənə sizin barənizdə müfəssəl danışıb, Parisdə oxuduğunuzu, orda kitabbasmanı gördüyünüzü, Veneziada, Əcəmdə olduğunuzu, səfərnamə yazdığınızı bilirəm; İbrahim Əfəndiylə məmləkətimizdə *kitabbasmanı bərqərar eləmək* üçün çox fikirləşdik, axır ki, Padşahımız Həzrətlərinin xeyir-duasıyla bütün vacib məzləmələri gətirdə bildik; neçə yüz illər qabaq ispan və portəgiz məmləkətlərindən qaçan yəhudilər kitabbasma qurğusu gətiriblər, amma nə İkinci Bəyazid bu işə izin verib, nə də birinci Sultan Səlim, səbəb də bu olub ki, müqəddəs Quran-i Şərif ərəb hürufatıyla yazıldığına görə, o hürufatdan başqa dindən olan kitabbasanlar istifadə eləyə bilməzlər; dedi, indisə zəmanə dəyişib, Məğrib məmləkətlərilə ayaqlaşmalıyıq, sözün qısası, İbrahim Əfəndiylə Sədrəzəmin də, Şeyxülislamın

da, Sultan Həzrətlərinin də izinini almışıq, üstəlik, on bir nəfərlik heyət qurulub ki, ilk kitaba təqdirnamə yazsın, həm də üç qazı, bir də mövləvi şeyxi ayrılıb ki, işlərimizə göz qoysunlar, istəyirik, latıncaya, firəngcəyə, ərəbcəyə və digər dillərə bələd adam kimi yanımızda olasınız; dedi, hələ ki, İbrahim Əfəndi Mərmərə və Qara dəryaların xəritəsini basıb, lap yaxın müddətdə də kitablar basmağa başlayacağıq, Allahın köməyilə vacib kitabları basıb dağıtmalıyıq ki, istəyənlər onlardan nur götürsünlər. Əlbəttə, bunca sıxıntıdan, sərgərdanlıqdan sonra bu qəfil, həm də cəlbedici təklif məni çox həyəcanlandırdı, dedim, Parisdə oxuyanda kitab basılan yerə getmişəm, ustaların necə işlədiklərini görmüşəm, əgər Sultan Həzrətlərinin kölgəsi altında bu işə faydam dəyəcəksə, özümü çox xoşbəxt sayaram. Mehmet Səid Çələbi dedi, İbrahim Əfəndi indi bərk məşğuldu, nə vaxtdı ki, Padşahımız Həzrətlərinin xeyir-duasıyla Günbatan məmləkətlərində döyüşün aparılması qaydaları barədə kitab yazır, ilk fürsətdəcə söhbətə çağıracaq. Cəlal Əfəndi halımı nətəhər çatdırmışdısa, Mehmet Səid Çələbi bir neçə aylıq xərcimizə bəs eləyəcək ağca kisəsini qabaqcadan veribmiş ki, mənə çatdırsın. Ona necə minnətdarlıq eləyəcəyimi bilmirdim, bu illər ərzində ilk dəfəydi ki, ev sahibinin, baqqalın, çörəkçinin, ciyərçinin, şirniyyatçının borcunu tamam verə, azı, üç ay rahat yaşaya, həm də, dara düşəndə satdığım atın əvəzində Səfərə at da ala bilərdim.

129. Səhəri gün Mehmet Səid Çələbinin nişan verdiyi yerə – İbrahim Əfəndinin Fateh Sultan Mehmet camesi yaxınlığındakı Mismarçı Sücaəddin məhəlləsindəki evinə vaxtından o qədər qabaq getmişdim ki, xoş duyğular içində gözləməkdən doyunca ləzzət aldım. Kitabbasma işini İbrahim Mütəfərrikə evin birinci qatında qurmuşdu. Parisdə gördüyüm Qutenberq qurğusunun içinə əridilmiş qurğuşun tökülən qəlibləri vardı, sonra həmin hərflər dəmir xətkeşlərin arasında düzülür, sözü və cümləni əmələ gətirir, ardınca üzərinə mürəkkəb sürtülüb kağız təbəqəsinə basılırdı. İbrahim Əfəndinin dəvət elədiyi qalisiyalı yəhudi İon ben Yakobun dəstəsi ərəb hürufatının qurğuşundan tökülməsilə məşğul idilər. Mənim vəzifəm o kəlmələrin, cümlələrin doğru-düzgünlüyünü yoxlamaq idi. Bəxtimdən hərflərin formasını da Əbdül Cəlil Çələbi çəkirdi, buna görə, demək

olar, hər həftə, bəlkə də həftədə bir neçə dəfə görüşürdük. Əbdül Cəlil Çələbi deyirdi, vaxt gələcək kağızdakı naxışları, surətləri, hətta rəngləri belə bu cür basmayla çoxaldacaqlar. Əlbəttə, bunu şirin xəyal hesab eləyirdim, amma Osmanlı məmləkətində bünövrəsi qoyulan gərəkli işə qatıldığım üçün çox sevinirdim. Ömrüm vəfa eləsəydi, başıma gələnləri kağıza köçürüb, beləcə kitab basdırıb, beş-on adama çatdırardım ki, haraları gəzdiyimi, nələri gördüyümü bilsinlər. Əlbəttə, zövq, adət-ənənə, həyat tərzi məsələsində Məğriblə Məşriq arasındakı fərqləri Mehmet Səid Çələbiyə söyləmişdim, orta hesabla beş yüz nüsxədə, həm də bəzəksiz-düzəksiz buraxılan kitablar xərcini çıxarıb bu işin genişlənməsinə imkan verəcəkdimi? Axı əlyazmaları xətt növündən, naxış tərzindən, rəng çalarından, rəsm hekayətindən zövq ala-ala oxumağa alışmış kəslərin mis, qurğuşun, dəmir qoxusu verən kitablara öyrəşməsi üçün çox vaxt lazım olacaq. Mirzə Kəmaləddin də işimizə şübhəylə baxır, məşhur Təbriz xəttatlarının qələmindən çıxan kitabları gözümün qabağına tutub vərəqləyir, üzümə deməsə də fikrindən keçənləri açıq duyurdum: bu gözəlliyi cansız dəmir yarada bilərmi? Əlbəttə, hələ yarada bilməzdi, amma Əbdül Cəlil Əfəndinin dediyi kimi, gələcəkdə təkcə hərfləri yox, rəsmləri də o qurğuda basmaqla çoxaldacaqdılar.

130. Mən bütün fikrimi-zikrimi təzə başladığım işə verdiyim vaxtda Mirzə Kəmaləddin gəzdiyi karvansaralardan xəbərlər gətirirdi: Təhmasibqulu xan Şah Təhmasibi ram eləyəndən sonra uğanların üstünə gedib; xan abdalı uğanlara qarşı döyüşlərə başlayıb, Səncan, Feyzabad qalalarını ələ keçirib, sonra Herata hücuma keçib, Kafırqalada abdali uğanlarını əzişdirib, amma Əşrəfin Xorosana hücumunu eşidəndə ona qarşı gedib, Mehmandost, sonra da Murçexort döyüşlərində gilzayi uğanlarını da məğlub eləyib; xan zəfərlə İsfahana girib, Səfəvi xanədanının taxtında Şah Təhmasibi oturdub *(bunu Mirzə Kəmaləddin sevindiyindən göz yaşı tökə-tökə söyləyirdi);* deyilənə görə, cavan Şah Təhmasib uğanların yağmaladığı sarayın halını görəndə ağlayıb, hətta bu illər ərzində kəniz paltarı geyib hərəmxanada gizlənmiş doğma anasını belə tanımayıb; Təhmasibqulu xansa Əşrəfi izləyə-izləyə əvvəl Şiraza gedib, o Qəndəhara qaçandan sonra da qorxduğum kumu,

üzünü Osmanlı qoşunlarına sarı çevirib; ardınca İstanbul karvansaralarına yetişən karvanlar, eləcə də Sultan Həzrətlərinə gəlib çatan namələr *(bunu Cəlal Əfəndiylə söhbətlərindən bilirdim)* Toppuz xanın Osmanlı paşalarıyla döyüşlərindən həyəcanlı xəbərlər gətirdilər. Mirzə Kəmaləddin sevincdən dili-dodağı təpiyə-təpiyə, Cəlal Əfəndi kədərlə onun Kermanşahı ələ keçirib Təbrizi təhdid elədiyini, Marağa, Ərdəlan, Urmiyə, Sulduzu Əcəm torpağına çatdığını, Mustafa Paşa Çələbinin, Teymur Paşanın, Fərrux Paşanın, Məmiş Paşanın bir-bir sınıq çıxdıqlarını, axır ki, Təbrizin azad olunduğunu söyləyirdilər. Təbrizdən xəbər gələndə hicri 1143-cü, yəni miladi 1730-cu ilin yayıydı, Mirzə Kəmaləddini sevincdən ağladan, məni həm sevindirib, həm də düşündürən bu xəbərin Osmanlı səltənətində nələr törədəcəyini kimsə ağlına gətirə bilməzdi. Ötən ilin əvvəlində İbrahim Əfəndi və Mehmet Səid Çələbi min nüsxədə basılmış Əl-Cövhərinin "Kitab-i Luğat-i Vankulu" adlı ilk kitabı Sultan Həzrətlərinin hüzuruna aparmışdılar, İbrahim Əfəndi İsfahandan tanıdığım polyak keşiş Kruşinskinin "Tarix-i Səyyah" əlyazmasını hardansa gətirtmişdi, türkcəyə çevirdi, o da basıldı; bunların ardınca "Töhfət-ül Kibar fi Əsfar əl-Bihar", "Tarix-i Hind-i Qərbi", "Tarix-i Timur Gürgan", "Tarix-i Misr-i Qədim ve Misr-i Cədid", "Gülşən-i Hüləfa" kitablarının sevincini yaşadıq, İbrahim Mütəfərrikə hərb sənəti barədə kitabını Sultan Həzrətlərinin hüzuruna aparmağa hazırlaşırdı, üstəlik Xolderman soyadlı bir iezuit rahibə türkcənin yazılış qaydaları barədə kitab tərtib eləmək tapşırılmışdı. Amma…

131. Əvvəl Həmədandakı, sonra Təbrizdəki sərəskərlərin Toppuz xanın qabağından qaçması Saraya çaxnaşma saldı. Bu əndişə dolu xəbərlər yayın ortalarından bəri Üsküdarda yığışan, Sultan Həzrətlərinin gəlib xeyir-duasını verməsini gözləyən qoşunda həyəcan yaratmışdı, deyilənə görə, buna Sədrəzəmin uzun-uzadı yalvarışlarından sonra razı olmuşdu. Sonra eşitdik ki, Sultan Həzrətləri Üsküdara gedib, qılınc qurşayıb, amma qoşunun başında Toppuz xana qarşı getmək istəmir, heç Sədrəzəm də buna meyl göstərmir. Yürüşün təxirə salınacağı şayiələri yayılsa da, hələ Üsküdarda duran, üstəlik, məvaciblərini ala bilməyən yeniçərilər həyəcanlarını boğa bilmirdilər. O payız günlərinin birində eşitdik ki, köhnə əsgərlərdən bəziləri və qoşuna silah-

sursat satan, vergilərin artmasından narazı olan tacirlər qiyama qalxıblar. Sultan Həzrətləri bunu eşidəndə əyan-əşrəfilə Üsküdardakı sarayından Topqapı Sarayına qaçmışdı. Amma sayları hər an artan qiyamçılar Topqapıya gəlib Sədrəzəmi və oğullarından birini, üstəlik, bir çox saray əyanlarını tələb eləmişdilər. Sultan Həzrətləri razı olmayanda sarayın suyunu kəsmişdilər, buna görə Xacəbaşı Hacı Bəşir ağanın məsləhəti və təkidilə Sultan Həzrətləri Sədrəzəmi iki oğluyla birgə edam etdirib, qiyamçılara verməyə məcbur olmuşdu. Cürbəcür adamlardan ibarət dəstənin biçarə Sədrəzəmin və oğullarının cəsədlərini At Meydanından Ox Meydanına doğru necə apardıqlarına özüm şahid oldum. Səhəri gün qiyamçıların dağılmadığını görüb təəccübləndim, Cəlal Əfəndi dedi, indi də Sultan Həzrətlərinin taxtdan düşməsini istəyirlər. O günlərdə Mehmet Səid Əfəndinin atası Çələbi Mehmet Əfəndinin də qiyamçıların qəzəbinə tuş gəldiyini eşidib çox üzüntü keçirdim. İbrahim Mütəfərrikə işimizin bir müddət dayandırıldığını söyləmişdi, belə məqamda evdən çıxmaq da qorxuluydu. Mirzə Kəmaləddin istəyinə çatmış adam kimi, sevindiyindən evdə duruş gətirmir, dilə tutmağıma baxmayıb şəhərdə nələr baş verdiyini öyrənməyə gedirdi. Patron Xəlilin adını da ilk dəfə Cəlal Əfəndidən yox, Mirzə Kəmaləddindən eşitdim, dediyinə görə, on yeddinci Ağa Bölüyündən olan, bir vaxtlar bəhriyyəçilik, Rumelidə yeniçərilik, hətta deyilənə görə hamamçılıq və əsnaflıq eləmiş, İstanbul meyxanalarının daimi müştərisi kimi tanınan bosnalı Xəlil qiyamın başında durub Sultanın devrilməsini istəyir, yanında da Muslu Beşe, Əmir Ali, Ali Usta, Karayılan, Çinar Əhməd, Dərviş Mehmet, Ərzurumlu Mehmet, Qutuçu Xəlil kimi adamlar var. Yeniçərilər üç gün sonra Bəyazid camesinin yanından, Qaşıqçılar qapısı tərəfdən Qapalıçarşıya girib camaatı Sultana qarşı çıxmağa səslədilər, sonra Topqapı sarayına doğru getdilər. Yeniçəri ağalarından Hasan Paşa bir dəstəylə qarşılarını almağa çalışsa da bacara bilmədi. Əlbəttə, bütün bunların arxasında nə dayandığını bilmirdim, mənə görə, hər hansı yeniçərinin Sultanı taxtdan salmaq istəməsi ağlabatan deyildi, şübhəsiz, müəyyən qüvvəyə bel bağlayırdılar.

132. «Təbriz Sultanı taxtdan endirdi», – bu mənim də beynimdən keçmişdi, amma Mirzə Kəmaləddin dilinə gətirdi.

Əlbəttə, beləydi, amma belə məqamda Sultanın və Sədrəzəmin ziyafətlərdən əl çəkməmələri, Davud Paşa sarayının bağında bülbüllərin cəhcəhinə qulaq asıb zövq almaları vəziyyəti qorxunc həddə çatdırmışdı. O günlərin birində eşitdik, Sultan Həzrətləri hərəmxanaya gedib, qardaşı Mustafanın üç oğlunu çıxarıb, əyan-əşrəfə əmr eləyib ki, Mahmudu taxt-tacın varisi kimi tanısınlar. Sədrəzəm Damad İbrahim Paşanın öz yaxınlarıyla gecə boğdurulub səhər nəşlərinin qiyamçılara verilməsi, cəsədlərin küçələrlə sürünməsi, ardınca Mahmudun taxta çıxması, ardınca Nevşehirli Damad İbrahim Paşanın qoyduğu vergilərin bəzilərinin ləğv olunması, deyəsən, Patron Xəlilin adamlarını, ya da onların arxasında duranları təmin eləmirdi, Cəlil Əfəndinin dediyinə görə, artıq gələcəklərindən əmin olmaq üçün Saraydakı uca məqamlara öz adamlarını yerləşdirmək istəyirdilər: o gün Eyyubda yeni Birinci Mahmud taxta çıxıb qılınc qurşayanda Patron Xəlil adi paltarda, ayaqyalın Sultan Həzrətlərinin hüzuruna çıxmışdı. Sən demə, Patron Xəlil hətta, saraya da gedib-gəlməyə başlayıbmış, Validə Sultan onu «ikinci oğlu» sayırmış, üstəlik, sayı bəlli olmayan tərəfdarlarını xəzinənin hesabına yedirib-içirirmiş. Bir vaxtlar dəryalarda üzmüş Patron Xəlil kapitan-dərya olmaq iddiasındaymış. Amma yeniçərilərin qiyamçıları sevməməsi, həm də sərəskərlərdən birinin öldürülməsi Sultan Həzrətlərilə birləşmə zərurəti yaratdı. Cəlal Əfəndinin dediyinə görə, yeni Sultan Babüs-Səadədə biəti qəbul eləyəndən, Eyyubdakı qılınc alayında, caşedə Həzrəti-Peyğəmbərin qılıncını qurşayandan sonra Patron Xəlili və adamlarını məqam almaq adıyla Saraya çağırıb qanlı qırğın düzəldiblər, saray qapısında şad xəbər gözləyən qiyamçılar qapıdan cəsədlər çıxarıldığını görəndə məsələnin nə yerdə olduğunu başa düşüb, qaçıb dağılışıblar; Sultan Həzrətləri qaçan qiyamçıları harda olur olsun, yaxalayıb cəzalandırmaq əmri verib, bir vaxtlar əzazilliyilə Misirdə ad çıxarmış Qabaqulaq İbrahim Paşa bununla məşğul olur, güman ki, Sədrəzəm məqamına elə o da gətiriləcək. Amma arada-bərədə söhbət gəzirdi ki, ingilis kralının elçisi kimi İstanbula gələn lord Montegyü öz ölkəsində gizli bir təşkilat yaradıbmış, adına mason deyirlərmiş, firənglərin və italyanların məskən saldıqları Qalatada türklər də o cür təşkilat qurublarmış, aralarında Çələbizadə Mehmet Səlid Əfəndi, İbra-

him Mütəfərrikə, Qumbaraçı Əhməd Paşa, topxanalı tacir Yusuf Çələbi də varmış, Sultanı da taxtından onlar salmışdılar. Əlbəttə, yeni Sultanın möhkəmlənib üzünü Əcəmə sarı çevirməsi Mirzə Kəmaləddinə heç xoş gəlmirdi, həm də axır vaxtlar Təbrizə dönmək barədə tez-tez söz salırdı.

133. O sıxıntılı günləri İbrahim Əfəndinin kitabxanasındakı İncili, Tövratı oxuyur, sözlükləri, xəritələrilə tanış olur, Katib Çələbinin "Cahannüma", "Mizan-ül-Həqq", Əbül-fidanın "Təqvim-i Buldan", "Əcaib-ül Məxluqat", Gelibolulu Mustafanın Nüsrətnamə"silə tanış olur, günlərimi keçirirdim. Ən çox təəssüfləndiyim də Nədimin tələf olmasıydı: bədbəxt Beşikdaşda yeniçərilərin həmləsi vaxtı damdan-dama atılıb canını qurtarmaq istəyirmiş, müvəffəq olmamış, danların üstünə düşüb Haqqın rəhmətinə qovuşmuşdu. Bilmirəm o vaxt mey içibmişmi, amma qarışıqlıq olduğundan nəşi neçə gün evində qaldı, sonra Üsküdara aparıb Qaracaəhməd məzarlığında torpağa tapşırdıq. Yenicə əmin-amanlıq yaranıb, kitabbasma işimizə qayıtmaq barədə düşünürdük ki, qiyamdan sonrakı ilin Novruz bayramı günlərində şəhər talana verildi: bu dəfə kütlənin arasında indiyəcən görmədiyimiz adamlar – ermənilər, yunanlar, qaraçılar, kürdlər, yəhudilər, Bosnadan, Balkanlardan, Anadoludan gəlmiş müsəlmanlar da gördük. Başıpozuq dəstələr hər şeyi dağıda-dağıda yeniçəri qışlalarına, sonra Saraya doğru getdilər. Amma Sultan Həzrətləri tədbirli tərpənib Peyğəmbər(ə)in bayrağını qaldırdı, şəhər əhlini qarətçilərə qarşı çıxmağa çağırdı. Əlinə keçənlə silahlanıb əcaib dəstənin üstünə gedənlərin zəhmi özünü dərhal göstərdi, talançılar qaçdılar, amma təqibdən yaxa qurtara bilmədilər. O cür daha bir talan da həmin ilin payızında oldu, yenə camaata böyük ziyan dəydi. Bu səbəbdən Sultan Həzrətləri şəhərin limanlarına əsgər qoyub o dəstələrin qabağını almağa çalışdı. Ondan az sonra Saraydan, daha doğrusu, Sədrəzəm Topal Osman Paşadan gələn əmrlə Bonneval Paşanın yanında xidmətə başlamışdım. Limuzenli qraf Klod-Aleksandr dö Bonneval, türklərin dediyi kimi, Qumbaraçı Əhməd Paşa firəng kralının qoşununda qulluq eləmişdi, sonra Savoya şahzadəsinin yanında paşa məqamına çatmış, amma şahzadəylə arası dəyəndən sonra Osmanlıların tərəfinə keçib müsəlman olmuşdu, Topal Osman

Paşanın tövsiyəsilə Osmanlı qoşununu, xüsusən topçu bölüklərini yenidən qurmağa başlamışdı. Deyilənə görə, firəng elçisi markiz dö Vilnöylə Sultan həzrətlərini ruslarla müharibəyə təhrik eləməyə çalışırdı. Mənim vəzifəm onun yazdıqlarını türkcəyə çevirib, Sultan Həzrətlərinə, Sədrəzəmə, çatdırmaq, sərəskərlərə namələr, təlimatlar, buyrultular hazırlamaq idi. Sarışın, göygöz, Osmanlı geyimində bir qədər qəribə görünən Bonneval paşayla iş döşümə yatmasa da, etiraz eləyə bilmədim: Saraya yolumun birdəfəlik bağlanmasından qorxurdum, həm də aldığım məvacib güzəranımıza da bəs eləyirdi, üstəlik, gələcək üçün də fikirləşməyə başlamışdım. Axır vaxtlar mədrəsəni bitirib Təbrizə dönəcəyi günləri hesablayan Mirzə Kəmaləddinin ovqatı mənə də yoluxmağa başlamışdı. Amma *çox vaxt arzularımız istədiyimiz kimi gerçəkləşmir...*

# XX

# XƏYALLARIYLA GÖRƏN SEVGİ

*Naşı adam, xəyallarının ardınca gedə*
*bilmirsənsə, bizdən uzaqlaş!*
*Sən yalnız ələ gələn şeyləri görürsən.*
*Sevən adam sevgisini gözlərilə yox,*
*xəyallarıyla görür.*

*Mövlana Cəlaləddin RUMİ,*
*«Məsnəvi», (XIII yüzil)*

134. Çox sıxıntılı keçən İstanbul həyatımın son üç ilindən sizə nələri danışım? Hərbə nifrətim üzündən Bonneval Paşanın yanında könlümə yatmayan işlə günlərimi keçirib təzədən ümidsizlik girdabına yuvarlandığımdanmı, ağır günlərimdə təpər verib, qolumdan tutub, təzədən Sarayın qapılarını önümdə açan Cəlal Əfəndinin qəfil qərarla Manisaya qayıdıb könlümü pəjmürdə eləməsindənmi, Başnəqqaş Əbdül Cəlil Əfəndinin günlərin birində Haqq dünyasına köçüb məni bu şəhərdə kimsəsiz qoymasındanmı, Mirzə Kəmaləddinin xəstələnib, az qala, vərəmə tutulmasındanmı, özümün Xalicdə pərişan dolaşdığım günlərin birində qəfil qasırğayla dəryaya sürüklənib ölümlə pəncələşdiyimdənmi, qiyamçı ovunda bəhsə-bəhsə çalışanların məni də Patron Xəlilin adamı sayıb Qabaqulaq İbrahim Paşaya təslim eləməsindən, o yanlışlıqdan canımı güclə qurtardığımdanmı, günlərin birində Üsküdarda sədəqə diləyən, qoca qarıdan seçilməyən Məryəmə rast gəlib dünyanın ötüb-keçəriliyinə bir daha inandığımdanmı? Yenə karvansaraları dolaşan Mirzə Kəmaləddin Əcəm məmləkətindən xəbərlər gətirirdi: Təbriz alınandan sonra Təhmasibqulu xan Herata üz çevirmişdi, Şahsa öz gücünü göstərmək üçün onun Təbrizi tapşırdığı urmiyalı həmtayfası Bisütun xan Əfşarı məqamından götürüb yerinə öz adamını oturtmuş, sonra da İrəvana qoşun çəkmişdi. Təhmasibqulu xan da kürd qızının əhvalatından sonra

cavan şahın öz xilaskarının üzünə ağ olub aradan götürmək istəməsindən, bir sözlə, «öküz öldü, ortaqlıq bitdi» ağlıyla hərəkət eləməsindən təngə gəlib altı ildən bəri taxtda saxladığı Təhmasib Mirzəni içirdib payimal eləmiş, yerinə yeddiaylıq Abbas Mirzəni oturtmuşdu. Mirzə Kəmaləddin Vəlinemət, Vəkil-üd-dövlə, Naib-üs-səltənə məqamına ucalmış Nadir xanın *«...onun əzəl çağdan dünyaya ağalıq etmək lütfünə və məmləkəti idarə etməyə, yəni mülk ilə millətin intizamına bais, ölkə, din, dövlət işlərində Üçüncü Şah Abbas Varis (Allah onun ömrünü bəd hadisələrdən qorusun) olması təqdim edilmişdir» (bunu Əcəm ölkəsinə yayılan, dilə tutub marağalı tacirdən aldığı buyrultunun bir nüsxəsindən oxuyurdu).* Vəlinemət Bağdadın mühasirəsində olanda əvvəl ağır məğlubiyyətlə özləşib, sonra Topal Osman Paşanı öldürüb nəşini gümüşlə bəzədilmiş şümşad tabutda İstanbula göndərəndə, fars qiyamını yatırdıb Azərbaycana üz tutanda Mirzə Kəmaləddin daha tab gətirə bilmədi. Elə mən də qəti qərarımı verdim: *dünyanı bunca dolaşdım, barı Tiflisdə ölüm...*

135. Hicri 1148-ci, miladi 1135-ci ilin yazı girər-girməz İstanbulla vidalaşanda nə kədərlənir, nə də sevinirdim, içimdə köhnə yara kimi göynəyən zoqqultulu bir hiss vardı: az qala, ömrümün iyirmi ilini keçirdiyim bu bənzərsiz şəhərdə yaşadıqlarımı yerli-yataqlı qələmə alsam, sanballı kitab alınardı. Hər halda o illərimdən Kitabdar Mühiddin Əfəndini, Cəlal Əfəndini, Əbdül Cəlil Əfəndini, İbrahim Mütəfərrikəni, Mehmet Səid Əfəndini, Unqapanı tərəfdə könül rahatlığı tapdığım *(bu barədə artıq bir şey söyləmək istəmirəm)* ikigözlü taxta evi, Süleymaniyyə camesinin alt yanındakı evimizin kölgəli həyətindən Xalicin mənzərələrini unutmayacağam. Bonneval Paşanın xidmətindən çıxmağım o qədər də asan olmadı, firəng dilini bilən bir kəs tapanacan gözləyib işimə davam eləməli oldum. Atası sürgünə göndəriləndən sonra sıxıntılı günlər keçirsə də, məndən ötrü Saraydakı adamlarına ağız açıb yeni Sədrəzəm Əbdül Kərim Əfəndinin mərhəməti sayəsində *«səyyah, salnaməçi, MİrzəYusif Tiflisinin Osmanlı torpaqlarından himayə altında keçib öz məmləkətinə getməsi»* üçün Sultan Həzrətlərinin tuğralı buyrultusunu aldı. Elmə, rəsmə, şeriyyətə çox diqqət yetirən, özü də Səbqati təxəllüsüylə şeirlər qələmə alan Sultan Həzrətləri *«məmləkətin şan-şövkətini Dövləti-Aliyə layiq*

*yazmağımı»* arzu eləyib qələm haqqı da göndərmişdi, o qədər ağçaya rahatca gedib Tiflisə çatmaq, bir müddət də qayğısız yaşamaq olardı. Bu xəyallar şəhərilə əbədi vidalaşacağımızdan Mirzə Kəmaləddinlə son həftələr pay-piyada küçələri dolaşır, gördüyümüz hər şeyi gözümüzə, könlümüzə yığmağa çalışırdıq. Yükümüz hərəmizin kitablarımızı, yazı dəstimizi, əlyazmalarımızı, dəyişəcəyimizi yığdığımız iki cüt sandıqdan, Səfərin bağlamasından, bir də qəlbimizdə, yaddaşımızda apardıqlarımızdan ibarət idi. Qayıqçı Xalicin o biri yanına keçirəndə əlimi dəryanın masmavi suyuna salıb, yanaqlarıma, alnıma çəkdim, dodaqlarıma vurdum ki, qoxusunu, dadını unutmayım. Sonra get-gedə uzaqlaşan Saraya, qalalara, qüllələrlə, camelərə, imarətlərə, iskələlərə baxdım, nə qədər özümü tox saxlasam da, istər-istəməz qəhərdən boğazım tutuldu.

136. Xalicin bu tayında quzey yolunun yaz yağışları səbəbindən çətin olacağını, buna görə də Bağdad səmtinə gedib Aksaraydan Ərzincana yönəlməyi daha düzgün hesab elədiyimə Mirzə Kəmaləddini inandırmağa çalışanda Şəms Təbrizi-Mövlana eşqi başımdaydımı – bunu deyə bilmərəm. Amma iki at, üç qatır alıb Bağdada üz tutan karvana qoşulanda qəlbimdə özümün də baş aça bilmədiyim duyğular vardı – bu indiki kimi yadımdadı. Əlbəttə, səkkiz ayacan sürən o yolçuluğun təfərrüatlarını söyləsəm, çox uzun sürər, bununla belə, bir həftədən sonra İstanbul qapısından İznikə girib qədim qala divarlarına heyran-heyran baxmağım, Yaşıl camenin əzəmətinə, İznik çinilərinin kitab rəsmləri kimi şahanə gözəlliyinə tamaşa eləməyim xatirimdən silinməyib. Beş gün sonra bir vaxtlar Osmanlı sultanlarının iqamətgahı olan möhtəşəm Bursada İldırım Bəyazid camesini, Yaşıl cameni, Yaşıl türbəni, Ulu cameni, Orxan Qazi camesini, Alaəddin camesini, Muradiyyə camesini, Qapalıçarşını, Topxana saat qülləsini dolaşdığımı, gördüklərimi gecələr Əmir xan karvansarasının hücrəsində kağıza köçürməyimi necə unuda bilərəm? Mirzə Kəmaləddin bu möhtəşəmliyi Təbrizin, Ərdəbilin, Qəzvinin, Nəqşivanın tikililərilə müqayisə eləyib özü üçün bəzi nəticələrə gəlir, susmağa üstünlük verirdi. Əlbəttə, illərin yorğunluğu, Mirzə Kəmaləddinin külfət nisgili, gündən-günə artan Tiflis həsrətim olmasaydı, Bursadan güneyə doğru yönələr,

dəryalar boyu səpələnmiş Osmanlı şəhərlərini bir-bir gəzərdim. Hər şəhərdə üç-beş gün, uzaqbaşı, bir həftə qalmaq, olanların mində birini görüb-duymağa bəs eləmirdi. Kütahyanın, Afyonun, Akşehirin hər daşı tarixdən xəbər verən yerlərini, Anadolu çöllərinin, yaylalarının, vadilərinin, irmaqlarının dondan-dona girən gözəlliyini beş-üç kəlməylə necə təsvir eləyim? Yolüstü kiçik karvansaralarda, müsafirxanalarda qarşılaşdığım adamları, vaqiələri, başa çatmaqda olan ömrümün qüssə dolu ağrılarını necə kağıza köçürüm?

137. Amma İstanbula ötən gəlişimdə Kitabdar Mühiddin Əfəndinin toz, kağız, mürəkkəb, rəng, dəri qoxusu gələn hücrəsində Şəms Təbrizi barədə eşitdiklərimi, Mövlanadan oxuduqlarımı illərlə yaddaşımda gəzdirmişdim, indi Konyanın yolumun üstünə çıxmasını xəyali sevgim müqabilində Allahın lütfü sayırdım. Hələ uzaqdan təpə üzərindəki Alaəddin camesinin minarəsini görəndə hisslərin bolluğundan nəfəsim tıncıxdı, az qaldım, atımı dəhmərləyib özümü şəhərə hamıdan qabaq yetirim. İstanbuldakı sıxıntılı günlərimizdə Mirzə Kəmaləddinlə Şəms və Mövlana barədə çox söhbətlər eləmişdik, xorasanlı Molla Cəlaləddini Mövlana mərtəbəsinə qaldıranın təbrizli Şəms olması könül sirdaşımın izzəti-nəfsini oxşayırdı. Mirzə Kəmaləddinin fikrincə dərviş Şəmsəddin Məhəmməd Təbrizi aləmi dolaşa-dolaşa günlərin birində Şamdan Konyaya gəlib çıxmasaydı, bir karvansara qapısında üzündən nur yağan fəqihdən: *«De görüm, Allahın bəndələrindən kim böyükdü – Məhəmməd Peyğəmbər, yoxsa Bəyazid Bistami?»* soruşub həyatını alt-üst eləməsəydi, bəlxli Cəlaləddin Rumi Mövlana məqamına ucala bilməzdi. Sonra sevgisinin böyüklüyündən nəfəsi darala-darala «Divani-Şəms»dən hekayətlər oxuyurdu. Əlbəttə, buna etiraz eləmək fikrində deyildim, özümü Mövlananın bilicisi saymırdım, amma Mövlananın sevgisini anlayırdım. Mirzə Kəmaləddin onun *«Ey möminlər, özümü insanların arasında itirmişəm. Mən nə xaçpərəstəm, nə müsəlman, nə yəhudiyəm, nə bütpərəst»* deməsini sinirə bilmirdi, bunu dinsizlik, Allaha asilik adlandırırdı, amma şeriyyətindəki gözəlliyi, gizli mənaları, hikməti etiraf eləyirdi – mənə görə Mövlananın gücü də bundaydı. Kitabdar Mühiddin Əfəndinin dediyinə görə, Əbdürrəhman Cami «Məsnəviyi-mənəvi»ni "farsca yazılmış Qu-

ran" adlandırmışdı, Mirzə Kəmaləddinə bunu söyləmədim ki, Mövlanadan daha da uzaqlaşmasın. Şəms deyirdi, Eşq Yolunun ilk dayanacağı xəlvətlə haldaş olmaqdı, mən də ömrümün, azı, qırx ilini xəlvətlə haldaş olmuşdum, indi niyyətim Eşqə doğru getmək idi...

138. Konyada Bağdad karvanından ayrılıb üzü quzeyə-günçıxana getməliydik, həm də bu şəhərdə bir neçə gün yox, bir neçə həftə qalmaq fikrindəydim *(hələ niyyətimi Mirzə Kəmaləddinə söyləməmişdim),* ona görə də köçümüzü Böyük Karatay mədrəsəsi tərəfdəki karvansarada saldıq. Amma nagahan bir qüvvə məni Mövlanaya dərhal yaxınlaşmağa qoymadı. Həftəboyu Konyanın küçələrini dolaşdım, bəzən Mirzə Kəmaləddinlə, bəzən də onsuz mədrəsələrə, camelərə, köşklərə tamaşa elədim. Alaəddin camesinin çinili mehrabının gözəlliyindən kövrələndə də, Karatay mədrəsəsinin daş oymalı girişinin önündə uzun-uzadı duranda da, İncə minarəli mədrəsənin naxışlarına baxanda da, Qılınc Arslan köşkünün dörd dayaq üzərində duran girdə qübbəsini seyr eləyəndə də fikrim-zikrim yaşıl çinili qübbənin yanındaydı. Əlbəttə, Mirzə Kəmaləddin də bu şəhərdə Şəmsin izini axtarırdı. Bizə Şəmsin öldürülüb atıldığı quyunu gösrərdilər, ruhuna tikilmiş came və türbəni göstərdilər, öldürülmədiyini, gizlicə məmləkətinə qayıtdığını, bir müddət Xoyda yaşayıb Təbrizdə dünyadan köçdüyünü danışdılar. Günlərin birində özümü tarazlayıb Mövlananın türbəsinə gedəndə könlümdən nələr keçdiyini indi təsvir eləyə bilmərəm. Amma divarlarına qızıl süsləməli kəlamlar yazılmış hücrəyə girib tavan altındakı pəncərədən düşən gün işığında üzərinə yaşıl örtük çəkilib baş tərəfinə yaşıl çalma qoyulmuş sənduqəni görəndə, elə bil, aydınlandım, könlüm sevgiylə doldu, Allaha daha da yaxın oldum. O məqamda Mövlananın kəlamını xatırlamışdım: *«Mən bu aləmə gəlməmişdən də vardım. Mən nə aşağıda, nə yuxarıdayam, Aləm məndən aydınlandı. Adəm məndən təsvir olundu... Bu dünya da mənəm, o dünya da. İnsan da mənəm, çin də, Dağ da mənəm, səhra da. Sən məni eşqin şəlalələrində gör, mən eşq dilində söylənirəm».* Mən o mərtəbəyə ucala bilməmişdim, eşq dilində söylənmirdim, bu nə taleyimdə vardı, nə özümdə tab tapıb cəhd eləmişdim. İtirdiklərimi itirib ömür karvanını son mənzilə aparırdım, bu dünyada do-

ğulduğum məmləkətə yetişmək, Allah möhlət verərsə, görüb-bildiklərimi kağıza köçürüb könlümün təlatümünü az da olsa, sakitləşdirməkdi.

139. Ərzuruma gedəcək karvanı gözləyə-gözləyə Konyada bir ayacan qalmalı olduq. O bir ayda səmaxanalara da getdim, dərvişlərin vəcd içində ilahi rəqslərinə də baxdım, Şəms və Mövlana mərtəbəsini dərk eləməyə də çalışdım. Yay günlərinin birində yola düzəlib Aksarayda Hasan dağının qoşa zirvələrinə, Duz gölünə tamaşa eləyib, əyri minarəli Qızıl Minarə camesini, Ulu cameni, Zənciriyyə mədrəsəsini gördüm, bir həftə sonra gözlərimin qabağında Nevşehirin ağlı yerindən oynadan qayalar şəhəri peyda oldu. Camaatın "pəri bacaları" dedikləri o cürbəcür biçimli qayalarda oyulmuş yeraltı şəhəri, Roma və Bizans dönəmindən qalma məbədləri görmək Mirzə Kəmaləddini də çaşdırmışdı. Görəmədə qaldığımız bir həftə ərzində qıçımı qatlayıb oturmadım, Qızlar monastırını, Almalı, Tokalı, Qaranlıq, İlanlı kilsələri, keşiş hücrələrini gəzdim, o məqamda keçirdiyim duyğuları indi də unuda bilmirəm. Mirzə Kəmaləddin Əcəmdə də belə qaya-şəhərin olduğunu söyləyirdi, amma gördüyünün müqabilində onun kiçikliyini də əlavə eləməyi unutmadı. Qaldığımız karvansara da o "pəri bacaları"nın birindəydi, Anadolunun beyin qaynadan yay bürküsündə daş hücrənin sərinliyi adamın sümüklərinə işləyirdi, hətta gecələr üşüdüyümdən büzüşüb yumağa dönürdüm. Bütün bunları savaşlar, yürüşlər, torpaqlar qəsb eləmək ehtirası yaratmışdı, Mirzə Kəmaləddinlə bu məsələdə fikrimiz üst-üstə düşürdü. Elə bil, sehrli çubuqla birdən-birə min illər geri qayıtmış, nə vaxtdan bəri Əcəm torpaqlarında gedən savaşlardan, qiyamlardan, xəyanətlərdən qaçıb yerin altına sığınmışdıq. Göz işlədikcə uzanıb gedən vadidəki heyrətamiz daş heykəllərə baxdıqca insanın qüdrətinə mat qalmaya bilmirdim, gördüyüm saraylardan, qalalardan, qüllələrdən, camelərdən, körpülərdən... sonra "pəri bacaları" mənə xəyal kimi gəlirdi.

140. Qeysəriyyədə üç, ya dörd gün qalıb Qiyasiyyə və Şəfahiyyə mədrəsələrini, Vəzir xan və Badəstan çarşılarını, Gürgünoğlu müsafirxanasını, Mahpəri Xatun külliyyəsini, Cahan Xatun türbəsini gəzib-gördüyümüz yadımdadı, Sivasda Göy mədrəsəyə,

Cütminarəli mədrəsəyə, Buruciyyə mədrəsələrinə getdiyimizi xatırlayıram. Mirzə Kəmaləddinin könlündən Hacı Bəktaş Vəlinin məzarını ziyarət eləmək, Qırxların cəmini görmək keçirdi, amma bu minvalla yolumuz çox uzanardı, ona görə də qismətlə razılaşdı. Sonra Ərzincana, ordan da Ərzruma ağır yolçuluğumuzun təfərrüatlarını bütöv bir kitaba sığışdırmaq mümkün deyil. Biz Ərzincandan Ərzuruma doğru yola çıxanda payızın ilk ayı girmişdi, tez-tez yağan yağışlardan yollar keçilməz olur, günlərlə rastımıza çıxan karvansarada, ya da müsafirxanada havanın açılmasını gözləyirdik. Mən heç, yollarda bərkimişdim, sinim altmışı ötsə də, dözümlüydüm, qatırçı Səfər də elə bil qara gün üçün doğulmuşdu, Mirzə Kəmaləddinsə yolun çətinliyinə tab gətirə bilmirdi, bu səbəbdən bəzən karvandan geri qalır, sonra tələsə-tələsə yetişməyə çalışırdıq. Ərzuruma yaxınlaşanda işimiz daha da çətinləşmişdi: hələ payız olsa da, qar havası özünü bildirirdi, bu da azmış kimi, Palantökəndən o tərəfə əməlli-başlı çovğuna düşdük. Atımın qabaq ayağının çuxura düşdüyü, yıxılıb enişə yumalandığım, Allahın möcüzəsi sayəsində rastıma çıxan göyəm kolundan yapışıb ölümdən qurtulduğum bugünkü kimi yadımdadı. Onda Mirzə Kəmaləddinin məni ölmüş bilib qiyyə çəkdiyi, dizlərinə döyüb ağladığı, sınan, yolüstü müsafirxanaların birində güc-bəlayla tapdığımız türkəçarəçinin təpitmə qoyub sarıdığı qabırğamın Rəvana yetişənəcən əziyyət verdiyi də ömrümün son gününədək yaddaşımdan silinməyəcək.

*Az qala, əlli ildə keçdiyim yolları fikrimdə əriş-arğac elədikcə qismətimə düşən sərgərdanlığın, axır ki, sona yetdiyini düşünüb az da olsa, təsəlli tapırdım.*

*Onda hardan biləydim ki, uğruma taleyimi bir daha dəyişdirən kimsə çıxacaq.*

*Hardasa eşitmişdim: ömür o qədər qısadı ki, təəssüflənməyin bir mənası yoxdu; ona görə də sənə yaxşı münasibət bəsləyənləri sev, səhv eləyənləri bağışla, təsadüfən baş verənlərə də inan...*

# İKİNCİ KİTAB

## MUĞAN ÇÖLÜNÜN YOVŞANI

*İstərəm ki, el yanında o şahın cəlalı artsın,*
*Nə qədər paxıl, rəzil var –*
*özü-öz qanında batsın.*

*Qətran TƏBRİZİ*
*(XV yüzil)*



I

# YOLLARIN YARASI VƏ YARALILARI

*Sürüb dəvələrini mənim*
*yurduma çatsan,*
*Dostlarıma, unutma, məndən*
*yetir bir salam.*

*Ömər GƏNCİ*
*(XI yüzil)*

141. Səkkiz ay sürən yolçuluğumda bəzi-bəzi mətləblər barədə uzun-uzadı düşünməyə, müəyyən nəticələrə gəlməyə yetərincə vaxtım oldu. Fikirləşdim ki, nə Strabon, Pitolomey, Ət-Təbəri, Yaqut əl-Həməvi, Övliya, Çələbi, Can Şardenəm ki, getdiyim hər şəhərdə arın-arxayın aylarla yaşayım, iqlimindən, təbiətindən, tikililərindən yazım, nə də Fəzlullah Rəşidəddin, İskəndər Münşi, lap elə Mirzə Mehdi Astarabadiyəm ki, zamanın tarixini yazmağa girişim. Mən qansız adamların taleyini dəyişdirdiyi, qismətin yola çıxardığı, alın yazısının məmləkətlər dolaşdırdığı kimsəydim, könlümün yox, ağlımın apardığı yerlərə getmiş, təsadüfün uğruma çıxardığı adamlarla görüşmüş, məsləhət bildiklərimi qələmə almışdım, indi Peyğəmbər yaşına çataçatda yollardan yorulduğumu dərk eləyib öz məmləkətimə gedirdim ki, ömrümü xatirələrimlə baş-başa sona yetirim. Öz taleyini seçən, yönləndirən kəslərə qibtə eləyirdim, belələri həyatdan nə istədiklərini bilirdilər. Elə Qəzvin sarayındakı Mirzə Mömin kimi. Mənə açıq-aşkar söyləmişdi ki, arzusu şah fərmanları yazmaq, şahın yanında olmaqdı. Mirzə Kəmaləddinin Əcəm diyarından gələn tacirlərdən aldığı xəbərlər sayəsində xəbər tutmuşdum ki, Vəlinemətə sığınıb, bir də gördün, istəyi yerinə yetib, dünyanın işini nə bilmək olar. Mirzə Mehdi heç, tutaq ki, Fətəli xan Qacar öldürüləndən sonra Təhmasibqulu xana sığınmaqdan başqa yolu yox idi, onun Vəlinemət, Naib-üs-səltənə, Vəkil-üd-dövlə

olacağını heç ağlına gətirməzdi. Mirzə Kəmaləddinin karvansaralardan, müsafirxanalardan, çarşılardan gətirdiyi xəbərlərdən onu da öyrənmişdim ki, Vəlinemətin fərmanlarını, buyrultularını indi Mirzə Mehdi yazır, buna səmimi-qəlbdən sevinmişdim, çünki onun ağlına, mərifətinə, əxlaqına İsfahandakı o ağır günlərimizdə bələd olmuşdum, məmləkəti qurtarmaq istəyən adamın yanında onun kimi kəslərin çalışması gərəkdi. Zənnim aldatmırsa, Mirzə Mehdi baş verən, şahidi olduğu vaqiələri də qələmə alacaqdı, bunsuz ötüşə bilməzdi, söz-söhbətindən anlamışdım. Mənim qələmə aldıqlarım bir qədər başqa cürdü, tarix yazmaq iddiasından uzaqdı, olsa-olsa, sanballı tarix yazılmasına kömək göstərə bilər.

142. Mövlananın bir hekayəti var, yazır ki, *quş bir soxulcan tapıb dimdiyinə aldı. Pişiksə kirimişcə quşu pusurdu. Quş bu fani dünyada yedi də, yeyildi də…* Sən demə, dünyada yeyənlə yeyilənin elə bir fərqi yoxmuş. Yaşadığım ömrümdə bu hikməti görmüşdüm. Məzlumların başına oyun açan Şah Sultan Hüseynin oğlu yaşında uşağın qabağında sındığını, şahı sındıran Mir Mahmudun ömrünü şərəfsizliklə başa vurduğunu, Əşrəf Sultanın da eləcə həyatla vidalaşdığını, Şah Təhmasibin dustaq kimi saray künclərində saxlandığını, şan-şöhrəti Sultandan artıq olan Sədrəzəm Nevşehirli Damad İbrahim Paşanın boynunun vurulduğunu, Sultan Həzrətlərinin ayaqyalın bir soysuz qarşısında titrədiyini, özünü Sultan mərtəbəsində görən həmin soysuzun da it kimi gəbərdildiyini, Sədrəzəm Topal Osmanın Kərkük çölündə başından olduğunu bilirdim. Bu cür vaqiələr bundan sonra da baş verəcəkdi. Əgər o kəslərin qüdrəti vardısa, alın yazısı deyilən hikməti istədikləri kimi dəyişdirə, yazılanı poza, qaçılmazlıqdan qaçardılar. Mirzə Kəmaləddin məmləkətinin xilasından sevinsə də artıq Təhmasib Mirzənin yeddiaylıq oğlunun taxta çıxarılmasını Səfəvi xanədanının sonu sayırdı, taxt-tac şirin şeydi, deyirdi, çətin ki, bundan sonra Nadirqulu şah olmaq istəyindən əl çəksin. Danışıb yaralarının gözünü qopartmasam da, Saraydan eşitdiklərimdən, özünün gətirdiyi xəbərlərdən belə qənaətə gəlmişdim ki, həmin məqamda Təhmasibqulu xanın başqa çıxış yolu yox idi: Şah Təhmasibin ondan xəbərsiz Osmanlılarla, üstəlik, ruslarla əhdnamə bağlayıb, Əcəm torpaqlarından könüllü

əl çəkməsilə razılaşa bilməzdi. Hətta deyilənə görə, Bağdadın mühasirəsi vaxtı Topal Osmanı diz çökdürəcəyini güman eləyib Təhmasib Mirzəni taxta qaytarmaq fikrinə düşübmüş, yəqin məmləkətin günbatanında Səfəvi xanədanına sədaqəti görübmüş, amma öz əlilə taxtda oturtduğu Şahın qabiliyyətsiz hərəkətləri üzündən məğlubiyyət acısını dadandan sonra fikrindən daşınıb; əlbəttə, hakimi-mütləq olan bir adamın taxt-tacdan uzaq durması ağlasığmaz olardı.

143. Mövlananın yeyənlə yeyilən arasında fərqin olmaması barədə hikmətini Ərzincan-Ərzurum yolunda, Ərzurum karvansarasında yaralı Osmanlı əsgərlərilə rastlaşanda xatırlamışdım. Döyüş meydanlarında öldürülüb torpağa gömülənlər, aldıqları yaralardan yollarda canını tapşırıb adsız məzarlara çevrilənlər, öz ocaqlarına şikəst qayıdanlar mənim nəzərimdə yeyilənlər idilər, amma yeyənlər də bir vaxt yeyilənlərə çevirəcəkdilər, buna şəkk-şübhəm yoxudu. Atların, qatırların belində, arabalarda, yol qıraqlarında, karvansara heyətlərində gördüyüm o məhzun, ruhsuz üzlərə baxanda öz dərdim, ağrım yadımdan çıxır, qəhr olurdum. Söhbətə girişdiyim adamların söylədiklərindən belə məlum olurdu ki, Gəncənin mühasirəsi uzandığından Vəlinemətin qoşunları Qarsa doğru gedib Abdulla paşanı sınıq salmağa çalışıb, amma sonra Rəvana doğru geri çəkilib Osmanlı qoşunlarını orda qarşılayıblar, qələbə qazanmaq bir yana, Ağabəy Qaraçorlu Abdulla Paşanın başını kəsib Vəlinemətin ayaqları altına atıb, amma Vəlinemət onun cəsədinin payimal olunmasına izin verməyib, Topal Osman Paşa kimi, onun da tabutunu ehtiramla İstanbula yola salıb. Abdulla Paşanın cənazəsinə yolda rastlaşmamışdıq, amma Ərzuruma çatanda bir dəstəylə rastlaşdıq, deyilənə görə, Sultan Həzrətlərinin kürəkəni, Diyarbəkr valisi Sultan Mustafa Paşanın nəşini gətirirdilər. Rəvan qalasından Həsən Paşanın göndərdiyi otuz-qırx nəfərlik dəstə top arabasındakı cənazəni dövrələyib ağır-ağır irəliləyirdi, elə bil, Ərzurumun qarlı-çiskinli havasında əllə tutulacaq kədər topası gedirdi. Həmin məqamda Mirzə Kəmaləddinin də kövrəlib dərindən ah çəkdiyi (*görünür, mədrəsə illəri onun müəyyən məsələlərə baxışını dəyişmişdi, eyni kökə, eyni dilə, eyni dinə mənsub olan iki məmləkətin torpaq davasını həzm eləyə bilmirdi)* qabırğamın zoqqultusunun ərşə qalxdığı yadımdadı.

144. Ərzurumda Osmanlı qoşunlarının Gəncədən, sonra da Rəvandan çıxması barədə xəbər tutduq, bunu Qarsa çatanda get-gedə sayı artan dəstələrdən də yəqin eləmək olurdu. Qarlı-palçıqlı Qars-Rəvan yolu geri çəkilən Osmanlı əsgərlərilə dolu olduğundan bir neçə həftəni Qarsda keçirməli olduq. Qışın soyuğu bir yana, könlümün soyuğu məni əldən salmışdı, heç Mirzə Kəmaləddinin halı da ürəkaçan deyildi. O sıxıntılı günlərdə dindirməsən dinməyən, cəfakeş Səfərin qayğısını hiss eləməsəydik, şübhəsiz, ikimiz üçün də çox çətin olardı. Səfərin də öz dərdləri vardı, Mirzə Kəmaləddin ucundan-qulağından danışmışdı: ocağı dağılandan sonra başını götürüb Təbrizə qaçdığını, Allahın mərhəmətindən Mirzə Kəmaləddin kimi insaflı bəndəyə rast gəldiyini, o vaxtdan sədaqətlə qulluq elədiyini bilirdim. O sədaqətini yolçuluğumuzda da, İstanbulda yaşadığımız müddətdə də göstərmişdi, amma Qarsdakı bir neçə həftədə bizdən ötrü Allahın göndərdiyi mələyə çevrilmişdi, səsini çıxarmadan, şikayətlənmədən, yorulub-usanmadan qulluğumuzda dururdu. Bir neçə dəfə qəsdləndim ki, könlünə yol tapım, ömrünün hekayətini dinləyim, amma ipucu vermədi, ağam, söyləsəm, ovqatınız təlx olar, dedi, hərənin dərdi özünə bəsdi. Yəqin, məndən ayrılandan sonra Mirzə Kəmaləddin Ərdəbilə gedəcək, günlərin birində yurd nisgilinə tab gətirməyib Qəzvinə üz tutacaq, itkilərinin xarabalığından nələrisə tapıb üzə çıxarmağa çalışacaqdı. Ondan ötrü keçdiyi yollar da, az qala, doqquz il yaşadığı İstanbul da görüb-götürmək yox, dərdlərini ovutmaq məkanıydı. Mənə görə Mirzə Kəmaləddin Səfərə, mən də hər ikisinə rast gəldiyimizə görə taleyimizdən razı qalmalıydıq. Əlbəttə, onları bilmirəm, məndən ötrü ayrılıq heç də asan olmayacaqdı, onsuz da içində olduğum tənhalıq girdabında daha da tənhalaşacaqdım.

145. O, günlərin birində Mirzə Kəmaləddinlə şiə-sünni məsələsilə bağlı uzun-uzadı söhbətlər elədik. İstanbulda, yollarda bu barədə çox danışmışdıq. Səfəvi məmləkətində Birinci Şah İsmayılın, Osmanlıda Sultan Səlimin bu xüsusda nə qədər qanlar axıtdıqlarını bilirdim, Təbrizdə, Anadoluda baş verənlərdən xəbərim vardı, Çaldıran faciəsinə bələd idim. Yadımdadı mən onda Osmanlı-Əcəm münasibətlərini bu zəmindən uzaqlaşdırma-

ğın vacibliyini söyləyib, Birinci Şah Təhmasibin fərmanlarındakı *«Əli ilə əlaqəsi yaxşı olmayan hər hansı adamı, kim olursa-olsun, sevmirəm, hər kəs onun qarşısında torpaq kimi deyilsə, məleykə olsa belə, başına torpaq ələnsin»* haşiyəsini xatırlatdım, o da sultanların fərmanıyla Əcəm torpaqlarında sünni camiləri tikilməsindən danışdı, nə qədər xoşniyyətli olsaq da, yenə ortaq fikrə gələ bilmədik. Axır ki, yollar bir az seyrəlib Qarsdan Nəqşivana, ordan Rəvana gedəndə arabir həmin söhbətin üstünə qayıdırdıq, belə görürdüm ki, o zəmin tapılmasa, Osmanlıyla Əcəmin çəkişməsi bitib-tükənməyəcək. Nəqşivanda get-gedə söhbətlərimizin mövzusu, ovqatı dəyişməyə başladı. Bu, yəqin, onillik ayrılıqdan sonra Mirzə Kəmaləddinin doğmalarına qovuşacağı, mənim Tiflislə bağlı duyğularımın az qala, əlli illik Zaman tozu altından zərrə-zərrə üzə çıxmasıyla bağlıydı. İstanbulda könlümdə bu cür çırpıntı hiss eləməmişdim, indi ömür-möhlətin azaldığını duyub, butasına yetən cavan kimi əməlli-başlı həyəcanlanırdım. Uzaqlardan gələn, içimi göynədən həsrətlə dolu maniyə *(Bahçe kapısı kilitli, /İtirdim açamadım. /Anneme duyurmuşlar, /Çıktım da kaçamadım.)* qulaq asa-asa susanda beynimdən Həzrəti Peyğəmbərimizin hədislərindən biri keçdi: *"Aza şükür eləməyən, çoxa da şükür eləməz; insanlara təşəkkür eləməyən, Allaha da şükür eləməz; Allahın nemətlərini dilə gətirmək şükürdür, unutmaqsa nankorluqdu".* Allahıma şükür elədim ki, hələ sağ-salamatam, Allah məsləhət bilsə, yaxın müddətdə yurduma-yuvama qovuşacağam.

146. Sultanın fərmanı qoynumda İstanbuldan Bursaya, ordan Konyaya, Ərzuruma, Nəqşivana, nəhayət, İrəvana gəlib çatmağım təxminən səkkiz ay çəkmişdi. Üzü qışa getdiyindən niyyətim Novruz bayramınacan İrəvanda qalmaq, Vilayətin tarixini öyrənmək, əlim çatan yerlərini gəzib-görmək, sonra Gümrü, Dumanıs, Qarayazıdan keçib Tiflisə yetişməkdi. Az qala, əlli il qabaq, on dörd yaşında çıxdığım şəhəri, əlbəttə ki, çox dumanlı xatırlayırdım, yaddaşımın künc-bucağından şəhəri yarı bölən çay, axarının sağ yaxasındakı Narınqalanın möhtəşəm divarları, çayın qala tərəfindəsə Şah Abbas məscidi, bazar meydanından yüz addım yuxarıdakı evimiz, doğmaların, tanışların ötən müddət ərzində, az qala, tamam pozulan cizgiləri arabir baş qaldırırdı, onda canımın hövlündən durub-dincələ bilmirdim. Bir də Zü-

leyxanın ondördgecəlik ay misalı üzünü xatırlayırdım. Osmanlı-qızılbaş davalarında tələf olmayıbsa, indi yəqin, nəvəli-nəticəli ahıl qadındı. Yolda olduğumuz müddətdə eşitdiklərimizin, gördüklərimizin yeni-yeni təfərrüatlarından xəbər tuturduq: Vəlinemət Gəncəni, İrəvanı, Qarsı mühasirəyə alıb sultanın qoşunlarını Ağtəpədə sınıq salmış, Abdulla Paşa Körpülünü, Damad Mustafa Paşanı öldürmüş, bir neçə min əsir götürmüşdü. Danışırdılar ki, Sultan qəzəbindən zəncir gəmirirmiş, baş vəziri Əli Paşa Həkimoğlunu saraydan uzaqlaşdırıb, yerinə Bağdad Hakimi İsmayıl Paşanı gətirib. Əhməd Paşa da Bağdad hakimliyinə göndərilib, həm də Abdulla Paşanın əvəzinə sərəskər məqamını tutub. Biz Nəqşivandan qızılbaşların əlinə keçmiş İrəvana doğru çıxanda Vəlinemət Tiflisdəydi, tavatları, aznaurları yığıb üçüncü Davidin – İmamqulu xanın oğlu Əli Mirzəni, yəni, Aleksandrı Kartli və Kaxetin hakimi qoymuşdu. Ancaq deyirdilər, Əli Mirzənin ağzının kəsəri yoxdu, Vəlinemətin adamı Səfi xan Buxairidən icazəsiz addım ata bilmir. Əmisi Teymuraz, əlbəttə, Vəlinemətin bu qərarından razı qalmayıb incimiş, gizlicə Çərkəz ölkəsinə qaçmışdı.

147. Deyirdilər, Böyük Xanın gəlişini eşidən Kaxet çarı Teymuraz əyan-əşrəfi, din adamlarını yığıb onun hüzuruna gedibmiş, Böyek Xan da onun sədaqətini qiymətləndirib, öz qoşunundan bir dəstə ayırıb Cara göndərib ki, dağlıları itaətə gətirsin. Osmanlılar Tlflisdən şəkuləndən sonra da onu özüylə ora aparıb. Vəlineməti Tiflisdə əsl şahlara layiq təntənəylə qarşılayıblar. Küçələrə xalılar döşənibmiş, şəhərin cəmi camaatı hökmdarın pişvazına çıxıbmış. Üç gün, üç gecə bayram olub, Vəlinemət məmləkətin bütün adlı-sanlı adamlarını hüzuruna çağırıb, itaət eləyənlərə xələt bağışlayıb, dikbaşları ailələrilə birgə Xorasana göndərib. Altı mindən artıq ailənin artıq qəflə-qatırla yollarda olduğu söylənirdi. Vəlinemətin Tiflisdə olduğu müddətdə məmləkətimə yetişmək, hüzurunda baş əymək, xidmətimi təklif eləmək istərdim. Amma görünür, qismət deyilmiş: payız yarıdan ötmüşdü, gündən-günə havalar soyuyur, yağışlar ara vermirdi. Rəvanda bir-iki gün qalıb yola çıxsaydım belə, Başkeçid dağlarında qara-borana düşəcəyimdən qorxurdum. Bu səbəbdən qismətimə qail olub qışı Rəvanda keçirməyi qərara almışdım. Bunu Qarsdan çıxandan bəri Mirzə

Kəmaləddinə söyləməyə fürsət axtarırdım, Ərdəbilə tələssə də, belə vaxtda yola çıxmasını, Nəqşivanın qışında əziyyət çəkməsini istəmirdim. Fikrim Rəvanda hər ikisilə də halallaşmaq idi: Sultanın səxavətindən aldığım yol xərcindən haqlarını artıqlaması ilə verib yurd-yuvalarına yola salmaq fikrindəydim. Rəvanda xanın hüzuruna gedib, yola bələd adam istəyərdim, qatırçını da, yəqin, karvansaralarda tapmaq olardı. Amma neçə ildən bəri tale yoldaşı olduğum, tikəmi böldüyüm, sayələrində dəfələrlə ölümdən qurtulduğum bu adamlardan necə ayrılacaqdım? Qatırçı Səfərin getməyinə yenə dözərdim, dünyadan əlini üzmüş, başıaşağı, dinməz-söyləməz adamdı, amma Mirzə Kəmaləddinin xasiyyətinə, söz-söhbətinə, mərifətinə o qədər bağlanmışdım ki, getsəydi, ailəmdən, Züleyxadan sonra üçüncü böyük itkim olacaqdı. Amma, *insanı sevmək azdı, onu sevmək, onun həyatıyla yaşamaq, onunla nəfəs almaq, bəzən dilinə gətirmədiyini eşitmək lazımdı.* Şübhəsiz, Mirzə Kəmaləddin getməliydi, onun da arzuları, istəkləri, həsrətini çəkdiyi yurd-yuvası, doğmaları vardı. Güman ki, bir daha görüşməyəcəkdik; altmış üç yaşa girmişəm, yollardan yorulmuşam, Allahımın bundan sonra verdiyi möhləti əlyazmalarımı qaydaya salmağa, taleyim, gəzdiyim-gördüyüm yerlər, şahidi olduğum hadisələr barədə yazdıqlarımı gələcək nəsillərə çatdırmağa sərf eləyəcəyəm...

# II

# QANLA DOLU GÖZLƏR

***Qamətim cəmdən büküldü sünbüli-pürtab tək,***
***Gözlərim qan ilə doldu laleyi-sirab tək.***

***SÜRURİ***
***(XV-XVI yüzillər)***

148. Yolda bir neçə kərə Rəvandan Qarsa gedən Osmanlı dəstələrinə rast gəldik. Uzun mühasirədən, döyüşlərdən, yağışlardan yorğun adamlar bizə laqeyd nəzərlərlə baxırdılar. İki dəfə də tutub sorğu-suala çəkdilər, Sultanın fərmanını göstərəndən sonra yaxamızdan əl çəkdilər. İçində yaralılar, ərzaq, yaraq-əsləhə olan arabalar palçıqlı yollarla ağır-ağır irəliləyir, payız dumanında xəyal kimi gözdən itirdilər. Bir yerdə yaralardan ölmüş əsgəri elə yol qırağındaca dəfn elədiklərini gördüm: müsəlman adətincə dayanıb dua oxuduq, rəhmət diləyib yolumuza davam elədik. Həmin məqamda da beynimdə o basdırılanın düşmən olmasıyla bağlı fikir yox idi (*şübhəsiz, Mirzə Kəmaləddin də bu cür düşünürdü*), sadəcə iki qardaş arasında yüzillərlə davam eləyən torpaq davasının qurbanıydı, adsız məzarı bunu gəlib-gedənlərə beləcə də xatırladacaqdı. Həmin məqamda yanağımın yaşdan islandığını duydum, Mirzə Kəmaləddininsə çiyinləri titrəyirdi. Gecələr rastımıza çıxan kiçik, yoxsul karvansaralarda, ya da yaxın obalarda qalır, gündüzlər yağış yağdığı müddətdə söz-söhbətlə vaxtı yola verir, hava açılanda yolun damarını qırmağa can atırdıq. Karvansaraların birində Vəlinemətin Tiflisdən Qarsa gedən çaparına rast gəldik. Deyirdi, Qibleyi-Aləm hələ Tiflisdədi, ruslarla danışıqlar aparır, onların hökmdarı Ağ Banu Vəlinemətə elə hədiyyələr göndərib ki, dünyanın gözü belə şey görməyib. Deyirdi, Vəlinemət Ağ Banunun özü hərəkət eləyən oyuncağını çox bəyənib, xəbər göndərib ki, inşallah, Qəndəharı alandan sonra Ağ Banuyla görüşmək şərəfinə nail olacaq, ona evlənmək

təklif eləyəcək, beləliklə, iki dövləti birləşdirib dünyanın yarısına sahib olacaqlar, onda Osmanlı da, Firəngistan da qarşılarında diz çökəcək. Çapar arada eyham vurdu ki, irəlidə böyük bir hadisə gözlənilir, tələsməyinin, atın bağrını çatlatmağının səbəbi də budu. Bu mənim də ağlıma gəlmişdi, Vəlinemətin artıq iki aydan bəri Tiflisdə qalmağının başqa izahı ola bilməzdi. Düzdü, Vəlinemət bu müddət ərzində boş oturmurdu, Qırım xanı Qaplan Gireyin Car, Zaqatala, Şamaxı, Tabasaran, Dağıstana yürüşünün qabağını almaq üçün tədbirlər tökürdü. Bunu da çapardan eşitmişdim ki, Sultan Qırım xanına geri qayıtmağı əmr eləyib, indi Vəlinemət o yerlərdə işləri yoluna qoymaqla məşğuldu. Hadisələrdən daha ətraflı xəbər tutmaq üçün tələsirdik, bu minvalla hicri 1148-ci, miladi 1735-ci ilin son payız günlərinin birində Rəvan şəhərinə varid olduq.

149. Şəhərin qapılarının Vəlinemətin üzünə açılmasından artıq bir ay keçmişdi, mafəza Hacı Hüseyn Paşa osmanlı əsgərlərini çoxdan çəkib getmişdi. İndi hara baxırdın, qızılbaşları görürdün, atların, qatırların belində, piyada, yaraqlı-yaraqsız ora-bura gedirdilər. Mirzə Kəmaləddin də, qatırçı Səfər də, elə bil, doğmalarıyla rastlaşmışdılar, gözgərəti sevinirdilər, hətta Səfərin gözlərində yaş da gördüm. Uzun yolçuluqdan sonra özlərini məmləkətlərinə çatmış sayırdılar, burdan Ərdəbilə, Təbrizə, Qəzvinə yetişmək o qədər də çətin deyildi. Yerləşib, vəziyyətdən tamam baş çıxarım, fikirlərini öyrənim, fürsət tapıb qərarımı deyərəm, – beynimdən keçirdim, tələsmək istəmədim. Səfərimiz boyu qatırçı Səfər bizdən ötrü hər işi görürdü: kitablarımız, geyim-kecimimiz, Sultanın bəxşişləri yüklənmiş qatırların başını çəkir, karvansaralara, obalara çatanda gecələyib-dincəlməyə yer, aclığımızı öldürməyə yemək tədarük eləyir, rahatlığımızın qayğısına qalırdı. Bu dəfə üstünə düşənləri daha həvəslə yerinə yetirdi, yerlilərdən-kəlmələrdən soruşub baş verənləri öyrəndi, bizi yolayrıcında qoyub bir neçə karvansaraya baş vurdu, axır ki, qaş qaralana yaxın qayıdıb kiçik bir karvansarada hücrə tapdığını sevinə-sevinə söylədi. Dedi, ağa, bütün karvansaralar bizim əsgərlərlə doludu, hamı Vəlinemətin qüdrətindən, böyüklüyündən, səxavətindən danışır, üstəlik, deyirlər, yaxın müddətdə özü taxta oturacaq. Səfər sözünün axırını deyəndə

səsini qısdı, amma bu xəbər nə məni, nə Mirzə Kəmaləddini təəccübləndirdi: Səfəvi xanədanının bu vaxtında məmləkətin hüdudlarını təkcə təmizləyən yox, həm də genişləndirən kəsin şahlıq taxtında oturmaq iddiası başadüşülən idi. Onun baxtını Allah vermişdi, məsləhət idisə, taxtını da Allah verəcəkdi, bu yalnız Onun əlindəydi.

150. Düşdüyümüz Gürcü karvansaranı şəhərin qurtaracağında, Tiflis yolunun üstündəydi, daha çox Kaxet və Kartlidən gələnlər qaldığına görə adına belə deyirdilər. Sahibi xoşsifət kişi olan Qara Süleyman adlı şəxsdi. Yeddi, ya səkkiz hücrəsi vardı, birində Qara Süleyman özü ailəsilə yaşayırdı. Birqatlı, alçaq tikilinin bir yanında çaylaq daşından hörülüb gillə suvanmış hamamxana, o biri yanında da eyni görkəmdə ocaqxana vardı, çörəyi də, yeməyi də elə orda bişirirdilər. Üzbəüzdə taxtadan qurulmuş, aralarına qamış döşənmiş tövlələr vardı. Bütün qışı burda keçirmək mümkün olmasa da, ara sakitləşənəcən qalmağa yarayardı. Yəqin belə getməyəcəkdi, Vəlinemətin əsgərləri Osmanlı əsgərlərinin yerini tutacaq, daha abırlı karvansaralarda yerləşəcək, şəhər bu qədər qələbəlik görünməyəcəkdi. Buna görə də baxtımıza çıxana qail olduq, üstəlik, Qara Süleyman dillidilavər adamdı, İstanbuldan gəldiyimizi öyrənib dərhal əl-ayağa düşdü, dediyinə görə, ən yaxşı hücrəsini tələm-tələsik hazırladıb, yükümüzü içəri daşımaqda Səfərə kömək elədi. Kitab dolu iki iri sandığı gətirəndə bir anlığa ayaq saxlayıb mənə və Mirzə Kəmaləddinə baxdı, söz tapa bilməyib hörmətlə baş əydi. Hər şeyi rahlayandan sonra, ağa, dedi, indi tapşıraram, su qızdırarlar, yuyunub yolun yorğunluğunu üstünüzdən atarsınız, sonra da süfrəyə buyurarsınız; Allah sizdən razı olsun ki, gəlib bu balaca kümämi şərəfləndirdiniz; nə qədər qalsanız, gözümün üstündə yeriniz var. Onun istiqanlılığı xoşuma gəldi, yola çıxanacan burdan tərpənməməyi qərara aldım. Yəqin Qara Süleyman da mənim Tiflisə yola düşməyimdən ötrü əlindən gələni eləyər, qatırçı və bələdçi tapardı. Hücrəmiz iki nəfər üçün olsa da, Səfərə qapıya yaxın yerdə yataq düzəldilmişdi, ortada üç nəfərin süfrə başında bardaş qurub oturmağına ancaq yer qalırdı. Kitab sandıqlarını, geyim-kecim bağlamalarını, Sultanın bəxşişlərini bir

küncə yığmışdıq. Taxçada otuzluq çıraq yanır, tutqun payız havasının ovqatını hücrənin içinə də gətirirdi.

151. Yuyunub Qara Süleymanın hazırlatdığı yeməkdən yedik, sağ-salamat gəlib çatdığımız üçün Allahımıza şükür elədik. Sonra yatmaq istəsəm də, maraq güc gəldi, karvansara sahibini çağırtdırıb son aylar ərzində baş verənləri öyrənməkdən özümü saxlaya bilmədim. Qara Süleyman dərrakəli adammış, qatırçı Səfərin yatağının bir ucunda oturub bildiklərini danışdı. Dedi, Vəlinemətin əsas hədəflərindən biri Gəncəni Osmanlılardan təmizləməkdi, şəhəri neçə ay mühasirədə saxlayandan sonra ələ keçirsə də, Abdulla Paşa qoşununu qalaya çəkib müqavimət göstərirmiş. Vəlinemət məscidlərdən birinin yanına top qaldırıb qalanı topa tuturmuş, amma Osmanlıların topu onu susdura bilib. Deyirdi, gəlib-gedənlər danışırdılar, Vəlinemət uzun nərdivanlar düzəltdirib qalaya girmək fikrindəymiş, bu da baş tutmayıb, sonra qala divarlarının altını qazdırıb, çoxlu barıt qoyub partladandan sonra Osmanlıların öhdəsindən gələ bilib. Deyirdi, şəhadətə görə, Vəlinemət düz üç dəfə ölümdən qurtarıb, bir dəfə top gülləsi yanındakı əsgərin beynini dağıdıb, bədbəxtin qanı da, beyninin iliyi də Vəlinemətin paltarına sıçrayıb. Deyirdi, mühasirənin uzandığını görən Vəlinemət qoşunlarının yarısını Tiflisin üzərinə göndərib, sonra Qarsa, Abdulla Paşanın üstünə gedib, Şamaxını darmadağın eləyib, camaatını da Ağsuya köçürüb. Deyirdi, Vəlinemət qar-çovğun üzündən Qarsa yaxınlaşa bilməyib, Rəvanın üstünə gəlib. Deyirdi, Zəngiçay yaxınlığındakı Əxikənddə bir dava olub ki, elə bil dünya yerindən oynayıb: Vəlinemətin zənburəkləri Osmanlıların səflərini dağıdıb, Sərəskər Sarı Mustafa Paşa əsir düşüb, Abdulla Paşa öldürülüb. Bunu eşidən Gəncə hakimi Əli Paşa qalanı təslim eləməkdən başqa çıxış yolu tapmayıb, ardınca da, Tiflis hakimi İshaq Paşa şəhərdən çıxıb. Deyirdi, indi Vəlinemət Dağıstan və Tabasaran tərəfdə əmin-amanlıq yaradır, ordan məmləkətin hər tərəfinə çaparlar göndərib ki, Rəvanı alandan sonra bütün sərəskərlər, xanlar, hakimlər, kələntərlər, kəndxudalar, üsləmalar ya Qəzvində, ya da Təbrizdə toplaşıb məmləkətin taleyini həll eləyəcəklər. Sonra Qara Süleyman səsini qısıb dedi, amma bir neçə gün qabaq çapar gəlib, hamı danışır ki, Vəlinemət məsləhətləşməni ramazan

ayında Muğan çölündə keçirəcək, çox güman ki, özü taxtda oturmaq üçün hamının razılığını alacaq.

152. Qara Süleyman gəlib-gedəndən eşitdiyi, yarıhəqiqətə-yarırəvayətə oxşayan bir əhvalat da danışdı. Dediyinə görə, Vəlinemət Qazaxdan keçib Tiflisə gedəndə axşama düşür, qoşun Xanlıqlar kəndi yaxınlığında düşərgə salır. Onun hərdənbir Şah Abbas kimi təğyiri-libas olub camaatın içinə çıxmağı, özü barədə nələr danışıldığını öyrənməyi varmış. Atını sürür yaxınlıqdakı Xanlıqlar kəndinə, rastına çıxan ilk evin alaqapısını döyür, ay ev yiyəsi, deyir, qonaq istəmirsinizmi. Ev sahibi Əbdürrəhman kişi də onu yol adamı sayır, qonaq Allah qonağıdı, deyib onu içəri dəvət eləyir. Beş-on kəlmə kəsəndən sonra evin xanımı bişirdiyi süddaşı süfrəyə qoyur, qonaq da yol gəlib acdığından süddaşı dərhal qaşıqlayıb ağzını yandırır. Əbdürrəhman kişi qayıdır ki, a bala, niyə Nadir kimi tələsirsən, qoy soyusun, rahat ye. Vəlinemət diksinir, elə bilir, ev yiyəsi onu tanıyıb, amma baxır ki, yox, kişi başını aşağı salıb süddaşını soyudur. Yeməkdən, gap-gələcədən sonra Əbdürrəhman kişi qonağını buraxmır, Vəlinemət gecəni yatıb səhər obaşdan qoşunun düşərgəsinə qayıdır. Rəvan ətrafında Osmanlıları məğlub eləyib Tiflisə qayıdanda yolu yenə Xanlıqlar kəndindən düşür, qərara gəlir ki, Əbdürrəhman kişini yenə görsün. Bu dəfə kəndə girən kimi, hay düşür ki, bəs Nadir xan təşrif buyurub. Əbdürrəhman kişi də damın üstə çıxıbmış, Vəlineməti tanıyır, amma özünü o yerə qoymur. Vəlinemət yenə atını onun qapısına sürür, ay ev yiyəsi, deyir, qonaq istəmirsənmi. Əbdürrəhman kişi qayıdır ki, a bala, keçən dəfə gəldiyin evdi, daha niyə utanırsan. Vəlinemət girir evə, soruşur, a kişi, mənə layiq nə bişirtdiribsən? Əbdürrəhman kişi cavab verir ki, keçən dəfəki kimi süddaş bişirtdirmişəm. Vəlinemət gülür, deyir bu dəfə tələsməyib soyumasını gözləyəcəm. Yeməkdən sonra Vəlinemət soruşur, a kişi, düzünü de, o dəfə tanısaydın, sünniliyinə salıb məni osmanlılara verərdinmi? Əbdürrəhman kişi də boz-boz deyir, əlbəttə, verərdim. Bu məqamda Vəlinemət gülür, deyir, kişi, sən nə dili boz adamsan. Bu gündən Qazax mahalının idarəsini, bir də mindiyim o haçadilli atı sənə verirəm, mərd adamsan, səndən zaval gəlməz.

153. Düz səksən il əvvəl bura gəlmiş Jan-Batist Tavernyönün də səyahətnaməsini də oxumuşdum, mən anadan olan ili Tiflisdə keçirmiş Jan Şardənin də qeydlərilə tanışdım, yəqin başqa səyyahlar da gəlmişdilər. Şardənin "səkkiz yüz evlik kiçik qala" adlandırdığı Rəvan genişlənib, böyüyüb, yəqin, indi burda mindən artıq ev var; Şardən Gürcü karvansaranın yetmiş səkkiz, Culfa və Sərdar karvansaralarının hərəsini otuz səkkiz, Tağlı, Sulu və Susuz karvansaraların birgə yetmiş dörd, Hacı Əli karvansarasının qırx dükanı vardı, amma indi Qara Süleymanın cəmi səkkiz dükanı qalmışdı – zəmanə çətin idi. İlk baxışdan gün-güzəranından, qonaqlarına qulluq eləməkdən başqa bir şey barədə fikirləşmədiyini beynimdən keçirdiyim Qara Süleymanın bu qədər gözü açıq olduğunu ağlıma gətirməzdim. Bunu özünə də söylədim, neyləyək, ağa, dedi, günümüz budu, hər gələn bir xəbər gətirir, gördüyünü, bildiyini danışır, mən də çinədanıma yığır, xəbəri olmayana çatdırıram. Qara Süleyman xudahafizləşib gedəndən sonra Mirzə Kəmaləddin yatağına dirsəklənib dərin fikrə getmiş, Səfər öz yatağında büzüşüb yuxulamışdı, mən də payızın bu son günündə, Tiflis yolu üstündəki balaca karvansaranın dar hücrəsində, otuzluq çırağın solğun işığında kürəyimi soyuq divara dayayıb oturmuşdum, az qala, əlli il qabaq çıxdığım şəhəri görmək istəyindən ürəyim bərk-bərk döyünür, qəhər boğazıma tıxanırdı. Amanım olsaydı, sabah obaşdan yola düzələr, durub-dincəlməkdən özümü yuxularımın şəhərinə çatdırardım. Amma Qara Süleymanın son söylədikləri qabağımı kəsirdi: Vəlinemətin ramazan ayında Muğan çölünə gələcəyi düzdüsə, deməli, doğrudan da, böyük hadisələr gözlənirdi, bu fürsəti də əldən vermək əbləhlik olardı. Günü sabah xanın hüzuruna yol tapmaq, necə olursa olsun, Vəlinemətin pişvazına hazırlaşan heyətə düşmək gərəkdi. Əlbəttə ki, xan həzrətləri öz əsabələri arasında Firəngistandan Osmanlı məmləkətinə, ordan Səfəvi dövlətinə səyahət eləmiş, gördüyü-bildiyi hadisələri qələmə almış səyyahın – Mirzə Yusif Tiflisinin olmasına etiraz eləməzdi, üstəlik, mənim fikrimcə sevinərdi. Onsuz da ömrüm təsadüflərdən ibarətdi, bəxtimi bir də sınamağın zərəri olmazdı. Mirzə Kəmaləddinlə Səfərin məsələsini hər şey aydınlaşandan sonra qətiləşdirərdik…

154. Səhəri fikrimi Mirzə Kəmaləddinə söylədim, etiraz eləmədi, dedi, mən təbrizlilərə, Səfər də qəzvinlilərə qoşulub gedərik, sən də Tiflis hakiminin heyətinə yol taparsan, Allah yolunu açıq eləsin. Qara Süleymanla da məsləhətləşdim, dərin zəkası o dəqiqə köməyimə çatdı, dedi ağa, Məhəmmədqulu xanın hüzuruna çətin ki, düşəsən, çünki vacib dövlət işlərilə məşğuldu, mənim qardaşımın oğlu nasaqçıbaşı Əbdülhəsən bəyin qulluğundadı, onun araçılığıyla sizi görüşdürərəm, Əbdülhəsən bəy «hə» dedimi, qurtardı, elə bil istəyinizə çatıbsınız. Onu da dedi ki, Vəlinemət ötən dəfə quzeyə gedəndə Qarabağdan qoşun yığırmış, Sarıcalı tayfasından İbrahimxəlil ağanın oğullarını çox tərifləyiblər, o da adam göndərib çağırtdırıb yanına, görüb, doğrudan da, tərifəlayiqdilər, xidmətə götürüb, böyüyü Fəzləli bəy əvvəl naib olub, osmanlılara qarşı döyüşlərdə rəşadət göstərdiyinə görə Böyük Xan onun çiyninə bahalı xələt saldırıb, əlinə də çomaq verdirib, özünə eşikağasıbaşı qoyub, kiçiyi Pənahəli bəyi də çox igiddi, onu da carçıbaşı təyin eləyib; Əbdülhəsən bəy də o tayfadandı, İbrahimxəlil ağanın simsarıdı, comərd adamdı. Ləngiməyib Qara Süleymanın ovcuna üç qızıl basdım, dedim, elə bu gün qardaşı oğlunu tapıb mənim təvəqqemi bəyə çatdırsın. Qara Süleyman sevincək qızılları qoynunda gizlədib xanın sarayına doğru götürüldü ki, istəyimi yerinə yetirsin. Mən də Qara Süleyman qayıdanacan dinclik tapmadım, hücrəmizdəki iki addımlıq boş yerdə ora-bura vurnuxdum, çıxılmazlıqdan yol axtaran adam kimi vurnuxdum, Mirzə Kəmaləddinə cürbəcür, dolaşıq suallar verdim, atları, qatırları yemləyib-sulayıb bir küncdə oturan Səfəri dindirib, diksinməyə məcbur elədim. Mirzə Kəmaləddinin fikrincə, əgər bütün bu eşitdiklərimiz doğrudusa, şübhəsiz, Vəlinemət Muğandakı məsləhətləşmələrdən sonra taxta çıxacaq, amma Səfəvi xanədanının tərəfdarlarını susdurmaq o qədər də asan olmayacaq. Əlbəttə, onsuz da bu vaxtacan arxasında durduğu, hətta Təhmasibqulu Xan adını götürdüyü Şah Təhmasibi üç il qabaq əvvəl hörmətdən, sonra da taxtdan salıb, üstəlik rüsvay-cahan eləyib, yerinə səkkizaylıq körpə Abbas Mirzəni gətirəndə, Vəkil-üd-Dövlə, Naib-üs-Səltənə məqamlarına ucalanda bunu aydın görmək olardı. Deyirdi, taxt-tac Vəlinemətin halalıdı, çünki o da torpaq kimi qoruyana məxsusdu, amma

gərək xanədanın törəmələrinə qarşı hörmət-izzət göstərsin. Bununla mən də razıydım, amma əgər o indi Vəlinemət məqamına ucalan kəs dörd il qabaq gördüyüm şəxsdisə, artıq xanədanın taleyini həll olunmuş saymaq olar, o yolunun üstündə duran kimsəyə rəhm eləməyəcək...

# III

# BİTMƏYƏN YOL

*Mən ki, dərvişəm, gədayəm,*
*padişahi-aləməm,*
*Ruhi-birəngəm, əgərçi rəngə gəldim*
*adəməm.*

***XƏLİLİ***
***(XV yüzil)***

155. Ağlagəlməz səbirsizliklə gözlədiyim Qara Süleyman günorta namazına yaxın qayıtdı. Əyni-başı islanmışdı, amma qaraşın sifətində elə xoşhal ifadə vardı, sanki Rəvan qalasını fəth eləyib gəlmişdi. Əvvəlcə havadan şikayət elədi, yolların palçıq olduğuna deyindi, sonra gözlərindən gülə-gülə dedi, qardaşım oğluna sənin ricanı söylədim, o da Əbdül Həsən bəyə çatdırdı, amma məqsədini açıb-ağartmadım, bircə onu dedim ki, Firəngistanı, Osmanlını, Əcəmistanı gəzmiş səyyah Mirzə Yusif Tiflisi hüzuruna gəlmək istəyir, deyəcək sözü var: bəy deyib, axşam yeməyinə buyursun: mən sizi ötürərəm, qardaşım oğlu da xanın yanına aparar. Qara Süleymana ağlıma gələn minnətdarlığı elədim, o da vacib bir məsələdə dadıma çatmasından məmnun halda nahar tədarükü görməyə getdi, mən də rahatlanıb düşüncələrə daldım. Əlbəttə, həmin məqamda, düzünü desəm, ikili hiss keçirirdim: bir yandan əlli il yollarda pəsələng olandan, bu qədər yerləri görəndən, hadisələrin şahidi olandan, ölümlərdən dönəndən sonra məmləkətimə yetişmək, yolların yorğunluğunu canımdan çıxarmaq, səyahət kitablarımı tamamlamaq, doğmalarımdan salamat qalanları tapmaq, ömrümü hüzur içində başa vurmaq istəyirdim, o biri tərəfdənsə taleyin rastıma çıxardığı bu böyük hadisəni öz gözlərimlə görmək arzusu təzədən duyğularıma hakim olmuşdu, məni düşünüb-daşınmağa qoymur, qolumdan tutub ikinci yola dartırdı. Allah bilir, neçənci dəfəydi

ki, sərgərdanlığa son qoyub yurduma qayıtmaq barədə verdiyim sözü Allahın tədbirilə pozmalı olurdum. Artıq bu yolda ilk addımımı atmışdım, axşam nasaqçıbaşı Əbdül Həsən bəylə görüşəcək, özümü nişan verəcək, Vəlinemətin mübarək hüzuruna getmək istədiyimi söyləyəcəkdim, güman ki, heyətin sanbalı sarıdan Rəvan xanı da məmnun qalıb razılığını verəcəkdi. Mirzə Kəmaləddin hadisələrin bu cür dəyişməsindən razı qalmışdı, hər halda Muğan Təbrizə daha yaxındı, bir də ki, daha yolların qorxusundan-filanından söhbət gedə bilməzdi. Qatırçı Səfərin də rəngi durulmuşdu, hesablamasına görə, belə getsə, yazbaşı xiffətini çəkdiyi yurduna qovuşa bilərdi.

156. Şübhəsiz, Əbdülhəsən bəyə də, Məhəmmədqulu xana da bəxşiş aparmalıydım, burda Sultanın səxavətindən verilənlər dadıma çatırdı: Əbdülhəsən bəyə qəbzəsi yaqut işləməli, qını naxışlı yeniçəri xəncəri, Məhəmmədqulu xana qiymətli parçadan qızıl saplarla tikilmiş gözəl paltar verəcəkdim. Başlıcası, Sultan sarayında firəng elçisinin yanında xidmət elədiyimi, amma həmişə məmləkətimin təəssübünü çəkdiyimi, İsfahanda olduğum illərdən onun baş mirzəsi Mirzə Mehdi xan Astarabadinin məni çox yaxşı tanıdığını çatdırmaq lazımdı. Vəlinemət bütün adlı-sanlı şəxslərin o sıradan üləmaların da məsləhətə yığışmasını əmr eləyibsə, deməli, mənim getməyimə elə bir yasaq ola bilməzdi, nədənsə, buna tamamilə arxayındım. Nahardan sonra özümə yer tapa bilmədim, yenə vaxtı keçirmək məqsədilə Qara Süleymanı çağırtdırıb, axır aylar baş verən hadisələr barədə sorğu-suala tutdum. O, bu dəfə, nədənsə, ermənilərdən söz saldı, dedi, İbrahim Paşanın, Mustafa Paşanın, Ali Paşanın, Hacı Hüseyn Paşanın vaxtında nə elədilərsə, indi də o işlərlə məşğuldular; dedi, ötən il Nadir xan gələndə bir parası torpaq ələ keçirmək, məliklik məqamına çatmaq məqsədilə, guya, müsəlmanlığı qəbul elədilər, mollalara Quranı-Şərifin ayələrini yazdırıb əzbərlədilər, Böyük Xan da bundan çox xoşhal olub səxavət kisəsinin ağzını açdı, bəzilərini də yanına qulluğa götürdü; dedi, ermənilərdən ötrü Osmanlıyla qızılbaşın fərqi yoxdu, Rəvan qızılbaşların əlində olanda onların tərəfini saxlayırdılar, osmanlılar gələn kimi keçdilər onların tərəfinə, amma əl altından öz işlərini görürlər, Osmanlı torpaqlarından, İraqi-Əcəmdən, Farsistandan erməni

gətirib Nəqşivan, Rəvan, Qarabağ torpaqlarında yerləşdirirlər, yağlı dillərini işə salır, quyruq bulayır, hədiyyələr göndərir, hökmdarların fərmanlarıyla mülklər, torpaqlar ələ keçirirlər; dedi, böyük Xanımız bura Məhəmmədqulu xanı göndərəndə bərk sevinirdilər, bəlkə bunun mənim bilmədiyim bir səbəbi var.

157. Dedi, ötən il Üçkilsədəki, yəni Üçmüəzzindəki erməni xəlifəsi öləndən sonra yerinə Təkirdağlı Abram keçdi, bu cür şeylər daha da artdı. Yeni xəlifə Vəlinemətı ikinci İsgəndər adlandıra-adlandıra, göz yaşları axıda-axıda istədiklərini qopardır. Bu yaz Vəlinemət Qarsdan qayıdanda hədiyyələr götürüb, Kələntər Məlikcanın araçılığıyla Şoragöldə onun pişvazına çıxıb, gəlişindən xoşhal olduğunu, həmişə qulluğunda duracağını söyləyib, Vəlinemət də onun hal-kefini xəbər alıb, sonra nasaqçıbaşı Əbdülhəsən bəyə əmr eləyib ki, xəlifəni qorumağa adam ayırsın, düşərgə qurulanda da onu çadırına gətirsinlər. Düşərgə qurulur, əmr üzrə xəlifəni Vəlinemətin çadırına aparırlar, o da diz çöküb Böyük Xana ağlagəlməz təriflər yağdırıb, sonra da Üçmüəzzinə dəvət eləyib. Mürəxxəs olandan sonra Xəlifə qayıdıb Üçmüəzzinə, sonra düşərgəyə adam göndərib ki, Xanın gəlib-gəlməyəcəyindən xəbər tutsun. Sən demə, Böyük Xan da qarşılanmadığından qəzəblənibmiş, xəlifə gedib qabağında diz çöküb, göz yaşı axıdıb, üzünü torpağa sürtüb ki, qəbahət mənimdi, nə cəzam varsa, qəbulumdu. Yalan-gerçək, deyilənə görə, qorxudan paçasının arasını isladıbmış, ona görə də cübbəsini tez-tez dartırmış ki, görünməsin. Vəlinemət qəzəblə soruşub ki, xəlifə, niyə mən gələndə qarşılamadın, indisə Üçmüəzzinə dəvət eləyirsən. Xəlifə də qorxudan əsə-əsə, göz yaşları axıda-axıda deyib, xanım, mən rumluyam, bu yerlərin adətini bilmirəm, günah mənimdi, gərəkdisə, məni asın. Bu vaxt Böyük Xan qəzəbini Mirzə Mehdinin üstünə töküb, soruşub ki, xəlifə gəlmədi, adətlərimizi bilmir, bəs sən niyə onu xəbərdar eləmədin. Mirzə Mehdi çaşdığından bilmir, nə desin. Hamı gözləyirmiş, Vəlinemət ikisini də cəzalandıracaq, amma hardansa Böyük Xanın ürəyinə rəhm gəlib, deyib, xəlifə haqlıdı, adətlərimizi bilmir, biz gərək ona xələt verib könlünü alaq.

158. Dedi, erməni xəlifə də fürsətdən istifadə eləyib, ondan üç raqam, yəni əmr qoparıb: *birincisi, Şah Abbasın yürüş vaxtı özüylə*

*apardığı ermənilərin monastırlara verdikləri əmlak özlərinə qaytarılsın; ikincisi, müsəlmanlığı qəbul eləyənlər mirasdan məhrum olunsun; üçüncüsü, xanın rüsxəti olmadan kimsə monastırları sıxışdırmasın.* Sonra Vəlinemətin əmrilə xəlifəyə qiymətli xələt bağışlayıblar. Xəlifə də Böyük Xandan icazə alıb, cəld Üçmüəzzinə cumub, ordakı həmtayfalarını yığıb, tələm-tələsik Vəlinemətə təntənəli qəbul düzəldiblər. Xan təntənə içində Üçmüəzzinə girib, məbədin tikintisi, ustaları, müqəddəslər barədə soruşub. Vəlinemət axşam ibadətinə tamaşa eləyib, axırda erməni xəlifə xanın qabağında dayanıb xeyir-dua verib. Xan Mirzə Mehdiyə tapşırıb ki, məbədə üç yüz florin ianə versin, özüsə başının dəstəsilə düşərgəyə qayıdıb. Deyilənə görə, hətta Vəlinemət arvadlarının da məbədə gedib oranı öz gözlərilə görmələrinə icazə verib, üstəlik, hava işıqlaşanda özü yenə gəlib, məbəd barədə eşitdiklərini yaxın adamlarına danışıb, şərbət içib, qəlyan çəkib, gülab suyundan üz-gözünə çəkib, erməni xəlifəyə ürək-dirək verib, deyib ki, narahat olub dərdə-qəmə batma, qorxub eləmə, bura Allahın evidi, hansı dinə qulluq eləməyindən asılı olmayaraq həmişə abad olacaq; həm də deyib, atlarım da, adamlarım da bu torpağın nemətlərindən yedilər, bir vaxt gələr, əvəzini çıxaram; sonra Vəlinemət hələ də Osmanlıların əlində olan Rəvana tərəf yollanıb, orda döyüşə hazırlaşmağa başlayıb; dedi, Həzrəti Alinin bir kəlamı var, *min qapıdan, yüz min qaladan içəri girə bilərsən, amma kiçicik bir könülə girə bilməzsən,* adamların ürəyindəkilərdən baş açmaq çox çətindi, bir kəs lazımdı ki, Böyük Xanın könlünə yol tapıb bunları çatdırsın. Onda ağlıma gəldi ki, heç olmasa, Mirzə Mehdini görə bilsəm, bütün bunları ona danışaram.

159. Qara Süleyman Vəlinemətlə Abdulla Paşa Körpülü arasındakı döyüşdən də danışdı; dedi, həmin vaxt bu karvansarada bir Osmanlı bölüyü yerləşmişdi, mən də onlara qulluq eləyə-eləyə olub-keçənlərdən xəbər tuturdum; dedi, Vəlinemət bütün lazımsız şeyləri, əsirləri, qadınları Təbrizə yola salıb, özüsə on səkkiz min seçmə qoşunla döyüşə hazırlaşıbmış, çadırını da Əxi təpəsinin üstündə qurubmuş, ordan hər yer ovuc içi kimi görünürmüş: dedi, Osmanlılar Zəngi çayıyla düşərgənin arasını kəsdiklərindən su qıtlığı yaranıbmış, Vəlinemət əmr verir, gecəynən bütün qoyunları, keçiləri kəsib dərisindən tuluq

düzəldirlər, tuluqları da suyla doldurublar; dedi, döyüş yayın əvvəllərində baş verdi, Kor Çavuşun dediklərini öz qulaqlarımla eşitdim, deyirdi, qızılbaşlara aman verməyəcəyəm, hamısı atlarımızın dırnaqları altında qalacaq, Böyük Xansa qoşununun az bir hissəsini göz önünə düzüb, əsas qüvvəni təpənin arxasında gizlədibmiş, döyüş başlayandan az sonra qəfil basqınla Osmanlıların toplarını ələ keçirib, bunu görən osmanlılar qaçmağa üz qoyublar, qızılbaşlar da onları qovub qılıncdan keçiriblər; dedi, Abdulla Paşa ensiz, daşlı cığırla dərəyə enib aradan çıxmağa çalışırmış, atdan yıxılıb başını bərk yaralayır, özünü yetirən qızılbaş əsgəri başı bədənindən ayırıb Vəlinemətin hüzuruna gətirir, Böyük Xan əsir osmanlılardan başın, doğrudan da, Abdulla Paşanın olduğunu öyrənib əsgərə xələt verir, tapşırır ki, bədənini də tapıb gətirsə, yenə xələt alacaq, tezliklə də Abdulla Paşanın bədənini də tapıb gətiriblər, Vəlinemətin əmrilə cəsədi abıra salıblar, kəfənə bürüyüb tabuta qoyublar, sonra da Qarsa göndəriblər; dedi, o döyüşdə Damad Mustafa Paşa da öldürülmüşdü, Böyük Xan onun cəsədini də müsəlman qaydasıyla Rəvandakı təzə məsciddə dəfn eləmək əmrini verdi, o vaxtdan da Əxi təpəsinə Mübarək təpəsi deyirlər; dedi, Vəlinemət qoşunuyla iki ay Qırxbulaqda dincələndən sonra Mübarək təpəsinə gəlib, xanları, bəyləri, mirzələri, kələntərləri, məlikləri hüzuruna çağırtdırıb, yığışanlarla uzun-uzadı məsləhətləşib, nəsillərə yadigar qalsın, qələbəsini xatırlatsın deyə, qübbə ucaltmaq istəyirmiş; dedi, Böyük Xan gecəni Başaparanda keçirib, səhəri xanları Rəvanın mühasirəsinə göndərib, özüsə Qarsın üzərinə gedib, erməni xəlifə də Vəlinemətin gözünə daha da girmək üçün tələm-tələsik qırx gün ərzində onun arzuladığı qübbəni ucaldıb.

160. Qara Süleymanın dediyinə görə, Vəlinemət Qarsı ala bilməsə də, ətraf vilayətləri çapıb taladı, axırda Qars və Ərzurum bəyləri xanın yanına getdilər ki, Rəvanı verməyə razıyıq, təki basqından əl çəksin; dedi, Böyük Xan razılaşdı, onlara xələt verdi, Əbdülbağı xanı da göndərdi ki, işləri yoluna qoysun; dedi, Baba xan, Məmmədqulu xan, Sərdar xan danışıqlar aparıb belə razılaşdılar ki, osmanlılar qaladakı yaraq-əsləhənin yarısını aparacaqlar, bundan ötrü də mindən artıq araba ayrıldı, arabaçılar Osmanlı əsgərlərini Arpaçayacan aparıb geri qayıtdılar;

dedi, bundan sonra Vəlinemət Tiflisə yola düşdü, Rəvan xanını xəlifə, bəylər, xanlar, kələntərlər, məliklərlə birgə hüzuruna çağırdı. Qara Süleyman danışırdı ki, onda Əbdülhəsən bəyin yanında xidmətdə olan qardaşı oğlu da Tiflisə getmişdi. Vəlinemət Tiflisdə onları hüzuruna çağırıb yararlı məsləhətlər verib, erməni xəlifəni də, onun taxtını da Məhəmmədqulu xana tapşırıb, deyib xəlifəyə toxunmayın, o bizim duaçımızdı, qoy cizyədən başqa divanın bütün vergilərinin yarısını ermənilər, yarısını da qızılbaşlar versin; xəlifə də yenə fürsəti fövtə verməyib, Vəlinemətdən on beş raqam da qoparıb, üstəlik, Tiflisdən və Ağrı vilayətindən Xorasana göndəriləcək altı yüz ailənin xilası üçün xanın ayaqlarına döşənib, əvəzində pul və taxıl verməyə boyun olub; Vəlinemət Tiflis ermənilərini bağışlasa da, Ağrı ermənilərini bağışlamadı, hər adama xəzinədən iki öküz verilməsini, qalan ermənilərin gedənlərin hər birinə üç öküz, üç inək, üç mis qab, üç örtük, un, taxıl, bir tümən pul verməsini əmr elədi; amma Xəlifə başqa bir şey də qazandı, Üçmüəzzinə yeddi kənd bağışlanmasını, o kəndlərdən töycünün ancaq onun icazəsilə toplanmasını istədi, Vəlinemət də xəlifənin istəyini yerinə yetirdi.

161. Bütün bunları Qara Süleyman öz gözlərilə görmüş kimi, şirin-şirin danışırdı, Mirzə Kəmaləddinlə mən də onun şirin danışığına hayıl-mayıl olub qulaq asırdıq, ürəyimdən onu bizə rast gətirmiş indi tövlədəki atları, qatırları yedirib-sulayan, qaşovlayan Səfərə minnətdarlıq eləmək keçirdi. Uzun ayların yorğunluğundan, yollarda rastlaşdığımız təhlükələrdən, qan-qadadan, torpaq naminə aparılan amansız savaşlarda həyatını itirənlərin tabutlarından, yaralananların və şikəst olanların məhzun görkəmindən sonra ruhum bir qədər dinclik tapmışdı. Bircə məsələdən baş aça bilmədim: əgər Damad Mustafa Paşa Vəlinemətin əmrilə Rəvan qalasında dəfn edilmişdisə, yolda gördüyümüz cənazə karvanı kimin idi? Əlbəttə, Qara Süleymanın danışdığı döyüşlərdə başqa paşalar da öldürülmüşdü, ola bilsin, təhlükəsizlik naminə bu cür şayiələr yayıblar. Hər halda Qara Süleymana inanırdım: xəbər eşitmək üçün karvansaradan münasib yer yox idi, taleyinin yollarına düşüb gedənlərin hamısının yolu burdan keçirdi. Tale məni də gətirib bura çıxarmışdı, eşitdiklərimi hələ yaddaşıma yazırdım, sonra kağıza köçürəcək, kitabıma daxil eləyəcəkdim.

Qara Süleyman da məni günün sıxıntısından qurtardığına görə sevinirdi, arğaz, qaraşın sifətində, elə bil, sehrli çiçəklər açmışdı. Sonra söhbətini hələlik bitirdi, o biri yolçulara baş çəkib, ehtiyaclarını soruşmaq üçün getdi. Vaxtı çatanda gəlib məni xanın sarayına aparacaq, nasaqçıbaşı Əbdülhəsən bəylə görüşdürəcəkdi. Ola bilsin, bu görüş yenə mənim taleyimi dəyişəcəkdi: artıq neçənci kərə Tiflisə qayıtmaq arzusundan içim burxula-burxula növbəti səfərimə yollanacaqdım. Həmin məqamda, elə bil, Kitabdar Mühiddin Əfəndinin səsini eşitdim: *həmişə öz qəlbinə qulaq as, övladım, o sənə doğru yolu göstərəcək, ancaq könlüncə olan yerdə özünü rahat hiss eləyəcək, uğur qazanacaqsan...*

# IV

# TALEYİMİN BİR DAHA DƏYİŞDİYİ AN

***Anın əvvəlinin önü bulunmaz,***
***Anın axırının sonu bulunmaz.***

***«Dastani-Əhməd Hərami»***
***(XIII yüzil)***

162. Qara Süleyman hava qaralana yaxın gəldi, geyimli-kecimli oturub gözlədiyimi görəndə arxayınlıqla gülümsündü, ağa, dedi əlim yüngüldü, ayağım da düşərli, darıxma, ürəyində tutduğun niyyət, ardınca getdiyin iş düzələcək. Mirzə Kəmaləddinlə qatırçı Səfər də bayaqdan dua eləyirdilər ki, xan Mirzə Yusifin Muğan çölünə getməsinə razılıq versin, ordan Təbrizə, Qəzvinə cəmi-cümlətanı on günlük, yarım aylıq yol qalır. Həmin məqamda yurd nisgilinin bütün ağırlığını ruhumda hiss elədim. Mən yurdumda xatirələrimi qoyub gəlmişdim, Mirzə Kəmaləddinin külfəti, qatırçı Səfərin də hələ tamam ölməmiş ümidləri qalmışdı. Birgə dua oxuyub qapıdan çıxdıq, Qara Süleyman qətran sürtülmüş lopa götürdü ki, qaranlığa düşəndə yandırsın. Bayırşəhərdəki karvansaranı arxada qoyandan az sonra xeyli gedib atların dırnaqlarının, arabaların təkərlərinin altında oyuq-oyuq olmuş küçəylə üzüyuxarı, xanın hələlik yaşadığı Təpəbaşı məhəlləsindəki sarayına doğru qalxmağa başladıq. Aradabir şəhər əhlindən kimsə rastlaşıb Qara Süleymana salam verir, beş-üç kəlmə danışırdı, bəzən də xanın adamlarından biri yolumuza çıxıb şübhəylə bizə baxır, kim olduğumuzu, bu qarışıq vaxtı hara getdiyimizi soruşurdu. Qara Süleyman da əlini sinəsinə qoyub qardaşı oğlunu, nasaqçıbaşı Əbdülhəsən bəyi nişan verir, yenə yolumuza davam eləyirdik. Ürəyimdə Allaha dua eləyirdim ki, xanın hüzuruna çatana, özümü tanıdanacan ortaya bir çətinlik çıxmasın. Buralar şəhərin qırağı olduğundan evlər balaca, yastı-yapalaqdı, görünür, əsasən fəqir-füqəra yaşayırdı. Aradabir hardasa çıraq işıqları

gözə dəyir, it hürüşləri, at fınxırtıları, mal böyürtüləri eşidilirdi. Saraya yaxınlaşdıqca, daşdan tikilmiş, iri evlər tez-tez gözə dəyməyə başladı, üstəlik, küçəyə daş döşəndiyindən yerimək bir qədər asanlaşdı. Qara Süleyman artıq lopasını yandırmışdı, məndən bir-iki addım qabaqda gedir, yolumuzu işıqlandırırdı, tez-tez başını döndərib, döz, ağa, deyirdi, az qalıb, bəyin hüzuruna yetişirik. Yolu üç kərə burulduq, bir kərə enişə enib, yoxuşa qalxdıq, axır ki, qapısında əliməşəlli keşikçilərin dayandığı böyük bir mülkə yaxınlaşdıq.

163. Qara Süleyman keşikçilərə yaxınlaşıb qardaşı oğlu Yaqubəlini soruşdu, azacıq sonra cüssəli, əmisi kimi qaraşın bir cavan gəlib hörmətlə salam verib, Əbdülhəsən bəyin məni gözlədiyini söylədi, əmisinəsə dedi, sən get, nigaran qalma, mirzəni özüm sağ-salamat karvansaraya çatdıraram. Qara Süleyman da qonağından muğayat olmağı bərk-bərk tapşırıb, işimin uğurlu olmasından ötrü bir dəfə də dua elədi, sonra dönüb getdi. Məni geniş, ortasında çarhovuz olan həyətə buraxdılar. Həyətdə azı iyirmi nəfər yaraqlı-yasaqlı adam vardı, əmr gözləyirlərmiş kimi, farağat dayanmışdılar. İkiqatlı mülkün qapısından içəri girməmiş palçığa batmış çəkmələrimi çıxarmalı oldum, dərhal naxışlı, rahat nəleyinlər verdilər, Yaqubəli məni qapıçıbaşıya, qapıçıbaşı da bığ yeri yenicə tərləmiş şivərək qapıçıya tapşırıb dedi, mirzəni Əbdülhəsən bəyin yanına apar, gözləyir. Mərmər pilləkənlərlə qalxıb böyük salona girdik, qapıçı məni baş tərəfdəki otaqlardan birinin ağzında dayanmış qapıçıya təhvil verib geri qayıtdı, bu tökməbədən qapıçı da gözləməyi tapşırdı, sonra içəri girib az sonra geri qayıtdı, hörmətlə təzim eləyib məni Əbdülhəsən bəyin hüzuruna buraxdı. Girdiyim otaq yaxşı işıqlandırılmış, iri güzgülər olan, xalılarla döşənmiş böyük salon idi, bayaq qapıçıbaşının dediyindən başa düşmüşdüm ki, "Şüşəbəhdi" salonu adlanır. Divarlarına və tavanına naxışlar vurulmuşdu, amma camların və çıraqların işığında o naxışları düz-əməlli seçə bilmədim. Əbdülhəsən bəy məni qapının ağzında qarşıladı, xoşgəldin elədi, qolumdan tutub salonun o başına apardı, mütəkkəyə dirsəklənmiş qocanın yanında ayaq saxlayıb dedi, Mirzə Yusif, Axund Ələkbər Rəvanın sayılıb-seçilən üləmalarındandı, uzaqdan qonaq gəldiyini eşidəndə çox sevindi,

görüşüb söhbətlərini eşitmək istədi. Axunda ehtiramla baş əyib göstərilən yerdə əyləşdim. Əbdülhəsən bəy də yerini tutandan sonra Axund Ələkbər hardan gəlib-hara getdiyimi soruşdu. Mən də Tiflisdə doğulduğumu, Firəngistanda oxuduğumu, Veneziada olduğumu, İstanbulda Yenaki bəyin yanında tərcümanlıq elədiyimi, sonra Firəngistanın İsfahandakı elçisi Müsyö Syör dö Gardənin tərcümanı kimi İsfahan sarayında olduğumu, orda faciəvi günlər keçirdiyimizi, möcüzə nəticəsində sağ qaldığımı, İstanbula qayıdıb İbrahim Mütəfərrikənin, Bonneval Paşanın yanında çalışdığımı, son illər Sultanın izinilə Anadolunu dolaşdığımı, gördüklərimi, eşitdiklərimi qələmə aldığımı danışdım.

164. Əlbəttə, hələ təfərrüatlara çox varmaq istəmirdim, çalışırdım ki, dediklərimdən mənim Muğana getməyə haqqım olduğu qənaətinə gəlsinlər. Bunları söylədikcə Axund Ələkbərin ağarmış qalın qaşları qalxır, qocaəfəndi parıldayan bəbəklərinin işığı artırdı. Əbdülhəsən bəyin girdə, ağ sifətində də gözgörəti maraq vardı, bunu sezib öz-özlüyümdə fikirləşdim ki, gərək bu cür təqdimatdan sonra Vəlinemətin hüzuruna getmək o qədər çətin olmasın. Dərhal da, neçə illər qabaq İsfahanda Şah Sultan Hüseynin hüzurunda olduğumu, Mirzə Mehdi və Mirzə Möminin məni yaxşı tanıdıqlarını əlavə elədim, Axund Ələkbər başını tərpədib təsbehli əlini saqqalına çəkdi, Əbdülhəsən bəyinsə razılığı üzündən oxunurdu. Fürsəti fövtə verməyib dedim, indi də xəbər tutmuşam ki, Vəlinemət, Allah onun ömrünü uzun eləsin, ramazan ayında Muğan çölündə yığnaq keçirəcək, bütün xanları, bəyləri, əyanları, kələntərləri, məlikləri, üləmaları o yığnağa çağırıb, mən də Rəvan xanı möhtərəm Məhəmmədqulu xanın heyətində Muğan çölünə getmək, o tarixi fövqəlhadisəni səyahətnaməmin qiymətli səhifələrinə çevirmək arzusundayam, sizdən də iltimasım xandan rüsxət almağa kömək eləməkdi. Əbdülhəsən bəy bunu eşidəndə sualedici nəzərlərini Axund Ələkbərin üzünə dikdi, qoca da nuru öləzimiş gözlərini qaldırıb dedi, Allahın köməyilə, hörmətli xanımız bu təsadüfdən ancaq şərəf duyar, xan həzrətləri heyətdə olacaq adamların siyahısını tərtib eləməyi mənə tapşırıb, fikrimcə, aramızda sizin kimi dünyanın yarısını gəzib görmüş şəxsin olması xanımıza başucalılığı gətirər; sonra əlavə elədi ki, heyətə üç gündən sonra yola çıx-

maq əmri verilib, indi hörmətli xanımız qaladakı işləri sahmana salmaqla məşğuldu, mən iltimasınızı çatdıraram, siz yola hazır olun. Bir daha fürsəti əldən verməyib təbrizli üləma Mirzə Kəmaləddinin də mənimlə birgə olacağını *(qəzvinli qatırçı Səfər barədə xüsusi rüsxət gərək deyildi, o xidmətçilərə aid idi,)* səfər üçün miniyimizin, xərcliyimizin olduğunu söylədim. Əbdülhəsən bəy səfər tədarükündə üç nəfərin nəzərə alınacağını, dəqiq hardan, nə vaxt çıxacaqlarını Yaqubəli vasitəsilə çatdıracaqlarını söyləyib məni lap arxayınlaşdırdı. Belə çıxırdı ki, artıq Muğan yolunda bir maneəmiz qalmayıb, Məhəmmədqulu xanın izini ancaq nəzakət xətrinə lazımdı.

165. Axund Ələkbər məni gəzib-gördüyüm yerlər barədə sorğu-suala tutdu. Firəngistanda xristianlar arasında yaşamağımdan, Veneziada nəhəng gəmilərdə üzməyimdən, Səadət Astanasının möhtəşəm mənzərələrindən, nəhəng camelərindən, Yenaki bəylə səfərlərimdən, Sultanın sarayında olmağımdan, Firəngistan elçisi müsyö Syör dö Gardənla Təbrizə, Qəzvinə, İshafana getməyimdən İsfahan düşmən əlinə keçəndən sonra Rəştdən rus konsulu vasitəsilə xilas olub İstanbula qayıtmağımdan, İstanbulda illərlə çətinlik içində yaşamağımdan, nəhayət, kitabbasma və tərcümanlıqla güzəranımı yola verdimdən, qayıdanbaş Anadolunu dolaşıb dəfələrlə ölümün üzünü gördüyümdən, axır ki, Qarsa, Nəqşivana, sonra Rəvana gəlib çıxdığımdan, Tiflisə getmək niyyətində olduğumdan, amma Vəlinemətin bu yığnağını alın yazım sayıb Muğan çölünə getmək arzusuna düşdüyümdən danışdım; Veneziayla İstanbul arasında gəmimizə dəniz quldurlarının basqınından, İstanbulun camelərində, çarşılarında, hamamlarında, saraylarında gördüklərimdən, düşmən tapdağı altında qalan İsfahanda başıma gələnlərdən, Anadolu çöllərində qarşılaşdıqlarımdan söz açdım; Veneziada sarayların nəhəngliyindən, İstanbulda xəzinənin zənginliyindən, Anadoluda torpağın bərəkətindən, Təbrizdə amansız davaların törətdiyi dağıntılardan, Vəlinemətin dünyanı başına götürmüş qüdrətindən ağızdolusu danışdım. Axırda araya uzun sükut çökdü, görünür, Əcəm məmləkətinin bir bölgəsindən başqa heç yeri görməmiş bu binəvalar söylədiklərimin heyrətamiz təsirindən qurtarmağa çətinlik çəkirdilər. Sonra Əbdülhəsən bəy yenə qocanın üzünə

baxdı, elə bil, sualına müsbət cavab alıb əlini-əlinə vurdu, içəri girib təzim eləyən qapıçıya dedi, şam yeməyini gətirsinlər.

166. Xidmətçinin gətirdiyi teştin içində əlimizi yuyub yeməyə girişdik. Nə vaxtdı ki, yollarda olduğumdan, karvansaralarda, müsafirxanalarda, bulaq başında, ağac kölgəsində Allahın verdiyindən, Səfərin tədarük elədiyindən yeyib şükür elədiyimə görə, həm də Rəvanın bu vaxtında xan süfrəsi mənə xeyli dəbdəbəli görünsə də üzə vurmadım. Dinməzcə yeyib söhbətimizə qayıdanda ehtiyatla sorğu-sual eləyib öyrəndim ki, Axund Ələkbər dədə-babadan rəvanlıdı, Ərdəbildə mədrəsə bitirib, uzun illərdi böyük məscidin axundudu, Rəvanın osmanlılardan təmizlənməsilə yəqin ki, bütün vilayətin din işlərini ona tapşıracaqlar; Əbdülhəsən bəysə qarabağlıdı, nə müddətdi ki, Məhəmmədqulu xanın yanında xidmətdədi, Böyük Xanımızın lütfü sayəsində nasaqçıbaşı məqamına ucalıb. Sonra söhbət erməni xəlifəsindən düşdü, Əbdülhəsən bəy Vəlinemətin xəlifəyə nə qədər iltifat göstərdiyini, xəlifənin də elə hey ağlaya-ağlaya, yalvara-yalvara, yaltaqlana-yaltaqlana öz niyyətlərini gerçəkləşdirdiyini, cürbəcür yollarla Üçmüəzzinə mülklər aldığını, həmin torpaqlarda da əlaltından erməniləri yerləşdirdiyini söylədi. Görünür, ortada Vəlinemətin zəhmi, qorxusu vardı, yoxsa Əbdülhəsən bəy, elə Axund Ələkbər də ürəklərində qövr eləyən çox şeyi danışardılar. Bunu səssiz-sovsuz baxışmalarından, bir də tərəddüd eləmələrindən başa düşdüm, əlbəttə ki, israr eləmədim. Onlar da xeyli susqunluqdan sonra bircə onu dedilər ki, Vəlinemətin əmrilə Xorasana göndəriləcək üç yüz erməni ailəsini qurtarmaq da erməni xəlifənin əməlidi. Ehtiyatla da olsa, fürsət tapan kimi, bunu Məhəmmədqulu xana demək lazım gəldiyini söylədilər. İndi yalnız Vəlinemətin Muğan səfərilə məşğuluq, dedilər, inşallah, yığnaq bitəndən sonra bu barədə fikirləşmək lazım gələcək.

168. Sonra söhbət Rəvanın keçmişindən düşdü. Axund Ələkbər dedi, çox əvvəllərə getmirəm, Şah Məhəmməd Xudabəndənin vaxtında Rəvanın hakimi Mahmud xanın səyilə şəhərdə Toxmaq gölünün yaradılması camaatın işinə çox yarayıb, bağ-bağça salınıb, abadlıq işi görülüb, amma Rəvanın yaxşı günləri, Böyük Şah Abbas şəhəri Osmanlılardan alandan sonra göndərdiyi Əmirgünə

xanın adıyla bağlıdı; Əmirgünə xan saraylar ucaltdı, arxlar çəkdirdi, bağ-bostan saldırdı, körpülər, hamamlar, məscidlər, karvansaralar tikdirdi; dedi, amma onun tikib-qurduğu əlli beş il qabaqkı zəlzələdə yerlə yeksan oldu, onda mənim altı-yeddi yaşım olardı, hər şey bugünkü kimi gözlərimin qabağındadı; dedi, yer-göy silkələnəndə anam başımı dizinin üstünə qoyub layla çalırdı, evdə bizdən başqa kimsə yox idi, qəfildən dünya lərzəyə gəldi, evimizin divarının biri dağıldı, bayırın istisi üzümüzə vurdu; dedi, o zəlzələdə necə daş-daş üstə qalmadı, məscidlər, karvansaralar, kilsələr dağıldı, qala yerlə yeksan oldu, körpülər yatdı, sular batdı, ölən qalandan çox oldu; dedi, ətrafda it-pişik də gözə dəymirdi, bazara getmiş atamı da elə bil göy çəkdi, yer uddu, heç öldü-qaldısından belə xəbər tuta bilmədik; dedi, Abbasqulu xanın kürəkəni Zal xan çapar göndərib bu fəlakət barədə hər tərəfə xəbər yaydı, Gəncədən səkkiz yüz adam gəldi, Məhəmməd xan Naxçıvandan böyük bir dəstə gətirdi, Bərdədən, Zəyəmdən, Makudan, Təbrizdən, Şirvandan, qonşu xanlıq-sultanlıqlardan o qədər adam gəlmişdi ki, qala ətrafında tərpənməyə yer yox idi. Azərbaycan vəziri Mirzə İbrahim təxminən bir aydan sonra Təbrizdən gəlib Rəvana əyləşdi. Qala divarları yenidən hörüldü, daha möhkəm oldu, arxlar çəkildi, körpülər salındı, məscidləri, karvansaraları, hamamları, bazarları, dükanları yenidən tikdilər, qorxudan şəhərdən çıxanlar da evlərinə qayıtdılar. Anamla mən də Gərnibasardakı qohumlarımıza sığınmışdıq, qayıtdıq, evimizin uçmuş divarını qonum-qonşunun köməyilə hördük; dedi, qəribəsi buydu ki, onsuz da kasıb olan komamızda bir çöpümüzə də toxunmamışdılar, görünür, nə hikmətdisə, *dərd adamları daha da insaniləşdirir, saflaşdırır, onların qəlbində mərhəmət və şəfqət hisslərini daha da artırır.*

168. Axund Ələkbər şəhərin məhəllələrini (Şiləçi, Sabunçu, Boyaqçı, Toxmaq, Təpəbaşı, Dəmirbulaq, Bağçalar, Yoncalıq, Börkçülər), bulaqlarını (Dəmirbulaq, Qırxbulaq, Dəlməbulaq, Sərdar bulağı), çaylarını (Gedərçay, Qırxbulaq, Zəngi çayı), bağlarını (Dərə, Dəlmə, Dəmirbulaq, Dərəkənd, Şəhər və Abbas bağları), meydanlarını (Məscid meydanı, Zal xan meydanı, Fəhlə meydanı, Böyük meydan, Şəhər meydanı), məscidlərini (Göy məscid, Qala məscidi, Hacı bəyin məscidi, Zal xan məscidi,

Günlüklü məscidi, Günbəzli məscid, Şəhər məscidi, Novruzəli məscidi, Hüseynəli məscidi), təpələrini (Qanlıtəpə, Üçtəpə, Qızıltəpə) saydı, şəhər təzədən Osmanlıların əlinə keçəndən sonra Fərhad Paşanın qalanı indiki görkəminə saldığını danışdı. Beləcə, söhbətimiz xeyli uzandı. Amma karvansaraya qayıtmaq vaxtı çatmışdı. Axund Ələkbərlə də, nasaqçıbaşı Əbdülhəsən bəylə də hörmətlə vidalaşdıq, ümidvardıq ki, üç gündən sonra görüşəcəyik. Əbdülhəsən bəyə o vaxtacan Rəvanı gəzib-görmək istədiyimi, tarixilə maraqlandığımı bildirdim, o da bu niyyətimi yerinə yetirməkdən ötrü yardım göstərəcəyini söylədi. Qapıçı məni girişəcən ötürdü, orda çəkmələrimi təmizlənmiş gördüm, geyinib Yaqubəlinin müşayiətilə mülkdən çıxdım, yəhərli-yüyənli atlara minib əliməşəlli iki nasaqçının ardınca karvansaraya doğru yönəldik. Nədənsə, çox rahatdım ki, Məhəmmədqulu xanın heyətində Muğan çölünə getmək, Vəlinemətin hüzurunda olmaq niyyətim çin olacaq. Allah qismətimə yollarda olmağı yazmışdısa, az qala, əlli ilini tamamlayacaq yolçuluğumu elə-belə, vaqeəsiz-filansız başa vura bilməzdim. Qəlbimin dərinliklərindən tez-tez üzə vuran Tiflis göynərtisini müəyyən müddətə ovutmalı, alnıma yazılan tarixi hadisənin şahidi olmalı, taleyin rast gətirəcəyi adamlarla rastlaşmalıydım. Bu da, bitib-tükənməyən, ucu-bucağı görünməyən, harda başa çatacağı bəlli olmayan yolçuluğumun sonu olacaqdımı – onu bir Allah bilirdi. Hər halda o sonun xətrinə taleyin rastıma çıxardığı Muğan fürsətindən boyun qaçıra bilməzdim. Nagahan bir xəstəliklə bu yolun hansı məqamındasa bu fani dünyayla vidalaşa bilərdim, amma arzuma yetib Tiflisi görmək ehtimalı da vardı. Buna da kədərlənmirdim, bilirdim ki, *kədərlə ümidsizliyin arası bircə addımdı, ona görə də heç vaxt ümidsizliyə qapılmamışdım; sevdiyim adamları itirmişdim, keçmişimdən qaçmışdım, həyatın dibinə enmişdim, həmişə də düşünmüşdüm ki, özüm dikəlməsəm, məni heç kəs yerdən qaldırmayacaq...*

## V

# BAŞIMDA SƏRVÜ-RƏVANIN XƏYALI

*Dustun qədd – xəyali gecələr
canda qonar,
Canda gər olmasa, öl sərvü-rəvan
xanda qonar?*

***HAMİDİ
(XV yüzil)***

169. Mirzə Kəmaləddin də, qatırçı Səfər də, Qara Süleyman da dipdiri oturub qayıtmağımı gözləyirlərmiş. Kürkümü, papağımı, çəkməmi soyunub rahatlanmamış üstümə suallar yağdırdılar, mən də hələ ki, qısaca olub-keçəni danışdım, Allah qoysa, üç günün tamamında Muğan çölünə yollanacağımızın gerçəyə yaxın olduğunu söylədim. Mirzə Kəmaləddinin kövrəldiyi üz-gözündən bilinirdi, Səfərsə sevindiyindən açıq-aşkar ağlayır, arada çuxasının qoluyla gözlərinin yaşını da sildi. Qara Süleyman bizə yardım göstərdiyinə görə, çox məmnun idi, çırağın işığında gözləri parıldayır, hələ dən düşməmiş bığının altında dişləri ağarırdı. Dedi, Məhəmmədqulu xanın heyətində erməni xəlifə də var, eşitdiyimə görə, guya, artıq qocalığını, yolun ağırlığına dözmədiyini bəhanə gətirib on gündən sonra yola düşüb, yəqin niyyəti, Vəlinemətdən nələr qoparacağını həmtayfalarıyla məsləhətləşməkdi. Qara Süleymanın xəbərinə görə, erməni xəlifə özüylə vardapetlərdən, imlaxorlardan, keşişlərdən, mirzələrdən, aşçılardan, yedəkçilərdən ibarət iyirmi beş nəfərlik dəstə aparır, yəqin, yolüstü ermənilərin olduğu kəndlərdə gecələyib necə hərəkət eləmək lazım gəldiyini başa salacaq. Onun bildiyinə görə, dünən Məhəmmədqulu xanla görüşüb-danışıblar, ardınca da erməni xəlifə tələm-tələsik Üçmüəzzinə yollanıb. Sonra Qara Süleyman səsini alçaldıb gəzən şayiələri söylədi: erməni xəlifənin sözlərinə inansaq, Məhəmmədqulu xan ermənidən dönmədi,

babası Şah Abbasın vaxtında müsəlmanlığı qəbul eləyib, işi-gücü Qibleyi-Aləmin hərəmxanasına gözəl erməni qızları tapmaqmış, atası Şah Təhmasibin xəzinə işlərində çalışıb, nəvəsisə xan məqamına ucalıb, Rəvanın taleyi ona tapşırılıb, ən çox məsləhətləşdiyi kəs də erməni xəlifədi. Vəlinemətin axır vaxtlarda fürsət düşdükcə Şah Təhmasibin xan məqamına gətirdiyi adamlara bir-bir divan tutduğundan xəbərdardım, Məhəmmədqulu xan hələ salamat qalan beş-üç nəfərdən biriydisə, deməli, ortada bir hikmət vardı.

170. O gecəni Mirzə Kəmaləddinlə Səfər sevindiklərindən, mən də fikir-xəyaldan uzun müddət yata bilmədik. Qara Süleyman buxarını yaxşı qalatdırmışdı, hücrə istiydi, bayırda yağışın ahəngdar şırıltısı eşidilirdi, gün ərzində ara versə də, bayaqdan yenə yağmağa başlamışdı. Bu tərəflərin iqlimi sərt olduğundan bəlkə də səhərə yaxın qara çevriləcəkdi. Doğulub uşaqlığımı keçirdiyim Tiflisə bir həftəlik, on günlük məsafədə, Rəvanın bu balaca karvansarasında tale mənimlə yenə oyun oynayırdı. Yadıma hardansa Mirzə Kəmaləddinin danışdığı bir əhvalat düşdü: *günlərin birində cavan bir oğlan gözəl paltarından birini geyinib məscidə sübh namazına gedir. O, məscidə çatmamış yıxılır, paltları toz-torpağa bulaşır. Qalxıb üst-başını çırpır, evə qayıdır, paltarını dəyişib yenidən məscidə yollanır, bu dəfə elə həmin yerə çatanda yenə yıxılır, üst-başı yenə bulaşır. Yenidən evə qayıdıb paltarını dəyişir, üçüncü dəfə məscidə gedir. Yolda qarşısına əliçıraqlı bir adam çıxıb deyir, eyni yerdə iki dəfə yıxıldığını gördüm, ona görə də cıraq gətirib ayağının altını işıqlandırmaq istədim. Cavan oğlan ona təşəkkürünü bildirir, birgə məscidə yollanırlar. Məscidə çatanda cavan ona namaz qılmağı təklif eləyir, amma əliçıraqlı adam boyun qaçırır. Cavan nə qədər israr eləyirsə, getmir, səbəbini soruşanda da deyir, mən şeytanam. Cavan oğlan yerindəcə quruyub qalır. Şeytan deyir, bil, agah ol, sənin iki dəfə yıxılmağına səbəb mən oldum – birinci dəfə yıxanda tez evə qayıtdın, təzə paltar geyinib məscidə qayıtdın, buna görə, Allah-taala sənin bütün günahlarını bagışladı; ikinci dəfə yıxanda da təzə paltarından birini geyinib məscidə qayıtdın, bu dəfə də Allah-taala sənin bütün qohum-əqrəbalarının günahlarını bağışladı; qorxdum ki, üçüncü dəfə yıxılsan, yenə evə qayıda, təzə paltar geyinib məscidə dönəsən, bu dəfə Allah-taala sənin bütün həmşəhərlilərinin günahlarını bağış-*

*laya.* Belə çıxırdı ki, mən iki dəfə yıxıldığım yerə üçüncü dəfə getmək niyyətindəydim. Tiflisə yetişib doğmalarımdan salamat qalanları görmək, Züleyxanın, heç olmasa, ahıllığına ürəkdolusu sevinmək istəyirdim. O məqamda yadıma bir rəvayət düşürdü: *günlərin birində Aşiq Məşuqun qapısını döyür; Məşuq qapını döyənin kim olduğunu soruşur, Aşiq cavab verir ki, mənəm, səni sevən kəsəm; Məşuq deyir, çıx get, sən məni sevmirsən; Biçarə Aşiq çar-naçar çıxıb gedir, illər ötəndən sonra Məşuqun həsrətinə dözməyib yenə onun qapısını döyür; Məşuq yenə soruşur ki, kimsən, bu dəfə Aşiq deyir, sənəm; Məşuq deyir, əgər sən – mənsənsə, içəri girə bilərsən.* Mən – o olmuşdum, amma daha gec idi.

171. İndi mən könül məsələsindən əl çəkib, qismətimə qail olub ömrümün qalanını səyahətnaməni tamamlamaqla keçirmək arzusuyla yaşadığım bir vaxtda ağlım məni Muğan çölünə aparacaq, Vəlinemətin hüzuruna çıxaracaqdı, ondan sonra başıma nələr gələcəyini bir Allah bilir: Muğan çölündən Kartli və Kaxet hakiminin heyətilə Tiflisə də yollana bilərəm, Vəlinemətin istəyilə bəxtimə Təbrizdə, Qəzvində, İsfahanda, Məşhəddə də ömür sürmək düşər, hətta Osmanlı Sultanının sarayına gedən elçi heyətində də peyda olaram – bu, yalnız alın yazısıyla bağlıdı. Deyirlər, xoşbəxt adamın yeddi sirri var: *başqalarının onun barəsində nə düşündüyünü eyninə almır – bu Azadlığın sirridi; hər hansı bir fikrini mütləq həyata keçirir – bu Gerçəkliyin sirridi; öz cismini sevir – bu Gözəlliyin sirridi; özünü və başqalarını ittiham eləmir – bu Dostluğun sirridi; sevgi bəxş eləyir, sevdiklərini dəyişdirməyə çalışmır – bu Sevginin sirridi; əvvəl nəsə verməyi, ancaq sonra almağı öyrənir – bu Zənginliyin sirridi; az düşünür, daha çox sevib-sevinir – bu da Xoşbəxtliyin sirridi.* Belə çıxırdı ki, mən bu sirlərə tam vaqif ola bilməmişdim, ona görə də, xoşbəxtlik barədə xəyallar qurmağım artıq idi. Gecəni də elə bu fikir-xəyalla, az qala, dirigözlü açdım. Səhəri hücrəmizdən çıxanda gördüm, doğrudan da, səhərə yaxın yağış qara çevrilibmiş: yaş torpaq donub bərkimişdi, üstündə əl qalınlığında qar vardı, dan yerində də Günəşin soyuq qızartısı görünürdü. Şəhərin üstünə yüngül duman çökmüşdü, ətrafda elə sakitlik, elə rahatlıq vardı, heç deməzdin ki, bir neçə gün qabaq tüfənglərin, topların guruldadığı, qılıncların şaqqıldadığı, atların kişnədiyi, arabaların cırıldadığı, yaralı fəryadlarının yüksəldiyi

şəhər deyil. Bu məqamda şəhər ağ örtüyün altında mışıl-mışıl yatan məsum gözəli xatırladırdı, o gözəl bir azdan oyanacaq, səslər, hərəkətlər, gurultularla eybəcərləşəcək, gün ərzində get-gedə dəyişəcəkdi. Mən də Allahın ayırdığı iki günlük möhlətdə bütün bunları öz gözlərimlə son dəfə görəcəkdim, çünki bir daha bu şəhərə yolum düşəcəyindən heç əmin deyildim, nə yaşım o yaşdı, nə də bir daha səyahətə çıxmağa həvəsim qalıb. Ona görə də, Əbdülhəsən bəy verdiyi sözə əməl eləyib şəhərin görməli yerlərinə baş çəkməyə şərait yaratsaydı, tarixindən məlum olanları bir kəsdən eşidə bilsəydim, bəsim idi, bəxtimin üzdə olduğunu hesab eləyərdim.

172. İki bütöv asudə günüm vardı, həmin vaxtı şəhərin gəzintisinə sərf eləyəcəkdim. Əlbəttə, dediyim kimi, Firəngistanda Jan Şardənin, Jan-Batist Tavernyönün, eləcə də İstanbulda Övliya Çələbinin səyahətnamələrini oxumuşdum, Rəvanla bağlı yaddaşımda onların yazdıqlarından bəzi şeylər vardı. Amma oxumaq ayrı, gəzib öz gözlərinlə görmək ayrı. Səyyah da elə ona görə səyyahdı ki, oxuduğuyla kifayətlənməyib, rastına çıxan yerləri görsün, üstəlik, qələmə də alsın. Bu niyyətlə oturub Əbdülhəsən bəydən xəbər gözlədim. Günəş bir boy qalxanda Yaqubəli iki nasaqçı, bir də arğaz qaraşın şəxslə gəlib çıxdı, dedi, Əbdülhəsən bəyin sirdaşı şair Fəxri Rəvanidi, şəhəri yaxşı tanıyır, köməyi dəyər. Şair üzündəki xəyalpərvər ifadəylə, dərin gözlərindəki qəribə işıqla görüşdü, sonra miniyə ehtiyac olmayacağını deyib irəli düşdü. Mirzə Kəmaləddin də bizə qoşuldu, nasaqçıların müşayiətilə gəzintimizə başladıq. Bələdçi dedi, şəhərin dəqiq nə vaxt salındığını demək çətindi, adının da cürbəcür yozumları var, deyirlər, «İr» qədim türk sözüdü, «Yerin Günəşə baxan üzü» mənasını verir, «van»da farslarda, «yer» deməkdi. Bəlkə də İr («Yer») tanrısının adından götürülüb, amma burda, binə quran Rəvan xanın adıyla da bağlayırlar, amma əlimdə bir dəlil-sübut olmadığına görə bu fərziyyələrin hansının dəqiq olduğunu deyə bilmərəm; dedi, şəhər Zəngi çayının üstündə salınıb, Qırxbulaq və Zəngibasar mahallarının, Oxçu dağının ortasında yerləşir: şəhər Bayırşəhərdən, bir də İçərişəhərdən ibarətdi. Bayırşəhərdə Şəhri, Təpəbaşı, Dəmirbulaq məhəllələri var. Osmanlı təxminən əlli il qabaq Fərhad Paşanın tikdirdiyi qaladan ibarət İçərişəhərsə

Zəngiçayın sol sahilində yerləşir, güneydə Şirvan, quzeydə Təbriz darvazaları var. Bələdçinin dediklərinə qulaq asa-asa Axund Ələkbərin sözlərini yada salırdım: "Bu şəhər bina olunandan çəkişmələrin ortasında qalıb, əldən-ələ keçib, ənin-amanlıqda olsaydı, gözəllikdə Təbrizlə, Qəzvinlə, İsfahanla bəhsə girərdi."

173. Gürcü karvansarası şəhərin günçıxan tərəfində olduğundan yolumuzun üstündə ilk rast gələn Dəmirbulaq məhəlləsi oldu. Birtağlı körpüdən keçib birqatlı-ikiqatlı evlərin sıralandığı küçələrlə getdik. Kiçik meydanlardakı dükanlar təzəcə açılırdı, baqqallar, əttarlar, çörəkçilər, qəssablar... günü qarşılamağa tələsir, müştəri haylayırdılar. Fəxri Rəvani ikiqatlı, nisbətən zəngin evlərin qənşərində ayaq saxlayır, şeir söyləyirmiş kimi, kimə məxsus olduğunu, təxminən nə vaxt tikildiyini deyir, sonra da üzündəki elə həmin xəyalpərvər ifadəylə yüngülcə təzim eləyib yola düzəlirdi. Yolumuz üstündəki karvansaralara, hamamlara, məscidlərə maraqla baxırdım. Burda evlər, hamamlar, karvansaralar bişmiş kərpicdən inşa edilib, bu da tikililərə, xüsusi yaraşıq verir. Sonra gəzdiyimiz Təpəbaşı və Şəhri məhəllələrində gördüklərimi, bələdçimizin danışdıqlarını bir-bir yaddaşımıza yazırdım. Günorta namazımızı da yolumuzun üstündəki Zal xan məscidində qıldıq. Çuxursəd bəylərbəyinin adına tikilmiş bu birminarəli məscidin həyətində də bir qədər oturub dincimizi aldıq. Artıq qar ərimişdi, uzaqlarda ana-bala kimi bir-birinə sığınmış Ağrı dağlarının gözqamaşdıran dümağ zirvələri görünürdü. Dəmirbulaq məhəlləsindəki Susuz karvansarasının yanından keçəndə üzünü qoşa zirvəyə tutub dua pıçıldayan Qars taciri barədə eşitdiyimi xatırladım. Davadan, sonra da qışın üzündən nə müddətdi burda ilişib qalmışdı, məmləkətinə yetişəcəyi günü gözləyirdi. Bunu Fəxri Rəvani söyləmişdi, onun dediyinə görə, yollar hələ Osmanlı əsgərlərilə doludu, zavallı qorxur ki, aclıqdan, əzab-əziyyətdən cana doymuş adamların əlinə keçər. Ac qılınca çapar – insan övladı sağ qalmaq üçün nələr eləməz: yenə yaddaşımdan İsfahanda keçirdiyim o miskin günlər, ot-əncər, çiy at əti yeyən adamlar boy verdi.

174. Təpəbaşından enib aradakı bağları ötdük, qalaya yaxın Səhri məhəlləsinə girdik. İndi gördüm ki, bu məhəllə Bayırşəhərin ən gur yeridi. Şəhərin böyük bazarı, iri dükanları, karvansaraları,

hamamları burda yerləşir. Əsasən bişmiş kərpicdən tikilən çoxlu böyük binalar var. Fəxri Rəvaninin dediyinə görə, Rəvan qalası tikilməmişdən qabaq şəhərin mərkəzi Şəhri məhəlləsi sayılırmış, ona görə də, indi adına Əski məhəllə də deyirlər. Bazarda Çin ipəyindən tutmuş Bağdad xurmasınacan hər şey tapmaq olar. Dükanların birində uşaq vaxtı Tiflis evlərinin eyvanlarından asılmış, içi cövüz ləpəsilə dolu sucuqlardan gördüm. Özümü saxlaya bilməyib, on dənəsini aldım, yaşımdan utanmaq qorxusu olmasaydı, elə uşaq vaxtlarımdakı kimi, bazardaca yeyərdim. Mirzə Kəmaləddinə şəhərimlə bağlı xatirələri bir daha danışmaqdan da özümü güclə saxladım. Elə böyük bazardakı aşxanaların birində nahar eləyəndən sonra Fəxri Rəvani bizi uzaq-uzaq ellərdə tanınan Səlim karvansaralarına da apardı. Karvansara yonma daşdan tikilib, girişinin hər iki tərəfində şir oyması var. Talın karvansarasısa kərpicdəndi, amma ölçülərinə görə bizim qaldığımız Gürcü karvansarasından iridi. Sonra Zəngi çayının üzərindəki iki böyük, bir kiçik tağı olan daş körpüyə baxdıq. Əlbəttə, Firəngistanda, Veneziada, İstanbulda, Anadoluda, Səfəvi məmləkətində gördüyüm körpülərin yanında çox balaca olsa da, Rəvan üçün böyük sayıla bilərdi. Böyük körpünün üstündə Fəxri Rəvani bu şəhərin gözəlliyinə yazdığı bir mədhnaməsini oxudu. Həmin məqamda yanımda kağız-qələm olmadığına təəssüfləndim, fikirləşdim ki, sabah bir daha oxumasını təvəqqe eləyib yazaram. Körpüdən enəndən sonra bələdçimiz ayaq saxladı, bugünkü gəzintimizi burda saxlayıb qayıtmağımızı məsləhət bildi. Göyün üzü tutulmuşdu, ola bilsin, bir azdan qar yağmağa başlayaydı. Əgər qismət olsaydı, İçəri şəhəri sabah gəzəcəkdik.

175. Axşam namazından və şam yeməyindən sonra gördüklərimi çıraq işığında kağıza köçürüb rahatlandım, bir müddət də karvansaranın həyətində xırdaca-xırdaca yağan qarın altında gəzinib yatdım. Səhəri bələdçimiz Fəxri İrəvani yenə eyni vaxtda gəldi, dünənki kimi, Mirzə Kəmaləddinlə ona qoşulub qalanın Şirvan darvazasından İçərişəhərə girdik. Elə o məqamda yadıma düşdü ki, Rəvan haqqında mədhnaməsini kağıza köçürmək istəyimi unutdum, amma daha geri qayıtmağın yeri deyildi. Hələ Osmanlı əsgərləri qaladan tamam çıxmamışdılar, hər yerdə atların, qatırların belində, piyada Təbriz darvazasına doğru gedən

dəstələrə rast gəlirdik. Arabalar yaralı və xəstə əsgərlərlə doluydu. Dəfələrlə dağıdılıb təzədən bərpa olunmuş qala üç tərəfdən dərin xəndəklərlə əhatə olunub, Zəngi çayı tərəfdənsə iki hündür divar çəkilib. Qalada iki məscid, bir saray, qoşun başçılarının yaşadığı evlər, dükanlar gördüm. Bələdçimizin dediyinə görə, qalaya yeraltı yollarla Zəngi çayından və Qırxbulaq çayından iki içməli su kəməri çəkilib. Tağ, Çörəkçi, Çölməkçi meydanlarını gəzdik, qəribəsi buydu ki, yerli camaat qaladan çıxan Osmanlı əsgərlərinə nifrətlə yox, rəhmdil nəzərlərlə baxırdılar. Hələ bir-iki yerdə yaralılara çörək-su verən adamlar da gördüm. Fəxri Rəvani Şirvan davasından lalübalı ifadəylə də çıxıb getdi, bir daha onu görmədim. Axşam yenə olub-keçənləri bugünə necə gəlib çatdığımı yadıma salıb Allahıma şükür elədim, bu dəfə də Kitabdar Mühiddin Əfəndidən eşitdiyim rəvayəti xatırladım: *mələk bir nəfərə deyir, istəyirsən həyatını sənə göstərim; deyir, istəyirəm, mələk də onu qaldırır göyə, həmin adam aşağı baxanda özünün yanaşı ayaq izlərini görür, soruşur ki, bəs yanımla gedən kimdi; mələk deyir mənəm, ömrün boyu yanınca gedirəm; həmin adam təəccüblənir ki, bəs niyə bəzən bircə ayaq izi görünür; mələk cavab verir ki, bu həyatının ən çətin məqamlarıdı; adam bu dəfə heyrətlənir ki, yoxsa həyatımın ən vaxtlarında məni atmısan; yox, mələk gülümsəyir, səni əllərimin üstündə aparmışam...*

# VI

# İLĞIMLAR İÇİNDƏ YOLÇULUQ

*Mehrinə aldanma, İlahi,*
*bu fələyin kim, günü*
*Göyə yetirmiş, yenə xakilə*
*yeksan eyləmiş.*

***ŞAHİ***
***(XV-XVI yüzillər)***

176. Səhər durub yığışdıq, Səfər kitab, yazı ləvazimatı, geyim-gecimimiz yığılmış sandıqları qatırlara yüklədi, Qara Süleymanın neçə gündən bəri bizə qonaqpərvərlik göstərən külfətilə halal-hümbət eləyib, yola düzəldik, Qara Süleyman özüsə bizi düz Nəqşivan yoluna, heyətimizin səfərə çıxmaq üçün yığışdığı yerəcən ötürdü, orda göz yaşlarıyla ayrıldı. Ona çox isinişmişdim, beynimdən keçirdim ki, ən azı, Muğan çölünə yetişənəcən bu genişürəkli, ağıllı könül adamından ötrü darıxacağam. Üçgünlük haqq-hesabını artıqlamasıyla vermişdim, dönə-dönə razılığını bildirmiş, balalarının ruzisini yetirdiyinə görə, Allaha ürəkdən şükür eləmişdi. Karvansaranın o biri hücrələrində yaşayanlar – Tiflis, Şirvan, Şəki, Bakı tacirlərinin biri gəlib, biri gedəcək, əmin-amanlıq olduğu müddətdə Qara Süleyman adətkərdə olduğu günlərini yaşayacaq, məni də ömründən keçən adamların siyahısına yazacaqdı. Mən bu fikir-xəyalda olduğum vaxt Məhəmmədqulu xanın heyəti göründü. Xanın özü gözəl yəhəryüyənli atın belində bahalı geyim-kecimiylə oturmuşdu, çiyninə ayaqlarınacan örtən zər işləməli xəz bürünəcək salmış, başına qızılbaş çalması qoymuşdu, nəzərlərini ətrafda təzim eləyən adamlara çevirmədən vüqarla gedirdi. Axund Ələkbər içinə xalça döşənmiş arabada çağlara söykənib oturmuşdu, gözləri mənə sataşanda azacıq gülümsünüb başını tərpətdi. Nasaqçıbaşı Əbdülhəsən bəy məni üçnəfərlik dəstəmlə hazır görüb arxayın

oldu. Onların arxasınca atlara, qatırlara süvar olmuş, arabalara doluşmuş, bir parası da pay-piyada olan yüzdən artıq adam vardı. Muğan çölünəcən, mənim hesabımla on beş günlük yolda bu adamlardan bəzilərini tanıyacağım barədə düşünə-düşünə karvana qoşulub yola düzəldik. Hər namaz vaxtı dayanmağımızı, yemək yeməyimizi, gecələdiyimizi yerli-yataqlı danışmaq fikrində deyiləm, bircə onu deyim ki, bir gün Nəqşivanda qaldıq, Naxçıvan xanları, bəyləri, üməmaları da heyətimizə qoşuldular, Əylisdə dincəlmək üçün dayananda Bazarbaşındakı həmin məşum müsafirxanaya düşməsək də, az qala, iyirmi il qabaqkı duyğuları təzədən yaşadım: hələ dünyanı təzə-təzə anlayan vaxtında taleyimi dəyişən qəddar məxluqları, bir neçə an çəkən, amma mənə əbədiyyət kimi gələn, ömrüm boyu arxamca qarabaqara düşüb izləyən o gecə vəhşətini, çaqqal gözlərinin qorxunc parıltısını, neçə illərdən sonra öz ciyərinin qanını içən həmin qoca çaqqalın heyvani ölümünü bütün cismimlə, duyğularımla təzədən yaşadım.

177. İxtiyar məndə olsaydı, qəfiləmizin Əylisdə dayanmasına razı olmazdım, başqa yerdə, lap elə Araz çırağında güzərgah qurulmasını buyurardım. Amma mənim yaşantılarım kimsəyə məlum deyildi, heç neçə illərdən bəri ülfət bağladığım Mirzə Kəmaləddinə də bu barədə yerli-yataqlı bir şey söyləməmişdim, bildiyi Tiflisdə doğulduğumdan, ata-anamı itirəndən sonra taleyin gərdişilə Firəngistana yollandığından, sonra Veneziaya, ordan İstanbula, ardınca firəng elçisinin mütərcimi kimi Əcəm ölkəsinə yollanmağımdan ibarətdi. Ömrümün hekayətini başqalarına söyləməyi xoşlamırdım, öz dərdimi özüm çəkmək istəyirdim, başqalarının dərdinin üstünə dərd gətirmək məndən ötrü məqbul deyildi. Əlbəttə, olacağa çarə yox idi, mən Əylisin yox, Əylislə bağlı o məşum təsadüfün düşməniydim. Öz dərdimlə tək qalıb yola düzələnəcən yaramın qaysağını yelləmək istəyirdim. Amma su ki qaba girdi, oldu içməli, yəni Rəvan xanının heyətinə qatılmışdımsa, yaxamı qırağa çəkə bilməzdim. Qorxduğum elə o axşam başıma gəldi: təzəcə yerbəyer olub vaxt tez keçsin deyə, yuxulamağa çalışırdım ki, Məhəmmədqulu xan məni öz süfrəsinə çağırtdırdı. Candərdi getməli oldum, amma Axund Ələkbərin, Əbdülhəsən bəyin, Rəvan və Nəqşivan xanları-

nın olduğu məclisdə özümü çox narahat elədim. Xanın domba gözləri, ətli yanaqları, salaq bığları, bahalı üzüklərin bərq vurduğu barmaqları, soyuq baxışları məclisin sonunacan mənə dinclik vermədi. Yemək bitib ortaya şərbət, qəlyan gələnəcən kimsə dinib-danışmadı, sonra Baba xan Vəlinemətin bu yığnaqda əsas məqsədinin nə olduğunu Məhəmmədqulu xandan soruşdu, xan da, görünür, bildiklərini gizlədib, böyük xanın məmləkətin gələcəyi barədə məsləhətləşmək istədiyini, Səfəvi xanədanının taleyindən nigarançılıq duyduğunu söylədi, sonra da üzünü mənə tutub gəzib-gördüyüm yerlərdən danışmağımı istədi. Mən də Axund Ələkbərə, Əbdülhəsən bəyə söylədiklərini təzədən müxtəsərcə nəql eləməli oldum, qəsdən Şah Sultan Hüseynlə İsfahanda görüşdüyümü, Mirzə Mehdiylə isti münasibətimin olduğunu dilimə gətirəndə Məhəmmədqulu xanın yerində necə qurcalandığını sezdim.

178. O gün, şaban ayının ilk günü erməni xəlifəsi də dəstəsilə gəlib çıxmışdı, deyilənə görə, artıq Məhəmmədqulu xanla görüşmüşdülər, amma nə danışdıqlarından xəbərim yox idi. Səhəri gün Əylisdən çıxdıq, günortadan sonra Araz sayını keçib gecəni Qaradağda keçirdik, hava işıqlaşanda yola düzəlib Muğan çölünə doğru yönəldik. İrəlidə nasaqçılar, arxasınca Məhəmmədqulu xan yanında Baba xan, Sərdar xan, Axund Ələkbər gedirdi, Əbdülhəsən bəyi karvanın harasında desən, görmək olardı; sonra erməni xəlifənin qəflə-qatırı düşülmüş, xəlifənin özü saman tökülmüş arabadakı rahat yerdə uzanmışdı; arxada Yaqubəlinin və iki nasaqçının müşayiətilə bizim üçnəfərlik dəstəmiz yolun damarını qırırdı. Arazı keçən kimi, Mirzə Kəmaləddin də, qatırçı Səfər də elə bil hövllənmişdilər, dilləri düz-əməlli söz tutmurdu. Qaradağda gecələyəndə beynimdən keçirdim ki, neçə illik yol yoldaşlarımla vidalaşım, burdan Təbrizə vur-tut üç-beş günlük, Qəzvinə də uzaqbaşı bir həftə-on günlük yoldu, qoy gedib doğmalarına qovuşsunlar. Üstəlik, fikrimdəkini də dilimə gətirib özlərinə söylədim. Udqunub bir-birinin üzünə baxdılar, imanımı yandıra bilmərəm, bəlkə də mənim ağlıma gələn onların da ağlına gəlmişdi, ola bilsin, bu barədə danışmışdılar da. Mirzə Kəmaləddin əvvəl yerə, sonra üzümə baxıb dedi, neçə illərdi yol-yoldaşıyıq, öküzü soyub, bıçağı quyruğunda sındırmazlar, səni

Tiflisə yola salandan sonra arın-arxayın gedərik, minə dözən, min birə də dözər, bizim fikrimizi çəkmə. Onların sədaqətindən kövrəlib bir daha bu haqda söhbət açmadım. Bu tərəflərin iqlimi mülayim olduğundan Qaradağdan sonrakı yolumuz elə də çətin olmadı. Düzdü, arada yağış yağırdı, amma qışın girdiyini hiss eləmirdik, yolumuzun üstündəki obaların yaşıllığı göz oxşayırdı. Amma Muğan çölünə yaxınlaşdıqca mənzərə dəyişir, göz oxşayan yaşıllıq boz çöllərlə əvəz olunurdu, biz də atları və qatırları ehtiyat üçün götürdüyümüz yemlə doydurmalı olurduq. Vəlinemətin düşərgəsinə yaxınlaşanda bələdçinin göndərdiyi carçı ucadan bu şad xəbəri karvanımıza çatdırdı, beləcə, şaban ayının iyirminci günü köçümüz düşərgənin bir neçə yüz addımlığında dayandı.

179. Vəlinemətin əmrilə düşərgənin üst tərəfində dəvət olunan xanlardan ötrü beş yüz qamış koma hazırlanmışdı. Nasaqçıbaşı Əbdülhəsən bəyin göstərişilə heyətə daxil olanlar o komada yerləşdirildilər. Bizim daxmamızda Yaqubəli iki nasaqçı, bir xidmətçi, – cəmi yeddi nəfər vardı. Nasaqçılar yır-yığış eləyib yerə xalça-palaz sərdilər, yataqlarımızı səliqəyə saldılar, ümumi tövlədə Səfər atları və qatırları yerləşdirib rahatlandı. Bu müddətdə hava qaraldığından o gün bir şey görə bilmədik, ancaq yaxında atlar fınxırır, yaraq-əsləhə səsi, adamların bir-birini səsləmələri, ucadan verilən buyruqlar eşidilirdi. Sonra əzan səsi ucaldı, namazımızı qılıb yeməyimizi yedik. Yaqubəliylə nasaqçılar Əbdülhəsən bəyin qulluğunda olduqlarından komada üçümüz, bir də xidmətçi qalmışdıq. Arzumuzu gerçəyə çevirdiyinə, bizi fövqəlhadisəyə bu qədər yaxınlaşdırdığına görə Allahımıza dua eləyib ordan-burdan söhbət elədik, sonra yatdıq ki, səhər tezdən oyanıb Vəlinemətin qüdrətini İlahinin nurunda görək. Səhər namazında da qalxıb ibadətimizi elədik, sonra yeməksiz-filansız Səfərə tapşırdım ki, atları gətirsin, Yaqubəlinin və iki nasaqçının müşayiətilə düşərgəni gəzməyə çıxdıq. Yaqubəlinin axşam Əbdülhəsən bəydən eşitdiyinə görə, Vəlinemət burda taxtadan və qamışdan on iki mindən artıq qalacaq, məscid, hamam, bazar, özünün və hərəmxanasının yaşaması üçün saraymisal tikili hazırlatmışdı, Böyük Xanın bir-iki həftəyə Tiflisdəki gəlib çıxması gözlənilir. Araz yuxarı gedib çayın Kürə qovuşduğu yeri gördük. Qovuşuqdan bir neçə yüz addım aşağıda Arazın, qo-

vuşuqdan bir neçə yüz addım sonrasa Kürün üzərində körpülər salınmışdı. Bir-birinə, hər iki tərəfdəsə sahilə yoğun kəndirlərlə bağlanan salların üzərinə taxta döşənmiş, gediş-gəliş üçün rahat yol salınmışdı. Kürün körpüsünün hər iki tərəfində taxtadan qəsrə oxşar qüllələr tikilmiş, atəşsaçan silahlar yerləşdirilmiş gözətçilər qoyulmuşdu ki, düşmənin hücumu düşərgədəkiləri qəfil yaxalamasın. Kimsə gözətçilərdən izinsiz gecə-gündüz qorunan o körpüyə qədəm basa bilməzdi. Yaqubəlinin dediyinə görə, düşərgənin o biri yanından yol Şamaxıya, Tabasarana, Avarıstana, Dərbəndə, Hacıtərxana, Moskov çarlığına, Tatarıstana uzanırdı, təhlükə gözlənilmədiyindən cəmi-cümlətanı bir neçə adamın qoruduğu Araz körpüsündən keçəndəsə Qarabağa, Gəncəyə, Qazağa, Tiflisə, ordansa Rəvana yetişmək olardı. Qısası Vəlinemətin düşərgəsi quzeydə Araz, Güneydə Kür olmaqla Cavad yaxınlığındakı düzəngahda salınmışdı, belə böyük yığnaq üçün doğrudan da, ən münasib yer idi.

180. Təkcə bu gəzinti Vəlinemətin əzəmətini və qüdrətini dərk eləməyə yetdi. Günorta namazınacan gördüklərimi kağıza köçürməklə, Mirzə Kəmaləddinin təəssüratını dinləməklə məşğul oldum, sonra Əbdülhəsən bəy gəlib bir şeyə ehtiyacımız olub-olmadığını soruşdu, gedəndə dedi, sabah xaçpərəstlərin milad bayramıdı, erməni xəlifəsi bayram ibadəti keçirməyə hazırlaşır; gəlişinizdən xəbər tutub, sizin iştirakınızı da təvəqqe elədi. Bu cür bayramları Firəngistanda, Veneziada, İstanbulda dönə-dönə görsəm də, getməyi qərara aldım, hər halda, xəlifənin söz-söhbətindən bundan sonrakı addımlarını təxmin eləmək faydalı olardı. Şübhəsiz, xəlifə arxayındı, Məhəmmədqulu xan kimi hökm-fərma bir kəsə söykənib, üstəlik, Vəlinemətin həmtayfasına xoşniyyətli münasibətindən və tükənməyən səxavətindən mümkün qədər yararlanır. İşdir-şayəd, Məhəmmədqulu xan yenə Vəlinemətin etibarını qazanıb Rəvan xanı olsa, xəlifənin istəkləri bircə-bircə yerinə yetəcək – buna əmindim. Əlim Mirzə Mehdinin əlinə çatsaydı, ya da Vəlinemətin qardaşı İbrahim Xanın hüzurunda söz demək imkanı tapsaydım, mütləq bu məsələni çatdırardım. İbrahim Xanın məqamının Vəlinemətin yanında uca olduğunu bilirdim. Məşhədi uğanlardan təmizləyən kimi, qardaşını Xorasan hakimi qoymuşdu, Mərv tatarlarının üstünə də

elə onu göndərmişdi, Təkəli, Yumurlu, Sarılı türkmənlərinin qiyamını yatırmağı ona tapşırmışdı, Fərəh hakimi Zülfüqar xanla Maruçaq hakimi Mövludqulu xanı onun əlilə zərərsizləşdirmişdi, Təhmasib Mirzəni taxtdan salandan sonra Rzaqulu Mirzəni Xorasana, Nəsrulla Mirzəni Herata, İbrahim xanınsa Azərbaycana bəylərbəyi təyin eləmişdi, bir sözlə erməni xəlifənin əməllərini onun bilməsi vacib idi. Beynimdə bunları dolandıra-dolandıra qalmışdım, ona görə də fikrimi dağıtmaq, narahatlığımı ovutmaq niyyətilə günortadan sonra Mirzə Kəmaləddinlə gəzintiyə çıxıb hər iki körpüdən düşərgəyə gələnlərə tamaşa elədim. Atlı, qatırlı, arabalı, piyadalı dəstələr gəlir, qamış komalara paylanır, çadırlar qurulur, ocaqlar qalanırdı.

181. Səhəri gün – çərşənbə günü oyananda erməni xəlifəsinin böyük çadır qurdurduğunu gördük. Çadırın üstü xristian məbədlərinin qülləsinə oxşayırdı, cürbəcür naxışlar, güllər, xaçlarla bəzədilmişdi. Həzrəti İsanın doğum gününü bayram eləyənlər əllərində qab-qacaq, yandırılmış şamlar çadırdan çıxıb nəğmə oxuya-oxuya Araza doğru getdilər, xaçı suya salıb çıxardılar, dua oxudular. Xəlifənin iyirmi beş nəfərlik heyətindən başqa ordan-burdan topladığı yüzdən artıq xaçpərəst, Məhəmmədqulu xan, Rəvan xanları, ağaları, bəyləri, şeyxülislam məqamını tutan Axund Ələkbər, qazilər, yüzbaşılar da ibadətdəydilər. Cəmi üç yüz nəfərdən artıq adam olardı. Müsəlmanlar xaç salınmış Müqəddəs Sudan götürüb üzlərinə çəkirdilər, bu da məni çox təəccübləndirdi. Sonra xəlifə adlı-sanlı zatları öz çadırına nahara dəvət elədi, amma mən getmək istəmədim, üşütdüyümü bəhanə gətirib Mirzə Kəmaləddinlə daxmamızda söhbətə üstünlük verdim. Aydın idi ki, Vəlinemətlə bağlı erməni xəlifənin fikrində nələrsə vardı, bu yığnağın nəyə görə keçirildiyini də əvvəlcədən bilir, ona görə də tədarükünü əvvəlcədən görüb. Amma Mirzə Kəmaləddinin dediyi kimi, bu qədər məkrlə, fitnəylə, həsədlə yaşamaq asan iş deyildi. Sınaqdan çıxmış həqiqətlər var: *pislik eləmə, pislik görərsən: quyuya tüpürmə, ordan özün də su içə bilərsən, başqalarına zülm vermə, özün də zülmlə rastlaşarsan; qonşuna xəyanət eləmə, xəyanətlə rastlaşarsan; özünü aldatma, zaman keçdikcə öz yalanına inanarsan*. Güman ki, illər keçəndən sonra öz uydur-

duqlarına inanacaq, dəridən-qabıqdan çıxıb başqalarını da buna inandırmağa çalışacaqdılar.

182. Günortadan sonra göyün üzü tutuldu, qar yağmağa başladı. Əbdülhəsən bəyin səxavətindən, Səfərin diribaşlığından, Yaqubəlinin və nasaqçıların qoçaqlığından komamız istiydi, qamış divarlara keçə tutulmuş, yerə həsir döşənmişdi, orta ocağında odun çırtaçırtla yanır, yolların yorğunluğunu canımızdan çıxarırdı. Axşama yaxın Əbdülhəsən bəy gəlib məni Axund Ələkbərin yanına apardı. Orda xəbər tutdum ki, erməni xəlifə, guya, soyuq olduğunu bəhanə eləyib Böyük Xan gələnəcən Dizağa getmək üçün Məhəmmədqulu xandan izin istəyib, o da Vəlinemətin qorxusundan boyun qaçırıb. Dediklərinə görə, elə Məhəmmədqulu xanın özü də naxoşlayıbmış, amma Böyük Xanın qəzəbinə düçar olmamaq üçün bir yana gedə bilmirmiş. Əbdülhəsən bəy xanı dilə tutub ki, xəlifəni buraxsın, Vəlinemət gələndə dalınca çapar göndərər, o da qayıdar. Məhəmmədqulu xan çar-naçar razı olub, xəlifə də başının dəstəsilə Dizəyə yollanıb. Axund Ələkbər söhbətə uzaqdan başlasa da, mətləbi çox ehtiyatla Məhəmmədqulu xanla erməni xəlifənin üstünə gətirdi, Vəlinemətin taxta çıxmaq məsələsi ortaya gələndə səfəvilərin xanlıq məqamına çatdırdığı Məhəmmədqulunun hansı mövqe tutacağını qayğılı-qayğılı dilinə gətirdi, üstəlik, üstüörtülü nəsil-nəcabətinə işarə vurdu. Movsesin Musa olub bəyliyə çatması, nəvəsinin də Məhəmmədqulu adıyla xan məqamı tutması, Axund Ələkbərin fikrincə, heç nəyi dəyişməyəcəkdi, həftə səkkiz, mən doqquz cürbəcür bəhanələr tapıb xəlifəylə görüşməsi nələrdənsə xəbər verirdi. Əbdülhəsən bəy Axund Ələkbərin komasının qapısına etibarlı adamlarını qoymuşdu, ona görə də Axund Ələkbər Vəlinemətə Rəvan xanlığına münasib bir şəxsin göndərilməsini çatdırmağın vacibliyini açıqca dilinə gətirdi. Bunu da Mirzə Mehdi, ya da İbrahim Xanın araçılığıyla mən çatdırmalıydım, deməliydim ki, Səfəvi xanədanın xanlıq verdiyi bir kəsdən Vəlinemətin sədaqət gözləməsi düzgün olmazdı. Əlbəttə, həmin məqamda bu etimaddan boyun qaçıra bilməzdim, əgər köməyim dəyərdisə, bunun özü də mənə münasibətləri müqabilində xidmət olardı. Axund Ələkbər Böyük Xan gələnəcən bir daha görüşüb-danışacağımızı deyib mənimlə vidalaşdı…

# VII

# VƏLİNEMƏTİN İNTİZARINDA

*Ər yigit qayda ürkər ürkülərdən,*
*Yaxşı at bəlinləməz ilkülərdən.*
*Düşmənlər bizdə bolsa, ditrəşsünlər,*
*Qaçan Aslan çaypınmaz dilkülərdən.*

***Qazi BÜRHANƏDDİN***
***(XIV yüzil)***

183. Vəlinemətin gəlməyi üç həftə çəkdi. Bu müddətdə gündüzlər hava yaxşı olanda Kürün körpüsünə yaxın gedib düşərgəyə gələn dəstələrə tamaşa eləyir, qalan vaxtlar qamış komada gördüklərimi-eşitdiklərimi qələmə alır, Axund Ələkbərin, yaxud Əbdülhəsən bəyin yanına söhbətə gedirdim. Deyirdilər, Vəlinemət Qazıqumuq dərəsindəki Göysuda Surxayın da, Eldarın da qoşunlarını darmadağın eləyib, Qumuqda bütün hakimlər ayağına gəlib, itaətlərini bildiriblər, təkcə Surxay qaçıb Avarıstana gedib, ailəsini də qabaqcadan ora göndəribmiş; Vəlinemət usmi Əhməd xanın əlində olan Qurayiş qalasına gedib, usmi də qızını və ən yaxın adamlarından biri dəstəsini Vəlinemətin yanına göndərib, əfvini istəyib. Əbdülhəsən bəyin danışdığına görə, usminin qızı Məşriqin gözəl qadınlarındanmış, amma görünür, Böyük Xanın belə şeylərə baş qoşmağa nə vaxtı, nə həvəsi varmış, ona görə də qızı Quba hakimi Hüseynəli xana bağışlayıb, usmidənsə tələb eləyib Doqquzpara ləzgiləri hüzuruna min at göndərsinlər, adlı-sanlı ailələrdən də girov qoysunlar ki, onların sədaqətinə şübhə olmasın. Bu şərtləri yerinə yetiriləndən sonra Vəlinemət girovları Dəmirqapı Dərbəndə göndərib, Xasbulada və bir çox Dağıstan əmirlərinə qiymətli xələtlər verib, indi Muğan çölünə yaxınlaşmaqdadı, inşallah, bir neçə gündən sonra mübarək qədəmlərini düşərgəyə basacaq. Əbdülhəsən bəyin dediklərindən Məhəmmədqulu xanın komasından çölə

çıxmadığı, hərdən Naxçıvan və Rəvan xanlarının, kələntərlərin, məliklərin ona baş çəkdikləri məlum olurdu. Bir kərə də Axund Ələkbərlə mən getdim. Məhəmmədqulu xan kürəyini komanın yan dirəyinə söykəyib yatağının içində oturmuşdu, donba, durğun gözlərindən, ətli yanaqlarından, sallaq bığlarından hüzn tökülürdü, elə bil, edamını gözləyən məhbus idi. Yanında oturduğumuz müddətdə bizimlə beş-on kəlmə kəsdi-kəsmədi, yadımda deyil. Əbdülhəsən bəyin dediyinə görə, düşərgədən təbib tapıb gətiriblər, o da baş açmayıb, deyib, xəstənin cismində elə bir böyük fəsad yoxdu, görünür, onu ruhundakı təlatümlər haldan salır.

184. Muğan çölünə gəlişimizin on birinci günü mübarək ramazan ayı girdi, əvvəlki gün niyyət gecəsini Axund Ələkbərin komasında keçirdik, məmləkətimizdə əmin-amanlığın bərqərar olması, davaların bitməsi, bu məqamda yeganə pənahımız olan Vəlinemətin taleyinin uğurlu olması üçün dua elədik. Hamının fikri buydu ki, ruhunu şeytana təslim eləmiş Şah Təhmasib də, dörd yaşlı Şah Abbas da məmləkətin salamatlığının qeydinə qala bilməzdilər, bu yükün altına ancaq Vəlinemət kimi yenilməz adam girə bilərdi. Düşərgədə cürbəcür şayiələr dolaşsa da, Səfəvilərin sonunun yetişdiyini, yeni xanədanın taxta çıxacağını açıq-aşkar duyurdum. Düzdü, deyilənə görə, Vəlinemət yığılanlara Səfəvilərdən birini taxta oturtmağı söyləyəcəkdi, amma insan gücə tabedi, güc də bu məqamda Vəlinemətdədi, ağlı olan kəs dilinə başqa bir kimsənin adını gətirməzdi. Üstəlik, camaat arasında körpə şah haqqında cürbəcür şayiələr gəzirdi, yalan-gerçək deyirdilər, sağ deyil, biçarə artıq bilinməyən xəstəlikdən ölüb, Vəlinemət də taxtın boş qalmaması üçün yığnaq çağırıb. Əbdülhəsən bəy, deyəsən, Vəlinemətin Muğan çölünə yola düşdüyü xəbərini alan kimi, erməni xəlifənin ardınca Dizəyə çapar göndərmişdi, çünki ramazanın səkkizinci günü xəlifə başının dəstəsilə özünü yetirdi, üstəlik, ramazan bayramımızı təbrik eləməyə də fürsət tapdı, sonra bir gün gecikməyinin təlaşı içində Vəlinemətlə görüşə hazırlaşmağa başladı. Vəlinemətin gəlişisə vəsfə sığmayan təntənəydi. Əvvəlcə carçılar Kür körpüsündən düşərgəyə girib onun gəlişini xəbər verdilər, sonra məmləkətin hər yerindən gəlmiş valilərin, xanların, hakimlərin

heyətləri onun pişvazına çıxdılar. Məhəmmədqulu xan hər iki tərəfdən qoluna girmiş xanların arasında, Axund Ələkbər, mən, Mirzə Kəmaləddin, Əbdülhəsən bəy də onların yanında durub Vəlinemətin gəlişini gözləyirdik. Vəlinemət düşərgəyə Kür körpüsündən girdi, təzimlə üzüqoylu düşmüş adamların arasından keçdi, yorğun da olsa, görkəmində insanın canına qorxu salan əzəmət, vüqar, ciddiyyət vardı. Gözlərini düz irəli zilləmişdi, keçib-getdiyi müddətdə kimsənin üzünə xüsusi olaraq baxmadı. Aradan keçən on üç-on dörd il ərzində Vəlinemətin halında elə bir dəyişiklik hiss eləmədim, məndən cəmi on dörd-on beş yaş cavan olsa da, çox qıvraqdı. Qüruba enən qış günəşinin şüası üzünə düşdüyündən simasındakı, daha doğrusu, gözlərindəki ifadəni sezə bilmədim. Amma qəti əmin oldum ki, bu əzəmətlə düşərgəyə girən Vəlinemət düşərgədən Şah kimi çıxacaq.

185. O gecəni Mirzə Kəmaləddinlə söhbətdə keçirdik. Ağlına gəlmişdi ki, Vəlinemət bura çağırdığı kəslərdən itaət gözləyir, üstəlik, əgər itaət göstərdinsə, onun əmrində olmalısan; tutaq ki, Şah məni çağırmasa da, kimliyimi öyrənib desə ki, Mirzə Yusif, Rzaqulu xanla Məşhədə yollan, onun yanında olub-keçənləri qələmə al, etiraz eləmək olarmı? Düzü, belə şeyi fikirləşməmişdim, dərdim-azarım bu fövqəltarixi hadisəni görmək, səyahətnaməmin səhifələrinə köçürməkdi. Həmin məqamda gözlərimin qabağına Mirzə Mehdinin nigaran Mirzə Möminin ifadəsiz, tox, amma hər an dəyişməyə hazır sifətləri gəldi: Vəlinemət keçib-gedəndən sonra başımı azacıq qaldırıb baxanda onlar yanımdan ötürdülər, əlbəttə ki, minlərlə adamın arasında mənim də olduğumu ağıllarına gətirə bilməzdilər. Axşam bütün bunları götür-qoy eləyəndə Mirzə Kəmaləddinin məsləhətilə Mirzə Mehdinin hüzuruna getmək, ab-havanı irəlicədən öyrənmək fikrinə düşdüm. Elə o gecə Əbdülhəsən bəydən eşitdim ki, Vəlinemət Dağıstanda əmin-amanlıq yaradandan sonra Tiflisə gedib, şəhərdə onu elə dəbdəbəli təntənəylə qarşılayıblar ki, ruzigarın gözü belə şey görməyibmiş; Böyük Xanın keçdiyi küçələrə xalı-xalçalar döşənibmiş. O da əzəmətlə hökmdar sarayına gedib, tabe olan gürcülərə iltifat göstərib, hədiyyələr verib. Əli Mirzəni məqamında saxlasa da Səfi xan Buxairini Tiflisdə saxlayıb ki, ona göz olsun, Osmanlılarla, ya da ruslarla yaxınlaşmasına imkan verməsin. Amma

Vəlinemət nə qədər iltifatlı olsa da düşmənlərinin təhrikilə ona müqavimət göstərənləri də bağışlamayıb, cəzalandırıb ki, bir daha bu fikrə düşən olmasın, üstəlik, altı min ailənin Xorasana göndərilməsi barədə əmr verib. Yurd-yuvalarından əlləri üzülən binəvaların vəziyyətini gözlərimin qabağına gətirib pərişan oldum, istər-istəməz Tiflisdə qalanları – Züleyxanı, İsmayılı, Davidi, Ketinonu düşündüm: görəsən, indi haralardaydılar, başlarına nə gəlmişdi?

186. Səhəri Əbdülhəsən bəyin araçılığıyla Mirzə Mehdiyə görüşmək arzumla bağlı xəbər göndərdim. İndiki məqamda onun tezliklə vaxt tapacağını güman eləmirdim, amma günorta namazından sonra qapıçılardan biri gəlib məni onun yanına apardı. Astarabadlı Məhəmməd Naşirin oğlu Mirzə Məhəmməd Mehdi Kövkəbini (bütöv adıyla Nizaməd-din Məhəmməd Hacı əl-Hüseyn əs-Səfəvi) İsfahanda firəng elçisi müsyö Syör dö Gardənin yanında qulluq elədiyim vaxtlardan bəri görməmişdim, amma gümanım doğru çıxmışdı, Fətəli xan öldürüləndən sonra Nadir Xanın qulluğuna keçmişdi. Təxminən həmyaşıd olardıq. Onun incə zövqlü, Mir Əlişir Nəvainin şeirlərinə vurğunluğunu, cığatay türkcəsinə mükəmməl vaqif olmasını bilirdim, «Mabanil-lüğəti»ni oxumuşdum. Mirzə Mehdi dərsini atasından alıb bir müddət Fətəli xanın yanında qulluq eləmişdi. Elə o axşam Əbdülhəsən bəydə söhbətdə öyrəndim ki, sonra şah sarayında münşi əl-məmalik məqamına yüksəlibmiş, bədbəxt Təhmasib zindana salınandan sonra Vəlinemətin yanındaydı. Onunla ağır günlərimin birində İsfahanda tanışlığımızı xatırladım, Şah Sultan Hüseyn Qəndaharlı Mahmudun hücumlarına tab gətirməyib təslim olanda, mühasirədə boğulan İsfahan camaatı aclıqdan, az qala, bir-birini yeyəndə Mirzə Mehdi mənə həyan olub bir neçə həftə evində saxlamışdı, Fətəli xanla şəhərdən çıxandasa yarıcanı yanımda qalmışdı. Mübaliğə olmasın, o ağır günlərdən sağ çıxdığıma görə, ona həyatımı borcluydum, bu borcu ödəyə bilməsəm də, hörmətimi göstərməliydim. Buna görə də Sultanın səxavətindən boğçamdakı bahalı xələtlərdən birini, Şeyx Nizaminin İstanbulda əldə elədiyim, Kəmaləddin Behzadın miniatürlərilə süslənmiş «Xəmsə»sini, fil sümüyündən düzəldilib, üzərinə gözəl naxışlar oyulmuş qələmdanı götürüb qapıçının

yanına düşdüm. Araz körpüsündən keçib sağa burulub nasaqçıların, gözətçilərin, qapıçıların ciddi yoxlamasından keçə-keçə Vəlinemətin dəftərxanasına yollandıq. Dəftərxana iri taxta tikilidə yerləşirdi, solunda Vəlinemətin iqamətgahı, sağında məscid ucalırdı, arxadasa xanların, əyan-ərəfin qalacaqları sıralanmışdı.

187. Mirzə Mehdi məni dəftərxananın qapısında qarşıladı, ikimiz də oruc olduğumuzdan ancaq əl tutuşduq. Aradan keçən illər ərzində cismən yaşlaşmışdı, görünür, Vəlinemətin yürüşləri səhhətinə təsirsiz ötüşməmişdi, mehriban, nəcib, ağıllı simasında yorğunluğunmu, üzgünlüyünmü əlamətləri özünü bildirirdi. Xeyli üzümə baxdı, dedi, Mirzə Yusif, səni sağ görəcəyimi heç ağlıma gətirməzdim, Allahın birliyinə şükür ki, bizi neçə illərdən sonra, həm də belə bir məqamda görüşdürdü. Ardınca başıma gələnləri soruşdu, ona rusların vasitəsilə necə qurtulduğumu, var-yoxum əldən çıxsa da, canımı götürüb qaça bildiyimi, bu illər ərzində İstanbulda yaşadığımı, sonra Anadolunu dolaşdığımı danışdım, o da Vəlinemətin qulluğunda olandan bəri iştirak elədiyi yürüşlərdən söhbət açdı. Səsində sınıqlıq sezdim, açıq söyləməsə də, halındakı narahatlığı gizlədə bilmirdi. Söhbətimiz uzun sürdü, məmləkətin halından tutmuş Tiflislə bağlı təəssüratlarınacan çox şeydən danışdıq. Bu müddətdə Mirzə Mömin Vəlinemətin hüzurundan qayıtdı, dərhal hər ikisinin münasibətindəki soyuqluğu duyub arada nəyinsə baş verdiyini sezdim. Mirzə Mömin Mirzə Mehdinin təqdimatını şahanə vüqarla dinlədi, ardınca Qəzvin sarayından tanış olduğumuzu *(elə bilirdim məni tanımayıb)* söylədi, heç halımla maraqlanmağı da lazım bilmədi, yalnız gəzib-gördüyüm yerlər barədə bir-iki ötəri sualla kifayətləndi. Əlbəttə, onun bu biganəliyi mənə toxundu, amma üzə vurmadım, fikirləşdim ki, yəqin əli Vəlinemətin ətəyindədi. Bu vaxt axşam azanı verildi, namazımızı qılıb orucumuzu açdıq *(Mirzə Mehdi təkid elədi, sözündən çıxmayıb qaldım)*, sonra elə həmin qapıçı da məni komamızacan ötürdü. Mirzə Mehdiylə görüşməyin sevinci, Mirzə Möminlə rastlaşmağın sıxıntısı içimdə bir-birinə qarışmışdı.

188. O axşam nədənsə Kitabdar Mühiddin Əfəndinin hücrəsində kağıza köçürdüyüm, Mövlananın xəbərsiz-ətərsiz gedən Şəmsə yazdığı həsrət dolu namələrdən birini oxudum; görü-

nür, Mövlananın Şəmsə ehtiyacı olduğu qədər bu ruhi halımda mənim də Mirzə Mehdiyə ehtiyacım vardı: «*Səni nə rahatlığı axtaranlardan, nə rahatlığı tapanlardan, nə də sakitlikdən qaçanlardan soruşdum. Günəşin istiliyini ən yaxşı kim izah eləyə bilər? İstidən yıxılıb ürəyi gedənmi? Yox, onun eşqi zəifdi. Günəşə səfər eləyənmi? O da yox, getsə, hara qədər gedə bilər ki? Kölgəyə sığınanlardansa, Günəşi soruşmağa ehtiyac yoxdu… Eşq məbədim… Ağam… Deyərsənmi, bu çəkdiyim əzabların mənası nədi? Bu ayrılığın sirliliyi ürəyimə saldığın odların lavaya çevrilməsi üçündüsə, od topalarında yetərincə ərimədimmi? Elə yandım ki: Sən yandıqca, mən yanım!/ Sən donduqca, mən də donum!Yenə kəhkəşanlara qaça-qaçamı özünün həsrətini çəkdirəcəksən?.. İntizarım boşluğa atılan quru qərənfillər kimi, fəryadların, əzabın qoynunda səpələnib dağılır… Sən gedəndən bəri artıq qəlbimə Günəş doğmur… Halbuki göylərdə səninlə cövlan eləyəcəkdim… Məhz bu eşqin cəriməsindən saçıma dən düşməyə başlayıb…*". Bir də İsgəndər Zülqərneynin müəllimi Ərəstuna yazdığı naməni xatırladım. Hökmdar ondan soruşur ki, zəbt elədiyim torpaqlarda əhalini hökmüm altında saxlamaq üçün neyləyim: o məmləkətlərin ağıllı adamlarını sürgünə göndərim, zindanlara doldurum, yoxsa qılıncdan keçirim? Ərəstun cavabında yazır ki, sürgünə göndərsən, birləşib sənə qarşı çıxarlar, zindanlara salsan, zindanlar qorxunc yerə çevrilər, öhdələrindən gələ bilməzsən, qılıncdan keçirsən, ondan sonra gələn nəsil səndən intiqam alıb taxtından salar, ona görə də insanların arasına nifaq toxumu səp, onlar bir-birilə savaşanda hakim ol, özünü qəbul etdir, amma onların bir-birilə anlaşmaya gedən bütün yollarını kəs. Bu da mənə Vəlinemətin taxt-taca gələn yolunu andırırdı. Yenə bu fikirdəydim ki, torpağı kim qoruyursa, taxtda oturmaq onun haqqıdı; elə Səfəvilər – Böyük Şah İsmayıl da, Böyük Şah Təhmasib də, Böyük Şah Abbas da taxtda məmləkəti qoruduqlarına görə ömürlərinin axırınacan oturmuşdular.

189. Həmin axşam fürsət tapıb ikimiz tək qalanda bura gələndən bəri beynimdə dolaşan mülahizələrimi Mirzə Kəmaləddinə də söylədim: şübhəsiz, Böyük Xan artıq Vəlinemət, Naib-üs-Səltənə, Vəkil-üd-dövlə olmaqdan bezib, özü taxta çıxacaq; amma bunu öz «istəyilə» yox, bura yığılanların arzusu, hətta, tələbilə eləyəcək; Səfəvilərin qəhrini çəkənlərin kökü qazılacaq; Mirzə Mehdi nə

səbəbdənsə Vəlinemətin gözündən düşüb, görünür, münşi əl-məmalik məqamında çox duruş gətirə bilməyəcək; Mirzə Mömininin adama yaxınlıq verməməsindən, şahanə vüqarından artıq hər şeyin aydın olduğu anlaşılır. Mirzə Kəmaləddin səsindəki kədəri gizləyə bilmədən söylədiklərimlə razılaşdı, amma bütün bunlara münasibətimi də soruşdu. Təbrizli dostumun könlünün Səfəvilər tərəfində olduğu üz-gözündən bilinirdi, bununla belə, Şah Sultan Hüseynin oğullarından hər hansı birinin günçıxanda abdalilər və uğanlarla, günbatanda osmanlılarla, quzeydə dağlılarla döyüşüb məmləkətdə əmin-amanlıq yaradacağına daha o da əmin deyildi. Mənə qalsa, Vəlinemət bu haqqı iradəsinin və qolunun qüvvəsilə qazanmışdı, ancaq xasiyyətindəki amansızlıq, rəhmsizlik, hərislik canıma indidən vicvicə salırdı. Əmindim ki, bu vaxtacan baş verənlər Vəlinemətin hökm-fərma olması, yəni taxta çıxması üçün əməlli-başlı düşünülmüş məzhəkədi, əsl böyük hadisələr bundan sonra baş verəcək. At belində, az qala, iyirmi il ona görə oturub qılınc çalmayıb ki, ömrünün axırınacan naibliklə, vəkilliklə razılaşsın; köçəri əfşar çobanının oğlu ağlının, qolunun gücüylə, Allahın izinilə bu məqama gəlib çatıbsa, niyə təkcə uğan yox, hind torpaqlarına da sahib olmasın, Ağ Banuyla evlənib, rus məmləkətinin də hökmdarlarının taxtına çıxmasın? Özünü tanıyandan basqınlarda, hücumlarda, yürüşlərdə, toqquşmalarda, döyüşlərdə olan adamın taxta çıxandan sonra dizini qatlayıb oturacağı heç ağlabatan deyil. Bayaq Mirzə Mehdi necə dedi: *kəsərli qılınc, xammalı götürülən dəmir mədənindən çox, öz ovxarına borcludu, qiymətli şah daşı öz gözəlliyini tapıldığı mədəndən artıq sudan və çiçəkdən alır…*

# VIII

# BƏNDƏ YOLUNA GƏLƏNLƏR

*Ey Xətai, cövrü-qəhrindən*
*cahanın incimə,*
*Hər nə kim bəndə yoluna gəlsə,*
*həq fərmanıdır.*

*Şah İsmayıl XƏTAİ*
*(XV-XVI yüzillər*

190. Sonrakı günlər hey adlı-sanlı xanların, əyan-əşrəfin gəldiyindən xəbər tuturduq. Məşhəddən Vəlinemətin qardaşı İbrahim xan, Heratdan Pir Məhəmməd xan, Mərvdən Şahqulu xan Qacar, Xorasandan Sərdar, Sərəskər Təhmasib xan Cəlayir, bir neçə gün sonra Osmanlı elçisi olan Mosul hakimi Gəncəli Paşa, Kirmanşah hakimi Əbdülbağı xan Zənganın müşayiətilə təşrif buyurdular – bütün bunları düşərgəyə gedib-gələn Əbdülhəsən bəydən eşitdik. Dəvətlilərin gəlişi bununla da bitmədi, Maku sultanı, İsfahan və Simran əyanları, Mazandaran, Nişapur, Səbzəvar, Gilan, Kaşan, Yəzd, Kaxet mirzələri, vəkilləri, vəzirləri, mirsəfiləri, dəftərdarbaşıları, mühasibləri, Astarabad hakimi Məhəmməd Hüseyn xan Qacar, Qəzvin hakimi Məhəmməd Rza xan, Qum hakimi Qasım xan, Tehran hakimi Lütfəli xan, Şiraz hakimi Əhməd xan, Lor hakimi Əliqulu xan, Bəndər hakimi Abdulla xan, Kermandan sursatçıbaşı Ağa Bağır, Qəzran silsunur tayfasının başçısı Bağır xan, Tövraq hakimi Əlimərdan xan, Şüştər valisi Abbasqulu xan, Bəhbəhan hakimi Hacı Seyfəddin xan Bayat, Həmədan hakimi Mustafa xan, Xürrəmabad hakimi Baba xan, Təbriz hakimi Əbdül-Rəzzaq xan, Soyuqbulaq hakimi Məhəmmədqulu xan, Urmi hakimi Məhəmmədisa xan, Ərdəbil hakimi İmamqulu xan, Nəqşivan hakimi Rza xan, Gəncə xanı Uğurlu xan, Tiflisdən İmamqulu xanın oğlu Əlimirzə xan, Qazax hakimi Sübhanverdi bəy,

Dərbənd hakimi Nəcəf Sultan, Şirvan hakimi Mehdiqulu xan, Şamaxı hakimi Qasım xan, Lori hakimi Kəblə Hüseyn xan, Çors hakimi Murtuzaqulu xan, Dəmirqapı Dərbənd hakimi Musa xan Talış, bununla yanaşı, Bakıdan, İraqi-Əcəmdən, Hindistandan xanlar, sultanlar, mirzələr, mirsəfilər, vəzir-vəkillər, şeyxülislamlar, şeyxlər, mollabaşılar, mollalar, kələntərlər, məliklər, valilər, kəndxudalar... gəlib onlardan ötrü ayrılan qalacaqlarda yerləşdilər, intizarla Vəlinemətin hökmünü gözləməyə başladılar. Əbdülhəsən bəyin söylədiyi adları bir-bir yazır, bəzilərini İsfahanda olduğum günlərdən tanıdığımın fərqinə varırdım. İbrahim xanı haqqında söylənənlərə görə uzaqdan-uzağa tanıyırdım; Təhmasib xan Cəlayir həmişə Vəlinemətin yanında olmuşdu, adlı-sanlı sərəskərlərdəndi; əlbəttə, bu məqamda ən çox görmək istədiyim Əlimirzə xan idi, qismət olsaydı, onun heyətinə qoşulub məmləkətimə dönəcəkdim. Beynimdən keçirdim ki, Vəlinemətin hüzuruna gedəndən sonra Əlimirzə xanın məqamını da ziyarət eləyim, bəlkə Görgü ağanı, ya da Davidi tanıyan, ailəsindən, lap elə qohumlarımızdan xəbər verən kimsə tapıldı.

191. Vəlinemət iki gün dincəlib yolun ağrı-acısını canından çıxardı. Deyilənə görə, ən yaxın adamları Təhmasib xan Cəlayir, Mirzə Zəki, Həsənəli xan və Müzəffərəli xanla söhbət eləyir, şərab içir, nəğmələrə qulaq asır, rəqslərə baxırdı. Sonra dövlət işlərilə məşğul olmağın zamanı gəldi, Vəlinemətin hər gün divanı toplayıb bəzi təxirəsalınmaz məsələləri yoluna qoyduğunu da söyləyirdilər. Ramazanın iyirminci günü də artıq bütün dəvətlilər gəlib düşərgəyə yığışmışdı, narahatlıq içində Vəlinemətin hökmünü gözləyirdilər. Deyilənə görə, yığnağa əlli minəcən dəvətli gəlmişdi, bəziləri hətta yüz mindən dəm vururdu, amma Mirzə Kəmaləddinin təxmininə, mənim də fəhmimə inansaq, gələnlərin sayı iyirmi-iyirmi beş min olardı. Əlbəttə, Vəlinemətin başında quzeydən gəlib düşərgənin yaxınlığında yerləşən qoşunu hesaba almırdıq. Hər halda, bu qədər dəvətlini necə qəbul eləyəcək, fikirlərini soruşacaq, üç-beş kəlmə sözüylə şərəfləndirəcəkdi? Əbdülhəsən bəyin dediyinə görə, Vəlinemət hər heyət üçün vaxt ayırıb, şübhəsiz, heyətin də mümkün qədər ən nüfuzlu şəxsləri onu görmək şərəfinə nail olacaqlar. Rəvan xanının heyətində

bu hesabla cəmi yüz nəfərəcən adam gedəcəkdi, onun da yarısı erməni xəlifənin özüylə gətirdiyi kəslər – kələntərlərı, məliklərə, vardapetlərə... ayrılacaqdı. Məhəmmədqulu xanla xəlifənin tutduğu siyahıya ancaq Axund Ələkbər müdaxilə eləyə bilmiş, məni və Mirzə Kəmaləddini Vəlinemətin hüzuruna gedəcək heyətə saldırmışdı. Sözün düzü, Mirzə Kəmaləddinin hüzura getməyə könlü yox idi, hələ də təəssübünü çəkdiyi Səfəvi xanədanının varlığına son qoyacaq hadisələrin iştirakçısı olmaq ondan ötrü əzablıydı, amma dedim, tarixin çarxını geri fırlatmaq bəndənin yox, allahın əlindədi, daha nəyisə düzəltməyə ümid eləmək olmaz; dedim, sülalələr gəldi-gedərdilər, amma məmləkət qalacaq, əgər Vəlinemətin taxta çıxması məmləkətin yararına olacaqsa, buna da şükür eləmək lazımdı; o da düşünüb-daşınıb çar-naçar razılaşdı.

192. Nədənsə həmin məqamdan özümü artıq şir qəfəsinə girmiş adam kimi hiss eləməyə başladım: qorxudan sarımı udub Allaha dua eləyə-eləyə dinməzcə oturmalıydım, başlıcası şiri qəzəbləndirməməkdi. Şəxsən mən Vəlinemətdən nə gözləyir, nə umurdum? Bu sualı həmin andan sonra öz-özümə tez-tez verir, həmişə də eyni qənaət hasil olurdu: heç nə! Dünyanın yarısını görmüşdüm, malda-mülkdə gözüm yox idi, vəzifə-filan istəmirdim, yeganə arzum məmləkətimə yetişib qalan ömrümü hüzur içində başa vurmaqdı. Onsuz da bundan sonra nə atalı-analı günlərimə qayıdacaq, nə Züleyxama qovuşacaqdım, hər şey çox-çox uzaqlarda, zamanın lap gerisində qalmışdı. Səyahətnaməmi başa vurub gələcəyin ixtiyarına versəydim, məndən ötrü ən böyük ömür qazancı olacaqdı. İndisə qismətimə düşən fövqəltarixi hadisəyə şahid olmaq, yaşayacağım məmləkətin düzəninin necə qurulduğunu bilmək, gələcəyimizin kimin əlində olacağını öyrənmək istəyirdim. Vəlinemət bizi Ramazanın iyirmi üçüncü günü hüzuruna çağırdı. Əbdülhəsən bəy Yaqubəlinin göndərib günorta namazından sonraya hazır olmağımızı tapşırmışdı, mən də axşamdan bəri Vəlinemətə aparacağım hədiyyəni fikrimdə çək-çevir eləyib axırda Şeyx Nizami «Xəmsə»sinin Təbriz nüsxəsi üzərində dayanmışdım. Müsyö Syör dö Gardənin yanında tərcümanlıq elədiyim vaxtlarda bir təbrizli xəttatdan aldığım o kitab da Kəmaləddin Behzadın miniatürlərilə süslənmişdi. Usta

nəqqaşlar səhifələrin kənarlarına elə incə naxışlar vurmuşdular ki, görən heyran qalırdı. Mirzənin, üstəlik, səyyahın hədiyyəsi kitab olar, fikirləşdim, Vəlinemətə istənilən qədər at, yaraq-əsləhə, paltar, qiymətli daş-qaş bağışlayacaqlar, yəqin onun kitaba da ehtiyacı olduğu kimsənin ağlına gəlməyəcək. Mirzə Kəmaləddin də Sultanın hədiyyəsi olan, toqqası daş-qaşla bəzədilmiş gümüş kəməri seçdi. Əlbəttə, on üç-on dörd il aradan sonra Vəlinemət məni səyyah kimi tanıyıb iltifatını göstərsə, bəsimdi. Təmənnamla maraqlansa, Əlimirzə xanla Tiflisə gəlmək barədə rüsxət istəyəcəm, bir də Vəlinemətə Yaradandan cansağlığı və əbədi zəfər diləyəcəyəm.

193. Günorta namazından sonra Araz körpüsünün qənşərində yığışdıq. Qabaqda Məhəmmədqulu xan, yanında erməni xəlifə, Əbdülhəsən bəy, Axund Ələkbər gedirdi, arxasınca Rəvan xanları, ağaları, bəyləri, kələntərləri, məlikləri, vardapetlər sıralanmışdılar. Mirzə Kəmaləddinlə mən Axund Ələkbərə yaxın yeriyirdik. Axund Ələkbər üzdən sakit görünməyə çalışsa da arabir tutduğum baxışlarından narahat olduğunu duyurdum. Mirzə Mehdiylə ilk görüşümüzdə Məhəmmədqulu xanla bağlı məsələni açıb-ağartmamışdım, heç onun yeri deyildi; hələ İbrahim xanın hüzuruna da çıxmamışdım, bundan sonra belə bir fürsətin olub-olmayacağını hələ bilmirdim. Deyəsən, o da vəziyyəti dərk eləmişdi, bəlkə də məndən əlini üzüb Əbdülhəsən bəylə başqa çıxış yolu axtarmışdılar. Araz körpüsünü keçib düşərgəyə qədəm basanda vücudumu anlaşılmaz həyəcan qapladı. Hamıya dörd gözlə baxan qapıçıların *(deyirdilər, Vəlinemətin salamatlığını altı min qapıçı qoruyur, buna indi inandım)* arasından keçib taxtadan tikilmiş saraya, divanxanaya girdik. Girişdə dəftərdarlar hər kəsin gətirdiyi hədiyyələri yazdı, atları, qatırları, divanxanaya aparılması məsləhət görülməyən şeyləri ayırıb Böyük Xana ərz eləyəcəklərini bildirdilər. Vəlinemət divanxananın baş tərəfindəki alçaq taxtda oturmuşdu, başında dördkünc papaq, əynində bəzəksiz-düzəksiz geyim vardı, qaraşın sifətində zəhm qarışıq məmnunluq, sarımtıl bəbəklərində məşum parıltı sezilirdi. Bir də ağlımdan keçdi ki, Vəlinemət bir dəfə üzbəsurət, bir dəfə də ötəri gördüyündən, Mirzə Mehdinin təsvir elədiyindən də əzəmətlidi.

194. İrəli Əbdülhəsən bəy çıxdı, təzim eləyib Rəvan heyətinin gəldiyini bildirdi, Vəlinemətin qısa sorğu-sualından sonra hamını bir-bir təqdim eləməyə başladı. Vəlinemət hüzurunda diz çökən Məhəmmədqulu xana, az qala, iyrənə-iyrənə, bir az da qəzəblə nəzər saldı, görünür, həmin məqamda Rəvan qalasının mühasirəsi zamanı keçirdikləri çətinlikləri xatırlamışdı; heç onun gətirdiyi hədiyyələrə gözünün ucuyla da baxmadı, nədənsə mənə elə gəldi, artıq Səfəvilərdən qalan axırıncı xanlardan birinin də kitabı bağlandı. Arxasınca erməni xəlifəsi irəli durdu, Vəlinemət onu görəndə iltifatla gülümsündü, səhhətini, yolda çətinlik çəkib-çəkmədiyini, nə vaxt gəldiyini soruşdu. Xəlifə hiylə niqabını üzünə çəkdi, Vəlinemətı İkinci İsgəndər adlandırıb dedi, xan sağ olsun, sənin müqəddəs simanı görəndə qış məndən ötrü yaz oldu, Allaha şükür ki, hökmdarımızı sağ-salamat, gülərüz gördüm. Onun açıq-aşkar riyakarlığından ürəyim bulandı, Vəlinemət üzünü Əbdülhəsən bəyə tutdu, dedi, xəlifəyə rahat yer ayır, diqqətini əsirgəmə, qoca adamdı, qoy əziyyət çəkməsin. Sonra Axund Ələkbər irəli yeridi, Vəlinemətin işinin avand olması üçün dua oxudu, Böyük Xan onun da səhhəti, düşərgədə necə yerləşdiyi barədə soruşdu. Üç Rəvan xanı, bir kələntər, bir məlikdən sonra növbə mənə çatdı. İrəli yeriyib təzim elədim, şöhrətini İstanbulda eşitdiyim Böyük Xanı zəfər taxtında görməyimə çox sevindiyimi söylədim, Uca Yaradandan ona möhtəşəm zəfərlər arzuladım. Vəlinemət gülümsəyib, Mirzə Yusif, dedi, sənin başına gələnləri mənə Mirzə Mehdi söyləyib, dünyanın yarısını dolaşdığından xəbərim var, sən İsfahanda tələf olmayıb hələ sağ-salamat qalmısansa, deməli, Allahın sevimli bəndəsisən. Sonra maraqla soruşdu ki, bəs niyə Rəvan heyətilə gəlmisən. Başıma gələni müxtəsərcə danışıb gümüş qutudakı hədiyyəli təqdim elədim. Vəlinemətin qaşları çatıldı, dedi, hələ hikmət xəzinəsilə məşğul olmağa vaxt yoxdu, Mirzə Yusif, amma əmin-amanlıq vaxtı gərəyimiz olar. Söhbətin başa çatdığını anlayıb təzim elədim, Vəlinemət, mülayim səslə dedi, get, başım açılanda səni çağırtdıraram.

195. Divanxanadan çıxanda özümə gəldim, gördüm, qışın qış günü tərə batmışam. Vəlinemətin taxtda oturanda belə aydın hiss olunan uca boyu, irisümüklü bədəni, iri gözləri, qalın

qaşları, qara saqqalı, çapıqların, yaraların izi qalan yanaqları, iri, möhkəm əlləri gözlərimin qabağında daha aydın canlandı, azacıq kökəldiyini nəzərə almasaq, Vəlinemətə ancaq otuz beş-qırx yaş vermək olardı. Azacıq sonra çıxan Mirzə Kəmaləddin həyəcanlı, həm də şad görünürdü, dedi, Böyük Xan istəyimi soruşanda Təbrizə getmək arzusunda olduğumu söylədim, o da Əbdülhəsən bəyə tapşırdı ki, məqamı çatanda yadına salsın. Şübhəsiz, Təbriz hakiminin, ya da Azərbaycan bəylərbəyinin sarayında qulluğa girməsi Mirzə Kəmaləddindən ötrü xoşbəxtlik olardı. Divanxananın həyətində dayanıb bir müddət ağaların, bəylərin, kələntərlərin, məliklərin, kəndxudaların içəridən çıxmalarına baxdıq. Axund Ələkbər məmnun görünürdü, elə bil, çoxdan gözlədiyi arzusuna çatmışdı. Məhəmmədqulu xanın iri cüssəsi büzüşüb balacalaşmışdı, gözlərində təlaş vardı, erməni xəlifəsinin ürək-dirək verməsinə baxmayaraq, dar ağacına gedəcək adama oxşayırdı. Şübhəsiz, Vəlinemətə onun Səfəvi yadigarı olduğunu biz də olmasaq, kimlərsə çatdıracaqdı, Böyük Xan da işlərini yoluna qoyub taxta çıxandan sonra Məhəmmədqulu xanın bu vaxtacan kimə qulluq elədiyini, Rəvanın mühasirəsi vaxtı qabiliyyətsizliyini ona bağışlamayacaq, boynunu vurdurmasa da məqamında saxlamayacaqdı. Əlbəttə, Vəlinemət adamların sədaqətini dəyərincə qiymətləndirirdi, bu mərtəbəyə də elə o sədaqət sayəsində gəlib çatmışdı, sədaqətsizliyi heç qardaşına da bağışlamazdı. Ümidvardım ki, Məhəmmədqulu xanın bundan sonra qanının havasına uyub erməni xəlifəylə əlaltından işlər görməsinə imkan verməyəcək. Qırımından hiss elədim ki, Axund Ələkbər də təxminən elə bu cür düşünür, kefinin kök olmağı da bundandı.

196. Bizim heyət Vəlinemətin hüzurundan mürəxxəs olub Araz körpüsünə tərəf yollananda Nəqşivan heyətinin divanxanaya doğru getdiyini gördüm. İrəlidə Məhəmməd Rza xan şəstlə yeriyir, arxasınca da digər xanlar, bəylər, mirzələr, kəndxudalar yorturdular. Hamısının görkəmində də narahatlıq, səksəkə duydum, çünki kimsə Vəlinemətin divanında başıma nə gələcəyini bilmirdi: biri bir göz qırpımında malını-mülkünü, hətta, başını itirə, digəri əksinə, mal-mülk, hökm sahibi ola, üçüncüsü illərlə ürəyində gəzdirdiyi arzusuna qovuşa bilərdi. Mənim

taleyimsə hələ müəmmalıydı; əlbəttə, elə qulluğum-filanım yox idi ki, Vəlinemətdən ötrü təhlükə törədim, düşmənlərinin dəyirmanına su töküm, qəzəbinə tuş gəlib başımı itirməkdən qorxum; fikrimcə, başı açılanda çağırtdıracaqdısa, deməli, ağlında mənimlə bağlı nəsə vardı. Mən də artıq Tiflisə yetişməkdən başqa heç nə istəmirdim, amma alın yazısı yolumu Vəlinemətin hüzuruna gətirib çıxarmışdısa, belə başa düşürəm ki, taleyim artıq öz əlimdə deyil. Ağlımdan keçirdim ki, ağlım kəsəndə, yəni, az qala, əlli ildi, taleyimin arxasınca gedirəm, yəqin bundan sonra da gedəcəyəm. Bu hikməti indi yox, İsfahandakı ağır günlərimizdən birində Mirzə Mehdidən eşitmişdim: *fikirlərinə diqqət elə, çünki fikirlər sözlərə çevrilirlər; sözlərinə diqqət elə, çünki sözlər əməllərə dönürlər; əməllərinə diqqət elə, çünki əməllər təkrarlanıb vərdiş olurlar; vərdişlərinə diqqət elə, çünki vərdişlərdən xasiyyətin yaranır; xasiyyətinə də diqqət elə ki, sənin taleyini müəyyənləşdirir*. Mənim taleyim artıq müəyyənləşmişdi, taleyim yollar idi, bu taleyi də özüm seçməmişdim, hər şey İlahinin təqdirilə baş vermişdi, bundan sonra nəyisə dəyişdirməyi heç ağlıma gətirmirdim. Əgər Vəlinemət, daha doğrusu, bu gün-sabah Şah olacaq hökm yiyəsi xidmətinə çağırardısa, bu yaşımda belə, boyun qaçırmaq ağlıma da gəlməzdi.

# IX

# İNTİZARLI GÜNLƏR

*Gözümüzdə əcəl xarı,*
*əməl gülzarı həp birdir,*
*Kimsənə munu fəhm etməz, anın*
*için həlakiz biz.*

***RƏHMƏTİ***
***(XVI-XVII yüzillər)***

197. Elə o axşam Əbdülhəsən bəydən xəbər tutduq ki, Vəlinemət adam göndərib erməni xəlifəsini hüzuruna çağırtdırıb. Kələntərlə birgə özünü hamisinin yanına çatdıran xəlifədən Rəvan, Qars, Bayazid vilayətlərindəki karvan yollarındakı vəziyyət, Məhəmmədqulu xanın Rəvanı yaxşı idarə eləyib-eləmədiyi, əkin-biçin barədə soruşub. Xəlifə də adəti üzrə Vəlineməti ikinci İsgəndər adlandırandan, şəninə təriflər yağdırandan sonra deyib ki, böyük xan, Allaha şükür, sənin himayən və idarən altında tamam əmin-amanlıqda yaşayırıq; deyib ki,Tiflisdə mənə və hörmətli xanımıza buyurduğunuz kimi yerlərə səyahət eləyənlər barədə namələr göndərmişik, hələ mən özüm Qars paşasına, bir də Ərzurum sərəskəri Əhməd Paşaya tacirlərin əmin-amanlığını qorumaqla bağlı ərzi-hal göndərmişəm, artıq karvan yollarında tacirlər görünməyə başlayıb. Əlbəttə ki, xəlifə Məhəmmədqulu xanı bərk tərifləyib, deyib, hər dərdimizə-sərimizə diqqətlə, vəzifəsinə də vicdanla yanaşır, rəiyyətin halına yanır, qalanın osmanlılardan qorunmasında əlindən gələni eləyir. Amma Vəlinemətin göz-qulaqları o vaxtacan vəziyyət barədə xəbər veriblərmiş, erməni xəlifənin xətrinə dəyməsə, tariflərindən xoşhallansa da vilayətdə əkin-səpini az olduğunu deyib, yazbaşı Qarsdan və Bayaziddən öküzlər alıb yer əkməyi tapşırıb. Vəlinemət bununla da yetinməyib, xəlifəyə bəxşişdən-filandan verib hüzurundan mürəxxəs eləyəndən sonra Kəlbəli bəyi vilayətin

kəndlərinə göndərib ki, bütün dediklərini yerində yoxlasın, hansı kəndlərdə torpağın əkilib-əkilmədiyini, öküz və toxum olub-olmadığını aşkarlasın, onun adından tədbirlər görsün. Vəlinemət məmləkətin, camaatın gələcəyini düşünürdü, daha doğrusu, dövlət işlərilə ciddi məşğul olurdu, deməli, artıq taxta çıxacağını qərarlaşdırmışdı, Muğan çölündəki bu yığnaqla təkcə məmləkətə yox, bütün dünyaya bildirəcəkdi. Çıxardığım, əslində, bura gələndən, bəlkə də elə Muğanda yığnaq keçiriləcəyini eşidəndən gəldiyim bu nəticəni Mirzə Kəmaləddin də təsdiqlədi, üzə vurmasa da, narahatlığını görkəmindən sezdim.

198. Sonrakı gün qamış komamda Vəlinemətlə qismətimə düşən görüşümün təəssüratını kağıza köçürməklə məşğul oldum. Mirzə Kəmaləddin öz küncündə dinməzcə oturub Təbrizdən gətirdiyi, birgə olduğumuz müddətdə ayrılmadığı kitabı – Qazi Bürhanəddinin «Divan»ını oxuyur, aradabir oxuduqlarından riqqətə gəlib başını bulayırdı. Səfər günün çoxunu atların-qatırların yanında keçirirdi, hətta hardansa qəzvinli mehtər də tapdığından dili açılmışdı, ondan eşitdiyini vəcdlə danışır, inşallah, yazbaşı doğmalarına qovuşacağını deyirdi. O məqamda Səfərin sadə, insani sevincinə həsəd aparırdım, hər halda, yolunu gözləyən kimsələr vardı. Vəlinemətlə görüşdən sonra Tiflisə yetişəcəyimlə bağlı ümidimə kölgə düşmüşdü, bunu Mirzə Kəmaləddinə belə söyləməmişdim, amma get-gedə içimə çəkilməz ağırlığın çökdüyünü duyurdum. Səhəri gün Vəlinemətin əmrilə yığnağa gələnlərin hamısına pul və uç adama bir Təbriz litri buğda payladılar. O günün axşamı da məni Axund Ələkbərin yanına çağıran Əbdülhəsən bəy dedi, Qəzvindən Vəlinemətin böyük çadırını gətiriblər, sabahdan düşərgənin ortasında quracaqlar, görünür, başlıca yığnaq o çadırda olacaq. Onun dediyinə görə, Böyük Xan erməni xəlifəsinə quzu, üstəlik, hərəsi əlli tümənə dəyən iki xristian əbası göndərib, əbaların üzərində İsa Məsihin qızıl saplarla salınmış surətləri, qızıldan və mirvaridən düzəldilmiş xaç var. Xəbər tutanlar Vəlinemətin bəxşişinin tamaşasına yığışır, xəlifəyə həsəd aparırlarmış. Şübhəsiz, xəlifə də "İkinci İsgəndər" adlandırdığı Böyük Xana hörmətini və itaətini həm görkəmi, həm sözlərilə bildirib. Əbdülhəsən bəy yenə irəlidə böyük hadisələrin gözlənildiyini deyirdi, bütün bunları

o qədər vəcdlə söyləyirdi ki, həyəcanı mənə də sirayət eləyirdi. Axund Ələkbər ona erməni xəlifəylə əlaltından danışıb-barışıb Vəlinemətdən Üçmüəzzinə mülklər qoparmaqda davam eləyən Məhəmmədqulu xanın işdəklərini fürsət tapanda Böyük Xana çatdırmağı tapşırdı, belə getsə, dedi, xəlifənin torpaqları dövlət torpaqlarından artıq olacaq. Əbdülhəsən bəy Vəlinemətə söz deməyin çətinliyini, düşər-düşməzi olduğunu dilinə gətirsə də, bir çarə bulmağı boynuna götürdü.

199. Görünür, Vəlinemət məqamın yetişməsi, fikrinin qətiləşməsi üçün tələsmirdi, bu səbəbdən artıq yığnağa gələnlərin məşğulatı məqsədilə ov dəsgahı düzəltmək barədə buyruq vermişdi. Ətraf yerlərə göndərdiyi adamlar yerli camaatın köməyilə Qarabağdan, Arazboyu düzdən ceyranları, ahuları Muğan çölünə qovurdular, hətta, bu işi canla-başla görməyənlərin bir neçəsini möhkəm döydürmüşdü. Mirzə Kəmaləddinlə əvvəlcə həvəslənib baxdığımız, qarabağır olub çöldə dolaşan biçarə heyvanların nizəylə, oxla, tüfənglə nişana alınıb qanlarına qəltan edilmələri, əmudla vurulub yıxılmaları, təbərzinlə başlarının bədənlərindən ayrılmaları ürəkparçalayan mənzərəydi, ona görə də, xanların, ağaların, bəylərin, sərəskərlərin ehtiras dolu qışqırtılarına çox tab gətirə bilmədik. Təhmasib xan Cəlayirin oxu bir ahunu bizim lap qırx-əlli addımlığımızda yaxaladı, heyvanın qaçaraqda dizlərinin necə qatlanıb yerə yıxıldığını, can çəkişə-çəkişə çırpındığını açıq-aydın gördüm. Canlı əzabına dözə bilməyən Mirzə Kəmaləddinin gözləri yaşla dolmuşdu, əllərilə üzünü tutub komamıza doğru necə getdiyini sezəndə özümə gəlib arxasınca yönəldim. Məsum heyvanların qırğını, ehtiras dolu bağırtılar o günlə bitmədi, üç gün davam elədi, o üç gündə nə Mirzə Kəmaləddin komadan çıxdı, nə də mən amansız qırğına baxmağa həvəs göstərdim. Mirzə Kəmaləddinin qaş-qabağı açılmadı, dilindən iki kəlməni güclə qoparmalı oldum. Heç Vəlinemətin buyruğuyla heyətlərə paylanan ceyran və ahu ətindən bir tikə də almadıq. Amma Böyük Xanın istədiyi olmuşdu, o üçgünlük şikar çoxlarının ovqatını yaxşılaşdırmışdı, bunu da sonrakı günlər eşitdiyim orda-burda söz-söhbətlərdən sezirdim.

200. Yaqubəlidən Tiflis heyətinin yerini, Əlimirzə xanın komasını tapmağı təvəqqe eləmişdim. Tiflis heyətini ucsuz-bucaqsız

çöldə, saysız-hesabsız qalmış qalacaqların arasında əl havasına axtarmaq istəmirdim. Allah köməyi olsun, yerini nişan verdi, uzaqdan-uzağa tanış da olsa, bir kəsi tapmaq ümidilə getdim: amma gərək heç getməyəydim, çünki tanışa-filana rast gəlmədim, üstəlik də elə şeylər eşitdim ki, damarlarımda qanım dondu. Hərə öz tayını tapar, deyərlər, mən də Kartli və Kaxeti heyətinin mirzəsini tapdım. Mirzə Şahəli cavan, amma çox təmkinli, ağıllı şəxs idi. Tiflisli olduğumu öyrənib ürək qızdırdı, Vəlinemətin Tiflisə yürüşündən, Osmanlıları qovub, baş qaldıranları yerində oturdub, şahzadə Arçili-Əlimirzə xanı hakim təyin eləməsindən, ildə üç min üç yüz tümən vergi qoymasından, anbarlı və əfşar tayfalarından Borçalıya, Borçalıdansa öz vətəninə – Xorasan vilayətinin Sərgah mahalına minlərlə ailə köçürdüyündən danışdı. Dediyinə görə, köç vaxtı Dəmirçihasanlı camaatından bir çoxu Telav yaxınlığında qaçıb meşələrdə gizləniblər. Mirzə Şahəlinin açıq söyləməsə də, üstüörtülü dediklərindən belə anladım ki, Gəncə xanı Ziyadoğlu Uğurlu xan da, Borçalı və Qazax ağaları da Vəlinemətin taxtda oturmasını istəmirlər, bütün yollarla buna qarşı çıxırlar, görünür, arada əfşarlarla qacarların nifaqı da müəyyən rol oynayır, Fətəli xan Qacarın aradan götürülməsini Vəlinemətdən görürlər, bunu hələm-hələm unuda bilməzlər. Hətta deyilənə görə, Uğurlu xan gizlicə onlarla görüşüb, danışıb-barışıb Vəlinemətin taxta çıxmasına yol verməmək naminə birləşiblər. Bundan sonra nələr olacağını bilmirəm, Mirzə Şahəli əlavə elədi, Allah bizi Böyük Xanın qəzəbindən saxlasın. Kaxet mirzəsinin yanından narahat, bir az da ümidsizləşmiş halda qayıtdım. O gecəni, az qala, dirigözlü açdım. Kim bilir, bəlkə də Vəlinemətin Xorasana köçürdüyü zavallıların arasında mənim doğmalarım, nə vaxtsa tanıdığım da vardı.

201. Vəlinemətin böyük çadırının qurulması iki gün çəkdi. Çadırı Təbrizdən və Şirvandan gətirilmiş ustaların göstərişilə yüzəcən adam qurdu. Vəlinemətin xüsusi sifarişilə Qəzvində hazırlanmış çadırın on iki dirəyi vardı, Mirzə Kəmaləddinin fikrincə, şiələrin on iki imamına işarəydi. Çadırın qübbəsi yeddi kiçik dürək üzərində dururdu, deyilənə görə, bu da yeddi rəqəminin Vəlinemət üçün düşərli olduğundan xəbər verirdi. İçəri saysız-hesabsız qiymətli daşlarla bəzədilmişdi, o daşlar işıq-

da bərq vurur, təsvirəgəlməz gözəllik yaradırdılar. Çadırın bir neçə bölümü vardı, birində Vəlinemət hüzuruna gələnlərlə görüşürdü, o biri divanxanaydı, üçüncüsü xəlvətxana, dördüncüsü hərəmxanaydı. Hər dirəyin başına orta böyüklükdə qarpız misalı gümüş kürələr bərkitmişdilər. Çadırda Vəlineməti bir-birindən pərdələrlə ayrılan üç taxtı vardı, hər taxt da misli-bərabəri olmayan gözəllikdəydi. Yığılıb-qurulan bu sarayın Böyük Ban məxsusi bu yığnaq üçün hazırlatmışdı. Bütün bunları danışa-danışa heyranlığını gizlədə bilməyən Əbdülhəsən bəy baş yığnağın o çadırda olacağını söyləyirdi. Dediyinə görə, başqa hazırlıqlar da vardı, vaxtı çatdıqca Böyük Xanın əzəmətinin, qüdrətinin, cah-calalının şahidi olacaqdıq. Əlbəttə, Vəlinemət şahanə çadırını Qəzvindən gətirtmişdisə, deməli, fikri qətiləşmişdi, yaxın günlərdə fövqəltarixi vaqiənin şahidi olacaqdıq, buna artıq şübhəm yox idi. Böyük Xan iqamətgahına yaxın yerdə onu salamlamağa gələnlərin rahatlığı üçün qamışdan uzunu on beş-iyirmi eni iki qulac olan eyvana oxşar talvarlar düzəltdirdi. Hər vilayətin ayrıca talvarı vardı, Vəlineməti salamlamağa gələnlərin hər biri də talvarın altındakı yerini bilirdi. Vəlinemətin şahanə çadırı və ətrafındakı çadırları altı yüz nəfərəcən qapıçı, mühafizəçi qoruyurdu. Düşərgə boyusa qoşun dəstələrinin çadırları düzülmüşdü. Əbdülhəsən bəyin dediyinə görə, hər gün Vəlinemətin xüsusi qarovul dəstəsindən otuz nəfər ayrılırdı, onlar uca səslə azan oxuyub Böyük Xanın qarşısında namaz qılırdılar. Qamış çəpərin içindəki üç min nəfərlik cəzayirçi dəstəsi də bellərində qızıldan-gümüşdən barıt qabları, əllərində uzunlüləli tüfənglər dayanmışdılar. Tüfəngdarlardan başqa hərəsi azı üç yüz nəfərlik, qızıl suyuna salınmış mis çomaqla, uzun təbərzinli çəndəvul və nasaqçı dəstələri də vardı.

202. Hər gün səhər namazından sonra gün çıxanda Böyük Xanı görmək, salamlamaq üçün talvarın altında öz yerimizi tuturduq. Məhəmmədqulu xan, erməni xəlifə, Axund Ələkbər, sonra xanlar, ağalar, kələntərlər, məliklər, mirzələr – onların da arasında mən və Mirzə Kəmaləddin oturub Vəlinemətin divanxanadan çıxacağı vaxtı gözləyirdik. Elə ki Böyük Xan divanxanadan çıxırdı, dua oxunur, bütün vilayətlərdən gələnlər nizamla Vəlinemətin qarşısından keçir, təzim eləyir, dinməzcə

aralanırdı. Hər dəfə Vəlinemətlə üz-üzə dayananda beynimdən görkəminə diqqətlə baxmağı keçirirdim, amma həmin məqamda, elə bil, gözlərim torlanırdı, iri cüssəsinin yayğın cizgisindən başqa heç nə görmürdüm. Artıq demişdim, Böyük Xanın sarayı tirlərdən tikilmişdi, üstü isə taxtayla örtülmüşdü. Sarayın çadırın, hərəmxananın ətrafındasa qamışdan hasar çəkilmişdi. Böyük Xanın iqamətgahının dörd yanında da qardaşı İbrahim xanın ən yaxın adamlarının çadırları qurulmuşdu. Vəlinemət bizə nəhəng çadırını iç tərəfdən görməyə də icazə verdi, mən də Əbdülhəsən bəyin söylədiklərini öz gözlərimlə gördüm. Çadır qamış hasarın içində Böyük Xanın iqamətgahının günbatan tərəfində, həramın yaxınlığındaydı, üstü qübbə formasındaydı, iri gümüş bəndlərlə bərkidilmiş naxışlı dirəklər üzərində dururdu, tünd qırmızı rəngdəydi, içərisinə Gilan ipəyindən astar çəkilmişdi. Bütün bu hazırlıqdan belə çıxırdı ki, fövqəltarixi hadisə həmin çadırda baş verəcək, xanədanın, məmləkətin taleyi həll olunacaq, kimlərinsə başına dövlət quşu qonacaq, kimlərsə fələyin badına gedəcəkdi. Əlbəttə, dünya malından canımı, kitablarımı, yazdıqlarımı, geyim-kecimimi, bir də Sultanın səxavətindən olub-qalan bəxşişləri nəzərə almasaq, bir şeyim yox idi, yalnız məmləkətimdə əmin-amanlıq olmasını istəyirdim. Əmin-amanlıq da taxtda haqqı çatanın oturmasıyla, digərlərinin də onun ətrafında birləşib əmrlərinə əməl eləmələrilə təmin oluna bilərdi.

203. Qış olsa da, hava Rəvandakı kimi sərt deyildi, arabir yağış yağır, bəzən sulu qara çevrilirdi. Göz işlədikcə uzanıb gedən Muğan çölü qışlamaq üçün ən əlverişli yer idi, bu barədə Vəlinemətin fəhminə ancaq «afərin» demək olardı. Çölün ətrafını dolaşmaq üçün məncə, bir aylıq at mənzili bəs eləməzdi. Dümdüz çöl günbatan tərəfdə dikə, günçıxan tərəfdəsə enişə söykənir. Ərzurum dağlarından başlayıb Kağızvandan, Ağrı vilayətindən, Şərurdan, Dərəşamdan, Təbrizin üç günlük məsafəsindən keçir, Bərgüşaddan ötüb Muğan çölünə çıxır. Çayın güneyində Qaradağ, quzeyindəsə Qafan, Qarabağ, Dizək, Gəncəbasar, Xaçım, Ağvan vilayətləri var. Sonra Araz lillənə-lillənə Cavad yaxınlığında Kürə qarışıb dənizə axır. Muğan çölündə çoxlu qamış, qışın oğlan vaxtı belə, gömgöy ot bitir, dəstə-dəstə vəhşi heyvanlar var. Yazbaşı dağların qarı əriyəndə çay yatağından çıxıb

çölü basır, buna görə də bu tərəflərdə yaşayanların heyvanları otdan korluq çəkmir. Əbdülhəsən bəyin nasaqçılarından biri çölün günbatan tərəfindəki Təklə obasından idi, bütün bunları ondan soruşub öyrəndim. Bir gün Vəlineməti salamlayandan sonra Əbdülhəsən bəydən rüsxət aldım, Mirzə Kəmaləddin də yanımda iki nasaqçının müşayiətilə çölü gəzməyə çıxdıq. Bir dəstə qaban donuzun qaçıb qamışlığa soxulduğunu, ceyran sürüsünün bir göz qırpımında yox olduğunu, quşların çöldəki kiçik göllərə endiyini gördük. Araza tərəf getdikcə çayın sıldırım sahillərində mağarlar, sellərin gətirib sahilə atdığı çoxlu odun gözümüzə dəydi. Beləcə də ramazan ayı sona çatır, İdül-Fitrə bayramı yaxınlaşırdı. Bu günlər ərzində Vəlinemət Dərbənddən, Nəqşivana, Heratdan Ərdəbilə, Tiflisdən Koşanacan bütün vilayətlərin xanlarını, valilərini, hakimlərini, adlı-sanlı şəxslərini iqamətgahında qəbul eləyir, hər kəsin əhvalını öyrənir, divanın yığıncaqlarını keçirir, hökmlərini verir, səbirlə vaxtın yetişməsini gözləyirdi. Hər gün Vəlineməti salamlayandan sonra Araz körpüsündən keçib komamıza qayıdır, intizarımızı gizlətməyə çalışa-çalışa vaxtımızı keçirməyə çalışırdıq. Bu müddət ərzində Mirzə Mezdiylə də görüşməyə imkan tapmamışdıq, görünür, ya hələ məsləhət bilmirdi, ya da halı özgə hal idi. Vəlinemətin hüzuruna çağıracağı barədə dediyi ikicə kəlmə ağır daş kimi sinəmdən asılmışdı, məni rahatlanmağa, nizamlı düşünüb-daşınmağa qoymurdu. Günaşırı Axund Ələkbərin komasına baş çəkməyim, Mirzə Kəmaləddinlə söhbətlərim olmasaydı, yəqin müvazinətimi çoxdan itirmişdim. Şübhəsiz, Vəlinemətin səbri, təmkini, tədbirliliyi məni heyrətləndirmişdi, hamı intizar, həyəcan, qorxu içində vaxtın yetişməyini gözləyir, ağlından keçənləri hətta ən yaxın adamına belə söyləməyə cəsarət eləmirdi. Elə bil düşərgənin üzərinə anlaşılmaz, qatı hava çökmüşdü...

# X

# VƏLİNEMƏTİN ZİYAFƏTİ

*Məst edən hər bir şey haramdır, bəli,*
*İstər yeməlidir, istər içməli...*
*Zəruri olarsa, halaldır murdar,*
*Lazımsız nəfəs də haramdır, aşkar.*

*Marağalı ƏVHƏDİ*
*(XIII-XIV yüzillər)*

204. Hər gün Vəlineməti salamlamağa gedəndə düşərgədəki nizama fikir verirdim. Günorta namazından sonra Böyük Xan divanxanaya girib öz yerini tuturdu. Dərhal otuz nəfərəcən çavuş peyda olub ucadan dua oxuyur, səssizcə çəkilib gedirdi. Onların ardınca cəzayirçi adlanan üç min xan tüfəngçisi qamış hasardan içəri daxil olur, minbaşılarının əmrilə üç cərgədə düzülür, atəş saçan ağır silahlarını lüləsi yuxarı dik tuturdular; tüfənglərin lülələrinin yarısı qızıl, yarısı gümüş halqalarla bəzədilmişdi; tüfəngçilər başlarına keçədən tikilən, ona görə də keçəqalpaq adlanan papaq qoyurdular; papaqların qulaqcıqlarının üstündə də «Allah, Ya Allah» sözləri yazılmışdı. Onların susqun, qorxunc görkəminə baxanda adamın damarda qanı donurdu. Vəlinemət taxtda oturanda həmişə ətrafında başlarına xoruz pipiyinə oxşar lələkli cıqqa qoyan çantaullar, arxasınca nasaqçılar düzülürlər. Nasaqçıbaşının cıqqasında uç lələk – ikisi qıraqlarda, biri ortada olur. Vəlinemətin əsgərlərinin əksərinin əlində misdən, ya da gümüşdən düzəldilmiş nizə, ya da gümüş dəstəkli, Dəməşq poladından döyülmüş ovxarlı balta olur. Çantaullar eşik mühafizəçisidilər, yolları, dərələri, yarğanları güdür, gecələr düşərgəni bayırdan qoruyurlar, üstəlik, xanın qəzəbi tutub kimisə o dünyaya göndərmək istəyəndə həmin zavallını onların ixtiyarına verirdi. Nasaqçılar döyüş vaxtı böyük xanın əmrlərini hissələrə çatdırırlar, həm də əsgərlərin döyüş yerlərindən çıx-

masının qabağını alırlar. Vəlinemət kimisə hüzuruna çağıranda da nasaqçıları göndərirlər. Böyük Xanın əmrilə nasaqçılar uzaq səfərlərə çıxa, məmləkətin bir guşəsində kimisə səssiz-səmirsiz, həm də rəhmi gəlmədən öldürə bilərlər. Düşərgənin daimi əmin-amanlığına nasaqçılar cavabdehdi, oğru-quldurların əl-ayağını oda onlar yığışdırırlar, kimsənin malı oğurlananda, yaxud əlindən alınanda nasaqçılara üz tutur. Vəlinemətin sərəncamında carçılar, keşikçilər, əliağaclılar da var; carçılar hər gün – döyüş oldu, əmin-amanlıq oldu – Böyük Xanın əmrlərini qoşuna da, camaata da çatdırırlar; sayı altı minə çatan, başlarında ağ sarıqlı papaq, əllərində tüfəng olan keşikçilər də Vəlinemətin əmin-amanlığını qoruyur, üç gündən bir növbəyə çıxırlar; əliağaclılarsa xanların, həm də onların yaxınlarının uşaqlarıdılar, Böyük Xan qəzəblənib kimisə döydürmək istəyənlə o zavallını üzü üstə yerə yıxıb bəs deyənəcən çırpırlar. Hər gün çantaulların, nasaqçıların, əliağaclıların hərəsindən üç yüz nəfəri öz vəzifəsini yerinə yetirməyə hazır olur.

205. Vəlinemətin əqrəbasının hər birinin yeri divanxanada məlum idi: ona sol yanında ən yaxın oturan qardaşı İbrahim xandı, böyük oğlu Rzaqulu xan sağ yanında, amma azacıq aşağıda otururdu, sonra Rzaqulu xandan yaşca kiçik qardaşı oğlu Murtuzaqulu xan, ondan azacıq aşağıda İbrahim xanın digər oğlu Məhəmmədəli xan, sonra Təhmasib xan Cəlayir, Müzəffərəli xan, Həsənəli xan, Mirzə Zəki öz məqamlarına görə otururdular. Həmişə Mirzə Mehdini və Mirzə Mömini xanların arxasında, öz yerlərində dinməzcə oturmuş görərdim. Vəlinemət divanın yığnaqlarını da bu qaydada aparır, hər gün təxirəsalınmaz məsələlər barədə qərarlar verirdi. Hər dəfə də göz qoyurdum: Böyük Xanın hüzuruna çıxanlar kaman kimi gərilirdilər, üzlərinin rəngi qaçır, əsintili-uçuntulu görkəm alırdılar, o hal uzun müddət cismlərindən çəkilmirdi. Qorxub-titrəməsəm də, elə mən də hər dəfə Böyük Xanın hüzurunda təzim eləyəndə canımda təsvirəgəlməz çalxantı duyurdum, o duyğu da Araz körpüsünü keçib düşərgədən aralananacan yaxamdan əl çəkmirdi. Vəlinemətin susqunluğu, bu yığnağın əsl məqsədi barədə hələ də bir kəlmə söyləməməsi hamını təbdən çıxarırdı, amma kimsə cəsarət eləyib bunu dilinə gətirə bilmirdi. Əlbəttə, bura nəyə

görə çağırıldıqlarını çox gözəl bilirdilər, onlardan nə tələb olunduğunu da aydın dərk eləyirdilər, üstəlik, heç şübhəsiz, artıq nə cavab verəcəklərini də müəyyənləşdirmişdilər, amma o amansız narahatlıq yaxalarından əl çəkmirdi. Əbdülhəsən bəy deyirdi, axır vaxtlar Məhəmmədqulu xanın ürəyində fəsadlar yaranmağa başlayıb, hətta bir dəfə Vəlinemətin həkimbaşısını da çağırmalı olublar. Erməni xəlifə heç, zıqqıldaya-zıqqıldaya işlərini görürdü, onun narahatlığı nəzərdə tutduğu raqamları Böyük Xandan – gələcək Şahdan qoparmaqla bağlıydı. Cəmi üç gündən sonra Böyük Xanın nəhəng çadırının sökülməsinə çaşqınlıqla baxanların beynindən nələr keçdiyini də təxmin eləmək olardı: artıq bütün əsəblər gərilmiş, həyəcan son həddə çatmışdı.

206. Amma Ramazan bayramının son günü yaxınlaşanda Vəlinemət təzədən böyük çadırın, üstəlik də günbatan tərəfində şahanə köşkün qurulması barədə əmr verdi, yenə iqamətgahının günçıxanında qurulan çadırda salama gələnlərin gözlərini mübarək vücuduyla sevindirdi. Günəş bir adam boyu qalxanda Vəlinemət iqamətgahından çıxdı, əyan-əşrəflə qamış hasarın eşiyində üzü günçıxana sarı dayandı, dərhal əli tüfəngli cəzairçilər, keşikçilər, silahlı çantaullar, çavuşlar, nasaqçılar, əlağaclılar ətrafına ətdən divar çəkdilər. Bayramsayağı geyinmiş Böyük Xanın əmrilə dəvə döyüşü başlandı, sonra pəhləvanlar qurşaq tutdular. Vəlinemət meydanda baş verənlərə maraqla baxır, hərdən dönüb qardaşı İbrahim xana, ya da Mirzə Zəkiyə, yaxud Təhmasib xan Cəlayirə nəsə deyirdi. Güləş bitəndən sonra Vəlinemət üstün gələnlərə bəxşiş payladı. Ardınca hamıya Böyük Xanı salamlamaq üçün göstəriş verildi. Həmişəki kimi bütün vilayətlərin heyətləri sırayla Vəlinemətin önündən keçməyə, dinməzcə təzim eləyib ötməyə başladı. Komamıza qayıdanda Mirzə Kəmaləddin kimsə eşitməyin deyə, səsini qısıb, pıçıldadı, görünür, yığnağın əsl məqsədi sabah məlum olacaq, Allah axırını xeyir eləsin. Əslində, yığnağın məqsədi məlum idi, əsas vaqiə sabah baş verəcəkdi. Bu müddət ərzində Böyük Xan barədə eşitdiklərimi, bildiklərimi, müşahidələrimi ümumiləşdirib belə qərara gəlmişdim ki, Vəlinemət taxta iddiasını açıq-aşkar bildirməyəcək, əvvəlcə boyun qaçıracaq, hüzuruna çağırdığı kəsləri yalvarmağa məcbur eləyəcək, sonra boyunlarına minnət

qoyub məqsədinə çatacaq. Beləliklə, bir gülləylə iki quş vuracaq, taxt-taca yiyələnməklə yanaşı onun taxta çıxmasını istəməyənləri də təsbit eləyəcək, sonra hamısını bir-bir aradan götürəcək. Mən bilən, indiyəcən baş verənlərin hamısı gələnlərin səbrini sınağa çəkmək idi, Böyük Xan da bunu çox ustalıqla bacarırdı.

207. Bayram günü yenə gün çıxmamış qamış talvarımızın altında oturub Vəlineməti salamlayacağımız məqamı gözləyirdik. Bir ucdan xanlar, sultanlar, ağalar, bəylər, kələntərlər, məliklər, mirzələr, mirsəfilər, mollabaşılar, mollalar, kəndxudalar, minbaşılar, yüzbaşılar dəstə-dəstə gəlir, keşikçilər, nasaqçılar, çantaullar, əliağaclılar onları qarşılayıb xüsusi ayrılmış yerlərdə oturdurdular. Hər kəs öz yerini dəqiq bilməli, sağında-solunda oturanı tanımalıydı. Mənim sağımda Rəvan xanının dəftərdarbaşısı, solumda həmişəki kimi Mirzə Kəmaləddin oturmuşdu. Əvvəlcədən Böyük Xanın əmrilə hazırlanan siyahı üzrə hər kəs yerini tutandan sonra çadıra girib Böyük Xanın qarşısında dinməzcə və təmkinlə diz çökməyin təhərini başa salırdılar: diz çökəndə də, dikələndə də tələsmək olmaz, hər kəs özünü mümkün qədər ağır aparmalıdı. Bütün bunlardan sonra dinməz-söyləməz oturub Vəlinemətin hüzuruna nə vaxt çağırılacağımızı gözləyirdik. Bu müddətdə Osmanlı elçisi Gəncəli Paşayla rus elçisi olan bir zat gəldi, onları ləngitmədən çadıra apardılar. Həmin vaxt Mirzə Kəmaləddin mənə Təbrizdə eşitdiyi bir rəvayəti danışırdı. Deyirdi, bir gün mələklərdən soruşurlar, cənnət nədi, mələklər də cavab verirlər ki, sevginin olduğu hər bir ürək cənnətdi; sonra soruşurlar ki, bəs cəhənnəm nədi, bu dəfə mələklər deyirlər, sevginin olmadığı ürək elə cəhənnəmdi. Bu söhbət elə-belə düşmüşdü, amma mənə elə gəldi, sirdaşım sözü bu yığnağın səbəbkarına vurur, üstüörtülü də olsa, onun qəlbində insan sevgisinin az olmasına işarə vurur.

208. Bizim də bayram salamına çağırılmağımızın vaxtı yetişdi, əliağaclı xanzadələr bir-bir qamış talvarlara yaxınlaşıb dəvətliləri Böyük Xanın hüzuruna apardılar. Yarımeyit Məhəmmədqulu xanın arxasınca erməni xəlifəsinin necə yortduğunu gördüm. Sırayla qamış hasardan içəri girib çadırın önündəki xüsusi ayrılmış yerdə başmaqlarımızı soyunduq, baş tərəfdə əyləşmiş Böyük Xana təzim eləyib əliağaclının göstərdiyi yerdə diz üstdə oturduq.

Vəlinemətin sağ tərəfindəki xüsusi yerdə Osmanlı elçisi Gəncəli Paşa, sonra Təhmasib xan Cəlayir, Mirzə Zəki, Müzəffərəli xan, Həsənəli xan, Şahqulu xan Qacar, Əbdülbağı xan Zəngan, Pir Məhəmməd xan, Vəlinemətin qayını *( Vəlinemət Tiflisə girəndə gürcü çarının qızıyla evlənib hərəmxanasına qatıbmış, bunu Kaxet mirzəsi Şahəli bəydən eşitmişdim)* Tiflis və Kaxet valisi Əlimirzə xan, onun yanında Məhəmmədqulu xan, erməni xəlifə, Naxçıvan xanı Rza xan, dəftərdarbaşı, sonra mən oturmuşduq. Əlimirzə xanın başında cıqqa vardı, əslində, hələ Böyük Xandan sonra ən üstün məqama sahib idi. Bizdən aşağı tərəfdə çoxunu üzdən tanımadığım xanlar, ağalar, bəylər, kələntərlər və məliklər əyləşmişdilər. Vəlinemətin sol tərəfində qayda üzrə qardaşı İbrahim xan, böyük oğlu Rzaqulu xan, qardaşı oğlu Əliqulu xan, öz oğlu Murtuzaqulu xan, rus elçisi, sonra isə yenə məmləkətin vilayətlərindən gəlmiş xanlar və hakimlər sıralanmışdılar. Oturanların sayı aşağı-yuxarı yüz nəfər olardı, qalan əyanlar, mirzələr, minbaşılar, bir sözlə, dəvətlilər bizim arxamızdakı məhəccərlə çadırın divarı arasındakı xalça döşənmiş yerdə ayaq üstdə dayanmışdılar. Yadıma bayaq Mirzə Kəmaləddinin danışdığı rəvayət düşdü. Böyük Xanın qəlbində, ümumiyyətlə, insana sevginin olub-olmadığını deyə bilməzdim, amma, görünür, öz doğmalarını sevirdi; bir də ki, şairanə insan sevgisilə məmləkəti idarə eləməyin nəticələrini Şah Xətainin timsalında görmüşdük. İllah da məmləkətin ağır vaxtlarında Böyük Xanın sərtliyi, bir çox vaxtlarda əzazilliyi olmasaydı, yəqin indi o məqamda oturmazdı.

209. Oturanların qarşısına hər iki tərəfdən gözəl naxışları olan süfrə salınmışdı. Hər sürfənin baş tərəfində qızıldan üç şərbət bardağı, hərəsinin içində yeddi qızıl cam olan üç qızıl məcməyi qoyulmuşdu. Hər süfrədə bir qızıl ətirqabı vardı. Əvvəlcə Böyük Xandan başlayıb hamının əlinə gülab suyu damızdırdılar, sonra gümüş qablarda şərbət paylayıb ətir qablarını yellətməyə, çadıra ətirli tüstü yaymağa başladılar. Bu müddətdə xidmətçilər qızıl camlarda şərbət payladılar. Oturanların hamısına şərbət paylayandan sonra ayaq üstdə dayanmış dəvətlilərə şərbəti gümüş camlarda verdilər. Mən şərbət içə-içə nəzərlərimlə Mirzə Mehdini axtarırdım, axır ki, onu Mirzə Möminlə yanaşı Mirzə Zəkinin arxasında ayaq üstdə dayanmış gördüm. Çadır böyük,

məsafə uzaq, həm də içəri az işıqlı olduğundan onun üzündəki ifadəni sezə bilmədim. Amma Məhəmmədqulu xanın qorxu, erməni xəlifənin yaltaqlıq dolu siması gözlərimə tez-tez sataşırdı. Aradabir də Vəlinemətə altdan-altdan diqqətlə göz qoyurdum. Görkəmindəki arxayın, əzəmətli, təmkinli halın arxasında nələr gizləndiyini bu dəqiqələrdə, yəqin, özündən başqa kimsə bilmirdi. Güman ki, indiki məqamda ən çox istədiyi bura yığışanların ağlından nə keçdiyini öyrənmək idi. Sonra Vəlinemət eşikağasına işarə elədi, bir göz qırpımında süfrələrin arasındakı meydançaya rəqqaslar çıxdılar. Meydançanın ayaq tərəfində oturan çalğıçılar alətlərini səsləndirdilər, on beş nəfərəcən rəqqassa oxuyub-oynamağa, məclisdəkiləri şənləndirməyə başladılar. Rəqqaslar oynadıqca ayaqlarındakı və əllərindəki şaxşaxlar ahəngdar səs salır, dinləyənlərin sümüyünə işləyirdi. Bu müddətdə xidmətçilər ətir qablarını yellədir, çadıra ətirli tüstü yayırdılar. Belə bir musiqi məclisini Təbrizdə, İsfahanda, Qəzvində çox görmüşdüm. İndi də şövqlə çalan kamançıya, tamburçuya, dütarçıya, özlərini unudub oyunun cazibəsinə qapılmış rəqqaslara baxır, sanki özümü aradan illərin ötmədiyinə, yolları əriş-arğac eləmədiyimə, taleyin məni gətirib Muğan düzünə çıxarmadığına inandırmaq istəyirdim.

210. Amma yenə heç nə baş vermədi. Şəvval ayının ilk günü də belə keçdi. Rəqs bitəndən sonra Vəlinemət hamıya gedib dincəlmələrini buyurdu, məclisdəkilər də müəmma dolu görkəmlə çadırdan çıxıb dağılışdılar. Araz körpüsünü keçəndən sonra orda-burda bayram ovqatı yaradanlara – kəndirbazlara, pəhləvanlara, gözbağlayıcılara rast gəlirdik, bununla belə heç kəs öz içindəki ağırlıqdan qurtara bilmirdi. O günün axşamı Məhəmmədqulu xanın nisbətən iri komasında salınmış bayram süfrəsində də eyni ovqat vardı. Axund Ələkbər saqqalını sığallaya-sığallaya susur, Əbdülhəsən bəyin görkəmindən çox şey bildiyi, amma heç nə söyləməyəcəyi bəlli olurdu. Məhəmmədqulu xan nə qədər qamətini şax saxlamağa çalışsa da, bacarmırdı, elə bil, içini gəmirən hansısa xəstəlikdən get-gedə üzülüb balacalaşırdı. Yadıma Mirzə Kəmaləddinin nə vaxtsa danışdığı əhvalat düşdü: divanxanada bir qaraçının da işinə baxılacağını eşidəndə Şah Abbas vəzirdən təəccüblə soruşur ki, onun günahı nədi,

vəzir deyir, Qibleyi-Aləm, dünən bazar meydanında əlahəzrət şahı söyüb, onu ən ağır cəza gözləyir; Şah Abbas deyir, vəzir, mən birdən-ikidən qaraçıyla oturub-duranammı; vəzir az qalır yeri öpsün, deyir, Allah eləməsin, əlahəzrət; Şah Abbas soruşur ki, bəs, onda görməzə-bilməzə niyə söysün, deməli, söydürən var, dərhal o qaraçını buraxsınlar, iki günə, məni söydürəni tapıb cəzalandırmasan, başınla cavabdehsən; o gündən Şah Abbas oğlu Səfi Mirzəyə öyüd verərmiş ki, şahı öydürən də vəzir-vüzarə, xanlar-bəylərdi, söydürən də, onları gözdən qoyma. Bircə o axşam başının dəstəsilə bayramımızı təbrikə gəlmiş erməni xəlifənin gözlərinin dibində cin oynaşdığını gördüm. Yəqin, məmləkətin taleyinin necəliyindən asılı olmayaraq taxta oturandan öz istədiyini qoparacağına görə arxayındı. Həmin məqamda fikirləşirdim ki, *tale çox şıltaq şeydi, bəzən bizim başımıza ağlagəlməz oyunlar açır, bəzən də səhvlərimizi düzəltmək, həyatımızı yaxşılığa doğru dəyişmək üşün şərait yaradır, bəzən də elə bəxşişlər verir ki, heç inanmağımız gəlmir.* Mənə görə taleyim bunca itkilərimin müqabilində mənə bu tarixi günlərin şahidi olmaq, baş verənləri öz gözlərimlə görüb kağıza köçürmək imkanı yaratmışdı, buna görə də bütün ağrılarımı unudub bəxtimdən razı qalmağa hər cür əsasım vardı. Bundan başqa bu yaşımda taleyimdən nə gözləyə bilərdim axı...

# XI

# TAXT-TACA DOĞRU

*Gül yüzün gördükcə, vallahi,*
*bu könlüm şad olur,*
*Həq səni var eyləsün, dövlətli*
*Sultanım mənim.*

***HƏBİBİ***
***(XV-XVI yüzillər)***

211. Bayramın ikinci günü hava ılıq və xoş idi. Gün təzəcə çırtlayanda həmişəki kimi Böyük Xanı salamlamağa getdik, adətimiz üzrə qamış talvarlarımızın altında oturub vaxtımızın yetişməyini gözlədik, məqamı çatanda onun qüdrətli vücudunu yaxında görüb-duymağımızın əsintisi içində, tələsib-təntiməkdən qorxa-qorxa hüzurunda təzim eləyib aralandıq. Təzəcə günorta namazını qılıb naharımızı eləmişdik ki, Böyük Xanın göndərdiyi carçı gəldi, dedi, Allahın seçilmiş bəndəsi, səltənətin dayağı, qüdrətli xanımız buyurdu ki, hər vilayətin heyəti iqamətdən bir at mənzili uzaqda yığışıb məmləkətin taleyinin kimə tapşırılacağı barədə düşünüb-daşınsın. Hər vilayətin xanları, ağaları, bəyləri, kələntərləri, məlikləri, mirzələri, mirsəfiləri, mollaları, mollabaşıları, kəndxudaları, bir sözlə, sözü keçən, hökmü yetən adamları Vəlinemətin nişan verdiyi yerdə dəstə-dəstə yığışıb dayanmışdılar, üzlərdəki ehtiyatı, qorxunu, narahatlığı asanca oxumaq olurdu. Əbdülhəsən bəyin görkəmindəsə arxayınlıq duydum, görünür, Böyük Xanın iqamətgahında tez-tez olduğundan, bu yığnağın axırının necə qurtaracağını bilirdi, dünən axşam təkə-təkdə üz-üzə gəldiyimizdən söylədiklərindən ordakı ab-havanı öyrənməyə imkanım olmuşdu. Dediyinə görə, İbrahim xanın yaxın ünsiyyətdə olduğu adamlarından biri ona sirr kimi bir vaqiə danışıb: Vəlinemət qəfildən qardaşının çadırına gedib, deyib ki, məmləkətin xilasında çox əzab-əziyyətə qatlaşıb, indi istəyir ki,

adına xütbə oxudub, sikkə kəsdirsin. İbrahim xan qardaşından çəkinsə də, bu məsələdə fikrini gizlətməyib, ərz eləyib ki, iki yüz ildən artıqdı taxt-tac Şeyx Səfi nəslinin əlindədi, camaat artıq buna öyrəşib, yeni xanədanı çətin sinirə, sonra deyib, Səfəvi nəslinin övladlarının qəsdinə durmaq gələcəkdə kimlərinsə bizim övladlarımızın qəsdinə yol aça bilər, beş günlük dünya üçün bunu özünə rəva görmə; ardınca deyib, onsuz da bu məmləkətin hökmdarı sənsən, qılıncınla torpaqlar fəth eləmisən, xaqanlar önündə diz çökür, məşhuri-cahansan, Təhmasib Mirzəni taxta çıxarsan, taxt-tacın xilaskarı kimi daha böyük ad qazanarsan.

212. Əbdülhəsən bəyin dediyinə görə, bununla belə Vəlinemət qardaşıyla razılaşmayıb, deyib ki, hökmranlıq dədə-baba mülkü deyil, heç Peyğəmbər əleyhissəlamın ölümündən sonra xəlifəlik də onun nəslinin əlində qalmadı, üstəlik, Səfəvi xanədanı da taxt-tacı qılınc gücünə başqa xanədandan alıb. İbrahim xan qardaşını fikrindən çəkindirməyin mümkünsüzlüyünü görəndə deyib, bu gün hökm-fərma sənsən, amma Təhmasib Mirzəyə, Səfəvi varislərinə toxunmamaq məsləhətdi; Vəlinemət də ona vəd eləyib ki, məmləkətdə əmin-amanlıq yaradıb Hindistanı tutandan sonra taxt-tacı Təhmasib Mirzəyə qaytaracaq. Deyilənlər həqiqətə oxşayırdı, bu büsatdan sonra Vəlinemətin taxta çıxacağına mən də şübhə eləmirdim. İndi üzlərə baxıb bu həqiqəti məndən başqa kimsənin bilib-bilmədiyini unamağa çalışırdım. Axund Ələkbərin nə düşündüyü bəlli deyildi, tez-tez əlini saqqalına çəkib, elə bil, dua pıçıldayır, ya özünə ürək-dirək verirdi. Erməni xəlifə qoluna girmiş vardapetinə astadan nəsə deyir, bic-bic gülümsünürdü, deyəsən, cavabı çoxdan hazırdı, daha doğrusu, taxta kimin çıxacağının ondan ötrü fərqi yox idi, hər kəsdən nə istəyəcəyini bilirdi, amma Vəlinemətin nazik damarını tutduğundan indiki məqamda onun hökm-fərma olmasını daha çox istəyərdi. Məhəmmədqulu xan özünün kölgəsinə oxşayırdı, şübhəsiz, indi bu yığnaqda olmamaq üçün xəstələnməyə, lap şikəst olmağa hazır idi: onu müsəlman eləyib xan məqamına gətirmiş, Rəvan kimi bir vilayətin idarəsini tapşırmış xanədana arxa çevirmək əslində, ondan ötrü o qədər də çətin iş deyildi, çünki belələri ancaq qatıra palan olmaqdan, hökm-fərma olana qulluq eləməkdən ötrü yaranmışdılar, Gözəl bilirdim ki, Böyük Xan tac qoyandan

sonra Şah Təhmasibin xan elədiyi kəsə inanıb bel bağlamayacaq, üstəlik, onu sağ da qoymayacaq, başı açılan, daha doğrusu, taxta çıxan kimi, verdiyi vədi bilmərrə unudub Səfəvi xanədanının təəssübkeşlərini bir-bir aradan götürəcək, onda heç İbrahim xan da hökmdarın yolunu kəsə bilməyəcək.

213. Qış günəşi qüruba əyilən vaxt carçı xəbər gətirdi ki, Böyük Xanın göndərdiyi elçilər gəlir. Az sonra elçilər, yəni Vəlinemətin ən yaxın adamları Təhmasib xan Cəlayir, kaşanlı Əbdülqədim Mirzə, Xorasanlı Ələkbər Mirzə, Böyük Xanın sanduxtarı Mirzə Mömin gəldilər. Carçılar bir-bir vilayətlərin adını çəkir, nasaqçılar xanlardan, bəylərdən, mirzələrdən, bir sözlə, adlı-sanlı şəxslərdən ibarət dəstəni Vəlinemətin göndərdiyi heyətin önündən keçirir, hamıya da eyni sözlər söylənirdi: Böyük Xan buyurdu ki, gedib məsləhətləşəsiniz, sizə və məmləkətə hökmdar olacaq, əmin-amanlığı qoruyacaq bir kəsi seçəsiniz. Təhmasibi şah seçin, onu istəməsəniz, səfəvilərdən kimi istəsəniz, taxta çıxarın; Böyük Xan buyurur ki, artıq qocalıb səfərlərdən, döyüşlərdən yorulub, Allahın köməyilə ölkəni düşmənlərdən təmizləyib, məmləkətdə əmin-amanlıq hökm sürür; Böyük Xan özü Xorasana qayıtmaq, Kelatdakı qəsrinə çəkilmək, gününü Allaha ibadətlə keçirib, könül rahatlığı tapmaq istəyir; axşamacan düşünüb-daşının, axşam yenə burda yığışın, öz fikrinizi bizə söyləyin, biz də Böyük Xana çatdıraq; mürəxxəssiniz. Bunu deyən Mirzə Zəkinin üzündə sezdiyim ifadədən anladım ki, əslində, bura yığışanlardan istədikləri söylənənlərin tərsidi, nə rüsvay-cahan edilib taxtdan salınmış, gözdustağı edilmiş Təhmasibin adını çəkməyə cəsarət göstərən bir kəs tapılacaq, nə də İsfahanda qanına qəltan olunmuş xanədan mənsublarından sonra taxt-taca layiq bir kəs qalıb ki, camaat ona üz tuta bilsin. Vəlinemət hamımın ağzını dalana dirəmişdi, kimsəyə başqa çıxış yolu qoymamışdı. Ona görə də deyilənlərin üstüörtülü mənasına varmadan böyrümdə sevindiyindən, az qala, nəfəsi tutulmuş Mirzə Kəmaləddinin əlini sıxdım, o da, elə bil, qəfil yuxudan ayılıb özünü yığışdırdı.

214. Qalacağımıza dönənəcən kimsə dinib-danışmadı, şübhəsiz, hamı irəli düşməkdən, səhv eləməkdən, özünü güdaza verməkdən qorxurdu. Vəlinemətin bu bəyanının səmimi olmadığına, özünə və iradəsinə qarşı çox diqqətlə, səbirlə hazırladığı

sınaq keçirdiyinə, düşüncəsiz adamların bu tora düşəcəklərinə, demək olar, əksəriyyət inanırdı. Mən də çəlpəşik düşüncələr içində vurnuxurdum: tutaq ki, Əbdülhəsən bəyin söylədikləri şayiələr düzdü, yəni Vəlinemət bəyanında səmimidi, doğrudan da, yorulub, əlçatmaz-ünyetməz qəsrinə çəkilmək, guşənişin həyat sürmək istəyir. Əgər belədisə, bu Allaha xoş gedərmi? Dağılıb-bölünən, basqınlardan, çapqınlardan, talanlardan cana doymuş məmləkəti günbatandan, gündoğandan, güneydən, quzeydən təhdid eləyən düşmənlərin əlindən almış, əslində, dövləti təkcə düşmənlərdən yox, iradəsiz, bacarıqsız, şəhvət düşkünü Şah Təhmasibdən də qurtarmışdı. İsfahanın mühasirəsindən nə az, nə çox, düz on üç il ötüb, bu on üç ildə həmişə at belində olub, qılıncını qınına qoymayıb, dəfələrlə ölümün pəncəsindən qurtulub. İndi əzab-əziyyətlə, on minlərlə döyüşçüsünün, minlərlə silahdaşının, yüzlərlə arxalandığı igidinin qanı bahasına qurduğu məmləkəti yenə səfəvilərin eyş-işrətdən korşalmış qılıncına etibar eləsə, bunu Allah bəyənərmi? Nolar, çobanın, lap elə kürkçünün, ya çarvadarın oğlu olanda, torpaq əkənin, məmləkət qoruyanındı. Sabah osmanlılar, uğanlar, ruslar təzədən məmləkətə soxulsalar, ortaya da ikinci bir Nadirqulu çıxmasa, halımız necə olacaq? Bir də ki, bəyəm, könlü istəyən Səfəvilərin taxta qaytarılmasını söyləsə, Vəlinemət bununla dinməzcə razılaşarmı? Əmrində olan əlli minlik qoşun düşərgənin ətrafında ordugah qurub, əllər qılıncın qəbzəsində, barmaqlar tətikdədi – bunu ağıllı adamların hamısı bilir. Üstəlik, Böyük Xanın gözü-qulağı kimi minlərlə adam düşərgəni tor kimi bürüyüb, kimin nə həddi var ki, ayrı cür fikirləşdiyini dilinə gətirib başını itirsin?

215. Qalacağımıza yetişəndən bir az sonra Əbdülhəsən bəyin xəbərdarlığıyla Məhəmmədqulu xanın köşkündə yığışdıq. Xanın özü üşütməli-titrətməli görkəmdəydi, dillənib bir kəsərli söz demək iqtidarında deyildi. Yolda tədbirli tərpənib Mirzə Kəmaləddini yığnaqdan aralamışdım, Əbdülhəsən bəyə də onun xəstələndiyini, oturub-durmağa halı olmadığını söylədim. Yığnağı Məhəmmədqulu xanın razılığıyla Axund Ələkbər apardı, dedi, Allah kölgəsini üstümüzdən əksik eləməsin, qüdrətini daim artırsın, hamı Böyük Xanımızın buyruğunu eşitdi, gərək düşünüb-daşınıb, qərarımızı verək. Sonra öz fikrini dilə gətirdi, dedi,

Xanımız neçə illərdi xanədanın yükünü çiyinlərində daşıyır, dinclik bilmədən düşmənlərimizə qarşı döyüşür, əgər əlini dövlət işindən çəksə, yenə dörd tərəfdən məmləkətimizə göz dikmiş yağıların tapdağı altında qalacağıq. Dedi, yenə əzab-əziyyətə düçar olmağımız nə Allaha xoş gedər, nə də bəndəyə, ona görə də Böyük Xanımızın taxta çıxıb bundan sonra da məmləkətimizin, canımızın, malımızın əmin-amanlığını qoruması daha ədalətli olar. Axund Ələkbərin bu sözlərindən sonra araya sükut çökdü, erməni xəlifə fasilədən istifadə eləyib Vəlineməti İkinci İskəndər, xalqının, dininin, kilsəsinin himayədarı adlandırdı, dedi, onun sayəsində Osmanlıların əsarətindən qurtulmuşuq, bütün dindarlarımız, kələntərlərimiz, məliklərimiz yekdil fikirdədilər ki, Böyük Xan bundan sonra da bizim hökmdarımız olsun, himayəsini və səxavətini bizdən əsirgəməsin. Əslində, bunun ardınca nəsə deməyə hacət yox idi, Vəlinemətin çox da güvənmədiyi, dövlət işlərinə yaxın buraxmaq istəmədiyi din adamları onun taxta çıxmasını istəyirdilərsə, deməli, xanlar, bəylər, mirzələr, mirsofilərin hökmə boyun əymələri lazım gəlirdi. İki xan, bir kələntər, bir mirzə, bir kəndxuda danışandan sonra Axund Ələkbər mənə də üz tutdu, dedim, Böyük Xanımız neçə illərdi iç və dış düşmənlərə qarşı döyüşə-döyüşə taxta çıxmaq haqqı qazanıb, Dərbənddən ta Heratacan uzanan bu məmləkətin hər guşəsində onun atının ayaq izi var, ona görə də dişi-dırnağıyla qurduğu dövləti başqasına etibar eləyə bilməz, eləsə də, bu Allaha xoş getməz. Axırda Məhəmmədqulu xan özünü toxtada-toxtada eyni fikirdə olduğunu söylədi, danışmaq istəməyənlərin, yaxud başqa rəyi olmayanların razılığını alandan sonra qalxıb köşkdən çıxdıq.

216. Yenə ayrı-ayrı vilayətlərin heyətləri Vəlinemətin elçilərinin səhər bizi topladıqları yerə gedirdilər. Hamı tələsirdi, elə bil, gecikməkdən qorxurdu, amma kimsə yanındakının üzünə baxmaq istəmirdi, yəqin həmin məqamda dilinə gətirdiyinin beynindən keçirdiyilə düz gəlməyəcəyini kiminsə anlayacağından qorxurdu. Bu dəfə Axund Ələkbərlə yanaşı addımlayırdıq, onun dodaqlarının aramsız tərpəndiyini görürdüm, yəqin bütün bu yığnağın – Mirzə Zəki necə dedi, hə, qurultayın – xatasız-bəlasız ötüşməyindən ötrü dua eləyirdi. Gözlərimin qabağına Mirzə Mehdinin ağıllı, nurani sifəti gəlirdi, onun içində baş verən çaxnaşmanı

sövqi-təbii duyurdum. Bizim kimi tələsənlər çox idi, Vəlinemətin elçilərini xeyli gözləməli olduq, bu müddətdə də şübhəsiz ki, havadan, torpaqdan, güzərandan, Muğan çölünün gözəlliyindən, Vəlinemətin yığnaq üçün çox əlverişli yer seçdiyindən özgə bir mövzuda danışmadıq. Şübhəsiz, Böyük Xan bu seçimi eləyəndə Muğanın bir çox üstünlüklərini nəzərə almışdı. Doğrudan da, ilin bu vaxtında bu qədər adamı başqa yerdə yerləşdirməyin mümkünlüyü ağlıma gəlmirdi. Axır ki, qaş qaralana yaxın Böyük Xanın elçiləri gəldi, yenə carçılar bir-bir vilayətlərin adını çəkib elçiləri hüzuruna çağırdılar, nasaqçılar heyətləri bir-bir elçilərin önündən keçirdilər. Bizim növbəmiz çatanda Axund Ələkbər dua oxuyub qərarımızı bildirdi: Rəvan xanları, ağaları, bəyləri, din adamları, mirzələri, mirsofiləri, kəndxudaları məmləkətimizi düşmən tapdağından qurtarmış Böyük Xanımızı, Allahın seçilmiş bəndəsini, binəsiblərin himayədarını özlərinin hökmdarı görmək istəyirlər, ağlının və qolunun qüvvəsilə qurduğu dövləti başqa əllərə etibar eləməməsini umurlar. Görünür, Vəlinemətin elçiləri yaxşı hazırlaşmışdılar, məmnunluqlarını bircə hərəkətlə də bildirmədilər, elə bil, bütün bunların onlara istisi-soyuğu yox idi. Arxamızca Şirvan xanının heyəti gəlirdi, uzaqlaşa-uzaqlaşa onlardan da təxminən eyni sözləri eşidirdik.

217. Qamış komamıza qayıdanda Mirzə Kəmaləddini, doğrudan da, xəstələnmiş gördüm. Yatağında uzanıb gözlərini tavana dikmişdi, avazımış sifətində dərin, adamın qəlbini parçalayan iztirab vardı. Yaqubəli nasaqçılardan birini göndərib Məhəmmədqulu xanın aşpazından isti yemək gətirtmişdi, qatırçı Səfərin dediyinə görə, nə qədər üz vurmuşdusa, iki-üç qaşıqdan artıq yedirə bilməmişdi. Yanında oturub əlimi alnına qoydum: qızdırması yox idi, güman ki, əsl xəstəliyi qanı-canıyla bağlı olduğu xanədanın süquta uğramasıydı. Ulu babası Səfəvi müridlərindən olub İsmayılın taxta çıxması yolunda can qoymuşdu, babası da, atası da, qohum-əqrəbaları da həmin Səfəvi xanədanının xidmətində durmuşdular, Mirzə Kəmaləddin özü də Şah Sultan Hüseynin axırı rüsvayçılarla bitən hökmdarlığı dövründə Təbrizdə saray mirzələrindən biri olmuşdu. Əlbəttə, Sultan Hüseynin də, Təhmasibin də, Abbas Mirzənin də – hələ dünyadan baş çıxarmayan körpə Abbası demirdi – taxta layiq

olmadıqlarını dərk eləyirdi. Görünür, onu taxta Vəlinemətin çıxacağı yox, Səfəvi xanədanının sonunun bu cür biabırçılıqla çatması ağrıdırdı. Bir kəlmə kəsmədən uzun-uzadı baxışdıq, Mirzə Kəmaləddinin gözlərinin dibi qaynadı, daşdı, yanaqlarından axan yaş saqqalının tüklərini islatdı. O məqamda könül sirdaşıma necə təsəlli verəcəyimi bilmirdim. Mənə görə, insanın ağıllı hərəkət eləməyinin üç yolu vardı: *birinci, ən nəcib yol düşünüb-daşınmaqdı, ikinci, ən asan yol başqalarını yamsılamaqdı, üçüncü, ən ağır yol öz təcrübənə əsaslanmaqdı.* Əlbəttə, bunu Mirzə Kəmaləddinə demədim, amma indiki məqamda ən ağıllı yol başqalarını yamsılamaq idi...

# XII

# CANLA KÖNLÜN QOVĞASI

*Biri zülmət ili nurdur, birisi dolu fərəhlə,*
*Bədənim təlaş içində, ürəyim ümidlə xəndan.*

***QASİMİ-ƏNVAR***
***(XIV-XV yüzillər)***

218. Gecəni pis yatmışdım, narahatlığını büruzə verməməyə çalışsam da – komamızda gecələyən Yaqubəlinin, yaxud iki nasaqçının Vəlinemətin «gözü-qulağı» olmadığına necə inana bilərdim – gözlərimə ancaq səhərə yaxın yuxu getmişdi. Əlbəttə, artıq əlli illik yolçuluğum da, Tiflisə yetişmək arzum da, doğmalarımın həsrəti də çox-çox uzaqlarda qalmışdı, indi burda, taleyin məni gətirib çıxardığı Muğan çölündə bütöv bir məmləkətin, üstəlik, xanədanın taleyi həll olunur, tarixin yeni səhifəsi yazılmağa başlayırdı. Görünür, bu gedişatda mənə də yer ayrılıbmış, Vəlinemət dediyi sözü unudan deyil, vacib dövlət işlərini yoluna qoyandan sonra çağırıb, öz yerimi göstərəcək. Elə hey fikirləşirdim: hansı ədalətlidi – iki yüz otuz beş illik xanədanın öz ömrünü davam etdirməsi, yoxsa, taxta çıxmağa haqq qazanmış qüdrət sahibinin yeni xanədan yaratması? Allah haqdısa, köçəri çobanın, kürkçünün, çarvadarın alaçıqda doğulmuş oğlu Nadirqulunu seçmişdi, onun əlindən tutmuş, addım-addım qələbələrə aparıb taxta yaxınlaşdırmışdı. Deyilənə görə, Hələ Nadirqulu bəy olduğu vaxtlarda bir gün İsfahanın küçələrini dolaşırmış, görür ki, meydanın qırağında bir rəmmal oturub rəml atır. Ağlına nəsə gəlir, ona yaxınlaşıb deyir, rəml atıb taleyimi söylə. Rəmmal rəml atır, amma nədənsə təəccüblənib üç dəfə təkrar eləyir, axırda ayağa durur, tanımadığı adamın qabağında baş əyib deyir, bilmirəm kimsən, amma sən padşah olacaqsan, Nadirqulu bəy onun sözlərindən heyrətlənib bir söz söyləmir, gəzintisinə davam eləyir. Vaxt dolanıb, Naib-üs-Səltənə məqamına çatıb İsfahanı

uğanlardan alanda, həmin rəmmalı tapdırmaq istəyir, arayıb-axtarırlar ki, bəs rəmmal ölüb, amma bir qızı qalıb. Vəlinemət qıza min tümən pul, şəhərin ətrafındakı kəndlərdən də birini bağışlayır. Deyilənə görə, Həzrəti Əli yuxusunda belinə qılınc qurşayıb, deyib biz səni seçdik, bu məmləkəti sənə etibar elədik, get idarə elə, amma bəndələrə qarşı ədalətli ol. Buna axıracan təpəri çatacaq, ya yox – bu ayrı məsələdi. Şübhəsiz, xanədanı neçə illərdən bəri qılıncının kölgəsində saxlamaq onu bezdirib, Allah eləməsin, döyüşlərin birində tələf olsa, təkcə xanədan yox, bütöv məmləkət təhmasibkimilərin umuduna qalıb dağılmazmı? Ey böyük Allah, özün bilən yaxşıdı…

219. Səhər, bayramın üçüncü günü Mirzə Kəmaləddini yataqdan qalxmağa qoymadım, Səfərə tapşırdım ki, gözünü xəstədən çəkməsin, atları, qatırları rahatlayandan sonra heç yanından aralanmasın. Sübh namazından sonra yenə yığışıb getdik, qamış talvarımızın altında yerimizi tutub Böyük Xandan gələcək hökmü gözləməyə başladıq. Hamı susur, ağzından naqolay bir kəlmə çıxaracağından qorxurdu, üstəlik də talvarın arxa tərəfində yad nəfəslər duyurduq, Vəlinemətin xidmətində olanlardan kimlərsə aravermədən gəlib yaxınlıqdan ötürdülər. Axund Ələkbər vaxtı keçirmək üçün Peyğəmbər(s)in hicrətini danışmağa başladı, sonra erməni xəlifə də xristianların müqəddəs kitabından bir əhvalat nəql elədi. Beləcə, xeyli vaxt ötdü, sonra carçı gəldi, bəyan elədi ki, Böyük Xanımız buyurdu, hər vilayətin heyəti başda xan olmaqla dünənki yerə getsin, məşvərət keçirsin, axşam qərarını elçilərə bildirsin. Buna nə hacət olduğunu bilmirdik, axşam qərarımızı söyləmişdik, fikrindən dönməyi kimsə ağlına gətirmirdi. Görünür, Vəlinemətin səbri bizə məlum olandan da böyükmüş, sınaq bununla da bitməyəcəkdi. Amma kimsə dillənmədi, durub əmrə boyun əydik, öz içimizdə oyalana-oyalana düşərgədən çıxıb dünən yığışdığımız yerə getdik, qış günəşinin azacıq isitdiyi torpağın, xırdadırnaqlı heyvanların ağzı çatası otların üstündə dövrələmə əyləşib məşvərət eləməyə başladıq. Əslində, gənəşməli bir şey yox idi, hamı dünənki havanı çalırdı, təkcə indi göz qabağında olduqlarını, Vəlinemətin «göz-qulaqları»nın ətrafda dolaşdıqlarını dərk eləyib bir az ucadan, bir az da «ürəkdən» söyləyirdilər. Erməni xəlifənin canfəşanlığını

görürdüm, içimdən qara qanlar axırdı, Böyük Xanı «Yaradanın kölgəsi», «ikinci İskəndər», «ermənilərin himayədarı» adlandıra-adlandıra istədiklərini qoparıb Üçmüəzzin mülklərini genişləndirəcək, Vəlinemət də, şübhəsiz ki, məmləkətdə başqa qövmlərə, başqa dinlərə hörmət olunduğunu göstərməkdən ötrü onun xətrinə dəyməyəcəkdi.

220. Böyük Xanın elçilərinin hüzurunda ortaya çıxan suallara cavab vermək üçün Əbdülhəsən bəyin təklifilə adamlar seçdik: Məhəmmədqulu xan, Axund Ələkbər, mən, erməni xəlifəsi, bir xan, bir kələntər, bir məlik Rəvan heyətinin vəkili olduq. Sən demə, bu da Vəlinemətin elçilərinin, bəlkə də elə özünün göstərişiymiş, çünki dörd yanımızda bizim kimi çölçüsayağı oturan digər heyətlərin də öz vəkillərini seçdiklərini eşidirdik. Sonra elə oturduğumuz yerdəcə bizi qışın ortasında yandırıb-qovuran narahatlığımızı boğa-boğa Böyük Xanın elçilərini gözləməyə başladıq. Bu müddətdə Əbdülhəsən bəy Böyük Xanın xidmətində olan zatlardan birini axtarmağa getdi, qayıdanda üzündə qorxu və təlaş sezdim. Oturmaqdan yorulub gəzişmək bəhanəsilə ayağa qalxdım, yanından keçəndə, Gəncə xanı Ziyadoğlu Uğurlu xan yaman inad göstərir, dedi, Allah axırını xeyr eləsin, qorxuram, Böyük Xanımızın qəzəbinə düçar ola. Uğurlu xanın Səfəvilərə arxa çevirmək istəməməsini Əbdülhəsən bəydən bir neçə gün qabaq da eşitmişdim, Vəlinemətin qəzəbinin Gəncənin başında çatlamasından çox təlaşa düşmüşdü, ola bilsin, Qarabağın Gəncədən qoparılıb Rəvan xanının idarəsinə verilməsindən, erməni xəlifənin, kələntərlərinin, məliklərinin caynağına keçməsindən əndişələnirdi. Qacarların şan-şöhrəti Səfəvi xanədanıyla bağlıdı, dedim, indi belə çətin bir məqamda arxa çevirmək istəmirlər, amma gərək qəbul eləsinlər ki, hər xanədanın bir sonu olur, məmləkət onu qoruyanındı. Az qala əlli il idi ki, Səfəvi məmləkəti dağılıb-parçalanırdı, basqınlardan, müharibələrdən, aclıqdan, qıtlıqdan göz açmırdı, təpəri olan bir Allah bəndəsi ortaya çıxıb ölkəni süqutdan qurtarmışdı, indi kimsənin ona qarşı getməyi ədalətli olmazdı. Əlbəttə, Uğurlu xan qürurunu sındırmaq istəmirdi, ancaq artıq qürur yox, soyuq ağıl vaxtıydı, özünü güdaza verməyin kiməsə bir xeyri olmayacaqdı. Əbdülhəsən bəy başını bulayıb köksünü ötürdü, narahatlıq içində də aralanıb getdi.

221. Bir azdan Vəlinemətin elçiləri gəldilər, yenə Mirzə Zəkinin üzündə təntənə, Mirzə Mehdinin simasında narahatlıq, bəlkə də bezginlik sezdim. Carçıların çağırıb elçilərin başına topladıqları vilayət vəkilləri dillərində dua, ürəklərində qorxu dayanıb Böyük Xanın buyruğunu gözləyirdilər. Bu dəfə irəli Təhmasib xan Cəlayir çıxdı, salavat çevirib dua oxudu, sonra adamın canına vicvicə salan gözlərini qış günəşindən azacıq qıyıb, keçirdiyi döyüşlərin izləri aydınca oxunan üzünə sərt ifadə verib üzünü bizə tutdu, dedi: "Ey xanlar, sultanlar, ağalar, bəylər, din xadimləri, kələntərlər, məliklər, uzaqdan-yaxından gəlmiş bütün adlı-sanlı zatlar, sizə Böyük Xanımızın buyruğunu çatdırırıq; buyurur, siz ki məni buraxmadınız, siz ki, mənə dincəlməyi rəva görmədiniz, siz ki, mənim bayrağımın altından çəkilmədiniz, bu səbəbdən sizdən üç vəd tələb eləyirəm: birincisi, əgər bir müddətdən sonra şahın oğlu, yaxud qohumu peyda olub taxta çıxmaq fikrinə düşsə, ona qoşulmayın, ona yardım göstərməyin, onu qəbul eləməyin; ikincisi, Ömərin və Osmanın adına yaraşdırdığınız lənətləri bir daha dilinizə gətirməyin, Aşura günündə də Həsənlə Hüseyn naminə zəncir vurub, alnınızı çapmayın, razılaşdığımız, söz verdiyiniz kimi, dinc durun, çünki bu lənətlər üzündən yüz illərdir Qurana tapınan şiə məzhəblərlə sünni məzhəblər – İranla Turan arasında qan axıdılır, əsirlər götürülür; bundan sonra aramızdakı intiqama, qarışıqlığa son qoyulacaq; axı, hər iki məzhəbə qulluq eləyənlərin Peyğəmbəri də, Quranı da, namazı da eynidi; çünki osmanlılar əllərini ürəklərinin üstünə qoyub dua oxuyurlar, bizsə dua oxuyanda əlimizi yanımıza salırıq, qoy belə də olsun, qoy onlar özlərinin, biz də özümüzün adətimizcə dua eləyək, bir-birimizə lənət yağdırmayaq: qoy zəvvarlarımız Kəbəyə gedəndə onları incitməsinlər, onlardan artıq bir şey tələb eləməsinlər, onlara öz hacıları kimi hörmət göstərsinlər, onları öz qardaşları saysınlar. Kəbədə dörd səmtdən dua oxumaq mümkünsə, siz də hansı səmtdən istəsəniz, duanızı oxuyun, bu razılaşmanın şərtini də pozmayın; üçüncüsü, bir halda ki, hökmdarınız olmağımı istəyirsiniz, onda mən öləndən sonra ocağıma və övladlarıma qarşı yamanlıq eləməyin, daim itaət göstərin; bu üç tələbi andınızla təsdiqləyin, yazıb möhürünüzü basın və mənə verin. Təhmasib xan Cəlayir susub ağır

nəzərlərini üzlərdə gəzdirdi, zəhmli səsilə soruşdu ki, nə deyirsiniz, razısınız, ya yox?»

222. Bayaq Təhmasib xan Cəlayir susanda ətrafa məzar sükutu çökmüşdü, o səssizlikdə ürəyimin tıqqıltısını belə eşidirdim. Bitdi, ürəyimdən keçirdim, Səfəvi xanədanı ömrünü başa vurdu; kim başından keçib ki, Böyük Xanın bu şərtlərinə yox desin, bircə Uğurlu xan Ziyadoğluyla kar aşmaz. Sonra gözlərimin qabağına Mirzə Kəmaləddinin məhzun baxışları gəldi, elə bu vaxt qulağımın dibində erməni xəlifənin bağırtısını, sonra yüzlərlə adamın səsini eşitdim: bəli, istəyirik, boyun əyirik, itaət eləyirik! Bilmirəm bu sözlər mənim də ağzımdan çıxdımı, amma dodaqlarımın tərpəndiyini duyurdum. Gözucu erməni xəlifənin ehtizazdan əyilmiş üzünə baxdım, ətim ürpəşdi. Sonra nəzərlərim Mirzə Zəkinin sifətinə sataşdı, qürurdan köksünün qabardığını sezdim, Mirzə Mehdi günəşdən qorunurmuş kimi, sağ əlini gözlərinə günlük eləmişdi, mənə elə gəldi, həmin anlarda xidmətində olduğu qüdrət sahibinin yaratdığı xanədanın gələcəyinə baxır, nigarançılıq içini qurd kimi gəmirir. Bu vaxt Təhmasib xan Cəlayir dedi, sizin istəyinizi də, sədaqətinizi də Böyük Xanımıza çatdırarıq, indisə gedin, dincəlin, bayramın bu son günündə Allah niyyətinizi qəbul eləyər. Bitdi, yenə beynimdən keçirdim, əslində, Vəlinemət neçə ildən bəri taxtdaydı, adı şah olanları ayağına gətirir, qılıncının kölgəsində saxlayırdı. İndi o qüdrət sahibi, Mövlana demiş, olduğu kimi görünməyə başlayır, bu gerçəklikdən qaçmağasa kimsənin, elə Uğurlu xan Ziyadoğlunun da gücü yoxdu. Bitdi! Fatihə oxundu, bu taxta çıxacaq Vəlinemətə verilən xeyir-duadan çox, nə vaxtdan bəri can çəkişən, əslində, ölmüş Səfəvi xanədanının ruhuna oxunan dua kimi səsləndi. hamı dağılışanda əvvəlcə Vəlinemətin elçilərinin üz tutduqları düşərgəyə, sonra qış günəşinin qızartdığı üfüqə göz işlədikcə uzanıb gedən yovşanlı Muğan çölünə baxdım. Əlbəttə, hər şey o üç kəlməylə qurtarmırdı, irəlidə daha çətin sınaq vardı – bunu Böyük Xanın gözlərinin içinə baxa-baxa söyləmək lazım gələcəkdi. Onda tükütükdən seçən gözlərin kəsəri canını doğram-doğram eləyəcək, soyuqluğu iliklərinə işləyəcəkdi. Vəlinemətin cavanlığından bəri səhraların istisindən, dağların ayazından, küləkdən, qardan, yağışdan, qılınc zərbələrindən, barıt hisindən tunc rəngi almış, kələ-

kötür, amma əzəmətli qayaya oxşayan sifətini gözlərimin qabağına gətirib üşəndim. Beynimdən keçirdim ki, Mirzə Kəmaləddinin bu məqamda burda olmaması bəlkə də həyatını xilas elədi, baş verənləri görüb qəlbi parçalanmaqdansa, görməyib əzab çəkməsi daha məsləhətdi.

223. Şübhəsiz, bu ağrılar yavaş-yavaş azalacaqdı, çünki son hesabda ona da, elə qatırçı Səfərə də məmləkətin əmin-amanlığı, ailəsinin ruzusunu çıxarmaq lazım idi, əgər bunları Səfəvi xanədanı yox, sabah tac qoyub taxta çıxacaq bir kəs verəcəkdisə, bununla razılaşmaq daha ağıllı olardı. Minillər boyu möhtəşəm xanədanlar qurulub dağılmışdı, Məğribdən Məşriqəcən uzanan nəhəng məmləkətlərin yerində yel vurub yengələr oynayırdı, elə bu çöldə doğulan xanədan da əbədi yaşamayacaq, nə vaxtsa ömrünü başa vurub tarixin bir səhifəsinə çevriləcəkdi. Mənə gələndəsə, uzun illərin təcrübəsindən gerçəkliyi qəbul eləməyi bacarırdım, bunu, qismətimə düşən ömür, az qala, əlli ilin yolçuluğu öyrətmişdi: indiki məqamda başqa qüdrət sahibi, məmləkəti qoruyub saxlayacaq xanədan varisi vardısa, üzə çıxardı. Amma Allahın iradəsi belədi, hamı gücə tabedi, köçəri çobanın, kürkçünün, çarvadarın çadırda doğulmuş oğlunu, cavanlığında basqınlar, talanlar, qətllər törətmiş bir bəndəni məmləkətin xilaskarı məqamına çatdırıb, onun əlilə ölkəni düşmənlərdən qurtarıb, əzab-əziyyətlərinin müqabilində taxta layiq bilibsə, deməli, boyun əyməyimiz məsləhətdi. Əgər Allahın buyurduğunu, şayiələrə inansaq, Həzrəti Əlinin dediyini unutmasa, ədalətli olsa, səltənətinin ömrü uzun çəkəcək. Qamış köşkümüzə girəndə qatırçı Səfər Mirzə Kəmaləddinin başının üstündə oturub dizlərini qucaqlamışdı. Məzlum nəzərlərini qaldırıb üzümə baxdı, gözlərində qaynayıb-daşan intizarı dərhal oxudum. Əlimi çiyninə vurub, az qalıb, dedim, uzağı bir həftəyə səni qəzvinlilərlə yola salaram. Sonra xəstənin halını soruşdum, dedi, gözlərinin yaşı qurumur, bütün günü dinib-danışmayıb, iki qaşıq doğramanı güclə yedirtdim. Səfərin ağzını boza verdim, dedim, fikir eləmə, bir şey olmaz, o da Təbrizin, külfətinin xiffətini çəkir, Allah qoysa, bu yaxınlarda doğmalarına qovuşar. Mirzə Kəmaləddin mürgüləmişdimi, yoxsa huşamı getmişdi, bilmirəm, qımıldanmadı, Səfərin yandırdığı çırağın sarımtıl işığında sifətini çox

üzgün gördüm. Səfər atlara, qatırlara baş çəkməyə gedəndən sonra yatağımda bardaş qurub oturdum, axşam namazınacan qımıldanmayıb, fikrimdə aranı dağa, dağı arana daşıdım. Sabah baş verəcək hadisələr gün kimi aydın idi, Zamanın çarxı öz bildiyini eləyəcək, ağıllı tərpənməyənlər çarxın altında qalıb mənsəb-məqamla, həyatlarıyla vidalaşacaqdılar. İndiki vaxtda ən çox narahat olduğum Ziyadoğlu Uğulu xanın tərsliyiydi. Onun bu tərsliyi təkcə məqam və can itkisinə yox, mülk itkisinə də səbəb ola bilərdi. Hökm sahibi sabah Gəncə xanının torpaqlarını pay-puş eləsəydi, qarşısına kim çıxa bilərdi?

224. Yadıma düşdü ki, bu məqamda Əbdülhəsən bəyi görsəm, yaxşı olardı, üstəlik, fürsət tapıb Vəlinemətin iqamətgahındakı ab-hava, Ziyadoğlu Uğurlu xanın məsələsi barədə soruşardım. Mirzə Mehdi həddən artıq ehtiyatlı adamdı, mənə yaxınlığını büruzə vermir, görünür, suların durulmağını, hər şeyin yerbəyer olmağını gözləyir, fikrimcə, düz də eləyir. Hər halda, Vəlinemətin mənim barəmdə hansı fikri olduğunu, hansı səbəbdən hüzuruna çağıracağını unamamış olmaz, yəqin aralarında bununla bağlı söhbət-filan da baş verib. Əgər belədisə, Mirzə Mömininin atişləməz yollarından cana doymuş Mirzə Mehdi yəqin məni öz yanında görmək istəyər. Allah axırını xeyirə calasın! Axşam namazından, daha doğrusu, şam yeməyindən sonra Əbdülhəsən bəyin özü gəldi, salam-kalamdan sonra dedi, Mirzə Yusif, Muğan gecəsinin Ay işığında heç yovşanlı çölə tamaşa eləmək özgə aləmdi; çölün günbatan tərəfində qışlağımız vardı, uşaq vaxtı hərdən atamla gələr, mal-davara baş çəkib beş-üç gün qalardıq, onda oturub Ayın nurunda çimən çölə o qədər baxmışam ki. Belə bir məqamda Əbdülhəsən bəyin xatirələrə baş vurmasından sümüyüm sancdı, bildim ki, xəlvətdə nəsə demək istəyir. Dedim, heyif ki, yox, indiyəcən əlimə belə bir fürsət düşməyib, mənə yoldaşlıq eləsən çox şad olardım. Əbdülhəsən bəy boyun qaçırmadı, mən də Mirzə Kəmaləddini Səfərə tapşırıb komadan çıxdım, havadan, otdan-alafdan, torpağın bərəkətindən söhbət eləyə-eləyə xeyli aralandıq. Əbdülhəsən bəy yaxınlıqda "göz-qulaqlar"ın gözə dəymədiyinə arxayın olandan sonra səsini alçaldıb, dedi, Uğurlu xan Ziyadoğlu yaman tərsləşib, Böyük Xanın yazdırdığı tumara möhür basmaq fikri yoxdu, Cavanşir,

Otuzikilər, Kolanı, Sarıcalı tayfalarının başbilənləri də odla su arasında qalıblar, nə Uğurlu xandan, nə də gerçəklikdən keçə bilirlər. Dedi, mən Sarıcalı tayfasındanam, əfşarlarla qan qohumluğumuz var, indi özünüz deyin, sarıcalılar belə məqamda Böyük Xana arxa çevirə bilərlərmi? Əbdülhəsən bəy kədərli halda köksünü ötürdü, dedi, yaman nigaranam, Mirzə Yusif, özümə yer tapa bilmirəm, istədim, dərdimi dağıdıb bir az yüngülləşim. Sonra dedi, onsuz da Məhəmmədqulu xanın kitabı bağlanıb, daha Rəvana qayıtmayacaq, elə mən də Böyük Xanın xidmətinə girəcəyəm, yəqin bundan sonra Qarabağa dönməyim müşkül olacaq. Bu məqamda aralıda qaraltılar görüb səsini kəsdi, nədən ehtiyatlandığını başa düşüb mən də özümü o yerə qoymadım, gəzintiyə çıxmış adamlar kimi, dinib-danışmadan dövrə vurub komalarımıza qayıtdıq. Ömrünü harda başa vuracağını kim bilir, Əbdülhəsən bəy, ayrılanda dedim, *mən əlli ildi Tiflis həsrətilə yaşayıram, o yolu gedirəm, amma ora yetişəcəyimi Allahdan başqa bilən varmı?*

# XIII

# GÜNƏŞƏ AÇILAN ƏLLƏR

*Başımdan getmədi hərgiz səninlə içdiyim badə,*
*Nə badə? Badeyi-məsti. Nə məsti?*
*Məstiyi-sacər.*

***İzzəddin HƏSƏNOĞLU***
***(XIII yüzil)***

225. Cümə səhəri oyanıb Mirzə Kəmaləddini yatağında oturmuş gördüm. Rəngi solğun idi, gözləri yol çəkirdi, deyəsən, xısın-xısın ağlayıb sakitləşmişdi. Yerimdən dikələndə dizlərinin üstündə balaca bir düyüncə gördüm. Dönüb üzümə baxdı, bu baxışlarda həyatının sonunu dərk eləyən adam həyatın gedişatıyla barışmışdı. Sanki uzaqlardan cələn səslə dilləndi, Mirzə Yusif, qardaşım, dedi, başıma bir şey gəlsə, bu əmanəti külfətimə çatdırarsan. Döyükə-döyükə Yaqubəliylə nasaqçıların yataqları səmtə baxdım, yaxşı ki, erkəndən çıxıb Əbdülhəsən bəyin xidmətinə getmişdilər, Səfər də lap erkəndən oyanır, bizi oyatmamaq üçün barda başını qatırdı, indi də adəti üzrə atlara-qatırlara baş çəkib gələcəkdi. Mümkün qədər astadan, həm də toxtaq səslə, Mirzə Kəmaləddin, qardaşım, dedim, çərxi-fələyin qabağını almağa insan övladının qüdrəti çatmaz, səbirli ol, ümidini itirmə zəmanənin, gedişatın ruhuna uymağa çalış; hələ dünyanın axırı deyil, dedim mıxı mismara döndərən Allah var, yəqin hər şeyi öz yerinə qoyacaq, inşallah, sən də sağ-salamat külfətinə qovuşacaqsan. Gözlərimin içinə yenə uzun-uzadı baxdı, yenə gözlərinin dibi qaynayıb-daşdı, yaş dənələri saqqalını islatdı. Həmin məqamda Mirzə Kəmaləddini Muğan çölünə gətirdiyimə görə peşman oldum, gərək Nəqşivandan, ya da Rəvandan yola salaydım, lap elə Arazdan Qaradağa keçəndə Təbrizə, Ərdəbilə beş-üç günlük yol qalanda ayrılaydım, bağlı olduğu xanədanın gözləri qarşısında dağıldığını görməyi rəva bilməyəydim. Uzaqda, Ərdəbildə, ya

Təbrizdə olsaydı, baş verənləri ağızdan-ağıza eşidib bunca özünə dərd eləməzdi. Amma artıq olan olmuşdu, Mirzə Kəmaləddinin könül ağrılarını ovutmaq üçün əlimdən gələni eləməliydim. Ona axşam beynimdən keçənləri necə deyəydim, necə deyəydim ki, Zaman qəddar şeydi, tarix boyu saysız-hesabsız xanədanlar gəlim gedə bilər, heç biri əbədi qalmayıb, Səfəvi xanədanı da bu qədər ömür eləyibsə, ancaq sevinmək lazımdı; necə deyəydim ki, bu gün gözlərinin qabağında qurulan xanədan da əbədi deyil, nə qədər yaşayacağını bir Allah bilir.

226. Hər günkü kimi getdik, Vəlinemətin hüzurunda təzim eləyib talvarımızın altında oturduq. Hamı ayıq-sayıq olmağa, ağzından bircə kəlmə naqolay söz çıxarmamağa, yeri gəldi-gəlmədi, Böyük Xanın şəninə təriflər söyləməyə çalışırdı. Erməni xəlifənin «ikinci İskəndər» kəlmələri tez-tez qulağımın pərdələrinə toxunur, üzündəki bic-yaltaq ifadəni görməmək üçün ona sarı baxmamağa çalışırdım. Axund Ələsgər Peyğəmbər (s)dan bir hədis danışmasaydı, yəqin hövsələm lap tükənəcəkdi. Hədis bitəndə də Vəlinemətin cəzairçiləri göründü, talvarları bir-bir gəzib vilayətlərin xanlarını, bir də çox hörmətli zatlarını nahara dəvət elədi. Məhəmmədqulu xan, iki Rəvan xanı, erməni xəlifə, bir kələntər, Axund Ələkbər getməli oldu. Axund Ələkbər, Böyük Xanımızın gördüyü işlər Mirzə Yusif kimi şəxslərin yazdığı kitablarda yaşayacaq, dedi, onun getməsi də məsləhətdi, bir irad olsa, mən cavab verərəm. Erməni xəlifənin ağzı əyildi, amma dillənməyib Məhəmmədqulu xanın ardınca tələsdi. Vəlinemətlə üz-üzə gəlməyin düşər-düşməzi olurdu, bu dəfə qismətimə nə düşəcəyimi bilmirdim. Təzimə gələndə kimsəylə kəlmə kəsməyən, bəlkə də önündə iki qatlanan, diz çökən adamları görməyən Böyük Xan süfrə arxasında başqa adama çevrilirdi, amma yenə də hökmünü-filanını qabaqcadan bilmək çətin idi. Yenə Böyük Xanın çadırı qurulmuş, ikitərəfli süfrə salınmışdı. Eşikağası sarıcalı Fəzləli bəy hamını yerbəyer eləyəndən sonra Vəlinemət içəri girdi, hamı da təzim eləyib ona öz itaətini bildirdi, hökm yiyəsi də vüqarla keçib taxtında qərar tutdu. Onun yanında yenə qardaşı İbrahim xan, oğlu Rzaqulu xan, sonra Murtuzaqulu xan və Əliqulu xan, öz məqamlarına görə Təhmasib xan Cəlayir, Mirzə Zəki, Həsənəli xan, digər xanlar əyləşmişdilər. Osmanlı

və rus elçiləri şahın sağ-solundaydılar, onların yanında da Mirzə Mehdiylə Mirzə Mömini gördüm. Biz ötən dəfəki yerimizdə, döşəkçələrin üstündə əyləşmişdik, bütün vilayətlərin heyətləri öz yerlərini tutmuşdular, nahara çağırılsalar da narahatlıq içində artıq taxta çıxardıqları şəxsin hökmünü gözləyirdilər.

227. Böyük Xan məclisi süzüb dedi, sizin istəyinizi mənə çatdırdılar, Allah hamınızdan razı olsun, amma məmləkətin əmin-amanlığı üçün Allahın köməyilə gücüm çatan bütün işləri gördüm, neçə illərdi, at belindəyəm, Heratdan Təbrizə, Təbrizdən Tiflisə, Tiflisdən Dərbəndə, Dərbənddən Qarasacan yollar keçmişəm, qışı-yayı, yazı-payızı dincliyim olmayıb, dəfələrlə ölümün nəfəsini duymuşam; Allah-taala məmləkəti düşmənlərdən təmizləməyə fürsət verdi, indi yorulmuşam, döyüşlərdən, səfərlərdən, əmrlərdən cana doymuşam, yaşım da o yaş deyil, bundan sonra sakit ömür sürmək, Allahın verdiyi möhləti ibadətlə keçirmək fikrindəyəm; yaxşı, Səfəvi varislərindən kimisə şah görmək istəmirsiniz, özünüz bilən məsləhətdi, öz aranızdan birini seçin, məmləkəti də, sizi də idarə eləsin. Vəlinemət sözünü bitirən kimi, məclisdə bir qarğaşa başladı ki, gəl görəsən. Dəvətlilər ağız-ağıza verib yerlərindən qışqırdılar ki, Böyük Xan, bizim Məkkəmiz də Kəbəmiz də sənsən, səndən başqa kimsəyə baş əyib, itaət eləmərik; Böyük Xan, dedilər, osmanlılar, uğanlar, ruslar, ləzgilər məmləkəti dədə malı kimi pay-bölüş eləmişdilər, Allaha şükür, sənin sayəndə torpaqlarımız onların tapdağından qurtardı, camaatımız da razıdı, özünü sənin kölgəndə əmin, arxayın hiss eləyir, firavan yaşayır; Böyük Xan, dedilər, səndən başqa kimsənin taxta çıxmağa haqqı yoxdur. Vəlinemət əlini qaldırdı, hamı susub sakitləşəndən sonra dedi, söylədiklərinizə inanıram, amma çoxunuzun məndən narazı olduğunuzu da bilirəm, onları haqlı da sayıram: bəzilərinin malını-mülkünü əlindən almışam, bəzilərinin qohum-əqrəbasını öldürtmüşəm, bəzilərinin yurd-yuvasını xarabazara çevirmişəm; dedi, düzdü, bunların hamısını məmləkətin xilası naminə eləmişəm, amma incikliyinizi qəlbinizdə saxlamısınız, istəyirəm ki, bundan sonra dincələsiniz, çəkdiyiniz əzab-əziyyətləri unudasınız. Yenə yerlərdən səslər ucaldı, Böyük Xan dedilər, söylədiklərinizin hamısı Allah kəlamı kimi həqiqətdi, amma bütün bunlar olmasaydı, rəşadətli

əsgərlərinizi yedirə, döyüşlərdə qələbə çala, düşmənlərimizi torpaqlarımızdan qova bilərdinizmi; dedilər, buna görə də ricamızı qəbul eləyib, başımızın üstündə olmağınız hamımızın istəyidi; dedilər, böyük Yaradan sənə bu məmləkəti idarə eləmək haqqı verib, bizim də borcumuz itaətdi; dedilər, sənin iradənə qarşı çıxanlar ən böyük cəzaya, sənin əmrlərinə boyun əyənlərsə ən böyük şərəfə və ənama layiqdilər; dedilər, məmləkətin gələcəyi sənin iradəndən asılıdı.

228. Böyük Xan bu xahişlərin, tələblərin, yalvarışların müqabilində bir söz demədi, işarə elədi, məclisə şərab payladılar, yemək-içmək başlandı, sonra sazəndələr, rəqqasələr, gözbağlayıcılar gəldi, yemək-içmək, çalmaq-oynamaq başlandı, az sonra da keflər duruldu, başlar dumanlandı. Vəlinemətin xidmətçiləri, əslində, Əbdülhəsən bəyin dediyi kimi, «göz-qulaqları» arada gəzişir, boşalmış şərab qablarını doldurur, hamıya iltifat göstərirdilər. Böyük Xan qardaşı, əyan-əşrəfilə, elçilərlə söhbətləşir, heç çətin seçim qarşısında qalmış adama oxşamırdı. Görünür bayaq dediyi sözlər də növbəti sınaq idi, hökm yiyəsi fikrindən dönənləri, tərəddüd keçirənləri aşkar eləmək istəyirdi. Gözümü nə qədər dolandırdımsa, Uğurlu xan Ziyadoğlunu məclisdə görmədim, ya gəlməmişdi, ya da görə bilmədiyim yerdə oturmuşdu. Əvəzində erməni xəlifənin içkidən qızarmış almacığını beş-altı kərə gördüm. Bir müddət sonra məclis dağılanda biz eşiyə çıxanda Əbdülhəsən bəylə Fəzləli bəyi söhbətləşən gördüm. Əbdülhəsən bəy Mirzə Yusif, dedi, Fəzləli bəy Sarıcalı oymağından İbrahimxəlil ağa Cavanşirin oğludu, Böyük Xanımız dəyanətini, qoçaqlığını bəyənib eşikağası mərtəbəsinə ucaldıb. Qardaşı Pənahəlini də yaxşı tanıyıram, Böyük Xanımızın qüdrətinə layiq igiddi. Fəzləli bəy mərifətini göstərib könlümü xoş elədi, dedi, çox məmləkətlər dolaşıb, çox vaqiələrin şahidi olduğunuzu bilirəm, inşallah, Böyük Xanımızın ehtişamını da qələmə alarsınız. Bu iltifat məclisin beynimdə sıxlanmış dumanını bir qədər dağıtmağa kömək elədi.

229. Böyük Xanın məşvərəti üç gün də çəkdi: o üç gündə də heç nə baş vermədi, adətimiz üzrə hər gün səhər namazından sonra hüzuruna gedib baş əyir, sonra qamış talvarımızın altında əyləşib ordan-burdan danışır, Vəlinemətin məc-

lisinə nə vaxt çağırılacağımızı gözləyirdik. Hər kəs Böyük Xanın taxta çıxmağının vacibliyilə bağlı tutarlı dəlil tapmağa çalışır, onsuz məmləkətin gələcəyinin fəna olacağını söyləyirdi. Amma bu dəlil-sübutun deyilişindəki fərqləri də duyurdum: Məhəmmədqulu xanın səsində artıq həyatının sonu çatmış, dar ağacına aparılan günahkarın əlacsızlığı sezilirdi; Baba xan və Sərdar xan Məhəmmədqulu xanın taxtının laxladığını hiss eləyib Vəlinemətin gözünə girməkdən ötrü, az qala, yaxalarını cırırdılar, görünür, üzə vurmasalar da könüllərindən Rəvan xanı olmaq keçirdi; erməni xəlifə «ikinci İskəndər»i bütün qövmlərə, o sıradan da ermənilərə, erməni kilsəsinə rəhmdil Allahın bəxş elədiyini, onun sayəsində məmləkətdə ədalətin bərpa olunacağını söyləyirdi; Kələntər Məlikcan ondan geri qalmayıb Böyük Xanın kölgəsində firavan yaşadıqlarından, bu firavanlığın bundan sonra daha da artacağından danışırdı; Axund Ələkbər Vəlinemətin bu haqqı öz ağlı, fərasəti, igidliyilə qazandığını təkrarlayırdı; mənə gələndəsə, torpağı kim qoruyursa, o da dövlətin başında durmalıdı, deyirdim, dediklərimdə də zərrə qədər riya-filan yox idi, inamım beləydi. Bu zaman da gözlərimin qabağına Mirzə Kəmaləddinin üzgün sifəti gəlirdi, ürəyimdə üzümü ona tuturdum ki, qardaşım, həqiqətlə barışmaq lazımdı, biçarə xalq onu qorumayan, ruzisini qazanmağa şərait yaratmayan, olub-qalanını da əlindən alan adamları taxtda saxlamaz, necə ki, indi saxlamır. Şübhəsiz, mənim rəyim həlledici deyildi, həmişə yollarda olan, ömrünün harda bitəcəyini bilməyən adamın sözləri bir növ taca vurulan naxış kimiydi.

233. O üç gündə hər şey fələyin çarxı kimi dolanırdı: eşikağası Fəzləli bəy gələnləri bir-bir öz yerində əyləşdirir, hamı öz yerini tutandan sonra Böyük Xan təzimlərə fikir vermədən vüqarla keçib taxtında oturur, yenə eyni söhbətlər başlayırdı: Vəlinemət dincəlməyə ehtiyacı olduğunu, başqa bir şəxsin şah seçilməsini *(daha Səfəvilərin adını dilinə gətirmirdi, görünür, tələbinin birinci bəndilə xanədanın kitabını birdəfəlik bağlamışdı)* istəyir, səfərlərində verdiyi əzab-əziyyətdən *(deyəsən, bununla məclisdəkiləri tərpədib, ürəklərindəkini dilinə gətirməyə məcbur eləmək fikrindəydi)* danışırdı; məclis əhli də yerbəyerdən əllərini günəşə uzadan kimi, ona sarı qaldırıb Böyük Xanı tərifləyir, şahlığı qəbul eləyib, tax-

ta çıxmağının Allahın əmri olduğunu sübuta çalışırdılar, yenə də, məclisə şərab paylanır, sazandalar, rəqqasələr, gözbağlayıcılar gəlir, beyinlər qızışırdı, yenə Vəlinemət qardaşı, oğulları, qardaşı oğlu, əyanları, osmanlı və rus elçilərilə söhbətləşir, elə bil məşvərətin nəticəsilə heç maraqlanmırdı; yenə Böyük Xanın «göz-qulaqları» arada dolaşır, boşalan badələri doldurur, bir kəsi də «diqqətdən» qıraqda qoymurdular; yenə məclis hava qaralanacan çəkirdi, beyni dumanlanmış xanlar, adlı-sanlı zatlar xüsusi ayrılmış adamların köməyilə öz köşklərinəcən ötürülürdülər; yenə qalacağımıza qayıdıb Mirzə Kəmaləddini hüzn içində tapır, ona nə təsəlli verəcəyimi bilmirdim. Bu müddətdə gördüyüm yeganə başqa iş təsadüfən Qəzvin hakiminin baş dəftərdarına rast gəlməyim olmuşdu: neçə illər qabaq İsfahanda rastlaşdığım bu adam məni handan-hana tanıdı, məqamını biləndə qatırçı Səfərin hekayətini danışdım, yola çıxanda onu da özüylə götürməsini təvəqqe elədim. Sağ olsun, boyun qaçırmadı, bunu da Səfərə söyləyəndə sevindiyindən qıçlarımı qucaqlayıb ağladı.

231. Dördüncü gün səhər namazından sonra Böyük Xanı salama gedəndə Əbdülhəsən bəy gəldi. Onda komamızla Araz körpüsü, arasındakı yovşanlı açıqlıqda dayanıb heyətimizin digər üzvlərinin gəlməsini gözləyirdim. Nasaqçıbaşının gözləri qızarmışdı, üzündə anlaşılmaz ifadə vardı. Lap astadan dedi, gecə Mollabaşı Mirzə Əbdülhəsəni boğublar, indicə yatağında ölü tapıblar, deyilənə görə, ehtiyatsızlıq eləyib, ağzından Səfəvilərin nəfinə söz çıxarımış, deyibmiş, Səfəvi xanədanına qəsd eləyənin bu dünyada axırı olmayacaq; Əbdülhəsən bəy Şeyxülislam Mirzə Rəhim İsfahaninin Böyük Xanın hökmdarlığına qarşı çıxanlara verdiyi cavabları da *(Quran-i Şərifdə padşahlığın bəndələrə Allah tərəfindən verildiyini, peyğəmbərlərin, xəlifələrin, şahların, sultanların çoxunun zəhmət adamı olduğunu söyləyib Ənbiya surəsinin səksəninci ayəsini tutanaq kimi göstərmişdi)* söylədi; dediyinə görə Böyük Xanımız da pərdə arxasından cavablara qulaq asırmış, Şeyxülislamla razılaşanlar mükafat alır, ziddinə gedənlər səssiz-sovsuz aradan götürülürlərmiş; belə məqamda axına qarşı getmək mənə görə, ağıl əlaməti deyildi, onu da çuğullardan kimsə eşidib, Böyük Xana çatdırıb. Əbdülhəsən bəy bunu deyib tələsik aralandı, beynimdən keçirdim ki, Mollabaşının qətlinin kökündə

Vəlinemətin sünni məzhəblərə münasibəti dayanır, görünür, zavallı onun taxta çıxandan sonra sünniliyi şiəlikdən üstün tutacağını fikirləşib, Səfəvilərin təəssübünü çəkib. Əlbəttə, Mollabaşının taleyi hamı üçün görk olacaq, tərəddüd eləyənləri də dizə gətirəcəkdi. Yenə yadıma Uğurlu xan Ziyadoğlu düşdü: şübhəsiz, Vəlinemət onu boğdura bilməz, hamının gözünün qabağında öldürtdürə də bilməz, ondan da Əndhud hakimi Əlimərdan xan Əfşardan da, Bəlx hakimi Əbdülhəsən xandan da itaətsizliyinin hayıfını cürbəcür yollarla alacaq, buna tam əminəm. Taxtdan ona görə imtina eləmir ki, hər kəs istədiyini söyləsin, ona görə imtina eləyir ki, hamı əmrinə sözsüz-sovsuz boyun əysin. Məlumdu ki, *sevgini də, nifrəti də olduğu yerdə gizlətmək, olmadığı yerdə göstərmək çox çətin məsələdi...*

# XIV

# MƏMLƏKƏTƏ DÜŞƏN NUR

*Yarəb, nə nur imiş ki, məni yaxdı narına,*
*Yarəb, nə zat imiş ki, məni çəkdi darına.*

*Mirzə Cahanbəxş HƏQİQİ*
*(XV yüzil)*

232. Yenə salamdan sonra talvarımızın altında oturub böyük çadıra çağırılacağımızı gözlədik. Bu dəfə qorxuya və intizara vəhşət də qarışmırdı, görünür, gecəki qətl sirr kimi, qalmamışdı *(yəqin, heç Vəlinemətin özü də sirr kimi qalmağını istəməzdi)* Mollabaşının aqibətini hərə bir yandan eşitmişdi, ya da Vəlinemətin «göz-qulaqları» qəsdən yaymışdılar ki, hamı başqa cür düşünənin anasının necə ağlar qaldığından xəbər tutsun. Danışırdılar ki, Mollabaşının kitabı, Böyük Xanın sünniliklə şiəlik arasındakı ziddiyyəti yox eləmək istəyinə qarşı çıxmasıyla bağlanıb; guya, Mollabaşı Vəlinemətin hüzurunda deyib ki, Allaha necə itaət eləmək yolunu bəndələrə padşahlar göstərməyiblər, Peyğəmbərimiz əleyhissəlama nazil olunanlara itaət borcumuzdu, məzhəb məsələsini bu cür asanlıqla həll eləmək olmaz; Böyük Xan da Mollabaşının bu fikrinin yayılacağından ehtiyat eləyib. Bu dəfə də Axund Ələkbər Peyğəmbər(ə)dən hədis danışdı, amma danışdığını güman ki, mənim təki əməlli-başlı qavrayan olmadı; erməni xəlifə də İsa Məsihdən nəsə danışdı, sonra nə qədər xatırlamaq istədimsə, bir şey çıxmadı; arada dolaşan «göz-qulaqlar»a baxa-baxa beynimdən keçirirdim ki, Vəlinemət muradına çatır, məmləkətin hər guşəsindən gəlmiş bu qədər xanlar, ağalar, bəylər, hakimlər, minbaşılar, yüzbaşılar, kələntərlər, məliklər, mirzələr, mirsofilər, mollalar, dəftərdarlar, kəndxudalar onu taxta çıxmağa hazırdı, beş-üç narazının, Səfəvi təəssübkeşinin səsi bu basırıqda eşidilməyəcək, eşidilsə də, çox tezliklə batacaq, kürkçü, ya çarvadar oğlunun taxta çıxmağını

sinirə bilməyənlər bir müddət qınlarına çəkilib susacaq, onun büdrəməsi, dara düşməsi, zəifləməsi üçün məqam gözləməli olacaqlar. Yenə yadıma Ziyadoğlu Uğurlu xan düşdü; əgər arxalandığı tayfaların başbilənlərilə papaqlarını qabaqlarına qoyub fikirləşməyiblərsə, Mollabaşının taleyindən nəticə çıxarmayıblarsa, səhv eləyiblər. Müəyyən məqamlarda gerçəkliklə və güclə hesablaşmamaq ağla yox, ağılsızlığa dəlalət eləyir. Vəlinemətin özü tədbirli, məqamı çatanda susmağı, razılaşmağı, amma öz niyyətini həyata keçirmək qabiliyyəti sayəsində bu məqama gəlib çatıb.

233. Yenə carçılar bizi böyük çadıra dəvət elədilər, eşikağası sarıcalı Fəzləli bəy hamını bir-bir yerində oturdub yerinə çəkildi, Vəlinemət hamıdan sonra, təzim eləyənlərə baxmadan, vüqarla girib taxtında əyləşdi, ağır nəzərlərini məclis əhlinin üstündə gəzdirib əlini saqqalına çəkdi. Deyəsən bu işarəydi, Mirzə Zəki dərhal irəli çıxıb təzim elədi, dua oxuyandan sonra dedi, Böyük Xan, sənin qılıncının kölgəsində, əmin-amanlıqda yaşayan məmləkətimizin əhli cavab gözləyir, dövlətin də, canının da, malının-mülkünün də taleyini sənə tapşırmaq istəyir, ümidvardılar ki, Allah-taalanın iradəsinə boyun əyib istəklərini gerçəkləşdirəcəksən. Böyük Xan bir qədər susdu, axırda dedi, Mirzə Zəki, bu qədər hörmətli şəxs dəvətimi qəbul eləyib gənəşiyə gəldiyinə görə hamısından çox razıyam, amma mən taxta çıxandan sonra sözlərindən dönməyəcəklərinə necə inanım? Yenə yerbəyerdən səslər ucaldı, Böyük Xan dedilər, Məkkəmiz də, Kəbəmiz də sənsən, səndən başqa taxta layiq kimsə tanımırıq, sənin şahlığın yolunda canımızdan da, malımız-mülkümüzdən də keçməyə hazırıq. Bizim heyətdən ən çox canfəşanlıq eləyən Sərdar xan və erməni xəlifəydi. Vəlinemət nəzərlərini dolandırıb tələb eləyən, rica bildirən, yalvaran məclis-əhlinə baxdı, sonra əlini qaldırıb sükut istədi, dərhal çökən səssizliyin içində qərarını bildirdi: yaxşı, dedi, bir halda ki, məmləkətin ən hörmətli şəxsləri yığışıb, gənəşib mənim şah olmağımı istəyirlər, mən də məmləkətin və məmləkət əhlinin əmin-amanlığı, rifahı naminə qəbul eləyirəm, amma tumarda hər kəsin möhürü olmalıdı ki, sonra ortaya cürbəcür söhbətlər çıxmasın. Bitdi, həmin məqamda beynimdən keçirdim, Səfəvilər xanədanının varlığına

rəsmən xitam verildi, bu andan, Nadir şah Əfşarın xanədanı başlayır, Allah axırını xeyir eləsin! Sevinc çığırtıları qulağımda partlayır, ehtizazdan əyilmiş üzlər gözlərimin qabağında bir-birinə qarışırdı. Sonra Mirzə Zəkinin işarəsilə ara sakitləşdi, Fatihə *(yenə beynimdən keçirdim ki, bu yeni şaha xeyir-duadan çox, gömülən xanədanın dəfh duasıdı)* oxundu, salavat çəkildi, "Allah Şahımızın taxtını da, baxtını da uca eləsin!" dedilər, hökm sahibinin qarşısında təzim eləyəndən sonra dalı-dalı çəkilib çadırdan çıxmağımıza icazə verdilər.

234. Araz körpüsündən keçənəcən məclisin uğultulu beynimdən çəkilmədi. Böyrümdə başını aşağı salıb addımlayan Axund Ələkbərin üzündən məmnun qalıb-qalmadığı bilinmirdi, amma Baba xanla Sərdar xan, az qala, buludların üstündə uçurdular, erməni xəlifəylə kələntərin də narazı qalmağa əsasları yox idi, bizdən beş-altı addım geridə xısın-xısın danışır, hərdən qısa sevinc səsləri çıxarırdılar. Məhəmmədqulu xan xeyli irəli getmişdi, əcəldən baş götürüb qaçan adam sayaq elə yeyin gedirdi, elə bil, qamış köşkündə vacib bir şey unutmuşdu. Axund Ələkbər dedi, yəqin, möhürlər basılandan sonra Böyük Xan – dərhal da səhvini düzəltdi, – əlahəzrət Şah getməyimizə izin verər. Cavabında dedim, Bilmək olmaz, bəlkə tac qoyulanda burda olmağımızı istəyəcək. Axund Ələkbər başını tərpətdi, hiss elədim ki, üzə vurmasa da Mollabaşının səssiz-səmirsiz aradan götürülməsi ona ağır təsir eləyib. Bu dəfə məclisimiz uzun sürməmişdi, qaş təzəcə qaralırdı. Günəşin batdığı yerə baxan Axund Ələkbər söhbətin mövzusunu dəyişib dedi, havalar soyuyacaq, vaxtında çıxmasaq, qar yağıb yollarımızı bağlayacaq. Əlbəttə, daha özümün taleyim barədə fikirləşmirdim, bundan sonra nə olacağını hökm sahibinin istəyi həll eləyəcəkdi; sabah hüzuruna çağırıb desəydi ki, Mirzə Mehdinin yanında ol, Əfşarlar xanədanının tarixini yaz, boyun qaçırmayacaqdım; ya Əlimirzə xanın yanına göndərib Tiflis sarayında yazı-pozu işlərilə məşğul olmağı tapşırsaydı, yenə əmrinə boyun əyəcəkdim; amma ola bilərdi ki, ağlında başqa bir şey vardı, buna da qail olacaqdım. Amma bayaq o sözü dilimə nahaq gətirməmişdim: doğrudan da Vəlinemət tac qoyanda burda olmaq, o təntənəni öz gözlərimlə görmək istəyirdim. Məni uzun-uzun yollardan keçirib məmləkətin taleyinin həll olunduğu

Muğan çölünə gətirən Allahım yəqin bununla bağlı arzumu da gözümdə qoymayacaqdı – həmin məqamda buna çox inanırdım. Bu cür çəlpəşik fikirlər içində qamış komamıza nə vaxt çatdığımızdan xəbərim olmadı.

235. Mirzə Kəmaləddin əvvəlki məhzun görkəmilə yatağında oturmuşdu. Salamıma pıçıltıyla cavab verib özünü necə hiss elədiyilə bağlı sualıma ancaq başını tərpətdi, sonra yenə üzümə uzun-uzadı baxıb, qəfildən hər şeyin bitdiyini, Səfəvi xanədanının artıq tarixə qovuşduğunu anlayıb daha da büzüşdü, yatağına uzanıb üzünü divara sarı çevirdi. Görünür, indiyəcən qəlbinin dərinliklərində zəif də olsa, ümid varmış, Qadir Allahın mıxı mismara döndərə biləcəyinə, Böyük Xanın Təhmasib Mirzəni taxttaca qaytaracağına inanırmış, indi o ümid, o inam da birdəfəlik yox olmuşdu. Ona necə təsəlli verəydim, söyləyəcəyim sözlər dərdini dağıda, ümidini təzədən dirçəldə bilərdimi? Səfər qayıdıb çırağı yandıranacan oturub içərinin qaranlığının necə qatılaşdığına baxdım. Hardansa yadıma Konyada, Mövlananın məzarı başında belə bir məhzun axşamda oturub ruhuyla söhbətlədiyim düşdü. Onda da sonumun harda yetişəcəyini bilmirdim, indi də bilmirəm, ömrümün möhləti də, yolumun səmti də bircə Allaha ayandı. İlxı-ilxı atları qovub gətirən, basqınlara gedən, düşmənlərindən qisas alan Nadirqulu bir vaxt şahlıq taxtında oturacağını bilirdimi? Bilmirdi! Bir zaman ona desəydilər, Muğan çölündə başına şahlıq quşu qonacaq, buna inanardımı? Bilmirəm İsfahanda o rəmmalın dediyi sözlərə ürəkdən inanmışdımı? Ya elə atası İmamqulunun yuxusunu götürək. Deyilənə görə, kişi yuxusunda görübmüş ki, Günəş onun yaxasından doğub Aləmi nura boyayır; oyanandan sonra o yuxusunu qardaşı Bəktaşa danışır, məlum olur ki, Bəktaş da elə bu cür yuxu görüb, Günəş onun yaxasından doğub aləmi nura boyayır, elə ordaca batırmış, İmamqulu dörd gündən sonra eyni yuxunu yenə görür, daha dözə bilməyib gedir mollanın yanına; molla da arif adammış, münəccimlikdən başı çıxırmış, deyir, bir oğlun olacaq, böyüyüb bu məmləkətə şahlıq eləyəcək; əvvəl elə bilir, molla onu ələ salır, sonra tam ciddi söylədiyini görüb söz verir ki, dediyi düz çıxsa, onu Əbivərdə Şeyxülislam qoyduracaq, bilmirəm, İmamqulu vədini oğluna deyibmi, amma çətin ki, o molla sağ ola – aradan

əlli ilə yaxın vaxt keçib. Hər halda, kürkçü-çarvadarın oğlu taxta çıxdı. Amma indi sonunun nə vaxt, harda yetişəcəyini o da bilmir. *Tale deyilən şey elə budu!*

236. Səhər adəti üzrə hər gün Rəvan heyətinə baş çəkib gün-güzəranımızla maraqlanan, fürsət tapıb mənə təzə xəbərləri çatdıran Əbdülhəsən bəydən öyrəndim ki, Vəlinemətin tacqoyma mərasimi münəccimlərin məsləhət bildiyi günə – şəvval ayının iyirmi dördünə təyin olunub, ona qədər hamı tumara möhürünü basıb, xələtini alandan sonra hökmdarın xeyir-duasıyla məsləhət bilindiyi yerə yollanacaq. Gözlənilən də olmuşdu, dünən məclis dağılandan sonra Vəlinemət əyan-əşrəfilə şadyanalıq eləmiş, bir neçə şəxsi, o cümlədən Əbdülhəsən bəyi xan məqamına ucaltmışdı. Mirzə Möminin *(Mirzə Mehdinin xəttini yaxşı tanıyırdım, o yazmamışdı)* qələmindən çıxan fərmanı qoynundan çıxarıb göstərən Əbdülhəsən xan bundan sonra şahın xidmətində olacağını deyəndə səsinin titrədiyini duydum. Bir azdan sonra yenə həmişəki qaydayla Vəlinemətə təzim eləyib talvarımızın altında oturduq, ardınca hər kəsi bir-bir çağırıb gənəşmənin nəticəsi olan fitvanı oxudub, möhür basdırdılar. Dərbənddən, Şirvandan, Tiflisdən, Mazandarandan, Heratdan, Xorasandan, Məşhəddən, Təbrizdən, Qəzvindən, Nəqşivandan, İsfahandan… gələn xanlar, hakimlər, minbaşılar, mirzələr, mirsofilər, kələntərlər, məliklər, kəndxudalar Mirzə Zəkinin, Mirzə Mehdinin, Təhmasib xan Cəlayirin, Həsənəli xanın, Müzəffərəli xanın, Mirzə Əbdülhəsənin, Mirzə Möminin hüzurunda iki qarış uzunluğunda fitvanı oxuyur, möhürlərini basır, itaətlərini bildirirdilər. Rəvan heyətinin növbəsi üçüncü gün çatdı, mən həmin gün təbii ki, Vəlinemətin elçilərinin hüzuruna getmədim, nə möhürüm vardı, nə də bir elatın adından danışmağa ixtiyarım (razılığımı sözlə bildirməyim bəs eləmişdi), olsa-olsa, burda baş verənləri kağıza köçürəcək, tarixin bir səhifəsinə çevirəcəkdim – bundan başqa əlimdən nə gələ bilərdi ki.

277. Elə o gün də bizi Vəlinemətin hüzuruna çağırdılar. Əbdülhəsən xanın dəvətindən belə anladım ki, ortada çox ciddi mətləblər var. Gün günortadan xeyli keçmiş Böyük Xanın hüzurunda təzim elədik. Vəlinemətin yanında qardaşı İbrahim xan, Herat hakimi Pir Məhəmməd xan, oğlu Rzaqulu xan, Mirzə

Mehdi, Mirzə Mömin, Mirzə Zəki, Təhmasib xan Cəlayir vardı. Böyük Xan bizə oturmağa izin verəndən sonra dedi, Rəvan vilayətinin camaatı, həmişə mənə dayaq durublar, istəyirəm ki, bu tərəfdən belim bərk olsun. Bu səbəbdən indiyəcən Herat hakimi olan Pirməhəmməd xanı *(dərhal Pirməhəmməd xan irəli durub sağ əlini ürəyinin üstünə qoydu, ehtiramla təzim elədi)* Rəvan vilayətinə xan təyin elədim; dedi o sədaqətli, həm də ədalətli adamdı, ümidvaram ki, sizi də rəncidə eləməz. Bundan sonra Böyük Xan iti nəzərlərini qarşısında duran kəslərin üzərində gəzdirdi, mənə xidmət elədiyiniz kimi, ona da sədaqət göstərməlisiniz, unutmayın ki, mənim əmrim Allahın əmri, Pirməhəmməd xanın əmrisə mənim əmrimdi. Vəlinemət sözünə davam eləyib dedi, Pirməhəmməd xan hələ vilayətin vəziyyətilə tanış deyil, ona kömək eləmək xanların da, ağaların da, bəylərin də, kələntərlərin də, məliklərin də, xəlifənin də borcudu. Əgər şikayətiniz olsa, Təbrizə, İbrahim xana, ondan bir mədəd olmasa, mənə çatdırarsınız. Hamı baş əydi, Vəlinemət üzünü Pirməhəmməd xana tutub, Pirməhəmməd xan, dedi, bu adamları sənə tapşırıram, vilayəti onlarla gənəşikli idarə elə, İbrahim xanın əmrində ol. Sonra dedi, gedə bilərsiniz, bir sözünüz olsa, Mirzə Mömınə, ya da eşikağasına çatdırın, fərman hazırlayıb mənə bildirərlər. Bayaqdan bəri çökən sükutun ağırlığından qurtarıb təzim elədik, dalı-dalı qapıya getməyə başlayanda Böyük Xan qəfildən üzünü mənə tutdu, dedi, Mirzə Yusif, sən qal. Ürəyim, elə bil yerindən qopub düşdü, qıçlarımın zəifləyib əsdiyini, qulaqlarımda başlayan uğultunun get-gedə beynimi bürüdüyünü duydum, amma xoşbəxtlikdən həyəcanımı büruzə vermədim.

238. Rəvan heyəti təzim eləyib çadırdan çıxandan sonra *(Pirməhəmməd xan kimi sağ əlimi ürəyimin üstünə qoyub dayanmışdım)* Vəlinemət dedi, Mirzə Yusif, Mirzə Mehdinin söylədiyinə görə, dünyanın yarısını gəzib-görmüş, çox məmləkətlərdə yaşamış adamsan, xırda vilayətləri idarə eləməyin nə qədər çətin olduğunu bilirsən; bu səbəbdən Qaplan-Kuhdan Arpaçaya, Dağıstanın və Kartlinin hüdudlarınacan bütün vilayətləri Azərbaycana birləşdirməyi, vəliəhd Məhəmməd İbrahim xanı vəliəhdim, Azərbaycanın valisi, həm də sərəskəri təyin eləməyi düşünürəm. Bundan sonra Rəvan, Naxçıvan, Gəncə, Kartli və Kaxeti, Şirvan,

Təbriz vilayətləri Azərbaycan bəylərbəyliyi olacaq. Belə bir vaxtda İbrahim xanın yanında olmağın, əməllərinin tarixini yazmağın məsləhətdi. Mirzə Mehdi də *(dönüb ona sarı baxdı, Mirzə Mehdi yüngülcə baş əydi)* bu fikirdədi, bəs sən nə deyirsən? Əlbəttə, taleyimdə bu qədər gözlənilməz dönüş olacağına hazır deyildim, fikirləşməyə, götür-qoy eləməyə də vaxt yox idi, elə düşünübdaşınmadan dedim, hökmdarım, məni bu şərəfə layiq bildiyinizə görə minnətdaram, həmişə əmrinizdəyəm, məmləkətimizə faydalı olacağımdan hədsiz məmnunam. Sonra ehtiramla baş əydim, həmin məqamda yeni xanədanı quran şəxsin üzünə dik baxmaq istərdim, amma hansı hissin təsirindənsə cürət eləmədim. Çox gözəl, yeni məqamın xeyirli olsun, – Vəlinemət əlilə işarə elədi, – qalan şeyləri Mirzə Mehdi sənə başa salar, indi gedə bilərsən. Baş əyib dalı-dalı çadırdan çıxdım, bir anlığa ayaq saxlayıb şüurumun aydınlaşmasını gözlədim. Hə, indi ömrünün harda bitəcəyindən baş çıxar, Mirzə Yusif! Veneziadan İstanbula gələndə Rodos adalarında yunan dəniz quldurlarının hücumu, İstanbulda Bonneval Paşanın yanında qulluq eləyən vaxt Xalicdəki körpüdən dəniz yıxılmağın, İsfahanın mühasirəsində ölməmək üçün çiy at əti yeməyin, Ərzurumda çovğuna düşməyin hələ ömrün sonu deyilmiş. Bundan sonra başına nələr gələcək, Tiflisə yetişib uşaqlıq xatirələrinin izlərini tapa biləcəksənmi? Sonra beynimdən keçirdim ki, doğrudan da *üç şey barədə mülahizə yürütməkdə tələsmək olmaz: inandığına əmin olmamış Allah barədə, öz əməllərini xatırlamamış başqalarının əməlləri barədə, dan yerinin ağarmasını görməmiş sabahkı gün barədə...*

# XV

# ŞAHIN XİDMƏTİNDƏ

***Padşahın kəramindən pay almışam mən hər vəqt,***
***Ola bilməz xidmətində indi çəkim xəcalət.***

***Əssar TƏBRİZİ***
***(XIV yüzil)***

239. Axşam başıma gələni Mirzə Kəmaləddinə danışdım, xeyli təəccübləndi, həm də Təbrizə gedəcəyim onu sevindirib bir az təsəlli verdi; hər halda, doğmalarına qovuşanacan yanında olacaqdım. Görünür, «olacağa çarə yoxdu» fikrinə gəlib, gerçəkliklə barışmağa başlamışdı, axşam namazına qalxa bilməsə də, yatağında oturub neçə gündən bəri ilk dəfə əməlli-başlı yemək yedi, üstəlik, Vəlinemətin yanında olub-keçənlərlə də maraqlandı. O axşam Əbdülhəsən xan məni təbrikə gəldi *(deyəsən, bu barədə Mirzə Mehdiylə söhbəti olmuşdu, bəlkə də elə mənim İbrahim xanın yanında olmağım ikisinin məsləhətiydi),* dedi, narahat olmayın, bu günlərdə Mirzə Mehdi özü çağırtdırıb hər şeyi yoluna qoyacaq. Sonra dedi, münəccimlərin məsləhətilə Böyük Xanın taxta çıxma günü şəvval ayının iyirmi dördünə müəyyən olunmuşdu, o vaxtacan Böyük Xanın adına möhür hazırlanmalı, sikkə kəsilməliydi. Əlbəttə, həmin mübarək gündə hamının burda olması vacib deyil; dedi, artıq razılıq verilib, möhürlər basılıb. Təkcə Uğurlu xan Ziyadoğlu tərsliyindən əl çəkməyib *(bunu deyəndə səsini lap qısdı),* tumara möhür basmaq üçün hamıdan sonra dəvət olunduğunu bəhanə eləyib, axşam başının dəstəsilə Gəncəyə yola çıxıb; əlbəttə, Böyük Xan istəsəydi, onu Kürün körpüsündən keçməyə qoymazdı, amma əmr verib ki, toxunmayın, hər şeyin vaxtı-vədəsi var. Axırda dedi, Böyük Xan xələt paylayandan sonra getməyə izin verəcək, amma biz, yəqin Novruz bayramını da burda keçirəcəyik. Əbdülhəsən xan gedəndə dedi, MİrzəYusif, özünüzə fikir verin, çillənin soyuğundan qorunun, yaddan çıxar-

mayın ki, artıq dövlət adamısınız, xanədanın qulluğundasınız. Yatağıma girəndə, az qala əlli il ərzində başıma gələnlərə baxmayaraq, böyük Yaradana şükür elədim: bəlkə də gedib Tiflisdə ömrümü səssiz-səmirsiz başa vurmağıma razı olmayıb, məni məmləkətin taleyinin həll olunduğu, tarixi vaqiələrin baş verdiyi yerə gətirib, üstəlik, yeni doğulan xanədanın beşiyi başında duranların sırasına qatıb; bunca xata-bəladan qoruyandan sonra İlahidən özgə nə diləyə bilərdim axı?

240. Əbdülhəsən xanın söylədiklərindən belə çıxırdı, Böyük Xan hökmdar olmaq yox, hökmdarlığını hamıya qəbul etdirmək niyyətindədi. Baba xan Çavuşlunu da çağırıb deyibmiş, ömrünü ibadətlə keçirmək fikrindədi, o da əsl mətləbi bildiyindən deyib, mənsub olduğun səksən min ailəlik Əfşar soyu məmləkəti fəlakətdən, dağıntıdan, parçalanmaqdan xilas eləyən bu adamdan başqa kimsənin şah olmasına imkan verməz. Sonra günahkarları, itaətdən çıxanları dərhal yox eləyəcəyini hamının diqqətinə çatdırıb, hamı şərtini qəbul eləyib. Ardınca Hindistan, Türküstan, Rum kimi Əcəmin də sünni məzhəbinə tapınması şərtini ortaya atıb, deyib şiəliyi bu məmləkətə səfəvilər gətirib, cəfəriliyi qəbul eləmək vacibdi. Sözün düzü, mən Böyük Xanın bu tələbilə cani dildən razıydım. Ömrümün, az qala, otuz ilini Osmanlı və Əcəm məmləkətlərində keçirmiş, bu məzhəb məsələsinin həmişə çəkişmələr törətdiyini görmüşdüm. Elə Osmanlıyla Səfəvi dövləti arasında Böyük Şah İsmayılın vaxtından indiyəcən davam eləyən savaşların kökündə torpaq iddiaları qədər məzhəb çəkişmələri də vardı. İndi məzhərnaməyə imza atan şəxslər bunu nəzərə almalı, dinimizin bütövlüyünə nail olmalıydılar. Mirzə Mehdinin qələmindən çıxan o məzhərnamədə məmləkətdəki ixtişaşlar, özbaşınalıqlar, parçalanma, rusların, Osmanlıların, uğanların təcavüzü, əfşarlar arasına günəş kimi nur saçan Nadirin şücaəti sayəsində düşmənlərin susdurulduğu, şah seçilmək üçün Muğan çölündə yığnaq keçirildiyi, guşənişin olmaq istəyən Böyük Xanın fikrindən döndərilməsilə bərabər cəfəriliyin qəbul edilməsinin vacibliyi də vardı. Dördkünc, girdə, uzunsov möhürlərin vurulduğu o məzhərnamədə tanıdığım-tanımadığım qırxdan artıq imza gördüm, hərəsi bir vilayətin adından möhür basıb əhdlərinə sadiq qalacaqlarını bildirmişdilər. Vəlinemət ehtiyatlı iş tutmuş,

bu yolla hamısından iltizam almışdı, sabah nədənsə narazı qalıb başını qaldıran kəsləri susdurmaq üçün hər cür səlahiyyəti vardı, yəni, bundan sonra kəsdiyi başa söz olmayacaqdı.

241. Böyük Xan iki gündən sonra, möhürlər basılıb, vacib fərmanlar hazırlanandan sonra xələt payladı. İki gün ərzində günümün çox qismini görüb-eşitdiklərimi, baş verənləri kağıza köçürməklə keçirirdim. Əlbəttə, yenə hər gün Böyük Xanın salamına gedir, sonra talvarımızın altında oturub kənar şeylər barədə söhbət eləyə-eləyə əmr gözləyirdik. İki gün dalbadal əmr gəlirdi ki, gedib dincəlsinlər, xüsusi buyruq yoxdu, məqamı çatanda çağırılacaqlar, hamı ilan ağzından qurtarmış qurbağa kimi müvəqqəti də olsa, rahatlanıb dağılışırdı, mən də tələm-tələsik Araz körpüsündən keçib qamış komamıza girir, elə kitab dolu sandığın üstündəcə yazıb-pozurdum. Hər dəfə salama gedəndə artıq məqamını itirmiş Məhəmmədqulu xanı üzülüb balacalaşmış, yazıqlaşmış, xəstəhal görürdüm; Pirməhəmməd xan hələ Heratla bağlı işlərini yoluna qoyurdu, heyətimizlə görüşməyə macalı yox idi, Böyük Xanın əmrindən sonra Rəvana yola düşəcəkdi; Baba xanla Sərdar xan bəxşişsiz qalmamışdılar – Baba xan Pirməhəmməd xanı Xorasan və Heratda əvəz eləyəcək, Sərdar xan Rəvan hakimi olacaqdı; Axund Ələkbər xidmətlərinin müqabilində vilayətin dini məsələlərinə cavabdeh şəxs məqamına çatsa da simasından dəqiq bir şey anlamaq olmurdu, bilmirdin gedişatdan razı, yoxsa narazıdı; erməni xəlifənin, kələntərin, məliklərin əli-ayağı yerə dəymirdi, hey yığışır, danışıb-barışır, sonra Mirzə Mehdinin, ya da Mirzə Möminin yanına yollanır, Allah bilir, nə barədəsə raqamlarla qayıdırdılar. O iki gündə narahatlığıma səbəb olan bir məsələni də yoluna qoya bildim: fürsət tapıb qatırçı Səfəri Qəzvin hakiminin baş dəftərdarına qoşdum, qatırın birinə görə düşərindən artıq pul, bir dəst də xələt verdim, Mirzə Kəmaləddin də xidmətini unutmayıb, bir dəst paltar bağışladı. Səfər kövrəlib ayağımıza düşdü, amma onu qardaş kimi bağrımıza basıb vidalaşdıq. Kim bilir, bir də görüşəcəkdikmi?!

242. İkinci günün axşamı məni Böyük Xanın buyurduğu kimi, Mirzə Mehdi yox, Mirzə Mömin çağırtdırdı; xeyli təəccüb içində getdim, mənə həminki təkəbbürü göstərdi, elə bil, artıq hökm-

darın yox, onun xidmətindəydim; danışığından da belə anladım ki, Mirzə Mehdinin taxtı laxlayıb, Mirzə Mömin özünü münşi-əl-məmalik yerində görür. Dedi, Böyük Xanımızın buyruğuna boyun əyib möhtərəm İbrahim xanın yanında olmağa razılıq verdiyinə sevindim; dedi, yazılmayan tarix yaddaşlardan silinir, bu da gələcək üçün çox təhlükəlidi, ümidvaram ki, Mirzə Mehdiylə birgə qüdrətli Şahımızın hökmdarlıq tarixini yazacaq, gələcək nəsillərə miras qoyacaqsınız. Həmin məqamda beynimdən keçirdim ki, Hələ Qəzvindən tanıdığım Mirzə Mömin aradan keçən illər ərzində həm kökəlib, həm də ədaları dəyişib; danışdıqca gözüm yuxarı qaldırdığı sağ əlinin adsız barmağındakı bahalı üzüyə sataşır, özümü, az qala, hökmdarın hüzurunda hiss eləyir, səbrimi basıb «bəli» mənasında başımı tərpədirdim. Sonra bir qədər də göstərişə oxşar məsləhətlər, üstüörtülü nəsihətlər verib, Şaha və xanədana sədaqətin vacibliyini xatırladıb məni Mirzə Mehdinin yanına göndərdi. Mirzə Mehdi kədərliydi, içindəkini nə qədər büruzə verməməyə çalışırdısa, deyəsən, özüylə bacara bilmirdi. Dedi, Mirzə Yusif, bu Böyük Xanımızın istəyidi, bizim də boynumuza məmləkətin və səltənətin tarixini yazmaq düşüb, ümidvaram ki, qismətimizə düşəni şərəflə yerinə yetirəcəyik. Həmin məqamda artıq Mirzə Mehdinin münşi-əl-məmalik olmadığını dərk elədim, amma Böyük Xanın bu yerdəyişməsinin arxasında nələr gizləndiyini soruşmadım. Bir az ordan-burdan danışıb ayrıldıq: üç gündən sonra İbrahim xanın xidmətində olmaq üçün onun iqamətgahına köçməliydim.

243. Sonrakı gün günorta namazından sonra bizi yenə Vəlinemətin çadırına çağırdılar. Bu dəfə oturmadıq, Böyük Xan həmişəki vüqarlı görkəmlə gəlib taxtda yerini tutandan sonra Mirzə Zəkinin işarəsilə dua oxundu, ardınca Vəlinemətin əmrilə hüzurundakılara xələt paylamağa başladılar. Əvvəlcə qardaşı, Azərbaycan bəylərbəyi və qoşunların sərdarı İbrahim xana, sonra Xorasan və Herat hakimi Baba xana, ardınca Rəvan xanı Pirməhəmməd xana, sonra məqamlarına görə digər xanlara atlas parçadan qızıl sapla tikilmiş kaftanlar, qiymətli çərkəz qurşaqları, dördkünc təhməzi papaqlarına dolamaq üçün şal parçalar verildi. Sonra bəzirganbaşı kaşanlı Hacı Hüseyni çağırıb vilayətlərindən gəlmiş, fitvaya möhür basmış hakimlərə, ağalara,

bəylərə, mirzələrə, mirsofilərə, kələntərlərə, məliklərə xələt paylanmasını əmr elədi. Baş dəftərdar adları yazıb ucadan oxuyur, Böyük Xan buyururdu ki, bu adama üç, ya beş tümən dəyərində bəxşiş verin, bəzirganbaşı da sandıqlardan bəxşişləri çıxarıb təzim eləyən kəslərə verirdi. Axund Ələkbərə, mənə neçə gündən bəri ilk dəfə adam arasına çıxan, böyrümdə yarıölü-yarıdiri duran Mirzə Kəmaləddinə qiymətli kaftan, çərkəz qurşağı, papağımıza dolamaq üçün şal parça verdilər. Uzaq vilayətlərdən – Heratdan, Məşhəddən, Xorasandan gələnlərə Kaxet və Kartlidən gətirdiyi erməni-gürcü əsirləri də verilir, kiminin bəxtinə qadın, kimininkinə qız, kimininkinə oğlan düşürdü. Böyük Xan kəndxudalara bir tümən yol xərci verməyi də tapşırmışdı. O gün erməni xəlifə özünü soyuğa verdiyindən Böyük Xanın hüzurunda yox idi, kələntərin də deyilənə görə, başı xəstəyə qarışmışdı, amma onların bəxşişini də unutmadılar. Qamış komamıza qayıdanda Mirzə Kəmaləddin üzüqoylu yatağa yıxılıb için-için ağladı. Görünür, güvəndiyi xanədanı dağıdıb yerində öz hökmranlığını quran Böyük Xanın bəxşişini almaq ona ağır gəlirdi. Toxunmadım, ağlayıb boşalmağına imkan verdim, sakitləşib toxtayandan sonra dünyanın faniliyi barədə xeyli danışdı. Onu gerçəkliyə qaytarmaq üçün doğmalarını yadına saldım. Dediyinə görə, indi oğlu on altı yaşına çatıb, Böyük Xanın qoşununda xidmət vaxtı çatıb, sonra iki qızı, bir də on yaşlı oğlu var.

244. Mirzə Kəmaləddin Ərdəbilə qayıdanda ən böyük xoşbəxtliyi ailəsini sağ-salamat görən vaxt duyacaq, külfətinin yığıb Təbrizdəki ocağına qayıdacaq, bundan sonra yurd-yuvasından uzaq düşməyəcək, mədrəsədə dərs deyib, Nəvainin, Nizaminin, Füzulinin kitablarının üzünü köçürəcəkdi. Onun son məkanı bəlliydi – doğulub-böyüdüyü Təbriz olacaqdı, bəs zamanın yelləri məni Təbrizdən haralara atacaqdı, harda dinclik tapacaqdım? Şübhəsiz, İbrahim xan Təbrizdə oturub qalmayacaqdı, səfərlərə çıxacaq, döyüşlərə girəcəkdi, günlərimiz at belində, çadırlarda, şaxtada, istidə, yağışda keçəcəkdi. Görəsən, o yolların biri məni aparıb Tiflisə çıxaracaq, həsrətimi ovudacaqdımı? Axşam namazından sonra bunları fikirləşəndə məni Əbdülhəsən xanın yerinə nasaqçıbaşı məqamını tutan Yaqubəli gəlib çağırdı ki, Pirməhəmməd xan məşvərəti keçirmək istəyir. Getdim, Baba

xandan başqa hamını orda gördüm: Məhəmmədqulu xan, Sərdar xan, Axund Ələkbər, erməni xəlifə, ağalar, bəylər, kələntər, məliklər, mirzə, mirsofi, baş dəftərdar, bir neçə kəndxuda köşkün divarları boyu oturmuşdular. Sərdar xan hamını bir-bir təqdim elədi, hər kəsin nəyə cavabdeh olduğunu söylədi, sonra vilayətdəki vəziyyətə aydınlıq gətirdi, vergilərdən, əkin-səpindən, Böyük Xanın əmrlərindən danışdı. Görünür, Böyük Xanın Pirməhəmməd xanla müfəssəl söhbəti olmuşdu, dedi, birinci vəzifəmiz camaatın da, qoşunların da korluq çəkməməsindən ötrü yazbaşı əkin-səpini yoluna qoymaq, vergi yığımında qayda yaratmaqdı. Sonra hamının məsləhətini, təklifini dinləyib yazdırdı, hökmdarın əmr elədiyi gün yola çaxacaqlarını, o vaxtacan hər səhər salama gedəcəklərini bildirib məclisi bitirdi. Axund Ələkbər fatihə oxuyandan sonra dağılışdıq. Düzü, Pirməhəmməd xanın öz məqamına münasibətindən xoşum gəlmişdi, üstəlik, erməni xəlifənin oyunlarına uyacaq adama oxşamırdı.

245. Səhər Pirməhəmməd xanın başçılığıyla Araz körpüsünü keçib düşərgəyə girəndə qamış talvarlarımızın sökülüb yerinin təmizləndiyini gördük. Bizi leylək çadırında yerləşən keşikxanaya apardılar. Bir çox adlı-sanlı zatı çadırda oturub qəlyan çəkən, söhbətlə vaxt keçirib Vəlinemətin buyruğunu gözləyən gördük. Xalıların üstünə divar boyu döşəkçələr, mütəkkələr düzülmüşdü. Oturub gözləməyə başladıq, erməni xəlifə havanın get-gedə soyuduğundan, qar gözləndiyindən, Sərdar xan günü sabah səfər hazırlığına başlamağın vacibliyindən, Axund Ələkbər Novruz bayramınacan Rəvana çatmağın gərəyindən danışdı. Eşikağasıbaşı Fəzləli bəy bizi Vəlinemətin hüzuruna çağıranda özümüzü yığışdırıb ayağa qalxdıq, keşikxanadan çıxıb Böyük Xanın çadırına doğru getdik. Həmişəki kimi sağ əlimiz ürəyimizin üstündə diz çöküb baş endirdik, bu vaxt İbrahim xanın vəziri, həm də məlik-üş-şüəra Cahanşah Təbrizi irəli çıxdı, əlindəki kağızdan Böyük Xanın şərəfinə yazdığı şerini oxudu. Şeirdə ədalətli hökmdar, aləmin hakimi Nadirqulunun qızılla möhürünü basıb dünyaya öz səltənətini bildirdiyindən, onun yanında olanları şöhrət, ondan üz döndərənləri lənət gözlədiyindən, seçdiyimiz şahın bütün məmləkətin hökmdarı, İskəndər şöhrətli, Allahın kölgəsi, zəmanəmizin nadiri Nadirqulu olduğundan danışılırdı. Şerini

bitirib ucadan fatihə dedi, dua oxuyub salavat çevirdik. Sonra Vəlinemət mürəxxəs olmağımıza izin verdi. Biz dalı-dalı gedib çadırdan çıxanda erməni xəlifənin yerindən tərpənmədiyini gördüm, beynimdən keçdi ki, yenə Böyük Xanın kefinin kök olmasından istifadə eləyib ondan nəsə qoparacaq. Yəqin, çadırdan çıxıb artıq münşi-əl-məmalik, həm də möhrdar olan Mirzə Möminin yanına gedəcək, istədiklərini deyib, fərmanlar hazırladacaq, yenə hansı niyyətinisə gerçəkləşdirəcək. Böyük Xanın çadırından aralanıb Araz körpüsünə doğru yönələndə bir əliağaclının, doğrudan da, erməni xəlifəni Mirzə Möminin köşkünə sarı apardığını gördüm. Deyəsən, Axund Ələkbər də eyni duyğuları yaşayırdı, dönüb mənalı-mənalı üzümə baxdı.

# XVI

# ERMƏNİ XƏLİFƏNİN NİYYƏTİ

***Soraram sərgəştə bəndən kim, nə gördüm deməzəm,***
***Cizginən dövrandan özgə gecə-gündüz sərbəsər.***

***Şeyx İbrahim GÜLŞƏNİ***
***(XV yüzil)***

246. Həmin axşam İbrahim xanın adamlarının bir hissəsinin Təbrizə yola düşəcəyini öyrənib Mirzə Kəmaləddini yola salmaq fikrinə düşdüm, o da buna çox sevindi. Onsuz da kefi açılmır, üzü gülmürdü, təsadüfən ağzından bir söz qaçıra, Vəlinemətin qəzəbinə düçar ola bilərdi, gedib ailəsinə qovuşması, Novruz bayramını külfətilə keçirməsi daha da savab iş olardı. Axşam namazından sonra keşikxanaya qayıdıb İbrahim xanın baş dəftərdarını tapdım, özümü nişan verib əhvalatı danışdım, o da məni İbrahim xanı Təbrizdə təntənəylə qarşılamaq üçün hazırlıq görməyə gedən qəfilənin başçısı eşikağasıbaşı Kərim bəyin yanına apardı. Eşikağası ərzi-halımı hörmətlə dinləyib çək-çevir eləmədən razılıq verdi, beləcə, Mirzə Kəmaləddinin sağ-salamat Ərdəbilə yetişəcəyindən sevinib muştuluğa qaçdım. Əlbəttə ki, o gecəni ilan vuran yatdı, biz yatmadıq, xatirələrə baş vurub keçdiyimiz uzun-uzun yolları xatırladıq, taledən, qismətdən, Alın yazısından danışdıq. Allah məsləhət bilsəydi, Təbrizdə görüşəcək, tale, ya da Əzrail ayıranacan münasibətdə olacaqdıq. Həmin axşam ona bir rəvayət danışdım. *Qədim zamanlarda quraq təbiəti, qızmar havası olan bir kənd varmış. Bir-iki quru ağacdan, ot-əncərdən, yulğundan başqa kənddə yaşıllıq yoxmuş. Camaat əkib-biçə bilmədiyindən birtəhər keçinmək üçün sığır saxlayırmış. Günlərin birində bir dərviş böyük, yorucu çölü keçib həmin kəndə çatır. Kəndin arasında rastın çıxan bir nəfərdən qarnını doyurmağa yemək, gecəni keçirməyə yer olub-olmadığını soruşur. Həmin adam deyir, bu çətin məsələdi, amma bir nəfər var, səni bir gecəliyə qonaq saxlayar. Sonra Şakir ("Şükr eləyən")*

*adlı adamın evini nişan verir. Dərviş onun nişan verdiyi evə tərəf gedə-gedə rastına çıxanlardan evi soruşur. Biri Şakirin qonşu kənddəki Həddadın sığırlarından daha artıq – mindən çox sığırının olduğunu deyəndə, dərviş onun bu tərəflərin ən varlı adamı olduğunu başa düşür. Nəhayət, Şakirin malikanəsinə çatır, görür, doğrudan da, var-dövlətli adamdı. Şakir, üstəlik, çox alicənab, qonaqpərvər adammış, onu ürək genişliyilə qarşılayır, xanımı və qızı da qonağın rahatlığı üçün əllərindən gələni eləyirlər.*

*247. Dərviş gecəni keçirib səhər getmək istəyəndə ondan bir neçə gün də qalmağı israr eləyirlər, amma dərviş getməli olduğunu deyəndə yoluna yemək qoyurlar. Dərviş çöllə yoluna davam eləyəndə Şakirin dediyi bir söz heç beynindən çıxmır. Dərviş Şakirlə vidalaşanda demişdi, belə varlı olduğuna Allaha şükürlər olsun, Şakir də cavab vermişdi ki, sən görünüşə aldanma, bu da keçər. Dərviş Şakirin nə demək istədiyini dərk eləyə bilməmişdi. Dərviş təsəvvüfdə kamilləşmə yolunda dərk eləmişdi ki, gördüyü hər şeydə hikmət, dərs var. İbadət eləmək, bir az düşünmək məqsədilə bir ağacın kölgəsində oturanda, ağlına gəldi ki, əgər zikr eləyib səbir göstərsə, gec-tez cavab tapacaq. Buna görə də beyninin qapısını qayğıların üzünə bağlayıb ruhunu dərin sükuta təslim elədi. Beləcə, düz beş il ərzində ayrı-ayrı yerlərə səyahətlərində cürbəcür insanları tanıyıb xeyli təcrübə qazandı. Həm də təsəvvüfün zərurəti olan sükutunu qoruyub qəlbinin səsini dinlədi. Günlərin birində dərvişin yolu yenidən həmin kəndə düşdü. Dərviş bu dəfə öyrəndi ki, Şakir qonşu kənddəki Həddada qulluq eləyir. Bu xəbərdən heyrətlənən dərviş Şakiri yenə görmək istəyir. Şakir bu dəfə də onu eyni sevgiylə qarışlayır. Onu qocalmış, miskin vəziyyətdə görəndə dərviş nə baş verdiyini öyrənmək istəyir. Şakirdən öyrənir ki, üç il əvvəl hər tərəfi sel basıb, onun sığırları da, evi də azğın selin qurbanı olur. O seldən sağ çıxan Həddad indi bu tərəflərin ən varlı adamıydı, Şakir də ailəsilə birgə ona xidmət eləyirdi. Başlarına bu qədər fəlakət gəlsə də, Şakir və ailəsi yenə qonaqpərvərliklərini göstərirlər, dərvişi bir neçə gün qonaq saxlayıb, gedəndə heybəsinə bir neçə günlük yemək qoyurlar. Dərvişlə vidalaşanda, onların başlarına gələnlərdən çox kədərlənib, deyir, amma yəqin ki, bütün bunlarda Allahın hikməti var. Şakir də cavabında təsəlli verir ki, unutma, bu da keçər. Dərviş yola düşür, amma yenə Şakirin son sözünü unuda bilmir, fikirləşir*

*ki, görəsən, bununla nə demək istəyir. Beləcə, fikir-xəyal içində yoluna davam eləyib hər şeyi əlahəzrət zamanın öhdəsinə buraxır.*

*248. Aradan yeddi il keçir, dərvişin yolu yenə həmin kənddən düşür. Artıq Həddad ölmüş, heç kəsi olmadığından bütün var-dövlətini Şakirə vəsiyyət eləyibmiş. Bu dəfə də Şakirlə olub-keçənlərdən söhbət eləyəndə eyni sözləri eşidir: "Bu da keçər." Dərviş Həcc ziyarətinə gedir, qayıdıb Hindistana yollanır, ordan da vətəninə dönür, daha nələr baş verdiyini öyrənmək məqsədilə Şakirin kəndinə gedir. Kənddə onu soruşanda dərvişə üzərində "Bu da keçər" sözləri yazılmış sadə qəbir göstərirlər. Dərviş yenə təəccüblənir, fikirləşir ki, var-dövlət gəlir-keçər, lakin qəbir, ölüm necə dəyişə bilər. O vaxtdan hər il Şakirin qəbrinin üstünə gəlir, orda bir müddət düşüncələr içərində oturur. Birinci dəfə gələndə görür qəbiristanlığı sel basıb, Şakirin qəbrini də yuyub aparıb. Dərviş həyat dərsi öyrəndiyi adamın qəbrindən da məhrum olur. Xaraba qəbiristanlıqda gözlərini torpağa dikib uzun-uzadı düşüncələrə dalır. Sonra üzünü göyə tutub pıçıldayır: "Bu da keçər." Aradan illər ötmüş, artıq dərviş çox qocalmışdı. Ömrünün qalan günlərini bir yerə sığınıb, sakitlik içində keçirmək qərarına gəlir. Bir müddət də keçir, dərvişin mürşidlik sorağı ətrafa yayılır, yanına müdriklik öyrənmək istəyən müridlər yığışır. Həmin günlərdə ölkənin hökmdarı özünə layiq olan bir üzük düzəltdirməyi əmr edimiş. Üzük elə gözəl olmalı imiş ki, ümidsiz olanda sahibinin ümidini artırsın, sevinəndəsə yersiz qürurlanmaqdan çəkindirsin. Ölkənin bütün adlı-sanlı adamları yığışır, hərəsi bir söz deyir, ətrafa adam salıb qiymətli kəlamları toplayırlar, yenə hökmdarı razı sala bilmirlər. Axırda hökmdarın vəziri səsi-sorağı aləmi bürümüş həmin mürşidə namə yazır, bu müşkülü çözmək üçün onu saraya dəvət eləyir. Dərviş vəzirin dəvətinə naməylə cavab verir. Bir neçə gün sonra hökmdara zümrüddən hazırlanmış qiymətli üzük təqdim edilir. Neçə gündən bəri ümidsizliyə qapılmış hökmdar üzüyü alıb könülsüz halda barmağına taxır. İlk dəfə üzüyü görəndə keçirdiyi ümidsizlik hissinin yenə təkrarlanacağını düşünəndə ürəyi sıxılır. Lakin qəfildən gülümsəməyə başlayır. Bu təbəssüm get-gedə qəhqəhəyə çevrilib sarayı başına götürür. Hökmdarı ürəkdən gülməyə vadar eləyən üzüyün qaşındakı "Bu da keçər!" yazısı imiş.*

249. Mirzə Kəmaləddini, Böyük Xanı, daha doğrusu, Şahımızı salama gedəndən sonra yola saldım. Atlardan birini mindi, olan-qalanını – bir sandıq kitabını, yazı dəstini, geyim-kecimini,

ailəsinə aldığı bəxşişləri qatıra yüklədik, çox dartınsa da, olub-qalanından artıqlamasıyla verdim, üstəlik, güman ki, böyüyüb boylu-buxunlu cavan olan oğluna bir dəst bəy paltarı göndərdim. Dönə-dönə qucaqlaşdıq, dedim, qulağı səsdə olsun, inşallah, İbrahim xan Təbrizə qədəm basan gün mən də orda olacağam, Allah məsləhət bilsə, görüşərik. Yola çıxanlar Mirzə Kəmaləddinin məhzun halını məndən, neçə illərin dostundan ayrılmasına yozdular. Tapşırmışdım ki, yolda kimsəyə inanıb ürəyindəkiləri açmasın, Vəlinemətin hər yerdə «gözü-qulağı» var, başına iş açar. Üstəlik, gedib onu Təbrizdə sağ-salamat gözləyincə dinclik tapmayacaqdım. Bu uzun yolçuluq müddətində ona çox yaxından bağlanmışdım. Hərdən fürsətə salıb zərif duyğulu şeirlərini oxuyur, könül aləmindən xəbər tuturdum. Özü o şeirləri heç vaxt oxumurdu, mümkün qədər məndən gizlətməyə çalışır, çox vaxt başqa şairlərin adına çıxırdı, amma onun nəfəsini nəfəslər içindən çox yaxşı seçirdim. Elə o günlərdə də erməni xəlifənin dəstəsi durmadan işləyirdi: vardanet, kələntər, məliklər elə hey ora-bura gedir, nəsə düzüb-qoşurdular. Əlbəttə, bununla açıq-açığına maraqlanmağım şübhə doğurardı, artıq İbrahim xanın, Pirməhəmməd xanın, Sərdar xanın səlahiyyətindəydi. Mən olsa-olsa, Azərbaycan bəylərbəyinin salnaməçisiydim, baş verənləri kağıza köçürəcəkdim, bu cür məsələlərlə maraqlanmağım səhv anlaşılardı. Amma erməni xəlifənin burda Vəlinemətdən mülk fərmanları qoparmaqdan başqa nəylə məşğul olduğunu öyrənib marağımı təmin eləmək istəyirdim, yoxsa rahatlıq tapmazdım. Bunu da kələntər Əliquludan başqa kimsə bilməzdi, onu həmişə kələntər Məlikcanın yanında görürdüm. Əliquluyla bir yaxınlığım yox idi, Rəvandan çıxandan bəri beş-üç dəfə təsadüfi kəlmə kəsmişdik, indi qəfildən bu cür nataraz sual versəydim, bəlkə də məni Vəlinemətin «göz-qulaq»larından biri hesab eləyərdi. Fürsət gözləmək, Əliquluda etibar oyatmaq lazım idi. Gedib Axund Ələkbərlə açıq danışmağın nə nəticə verəcəyini bilmirdim, bunun da düşər-düşməzi olardı. Öz-özümə, səbirli ol, dedim, erməni xəlifə hardasa quyruğu ələ verəcək, onda əsil niyyəti də üzə çıxacaq.

250.Salamdan sonra axşam Vəlinemətin hüzurunda olmağımızı tapşırmışdılar. Mirzə Kəmaləddindən və qatırçı Səfərdən sonra

boşalmış komamızda yatağıma uzanıb xəyala dalmışdım. Yaqubəli nasaqçıbaşı olandan sonra Əbdülhəsən xanın köşkünə daşınmışdı, iki nasaqçı da gün uzunu tapılmırdılar, çox vaxt yatmağa gəlib-gəlmədiklərini də bilmirdim. Bu fikir-xəyal içində deyəsən, mürgüləmişdim, nasaqçılardan biri gəldi ki, Böyük Xanın hüzuruna getmək vaxtıdı. Mən keşikxanaya çatanda Pirməhəmməd xanı, Sərdar xanı, Axund Ələkbəri, digər ağaları, bəyləri, mirzəni, mirsofini, baş dəftərdarı, erməni xəlifəni, kələntərləri, məlikləri, kəndxudaları orda gördüm. Baba xan yox idi, yəqin artıq Xorasanın və Heratın işlərilə məşğuldu, bir də Məhəmmədqulu xan görünmürdü, deyilənə görə, Vəlinemətin əmrilə Təbrizə yola düşüb, orada İbrahim xandan bir məqam gözləyəcək. Özümdən ixtiyarsız əvvəlcə erməni xəlifəni, sonra kələntər Məlikcanı, məlik Akopcanı, məlik Mkrtumu, ardınca o biri məlikləri süzdüm, üzlərindən niyyətlərini oxumağa çalışdım, amma yaltaq-itaətkar ifadələrdən başqa bir şey tapmadım. Kələntər Əliquluya da göz qoydum, ona inana bilib-bilməyəcəyimi beynimdən dönə-dönə keçirdim. Eşikağasıbaşı Fəzləli bəy gəlib bizi Vəlinemətin hüzuruna aparanda həyəcanlıydım: bu, iki aydan bəri arasında olduğum Rəvan heyətilə son görüşüm idi. Əlbəttə, kiminləsə Təbrizdə rastlaşacaqdıq, ya da İbrahim xanın yolu Rəvana düşsə, orda üz-üzə gələcəkdik. Çadıra girib təzim eləyənə, göstərilən yerdə oturanacan başımı qaldırıb Böyük Xanın, daha doğrusu, artıq Şahımızın üzünə baxa bilmədim. Vəlinemət dedi, indi dövlətin, rəiyyətin işlərilə məşğul olmaq vaxtı gəlib çatıb. Dedi, vilayət əhlinin rifahı, rəiyyətin əmin-amanlığı üçün çox iş görmək gərəkdi, sonra mirzəyə əmr elədi ki, nökərlərin donluğunu vaxtında versin, ardınca dedi, nökər gərək atına yaxşı qulluq eləsin, yaraq-əsləhəsini hazır saxlasın, hər gün təlim keçsin, zirehini, qılıncını, top gülləsini, xəncərini, qalxanını, sadağını göz bəbəyi kimi qorusun; dedi, vilayətdə əmin-amanlığın hakim olması üçün başqa qövmlərə, başqa dinlərə hörmət göstərin, bundan sonra bütün istəklərinizi, tələblərinizi Təbrizə, İbrahim xana çatdırarsınız, ehtiyac olanda işə mən də əl qoyaram; axırda dedi, günü sabah yola düşüb Rəvana qayıda bilərsiniz, amma gərək buyurduqlarımı unutmayasınız. Pirməhəmməd xan bağır basıb, baş əyib hökmdarın əmrlərinin yerinə yetiriləcəyini söylədi. Sonra erməni

xəlifə özünü irəli atdı, dedi, biz sizdən uzaq düşdükcə özümüzü yetim kimi hiss eləyirik, çünki heç kəs bizim dərdimizə sizin qədər qalmır; dedi qoy qadir Allah yolunu açıq, düşmənlərini xar eləsin, ümidvaram ki, əlahəzrət müqəddəs nəzərini mənim və müqəddəs məkanımızın üzərindən çəkməyəcək. Vəlinemət gülümsünüb dedi, Allahın evi hamımızındı, xəlifə, narahat olma, get ibadətini elə. Sonra Axund Ələkbər dua oxuyub fatihə verdi, hökmdara bir daha təzim eləyib çadırdan çıxdıq.

251. Qamış komamdakı son gecəmi can hövlü içində keçirdim. Axşam namazından sonra nasaqçılardan biri gəlib şam yeməyinə Axund Ələkbərin yanına çağırdı. Getdim ki, Kələntər Əliqulu da onun yanındadı, bu təsadüfün belə asanlıqla baş verməsinə əvvəlcə çaşdım, sonra toxtayıb ehtiyatlı olmağı beynimdən keçirdim. Axund Ələkbər Əbdülhəsən xanı da çağırtdırıb bir növ vida məclisi düzəldibmiş. Əvvəlcə Vəlinemətin ağlının və qılıncının kölgəsində bundan sonra əmin-amanlıqda yaşayacağımızdan danışdıq. Əbdülhəsən xan dedi, əlahəzrət xan artıq osmanlılarla münaqişəni yoluna qoymağa başlayıb, təklif eləyib ki, şiəlikdən bir şərtlə əl çəkirik: cəfərilik beşinci rükn kimi qəbul olunsun, Kəbədə İmam Cəfərin adına beşinci sütun ucaldılsın, məmləkətimizin əmirül-hacısı qeyri əmirül-hacılarla eyni məqamda sayılsın, möminlərimizə Məkkəni ziyarət eləmək imkanı verilsin, hər iki tərəf əsirləri buraxsın, elçilər mübadilə olunsun. Axund Ələkbər hökmdarın şərtlərinin ədalətli və faydalı olduğunu söylədi, amma dedi, xəlifənin Kəbədə beşinci sütun ucaldılmasına razılıq verəcəyi ağlına batmır. Sonra havadan, əkin-səpindən, bundan sonra görüşüb-görüşməyəcəyimizdən danışdıq. Bayaqdan ha çalışırdım ki, söhbəti erməni xəlifənin üstünə gətirim. Sabah yola düşəcəklərindən danışanda kələntər Əliqulu qəfildən dedi, erməni xəlifə hələ Rəvana qayıtmaq niyyətində deyil. Axund Ələkbər təəccüblə Əliqulunun üzünə baxdı, o da neçə gündən bəri ardınca düşdüyüm sirri açdı: xəbəriniz olsun, erməni xəlifə əlaltından məlikliklərə adam salıb, xeyli pul, qiymətli daş-qaş topladıb, indi həmin vəsaitlə Böyük Xanımızın Kaxet və Kartlidən gətirdiyi əsirləri dəyər-dəyməzinə alıb gözdən uzaq yerlərə göndərməklə məşğuldu! Dediyinə görə, hətta hökmdarın uzaq vilayətlərin xanlarına, hakimlərinə, minba-

şılarına bağışladığı əsirləri qaçırmaq üçün əlləşirlər. Əbdülhəsən xan dedi, mən bu məsələni araşdıraram, sonra vidalaşıb getdi. Kələntər Əliqulu da çıxandan sonra Axund Ələkbərlə tək qaldıq, amma bundan sonra neyləyəcəyimizi kəsdirə bilmədik.

252. Nə vaxtdan bəri ilk dəfə səhər hökmdarı salama getmədik. Nasaqçılardan birinə tapşırdım, atımı və qatırımı gətirdi, var-yoxumu qatıra yüklədilər, atın yüyənindən tutub Araz körpüsündən keçib İbrahim xanın iqamətgahına yaxın olan çadıra getdim: yola düşənəcən burda baş Mirzənin – Mirzə Hüseynin yanında qalacaqdım. Mirzə Hüseyn məni yaxşı qəbul elədi, atımı, qatırımı mehtərə tapşırıb, yazı-pozum üçün münasib şərait yaradılması qeydinə qaldı, sonra İbrahim xanın hüzuruna apardı. Qardaşı kimi ucaboy, cüssəli, qaraşın, mərdanə görkəmli İbrahim xana təzim elədim, dedi, Mirzə Yusif, bu gündən xüsusi izin almadan həmişə yanımda duracaq, tarixə dəxli olan hər şeyi qələmə alacaqsan. Qalan məsələlərdə Mirzə Mehdiylə məsləhətləşərsən, indisə Rəvan heyəti hüzurumda olacaq. Doğrudan da, az keçmədi ki, Sərdar xanın öndə olduğu rəvanlılar – şeyxülislam Axund Ələkbər, erməni xəlifə, mirzə, mirsofi, ağalar, bəylər, kələntərlər, məliklər, kəndxudalar içəri girib baş əydilər. İbrahim xan onlara uğurlu yol dilədi, dedi, arzunuzu-diləyinizi bundan sonra Təbrizdə mənə çatdırarsınız, hər xırda məsələdən ötrü hökmdarı narahat eləmək məsləhət deyil, Allahın köməyilə bütün arzularınız yerinə yetər; sonra dedi, Pirməhəmməd xan gələnəcən naibi elə bu gün sizinlə Rəvana yola düşüb vilayətin işlərini yoluna qoyacaq. Sonra erməni xəlifə irəli çıxdı, dedi, xan sağ olsun, mən burdakı bəzi işləri axıra çatdırmaq üçün izininlə bir neçə gün düşərgədə qalmaq istəyirəm. İbrahim xan, şübhəsiz, «bəzi işlər»in nədən ibarət olduğunu bilmirdi, ona görə də, dedi, xəlifə, hökmdarın sənə münasibətini bilirsən, istədiyin qədər qala, hətta, Novruz bayramını bizimlə keçirə bilərsən. Həmin məqamda gözlərim Axund Ələkbəri və kələntər Əliqulunu axtardı, amma dillənib söz deməyin yeri deyildi. Axund Ələkbər dua oxudu, gələnlər bir-bir təzim eləyib çadırdan çıxdılar. İbrahim xan axşamacan qardaşının iqamətgahında olacağından Rəvan heyətini yola salmağım üçün imkan yaranmışdı...

# XVII

# QITLIQ GİRDABINDA

*Arifə dövlətdən istiğna kimi dövlətmi var,*
*Tərki-ləzzəti-cahan etmək kimi ləzzətmi var?*

***BƏSİRİ***
***(XV-XVI yüzil)***

253. Günorta namazından sonra Araz körpüsündən keçib gedəndə havanın dəyişdiyini bir az soyuduğunu, bəlkə də gecə qar yağacağını duydum. Axund Ələkbər dedi, İbrahim xandan sonra Pirməhəmməd xanın hüzurunda da olublar. Dediyinə görə, Pirməhəmməd xan Vəlinemətin taxta çıxma mərasiminə qalır, əvəzinə İrəvana naibini göndərir. Bu vaxt kələntər Əliqulu gəldi ki, qəfilə yola çıxmağa hazırdı. Açıq çölə doğru gedəndə Axund Ələkbər dedi, Əbdülhəsən xandan eşidib, Vəlinemət heyətlərin əksərinin yola düşməsi barədə əmr verib, çünki artıq adamların ərzağı, heyvanların ot-alafı tükənirmiş, hətta axır günlərdə buyruqçulara qaynadılmış buğda, heyvanlara bir çəngə saman verirlərmiş. Doğrudan da, Araz körpüsündən güneyə, Kür körpüsündən quzeyə yollanan qəfilələr görünürdü, Şirvanın, Dərbəndin, Kaxet və Kartlinin, Nəqşivanın, Mazandaranın, Heratın… heyətləri yola çıxırdılar. Hər yerdə at belində şəstlə oturmuş xanlar, hakimlər, minbaşılar, mirzələr, mirsofilər, mollabaşılar, qatırların, yüklü arabaları dartan atların və öküzlərin başını çəkən qatırçılar, mehtərlər, buyruqçular, eləcə də keşikçilər, nasaqçılar, cəzayirçilər gözə dəyirdi. Rəvan heyəti qalacağımızdan beş yüz addım güneydən yığışmışdı. Pirməhəmməd xanın naibini Sərdar xanın yanında gördüm, qarabuğdayı, şaqqalı adam idi, nədənsə Xorasan tərəflərdən çıxana oxşatdım, bəlkə də elə əfşarlardan idi; o biri dəstə qırx-əlli addım aralıda yığışmışdı, vardapetlər, kələntərlər, məliklər, kəndxudalar erməni xəlifənin dediklərinə qulaq asır, başlarını tərpədirdilər. Gözaltı Axund Ələkbərə, sonra

Əliquluya baxdım: onlar gedib canlarını qurtarırdılar, mən bu çöldə erməni xəlifənin qurğusuyla tək qalırdım, mədəd umacağım bir adam vardısa, o də Əbdülhəsən xandı, amma onun qulluq adamı olduğunu, buyrulana əməl elədiyini də bilirdim. Əlbəttə, uzaq və qorxulu niyyətini fikirləşməsəydim, erməni xəlifənin əsirləri almasında elə bir qəbahət görməzdim, amma bu yörələrdə yerləşdirilən o Allah bəndələrinə gün-güzəran üçün torpaq, ev-eşik lazımdı, o ailələr artıb elata çevriləcək, sonra da «yersiz gəldi, yerli qaç» azarı başlayacaqdı.

254. Həmin məqamda ağlından keçirirdim ki, bunlar Üçmüəzzini Rəvanın göbəyində nahaqdan qurmayıblar, güneydən gələnlər bu tərəflərdə yerləşdirmək niyyətləri də elə kilsədə doğulub, nəfsləri ucbatından Allahın evini də şər yuvasına döndəriblər, yoxsa dövlətləri-filanı yox, adlı-sanlı üləmalarının olduğunu eşitməmişəm, baş qaldırmağa da cəsarətləri çatmaz. Əylisdə rastlaşdığımız gündən erməni xəlifəylə cəmi beş-on kəlmə kəsmişdik, şübhəsiz, burda münasibətdən-filandan da söhbət gedə bilməzdi. Yeganə əlimdən gələn iş Mirzə Mömininin qəlbinə yol tapıb, erməni xəlifənin hazırlatdığı raqamların mahiyyətini izah eləməli, məqamı çatanda İbrahim xana yetirmək idi. Bunu fikirləşirdim ki, Sərdar xan işarə verdi, Yaqubəli yola düşmək vaxtının çatdığını bəyan elədi. Yeni naiblə, Sərdar xanla, nə müddətdi bir yerdə olduğumuz ağalar, bəylərlə mirzə, mirsofi, baş dəftərdar, kəndxudalarla halal-hümmət elədim, uğurlu yol arzuladım; Axund Ələkbəri qucaqlayanda əməlli-başlı kövrəlmişdim, kələntər Əliquluyla son bir neçə gündə ünsiyyət qurmuşdum, arxa çevirməli adammış, onunla vidalaşanda da özümü güclə toxtatdım. Erməni xəlifənin dəstəsilə görüşüb-ayrılmaq istəsəm də, ayağım getmədi, yalnız uzaqdan-uzağa əl elədim. Buyruqçuların, nasaqçıların, keşikçilərin müşayiət elədiyi dəstə Sərdar xanın əmrilə güneyə doğru yol başladı, get-gedə uzaqlaşıb kiçildi. Erməni xəlifə başının düşərgədə qalan adamlarıyla tezcə çıxıb getmiş, yovşanlı çölün ortasında tək qalmışdım. Nədənsə indi Təbriz yolunda olan, hövl içində ocağına, balalarının yanına can atan Mirzə Kəmaləddini xatırladım. Belə çıxırdı ki, hər şey deyilən kimi getsə, Allah qoysa, Novruz bayramından sonra Təbrizdə görüşəcəyik. O vaxtacan Böyük Xan başına tac

qoyub taxta çıxacaq, Səfəvilər xanədanını xarabalığı üzərində öz səltənətini rəsmən quracaqdı, mən Mirzə Yusif Tiflisi də taleyin bəxşişi kimi, bu fövqəladə hadisənin canlı şahidi olacaqdım, həm də təkcə şahidi olmayacaqdım, gördüklərimi tarixin yaddaşına yazacaq, gələcəyə çatdıracaqdım.

255. İbrahim xan hər gün səhər qardaşının yanına gedir, sonra çadırına qayıdıb gündəlik dövlət işlərilə məşğul olurdu, artıq cavabdeh olduğu vilayətlərə adam göndərir, vəzir-vəkillə məsləhətləşib yüksək məqamlara kimləri gətirəcəyini götür-qoy eləyir, Təbrizdəki iqamətgahının məsələsilə maraqlanırdı. Həmin vaxt mirzəsi Mirzə Hüseynlə xanın arxa tərəfində, bir qədər sağ səmtində otururduq. Lazım gələndə İbrahim xan buyururdu ki, Mirzə Hüseyn, filan məsələylə bağlı buyrultu hazırla. Mənə əmr-filan vermirdi, vacib bildiyim məqamları yazır, dinməzcə çıxıb gedirdim. İbrahim xan günorta namazından, sonra bəzən də bütün axşamı divanxanada olur. Mirzə Zəki, Təhmasib xan Cəlayir, Həsənəli xan və başqalarıyla söhbət eləyir, çox vaxt axşam yeməyini də elə orda yeyirdi. Belə vaxtlarda mənim kimi asudə olan Mirzə Mehdini öz guşəsində tapırdım. Salnamə yazan iki şəxsin tez-tez görüşməsində şübhəli bir şey axtarmaq olmazdı. Belə vaxtlarda şahid olurdum ki, artıq Vəlinemətin istəyilə münşi-əl-məmalik məqamına ucalmış Mirzə Mömin dönə-dönə ona üz tutur, filan məsələ barədə fərmanı necə hazırlayacağını soruşurdu. Mirzə Mehdi də qəlbindəkini üzə vurmadan, özünəxas alicənablıqla, təmkinlə onu başa salır, hətta, müəyyən şeyləri sözbəsöz diktə eləyib yazdırırdı. Heç vaxt ondan niyə Vəlinemətin qəzəbinə tuş gəldiyini soruşmadım, bunu heç özü də söyləmədi, amma məncə yanlışdan naxış alınmışdı: Mirzə Mehdi artıq Böyük Xanın buyurduğu tarixi yazmağa başlamışdı, hərdən xahişimlə bir-iki səhifəsini mənə oxuyurdu, mübaliğəsiz-filansız onun qələminin qüdrətinə heyran qalırdım. Mənə qalsa, əslində, Mirzə Mehdinin bəxti gətirmişdi, çünki buyrultular, raqamlar, fərmanlar ötəri şeylər idilər, sabaha onun yazdığı tarix qalacaqdı, tarixi yaradanların şəxsiyyəti, döyüşlər, xəyanətlər, qətllər, səfərlər... onun qələmilə tarixdə qalacaqdı; görünür bunu dərk eləyir, amma Mirzə Mömininin təşəxxüsü qəlbini yaralayırdı.

256. Erməni xəlifənin niyyətini Mirzə Mehdiyə yerli-yataqlı danışdım, üzümə uzun-uzadı baxıb susdu, hətta gözlərində qorxu əlaməti də duydum, yəqin «göz-qulağa» tuş gələcəyindən çəkinirdi. Şübhəsiz, o Böyük Xanın erməni xəlifəyə yaxşı münasibətini, xəlifənin də bundan ustalıqla yararlanıb hökm sahibindən nələr qopardığını gözəl bilirdi, həm də təkcə bilmirdi, indiyəcən öz əlilə onlarla raqam yazmışdı. Mirzə Mehdini burda günahlandırmaq fikrində deyildim, Böyük Xan buyurandan sonra nə həddi vardı ki, yazmasın, hökm sahibinin qarşısında boynu qıldan nazik idi, sözünü qaytarsaydı, bu vaxtacan salamat qalmazdı. Amma mənə görə bunun bir sonu olmalıydı. Erməni xəlifə neçə gün idi, başındakı bir neçə nəfərlə qamış köşklərin arasında ora-bura tüyünür, xorasanlılardan, məşhədlilərdən, heratlılardan... erməni əsirləri dəyər-dəyməzinə alır, köşklərə doldurur, sonra atlar, qatırlar, arabalarla Üçmüəzzinə doğru yola salırdı. Bəxtinə yaralı, ya da xəstə əsir düşənlər özləri gətirib erməni xəlifəyə verirdilər ki, günaha batmasınlar, üstəlik də müqabilində bir-iki tümən də olsa alsınlar. Dəvələrə, qatırlara, öküzlərə, eşşəklərə mindirilmiş əsirlərin təkcə Üçmüəzzinə yox, Dizəyə, Gəncəyə, Qazağa yola salındığını da danışırdılar, bunu eşidənlər məsələnin dərinliyinə varmadan riqqətə gəlir, erməni xəlifənin rəhmdilliyindən, insanpərvərliyindən söz açırdılar, mənsə, az qala, bildiklərimi bağıra-bağıra söyləmək istəyirdim ki, eşitsinlər, hətta Vəlinemətin qulağına belə gedib çatsın. Axır günlər əsirləri onun yanına aparanlar daha çox un, arpa, buğda kisələrilə qayıdırdılar – düşərgədə qıtlıq başladığından erməni xəlifənin bazarı daha da rəvac tapmışdı, bir ətək una bir əsir alırdı.

257. Qıtlıq şəvval ayının onuncu günündən Vəlinemətin heyətlərin yola çıxması barədə əmr verdiyi vaxtdan hiss olunmağa başlamış, həmin gündən Böyük Xanın əmrilə adambaşına verilən təyinlərin arası da kəsilmişdi. Deyirdilər, Kaxet və Kartlidə, Qazaxda, Gəncədə, Dizəkdə, Rəvanda, Təbrizdə, Ərdəbildə də qıtlıq başlayıb, camaat artıq toxumluq buğdanı-arpanı üyüdüb yeyir. Göz işlədikcə uzanıb gedən çöldə bir elat, bir oba yox idi ki, yeməyə nəsə tapasan. Alafı tükənmiş atlar, qatırlar, dəvələr çöldə qış otunu, sututarlardakı xırdaca cücərtiləri

qırpırdılar. Düşərgədən hər gün onlarla qəfilə çıxır, güneyə, ya da quzeyə üz tuturdu. Deyirdilər, erməni xəlifənin adamları Şamaxıdan heyvanlara alaf, üstəlik, un, çörək, buğda, arpa, şərab gətiriblər, əməlli-başlı bazar açılıb, bir çanaq buğdaya bir erməni əsiri alırlar. Deyəsən, Allah hələlik erməni xəlifənin tərəfindəydi, adamları ehtiyacla sınağa çəkib onun niyyətini gerçəkləşdirirdi. Bu arada Vəlinemətdən daha bir raqam da qopartmağa nail olmuşdu, bunu Mirzə Mehdidən eşitdim: Böyük Xan dağlılarla döyüşəndə Şamaxını dağıdıb camaatı Ağsuya köçürmüşdü, guya, orda su çatışmadığından müsəlmanlar xaçpərəstləri sıxışdırmağa başlayıblar, ermənilər də təzədən xaraba şəhərə köçməyə məcbur olublar, amma Böyük Xan onları şəhərdən çıxarmaq barədə əmr verib; indi gəliblər ki, Vəlinemət ermənilərə şəhərin yaxınlığında torpaq ayırsın, orda yurd eləyib, bağ salmalarına, kilsə tikmələrinə izin versin, həm də onlara qoyulmuş cizyəni azaltsın; erməni xəlifə də dərhal özünü salıb hökmdarın yanına, tərifləyib, yaltaqlanıb, göz yaşı axıdıb, o da Mirzə Möminə tapşırıb ki, buyrultu hazırlasın. Mirzə Mehdi dedi, Böyük Şah Abbasın İsfahan ətrafındakı Culfafan köçürdüyü ermənilər artıq vətənlərini unudublar, burda kök salmağa çalışırlar. Sonra onu da əlavə elədi ki, erməni xəlifə artıq qocalığını, xəstə olduğunu, yolun çətinliyini bəhanə gətirib, sabah, yəni şəvval ayının iyirmi birinci günü Üçmüəzzinə dönməyə izin istəyib, öz elçisi keşiş Ter-Txoumu da Mirzə Möminin yanında qoyub ki, hökmdarın buyrultularını alıb Üçmüəzzinə çatdırsın.

258. O gecəni, əlbəttə ki, fikir-xəyal içində keçirdim. Daha Əbdülhəsən xana da əlim çatmırdı, özü qulluq işlərindən vaxt tapıb gələ bilmirdi, mən də Vəlinemətin çadırı həndəvərində çox görünmək istəmirdim ki, Mirzə Mömin nəsə duyub ağlına başqa fikirlər gətirər. Hələ ki, gözləyib, münasib şəraitin yaranacağına ümid eləmək lazım gəlirdi. Səhəri də İbrahim xanın xidmətində olmadım, çünki xan tezdən divanxanaya getmişdi, Mirzə Hüseynin dediyinə görə, Osmanlı elçisi Gəncəli Paşanın yola salınmasına hazırlıq görülürdü. Doğrudan da, elə oldu. Günorta namazından sonra hamıya Araz körpüsünün qənşərində yığışıb Osmanlı elçiliyini yola salmaq buyruğu verildi. Mən körpüyə çatandan az sonra Gəncəli Paşa heyətilə Vəlinemətin çadırından çı-

xıb gəldi. Paşa hökmdarımızın bəxşişi olan qızıl saplarla tikilmiş bahalı geyimdəydi, yanında Vəlinemətin Xəlifə Sultan Muradın sarayına elçi göndərdiyi Əbdülbağı xan Zəngan, məmləkətin şeyxülislamı Mirzə Əbdülqasım Kəşani, yeni Baş Molla Əli Əkbər vardı, görünür, İstanbulda, Çaldıran faciəsindən cəmi üç il sonra İslam Xəlifəsi məqamını tutmuş sultanlardan sonuncusu olan Sultan Muradın hüzurunda Vəlinemətin irəli sürdüyü şərtləri müzakirə eləyəcəkdilər. Əbdülhəsən xanın sayəsində aradakı söhbətdən xəbər tutmuşduq, mən bilən Xəlifə cəfəriliyin qəbul olunması, Kəbədə beşinci sütun ucaldılması məsələsindən başqa Vəlinemətin bütün şərtlərini qəbul eləyə bilərdi. Amma bu Vəlinemətdən ötrü başlıca məsələ, bəlkə də göz dikdiyi torpaqları almaq məqsədilə müharibəyə başlamaq üçün bəhanəydi. Şübhəsiz, yeni xanədan öz qüdrətini Osmanlıya da, dağlılara da, ruslara da, moğollara da göstərmək istəyəcəkdi, yəqin hələ tac qoymamış Vəlinemətin fikrində səfərlər və döyüşlər var. Sabah hərb meydanında üz-üzə gələcəyi Sultanın elçisi Gəncəli Paşanı Mirzə Zəki yola salırdı. Körpünü keçəndən sonra dayanıb vidalaşdılar, Gəncəli Paşanın üç yüz nəfərlik dəstəsi quzeyə doğru yol aldı, Gəncədən, Qazaxdan, Loridən keçib Qarsa gedəcək, yəqin ordan İstanbula üz tutacaqdılar.

259. Körpüdən aralanıb dəftərxanaya qayıtmağa hazırlaşırdım ki, erməni xəlifənin qəfiləsinin yaxınlaşdığını gördüm. O da izin alıb Üçmüəzzinə qayıdırdı, artıq burdakı işlərini yoluna qoymuşdu, verəcəyini vermiş, alacağını almışdı, amma şübhəsiz, işi bununla da bitməmişdi, burda adam qoymuşdu ki, fürsətdən istifadə eləyib daha nələrsə qopartsın. Onu görmək istəməsəm də, ayaq saxladım, Böyük Xanımızdan bəxşiş aldığı qiymətli əbaya bürünüb atın belində oturmuş, cin qaynaşan gözlərini hey ətrafda dolaşdıran qocanın düşərgədən qalib ədasıyla çıxması şəstimə toxundu. Vəlinemətin xoş münasibətindən yararlanıb torpaqlar, mülklər qopartmışdı, əsirlər alıb məsləhət bildiyi yerlərə göndərmişdi, amma bununla əl çəkməyəcək, qalanını İbrahim xandan almağa çalışacaqdı. Erməni xəlifənin ardınca düzülmüş vardapetlər, keşişlər, rahiblər dindən çox Üçmüəzzində cızılan plana qulluq eləyirdilər, bunu da hələ ki, Mirzə Mehdidən, Axund Ələkbərdən, Əbdülhəsən xandan, kələntər Əliquludan

başqa kimsə unamır. Amma unamağın da bir faydası yoxdu, hamı Vəlinemətin erməni xəlifəyə yaxşı münasibətini bilir, ona görə də əmin olduğu həqiqəti belə dilinə gətirib Böyük Xanın qəzəbinə düçar olmaqdan qorxur. Kimin hünəri var ki, bunu hökmdarın qulluğuna ərz eləsin, başını olmasa da, məqamını itirib, gözdən düşsün. Necə deyərlər, *ən böyük maneə qorxudu; amma ən böyük səhv ruhdan düşmək, ən təhlükəli adam riyakarlıq eləyən, ən böyük hiyləgərlik həsəd aparandı; amma ən qüdrətli qüvvə də inamdı.* Hər halda, hər şey bugünlə bitmirdi, sabah da vardı, fürsət düşəndə olub-keçənləri İbrahim xana çatdıracaqdım...

# XVIII

# UYĞUSUZ GECƏLƏR

*Gecə kim, uyğuma girsən, istərəm ol uyğunu,*
*Kim, qiyamətdə daxi olmaya bidarı hənuz.*

***Nemətulla KİŞVƏRİ***
***(XV yüzil)***

260. Mirzə Hüseyn məndən bir qədər cavan, zərif sifəti, səliqəli saqqalı, dərin gözləri olan adam idi, baxan deyərdi, ancaq yazmaq, kitab üzü köçürmək üçün dünyaya gəlib. Səhər namazından sonra yeməyimizi yeyir, bir müddət öz işimizlə məşğul olur, sonra İbrahim xanın çadırına gedirdik. Eşikağasıbaşıya baş çəkib bu gün xanın hüzurunda kimlərin olacağı, hansı məsələlərə baxılacağıyla maraqlanırdıq. Sonra xan taxtında oturub vəzir-vəkil yerində əyləşəndən sonra içəri girir, təzim eləyib yerimizi tuturduq. Xan Şahımızın rəyindən sonra Ərdəbilə, Marağaya, Culfaya… hakim, qoşuna minbaşı, sarayına dəftərdarbaşı təyin eləyir, şikayətlərə baxır, diləyə gələnlərə qulaq asırdı. Həmişə ədalətli olmağa, haqqı nahaqqa verməməyə çalışdığını duyurdum, dolaşıq məsələləri vəzir-vəkilin öhdəsinə buraxır, amma sön hökmü özü verirdi. Hələ əməlli-başlı söhbət eləməyə fürsətimiz olmamışdı. Yəqin, hər şey olub-bitəndən, Təbriz taxtında oturandan sonra danışmağa fürsət tapacaqdıq. Amma ta İstanbuldan bəri Mirzə Kəmaləddindən öyrəndiklərimdən, Rəvandan bərisə öz eşitdiklərimdən ona bir qədər bələd olmuşdum. Bilirdim ki, Şahımız kiçik qardaşının xətrini çox istəyir, ta uşaqlıqdan onu himayəsində saxlayır. Xanımız qardaşı qədər çevik, mətanətli, cəsur olmasa da, onun əmrlərini dəqiq yerinə yetirməyə çalışır. İbrahim xan Əfşar əyanlarından Tohid xan Soltanın qızıyla qardaşının məsləhətilə evlənmişdi. Sonralar Böyük Xan məmləkəti qiyamlardan, dağılmaqdan, işğaldan qurtarmaq üçün hərəkətə keçəndə İbrahim xan on min nəfərlik qoşu-

nun sərdarıydı, Xabuşanda Nəcəf Soltan Qaraçurlunun başçılıq elədiyi qiyamı yatırmaqda iştirak eləmişdi, Məşhəd hakimi olanda, uğanların hücumu vaxtı qardaşının qəzəbinə tuş gəlib onun əmrilə Əbivərdə getmişdi. Deyilənə görə, Böyük xan Əbivərddə qardaşının cəzasını hamının gözü qabağında verib yamanlamış, ona iyirmi iki qamçı vurmuşdu, hətta əlini qılıncına da atmışdı, amma gecə yanına gəlib, can qardaşım, demişdi, sən böyük qəflətə yol verdin, Xorasanın yerli hakimlərinin hərəsi bir eldən, tayfadan, camaatdandı, biri oğlunu, biri qardaşını itirib, əgər onların arasında səndən tələb eləməsəm, sonra təqsiri olanlardan heç nə tələb eləyə bilmərəm.

261. Böyük Xanın xüsusi sevgi və diqqət göstərdiyi Xorasanın hakimliyini qardaşına tapşırması ona etimadının nişanəsiydi. Yeddi il qabaq Böyük Xan özü və oğlu Şah Sultan Hüseynin qızlarıyla evlənəndə, bir xanədan qızlarından birini də qardaşına almışdı. O qardaş sevgisi indi də özünü İbrahim xanın Zahiriddövlə titulu almasında, Azərbaycana vali, bütün Azərbaycan qoşunlarının sərdarı, taxt-tacın varisi təyin olunmasında göstərirdi. Günorta namazından sonra bunları fikrimdə dolandıra-dolandıra Mirzə Mehdiyə baş çəkdim ki, bəlkə cülus günü – Böyük Xanın taxta çıxması günüylə bağlı sözü-sovu oldu. Erməni keşişi onun yanında gördüm, qara paltarlı, qarabəniz, bir qədər kök adam idi, gözlərində məzlum, daha doğrusu, yaltaq ifadə vardı, küncdəki sandığın üstündə elə bil, qorxa-qorxa oturmuşdu. Əylisdən Muğan çölünəcən eyni qəfildə gəlmişdik, nə müddət də bir düşərgədə yaşamışdıq, amma onu çox az, həm də ötəri görmüşdüm, sifəti belə yadımda düz-əməlli qalmamışdı. Məni görəndə qalxıb təzim elədi, ona sarı başımı tərpətdim. Mirzə Mehdiyə, sonra beş-altı addım gedib Mirzə Möminə bağır basdım. Mirzə Mehdi dedi bu gün Vəlinemət Həsənəli xanı Fitilbörgə, Ağ Banunun hüzuruna göndərir ki, Allahın rizasıyla taxta çıxdığını ona xəbər versin; Kaxeti və Kartli hakimi Əlimirzə xanın heyəti də Tiflisə gedir, xan özü bir neçə adamıyla cülus gününə qalacaq; sabah Rzaqulu xan vali təyin olunduğu Xorasana yola düşür. Əlbəttə, özü bütün bunları yerli-yataqlı təsvir eləyəcəkdi, mənim başlıca işim İbrahim xan düşərgədən çıxıb Təbrizə yola salandan sonra olacaqdı. Mirzə Mehdiylə söhbət

eləyə-eləyə sövqi-təbiilə yaxınlıqda iyrənc, xoşagəlməz nəyinsə olduğunu duyur, özümü bunun erməni keşiş olmadığına inandırmağa çalışırdım. Çadırın o başında Mirzə Mömin erməni xəlifənin istədiyi, Vəlinemətin tapşırdığı buyrultuları cidd-cəhdlə yazır, möhür vururdu. O möhürlü kağızlar Şamaxıda, Qarabağda, Nəqşivanda, Rəvanda gəlmə adamlara torpaq paylayacaq kilsə tikdirəcək, öz həmtayfalarını köçürüb o yerlərə gətirməyə imkan verəcəkdi. Mirzə Mehdi halımı duyub dedi, gedək, Həsənəli xanı yola salaq.

262. Ağ Banunun hüzuruna gedən Həsənəli xanın Araz körpüsündən keçib quzeyə doğru yollanmasını uzaqdan seyr elədik. Yanında Ağ Banunun elçisi, həmişə Böyük Xanın yanında gördüyüm sarışın, qırmızıyanaq, taxmasaçlı zat var idi. O zatın heyətilə Həsənəli xanın başındakılar azı iki yüz nəfər olardı. Yəqin, Ağ Banuya Böyük Xanımızın naməsilə yanaşı, qiymətli bəxşişlər də aparırdılar. Doğrudanmı, Vəlinemət Ağ Banuyla evlənmək, bu yolla dünyanın yarısına sahib olmaq istəyir? Bunu beynimdən keçirdim, az qaldım Mirzə Mehdidən də soruşam, amma bilirdim ki, ağıllı, ehtiyatlı, nəzakətli Mirzə Mehdi bu cür məsələlər barədə fikrini dilinə gətirməz, ona görə də tamam başqa məsələdən söhbət açdım, dedim, bəyaz məmləkəti görmək çox gözəl olardı, indi başdan-başa qarın altındadı. Sonra, az qala, əlli il əvvəli – günbatan məmləkətlərin hələ qarı tamam əriməmiş yollarıyla Firəngistana getməyimizi xatırladım. Mirzə Mehdi nəzərlərini atın belində şəstlə oturmuş Həsənəli xandan çəkmədən, hə, dedi, görmədiyi yerləri görmək insanın əbədi arzusu olaraq qalacaq. Sonra qəfildən açıldı, astadan, amma həyəcanla dedi, mən həmişə Hindistanı görmək xəyalıyla yaşamışam, deyəsən, arzuma çatacağam, Vəlinemət son vaxtlar Hindistan səfərindən tez-tez söz salır. Ardınca söhbət uzanmasın, özünü saxlaya bilməyib başqa mətləblərdən də danışmasın deyə, çadırına doğru üz tutdu, mən də Tiflis həsrətimi ovutmaq məqsədilə elə ordaca Əlimirzə xanın yola çıxan dəstəsini gözləməyə başladım. Vəlinemət hökmünü verənəcən Tiflis lap yaxındaydı, hətta qorxusunu da duyurdum: Araz körpüsündən quzeyə üz tutmaq, Gəncədən, Qazaxdan ötüb, Borçalıdan keçib əlli ildən bəri həsrətini çəkdiyim şəhərə varid olacaqdım.

Amma Vəlinemətin hökmüylə o qoxunu yadırğamışdım, indi xəyallarımın şəhərinə yollanan adamlara baxıb əlli ildən bəri düşüncələrimdə də, xəyallarımda da, yuxularımda da yol yoldaşım olmuş həmin məhrəm duyğunu qaytarmaq istəyirdim. Tiflis qəfiləsinin körpüyə doğru gəldiyini görəndə həyəcanlandım, qışın ortasında bədənim qan-tərə batdı, hətta bir balaca gözlərim də qaraldı.

263. Əlimirzə xan qəfilədə yox idi, yəqin ki, Vəlinemətin yanındaydı, qabaqda xanlar, ağalar, bəylər, knyazlar, tavatlar gəlirdilər, sonra ağ atın belində mollabaşı göründü. Dəftərdarbaşı Mirzə Şahəli atını onunla yanaşı sürürdü. Qəfiləni saxlayıb söhbət eləmək, doğmalarımı soruşmaq istəyirdim, amma kimi soruşsaydım, on dörd yaşlı kimsəsiz uşağı kim xatırlayacaqdı, onun taleyi kimi maraqlandıracaqdı? Yaddaşımda dipdiri qalan təkcə Züleyxaydı, o da əsir aparmayıb, yaxud köçürülməyibsə, indi qırışmış sifəti kədərli gözləri, ağ birçəkləri olan, elə mənim kimi ahıl qadındı. Qəhər üzüyuxarı qalxıb boğazımı tutdu, gördüm ağlamağa bəndəm, tez çadırımıza tərəf aralandım ki, görübeləyən olmasın. Axşam Əbdülhəsən xan gələnəcən də yatağıma üzüqoylu uzanıb ağladım, sonra da sakitləşib huşa getdim. Əbdülhəsən xan heç gözləmədiyim halda çadırın qapısından girib Mirzə Hüseynlə qucaqlaşdı, sonra mənə bağır basıb əl tutdu. Sən demə, Mirzə Hüseyn də sarıcalı tayfasından, onun yaxın qohumlarındanmış, Birinci Şah Təhmasibin zamanında köçüb Təbrizdə yurd salıblarmış. Məqamı ucalan vaxtdan cavan xanın hərəkətlərində bir qədər əda gözə dəysə də həmişəki kimi hörmətcil idi. Dedi, möhür tökülüb, pullar kəsilib, hər şey hazırdı, Allahın izinilə birisi gün böyük hadisə baş verəcək. Sonra danışdı ki, erməni xəlifənin əsirləri alıb Üçmüəzzinə göndərdiyini kefinin kök vaxtında Böyük Xanımıza söylədim, gülüb dedi, Əbdülhəsən xan, qoy göndərsin, Üçmüəzzin də bizimdi, Rəvan vilayəti də bizimdi, Nəqşivan da bizimdi, bir ovuc ermənidən bizə nə qorxu? Fikirləşdim, indiki halda Böyük Xan haqlıdı, bu vaxtacan Osmanlılar da, Səfəvilər də ermənilərə ciddi qüvvə kimi baxmayıb, onlar da kim gəlsə, onun tərəfində olub, min cür əməllə bu tərəflərdə möhkəmlənməyə, kilsələr tikməyə, üstəlik, albanlardan qalma məbədləri ələ keçirib «əl gəzdirməyə», kitab-

ları yandırmağa, bir çoxunu öz dillərinə çevirib sahib çıxmağa, Osmanlıdan tutmuş Xorasanacan, hətta Hindistanacan səpələnmiş həmtayfalarını Üçmüəzzin ətrafına yığmağa can atıblar. Amma bugünə yox, uzun illər hesablanmış bu niyyət xanədan taxtına qoyulmuş barıt kimi bir şeydi, nə vaxtsa partlayıb ağlagəlməz fəsad törədəcək.

264. Sümüyüm sancdı ki, bu məsələlərlə bağlı İbrahim xan da təxminən eyni cür düşünə bilər, ona görə də bir qədər kədərləndim. Əbdülhəsən xan dedi, Böyük Xan Novruz bayramını burda keçirmək, sonra Qəzvinə yollanmaq fikrindədi, onacan yol-riz də açılar. Əbdülhəsən xan gedəndən sonra da kefim açılmadı, o gecəni pis yatdım, qorxulu yuxular məni iki dəfə ayılıb yatağımda oturmağa, canımdakı vəsvəsədən qurtulmaq üçün dua oxumağa vadar elədi. Yuxumda yanan evimizi, başı qılınc zərbəsilə parçalanıb qan gölməçəsində çapalayan atamı, basqınçılardan xilas olmaq istəyən, özünü eyvandan atan bacımı, üzüaşağı qaçan qardaşımı, fəryad qoparan anamı gördüm. Atamın qanlı dodaqları nəsə pıçıldayırdı, dediyini ayırd eləyə bilməsəm də alovun işığında əzablı sifətindəki can-çəkişməni duyur, kəsik qulaqlı çaqqalın gözlərindəki məşum parıltını görürdüm. Mən, yeddi yaşlı uşaq daş pillələnin işıq tutmayan səmtində divara qısılmışdım, sonra səs-küy qəfildən kəsildi, gizləndiyim yerdən çıxıb evimizin alt tərəfindəki dərəyə cumdum. Yuxum burda qırılır, axırı boz-bulanlıq xatirələrin axınında yox olurdu. Bu yuxunu insaf yiyəsi olan Görgü ağanın evində də, uzaq Firəngistanda, Veneziada, İstanbulda, İsfahanda, Anadolu çöllərində dönə-dönə görmüşdüm, hər dəfə atamın üzünü, bacımın eyvandan aşağı uçuşunu, qardaşımın qorxudan bərəlmiş gözlərini, anamın fəryadını yaddaşımda necə saxlaya bildiyimə heyrətlənmişdim. Qalan hər şey köhnəlir, bozarır, üstünü zamanın tozu basırdı, o dörd məqamsa içimdə qızıl külçəsi kimi qalırdı. Yəqin bundan sonra da, lap Haqqın dərgahına qovuşanacan həmin məqamlar yaxamdan əl çəkməyəcək, məni qarabaqara izləyəcəkdi.

265. Cülus ərəfəsi olduğundan İbrahim xan divanxanaya erkəndən getmişdi, bu səbəbdən nasaqçılardan biri gəlib bizi Rzaqulu xanın uğurlanmasına çağıranacan öz işimizlə məşğul olduq. Mirzə Hüseyn İbrahim xanın tapşırdığı buyrultuları hazırla-

yır, mən də Böyük Xanımızın taxta çıxacağı ərəfədə baş verənləri hələ ki, qısa qeydlər şəklində kağıza köçürürdüm. Çadırdan çıxıb körpünün yanında yığışmış düşərgə əhlinin dəstəsinə qatılanda Mirzə Hüseyn dedi, Böyük Xanımız məmləkətin ən mühüm vilayətini Rzaqulu xana həvalə eləməkdə düzgün iş gördü, cavandı, yaşına görə çox qabiliyyətlidi, üstəlik, fərasətlidi, Allahın köməyilə tezliklə gündoğar hüdudlarımızda əmin-amanlıq yaradacaq. On yeddi yaşlı Rzaqulu xan bahalı paltarda, at belində görünəndə yığışanlardan qulaqbatırıcı şadyanalıq səsləri ucaldı, o da bağır basanlara vüqarlı görkəmlə baxa-baxa ötdü, arxasınca da xanlar, hakimlər, əyan-əşrəf keçdi. Araz körpüsündən adlayandan sonra xanı yola salan dəstənin başçısı Mirzə Zəki işarə elədi, qəfilə dayandı, dua oxunub salavat çevirəndən sonra öpüşüb-görüşdülər, camaatın şadyanalıq sədaları altında da güneyə doğru yol başladılar. Mirzə Hüseynlə bir qədər dayanıb, azı, üç yüz nəfərlik qəfilənin get-gedə uzaqlaşıb gözdən itməsinə baxdıq. Mirzə Zəki başının dəstəsilə qayıdıb Böyük Xanın çadırına yollanandan sonra Mirzə Hüseyn dedi, Təbrizdən ötrü burnunun ucu göynəyir, yəqin bir ay çəkməz ki, yurdunu-yuvasını görər. Beynimdən keçirdim ki, gedişatdan belə məlum olur, mənim yurd-yuvamı görməyim Allaha qalıb. İrəlidə Təbriz vardı, ondan sonra tale yolumu hardan salacaqdı, bu da ancaq hər şeyi görən və bilən Allaha məlum idi. Heç olmasa, ömrümün son gününü Tiflisdə keçirmək, üzümü xaraba qalmış evimizin torpağına söykəyib bu dünyadan rahat köçmək istərdim.

266. Cülus ərəfəsində həyəcan keçirirdimmi – bu sualı özümə tez-tez verirdim, hər dəfə də boynuma alırdım ki, artıq çoxdan hökmdar taxtında oturan Vəlinemətin «məmləkət əhlinin istəyilə, başbilənlərin razılığıyla» şah seçilməsi, əslində, məndən ötrü nəhəng və ustalıqla qurulmuş maraqlı tamaşadan başqa bir şey deyil. O, Sultan Hüseyn tacını öz əlilə basqınçının – Mahmudun başına qoyduğu, xanədanın şərəfini ayaqlar altına atdığı gündən taxta doğru gəlirdi, niyyətini gerçəkləşdirməyə kimsə mane ola bilməzdi. Öz əlilə taxta çıxartdığı Təhmasib hamisinin gücündən qorxub buynuz göstərəndə, saymazlıq eləyəndə, on minlərlə əsgərinin qanı bahasına aldığı torpaqları düşmənlərin tapdağına verəndə bu fikrə düşmüşdü, amma

iki yüz otuz beş illik bir xanədanı yolundan təmizləmək səbir, təmkin, hövsələ istəyirdi, buna da dəmir iradəsi sayəsində nail olmuşdu. Abdalislər, gilzayilər, osmanlılar, dağlılarla döyüşlərdə ağlı, fərasəti hesabına qələbə qazanıb, böyük Şah İsmayılın qurduğu, birinci Şah Abbasın möhkəmləndirdiyi məmləkətin hüdudlarında əmin-amanlıq yaratmışdı, taxta çıxmağa haqqı vardı. *Bu dünyada üç şey – zaman, deyilən söz, ələ düşən fürsət heç vaxt geri qayıtmır; üç şeyi – təmkini, etibarı və şərəfi heç vaxt itirmək olmaz; üç şeydən – sevgidən, inamdan, dostluqdan dəyərli heç nə yoxdu; üç şey – var-dövlət, uğur, hakimiyyət heç vaxt əbədi deyil; insanı üç şey – zəhmət, namuslu əməl və əldə elədiyi nailiyyət müəyyənləşdirir; elə insanı da üç şey – içki, təkəbbür, qəzəb məhv eləyir*. Görəsən, sabah taxta çıxacaq kəs bunları dərk eləyirdimi? Dərk eləyirdisə, unutmayacaqdısa, qurduğu xanədanın ömrü uzun, taleyi uğurlu olacaqdı; bu həqiqətə arxa çevirəcəkdisə... Ağlıma gələni özümə eləməkdən belə qorxub titrədim...

# XIX

# TAXT-TACA DÜŞƏN NUR

*Şahi-mərdanın yolunda çox kişi vardır, vəli,*
*Afərin ol başə kim, min başə bir baş oynadır.*

*Şah İsmayıl XƏTAİ*
*(XV-XVI yüzillər)*

267. Hicri min yüz qırx səkkizinci il şəvval ayının iyirmi dördündə – miladi min yeddi yüz otuz altıncı il martın səkkizində sübh namazından sonra Mirzə Hüseyn dedi, İbrahim xan obaşdan Vəlinemətin çadırındadı, cülus günorta namazından sonra olacaq, artıq hər şey məlumdu, bizim yerimiz Mirzə Mehdiylə Mirzə Möminin yanında, daha doğrusu, onların arxasında olacaq, eşikağasıbaşı Fəzləli bəy xəbər göndərib. Əlbəttə, o vaxtacan səbir eləmək, bu həyəcanlı məqamı layiqincə kağıza köçürmək üçün düşünüb-daşınmaq, Allahdan ilham diləmək lazım gəlirdi. Belə halda Mirzə Mehdinin yanına getmək düzgün olmazdı, yəqin ki, indi Vəlinemətin çadırındadı, hər şey olub-bitənəcən ona yaxın düşmək çətin məsələdi. Ağlıma çıxıb düşərgəni gəzmək, cülus ərəfəsində baş verənləri gözlərimlə görmək gəldi. Araz körpüsündən o tərəfdəki düzənlikdə çoxu boşalmış, xaraba yurd yeri kimi qaralan qamış köşklər səpələnmişdi. Körpünün yanında günün həyəcanını üstələyə bilməyən bir dəstə adam yığışmışdı, amma zəhmli keşikçilərin qorxusundan yerlərindən tərpənə bilmirdilər. Ora-bura qaçan nasaqçılar, cəzayirçilər, keşikçilər, əliağaclılar, arabir rast gəldiyim hörmətli zatlar, dəftərdarlar, mirzələr, mirsofilər bayramsayağı geyinmişdilər. Vəlinemətin çadırından o tərəfdə iki çay arasındakı ordugahda da çaxnaşma vardı, bölüklər düzülür, dağılır, yerdə sürünür, atlara minir, uzaqlara çapırdılar. Səhərin ayazı get-gedə isinir, solğun qış günəşi üfüqdən boy verirdi. Beynimdən keçdi ki, bəlkə də Mirzə Kəmaləddin artıq Ərdəbildədi, külfətinin içində

olmaq xoşbəxtliyini yaşaya-yaşaya canından yolların yorğunluğunu çıxarır. Qatırçı Səfər də indi Qəzvində olar, yəqin əgər yolda ləngiməyiblərsə, o da külfətinə qovuşub. Mənimsə qovuşmalı bir yurd yerim vardı, ordan da cuda düşdüm. Əlbəttə, yenə taleyimdən giley-filan eləmirdim, tənhalıdan, unudulmaqdan bir müddət xilas olmuşdum, indi aləmin nəzərinin dikildiyi, bəlkə də zəmanənin ən böyük hadisəsinin baş verdiyi yerdəydim, bir azdan tarixin dönüşünün necə gerçəkləşdiyini öz gözlərimlə görəcəkdim.

268. Hər nə elədimsə, cülus törəninəcən səbrimi basmağım asan olmadı. Mirzə Hüseyni çox məşğul eləmək istəmirdim, vilayət hakimlərinə, minbaşılara, kəndxudalara buyrultular hazırlayırdı ki, əlahəzrət İbrahim xan Təbrizə çatandan sonra gəlib onu vəziyyətdən hali eləsinlər. Əlbəttə, belə bir məqamda Əbdülhəsən xanı görmək də müşkül idi, xan məqamına çatandan sonra başına şahlıq quşu qonmuş, Vəlinemətin etibar elədiyi şəxslər cərgəsinə qatılmışdı. Amma işləri də əməlli-başlı artmışdı – artıq düşərgədəki əmin-amanlığa cavabdeh idi. Ona görə də çadırımıza qayıtdım, günorta namazınacan gördüklərimi üç-dörd səhifədə təsvir eləyib bir qədər dinclik tapdım. Sonra Mirzə Hüseynlə bayramsayağı bəzəndik: ikimiz də Vəlinemətin bəxşişi olan qızıl sapla tikilmiş kaftanlarımızı geyinib üstündən çərkəz qurşağını sarıdıq, başımıza ağ ipək parça sarınmış təhməzilər qoyduq. Bu cür geyimdə özümü naqolay hiss eləsəm də, başqa əlacım yox idi, bayram havasına uymalı, mərasim başa çatanacan dözməliydim. Çadırdan çıxıb addımbaşı rast gəldiyimiz «göz-qulaq»ların diqqətli, daha doğrusu, sərt baxışları altında iqamətgaha doğru yollandıq. Öz-özümə deyirdim, bu gün şəvval ayının iyirmi dördüncü günüdü, sən, yollar yorğunu Mirzə Yusif Tiflisi taleyin gərdişilə gəlib Muğan çölünə çıxmısan, Allah sənə fövqəltarixi bir hadisəni görüb kağıza köçürmək xoşbəxtliyi nəsib eləyib, bunu da bəxtinin gətirməyi saymalısan, çünki bir xanədanın – həm də Səfəvilər kimi nəhəng xanədanın varlığına son qoyulmasının, yeni xanədanın qurulmasının şahidisən; deyirdim, indi sənin borcun təmkinli olmalı, hissə qapılmadan gördüklərini təsvir eləməli, baş verənlərə özünün yox, zəmanənin gözlərilə baxmalısan. Əlbəttə, Mirzə Mehdi neçə illər idi, Vəlinemətin ya-

nındaydı, aralarında həmişə dostyana münasibətlər olmuşdu, ola bilsin, şahid olduqlarında kağıza köçürülməsini lazım bilmədiyi məqamlar vardı; mən Səfəvilərə də, Əfşarlara da bağlı deyildim, gördüklərimi, eşitdiklərimi, bildiklərimi Zaman və Ədalət süzgəcindən keçirib qələmə almalıydım, çünki xanədanlar gəlib-gedir, yazılanlarsa qalır.

269. Eşikağasıbaşı Fəzləli bəy gələnləri bir-bir çadıra aparıb yerbəyer eləyəndən sonra yuxarı başda qoyulmuş taxtın yanındakı Mirzə Zəkiyə bağır basdı. Mirzə Zəki başıyla qəzvinli mollabaşı Mirzə Əsgərə işarə elədi ki, dua oxusun. Duadan sonra Mirzə Zəki iki-üç addım irəli çıxıb dedi, bir neçə aylıq məsləhətləşmələrdən, məmləkət əhalinin, hörmətli zatların davamlı təkidlərindən sonra Böyük Xanımız hökmdarlıq taxtında oturmağı qəbul elədi, Allahın köməyi, sizin dualarınızla məmləkətdə əmin-amanlıq, rifah yaratmaq, düşmənlərinə qələbə çalmaq, rəiyyətinə qarşı ədalətli olmaq niyyətilə taxt-tacı ona təslim eləmək vaxtı artıq gəlib yetişdi. Sonra Mirzə Zəki əlini yuxarı qaldırıb ucadan dedi, Allahın kölgəsi hökmdarımız Nadir Şah buyurur. Bu məqamacan Vəlinemət, Vəkil-üd-dövlə, Naib-üs-səltənə olan Nadir xan çadırın arxa bölümündən çıxdı, bir anda hamı diz çöküb təzim elədi. Nadir vüqarlı addımlarla keçib taxtın önündə dayandı. İri cüssəli, tunc rəngli sifəti, parlaq, qorxunc işıq saçan gözləri bir anlığa diz çökmüş adamların başı üzərində tək qaldı. Sonra Mirzə Zəki ona yaxınlaşdı, pəncələri üstündə dikəlib təhməzi papağını ehtiyatla başından götürdü. Həmin məqamda onun dən düşmüş saçının qara saqqalıyla uyuşmadığını fərq elədim. Mirzə Zəki taxtın böyründəki üçayağın üzərindəki örtüyü çəkdi, hökmdarlıq tacını iki əlilə götürüb Nadirin başına qoydu. Başlıq formasındakı tac qızıldan idi, üstündə qiymətli daş-qaş parıldayırdı. Amma tacın üstündəki şahlıq cıqqası adət üzrə sol tərəfdə yox, sağ tərəfdəydi, bununla Böyük Xan, görünür, o tacı bu vaxtacan gəzdirənlərlə öz arasındakı fərqi nəzərə çarpdırmaq istəmişdi, məncə, buna da haqqı vardı. Mirzə Zəki də diz çökdü, mollabaşı Mirzə Əsgər xütbə oxuyub fatihə verəndən sonra hamı ayağa durub, «Yaşasın Şah!», «Yaşasın Nadir Şah!», «Yaşasın Allahın kölgəsi!» qışqırdı. Bu andan o, nə Böyük Xan, nə Vəkil-üd-dövlə, nə Naib-üs-səltənə,

nə Vəlinemətdi – yalnız qüdrətli və düşmənlərinin canına qorxu salan Nadir Şah idi.

270. Hökmdara çox yaxın olanlar – qardaşı İbrahim xan, qardaşı oğlu Əliqulu xan, oğlu Murtuzaqulu xan, Vəkil xan Təhmasib, Təhmasib xan Cəlayir, Murtuzəli xan və bir çoxları – hökmdara bağır basıb təzim elədilər. Nadir Şah taxtda əyləşəndən sonra tacı başından götürüb Mirzə Zəkiyə vermək, yenə təhməzisini qoymaq istədi – deyəsən, taca alışmamışdı, ya da hamıya tacsız da hökmdar olduğunu çatdırmaq istəyirdi, Mirzə Zəkinin işarəsilə eşikağasıbaşı hamını məqamlarına uyğun yerlərdə oturtdu. Əvvəlcə əlimizə gülab suyu damızdırdılar, ardınca buxurdanlardan ətirli tüstü yaydılar, nəhayət, badələrdə şərbət payladılar. Qızıldan-gümüşdən olan qab-qacağın parıltısı göz qamaşdırırdı. Ayaq üstdə olanda Mirzə Mehdinin arxasında dayanmışdım, oturanda Mirzə Hüseynlə yanaşı düşdüm. Ətirli tüstüdən, az qala, başım gicələnirdi. Cülusa qalmış xanlar, hakimlər, digər hörmətli zatlar şərbət içəndən sonra bir-bir hökmdarın qabağında diz çökdülər, bununla da hökmdara itaətlərini bildirib çadırdan çıxdılar. Sonra musiqiçilər, rəqqaslar və rəqqasələr gəldi, çalıb-oynamağa başladılar. Mən Şahımızı bir qədər yan tərəfdən görürdüm, sinnimə görə gözlərim hələ işıqdan düşmədiyindən taxtın qoltuğuna dirsəklənmiş hökmdarın fikirli olduğu nəzərimdən qaçmadı. Şübhəsiz, bu məqamda taxta çıxmaqla hər şeyin bitdiyini yox, bundan sonra düşmənlərinin, səfərlərinin, döyüşlərinin daha da çox olacağını düşünürdü. Şah tacını başından götürüb təhməzisini qoyanda hamı məclisin bitdiyini başa düşdü, Mirzə Zəkinin işarəsilə bir-bir hökmdarın qarşısında diz çöküb, təzim eləyib çadırdan çıxdıq.

271. O gün olub-keçənlər bununla bitmədi. Çadırıma qayıdıb düşərgədə başlayan şənliyin – zurnanın, kərənayın, nağaranın sədaları altında hava qaralanacan gördüklərimi kağıza köçürməklə məşğul oldum. Şübhəsiz, bu barədə Mirzə Mehdi də, məmləkətin tarixini qələmə alan başqa kəslər də yazacaqdılar, amma, şübhəsiz, hərə öz gördüyünü, vacib bildiyini yazır. Mənim yaddaşıma, məsələn, Əliqulu xanın təkəbbürlü görkəmi, Əlimirzə xanın tutqun baxışları, erməni keşişin oyur-oyur oynayan gözləri, Mirzə Mehdinin narahat oturuşu, Təhmasib xan Cəlayirin eh-

tiyatlı hərəkətləri yazılmışdı. Gülab suyunu qaşıma-saqqalıma çəkəndə, ətirli tüstünün başgicəlləndirici qoxusundan əzalarım sustalanda, şərbəti qurtum-qurtum içəndə soyuq parıltı saçan qızıl-gümüş qabların heyrətamiz naxışlarına diqqət verəndə Xəlifə Sultan Mahmud xanın sarayındakı əzəməti, dəbdəbəni, kübarlığı xatırlayırdım, beynimdən keçirirdim ki, bu cür cah-calal içində yaşamağa alışmayan Şahımız yəqin əmin-amanlıqdan daha çox əziyyət çəkəcək. Həmişə at belində olmağa, çadırlarda yatmağa, uğursuzluqdan qəzəblənib, qələbədən həzz almağa alışan kəsin zəngin saraylarda eyş-işrətlə ömür sürməsi ağlabatan deyildi. Düzdü, bu çöldə də həmərxana qurdurmuşdu, yaxın adamlarıyla şərab içib, söhbətləşib-məzələnəndən sonra qadın qoynunda xumarlanmağı da xoşlayırdı, amma bu həmin Nadirdisə, Təbrizə, Qəzvinə, İsfahana, yaxud Məşhədə qayıdıb saraylarda eyş-işrətlə məşğul olmayacaq, Şah Sultan Hüseyn kimi məmləkətin taleyini vəzirlərin, xacələrin öhdəsinə buraxmayacaqdı, Muğan çölündən birbaşa düşmənlərinin üstünə gedəcək, vilayətlərdə özü qayda-qanun yaradacaqdı. Mirzə Mehdi düz demişdi, onun sarayı hərb düşərgələri, taxtı atının beli, tacı döyüş dəbilqəsiydi, yəqin son gününəcən də belə olacaqdı. Əlbəttə ki, bununla da quzeydə Ağ Banunun, günbatanda Osmanlı Sultanının, günçıxanda Moğol Şahının və çoxlu xanları və hakimlərin yuxusunu haram eləmişdi, hamısı nəfəsini udub onun hansı addımı atacağını gözləyirdi.

272. Axşam namazından sonra duruş gətirə bilmədim, Mirzə Mehdiyə baş çəkib günün təəssüratını bölüşmək fikrinə düşdüm. Çadıra girəndə yenə erməni keşişi Ter-Txoumu Mirzə Möminin yanında gördüm, sandığının üstündə oturub artıq Şahımızın fərmanını gözləyirdi. Mirzə Mehdinin halından gördüm ki, dolmuş buluda oxşayır, çadırda duruş gətirmək fikri də yoxdu. Durub eşiyə çıxdıq, bir müddət səssiz-səmirsiz dayanıb buludsuz qış gecəsində soyuq-soyuq parıldayan ulduzlara tamaşa elədik, Kür tərəfdəki boşluğa doğru xeyli aralanandan sonra Mirzə Mehdinin dərdi açıldı, dedi, bu vaxtacan elə bir buyruq-filan olmamışdı, amma cülusdan sonra Şah fərmanla Mirzə Mömini münşi-əl-məmalik təyin elədi, mənə də hökmdarlığının tarixini yazmağı buyurdu. Dedi, əlbəttə, bu iş daha çox könlümə yatır, sabaha qalan bir şey ortaya çıxara bilsəm, özümü xoşbəxt eləyərəm, amma

hökmdarın bunu özümə deməyib fərmanla buyurması mənə ağır gəldi. Dedi, harda səhv buraxdığımı bilmirəm, neçə illərdi ona sədaqətlə xidmət eləməyə çalışmışam, aramızda xoşagəlməz bir şey baş verməyib. Dedi, bu yandan da Ağa Zamanın möhrdar olması mənə qəribə gəldi, doğrudanmı adını, dinini dəyişmiş gürcülər Şahımıza belə əziz olub. Dedi, sahibi-əyar Qəzvindən iki kisə hökmdarımızın adına kəsilmiş qızıl sikkə gətirdi, Şahımız münşi-əl-məmalikə də, möhrdara da, sahibi-əyara da çox qiymətli bəxşişlər verdi, sikkələri də əyan-əşrəfə payladı, mən yadına düşmədim. Mirzə Mehdiyə nə deyəcəyimi, necə ürəkdirək verəcəyimi bilmirdim, özünə də gün kimi aydın idi ki, hökmdara xidmət eləməyin həmişə bu tərəfi də olur. Qəzəbini soyutmaq xətrinə dedim ki, günahsız adamları asdıran, onun-bunun fitvasıyla ən əziz adamlarının boynunu vurduran, yarınanları, quyruqbulayanları layiq olmadıqları mərtəbələrə qaldıran hökm yiyələrini az görməmişdik, elə Mirzə Mehdinin özü xanların xidmətində olduğu müddətdə nə qədər bu cür hadisələrin şahidi olmuşdu. Amma bir həqiqət də vardı, Şahımız tarixdə Mirzə Mehdinin, bir də onun kim tarix yazanların sayəsində qalacaqdı – gərək bunu heç vaxt unutmayaydı.

273. Əlbəttə, Mirzə Mehdinin Şahımızdan bir köynək aralı düşməsi məndən ötrü də xoş deyildi. Hey fikirləşirdim o vaxt İbrahim xanın yanında xidmət eləmək təklif olunanda niyə boyun qaçırmadım? Vəlinemətin mərhəmətinə sığınıb, qocalığımı, uzun-uzun yollar keçdiyimi, ömrümü Tiflisdə başa vurmaq istədiyimi bəhanə gətirib bu məqamdan geri çəkilə bilərdim, o da yəqin dediklərimə inanıb israr eləməzdi, amma bacarmadım, etirazımı bildirmək bir yana, heç düşünüb-daşınmağa vaxt da istəmədim; ola bilsin, o gözlənilməz təklifi ayıq başla götür-qoy eləsəydim, heç bu cür də olmazdı. Görünür, ömrümü yollarda keçirmək alnıma yazılıb, Vəlinemətin Muğan çölündə yığnaq keçirmək istəməsi xəbəri məni Rəvanda haqlamasaydı, Gümrüdə, Loridə, Başkeçiddə, lap elə Sarvanda başıma başqa bir macəra gələcəkdi. Yəqin, buna görə həmişə içimdə mənzilə yetə bilməmək qorxusu vardı. O vaxt İsfahan cəhənnəmindən canımı qurtaranda niyə Tiflisə yox, təzədən İstanbula üz tutdum? Təkcə ömrümün necə ilini talayan o bənzərsiz şəhərə görəmi? Əlbəttə, yox! Öz-

özümə etiraf eləmək istəməsəm də, Tiflisə gedib çatmaqdan, illərin o tərəfindəki xatirələrlə üz-üzə qalıb əzab çəkməkdən, tək-tənha ölməkdən qorxurdum. Amma bir həqiqəti də dərk eləyirdim*: insan nə onu sevənlərin, nə də düşmənlərinin qarşısında özünə bəraət qazandırmamalıdı; düşmənlər onsuz da dediklərinizə inanmayacaqlar, dostlarsa özləri sizdən ötrü bəraət uyduracaqlar.* İndi də özümə bəraət qazandırmırdım, həyatımı istədiyim kimi yox, bacardığım kimi yaşamışdım, tənhaydım, Mirzə Mehdidən, hələ çox isinişməsəm də Mirzə Hüseyndən başqa ürək qızdırmalı bir kəsim yox idi, yeganə könül sirdaşım Mirzə Kəmaləddinsə yəqin ki, artıq Təbrizdəydi, ya qismət görüşək ya görüşməyək…

# XX

# NOVRUZDA YOVŞAN ƏTRİ

*Mübarək olsun, ey sultani-aləm, fəsli-novruzun,*
*Müsaid gecədən keçən müvafiq ruzun uzun.*

***Əfsəhəddin HİDAYƏTULLAH***
***(XV yüzil)***

274. Çal-çağır, ziyafət iki gün də davam elədi. O iki günü Mirzə Hüseynlə əməlli-başlı dincəldik, çünki İbrahim xan səhərdən-axşamacan Şahımızın divanxanasında olur, məsləhət-məşvərətlərdə iştirak eləyir, sonrasa ziyafətlərə qatılırdı. Səhər namazından sonra düşərgəni zurna, kərənay, nağara səsləri doldurur, keşikxanadan bir qədər aralıda, iki körpü arasındakı açıqlıqda canbazların, gözbağlayıcıların, pəhləvanların tamaşaları başlayırdı. Tamaşalar günorta namazından az sonra təzədən qızışır, gecəyarısınacan davam eləyirdi. Səhər namazından sonra ya Mirzə Hüseynlə, ya da təkcə gedib cürbəcür oyunlar çıxaran oyunbazlara baxır, sonra çadırımıza qayıdıb yazı-pozumla məşğul olurdum. Günorta namazından sonra ortalıq daha da qızışır, küştü tutanlar bir-birinə aman vermirdilər. Bu çal-çağırdan yorulanda Araz körpüsündən keçib indi boş qalan qamış köşklərin, komaların arasında dolaşır, Rəvan heyəti, daha çox da Axund Ələkbər barədə, erməni xəlifənin indi hansı fitnələri quraşdırmaqla məşğul olması haqqında fikirləşir, qismətimə düşən bu vaqiənin əsl miqyasını və mahiyyətini dərs eləməyə çalışırdım. Bax, o böyük çadırdakı altı min say-seçmə keşikçinin, üstəlik, minlərlə çantaul, nasaqçı, əliağaclının qoruduğu adam artıq taxt-tacın sahibiydi; onsuz da Səfəvi xanədanına sağalmaz yaralar vurmuş Sultan Hüseyn göz yaşı tökə-tökə tacını bir səhra quldurunun ayaqlar altına atandan, onun oğlu qabiliyyətsiz Təhmasib Mirzə taxta çıxandan hökm yiyəsiydi, Təhmasibi taxtdan salandan sonrasa tacsız hökmdardı, indi

hökm-fərmadı, Allahın məmləkətdəki kölgəsidi. Mirzə Hüseyn Şahımızın adına kəsilmiş qızıl sikkəni göstərmişdi: üzərində şair Qəvamuddinin tərtib elədiyi ərəb xronoqramı vardı: *«Əl khair fi ma vağa`a», yəni «baş verənlərin ən yaxşısı».* Sonra yazılmışdı: *«Sikkə üzərində zərbləndi cahan Nadirinin İskəndəri, Əcəm torpağının Nadiri dünyanın Xosrovu».* O pullar Əcəm torpağının hər tərəfinə yayılacaq, qonşu məmləkətlərə gedib çıxacaq Şahımızın qüdrətini hər yana yayacaqdı.

275. Həmin günlərdə Mirzə Mehdinin yanına bir dəfə getdim, onda da erməni keşişi görmədim, dediyinə görə, fərmanları götürüb xəlifəsinin dalınca yollanmışdı. Erməni xəlifə arada fürsət tapıb Gəncə, Şəki və Şirvan xanlarından Böyük Xana şikayət eləyibmiş, göz yaşı axıda-axıda onların erməni təbəələrini soyduqlarını, hətta, Allah evlərinə əl uzatdıqlarını söyləyib, o vilayətlərdəki ermənilərin, məbədlərin, kilsələrin idarəsini ona tapşırmağını istəmişdi. Bütün qayğısı məmləkətdə əmin-amanlıq, itaət olan Böyük Xan da o vaxt Mirzə Möminə erməni xəlifənin istəyilə bağlı fərman hazırlamağı tapşırmışdı. Təbii ki, Şahımız həmin yerlərdəki məbədlərin, daha doğrusu, baziliklərin ermənilərə yox, indi tükənib gedən xaçpərəst albanlara məxsus olduğunu bilmirdi, bunu ona anladan, mahiyyəti üzə çıxaran bir kəs gərəkdi. Amma artıq quzey səfərində olduğu vaxtdan Böyük Xan buyrultularını yazmaq işini Mirzə Möminə tapşırmağa başlamışdı, Mirzə Mehdiylə Vəlinemətin arasında gözəgörünməz bir əl peyda olub münasibətlərini soyutmuşdu. Mirzə mömin də hökmdarın gözünə girməkdən başqa bir şey fikirləşmirdi, heç yazdığı buyrultular, raqamlar, fərmanlar barədə öz fikrini də bildirməyə cəsarət eləməzdi. İndi xəlifə təriflər yağdıra-yağdıra, göz yaşları axıda-axıda bəxşişlər verə-verə ermənilərə aid nə varsa, üstəlik, nəyi istəyirlərsə, Üçmüəzzinə, yəni özünə bağlamağa, zamanın çalxantıları içindən salamat çıxarmağa çalışır, bunu da hələlik bacarır. Mirzə Mehdinin dediyinə görə, xəlifə heyətdən xəbərsiz Böyük Xana qənirsiz bir erməni gözəli peşkəş gətirmişdi, o da düz iki həftə xaçpərəst qızı yatağında saxladı, nəfsini doydurandan sonra da ermənidən dönmə xidmətçilərindən birinə bağışladı. Bunu Məhəmmədqulu xan, şübhəsiz, bilirdi, amma qanındakı qatışıq onu başqa cür hərəkət eləməyə qoymur. İndi

də erməni xəlifə fürsətdən istifadə eləyir, Böyük Şah Abbasın güneydən köçürüb yerləşdirdiyi erməni elatlarına baş çəkir, bir tərəfdən də gizlicə Ağ Banunun yanına elçi göndərir ki, «əzabkeş erməniləri» himayəsi altına alsın.

276. Şəvval ayının sonunda yaz özünü göstərməyə, hava bir az isinməyə başladı. Düşərgədə hələ tərpəniş hiss olunmurdu, görünür, hökmdar yolların açılmasını, Xəlifə Sultan Murad xanın və Ağ Banunun yanına göndərdiyi elçilərdən bir xəbər alınmasını gözləyirdi. Mirzə Mehdinin dediyinə görə, Novruz bayramını da Muğan çölündə keçirəcəkdik, Şahımız məmləkətin hər tərəfindən aldığı xəbərləri götür-qoy eləyəcək, sonra yola çıxacaqdı. Bununla belə, get-gedə Şahımızla bağlı bilmədiyim mətləblər də mənə ayan olurdu: əvvəla, öyrəndim ki, Tiflisdə olanda gürcü xanədanını Teymuraza tapşırıb, üstəlik, onun qızını hərəmxanasına qatıb. Əbivərdli Babaəli bəyin qızları Ələkşad və Gövhərşad xanımdan olan oğulları Rzaqulu, Murtuzaqulu və İmamqulu həmişə gözlərinin qabağındaydı. Rzaqulunu Şah Sultan Hüseynin qızı Fatimə Sultan bəyimlə evləndirib Səfəvi xanədanıyla qan qohumu olub, nəvələri Şahrux, Fətəli və Əhmədqulu böyüyür. Hökmdar ikiyaşlı Şahruxu bəlkə də dünyada hər şeydən əziz tuturdu, kefinin kök vaxtında uşağı gətirdir, dizinin üstündə oturdub əyləndirirdi. On yeddi yaşlı Rzaquluya Xorasan kimi böyük vilayəti etibar eləməsi də təsadüfi deyildi: oğlu gözünü açıb özünü tanıyandan döyüşlər, səfərlər görmüşdü, qələbənin məğlubiyyətin, təhlükənin nə demək olduğunu bilmişdi. Əlbəttə, xanədan qurulmuşdusa, varis məsələsi də gec-tez üzə çıxacaqdı. Hələ şıvqeyinə və məqamına görə Şahımızın varisi çox istədiyi qardaşı Məhəmməd İbrahim xan Zahirüddövlə sayılırdı, amma şübhəsiz ki, gənc Şahzadə əmisini yolundan kənarlaşdırmaq, vəliəhd haqqını qazanmaq üçün bütün fürsətlərdən yararlanacaqdı; üstəlik, Şahımızın o biri övladları, elə İbrahim xanın övladları da vardı, onları da hesabdan silmək olmazdı.

277. Cülus şadyanalıqlarından dərhal sonra hökmdardan fərmanlarını, buyrultularını, məsləhətlərini, əmrlərini alan xanlar, hakimlər, ağalar, bəylər… başlarının dəstəsilə yola çıxdılar. Şahqulu xan Qacarın Mərvə, Baba xanın Herata, Pir Məhəmməd

xanın Rəvana, Rza xanın Nəqşivana yola salınmasını gördüm. Baba xan və Pirməhəmməd xan İbrahim xanın da hüzurunda oldular, vilayətlərdə vəziyyət və bundan sonra görüləcək işlər barəsində yerli-yataqlı söhbət getdi. İbrahim xanı daha çox əmin-amanlıq, vergilərin toplanması, həm də gərək olan məqamda hər vilayətdən onun sərəncamına göndəriləcək qoşunun sayı maraqlandırırdı. Bir də dedi, yaz əkin-səpinini həmişə diqqətdə saxlayın, rəncbərlərə öküz, toxum verin ki, sonra ondan məhsul ala biləsiniz; dedi, hökmdarın Qarsdan və Bəyaziddən nisyə öküz almaq fikri də xanların xoşuna gəldi: bundan ötrü Xəlifə Sultan Mahmud xanla hökmdarımız arasında bağlanacaq razılaşmanı gözləmək olmazdı, vaxt keçir, əkin vaxtı yaxınlaşır. İbrahim xan xaçpərəstlərlə mehriban davranmaq barədə tövsiyəsini də unutmadı: dediyinə görə, bir ovuc erməniyə, rumluya, kürdə gərək elə münasibət göstərək ki, dinimizə də, dövlətimizə də yaraşsın. Mirzə Mehdini və məni narahat eləyən elə bu "bir ovuc" məsələsiydi; əlbəttə, hələ bir ovuc idilər, amma get-gedə o bir ovuc erməni xəlifəkimilərin səyilə artacaq, cürbəcür yollarla əldə elədikləri torpaqlarda möhkəmlənəcək, sonra da məmləkətin başına bəla olacaqdılar – bunu hökm yiyələrinə necə izah eləyəydik? Mir Mahmud İsfahanı mühasirəyə alan vaxt Culfa ermənilərinin sultan Hüseyni arxadan vurmalarını niyə xatırlamırlar? Sabah Osmanlılar buralara qoşun çəksələr, yenə onların yanında olacaqlar – buna zərrəcə şübhəm yox idi.

278. Əbdülhəsən xanla da, Mirzə Mehdiylə də qorxduğumuz, deyəsən, baş vermişdi: qurultayın fitvasına möhür basmayıb, cülusu gözləməyib Gəncəyə qayıdan Uğurlu xan Ziyadoğlunun hərəkətini hökmdar yaddaşına yazmışdı. Dediyinə görə, Gəncə xanının müxtəlif səbəblərdən *(o səbəblərə yerli ağaların, bəylərin narazılığı da aid edilmişdi)* idarə eləyə bilmədiyi Qazax, Borçalı və Lori əyalətlərinin, üstəlik, Şəmkir və Şəmşəddil mahallarını da Uğurlu xanın hökmündən çıxarılıb Kartli və Kaxet hakimi Teymuraza verilməsi barədə fərman hazırlanmışdı, güman ki, Əlimirzə xan həmin fərmanı Teymuraza aparacaq, bununla da Uğurlu xan Ziyadoğluya hökmdarın ilk sərt xəbərdarlığı çatdırılacaqdı. Uğurlu xanın cəzası bununla da bitmirdi, beş Qarabağ məlikliyinin, Mil və Qarabağ çöllərinin də Gəncə bəylərbəyiliyindən alınması

barədə söhbət gedirdi, yəqin o yerləri də Rəvan xanının hökmü altına verəcəkdi. Mirzə Hüseyn bunu eşidib təəssüfləndi: dedi, əlbəttə, Uğurlu xan səhv elədi, artıq gerçək və yeganə olan qüvvəyə qarşı durmaqla nəyə ümid eləyirdi? Əksər məsələlərdə fikrimiz üst-üstə düşürdü: bir çox xanlar kimi gerçəkliyə boyun əymək, onun kölgəsində öz gücünü və nüfuzunu artırmaq daha da məntiqli olmazdımı? Avarıstanda qaçıb gizlənən Surxay xan, Bəlxdə meydan sulayan Əbdülhəsən xan, Əndhudu padşahlıq sayan Əlimərdan xan Əfşar vaxtı gələndə Şahımızın ayaqları altına yıxılacaqlar. Teymuraz da ağıllı iş gördü, gücün hansı tərəfdə olduğunu lap məqamında anlayıb osmanlılara arxa çevirdi, bununla hakimiyyətini də saxladı, ərazisini də genişləndirdi. Düzdü, hökmdarımız xorasanlı Səfi xan Buxairini bir bölük qoşunla Tiflisdə saxlayır ki, gürcülər baş qaldırmasınlar, amma itaətin faydası da göz qabağındadı, əminəm ki, yoxsa altı min nədi, heç altmış min ailənin köçürülməsilə də canlarını qurtara bilməzdilər.

279. Novruz şadyanalıqları axır çərşənbədə başladı. Hökmdarın səxavətindən bayramsayağı geyinmiş düşərgə əhli bir-birinə mübarəkabadlıq eləyir, şirniyyat verirdilər. Şahımızın əmrilə iki körpünün arasındakı meydanda, bir də hər iki körpünün eşik tərəfində çal-çağırlı mərəkə düzəldilmişdi, canbazlar, gözbağlayıcılar, pəhlivanlar camaatı əyləndirirdilər. Hərdən Mirzə Hüseynlə o tamaşalara baxmağa gedirdik, yaddaşımdan uşaq vaxtı Şeytanbazar meydanında, Şah Abbas məscidilə hamamlar arasındakı boşluqda gördüyüm canbaz oyunlarını, gözbağlayıcı əməllərini, qardaşım-bacımla yaşadığım Novruz həyəcanları boy verir, məni kövrəldirdi. Tay-tuşlarımla Ortaçala, Hallavar məhəllələrinə yumurta döyüşdürməyə getdiyimiz, bəzən sınıq çıxmağımız, bəzən üstün gəlməyimiz, ilin-ayın axır günü niyyət tutub titrəşə-titrəşə Kürün suyunda yuyunmağımız, qapı pusub bacadan papaq sallamağımız indi də yaddaşımda dipdiri qalıb. Sonralar Təbrizdə, Qəzvində, İsfahanda keçirdiyim Novruz bayramlarında heç o ləzzəti duymamışdım, görünür, bu ilkinliyin izaholunmaz şirinliyilə bağlıdı. Bayram günü İbrahim xandan da, Şahımızdan da xələt aldıq. İbrahim xan mənə yazı dəsti və Şahımızın adına kəsilmiş bir qızıl sikkə, Sahımızsa Mir

Əlişir Nəvainin üzü Təbrizdə köçürülmüş kitabını göndərdi. Bu bəxşişlərin ikisi də ürəyimcə oldu, onsuz da Sultanın və hökmdarımın səxavətindən yetərincə geyim-gecimim vardı, sinnimin o vaxtıydı ki, bahalı paltar geyinib özümü kiməsə göstərəsi deyildim. Nəvainin Mirzə Kəmaləddində olan nüsxəsini oxumuşdum, gözəl ruhu, zərif nəfəsi xoşuma gəlmişdi, bu nüsxə daha dolğun olduğundan Şahımıza sonsuz minnətdarlıq duydum. Düzünü deyim, İstanbulda, Təbrizdə, Qəzvində, İsfahanda yaşayanda özümdən ixtiyarsız içimdə misralar, beytlər doğulurdu, bunu çox vaxt cavanlığıma yozur, kağıza köçürmürdüm. Əlbəttə, Şeyx Nizamini, Mövlananı, Nəvaini, Füzulini, Xətaini oxuyandan sonra şairlik iddiasına düşmək fikrində deyildim, yazsaydım da, şeir həvəslisi Şah Təhmasibdən o tərəfə gedə bilməzdim. Qismətimə yollar, o yollarda gördüyümü, yaşadığımı qələmə almaq, başqalarının qələbələrini, məğlubiyyətlərini təsvir eləmək, yazdıqlarımı kimlərinsə oxuyub məni xatırlayacaqlarına ümid bəsləmək düşmüşdü, buna da mərdi-mərdanə qail olmalıydım.

280. Bayram günlərində bir para adamların azğınlığı olmasaydı, hər şey yaxşı qurtaracaqdı. Şərabdan ağıllarını itirmiş on beş-iyirmi nəfər düşərgədə səs-küy qaldırdılar. Keşikçilər və nasaqçılar onları tutub sakitləşdirənəcən olub-keçənlər Şahımıza da çatdı. Carçılar hay salıb hamını iki körpü arasındakı meydana topladı. Şahımızın əmrilə əliağaclılar şuluqçuları yerə uzadıb ölüncəyəcən döydülər. Düzdü, bu qorxunc mənzərəyə baxa bilmədim, gözlərimi-qulaqlarımı yumub camaatın arasında dayanmışdım, barmaqlarımı nə qədər bassam da, qulağımın pərdəsinə gəlib çatan boğuq qışqırtıları və tappıltıları ürəkağrısıyla dözürdüm. Bir də yarıölü şuluqçuları sürüyə-sürüyə aparandan sonra özümə gəldim. Yanımda dayanmış Mirzə Hüseynin də rəngi ağarmışdı, nazik, uzun barmaqlı əllərinin əsdiyini də gördüm. Çadırımıza qayıdanda Şahımızın haqlı olduğumu söylədi, dedi, insan nəfsinin quludu, kamil adam nəfsini yenməyi bacarmalıdı, yoxsa beləcə əzablara düçar olar. Elə o axşam da İbrahim xandan əmr gəldi ki, səhər tezdən Təbrizə doğru yola çıxırıq. Bir sandıq kitabım, bir sandıq geyim-gecimim, bir qatırım, bir atım vardı, demək olar, yola hazır idim. Mirzə Hüseyn də dünya malına xüsusi maraq göstərən adam deyildi, ona görə

də yır-yığışımız çox çəkmədi. Muğan çölündən yadigar kimi bir dəstə yovşan yığmışdım, onu da sandığıma qoydum ki, xatırlayanda qoxusuyla xatirlərimə qayıdım. Sonra nasaqçıları çağırıb miniklərimizin vəziyyətilə maraqlandıq, uzun müddət də gözümüzə yuxu getmədi. Mirzə Hüseyn, az qala, iki iliydi evdən çıxmışdı, fürsət düşəndə külfətinə xərclik, sovqat göndərsə də, darıxdığını üz-gözündən duyurdum. Bir oğlu Təbriz hakiminin baş dəftərdarıydı, o biri oğlu mədrəsədə oxuyurdu, üstəlik, iki qızı da vardı. Dedim, doğmalardan ötrü darıxmaq, qayıdanda yolunu kiminsə, kimlərinsə gözləyəcəyini bilmək gözəl duyğudu. Mirzə Hüseyn həyat hekayəmi artıq az-çox bilirdi, yeri gələndə qırıq-qırıq danışmışdım, bunları söyləyəndə səsimin titrəməyindən diqqətləndiyini gördüm.

*Hə, sabah üzü güneyə, Təbrizə doğru yola düşürük…*
*İrəlidə məni nələr gözlədiyini bilmirəm…*
*Alın yazımda yollar, bitib-tükənməyən yollar var…*

# ÜÇÜNCÜ KİTAB

## İLĞIMLAR ARDINCA

*Edə bilmirsənsə özündən səfər,*
*Barı yer üzünə bir eylə güzər.*
*Kor tanrı gücünün nişanəsini,*
*Eşit o qüdrətin aydın səsini.*

*Marağalı ƏVHƏDİ,*
*(XIII-XIV yüzil)*



# I

# ÜZÜ TƏBRİZƏ DOĞRU

*Qürbətdə deyirdin ki, Zülalı, vətənim var,*
*Ensin gözlərinə qara su, Ağsu vətən oldu.*

***ZÜLALİ***
***(XVII yüzil)***

281. Axşam fürsət tapıb Mirzə Mehdiylə vidalaşmağa getdim. Çadırında tək-tənha oturmuşdu, üz-gözünün ifadəsindən çox əndişəli olduğunu anladım. Salamlaşıb uzun-uzadı susdum, sonra özümdə güc tapıb səhər obaşdan yola çıxacağımızı söylədim, ya qismət, dedim, bir də görüşəcəyikmi, bunu Allah bilir. Mirzə Yusif, dedi, bunca illərdən sonra Allahın rast gətirdiyi yerdə – bu yovşanlı Muğan çölündə üz-üzə gəldiksə, nə vaxtsa yenə rastlaşacağımız da istisna deyil, hamısı Yaradanın məsləhətindədi. Gəlmisən, sənə bir neçə sözüm var, – səsini alçaldıb əlavə elədi, – sarayda olanda bir çox şeyləri Mirzə Hüseynlə məsləhətləş, o kimin kim olduğunu yaxşı bilir, həm də ağıllı, tədbirli adamdı, yadında saxla ki, hər yerdə Şahımızın «gözləri-qulaqları» var, ayıq-sayıqdılar; ən çox vacib bildiyin hadisələrin tarixini dəqiq, təsvirini müfəssəl yazıb Xanın çaparıyla mənə göndərsən, minnətdar olaram, çünki Şahımızın tarixinin mümkün qədər mükəmməl olmasını istəyirəm. Məsləhətlərinə və istəyinə əməl eləyəcəyimi söylədim, sonra bir qədər də havalardan, olub-keçənlərdən, olacaqlardan danışdıq, ayrılanda da qardaş kimi bərk-bərk qucaqlaşdıq. Əbdülhəsən xan da yola düşəcəyimizi eşidib özü gəlmişdi, dedi, yazbaşını Təbrizdə keçirəcəyinizdən ürəyim atdandı, kaş, quş olaydım, sizdən tez çataydım, həmişə Təbrizi görmək, gəzmək istəmişəm. Ardınca dedi, Şahımız Novruz bayramından iki-üç həftə sonra da düşərgədə qalmaq fikrindədi, məmləkətin hər guşəsində nizam yaratma-

mış yerindən tərpənmək istəmir. Dilim dinc durmadı, erməni xəlifənin fərmanla aldığı mülklərdən əndişələndiyimi dedim, Əbdülhəsən xan tutuldu, qızardı, ehtiyatla çadırın girişinə sarı baxdı, dedi, od olmayan yerdən tüstü çıxmaz, erməni xəlifənin əlaltından, gizlicə verdiyi bəxşişlərin kəramətidi. Mirzə Hüseyn söhbətin mövzusunu dəyişdi, dedi, dünyanın işini bilmək olmaz, yolda hava dəyişər, qar-çovğun olar, ona görə də yaz özünü göstərməmiş havaya bel bağlamaq məsləhət deyil.

282. Sonra Mirzə Hüseyn Dağıstanda necə çovğuna düşdüklərindən danışdı, dediyinə görə, gecə-gündüz çadırdan bayıra çıxa bilməyiblər, çadırı da ağaclara bağlayıblarmış ki, çovğun aparmasın. Vidalaşanda Əbdülhəsən xan mütləq görüşəcəyimizi elə qətiyyətlə söylədi ki, buna özüm də inandım. Dedi, çox istərdim, Təbrizdə görüşək, yəqin Allah dualarımı eşidər.O gedəndən sonra Mirzə Hüseynlə çox oturmadıq ki, yola düşənəcən yuxumuzu alaq. Gecəni də səksəkəli yatdım, gözümü yumanda uca-uca dağlar, iri-iri mağaralar görürdüm, o mağaralar ağzını açıb bizi – məni, Mirzə Mehdini, Mirzə Hüseyni, Əbdülhəsən xanı, Axund Ələkbəri, Mirzə Kəmaləddini – bir sözlə, tanıdığım adamların hamısını udurdu, hardansa erməni xəlifəylə keşişləri peyda olur, mağaraların ağzını daşlarla qapamağa çalışırdılar. Nəsə qışqırırdım, kimsə harayımıza gəlmirdi. Bu yerdə diksinib ayılır, xeyli gördüklərimə məna verməyə çalışır, təzədən gözlərimi yumanda eyni mənzərəni görürdüm. Mirzə Hüseyn də yatağında çevrikirdi, özü yata bilməsə də mənə dedi, çalış yat, sabah yolumuz uzun olacaq, harda gecələyəcəyimizi də bilmirik. Əlbəttə, buna cəhd eləyirdim, amma indi qalxıb çırağın işığını artırmaq, beynimdən keçənlərin bir parasını kağıza köçürmək istərdim. Sonra fikirləşdim ki, istədiklərimi yaza bilmərəm, bunu ancaq sonralar, Allah ömür versə, xanın qulluğundan azad olanda qələmə alaram. İndisə taleyimə boyun əyib Şahımızın buyurduqlarını yazmalıyam. Dan yeri ağaranadək beləcə yarıyuxu içində oldum, sonra qalxıb namazımızı qıldıq, bir tikə çörək yeyib yola hazırlaşdıq. Uzaqdakı dağlar yüngül duman içində seçiləndə artıq çadırımızı söküb dəvəyə çatmışdılar, olan-qalanımız yüklənmiş qatırları qatırçılar dartır, özümüzsə atların yüyənindən tutub Araz körpüsünün qənşərindəki mey-

dana gedirdik. Ordugahda da çaxnaşma vardı, atlar kişnəşir, yaraq-əsləhə səsi eşidilirdi, deyəsən, İbrahim xanın qoşunu yola çıxmağa hazırlaşırdı. Qatırçıya bərk-bərk tapşırmışdım ki, sandıqlara göz olsun, yağış-qar başlasa, su düşməyə qoymasın, ən ümidsiz məqamda belə, kitablar olan sandığı canı bahasına da olsa, qorusun, geyim-keçimi həmişə tapmaq olar. Mirzə Hüseyn də eyni fikirdəydi, bundan ötrü iki nasaqçı ayırtdırmışdı, onların işi-gücü sandıqların mühafizəsini təmin eləməkdi, ona görə də narahat olmağa heç bir əsas yox idi.

283. Dan yerindən hələ havanın necə olacağını bilmək mümkün deyildi, axır günlər yağan sulu qar yağışa çevrilmiş, o da bayram günlərində özünü heç göstərməmişdi. Allah rəhmlidi, Mirzə Hüseyn, elə bil beynimdən keçənləri oxuyub dilləndi, sağ-salamat gedib mənzilbaşına yetişərik. Az sonra carçı car çəkdi, təbillər vuruldu, kərənaylar səsləndi, İbrahim xan Şahımızın çadırından çıxıb körpüyə doğru gəldi. Yanında oğlu Əliqulu xan, Mirzə Zəki, Təhmasib xan Cəlayir, vəzir-vəkil vardı, hamı bayramsayağı bəzənib bizi uğurlamağa çıxmışdı. Meydana çatanda İbrahim xan əlini qaldırdı, dayanıb vidalaşdılar, körpünü keçəndən sonra atlarımızı minib yola çıxmağa hazır vəziyyətdə gözlədik. Xanımızın on iki minlik qoşunu səfə düzülüb yerbəyer olandan sonra hərəkətə gəlib üzü güneyə tərpəndik. Mirzə Hüseynlə atımızı yanaşı sürürdük, bir qədər sonra qoşundan bir bölüyün çaparaq uzaqlaşdığını, yovşanlı çölünənginliklərində gözdən itdiyini gördük. Mirzə Hüseyn səfər təcrübəsinə güvənib söylədi, yolları yoxlamağa, düşərgə üçün yer axtarmağa getdilər, güman ki, Xanımız Araz boyu gedib Qaradağdan keçməyə üstünlük verəcək. Sonra əlavə elədi ki, sol yanımızda, Kürün bu tərəfində Salyandı, o tərəfindəsə Mahmudabaddı, Böyük Şah İsmayıl Bakı şəhərinin üstünə gələndə düşərgəsini orda Mahmudabadda salıbmış. Əlavə elədi ki, yolumuz Ərcuvana da rast gəlməyəcək, yəqin, Varsandan, Kəleybərdən, Əhərdən keçəcəyik, Qarasu çayından adlayacağıq, bu daha təhlükəsiz yoldu. Göz işlədikcə uzanan yovşanlı çölə baxa-baxa nədənsə Anadolu düzənliklərini xatırlayırdım, Bursadan Konyaya, Konyadan Ərzurum dağlarınacan keçdiyim yollar yaddaşımdan boy verirdi. Beləcə ordan burdan söhbət eləyə-eləyə yolun damarını qırıb xeyli yol getdik. Günorta nama-

zına da Arazla Muğanın quzey təpəlikləri arasındakı düzənlikdə dayandıq. Yaxınlıqda, görünür, Arazdan süzülüb durulan çeşmə, çeşmə suyunun axıb yığıldığı balaca göl vardı. Çadırların qurulmasına ehtiyac yox idi, onsuz da namazımızı qılıb, çörəyimizi yeyib, bir hovur dincəlib yola çıxacaqdıq. Mirzə Hüseyn dedi, Xanımız gecəni Varsandan keçirmək fikrindədi, hava qaralmamış ora çatıb yerləşməyi əmr eləyib.

284. Sol yanımızdakı Muğan təpələrinin boz rənginə, çökəkliklərdəki yaşıllıqlara baxa-baxa yazın izlərini axtardım. Çeşmənin və gölün ətrafı elə yamyaşıldı, elə bil heç qış bura gəlməmişdi. Uzun yoldan sonra yəhəri-yüyəni alınmış atlar, qatırlar, dəvələr, arabalardan açılmış öküzlər otluğa doluşdular, artıq biz namaz qılıb, çörək yeyib, dincəlib yola hazırlaşanda göldəki qamışlardan başqa yaşıllıq gözə dəymirdi. Carçının səsi gələndə Mirzə Hüseynlə İskəndər bəy Münşi barədə danışırdıq, dediyinə görə, yazı-pozu öyrənəndən onun qələmindən çıxanları oxumaq arzusuyla yaşayır. O, xanədanın tarixini, məmləkətin tarixilə vəhdətdə götürməyi bacarır, Mirzə Hüseyn üzündə heyranlıq əlaməti söyləyirdi, amma səsindəki ehtiyat çalarlarını da gizlədə bilmirdi. Hazırlaşıb təzədən atlara süvar olduq, çayla təpəliklərin arasında uzanan yolumuza davam elədik. Carçılar aravermədən qəfilə boyu çapır, atlıları, sarbanları, qatırçıları, arabaçıları tələsdirirdilər ki, işıq gözünə gecələmə yerinə çataq. Başımızı qatmaq üçün ordan-burdan söhbət eləyirdik, Mirzə Hüseyn bu dəfə ötən ilin qışında Böyük Xanın – indiki Şahımızın Quraişə hücumunu xatırladı. Özü, əlbəttə, orda yoxmuş, İbrahim xanla Tiflis tərəflərdəymiş, olub-keçəni də kefinin kök vaxtında Mirzə Mehdi danışıbmış. Deyir, Tabasaran usmisi Əhməd xan yaman yerdə axşamladığını görüb Böyük Xana itaət eləmək qərarına gəlir, adamlarından beş-onunu, bir də qızı Firuzəni Vəlinemətin hüzuruna göndərir. Qız o qədər gözəlmiş, cəmi Məğribi-Məşriqi gəzsən, tayı-bərabəri tapılmazmış. Böyük Xan Allahın qüdrəti qarşısında əməlli-başlı sarsıntı keçirib, amma o İlahi möcüzəsini hərəmxanasına qatmayıb, Quba xanı Hüseynəli xana peşkəş eləyib, Mirzə Mehdinin dediyinə görə, Böyük Xan o vaxtdan həmin gözəli unuda bilmir, aradabir kef məclislərində xatırlayır. Həmin məqamda yadıma Anadolu karvansaralarının

birində eşitdiyim bir rəvayət düşdü. İki səyyah bir şəhərdən o biri şəhərə gedirlərmiş. Qəfildən yollarının üstünə daşqın çay keçən bir dərə çıxır. Çayı keçən vaxt bir qədər irəlidə qorxudan tir-tir titrəyən, tək-tənha, həm də cavan qadın görürlər. Səyyahlardan biri dərhal qadının köməyinə qaçır, onu belinə götürüb, çayın o biri tərəfinə keçirir. Sonra qadını o biri sahildə yerə qoyub yaxşı yol arzulayır. Beləcə, yollarına davam eləyirlər. Amma bayaqdan gülüb-danışan o biri səyyah, nədənsə, daha dinib-danışmır, sifətindən də zəhrimar yağır. Bir neçə saat beləcə yol gedəndən sonra axır ki, deyir, niyə o qadına kömək elədin, üstəlik, naməhrəm ola-ola ona toxundun, səni yoldan çıxara bilərdi, sən də özünü saxlaya bilməyib günah işlədərdin, kişi yad qadına bu qədər yaxınlıq eləməz, bu kimə yaraşsa da bizə yaraşmaz. Səyyah səbirlə gülümsəyib cavab verir ki, bura bax, dostum, mən o qadını çayı o biri tərəfinə keçirib orda qoydum, amma sən hələ də özünlə aparırsan. Rəvayəti ona danışdım, ürəkdən gülüşdük.

285. Sonra Mirzə Hüseyn, elə bil ürəyimin sarı siminə toxunub İbrahim xanın Tiflis səfərindən danışdı. Dediyinə görə, Kaxeti-Kartli valisi Məhəmmədqulu xanın Tiflis qalasının açarını Ərzurum paşasına təslim eləməsi Böyük Xanı cin atına mindiribmiş. Mirzə Hüseyn danışırdı, Vəlinemətin əmrilə İbrahim xan qoşunla Tiflisin üstünə gedib, əvvəlcə şəhərə girməyib, daha da irəli gedib, Osmanlıların qoşununu Borçalıda, Alagöz dağlarında yaxalayıb darmadağın eləyib, sonra Tiflisə girib Məhəmmədqulu xanı taxtdan salıb, xəyanətini ona bağışlamayıb. Danışırdı ki, şəhərdə qaldıqları müddətdə qalaları, məhəllələri, meydanları, məscidləri gəzib, şahanə mənzərələrə doya-doya baxıb, təbiətinin, havasının, suyunun gözəlliyindən doymayıb. Mirzə Hüseyn Tiflisin cürbəcür millətlər yaşayan məhəllələrində hamının türkcə danışmağından bərk təəccüblənmişdi, deyirdi, kimi türkcə dindirirsən, dərhal cavab alırsan. Həmin məqamda xatirələr üstümə qar uçqunu kimi töküldü, gözlərim həyəcandanmı, doluxsunduğumdanmı torlandı, yenə yanan evimizi, beyni parçalanan atamı, eyvandan boşluğa uçan bacımı, yerdə sürüklənən qardaşımı, fəryad qoparan anamı qorxudan, nəfəsini udub pilləkənin böyrünə sığınmış özümü gördüm. Atam, qardaş-ba-

cım gözlərimin qabağında tələf olmuşdular, bəs, görəsən, bu ağır dərdlə, az qala, bütün ömrümü necə yaşamışdım. Həyatımın sonrakı illəri ərzində içimi qurd kimi gəmirən bu suala cavab ala bilməmişdim, bundan sonra da istəyimə çatacağıma zərrə qədər inamım yox idi: Tiflisə çataçatda tale yönümü başqa səmtə salmışdı, bundan sonra başıma nələr gələcəkdi, onu bir Allah bilir. Mirzə Hüseynin danışdıqlarını eşidirdim, amma daha qavramırdım, hər şey yüngül dumana bürünüb xatirə ilğımları arasında itib-batırdı...

286. *Allahın yaratdığı məxluqatın – qarışqasından tutmuş filinəcən – bu dünyada öz haqqı var,* bu mənada yurdumda ölmək də mənim haqqım idi. Mirzə hüseynə qulaq asa-asa İstanbulda eşitdiyim bir əhvalatı yada salırdım: Qanuni Sultan Süleyman bir gün sarayın bağçasındakı bir ağaca qarışqa yığışdığını görür. İstəyir bağbana tapşırsın ki, ağacı əhəngləsinlər, amma bunun məqbul olub-olmadığını bilmir. Məsələni ayırd eləmək üçün dərhal Şeyx-ül-İslam müdrik Əbu Suud Əfəndinin yanına gedir, amma onu öz xanəsində tapmır. Sultan qələm və bir parça kağız götürüb bu sözləri yazır: *Dirəxti gər sarmış olsa qarınca, /Zararmı var qarıncanı qırınca.* Kağızı Əbu Suud Əfəndinin rahləsinin üzərinə qoyub saraya qayıdır. Aradan bir müddət keçəndən sonra Əbu Suud Əfəndi Sultanın yazdığı kağızı oxuyur, nəzmlə də cavab yazır. Yenə bir müddət keçir, Padşah naməsinə cavab almaq üşün təkrar Şeyx-ül-İslamın xanəsinə getməli olur, amma onu bu dəfə də tapmır, əvəzində müdrik dostunun cavabını alır. Əbu Suud Əfəndi yazıbmış: *Yarın Haqqın divanına varınca, /Süleymandan haqqın alar qarınca.* Bunu görən Qanuni Sultan Süleyman da qarışqalar daraşmış ağacı əhəngլətmək fikrindən daşınır. Əlbəttə, hər kəsin haqqını özünə versəydilər, bu dünyada yaşamaq çox asan olardı. Elə bu aləmdəki fəlakətlərin çoxu da haqqı çatanın haqqının verilməməsindən qaynaqlanmırdımı? Hamı Qanuni Sultan Süleyman kimi, qarışqanın haqqını belə tanısaydı, nə məmləkətlər viran qalardı, nə xanədanlar dağılardı, elə mən də Zaman fırtınasının qoynunda yollarda pəsələng olmazdım. İstəyirdim ki, təzəcə taxtda oturmuş Şahımız məmləkətin düşmənlərinə qarşı həmişə barışmaz olsun, amma Qanuninin ədalətini də bilmərrə unutmasın.

287. Sonra özümü yığışdırıb xatirələr ilğımından geri döndüm.

Mirzə Hüseyn indi anbarlı və əfşar tayfalarının Borçalıya, borçalıların Şahımızın yurdu Sərgaha köçürülməsindən danışırdı. Dediyinə görə, şaban ayından qabaq Xorasana aparılan on iki min nəfərin yarısı yolda qaçıb dağılışıblar, mənzilbaşına gedib çatanacan da yəqin, bir neçə min adam tələf olar, Xorasanın sərt iqlimi də bir o qədər zavallının axırına çıxar. Mirzə Hüseyn Kaxeti-Kartlinin valisi Şahzadə Arçilin – Əlimirzə xanın olduğuna şəkkaklıkla yanaşırdı, deyirdi, nə qədər ki, Tamar sağdı, Teymuraz taxtda oturacaq. Deyirdi, Şahımız Tiflisdə olanda elə qarşıladılar, elə hörmət və sədaqət göstərdilər ki, hökmdarımız bunu hələm-hələm unutmaz. Bir də ki, Mirzə Hüseynin fikrincə, Şahımızın ən böyük əndişəsi, əlbəttə, gürcülərin fürsət düşən kimi, Osmanlıların tərəfinə keçməsilə bağlıdı. Şübhəsiz, Mirzə Hüseynin söylədiklərində həqiqət vardı, amma Şahımızın Arazdan quzeyə köçürülmüş, artıq məmləkətin əksər vilayətlərinə səpələnmiş ermənilərə rəğbətinin kökündə nəyin durduğunu hələ özümə tamam-kamal aydınlaşdıra bilməmişdim. Əlbəttə, hökmdar bununla hökmü altında olan məmləkətdə qövm və din ayrılığına yer verməyəcəyini bildirirdi, amma, məsələ təkcə bununla bitsəydi, yaxşı olardı. İndi erməni xəlifə kələntərlər,məliklər, vardapetlər, keşişləri başına yığıb gəlmələri yerləşdirməklə, üstəlik, o yerlərin idarəsini öz əlində cəmləşdirməklə məşğuldu. Nəqşivanda, Rəvanda, Qarabağda, Gəncədə, Kartli və Kaxetdə, Şirvanda kök salan, kilsələr tikən, mülklər alan, məbədlər mənimsəyən, saxta tarix yazan kəslərin əməlləri ortaya çıxanda gec olmayacaqmı? Bunu Mirzə Hüseyndən soruşmurdum, çünki cavabını o da bilmirdi. Amma, necə deyərlər, *irəliyə ümidlə, geriyə minnətdarlıqla, yuxarı inamla, ətrafa sevgiylə nəzər salmaq lazımdı, yoxsa yaşamaq məşəqqət olar...*

# II

# DƏRDİMİN DƏRMANI SÖZ

*Xəstə Qasım kimə qılsın dadını,*
*Canı çıxsın, özü çəksin odunu.*
*Yaxşı igid yaman etməz adını,*
*Çünki yaman addan ölüm yaxşıdır.*

*Xəstə Qasım TİKMƏDAŞLI*
*(XVIII yüzil)*

288. Varsana şər qarışanda çatdıq. Ön dəstə şəhərə xeyli əvvəl girib hər şeyi yerbəyer eləmiş, ordugah üçün yer seçmişdi. Varsanın hakimi Əmənqulu bəy başının dəstəsilə şəhərdən iki ağac məsafədə Xanımızın pişvazına çıxdı, zurna, təbil, kərənay sədaları altında şəhər darvazasından içəri girdik. Xanımız oğlu Əliqulu xan və əmisi oğlu Məhəmməd xan Əfşarla Əmənqulu dəyin evinə getdi, Mirzə Hüseyn, mən, bir də baş dəftərdar Mirzə Qulam şəhər hakiminin mirzəsi Mirzə Əlimərdanın evinə düşdük. Uzun yoldan sonra rahatlanmaq, axşam namazından və çay-çörəkdən sonra oturub ordan-burdan söhbət eləmək məni xeyli özümə gətirdi. Mirzə Əlimərdan Dərbənd-Şabran-Muğan-Ərdəbil-Xalxal-Zəncan-Sultaniyyə-Əbhər-İsfahan ticarət yolundan qırx ağac uzaqdakı cəmi-cümlətanı üç min evdən ibarət bu balaca şəhərdəki vəziyyətdən danışdı. Dediyinə görə, Mərəndə, Marağaya, Təbrizə, Nəqşivana, Rəvana gedənlər burda gecələmək, bəzən də mallarını xırd eləmək üçün qalırlar. Mirzə Əlimərdanın fikrincə, gecikmə-filan olmadan getsəydik, iki günə Kəleybərə çatardıq, iki gün də ordan Əhərə, iki gün də Əhərdən Təbrizə çatmağa bəs eləyərdi, başlıcası, hər il bu vaxt gözlənilən güclü yağış yağıb Qarasu çayını daşırmayaydı. Elə olsa, ya xeyli çay yuxarı gedib dayaz yer axtarmalı, ya da düşərgə salıb suyun çəkilməsini gözləyəcəksiniz, – Mirzə Əlimərdan fikrini bildirdi. Sonra bir qədər varsanlıların osmanlı hücumlarından zərər

görüb-görmədiklərindən, camaatın yaz əkinin-səpininə hazır olub-olmadığından məmləkətin hər tərəfində hiss olunan qıtlıqdan əziyyət çəkib-çəkmədiklərindən danışdıq. Ev sahibi nə vaxtdan bəri ürəyində yığılıb qalmış dərdi-səri, söz-söhbəti boşaltmağa fürsət tapmışdı, axır aylarda camaatı qısnamış qıtlıqdan elə ürək ağrısıyla danışdı ki, lap əhvalım pozuldu. Əlbəttə, həyat varsa, dərd-sər həmişə olacaq, amma Allah bəndəsinin bir parça çörəyə möhtac qalması dözülməz dərddi, bu məsələdə Mirzə Əlimərdanla şərikdim. yatmağa qərar verdik: İbrahim xan Təbrizə tələsirdi, obaşdan yola çıxacaqdıq.

289. Nə vaxtdan bəri ilk dəfə rahat ev yatağına girəndə canımda xoş gizilti duydum. Axırıncı dəfə belə rahatlıq içində, ev yorğan-döşəyində nə vaxt yatmışdım, heç yadımda deyildi. Elə mən də Şahımız kimi, saraylarda oturub qalmağı xoşlamırdım, bəxtimə yollar düşmüşdü, hey harasa gedirdim, amma o yollar məni istədiyim yerə aparıb çıxarmırdı. Görəsən, nə axtarırdım yollarda? Qəfildən dodaqlarımdan bir beyt qopdu: *Kim ki bu aləmdə ömrün sərf edib yar axtarır, /Gənci-gövhər dağıdıb viranədə mar axtarır.* Özüm də bilmədən beyti ucadan söyləmişdim. Əlican Qövsi Təbrizinin müştaqısan, deyəsən, – Mirzə Hüseyn uzandığı yerdən səsimə səs verdi, sonra əlavə elədi, – İsfahan onu da tükədib taladı, əbəs yerə deməyib ki: *Görmənəm bir həmnəfəs ta eyləyim izhar söz, /Yoxsa kim, ney tək mənim sinəmdə həm var söz.* Füzuliyə nəzirədi, bu dəfə mən Qövsiyə bələdliyimi göstərdim, sonra dedim, fikrimcə, Böyük Şah Abbas Azərbaycana ən böyük pisliyi İsfahan və onun ətrafındakı erməniləri Arazdan quzeyə köçürməklə elədi, üstəlik, üləmalarımızı, nəqqaşlarımızı, xəttatlarımızı, rəssamlarımızı İsfahana yığdı, orda Təbriz rəssamlıq məktəbinin yaranması da elə burdandı; dedim, İsfahanda rəssam Seyid Əli Təbrizinin on altı cildlik nağıllar kitabını görmüşəm, hər cildi bir xəzinəyə dəyər; amma gedənlərin, aparılanların hamısı həmişə Təbrizin həsrətilə yaşayıblar, Mirzə Hüseyn dedi, elə həmin Qövsinin yazdığı yadındadı: *Təbriz açar könlümü Qövsi, gər açılsa, /Hərçənd ki,Firdövsi Sifahanə yetişməz.* Sonra söhbətin uzanacağından əndişə duyub, dedi, yataq, sabah yolumuz uzundu. Elə həmin məqamda da evin pəncərələrinə və taxtapuşuna çırpılan yağış damcılarının səsini eşitdim. Yağışın

yuxu gətirən tappıltısına qulaq asa-asa beynimdən keçirdim ki, bu Allah nemәti səhər də davam eləsə, yolumuz çətin olacaq. Ardınca Qövsinin qismətinə düşən gündü, fikirləşdim, son beyti də ondan xatırlayaq: *Günüm gecəm kimi peyvəstə qarədir sənsiz, / Gözüm çırağı, gözüm hiç karədir sənsiz.* «Hiç karə» gözüm get-gedə yumuldu, yorğunluğun və yağış səsinin gətirdiyi bayğınlıq içində yuxuya daldım.

290. Səhər obaşdan yola çıxanda gördük, gecəni yağan yağış torpağın halına o qədər də təfavüt eləməyib. Bu tərəflərdə torpaq suyu saxlamır, dərhal dərinliklərinə süzür, elə bilirsən, aradan bütöv bir gün keçib. Dəvələr, qatırlar yüklənib, arabalar qoşulub, atlar yəhərlənənəcən carçılar şəhərin bu başından vurub o tərəfindən çıxdılar. Nə qədər erkən olsa da, bizi uğurlamağa, azı, beş yüz adam çıxmışdı, Əmənqulu bəy başının dəstəsilə bir neçə ağac Xanımızın əmrinə müntəzir gəldi. Get-gedə yuxarı qalxan yaz günəşi uzun qışdan üşümüş sümüklərimizi az-çox qızdırır, amma hələ də öz gücünü göstərə bilmirdi. Mirzə Hüseyn gözlərini irəli dikib dedi, xəyalına gətir ki, Təbrizli naqqaş Əli Feyzi bu yaxın obaların birində, gecələr çıraq işığında Mir Əlişir Nəvainin əsərlərini Ərdəbil hakimi Fərhad xan Qaramanlının sifarişilə köçürür. Dedi, aradan, az qala, yüz əlli il ötüb, Fərhad xanın qəbirdə sümükləri də çürüyüb, amma onun qələmindən çıxanlar qalır, bundan sonra yüzillər boyu da qalacaq. Sonra əlavə elədi ki, mən uşaqlığımda Məhəmməd Mömin Təbrizini görmüşdüm, bizim məhəllədə yaşayırdı, atam xəttat olmağımı istədiyindən məni ara-sıra onun yanına aparırdı, dərviş təskülahına oxşayan papağı, ağ saqqalı, nazik barmaqları indi də gözlərimin qabağındadı. Mirzə Hüseyn nəzərlərini uzaqlardan çəkib mənə zillədi, dedi, sonralar əlimə keçən kitablarda onun dəsti-xəttini səhvsiz tanıyırdım; indi Saib Təbrizi demişkən: *Ömr keçdi, səfər əsbabını amadə qılın, /Hər nə sizdən kəsə tici-əcəl qandan kəsilsin.* Mirzə Hüseynin kədərini üzündən oxuya-oxuya dedim, bunu ikinci Şah Abbasın məlik-üş-şüərası, Mirzə Məhəmməd Əli kimi doğulan, sarayda Saib Təbrizi olub uca məqama çatan adam söyləyibsə, deməli, dünyanın faniliyinə şəkk eləməmək olar. Dedim, həyatımda dönə-dönə əmin olmuşam ki, taleyə qarşı çıxmaq yeddibaşlı əjdahayla vuruşmaq kimi bir şeydi, salamat

qalmaq istəyirsənsə, boyun əyib axına qoşulmalısan; Saib Təbrizi necə deyib: *Qəmi başdan aşanın olmaz ölümdən zəhəri, /Qurumuş bir qələmə ildırımın yox xətəri.*

291. Mirzə Hüseynin bu səfərlərdən, yollardan, döyüşlərdən, saray həyatından bezib asudə yaşam arzuladığından xəbərim vardı, bunu dönə-dönə söyləmişdi, amma Təbrizə yaxınlaşdıqca bu istəyinin artıb-çoxaldığını, qarşısıalınmaz qüvvəyə çevrildiyini indi dərk elədim. Görünür, bu da yaşlanmasıyla bağlıydı, elə özüm də əlli yaşından sonra Tiflisi, öz ocağımı, sakitliyi arzulamağa başlamışdım, hələ ki, bu məndən ötrü xəyal olaraq qalırdı. O gecəni beləcə, xəyallar içində başa vurub, səhəri yola düşdük, gün günorta yerinə çatanda carçılar Qarasuya çatdığımızı, çayı keçib ordugah quracağımızı, gecəni ordugahda keçirib səhəri Kəleybərə doğru yola çıxacağımızı xəbər verdilər. Xanımız yolçulara yarım gün də dinclik verirdisə, deməli, sabah dincəlib nəfəs dərmədən Kəleybərə çatmaq fikrindəydi. Mirzə Hüseynin fikrincə, İbrahim xanın Təbrizə bu qədər tələsməsi birinci Şah Təhmasibin tikdirdiyi sarayın vəziyyətilə bağlıydı. Dediyinə görə, on il qabaq Osmanlıların şəhərə hücumu vaxtı saray çox zərər görmüşdü, tezliklə onu bərpa eləyib əvvəlki halına qaytarmaq, yerləşmək gərəkdi. Düzdü, İbrahim xana sarayda işin getdiyi barədə xəbərlər çatdırırdılar, amma hər şeyi öz gözlərilə görmək, əyər-əskiyi tamamlamaq, Səfəvi şahlarının sarayında yaşamaq zövqünü tez dadmaq istəyirdi. Şübhəsiz, biz də sarayın hücrələrinin birində yerləşəcək o zənginliyin şahidləri olacaqdıq, amma saraydan qıraqda, lap elə neçə illər qabaq yaşadığım Şənbi-Qazan məhəlləsində yerləşmək məndən ötrü daha rahat olardı. İstəyimi İbrahim xana söyləməyə cəsarətim çatacaqdımı, bunu bilmirdim, hər halda yolda fürsət tapıb Mirzə Hüseynlə bu barədə məsləhətləşmək pis olmazdı. Bəxtimizdən Qarasu çayını xatasız-filansız, rahat keçdik. Hələ Qarasunun da, ona qarışan Əhər çayının da mənsəbindəki dağlarda qar əriməyə başlamamışdı, hava mülayim olduğundan su da soyuq deyildi. Bələdçilərin dəvələri salıb ayarladıqları dayaz yerdə su atın döşünəcəndi, ayaqlarımızı islatmamaq üçün yuxarı qaldırmalı olduq. Şübhəsiz, qatırçılara bel bağlayıb kitab dolu sandıqları onların ümidinə

buraxmadıq, Mirzə Hüseyn bundan ötrü dəvələrdən birinin yükünü boşaltdırıb sandıqların ardınca göndərdi.

292. Bir qədər sonra çadırlar qurulmuş, tonqallar qalanmışdı, yüngül meh tüstü qoxusuyla yanaşı iri qazanlarda bişən yeməklərin qoxusunu da qovub gətirirdi. Ordugahın sol yanında hündür təpələr, sağ yanında lillənə-lillənə axıb gedən Araz idi, Qarasunun dumduru, Arazınsa bulanıq sularının qarışdığı yerə baxa-baxa beynimdən keçirdim ki, İbrahim xan Ərdəbil yolunu seçmədi, ola bilsin, Səfəvilərin vətəni onda xoşagəlməz duyğular oyadır, ya da camaatın hələ olub-keçənlərdən xəbərsizliyini anlayıb qarışıqlıq yaranacağından ehtiyat eləyir. Əvvəla, Təbrizdə yerini möhkəmlətməli, güney Azərbaycanın hər yerinə – Səlmasa, Urmiyaya, Marağaya, Miyanaya, Səraba, Ərdəbilə, Xoya… adamlarını yerləşdirib arxayınlaşmalı, idarəçiliyin ipini əlində yığmalı, sonra istədiyi yerə getməliydi. Quzeydə – Nəqşivanda, Qarabağda, Rəvanda, Gəncədə, Şirvanda, Dərbənddə, Kaxet və Kartlidə hər şeyi hökmdar özü yerbəyer eləmişdi, qardaşına ancaq onların üstündə göz olmaq qalırdı. Günorta namazından və yeməkdən sonra Mirzə Hüseyn dincəlmək istədiyini söylədi, ola bilsin, Təbrizə yaxınlaşdıqca həyəcanı artır, duyğularından kimsənin xəbər tutmaması üçün tək qalmaq istəyirdi. Mən mülayim havadan xoşallana-xoşallana Qarasu çayı boyunca Araza töküldüyü yerə getdim. Az sonra arxamdan iki nasaqçının gəldiyini gördüm, ola bilsin, Mirzə Hüseynin tədbiriydi, qəfildən başıma gələ biləcək vaqiələrdən qorxurdu. İki çayın birləşdiyi yerdə xırda kolluqlar vardı, duru suyla bulanlıq suyun qarışdığı qovuşuqda xeyli dayanıb Arazın üfüqdə gözdən itən səthinə, yaxındakı boz təpələrə, uzaqlardakı başıqarlı dağlara baxdım.

293. Həmin məqamda Anadoluda Qızılirmaq çayının qırağında da beləcə dayanıb günəşin batmasına baxdığımı da xatırladım, sonra beynimdən keçirdim ki, görəsən, Arazı o tərəfə keçmək mənə nəsib olacaqmı, görəsən, bir də Kürün qırağında dayanıb Narınqala divarlarına baxa biləcəyəmmi? Ömrüm boyu saysız-hesabsız qalalar, qəsrlər gördüm, amma Narınqalanın məndə oyandırdığı duyğunu sözlə ifadə eləyə bilmərəm, bir onu deyə bilərəm ki, aradakı fərq təxminən anayla qadının fərqinə oxşayır. Bu fikir-xəyal içində düşərgəyə qayıdanda Mirzə

Hüseyn dedi, vaxtında gəldin, Xanımız bizi hüzuruna çağırtdırıb. Üzünün ifadəsindən anladım ki, bu dəvətin səbəbini özü də bilmir. Şübhəsiz, paltarımı dəyişməliydim, mən də Mirzə Hüseyn kimi hökmdarımızın bəxşiş verdiyi naxışlı kaftanı geyinib üstündən çərkəz qurşağını bağladım, başıma da təhməzi papağı qoydum. Yolboyu Xanımıza nəyə görə gərək olduğumuzu unamağa çalışırdıq. Əlbəttə, Mirzə Hüseyni çağırmağında elə bir fövqəladəlik yox idi, hər hansı məsələylə bağlı buyrultu yazdıra bilərdi, məni – səyyah-salnaməçinisə hansı səbəbdən çağırdığını anlaya bilmirdim. Eşikağasıbaşı bizi qarşılayıb çadıra aparanda da bir söz demədi. İbrahim xan sağ yanında oğlu Əliqulu xan, sol yanında əmisi oğlu Məhəmməd xan Əfşar, onların ətrafında vəzir, vəkil, mirzə, mirsofi, minbaşılar mütəkkəyə dirsəklənmişdi. Bağır basıb, baş endirib göstərilən yerdə əyləşdik. Fikir verdim ki, Xanımızın kefi kökdü, görünür, Təbrizdən çaparlar gəlib xoş xəbər gətirmişdilər. Qəfildən İbrahim xan üzünü mənə tutub, bir az o yanda oturmuş adamı göstərdi, Mirzə Yusif, dedi, sən dünyanın yarısını gəzmisən, bax gör heç bu adama rast gəlmisənmi. Xanımızın göstərdiyi kimsəyə baxdım, əlli yaşlarında arğaz, xoşsifət kişiydi, əynində nimdaş çuxa, başında dərviş təskülahına oxşayan papaq vardı. Saqqalına dən düşmüşdü, amma mənə elə gəldi ki, gözlərindəki kədər özündən də, zəmanədən də yaşlıdı. Yaddaşımda nəsə çaxdı, amma nə qədər çalışdımsa, o parıltıda bir şey seçmədim, ona görə də əlimi sinəmə qoyub, dedim, vallah, xan sağ olsun, görmüş olsam da, yadıma sala bilmirəm, ola bilsin, yaşdandı, hər halda bu tərəflərin adamına oxşayır, həm də güman ki, söz adamı, ya da dərvişdi.

294. Sonra İbrahim xan həmin sualı Mirzə Hüseynə verdi, Mirzə Hüseyn bağır basıb, dedi, canım sənə fəda olsun, xanım, əgər yaddaşım aldatmırsa, bu şəxs tikmədaşlı Qasımdı, Xəstə Qasım təxəllüsüylə xalq şeri yazır, həm də aşıqlıq eləyir. Yanılmıramsa, bu şeir onundu: *Üç gündü çıxmışam o Tikmədaşdan, / Qapına gəlmişəm canım əlimdə. /Ayağın torpağı, qovma qapından, /Sızıldaram giribanım əlimdə*. İbrahim xan başını tərpədib, dedi, düzdü, Mirzə Hüseyn, özü də deyir tikmədaşlı Qasımam, Şirvana, Dərbəndə, Borçalıya, Rəvana gedirəm, məclislər keçirirəm; dedi, mühafizəçilər bu ətrafda yaxalayıb gətiriblər, mən də fikirləşdim

ki, məclisimizi şərəfləndirsin, gəzdiyi, gördüyü yerlərdən, keçirdiyi məclislərdən danışsın, şeirlərindən söyləyib bizi feyzyab eləsin. İbrahim xanı indicə Mirzə Hüseynin söylədiyi bənd tutmuşdu, aşığın üzünə baxıb, dedi, bir halda ki, deyirsən aşıqdı, çalıb-oxumağı var, məclisimizi şənləndirsin görək. Tikmədaşlı Qasım bağır basıb yerindən dikəldi, əlini atıb çadırın divarına söykədiyi sazı götürdü, köynəyindən çıxarıb təzanəni simlərin üstündə gəzdirdi, sonra ortalığa çıxıb nisgilli, pəs səslə oxudu. Ardınca İbrahim xan dedi, bir əhvalat danış, aşıq da bir neçə il qabaqkı Dərbənd səfərini söylədi. O oxuduqca ordan-burdan təqdir səsləri eşidilirdi. Mənisə Tikmədaşlı Qasımın səsindəki nisgil alıb aparmış, yenə yurdum-ocağım yadıma düşmüşdü. Ona qulaq asa-asa uşaq çağlarımda Şeytanbazarda gördüyüm, Borçalıdan, Göyçədən, Çıldırdan, Qarsdan, Təbrizdən gələn, atamın huş-guşla qulaq asdığı aşıqları xatırlayırdım. Elə adım da aşıqlardan yadigar qalmışdı, bunu rəhmətlik anamın demişdi; həm də təkcə mənim yox, Züleyxanın adı da... Bu Tikmədaşlı Qasım necə deyib? *Qapına gəlmişəm canım əlimdə...* Məclis bitəndə İbrahim xan üzünü Mirzə Hüseynə tutdu, dedi, aşıq sənin qonağındı, səhər yola salarsan, sonra Qasıma Şahımızın adına kəsilmiş on sikkə, bir dəst paltar verilməsini əmr elədi…

# III

# TƏBRİZƏ APARAN YOLLAR

*Abbas bu sözləri deyər sərindən,*
*Arxı vurun, suyu gəlsin dərindən,*
*Söz bir olsa, dağ oynadar yerindən,*
*El bir olsa, zərbi gərək sındırar.*

*Abbas TUFARQANLI*
*(XVI-XVII yüzil)*

295. O gecəni çadırımızda gecələyən Tikmədaşlı Qasımla çox söhbət elədik. Aşıq uşaqlığından, Osmanlı və kürd basqınlarından, kəndlərinin talan olunmasından, bir parça çörək ucbatından sazını götürüb yollara düşdüyündən, ölkə-ölkə, diyar-diyar dolaşdığından, məclislər keçirib, aşıqlarla deyişdiyindən danışdı. Dediyinə görə, indi qürbətə üz tutmağının bir səbəbi də Təbrizdə, ətraf kəndlərdə baş alıb gedən qıtlıqdı. Dedi, aclıq camaatı çəyirtkə kimi qırır, bir çanaq arpanı tapmaq belə müşkülə çevrilib, bu tərəfdən də təzə padşahımızın adamları gəlib vergi istəyirlər, camaat da gərək həm qarnını doydursun, həm də əkibsəpsin ki, vergi verməyə bir şeyi olsun. Dedi, qapıda davar da qalmadı, satıb una-dənə verdik, indi gedirəm, qışa dönənəcən o tərəflərdə günümü yola verim, görək axırı nə olacaq. Təskinlik verib söhbəti sazın-sözün üstünə gətirdik, Tikmədaşlı Qasım özündən çox Tufarqanlı Abbasdan danışdı, dedi, məndən ötrü ustad məqamındadı, nə öyrənmişəmsə ondan öyrənmişəm, sonra ustadının və özünün bir neçə mükəmməl şerini söylədi, hayılmayıl oldum. Mirzə Hüseyn dedi, səfərdən qayıdanda Təbrizə xəbər çatdır, bəlkə, qismət oldu, görüşdük. Tikmədaşlı Qasım da, cavabında başını buladı, dedi, mən saraylardan uzaq adamam, yerim elin içidi, ocağıma gəlsəniz, gözüm üstə yeriniz var. Gecədən xeyli keçmiş yatağımıza uzandıq, səhər də obaşdan qalxdıq, qonağımızın heybəsinə Allah verəndən qoyduq, halal-

hümbət elədik, nasaqçılara tapşırıb çaydan o tərəfə keçdiyinə əmin olandan sonra rahatlandıq. Artıq ordugah tərpənmiş, atlar, arabalar, dəvələr, qatırlar səfərə hazır dayanmışdı, carçıların hay vurmasıyla da yola düzəldik. Yüngül yaz dumanı get-gedə dağılır, günəş dağları, elə bil, sonsuzluğun içindən çəkib çıxarırdı. Əvvəl üzü quzeyə gedən Tikmədaşlı Qasım barədə düşündüm, beynimdən keçirdim ki, quş kimi azaddı, sazını çiyninə salıb ölkə-ölkə, mahal-mahal, oba-oba gəzir, səxavətli, saz-söz qədri bilən adamların qonağı olur, məclislər keçirir, şeirlər qoşur, dəyişir, nə xana möhtacdı, nə də hökmdara.

296. Sonra yolları xəyalıma gətirdim, yadıma düşdü ki, Qəzvində olanda Yaqut əl-Həməvinin «Muğəm əl-Buldən», Həmdullah Qəzvininin «Nizhətül-qülub» əsərlərini oxumuşam. Əl-Həməvi ölkələri əlifba sırasıyla sadalayır, Qəzvinisə əsərini «Ürəklərin əyləncəsi» adlandırıb. Qəzvini şəhərləri bir-bir təsvir eləyir, iqlimindən tutmuş kəhrizlərinin sayınacan yazır, o kitabı götürüb məmləkəti dolaşmaq olar. Mən Şahımızın yığnaq keçirdiyi yerin Guştəsfi adlandığını o kitabdan öyrənmişdim, arada Mirzə Hüseynə də söylədim, xəbəri olmadığından çox maraqlandı. Sonra kitabın naşı xəttat tərəfindən köçürülən əlyazmasına Ərdəbildə rast gəldim, olan-qalanımdan verib aldım, çünki mənə xətdən çox kitabda yazılanlar gərək idi. Bu tərəflərdə iki kərə olsam da, gəzib-görməyə, təbiəti, iqlimi, dağları, şəhərləri, kəndləri, yolları barədə bitkin təsəvvür əldə eləməyə, gördüklərimi, bildiklərimi kağıza köçürməyə macal tapmamışam. Müsyö Syör dö Gardənlə İstanbuldan Qəzvinə gedəndə Əhərdən keçdik, qızılbaşlardan canımı qurtarıb İstanbula üz tutandasa, Ərdəbildən Qaradağa, ordansa Ordubada getmişəm. O vaxtlar ruhi vəziyyətim eləydi ki, nə vaxtsa səyyah kimi kitab yazacağımı heç ağlıma gətirmirdim, İsfahanda kağıza köçürdüklərimsə məndən ötrü yaddaş saxlancından başqa bir şey deyildi. İndi yadıma salıram ki, Həmdullah Qəzvininin kitabında bu yolların fərsəng-fərsəng təsviri var. Məsələn, biri elə bu getdiyimiz Qaradağ-Təbriz yolu. Qəzvini yazır ki, Araz çayının sahilindən Bəcərvana kimi on beş fərsəng, Bərzəndə qədər dörd fərsəng, vəzir Tacəddin Əlişah Tərizinin tikdirdiyi Rabat-Eyvanacan altı fərsəng, Sahib-divanın kəndi Bəhlətana qədər səkkiz fərsəng son-

ra Rabatdan keçib Dərrah Fəruçay dərəsində dayanmaqla Əhər şəhərinə kimi səkkiz fərsəng yoldu. Əhərdən Gökcə Mil dərəsilə keçməklə Ərminan kəndinə qədər altı fərsəng, vəzir Əlişahın tikdirdiyi Rabat Yalduqu ötəndən sonra Təbrizə səkkiz fərsəngdi. Qəzvini Qarabağdan Təbrizəcən əlli beş fərsəng olduğunu yazır, biz də Xanımızın əmrilə gündə azı on-on iki fərsəng yol gedirik, həm də kəsə yolları üstün tuturuq, bu səbəbdən axşamacan Kəleybərə çatacağımıza şübhəm yoxdu. Ola bilsin, artıq ön dəstə Əhərə çatıb şəhər Xanımızın gəlişinə müntəzirdi.

297. Dağların keçidində bizi bələdçilər qarşıladı, görünür, Xanımızın ön dəstəsi, doğrudan da, hər şeyi yerbəyer eləmişdi. Kəleybərə axşam gün qüruba əyiləndə yorğun-arğın, az qala, sürünə-sürünə girdik. Dağ keçidində işimiz xeyli çətin olmuşdu, atların qantarğasından yapışıb irəlidən gedən bələdçilər olmasaydı, o yolu keçməyimiz müşkül məsələydi. Düzdü, ömrümün təxminən əlli ilini yollarda keçirmişdim, bundan da çətin keçidlər keçmişdim, amma, görünür, indi yaş özünü bildirirdi, bəlkə də səbəbi tamam başqaydı, ömrümün hədəfinə bu qədər yaxın olduğum bir vaxtda mənasız ölümə tuş gəlmək istəmirdim. Mirzə Hüseynin də görkəmində üzüntü vardı, hətta gün işığında belə qorxu izlərini də sezmək olardı. Bizi şəhərin bir fərsəngliyində qarşılayan Kəleybər hakimi Mehdiqulu xanın dediyinə görə, keçidi vaxtında keçmişdik, çünki əlamətlər bu gecə həmin səmtdə güclü yağış olacağından xəbər verirdi. Mirzə Hüseyni, məni, bir də baş dəftərdar Mirzə Qulamı şəhər qazısı evinə apardı, şam eləyəndən sonra söhbətə çox aludə olmadıq, dərhal yatmaq istədik ki, obaşdan yola çıxmağa tavanımız olsun. Amma səhər məlum oldu ki, Mehdiqulu xan haqlıymış, gecə Əhər tərəflərdə bərk yağış yağıb, indi Göncə Mil dərəsində sellər-sular oynayır, bu səbəbdən səbir eləyəcək, yolun açılmasını gözləyəcəyik. Şəhərdə də xırda yağış başlamışdı, günortaya yaxın əməlli-başlı bərkidi, heç burnumuzu evdən eşiyə çıxara bilmədik. Qazı dünyagörmüş, həm də oxumuş adammış, olub-keçənlərdən xeyli maraqlı əhvalat danışdı, osmanlılar hücum eləyəndə şəhər camaatının necə Babək qalasına çəkilib vuruşduğunu nağıl elədi. Qazı şəhərdəki qıtlığa mümkün qədər toxunmadı, hər dəfə söz düşəndə dedi, şükür, Xanımızın səxavətindən dolanırıq, onsuz

da yazbaşı hər yerdə bu cür olur, köhnə tükənib, təzə hələ çıxmayıb, Allahın nemətindən mer-meyvə, göy-göyərti tez bir zamanda yetirəcək. Sonra söhbət şerə-sənətə keçdi, qazı yeniyetmə vaxtlarında Rüknəddin Məsud Məsihini gördüyünü, sonralar onun «Vərqa və Gülşa»sını, az qala, əzbərlədiyini, gəncliyindən Məhəmməd Əmaninin vurğunu olduğunu söylədi, Əmanidən: *Bu fənadə beş gün üçün başda yüz sevda nədir?/ Çün degil baqi, xəyali-məskənü nəva nədir?* – beytilə başlayan qəzəli dedi.

298. Eşiyə ancaq günorta namazından sonra çıxdıq, qazının eyvanından Kəleybər qalasının görkəminə uzun-uzadı baxdım. Qazı dedi, İbrahim xan qalaya çıxıb, görünür, nə vəziyyətdə olduğunu gözlərilə görmək istəyib ki, ehtiyac yarananda istifadə eləsin. Əlbəttə, Xanımız bizi çağırtdırmaq istəməyibsə, deməli, belə məsləhətdi, əvəzində məscidi, mədrəsəni, kəhrizləri gəzməyə vaxtımız var. O cür də elədik, mədrəsədə Axund Şərifəddinin savadından, məsciddə Molla Müstəcəbin avazından razı qaldıq. Molla xeyli duruxa-duruxa, tər tökə-tökə bundan sonra dinimizin necə olacağını, sünnilərlə şiələrin birgə necə ibadət eləyəcəklərini soruşdu, bu məqamda Mirzə Hüseyn qazının çox əndişələndiyini sezib, Şahımızın tezliklə bu məsələyə əncam çəkəcəyini söylədi. Sonra bazarı dolaşdıq, evinin olub-qalanını bir çanaq buğdaya dəyişmək istəyənləri gördüm, bər-bəzəyini verib bir parça çörək alanları gördüm, aclıqdan bitab olub yerə yıxılanları gördüm. Əlbəttə, qazı bütün bu gəzintinin tez başa çatmasını istəyir, ona görə də cürbəcür bəhanələrlə bizi evə aparmağa çalışırdı, buna da nail ola bildi. O axşamı söz-söhbətlə yola verib yatdıq, səhər obaşdan, sübh namazından bir az sonra təbillər vuruldu, kərənaylar çalındı, hazırlaşıb Əhər yoluna çıxdıq. İbrahim xan dincəlmiş, rahatlanmış kimi görünürdü, bu səbəbdən carçılar yolda ləngiməməyi, günorta namazına dayanıb, axşam şər qarışana kimi Əhərə çatmalı olduğumuzu xəbər verəndə bəri başdan çətinliyi nəzərə aldım. Amma yol rahat idi, ona görə də geniş bir vadidə nəfəsimizi dərib, yeməyimizi yeyib, təzədən yola düzələndə çox yorğunluq hiss eləmirdim. Mirzə Hüseynlə tez-tez atımızı dəhmərləyir, olub-keçənlərdən söhbət eləyir, yolun uzunluğu barədə fikirləşməməyə çalışırdıq. Deyirdim, bir ərəb məsəli var, insan otuz il səyahət eləməli, otuz il də yazmalı,

görüb-bildiyini, dərk elədiyini hamıya danışmalıdı; mən otuz il oxudum, otuz il gəzdim, Allah ömür versə, otuz il də yazmaq istəyirəm. Mirzə Hüseyn deyirdi, mən də otuz il oxumuşam, amma otuz il səyahət eləmək, otuz il də yazmaq mənlik deyil, kitabların üzünü köçürmək, oxuduqlarımdan zövq almaq bəsimdi. Əlavə eləyirdim ki, bunca yaşayıb Peyğəmbərimizin yaşına çatmışam, bundan sonra otuz il yaşamağıma ümid yoxdu, üç-beş il də bəsimdi ki, macal tapıb kağıza köçürə bilmədiklərimi qələmə alım. Mirzə Hüseyn deyirdi, Allah rəhm eyləyəndi, arzunu yerinə yetirər.

299. Axşam Əhərdə canımızdakı yorğunluğu çıxarmaq üçün evinə qonaq düşdüyümüz dəftərdar Mirağanın qulağına hamama getmək istədiyimizi söylədim. Mirağa dərhal əl-ayağa düşdü, hamama adam göndərib qonaqlar üçün hazırlıq görmələrini tapşırdı. Axşam namazından sonra Mirağanın nökəri bizi hamama apardı, çıraq işığında da olsa, əməlli-başlı çimib-kisələndik, Muğan çölündən yola çıxdığımız günlərin hisini-tozunu, ağrı-acısını canımızdan təmizləyib xeyli rahatlandıq. Düzünü deyim, arada kisəçi Mirzə Hüseynə qulluq eləyənəcən xeyli mürgülədim, xəyalımda Tiflisi, anamın qardaşımla mənim əlimdən tutub hər həftə hamama apardığını, özümüz boyda balaca uşaqlarla birgə çılpaq anaların arasında çimdiyimizi, bir az böyüyəndən sonra bizi hamama aparmaq vəzifəsinin atama keçdiyini canlandırdım. Hər dəfə hamamdan qayıdandan sonra qarışıq yuxular görürdüm, həmişə də yuxularımda tanımadığım, adını bilmədiyim gözəl qadınlar olurdu, özüm də gerçəkdəkindən xeyli böyük, həddi-buluğa çatmış yaraşıqlı oğlandım. O məqamda özümdən ixtiyarsız günah da işləyirdim, bundan da yalnız səhər yuxudan oyananda xəbər tuturdum. Bu gecəni də eyni yuxuları gördüm: özüm də, o qadın da eyni on yeddi-on səkkiz yaşındaydıq, aşiq-məşuq kimi sevişirdik. Həm də o qadının üzü Züleyxanın on üç-on dörd yaşında gördüyüm üzünə elə oxşayırdı ki, əlli ildə cizgilərinin yaddaşımda belə təzə-tər qaldığına özüm də məəttəl qalırdım. Amma gündüzlər Züleyxanın xəyalımdakı surəti ilğım içində görünür, yayılıb-dağılırdı. Həmişə də yuxularımın mənə niyə xəyallarımdan daha sədaqətli olduğundan baş açmağa çalışır, nə qədər çək-çevir eləyirdimsə ucunu bir tərəfə çıxara bil-

mirdim; görünür, elə şeylər var ki, bizdən ötrü sirr kimi qalması məsləhətdi. Aləmin azmı sirri var, hansına yetdik ki, buna da yetək. Elə mənim yurduma-ocağıma getdiyim məqamda Muğan çölünə gəlib çıxmağım, ordan da Təbrizə yollanmağım, bundan sonra başıma gələcəklər də sirr idi.

300. Düzü, səhər Təbriz yoluna çıxanda özümü gümrah hiss eləyirdim, elə bil, günlərlə yatıb dincəlmişdim. Məscidlər, mədrəsəylə yanaşı təkcə sorağını ötən dəfə Əcəm torpağına qədəm basanda aldığım Şeyx Şəhabəddin Əhəri türbəsini ziyarət eləməyə macal tapmışdım, buna da darılmırdım, ola bilsin, yolum nə vaxtsa yenə burdan düşəcəkdi. Əhər hakimi Ələmqulu xanın zurnalı-təbilli dəstəsi bizi Əhər çayınacan ötürdü, çayı keçib yolumuza düzələnəcən o tayda dayanıb şadyanalıq elədi. Yenə carçılar tez-tez irəli-geri çapır, ləngiməməyi, axşam Təbrizə çatmaq üçün cəld tərpənməyi yada salırdılar. Qatırçılar qatırları çubuqlayır, arabaçılar öküzləri şallaqlayır, atlılar atları qırmanclayırdılar, təkcə dəvələr iri, rəvan addımlarla yeriyir, löhrəm yerişli atlardan belə geri qalmırdılar. Yenə Mirzə Hüseyn Təbrizdə keçirdiyi günlərdən danışırdı, bu dəfə daha çox artıq bizə qoşulan Mirzə Qulama cavanlıq xatirələrini dilə gətirirdi. Sonra Birinci Şah Təhmasibin tikdirdiyi sarayın vəsfinə keçdi, keşikçixanasından tutmuş köşklərinəcən hər şeyi təsvir elədi, axırda Osmanlılar şəhəri topa tutduğu vaxt gördüklərini nağıl elədi. Düzü, Mirzə Hüseyn yaxşı danışıq qabiliyyətinə malik idi, hər şeyi elə yerli-yataqlı nağıl eləyirdi ki, əlavə sual verməyinə ehtiyac qalmırdı. Onun danışdıqlarına qulaq asa-asa beynimdən keçirdim ki, Mirzə Hüseyn bu gördüklərini kağıza köçürsəydi, əvəzsiz iş olardı, ən azı, gələcəyə məmləkət tarixinin o yerləri mükəmməl şəkildə çatardı. Bunu günorta namazına dayananda özünə dedim, təəssüfləndi ki, əlimdən gəlmir, qorxuram yazsam, istədiyim kimi çıxmaya. Onu qınamırdım, mən bilən, *danışmaq üçün qulaq asmağı, yazmaq üçün fikirləşməyi bacarmaq lazımdı,* bu xüsusiyyəti də Mirzə Mehdidə görmüşdüm, özünü tərif olmasın, Allah çox şeyi məndən əsirgəmişdi, amma mən də dinləməyi, düşünməyi özümə peşə eləmişdim, yazacağımsa qismətdən asılıydı.

301. Nəfəsimizi bir də Acıçayın qırağında dərdik. Əvvəlcə qoşun Məhəmməd xan Əfşarın başçılığıyla o taya keçib dayandı,

sonra bərbəzəkli dəvənin belindəki təxti-rəvanda İbrahim xan və oğlu Əliqulu xan çaydan adladılar. Ayaqlarım azacıq islansa da, keçməyim bir elə çətin olmadı, amma gözlərim hey qatırçını axtarırdı ki, kitab dolu sandığımızı sağ-salamat o tərəfə çıxardığına əmin olum. Görünür, Mirzə Hüseyn əvvəlcədən tədbir görübmüş, sandıqları əlimlə yoxlayıb arxayınlaşandan sonra atlara süvar olduq. Şəhər darvazasının qabağında çoxlu camaat yığışmışdı, biz yaxınlaşanda «Şahımız var olsun!», «İbrahim xan var olsun!», «Allah xanımıza uzun ömür versin!» qışqırdılar, ardınca yerə döşənib təzim elədilər. Şəhərin hakimi vəzir-vəkil, qazi, müfti, mollabaşı, xanlar-bəylərlə irəli çıxıb Təbriz qalasının açarını İbrahim xana təslim elədi. Ardınca İbrahim xan işarə verdi, darvazaları taybatay açdılar, Xanın dəstəsi, qoşun, sonra da yüklü qatırlar, dəvələr, arabalar camaatın arasından keçib Təbrizə girdi. Az qala, iyirmi il əvvəl qədəm basdığım, ömrümün bəzən xoşbəxt, bəzən sıxıntılı günlərini keçirdiyim bu təkrarsız şəhərə indi, deyəsən, uzun müddətə gəlmişdim, həmin müddətin nə qədər çəkəcəyinisə hələlik Allahdan başqa kimsə bilmirdi; güman ki, İbrahim xan burda oturub qalmayacaqdı, məmləkətin quzeyinə – Şirvana, Dərbəndə, Gəncəyə, Rəvana, Nəqşivana... səfərə çıxacaqdı, mən də o səfərlərin iştirakçısı olacaqdım, ömrüm də Allahın məsləhət bildiyi yerdə sona çatacaqdı. Fikrimdən keçirdim ki, *insan ağlayanda, dua eləyəndə, sevəndə, xəyala gedəndə gözlərini yumur, yəqin dərk eləyir ki, həyatının ən gözəl məqamlarını görmür, qəlbiylə duyur.* Şəhər darvazasından keçəndə mən də bir anlığa gözlərini yumub Təbrizi bütün ruhumla duymağa üstünlük verdim...

# IV

# SARAYDAKI QƏRİB

*Məni dövrani-fələk eylədi bimarü-qərib,*
*Əcəbül bar kim, ola dövləti-didar nəsib.*

*Məhəmməd ƏMANİ*
*(XVII yüzil)*

302. Şahımızın vəliəhdi, Azərbaycanın valisi, qoşunların sərdarı Məhəmməd İbrahim xan Əfşar Zahir-üd-dövlə Təbrizdə Birinci Şah Təhmasibin tikdirdiyi sarayda yerləşdi. Bir tərəfi daş, o biri tərəfi iki dirsək qalınlığında torpaq divarla dövrələnmiş sarayın görkəmi doğrudan da şahanəydi. Sarayın günçıxan tərəfdə, bir də azacıq güneydə olan iki darvazası vardı, birinci darvazanın önündə Meydan yerləşir, səfərə çıxanda Xanımızın qoşunu bu meydanda yığışırdı. Sarayın quzey və günbatan tərəflərində üç gözəl məscid vardı, güney tərəfdəsə hasara alınmış bağ uzanıb gedirdi. Meydanın günbatan səmtindəki evdə Xanımızın əmisi oğlu, həm də sağ əli Məhəmməd Əfşar xan yerləşdi. Onun evindən bir az günçıxan səmt də, bağlara axan arxın üstündə körpü vardı, körpünü keçir, bağların taxta hasarlarının arasıyla gedib keşikçi başının keşikxanasına rast gəlirdin. Sol yandakı yol sarayın xəzinəsinə aparırdı. Xanın yataq otaqlarına çatmamış oğlu Əliqulu xanın və Məhəmməd xan Əfşarın keşikxanaları yerləşirdi. Sonra baş vəzir Mirzə Turabın keşikxanası, onun arxasındasa uca qülləsi olan, daş bəzəkli, mavi rəngli sursatxana görünürdü. Xanımızın divanxanasında elə baş vəzirin keşikxanasını keçib girirdik. Əvvəlki iri otaqda silahlı keşikçilər otururdular, bir işarəylə yerlərindən atılıb qılınclarını sıyırmağa bənd idilər. Həmin otaqdan dörd böyük və gözəl salona qapılar açılır, hər qapının önündə də ayıq-sayıq qapıçılar dayanırdı. Xanımızın oturduğu otaq balaca olsa da çox gözəl idi, divarları mavi rəngdəydi, yarpağaoxşar naxışlarla bəzədilmişdi. O biri böyük

otaqlarda xanlar, bəylər, sultanlar divar boyu əyləşib Xanımızın əmrini gözləyirdilər. Günbatan səmtdə Xanın yataq otaqları, hamamı, mətbəxi, bir az o tərəfdəsə at tövlələri, kiçik məscid yerləşirdi. Sursatxananın yaxınlığındakı dördsütunlu hovuzu da əvvəlki görkəminə qaytarmışdılar, Xanımız hovuzun ətrafında gəzməyi, suda yüz oyun çıxaran balıqlara baxmağı xoşlayırdı.

303. Mirzə Hüseyn Xanımızın nazik damarını necə tapmışdı bilmirəm, öz evində yaşamağa izin aldı, mənsə sarayın günbatan səmtindəki xidmət otaqlarından birində, dəftərdarbaşı Mirzə Qulamın üzbəüzündəki hücrədə yerləşdim. Otaq balaca olsa da, rahat idi, bir cüt tağlı pəncərəsi meyvə bağına açılırdı. Hələ də axşamlar dağların soyuğu özünü bildirdiyinə görə, divarın içindəki kiçik buxarıya odun atıb qızınmaqdan xoşum gəlirdi, Mirzə Hüseyn hər səhər atla sarayın günçıxan səmtdəki darvazasına gəlir, atını mehtərə tapşırandan sonra dəftərdarbaşı Mirzə Qulamla mənim oturduğum otağa girir, hər an Xanımızdan buyruq gözləyə-gözləyə ailə içində olmağın xoşbəxtliyindən danışırdı. Bu vaxt zəncanlı Mirzə Qulamın necə kədərləndiyini görürdüm; Mirzə Hüseynin dediyinə görə, ailəsini on il qabaq qıtlıq üzündən itirmişdi, o vaxtdan da Böyük Xanın xidmətindəydi. Mənim halımdansa xüsusi danışmağa dəyməzdi, hələ sağ-salamatdım, yaşayırdım, bundan sonra nə olacağınısa, Allahdan başqa bir kimsə bilməzdi. Şübhəsiz, yola çıxandan, illah da Təbrizə yaxınlaşan andan Mirzə Kəmaləddini xatırlayırdı, mənim hesabımla indi Təbrizdə olmalıydı. Xanımızın pişvazına çıxanlar arasında onu görməyəndə rahatsızlığım daha da artıb çoxalmışdı. Sarayda yerləşən günün səhəri beynimi məşğul eləyən fikri Mirzə Hüseynə dedim, xidmətçilərdən birini çağırıb yanıma qoşdu. Şənbi-Qazan məhəlləsinə gedib evini axtarmağa başladıq. Tapanda məlum oldu ki, Mirzə Kəmaləddin bir neçə gün qabaq ailəsini də götürüb təzədən Ərdəbilə köçüb. Bunu söyləyən qonşusu dedi, uzun səfərdən çox kefsiz dönmüşdü, heç qaşı-qabağı açılmadı, dərhal da Təbrizdə qıtlıq olduğunu bəhanə gətirib yenə Ərdəbilə, yaxın qohumlarının yanına getmək fikrinə düşdü. Könül sirdaşımı tapa bilməsəm də, başa düşdüm ki, Mirzə Kəmaləddinin bu qərarı qıtlıq-filanla bağlı deyil, canı-qanıyla bağlı olduğu Səfəvi xanədanının süqutu on-

dan ötrü çəkilməz dərdə çevrilib. Yəqin fikirləşir ki, Şahımız nə qədər olsa da, Səfəvilərin ocağı olan Ərdəbilə toxunmağa cəsarət eləməz. Əlbəttə, qənaətimi Mirzə Hüseynə söyləmədim, eləcə Mirzə Kəmaləddinin qıtlıq ucbatından Ərdəbilə, qohumlarının yanına köçüb getdiyini dedim. Kim bilir, yolum Ərdəbilə düşəcək, ağır günlərimin yoldaşı olan o duyğulu insanı bir də görə biləcəkdimmi.

304. Xanımız bir neçə gün dincəlib şadyanalıq məclislərdən cana doyandan sonra saray və dövlət işlərilə məşğul olmağa başladı. Əvvəlcə dəftərdarların sayını artırdı, vergilərin toplanmasını, hər tümənin dəftərə salınmasını istədi, görünür, bu Şahımızın əmriydi. Təbrizə girdiyimizdən üç həftə sonra Muğan çölündən çapar gəlib hökmdardan namə gətirdi. Naməni xanın hüzurunda Mirzə Hüseyn oxumuşdu, dediyinə görə, Şahımız Əlimirzə xanı Tiflisə göndərib, əmr eləyib ki, üç min tümən vergini ləngimədən yığıb xəzinəyə təslim eləsin, dövlət işlərində də Səfi xan Buxairinin məsləhətlərinə qulaq assınlar. Məlum olurdu ki, Şahımız Muğan çölündən artıq tərpənib, Qəzvinə doğru yola çıxıb, İbrahim xanın da işləri yoluna qoyub Qəzvinə getməsini əmr eləyir. Şübhəsiz, əlahəzrət Şahın Qəzvinə gəlməkdə məqsədi axır vaxtlar Səfəvilərin paytaxtı olan İsfahanda yox, qurmaq istədiyi dövlətin paytaxtında bir daha taxta çıxmaq, tacın sahibi olduğunu göstərməkdi. Bu öz yerində, amma məni başqa şeylər də maraqlandırırdı: məsələn, indi Kaxet və Kartlinin hakimi kimdi – Teymuraz, Tamara, Əlimirzə xan, yoxsa Səfi xan Buxairi? Şahın hüsnü-təvəccöhündən istifadə eləyib Xanımızın əmrlərinə uymasalar, necə olacaq? Yaxud kəfəni boynuma dolayıb Xanımıza erməni xəlifənin işdəklərini yerli-yataqlı danışsam, ortada gedən oyunlara inanarmı? İnanarmı ki, alban xaçpərəstlərinin xəlifəsi Qriqorinin tikdirdiyi Üçmüəzzinin, yəni Üçkilsənin, daha doğrusu, Qədirverənin ermənilərə dəxli yoxdu? İnanarmı ki, lənətüllah Böyük Şah Abbası əllərində oyuncağa çevirən, İsfahan yaxınlığında Yeni Çulfa saldırıb, Üçmüəzzində gizli yığnaqlar keçirən, Osmanlı və Səfəvi saraylarındakı üzdə müsəlman, gizlində xaçpərəst hamilərinin köməyilə günbatan məmləkətlərin hökmdarlarını Osmanlı və Səfəvi məmləkətlərinə təcavüz eləməyə çağıran qövmün əsl niyyəti nədi? İnanarmı ki, culfalı akoplar, xoca

səfərlər, israel orilər Günbatan məmləkətlərinə, Moskov çarlığına əbəs yerə ayaq açmayıblar? İnanarmı ki, erməni zərgərlərinə hazırlatdığı saxta qədim qızıl pulları çara verib özünü Urartu-erməni taxtının varisi kimi təqdim eləyən ovsep arqutyanlar, Dəli Petronu Qafqazbərisinə çağıran kəslər gələcəkdə xanədanın başına bəla olacaqlar? Şahın xəzinəsindən almaz tacı oğurlayıb Moskov çarına peşkəş aparmağı bacaranlar, gizlicə İspan kralına, Roma papasına, Saksonia hersoquna, Venezia doçuna məktub göndərənlər, Dəli Petroya üzünü güneyə çevirmək ideyasını verənlər bundan sonra boş oturacaqlarmı?

305. O günlərin birində Mirzə Hüseyn Mirzə Qulamı və məni evinə qonaq apardı. Rəbi-Rəşidi məhəlləsində birqatlı, üçgözlü evi vardı, həyətində cərgəylə meyvə ağacları əkilmişdi. Şəhər hakiminin yanında xidmət eləyən böyük, mədrəsədə oxuyan kiçik övladları mərifət yiyəsiydilər, bizi hörmətlə qarşılayıb, qulluq göstərdilər. Mirzə Hüseynin zövcəsini və qızlarını görmədim, adət üzrə biz orda olduğumuz müddətdə gözə görünmədilər. Bağda gəzişib artıq tumurcuqlamağa başlamış ağaclara baxandan sonra orta otaqdakı təndirin qırağında oturduq. Təndirdən təzəcə bişirilmiş çörəyin xoş ətri gəlirdi, o çörəkdən də az sonra açılan süfrədə kəsdik. Mirzə Hüseynin böyük oğlu dedi, qış girəndən qıtlıq Təbrizdə də özünü bildirib, camaat qarnını doydurmaq üçün evlərində nə var, bazara çıxarıb. Ardınca oğlan gəzən şayiələri danışdı, sən demə, biz düşərgədən çıxandan sonra xeyli hadisələr baş veribmiş; deyilənə görə, Şahımız Muğan çölündə hamıya görk olası bir tamaşa düzəldib: Şamaxı qiyamında önə çıxan iki yüzdən artıq adamın boynunu vurdurub ehram düzəltdirib ki, bir daha kimsə bu fikrə düşməsin, indi o ehramın üstündə qarğa-quzğun dolaşıb yoldan ötənləri dəhşətə gətirir. Mirzə Hüseyn tez söhbətin səmtini dəyişməyə çalışdı, dedi, şübhəsiz, Şahımız bunu məmləkətin əmin-amanlığa qovuşması naminə eləyib, bir tərəfdə uğanlar dinc oturmurlar, o tərəfdə ləzgilər qan-qan deyirlər, hələ məmləkətin daxilində gözügötürməyənlər də tapılacaq. Sonra oğlan Şahımızın sarayında mirzələrə ehtiyac artdığını, münşi-əl-məmalik Mirzə Möminin şəhərlərə namə göndərib vergiləri doğru-dürüst hesablamağı bacaran mirzələr axtardığını söylədi. Mirzə Hüseyn ehtiyatla da

olsa, oğlunun istəyinə qarşı çıxdı, Şah qulluğunun çətinliyindən, öz ev-eşiyində olmağın gözəlliyindən danışdı, biz də, əlbəttə, onun səsinə səs verdik. Göz gördüyündən qorxar, Mirzə Hüseyn qulluqda olduğu müddətdə haqlı-haqsız başlar vurulduğunu, gözlər çıxarıldığını, boğazlara qurğuşun töküldüyünü... görmüşdü, övladının günlərin birində belə bir aqibətlə üzləşməsini istəmir, "az aşım, ağrımaz başım" həqiqətinə tapınırdı. Onu gözəl başa düşürdüm, ataydı, övladını böyüdüb bu məqama çatdırmışdı, həm də *olan şeyin itkisinə dözmək, olmayanın ağrısına tablamaqdan çətindi.*

306. Mən Qəzvinə gedəsi olmadım, daha doğrusu, Xanımız getməyimi məsləhət bilməmişdi, heç Mirzə Hüseyni aparmağa da ehtiyac duymamışdı, Mirzə Qulamsa heyətdəydi, görünür, Şahımız daha çox əkin-səpin, vergi, gəlir-çıxar məsələlərinə fikir verəcəkdi, uca məqamlara gətiriləcək şəxslərlə maraqlanacaqdı. Əlbəttə, o yığnaqda olmaq istəyərdim, amma Xanımız məsləhət bilməmişdisə, deməli, belə məsləhət idi. İllərin yorğunluğundan sonra müvəqqəti də olsa, asudə yaşamaqdan zövq alır, yolların ağrı-acısını canımdan çıxarmağa çalışırdım. Səhər namazından sonra çıxıb bağda gəzir, yazın məst eləyən havasından, uzun və əzablı qışdan sonra yenidən dirçələn təbiətdən zövq alır, sonra ağlıma bir şey gəlirdisə, yazır, sonra qalan vaxtı yenə bağda dolaşmaqla, kitab oxumaqla keçirirdim. Oxuduğum da Zeynalabdin Əli Əbdi bəyin «Təkmilat-ül-Əxbar»ı idi, Mirzə Qulam bir neçə gün qabaq gəlir-çıxar sənədləri yığılan sandıqların birindən tapıb vermişdi. Gözəl şikəstə xəttilə yazılmış kitabda Böyük Şah İsmayılın və oğlu Şah Təhmasibin hökmdarlıq illərindən danışılırdı. Titul vərəqindəki qeydlərdən məlum olurdu ki, onu yazan Şah İsmayılın zamanında doğulub, Şah Təhmasibin vaxtında sarayda gəlir-çıxar işlərinə baxıb, həm də öz istəyi üzündən Səfəvi xanədanının tarixini yazıb. Arabir hava yaxşı olanda Mirzə Hüseynlə şəhərə, ya çay qırağına gəzməyə çıxır, qala divarlarında on il qabaqkı top güllələrinin izlərinə baxır, küçələri dolaşır, yazın özünü get-gedə daha artıq göstərməsindən zövq alırdıq. Mirzə Hüseyn məni bazarlardan, meydanlardan uzaq tutmağa çalışırdı, yəqin əl açıb sədəqə istəyənləri, var-yoxunu bir parça çörəyə satanları görməyimi istəmirdi. Xanımız bəzi

tədbirlər görsə də hələ şəhər qıtlığın pəncəsindən qurtulmamışdı, yeməyə bir tikə çörək tapmayanlar çöllərə tökülüb pencər yığır, güzəranlarını birtəhər yola verirdilər. Düzünü deyim, həmin məqamlarda qarnımın xəzinə hesabına tox olmasından xəcalət çəkirdim, bunu Mirzə Hüseyn də duyurdu.

307. Xanımızın Qəzvinə gedib-qayıtmağı dörd həftəyə yaxın çəkdi. O müddətdə uzun-uzun yolların ağrı-acısını canımdan çıxarmış, üstəlik, qeydlərimi nizama salıb Muğandan Təbrizəcən başımıza gələnləri kağıza köçürmüşdüm. Saray əhli və əyan-əşrəflə Xanımızı şəhərin günçıxan darvazalarından xeyli irəlidə qarşıladıq, saraya qədər də şadyanalıq səsləri ara vermədi. Səfərdən şad-xürrəm dönən Mirzə Qulamın söylədiyinə görə, Qəzvinə hökmdardan bir gün qabaq çatmış, səhəri günorta namazından sonra Zəncan yolunda Şahımızın pişvazına çıxmışdılar. Hökmdar saraya Şah libasında, ağ atın belində daxil olmuşdu; Mirzə Qulamın dediyinə görə, həmin məqamda, elə bil, aləmə ikinci Günəş doğmuşdu; Şah taxtında əyləşəndən sonra hamı bir-bir bağır basıb itaətini bildirmiş, ardınca şahanə zifayət başlanmışdı. Mirzə Qulam bəylərbəyilərin, valilərin, hakimlərin, minbaşıların olduğu divan toplantısında vergi yığılmasının nizama salınmasını, qoşunun hazır saxlanmasını tələb eləmişdi. Bu tərəfdən də Çaharləng bəxtiyarilərinin hakimi Əli Muradın baş qaldırması Şahımızı bərk qəzəbləndiribmiş; Mirzə Qulamın dediyinə görə, hətta, Məhəmməd Tağı xanın zəbt elədiyi Bəhreynin açarını gətirməsi də onun qəzəbini soyutmayıbmış. Mirzə Qulam onu da söylədi ki, Mirzə Mömin Şahımızın yeni fərmanını hazırlayır, bundan belə, «Əli Allahın dostudu» deyənlər cəzalandırılacaqlar, üstəlik, Fatihədən və Təkbirdən sonra «Qoy taleyimizin sahibi olan hökmdarımız əbədi yaşasın» sözləri söylənməməlidi, çünki Allah bəndəsi əbədiləşdirilə bilməz. Əlbəttə, bununla razılaşmayanlar tapılacaqdı, amma mən Osmanlı sarayına heyət göndərib dini məsələləri yoluna qoymağa çalışdığı bir vaxtda Şahımızın bu fərmanını sağlam düşüncənin nəticəsi sayırdım.

308. Xanımız Qəzvindən qayıdandan bir neçə gün sonra vilayətlərin xanlarını, şəhərlərin hakimlərini, mahalların sultanlarını bir-bir hüzuruna çağırmağa, Şahımızın fərmanını çatdırmağa, öz buyrultularını verməyə, idarə işlərində nizam yaratmağa

başladı. Mirzə Hüseyn xanın əmrlərini güclə yazıb çatdırırdı, Mirzə Qulamsa dəftərdarların sayını artırıb on altıya çatdırmalı oldu, üstəlik, oğlu Həsəni də yanına gətirib xeyli rahatlandı. Çaparlardan biri də Rəvana yola salındı, Pirməhəmməd xan Heratlıya və erməni xəlifəyə xanlar, kələntərlər, məliklər, mirzələrlə birgə yayın birinci ayı Təbrizə gəlmək əmr edildi. Bu müddətdə Əhər, Marağa, Ərdəbil, Miyana, Xoy, Səlmas hakimləri Xanımızın hüzurunda oldular, bir paraları xələt, bir paralarısa tənə alıb vilayətlərinə qayıtdılar. Hər gün günorta namazından sonra Xanımız divanxanaya girib taxtında oturur, solunda oğlu Əliqulu xanı, sağında Məhəmməd xan Əfşarı əyləşdirir, hüzurunda təzim eləyib əli əl üstdə duran hakimləri vilayətlərdəki, şəhərlərdəki, kəndlərdəki, əkin-səpindəki, qışlaqlardakı vəziyyət barədə sorğu-suala tuturdu. Mirzə Hüseynlə mən vəzir-vəkilin arxasında diz üstdə oturub xanın qəzəbindən üşünə-üşünə olub-keçənlərə baxırdıq. Yazın axırında da xəbər tutduq ki, Şahımızın Ağ Banunun yanına göndərdiyi elçilər qayıdıblar. Yayın əvvəlindəsə rusların osmanlılara müharibə elan elədikləri məlum oldu. O vaxt Şahımız bəxtiyarilərlə haqq-hesabı çürüdürdü, Rzaqulu xan da Muğan çölündən birbaşa Məşhədə yollanmışdı ki, Əndhud hakimi Əlimərdan xan Əfşarı, sonra da Bəlx hakimi Əbdülhəsən xanı cəzalandırsın, amma hələ də ondan səs-soraq yox idi. İbrahim xan on yeddi yaşlı qardaşı oğlunun bu işin öhdəsindən gələcəyinə şübhəylə yanaşırdı, bunu divanda da ağzından qaçırmışdı. Şahımız Əliqulu yaşında olan oğlu Rzaqulu Mirzəni Məşhəd hakimi təyin eləyəndə İbrahim xanın narazılığını üzündən oxumaq olurdu. Əliqulu xan ərköyün böyümüşdü, əyləncələr sarıdan özünə korluq vermirdi. Xanımız o biri oğullarını Məhəmməd Əli bəy, Hüseyn bəy və sonbeşiyi Kazımı hələ ki, saray ab-havasından uzaqda saxlayırdı. Görünür, İbrahim xan oğlu Əliqulu xanın daha böyük məqama layiq olduğuna əmindi, hər halda, Vəliəhdin oğluydu. İndi iki vilayətdə at oynadan dikbaş xanların təhər-töhüründən belə görünürdü ki, Rzaqulunu saya almırlar. Düzdü, quzey sərhədlərdə də ləzgilər dinc durmurdular, ancaq İbrahim xan onları yerində oturtmağı bacarar, bunu az müddətə hamıya göstərəcək...

# V

# RƏVANDAN GƏLƏN QƏFİLƏ

*Ey iki gözüm, özün qıl iqrar,*
*Səndən özgə mənim kimim var?*

***Rüknəddin MƏSİHİ***
***(XVI-XVII yüzil)***

309. Yayın ilk ayı başa çataçatda Rəvandan Pirməhəmməd xanın heyəti Xanımızın hüzuruna gəldi. Gələnlərin arasında erməni xəlifəni görmədim, belə yüksək məqama təşrif buyurmamışdısa, deməli, daha vacib işləri vardı. Axund Ələkbərlə təzədən rastlaşmağımdan çox məmnun oldum. Mirzələr, mirsofilər, kələntərlər, məliklər, erməni xəlifəni əvəz eləyən Əylis vardepti Tumas yerbəyer olub Xanımızın izinini gözləyəndə Axund Ələkbərin hücrəsinə getdim. Köhnə dostlar kimi görüşüb, ayrıldığımız müddətdən sonra baş verən vaqeləri bir-birimizə danışdıq. Axund Ələkbər dedi, Rəvan vilayətinin şeyx-ül-islamı məqamınqda olsa da, iman məsələlərində belə Pirməhəmməd xanın dediklərilə oturub-durmağa məcburam, çünki Şahımız fərmanlarını ona göndərir, vilayətin yiyəsi odu. Şahımızın hazırlatdığı yeni fərmandan danışdım, gözləmədiyim halda Axund Ələkbər də ona haqq verdi, dedi, Allah Qurani-Şərifi Peyğəmbərimiz(s)ə göndəribsə, deməli, Allahın dostu Muhamməddi, Muhamməd Haqqa qovuşubsa, deməli, bu dünyada əbədi bəndə yoxdu. Sonra söhbət erməni xəlifənin üstünə gəldi, məlum oldu ki, qocalığını, yorğunluğunu bəhanə eləyir, amma yenə köhnə işini davam etdirir, alban məbədlərinin yazılarını sildirib, kitabələrini dəyişdirir, kitablarını özü bilən kimi köçürtdürüb, əslini yandırtdırır, olmayan yerlərdə kilsələr tikdirir ki, ermənilər kilsəsiz yaşaya bilməz. Bütün bunları Xanımıza necə çatdıracağımızı fikirləşdik, axırda Axund Ələkbər dedi, kəfəni geyinib bildiklərimi söyləyəcəyəm, nə olar-olar. O gecəni də çox pis yatdım. Axund Ələkbərin ya-

nından qayıdandan sonra Mirzə Hüseynlə xeyli dərdləşmişdik, eşitdiklərimi ona söyləyib bir çarə bulmasını istəmişdim, demişdi, İbrahim xanı on ildən artıqdı tanıyıram, xasiyyətinə bələdəm, belə şeyləri ona söyləmək olmaz. Demişdi, o da Şahımız kimi düşünür ki, ermənilər rəiyyətimizdi, Allahın zavallı bəndələridi, qoy məmləkətimizdə istədikləri kimi yaşayıb, Şahımızın canına dua oxusunlar, həm də müsəlman hökmdarların nə qədər rəhmdil, xeyirxah olduqlarını tacir-tüccarları vasitəsilə aləmə yaysınlar, o «tacir-tüccarların» günbatan məmləkətlərin, hökmdarlarına, Moskov günbatan məmləkətlərin hökmdarlarına, Moskov çarlarına gizli namələr aparıb onları, az qala, xaçlı yürüşünə çağırdıqlarını çox az adam bilir.

310. Mirzə Hüseyn onu da dedi, Movses Xorenlinin xəyal ünsürü olan erməni çarlığı barədə sərsəmlərini latıncaya çevirtdirib ingilis krallığında yeni üsulla basdırırlarsa *(əlavə eləmişdi ki, bunu İstanbuldakı elçiliyimizdən qayıdıb Şahınıza vacib xəbərlər gətirən Mirzə Camaldan eşidib),* deməli, ortada çox böyük mətləblər var. Bütün bunların Xanımıza, Şahımıza çatdırılması məsələsində Mirzə Hüseyn də Axund Ələkbərlə eyni fikirdəydi, belə çıxırdı, məmləkətimizin addım-addım mənimsənilməsilə barışıb səsimizi çıxarmamalıyıq. Bu fikir-xəyal içində vurnuxa-vurnuxa qaldım. Xanımız Rəvan heyətini adəti üzrə günorta namazından sonra divanxanada qəbul elədi. Həmişəki kimi oğlu Əliqulu xan, əmisi oğlu Məhəmməd xan Əfşar, vəzir-vəkil, dəftərdarbaşı Mirzə Qulam yuxarı başda yerlərini tutmuşdular, Mirzə Hüseynlə mən də öz yerimizdə əyləşmişdik. Əvvəlcə Pirməhəmməd xan, arxasınca Axund Ələkbər, sonra vardapet Tumas, ardınca xanlar, bəylər, mirzələr, mirsofilər, kələntərlər, məliklər, kəndxudalar bağır basıb, təzim eləyib divar boyu diz üstdə oturdurlar. Xanımız əvvəlcə əkin-biçindən, camaatın vəziyyətindən başladı, sabah yürüş olsa, vilayətin nə qədər atlı verəcəyini, vergilərin vaxtında yığılıb-yığılmadığını soruşdu. Elə ordaca məlum oldu ki, erməni xəlifə Muğan çölündə Şahımızdan fərman alıb ki, erməni mülklərindən yığılan vergi məbədlərin bərpasına, kilsələrin inşasına sərf olunsun, Xanımız da hökmdarın iradəsinə qarşı dillənib bir söz deməyi ağlına gətirmədi. Həmin məqamda mənim də söyləmək istədiyim söz boğazıma tıxandı, Mirzə Hü-

seyn dizimdən basmasaydı, yəqin dillənib nəsə deyəcəkdim. Bir para xırda məsələləri ayırd eləyəndən sonra Xanımız vergi işində ciddi qayda yaratmağı, azı, dörd-beş min atlının atını, yaraq-əsləhəsini, xərc-xərəcəsini həmişə hazır saxlamağı tapşırıb, hamıdan bir-bir sözü olub-olmadığını soruşdu. Vardapet Tumas Xanımızla təklikdə görüşmək, erməni xəlifənin çox vacib sözünü çatdırmaq istədiyini söylədi. İbrahim xan biz də qarışıq hamının getməsinə izin verib vardapet Tumasla *(əlbəttə, Əliqulu xanla Məhəmməd xan da yanında olmaqla)* tək qaldı.

311. Divanxanadan çıxanda Axund Ələkbərin bu dəfə də fürsəti fövtə verdiyini ağrıyla beynimdən keçirdim. Bundan sonra Xanımızı nəyəsə inandırmaq, fikrindən daşındırmaq ağlasığmaz iş olardı. Mirzə Hüseyn bir qədər söhbətdən sonra Xanımızın tapşırdığı buyrultuları hazırlamağa getdi, mən də Axund Ələkbərlə divanxananın bağçasında xeyli dolaşdım, sonra onu hücrəsinə ötürüb otağıma qayıtdım. Artıq Xanımızdan əmr gəlmişdi, vardapet Tumas da Mirzə Hüseynin yanında oturub buyrultuların yazılıb-möhürlənməsini gözləyirdi. Bu dəfə Xanımız erməni xəlifənin məsləhət bildiyi məbədlərin bərpasına, ehtiyac olan yerdə kilsənin tikilməsinə, erməni elatlarına torpaq ayrılmasına izin verirdi, üstəlik, erməni xəlifənin sərəfrazlığını, yəni o elatlar, məbədlər, kilsələr üzərində hakimi-mütləq olduğunu təsdiqləyir, Rəvan xanına onun bütün istəklərini yerinə yetirməyi buyururdu. Mirzə Hüseynin qələm tutan əlinin necə titrədiyini gördüm, üzündəki yazıq, itaətkar ifadəylə gözlərini o ələ dikən qara paltarlı keşişdən uzaq durmağa çalışdım ki, dilimdən söz, əlimdən xəta çıxmasın. Şübhəsiz, Xanımız göstərdikləri sədaqətə görə bu keşişə, mirzələrə, kələntərlərə, məliklərə, dəftərdarlara qiymətli bəxşiş də verəcəkdi, onlar da şad-xürrəm Rəvana qayıdıb, Nəqşivanda, Gəncədə, Şirvanda, Kartli-Kaxetdə altdan-altdan öz işlərini görəcəkdilər. Sonrakı bir neçə günü də eləcə fikir-xəyal içində dolaşdıq, Mirzə Hüseynlə günahkar kimi, bir-birimizin üzünə dik baxa bilmədik. Yola hazırlaşan Axund Ələkbərə baş çəkməyə də eləcə suçlusayaq Mirzə Hüseynlə birgə getdik. Deyəsən, gecəni pis yatmışdı, xeyli yornuq və əzgin görünürdü, Pirməhəmməd xanın Mirzəsi Mirzə Nəzir də yanındaydı, qırımından hiss etdik ki, başqa söhbət eləməyin yeri de-

yil. Obaşdan yola çıxacaqdılar ki, gün qızanacan düşərgə yerinə çatsınlar. Mirzə Nəzir gedəndən sonra Axund Ələkbərin dərdi açıldı, dedi, Pirməhəmməd xan hökmdardan aldığı əmrlərə əməl eləməkdən başqa bir şey barədə düşünmür: Şahımız fərman, Xanımız buyrultu veribsə, deməli, belə məsləhətdi. Dediyinə görə, canının qorxusundan gecə-gündüz vergilərin toplanması, bir də istənən vaxt qoşunun hazır olması barədə fikirləşir; dedi, hər mahalı ayrıca dəftərdara tapşırıb, dəftərdarlar Şörəyeldən, Talından, Səədlidən, Dərəkənddən, Sürməlidən, Sərdarabaddan, Qarpidən, Seyidli-Axsaqaldan, Abarandan, Zəngibasardan, Qərnibasardan, Qırxbulaqdan, Dərəçiçəkdən, Vedibasardan, Göyçədən, Şərurdan gələn vergiləri xanın hüzurunda dəftərə yazıb möhürlədirlər.

312. Axund Ələkbər onu da dedi ki, xəlifənin sayəsində, Şahımızın səxavətindən erməni mülkləri ayrıca vergi ödəyirlər, onun məbləğini də xəlifə müəyyənləşdirir, hər dəfə də məbədlərin bərpası, kilsələrin inşası bəhanəsilə qoyulan verginin yarısını vermir. Dəftərdarbaşı Mirzə Nəzir də erməni xəlifədən çəkinir, bilir ki, əli Xanımızın da, Şahımızın da ətəyindədi, adamı nahaqdan güdaza verər. Onu yola salandan sonra içimdəki ağırlıq xeyli artıb çoxalmışdı, günlərimi Mirzə Hüseynlə söhbətdə, saray bağında gəzməkdə, kitab oxumaqda keçirirdim. Xanımız yayın isti günlərini şəhərdən qıraqda Şah gölünün ortasındakı yay evində keçirirdi, sarayda təkcə kef məclislərinə ara verməyən Əliqulu xan qalırdı. Şahımızın qurduğu Əfşar xanədanının, yaxın-uzaq ellərdə Dövlət-i-Nadiriyyə, Dövlət-i-Bəhiyye-i-Nadiriyyə kimi tanınmağa başlamış dövlətinin paytaxtına çevirdiyi Qəzvindən və çox sevdiyi Məşhəddən gələn xəbərlərə görə, artıq bəxtiyarilərin axırına çıxmaqdaydı, sığınacaqları Banavar qalasını ələ keçirmiş, aradan çıxmağı bacaran Əli Muradın arxasınca düşmüşdü; deyilənə görə, Şahımızın o tərəflərə göndərdiyi güdükçülər uzun müddət Əli Muradın yerini öyrənə bilmirlərmiş, təsadüfən günlərin birində dağdan bulağa enən bir gəlin görüblər; iki gün sonra həmin gəlinə yenə bulaq başında rast gələndə yaxınlıqda kiminsə gizləndiyini başa düşüblər; ələ keçən gəlin işgəncəyə dözməyib, Əli Muradın mağarada gizləndiyini söyləyib, Şahımızın güdükçüləri də dərhal dağa dırmaşıb mağaranın ağzını kəsiblər: Əli Murad çıxış yolunun qalmadığını görüb, ələ

keçməsinlər deyə, arvad-uşağını öldürüb, özüsə son nəfəsinəcən döyüşüb; deyilənə görə, qəhrəmancasına döyüşən Əli Muradı üç gündən, susuz qalıb taqətdən düşəndən sonra tutub Şüştərə, Şahımızın hüzuruna göndəriblər; Şahımız onun igidliyindən riqqətə gəlsə də, bədbəxtin burnunu, qulaqlarını, əllərini, ayaqlarını kəsməyi, gözlərini çıxarmağı əmr eləyib ki, başqalarına dərs olsun; iki gün qan gölündə üzən Əli Murad, axır ki, canını tapşırıb, sonra Şahımız on min bəxtiyari ailəsini Xorasana köçürməyi əmr eləyib. Bütün bunları Qəzvindən gələn çapar Mirzə Hüseynə və mənə söyləmişdi, o gecə də yuxumda havada çırpınan kəsik qollar görmüşdüm.

313. Payızın birinci ayı Xanımız ancaq vergi məsələlərilə məşğul olurdu. Mirzə Qulam hər gün axşam yeməyindən sonra Xanımızın hüzuruna gedir, hansı vilayətin, mahalın, sultanlığın, şəhərin, kəndin nə qədər vergi verdiyini, nə qədər borclu qaldığını ərz eləyir, qayıdandan sonra, üstəlik, səhəri günorta namazınacan Xanın buyrultularını yazıb, möhürünü basıb çaparla o vilayətlərə, mahallara, sultanlara, şəhərlərə, kəndlərə yola salırdı. Dediyinə görə, cəmi-cümlətanı üç ay ərzində xəzinənin gəliri xeyli artmışdı, bu da o vaxtacan yığdıqlarının yarısını mənimsəyən yerli hakimlərin ölüm qorxusu müqabilində nəfslərini boğmaqlarının nəticəsiydi. Oğlu Mirzə Həsən xəzinəyə gətirilən qiymətli əşyaların gəlir-çıxarıyla məşğuluydu, ipək parça, mahud toplarını, daş-qaşla bəzədilmiş geyimləri, xəncərləri, qılıncları, qalxanları, təbərzinləri siyahıya alır, dəftərdarbaşı Mirzə Qulama möhürlədirdi. Payızın ilk ayında da eşitdim ki, İbrahim xan erməni xəlifəni Təbrizə çağırtdırıb. Səbəbini nə buyrultunu göndərən Mirzə Hüseyn, nə də Mirzə Qulam bilirdi, bunu ancaq heyət gəlib çıxandan sonra dəftərdarbaşı Mirzə Nəzirdən öyrəndik. Mirzə Nəzir dedi, xanın çaparı Rəvana yetişib buyrultunu verəndə canıma qorxu düşdü ki, bəlkə erməni xəlifə məndən Xanımıza şikayət çatdırıb, Təbrizə çağırılmağımızda o şikayəti araşdırmaqla bağlıdı. Adam göndərib erməni xəlifəni Rəvana çağırtdırdım, dedi, o da İbrahim xanın vergilərin vəziyyətini soruşacağından qorxub, dil tökdü, məni çaparla birgə Üçmüəzzinə aparıb, bütün vergilərin gəlir-çıxarını hazırlatdırıb verib ki, İbrahim xana çatdırsın. Amma çapar buyruq qulu ol-

duğunu, Xanın erməni xəlifənin də, dəftərdarbaşını da hüzuruna istədiyini deyib, erməni xəlifə özünü bir neçə gün xəstəliyə vursa da, onsuz Təbrizə qayıtmayacağında israr eləyib.

314. Axır ki, erməni xəlifə Rəvana gəlib, deyib ki, yolüstü hansısa kilsəyə dəyməliyəm, filan vaxt Təbriz yolunda görüşərik. Bir həftədən sonra Mirzə Nəzirlə çapar Mərənddə erməni xəlifəylə rastlaşıblar. Dediyinə görə, Safianda keçirdiyi həyəcandan erməni xəlifənin halı pisləşibmiş, Təbrizə yarımcan halda gəlib çıxıblar. Xanımız erməni xəlifəylə Mirzə Nəziri hüzuruna çağıranda Mirzə Hüseyn, Mirzə Qulam və mən də divanxanadaydım. Erməni xəlifə ölüm-zülüm təzim eləyib hıqqıldaya-hıqqıldaya xəstə olduğunu söyləyəndə İbrahim xan çapara qəzəbləndi ki, xəlifə xəstəydisə, onu niyə gəlməyə məcbur elədin? Çapar dillənməyə macal tapmamış erməni xəlifə acizanə təbəssümlə dedi, ey böyük xanım, əgər ölüm ayağında da olsaydım, tabutda sənin hüzuruna gətirilməyimi arzulayardım, çünki sənin simanda Şahımızı görüb təskinlik tapar, sonra ölərdim. Şübhəsiz, onun sözləri Xanımızın canına sarı yağ kimi yayıldı, buyurdu ki, Şahın fərmanını erməni xəlifəyə versinlər, sonra üzünü ona tutdu, dedi, gedin, fərmanla tanış olun, fikrinizi söyləyin. Bundan sonrasınısa Mirzə Hüseyndən eşitdim: Şahımız naməsində qardaşına erməni xəlifəyə və ermənilərə qarşı lütfkar olmasını, istəklərinə diqqətlə yanaşmasını, mümkün olanı yerinə yetirməsini yazdırıbmış, Xanımız da erməni xəlifəyə xeyli xoş sözlər söyləyib, üstəlik, ona, yanındakı kələntərlərə bahalı bəxşişlər verib, istədiyi qədər qonaq qalandan sonra yola çıxa biləcəyini deyib. Əlbəttə, bütün bunlardan sonra Şahımızın və Xanımızın sözünün üstündən söz demək ölümə bərabər bir addım olar, üstəlik, erməni xəlifənin dəyərini daha da artırardı. İndiki vaxtda da bu çox təhlükəliydi, bu səbəbdən yenə susub münasib zamanın yetişməsini gözlədik, o "münasib zaman"ın da nə vaxt gəlib çatacağını bilmirdik.

315. Mirzə Hüseynin dediklərini sinirmək üçün özümü sarayın bağına atmaqdan başqa çarəm qalmadı. Həmin məqamda yadıma Konyada Şəms Təbrizidən danışılan Şeytan barədə hədis düşdü. *Şeytan bir vaxtlar mələk, hətta, mələklərin müəllimiymiş. Adı da Hərismiş. Həris "çox ehtiraslı" deməkdi. Allaha ibadət eləməkdə çox tamahkarmış. Kainatda səcdə eləmədiyi yer, hətta, nöqtə qoyma-*

*mışdı. Amma Allah (s.s.), Həzrəti-Adəmi yaradanda şeytan elədiyi ibadətlərin ona xüsusi haqq verdiyini fikirləşdi. Lovğalandı, buna görə də Allah ona Adəmə səcdə eləməyi deyəndə boyun qaçırdı. Keçmişdəki ibadətlərindən qaynaqlanan lovğalığı Allahın rəhmətindən uzaqlaşdırılmasına, cənnətdən də qovulmasına şərait yaratdı. Allah cənnətdən çıxıb cəhənnəmə getməsini buyuranda şeytan Ona min illərlə ibadət elədiyini, həm də möhlət istədiyini dedi. Allah ona qiyamət gününə qədər möhlət verdi. Şeytan da həmin vaxta qədər bütün insanları aldadıb düz yoldan sapdırmağa çalışacağını söylədi. «Önlərində, arxalarında, sağlarında və sollarında olacağam,» dedi. Allah buna izin verdi, amma belə buyurdu: «Sənin bütün ardıcıllarını cəhənnəmə atacağam. Mən də bəndələrimə altlarından və üstlərindən yaxınlaşacağam». Şeytan dörd tərəfi tutub üstümüzü və altımızı Allaha saxladı. Elə buna görə də dua eləyəndə əllərimizi havaya qaldırırıq, səcdə eləyəndə də başımız yerə baxır.* Əllərimi açıb dua elədim ki, Allahım bu şeytan əməllərinin qarşısını almaq üçün mənim kimi fikirləşənlərə güc versin. Şeytan, doğrudan da, hər tərəfimizi tutmuşdu, hayana baxırdıq, onun əməllərini görür, onun izinə rast gəlirdik, bu səbəbdən hələlik əlimizi göyə açıb dua eləməkdən başqa bir əlacım qalmırdı.

# VI

# AYRI DƏRDİN YÜKÜ

*Çiynimin alsa yükün bir gün fələk öz çiyninə,*
*Siqlətindən dərdimin göylər başın qoyar yerə.*

***Saib TƏBRİZİ***
***(XVII yüzil)***

316. O axşam Mirzə Nəzir Nəqşivan xanının mirzəsi Mirzə Razinin başına gələnləri danışdı. Biz Rəvandan Muğan çölünə yola düşdüyümüz vaxtda Mirzə Razinin nökəri erməni qızına könül veribmiş, qız da nökərə biganə deyilmiş. Nökər öz istəyilə qızı qaçırdır, şəriət qanunuyla kəbin kəsdirib evlənir, hətta, gəlin müsəlmanlığı qəbul eləməyə də razı olur. Biz Nəqşivanda olanda qızın qohum-qardaşı erməni xəlifəni dilə tutub arada zorakılıq olduğuna inandırıblar, Mirzə Razisə nökərini onların ayağına vermir, hətta, başlarına bir şey gələcəyindən ehtiyatlanıb nökəri də, gəlini də özüylə Muğan çölünə aparır. Erməni xəlifə də qızın atasını yanına salıb Muğana çatdırır, Mirzə Razidən qisasını almaq üçün fürsət gözləyir. Əlbəttə, bütün bunlardan nə mənim, nə Axund Ələkbərin, nə Əbdülhəsən xanın xəbəri vardı. Əsl mərəkə də biz Təbrizə yola düşən günün səhəri başlayıb: erməni xəlifə Muğan çölünə qayıdıb, Şahımızın hüzuruna gedib, Mirzə Razinin Nəqşivan vilayətini talan elədiyini, rəiyyəti soyduğunu, gecə əlində qılınc basqın eləyib erməni qızını qaçırdığını, ona zorla kəbin kəsdirib dinindən döndərdiyini ağlaya-ağlaya söyləyib. Şahımız da dərhal Mirzə Razini hüzuruna çağırtdırıb, izahına-filanına qulaq asmadan əliağaclılara əmr eləyib ki, dərsini versinlər. Əliağaclılar Mirzə Razinin ayağını falaqqaya salıb o qədər döyüblər, huşunu bir neçə dəfə itirib, sonra sürüyüb Şahın ayaqları altına atıblar. Şah əmr eləyib ki, Mirzə Razi vergi gəlir-çıxarını yazsın, həm də qızı erməni xəlifəyə qaytarsın. Amma erməni xəlifə bununla razılaşmayıb, üstəlik, qızın kəbininin geri

oxunmasını, kağıza yazılıb möhürlə təsdiqlənməsini istəyib. Nəqşivanın xanları, bəyləri, mirzələri sevənləri bir-birindən ayırmağın günah olduğunu deyib dil töküblər, erməni xəlifə də əvəzində müsəlman qızın erməni oğlanla evlənməsini, xaçpərəst olmasını istəyib, bunun mümkün olmadığını bildiyindən inadından dönməyib. Nəqşivanda şeyx-ül-islamın və qazinin onun tələbinə əməl eləyib təsdiqini göndərəndən sonra sakitləşib. Bu əhvalatı eşidənlər artıq erməni xəlifədən çəkinməyə başlayıblar, kimsə nahaqdan güdaza getmək, onun şərinə düşmək istəməyib.

317. Mirzə Raziylə erməni xəlifənin məsələsi bununla bitmədi, çünki Xanımız xəzinəyə vergi məsələlərini yoluna qoymağa başlayanda vilayətlərə buyrultu göndərmişdi ki, fərasətli, yazı-pozuda, haqq-hesabda qabiliyyətli kəsləri Təbrizə dəftərxanada xidmətə göndərsinlər. Nəqşivan xanı da iki nəfəri məsləhət bilmişdi, biri də həmin o zavallı Mirzə Raziydi. Şahımıza da, İbrahim xana da Mirzə Razinin atası çox yaxşılıq eləmiş, qiymətli bəxşişlər, qoşununa atlılar vermişdi, bu səbəbdən Xanımız ona yaxşı münasibət göstərirdi. İndi belə çıxırdı, İbrahim xan hökmdarın cəzalandırdığı şəxsi sarayında saxlayır, üstəlik, ona qulluq da verib. Erməni xəlifə, əlbəttə, əlinə keçən bu girəvədən istədiyi vaxt yararlana, Şahımızdan da, Xanımızdan da lazım olanı qopara bilərdi. Mirzə Nəzir danışırdı ki, aranı bir az düzəltmək üçün İbrahim xan deyib, xəlifə, istəyirsən Mirzə Razini sənin gözlərinin qabağında elə cəzalandırım ki, naləsi ərşə qalxsın, erməni xəlifə də yalandan göz yaşı axıdıb, ah-aman eləyib ki, onun günahını bağışla, çünki atası bir vaxt Şahımızın da, sənin də xidmətində olub, mən də günahını bağışlamışam, günahkarı hökmdarın edamından qurtarmışam, həm də bunu ona görə eləmişəm ki, başqalarının gözü qorxsun. Belə çıxırdı, erməni xəlifə məqsədinə çatmışdı, İbrahim xandan istədiyi buyrultunu alardı, Nəqşivan, Rəvan, Qarabağ, Şirvan, Gəncə, Kaxet və Kartli hakimləri ona gözün üstdə qaşın var deyə bilməzdilər. Bunu Xanımızın Rəvan heyətinə, daha doğrusu, erməni xəlifənin adamlarına verdiyi ziyafətdə də gördüm. İbrahim xan bir tərəfində oğlu Əliqulu xanı, o biri tərəfində erməni xəlifəni oturtmuşdu, deyib-gülür, qonağına çox iltifatla yanaşırdı. Erməni xəlifə də fürsətdən istifadə eləyib gətirdiyi vardapetləri, kələntərləri, məlikləri, kəndxudaları tərifləyir, on-

ların Şahımıza da, Xanımıza da sədaqətli olduqlarını dönə-dönə dilinə gətirirdi. Elə süfrə başındaca kələntər Məlikcana mülk, məlik Akopa sututarda torpaq sahəsi, Üçmüəzzinə də vergi möhləti aldı. Məni canının dərdinə qalan Mirzə Nəzirin, eləcə də Axund Ələkbərin, Nəqşivanda, Rəvanda, Qarabağda, Gəncədə, Şirvanda, Kaxet və Kartlidə erməni xəlifənin niyyətlərini bilib əlindən heç bir iş gəlməyənlərin zavallı halı yandırırdı.

318. Axşam bunu Mirzə Hüseynə də dedim, dillənmədi, köksünü ötürüb gözlərimin içinə uzun-uzadı baxdı, sonra da dinməzcə yır-yığışını elədi, atını minib evinə yollandı. Şübhəsiz, bundan sonra onun dillənib Xanımıza bir söz söyləməsi, boynunu qılıncın altına verməsi demək olardı, indiki vaxtda da bu lüzumsuz itki gərək deyildi. O əmr quluydu, borcu Şahımızın fərmanından, Xanımızın buyrultusundan irəli gələnləri kağıza köçürüb, möhür basıb erməni xəlifəyə verməkdi, sonrası Allahdan asılıydı. Xanımız da səhəri gün günorta yeməyinə yenə erməni xəlifəylə kələntər Məlikcanı dəvət eləmiş, dostyana söhbətləşmiş, sonra hər ikisinə hökmdarlara layiq xələt vermişdi. Bunu Mirzə Hüseyn söylədi, dedi, Xanımız məni çağırtdıranda bildim ki, erməni xəlifə yenə nəsə istəyib, başqa buyrultular olacaq. Elə də olub, Xanımız Mirzə Hüseynə Azərbaycan ölkəsinin hüdudları daxilində erməni tacirlərə əlverişli şərait yaradılması, Osmanlı məmləkətindən gələn erməni tacirlərdən torpaqbasdı alınmaması, bir kilsənin tikilməsindən ötrü yer, iki kilsəyə mülk ayrılması və bir çox məsələlər barədə on üç buyrultu hazırlamağı tapşırıb, həm də əmri tez yerinə yetirməsini istəyib ki, erməni xəlifənin adamları vaxt itirmədən vilayətlərinə qayıtsınlar. Ağa deyir, sür dərəyə, başqa əlacım yoxdu, Mirzə Hüseyn doqquzuncu buyrultunun kağızını hamarlaya-hamarlaya deyirdi, amma özümü murdar bir şeyə bulaşmış kimi hiss eləyirəm, elə bilirəm, o murdarlığı heç vaxt cismimdən təmizləyə bilməyəcəyəm, mənimlə qəbrə gedəcək. Onun dedikləri mənim keçirdiyim duyğuları da ifadə eləyirdi, ona görə də söyləməyə sözüm yoxudu, Şahımızın əmrinə, Xanımızın buyruğuna qarşı çıxmaq ölümü gözünün altına almaq deməkdi. Erməni xəlifə yeni istəkləri barədə buyrultuları alıb adamlarını Mirzə Nəzir və kələntər Məlikcanla Rəvana yola saldı, özüsə bir neçə nəfərlə

Təbrizdə qaldı. Onun tələsməməyi məndə anlaşılmaz şübhələr oyadır, cürbəcür fikirlərə salırdı. Sonra Mirzə Qulam danışdı ki, görünür, Xanımızın buyruğuyla Mirzə Razi erməni xəlifənin ayağına gəlib, üstəlik, onu dilə tutub evinə qonaq aparıb.

319. Mirzə Qulamın dediyinə görə, Mirzə Razi and içirmiş ki, o məsələdə günahı olmayıb, nökəri göz yaşı töküb, and-aman eləyib, deyib qızla bir-birini sevirlər. Sonra yalvarıb ki, olub-keçənləri unutsun, unutduğunu da İbrahim xana desin, üstəlik, Şahımıza da çatdırsın. Dedi, onların görüşünə mən vasitəçi olduğumdan yanımda çörək kəsib barışıblar, erməni xəlifə mehribanlıq göstərib, söz verib ki, Mirzə Razinin istəyini yerinə yetirəcək. Amma ona bel bağlaya bilmirəm, Mirzə Qulam əlavə elədi, çünki sözarası Süleyman peyğəmbərdən bir rəvayət danışdı, o rəvayətdə deyilir, əgər düşmən mehriban münasibət göstərirsə, deməli, qəlbində çirkli niyyəti var. Erməni xəlifənin Təbrizdə ləngiməyinin səbəbi də sonrakı günlər üzə çıxdı. Demək olar, hər gün yanına məmləkətin güney vilayətlərindən keşişlər, tacirlər, kələntərlər, məliklər gəlir, Xanımızın səxavətlə ayırdığı hücrələrdə yerləşir, nəsə danışır, məsləhətləşir, sonra çıxıb gedirdilər. Mirzə Qulamla, Mirzə Hüseynlə çox cəhd elədik ki, o yığnaqlarda danışılanlardan xəbər tutaq, amma Xanımızın xidmətində olanlar qorxularından həmin səmtə yaxın dura bilmirdilər. Gələnlərdən birini Mirzə Hüseyn tanımışdı, pəmbəkli Mayıldı, dediyinə görə, atası oğurluq, ya quldurluq üstündə Pəmbəkdən didərgin salınıb Rəvanın Kənkan obasına, ordan da Qarabağa köçmüşdü, yol tapıb məliklərin əlilə Mayılı Şahımızın sarayına yerləşdiriblər. Sarayın xəzinəsinə göndərdiyimiz qiymətli əşyalar Mayılın əlindən keçir; Mirzə Qulam deyirdi, Şahımızın inandığı, etibar elədiyi adamlardandı, üstəlik də gizli xəbərçisidi, bu səbəbə sarayda ondan tük salırlar, istədiyi adamı bir göz qırpımında güdaza verə bilər. Vaxtilə birinci Şah Abbasın, sonrakı Səfəvi şahlarının ətrafında qurulan tor indi də Əfşarlar xanədanın ətrafında qurulurdu. Bunu gizli naməylə Mirzə Mehdiyə bildirmək istəyirdim, amma bu qədər «gözü-qulağı» olan Şahımızın əlinə keçəcəyindən, məsələnin içinə yetməmiş başımı itirəcəyimdən ehtiyatlanır, hələ səbir eləməyə qərar verirdim.

320. Gələnlərdən biri də tiflisli məlik Apoydu, onu da Mirzə Qulam yaxşı tanıyırdı. Söylədiyinə görə, İbrahim xan Alagöz dağlarında Abdulla Paşanı sınıq salıb Tiflisə dönəndə, pişvazına çıxanların arasında həmin məlik də varmış. Deyirmiş, Xanımıza bir Dilboz atı bağışladı ki, iki göz istəyirdi, tamaşa eləsin, üstəlik, erməni qızı da gətirmişdi, düzdü, üzünü görmədik, amma Xanımızın bir neçə gün yatağından çıxmamasından məlum olurdu ki, heç də fəna deyil. Deyirdi, qardaşının ata gözü düşüb, Xanımız da onu Vəlinemətə bağışlayıb, Vəlinemətsə əvəzində məlik Aponu yanında xidmətə götürüb güdükçülərindən biri eləyib. Şahımız Mayılı özüylə səfərə aparanda məlik Apo mütləq Qəzvində qalır, olub-keçənlərə göz qoyur. Bunu Mirzə Qulam Qəzvində olanda Şahımızın xidmətindəki etibarlı adamlardan eşitmişdi. Görünür, vəziyyətdən hali olanlar vardı, amma bizim kimi can qorxusundan səslərini çıxara bilmirdilər. Belə çıxırdı, Şahımız hökm-fərma olsa da, ətrafındakılara o qədər də etibar eləmir. Əlbəttə, bu da səltənətin təbiətindən irəli gəlirdi, bütün dövrlərdə, bütün xanədanlarda adamların sədaqətindən şübhələnib birini o birinə güdükçü qoymuşdular, çox vaxt da belələrini yaramaz, ya da qanıqarışıq adamlardan seçmişdilər ki, tapşırılanı canla-başla yerinə yetirsin. Yadıma Əbdülhəsən xan, Fəzləli bəy, onun qardaşı Pənahəli bəy düşdü, mayılların, apoların, hələ onun kimi tanımadığımız neçələrinin gizli torlarında məhv olacaqlarından əməlli-başlı narahat oldum. Nə vaxtsa tale bizi rast gətirəcəkdimi ki, bunu Əbdülhəsən xana çatdırım? Fikrim-zikrim bunun yanındaydı, şahımızın yanından gələn bir çapar-filan intizarındaydım ki, onunla əlaqə yarada bilim.

321. Erməni xəlifənin yanına İsfahandan, Yeni Culfadan da bir dəstə tacir-tüccar, keşiş, mirzə, zərgər, dəllək gəlmişdi. Əlbəttə, gələnlər Şahımızın İsfahanı yox, Qəzvini paytaxt seçməsindən narazıydılar, çünki saraya istədikləri qədər yaxın ola bilmirdilər. Onların erməni xəlifəylə nə danışıb-barışdıqlarından xəbər tuta bilmədim, amma Xanımızın hüzuruna salama getmələrindən, İbrahim xanın da gələnlərlə görüşüb mehribanlıq göstərməsindən belə çıxırdı, hər şey erməni xəlifənin istədiyi kimi gedir. Şübhəsiz, Şahımız Qəzvində olduğu müddətdə elə bu adamlar hüzuruna gedib itaətlərini bildirmiş, xanədana sədaqətli olacaqlarını

vəd eləmişdilər, həm də erməni xəlifə kimi, Şahımızdan lazımi fərmanlar qopartmışdılar. Mirzə Hüseynin fikrincə, bütün bunlar həm də erməni xəlifənin öz qövmü içində hökmdara çevrilməsi kimi bir şeydi: o, Şahımızın, Xanımızın hökmündən öz qövmünü bir araya gətirmək, bir məqsədə yönəltmək, iman birliyindən çox niyyət birliyinə nail olmaq istəyir, Qəzvində, İsfahanda, Kaşanda, Şirazda, Kirmanda kök salmış həmqövmləri erməni xəlifənin yanına gəlirlərsə, deməli, bu yöndə artıq müəyyən anlaşma var, Üçmüəzzin də o niyyətin gerçəkləşdirilməsində çıxış nöqtəsi olacaq. Mirzə Hüseynlə razıydım, fikirləşirdim, görünür, o gizli axının qabağını almaq çox çətin olacaq. Mirzə Mehdinin, Mirzə Hüseynin, mənim, elə ümid elədiyim Əbdülhəsən xanın əlimizdə elə bir qüvvə yox idi ki, Şahımıza və Xanımıza təsir göstərək, baş verənlərin mahiyyətini açıb olmuşları-olacaqları ortaya qoyaq. Hələ qınımıza çəkilib hansısa möcüzənin baş verəcəyini gözləyirdik. Bəs əgər o möcüzə baş verməyəcəkdisə, əgər Şahımıza və Xanımıza həqiqəti çatdıra bilməyəcəkdiksə, onda belə çıxırdı ki, dinməzcə bütün baş verənlərə dözməli, için-için yanmalıydıq.

322. Erməni xəlifə alacağını aldı, verəcəyini verdi, üç həftəlik səfərini başa vurub, qorxu içində gəldiyi saraydan ağlagəlməz fayda götürüb, Xanımıza, onun simasında həmqövmünün və dininin himayədarı olan Şahımıza öz dilində dualar, türkcədə alxışlar eləyib Rəvana doğru yola çıxdı. Onu ötürməyə getmədim, Mirzə Hüseynin söylədiyinə görə, Mirzə Razi Acıçayı keçib Mərənd yoluna düzələnəcən «dostu»nun yanını buraxmayıb, ayrılanda erməni xəlifəyə hədiyyəsini – Təbrizli Arakelin «Tarixlər kitabı»nın kiminsə köçürdüyü nüsxəsini verib. Şübhəsiz, sonralar bu əlyazmaya görə erməni xəlifə Mirzə Raziyə üzdə olmasa da, öz-özlüyündə minnətdarlıq eləyəcəkdi, çünki bir vaxt həmin əlyazmanı oxutdurmuş Mirzə Mehdiylə söhbətimiz olmuşdu, dediyinə görə, Arakel açıq-aşkar da olmasa, çox ustalıqla həmqövmlərinin tarixi sanbalını şişirdib, bir çox mətləblərisə özündən uydurub. Görünür, Mirzə Razi addımının mənasını, daha doğrusu, nəticəsini düz-əməlli dərk eləməmişdi, məqsədi, sadəcə erməni xəlifənin mərhəmətini qazanmaqdı, amma bununla nələr itirdiyini anlamaq üçün gərək adamın beyninin içində

bir qədər də ağıl olsun. Erməni xəlifə həmqövmünün yazdığına belə, əl gəzdirməmiş tarixin ixtiyarına buraxmazdı. Kədərlə fikirləşdim ki, hələlik hər şey erməni xəlifənin istədiyi kimi gedir, çox güman əgər bir çarə tapılmasa, Əfşar xanədanı var olduğu müddətdə də beləcə davam eləyəcək. Əlbəttə, *qismətə boyun əymək zəifik əlamətidi; güclü adamlar ikinci-üçüncü dəfə cəhd göstərirlər, lap güclü olanlarsa, məqsədlərinə çatanacan inadlarından əl çəkmirlər...*

# VII

# SÖZ BAĞININ PÖHRƏSİ

***Ömrlərdir itmişəm, mən bilmənəm kim, handayam,***
***Heç məni gördünmü, ey ənqa, dolanım başına.***

***Qövsi TƏBRİZİ***
***(XVII yüzil)***

323. Hər halda sətiraltı mənaları oxuyacağı ümidilə Mirzə Mehdiyə namə yazdım. Yazdım ki, Allahın kölgəsi Şahımızın səxavətindən, Xanımızın mərhəmətindən Təbrizdə günlərim pis keçmir, bundan sonra da inşallah, xanədanımız naminə əlimdən gələni yerinə yetirəcəyəm; yazdım ki, Azərbaycan ölkəsinin hər guşəsindən Xanımızın hüzuruna gələnlər əmin-amanlığın olmasını istəyirlər, ümidvaram ki, Şahımız da, Xanımız da düşmənləri məhv eləyib məmləkəti təhdidlərdən qurtaracaqlar; yazdım ki, bu yaxınlarda erməni xəlifə də təşrif buyurmuşdu, Nəqşivan, Rəvan, Qarabağ, Gəncə, Şirvan, Kaxet-Kartlidə yaşayan həmqövmlərinin həmişə Şahımızın və Xanımızın canına dua oxuduqlarını, onların kölgəsində torpaqlar alıb, məbədlər bərpa edib, kilsələr tikib firavan yaşadıqlarını söylədi; yazdım ki, erməni xəlifənin pişvazına təkcə Təbrizdən yox, Qəzvindən, İsfahandan, Kaşandan, Şirazdan, Reydən həmqövmləri gəldi, hamısı Allahın kölgəsində, Şahımızın sayəsində şad-firavan ömür sürdüklərini söylədi; yazdım ki, Qəzvindən gələn pəmbəkli Mayıl və tiflisli məlik Apo Şahımızın səxavətindən, mərhəmətindən, qüdrətindən ağızdolusu danışıblar, Allahın köməyilə bütün düşmənlərinə qələbə çalacağını söyləyiblər. Sonra Mirzə Mehdidən öz vəziyyəti barədə yazmasını təvəqqe elədim, salam-dualarımı bildirib naməni bitirdim və Mirzə Hüseynin Qəzvinə göndərdiyi çapara verdim ki, ünvanına çatdırsın. Mirzə Mehdinin yazdıqlarımdan vəziyyətin nə yerdə olduğunu, erməni xəlifənin nələrlə məşğul olduğunu başa düşəcəyinə əmin idim, amma bununla bağlı əlindən bir şey

gələcəyinə inamım yox idi. Əlbəttə, erməni xəlifəsi məsələsində artıq hökmünü vermiş Şahımıza nəsə deyə bilməzdi, bəlkə Mirzə Zəkiyə, bir az da cəsarət göstərsə, Təhmasib xan Cəlayirə bəzi mətləbləri başa sala bilərdi. Hər halda naməni nəticə görməkdən çox qəlbimdəki çalxantını sakitləşdirmək, heç olmasa, özümdən ötrü bir ümid yeri saxlamaq məqsədilə yazmışdım, bunu özümə etiraf eləyirdim.

324. Payız get-gedə özünü bildirməyə başlayır, mənə, görünür, sinnimlə bağlı izaholunmaz hüzn gətirirdi. Yazı-pozumu, Mirzə Hüseyn və Mirzə Qulamla söhbətləşməyi, bağda gəzib yeddi rəngə çalan yarpaqların ağaclardan qopub yerə səpələnməsinə baxmağı çox xoşlayırdım. Aradabir Xanımızı kiçik gölün qırağında oğulları Məhəmməd Əli, Hüseyn və Kazımla əylənən, balıq tutan, ya da kiçik qayıqla göldə üzən övladlarına göz qoyan, yaxud Məhəmməd xan Əfşarla söhbət eləyən görürdüm. Əliqulu xan, demək olar, gününü əyləncələrdə keçirir, həftədə bir kərə şikara gedir, həmişə də əlidolu dönürdü. İndiyəcən bircə dəfə əliboş dönmüşdü, onda da qəzəblənib şikarbaşını möhkəm döydürmüşdü, elə bil, hər şeyin günahkarı o zavallıydı. İki kərə də sarayın qarşısındakı meydanda çövkan oyunu oynanmışdı: Xanımız və Məhəmməd xan Əfşar atlarını minib, yanlarında da dörd nəfər atlı meydanda çapa-çapa əllərindəki taxta dəyənəklə taxta topa vurub qarşıdakı dirəyin yanından ötürməyə çalışırdılar. Xanımızın dəstəsi birində altıya qarşı yeddi, o birindəsə səkkizə qarşı on top ötürüb qalib sayıldılar; sonra Meydana Əliqulu xanla Məhəmməd xanın oğlu Əhsən bəyin dəstələri çıxırdı. Birinci kərə Əliqulu xan altıya qarşı səkkiz üstün oldu, ikinci kərəsə Əhsən bəy səkkizə qarşı səkkiz olanda yorulduğunu bildirib oyunu bitirdi, görünür, Əliqulu xanın xasiyyətinə yaxşı bələd idi, məğlubiyyəti həzm eləməyəcəyini anlayırdı. Tez-tez Xanımızın zövcəsi Fövziyyə Sultanı və Məhəmməd xanın zövcəsi Sarabəyim xatunu da uşaqlarıyla gölün qırağındakı köşkdə dincələn görürdüm. Əlbəttə, həmişə saray qadınlarından uzaq durmağa çalışırdım, amma bir dəfə Fövziyyə Sultanı yaxından görmüşdüm, sərvboylu, bəyaz tənli, şahanə yerişli qadının Əliqulu xanın anası olduğuna heç inana bilmirdim. Açıq söz-söhbət eşitməsəm də Fövziyyə Sultanın ağıllı, tədbirli, həm də hökmlü olmasını

qulağım çalmışdı, deyilənə görə, Şahımızın zövcəsi Gövhərşad bəyimlə aralarında neçə illərdən bəri davam eləyən çəkişmə vardı, bu çəkişmə Şahzadə Rzaqulu xanın Məşhədə hakim göndərilməsindən sonra daha da artmışdı. Görünür, Xanımızın narazılığı da bu çəkişmədən qaynaqlanmışdı, fikrincə, birgə qurduqları xanədanda özünün vəliəhd olması hər şeyi həll eləmirdi, oğulları da yüksək mənsəbə çatmalıydılar. Mənə qalsa, Əliqulu xana hər hansı ixtiyarat vermək təhlükəliydi, çünki təşəxxüsü qabiliyyətilə tən gəlmirdi. Rzaqulu xan barədə Mirzə Mehdidən xeyli xoş sözlər eşitmişdim, güman ki, Şahımız da onların arasındakı fərqi yaxşı anlayırdı.

325. Xanımızın ikinci zövcəsi Şahnisə Sultanısa indiyəcən görməmişdim, deyirdilər, guşənişin həyat sürür, ehtiyac olmasa, saraydan bayıra çıxmırdı. Görünür, atası Şah Sultan Hüseynin, qardaşı Şah Təhmasibin başına gələnlər, bütövlükdə xanədanın dağılması ona ağır təsir eləmişdi, buna görə də nə bir bacısı Raziyə Sultanın Şah arvadı olması, nə də o biri bacısı Fatimə Sultanın Rzaqulu xanla xoşbəxt evliliyi onun könlünü açmışdı. İndi Xorasanda zindan həyatı sürən Təhmasibin sağ qalacağı ağlabatan deyildi, çünki Səfəvi xanədanının varisini sağ qoymaq nə Şahımızın, nə də Rzaqulu xanın niyyətinə uyğun gəlirdi, nə qədər ki, məmləkətdə Səfəvilərin təəssübkeşləri vardı, nə qədər ki, şiəlik aradan qaldırılmayıb, sufilərin kökü kəsilməmişdi, taxt-tacdan ötrü gerçək təhlükə vardı. Görünür, Şahımız indi arı yuvasına çöp uzatmaq istəmirdi, qurduğu xanədanı möhkəmlədəndən, məmləkət daxilindəki və məmləkətin hüdudlarından kənardakı düşmənlərlə haqq-hesabı çürüdəndən sonra Şah Sultan Hüseynin hökmdarlıq iddiasında olan törəmələrini gedər-gəlməzə göndərəcəkdi. Hələlik Şahımızın başı bəxtiyarilərə qarışmışdı, sonra Qəndaharın üzərinə gedib məmləkətin günçıxan hüdudlarında əmin-amanlıq yaradacaqdı. Hələ Muğan çölündə Hindistanı fəth eləmək eşqinə də düşmüşdü. Əlbəttə, Səfəvilərdən qalan xarabalığın üzərində qurulan xanədan üçün Hindistan kimi zəngin bir məmləkətin fəth edilməsi, ucsuz-bucaqsız torpaqlarla yanaşı saysız-hesabsız qənimətlərin ələ keçirilməsi Şahımızdan ötrü hava və su kimi vacib idi. Hindistandakı Moğollar xanədanı da Səfəvilərin Şah Sultan Hüseyn zamanındakı vəziyyətdəydi,

saray çəkişmələri, vilayət hakimlərinin özbaşınalığı, hərc-mərclik girdabında boğulurdu, şübhəsiz, Şahımız bəxtiyarilərin və uğanların öhdəsindən gəlib bir qədər möhkəmlənsəydi, moğolları asanlıqla məğlub eləyib, Dehlini belə ələ keçirə bilərdi. Bununla yanaşı, hələ Şahımızın Mavərənnəhrdə də yoluna qoymalı işləri vardı, ola bilsin ki, o məsələləri də Rzaqulu Mirzəyə tapşırsın. Bu gümanımda yanılmamışdım, çox keçmədi ki, ağlıma gələnlər gerçəkləşdi.

326. Qış özünü təzəcə bildirməyə başlamışdı ki, Şahımızın çaparı özünü Təbrizə yetirdi. Naməni oxuyan Mirzə Hüseynin danışdığına görə, Şahımız deyib, Mirzə Mömin yazmışdı ki, mən güneydə nizam yaratdığım bir vaxtda Əndhudda və Bəlxdə başıpozuqluq baş verir, ona görə də Rzaqulu xanı o tərəfə göndərmək fikrindəyəm; yazmışdı ki, Rzaqulu xanın Türküstan hüdudlarında da qayda yaratması gərəkdi, beləliklə, görünür, azı bir il Məşhəddə ola bilməyəcək, bu səbəbdən Əliqulu xanın Məşhədə gəlməsi, əmin-amanlıq yarananacan vilayəti idarə eləməsi zəruridi; yazmışdı ki, Əliqulu ləngimədən yola çıxsın, dövlət işlərində nəyə qabil olduğunu göstərsin. Mirzə Hüseynin dediyinə görə, İbrahim xan əvvəl sevinmişdi, sonrasa Məhəmməd xandan soruşmuşdu ki, bəs Rzaqulu xan Türküstandan qayıdıb Məşhədə girəndə Əliqulu xan yenə Təbrizə, mənim yanımamı qayıdacaq? Amma görünür, hələlik bu sualın cavabını gələcəyin öhdəsinə buraxıb oğluna hazırlaşmağı buyurmuşdu, yəqin bu fədakarlığının müqabilində Əliqulu xan layiq olduğu mənsəbi alacaqdı – Şah bunu heç vaxt unutmaz. Üç gündən sonra da Əliqulu xan görünməmiş təntənəylə Məşhədə yola salındı. O üç gündə saray meydanında təbillər vuruldu, gərənaylar çalındı, pəhlivanlar qurşaq tutdu, saray əhli bir-bir Əliqulu xanın hüzuruna gedib uğurlu yol arzuladılar. Təbii ki, borcumdan çıxıb mən də getdim, divanxanada atasının sol yanında oturmuş xanzadəyə ən gözəl diləklərimi çatdırdım. Əliqulu xan şişmiş göz qapaqlarının arasından mənə soyuq-soyuq baxıb dillənmədi, görünür, axşamkı eyş-işrətdən ağlı hələ üstünə tamam gəlməmişdi, ola bilsin, heç mənim kim olduğumu da kəsdirə bilmədi. Elə oradaca İbrahim xan mənə dedi Mirzə Yusif, hazırlaş, deyəsən, Tiflis səfərinə çıxmalı olacağıq, nəsə axır vaxtlar ləzgilərin Şirvana,

Kaxet-Kartliyə basqınları yaman artıb. Dedim, şövkətli xanım, qulluğunuzda canla-başla hazıram, dərhal da içimdə qarşısıalınmaz əsinti duydum: doğrudanmı Tiflisi bir də görmək mənə nəsib olacaqdı? Sonra İbrahim xan Məhəmməd xana üz tutub dedi, nə qədər ki, Xəlifə Sultan Muradla Ağ Banu öz aralarında razılığa gəlməyiblər, iki tərəfdən təhlükə gözlənilmir, narahatlığım ləzgilər, bir də ipə-sapa yatmayan gürcülər sarıdandı, buna əncam çəkmək gərəkdi.

327. Əliqulu xan Məşhədə yola salınandan bir həftə sonra gözləmədiyimiz hadisə baş verdi – Xanımızın zövcəsi Şahnisə Sultan dünyasını dəyişdi. Onu qaravaşlardan biri səhər tezdən yataq otağında ölü tapmışdı. Görünür, atasının, qardaşlarının, bütövlükdə xanədanın başına gələnlər zavallını içindən yemiş, yaşamağa tavanı qalmamışdı. Axır vaxtlarda tez-tez eşidirdim ki, xəstələnir, nə qədər dava-dərman eləyirdilərsə, bir xeyri olmurdu. Mirzə Hüseynin dediyinə görə, Təhmasib Mirzənin rüsvayçılıqla taxtdan salınması ona daha ağır təsir eləmişdi, həmin vaxtdan cismən sağ qalsa da ruhən artıq ölmüşdü, bunu Xanımız da bilirdi. Əlbəttə, İbrahim xan Şahnisə Sultanın ölümündən çox kədərlənmişdi, üç gün nə divanxanada göründü, nə də kimsəni yanına çağırdı. Sonra səfər hazırlığı görüldü, Xanımızın yaxın adamı olan Mömin xan Mərvi Şahnisə Sultanın nəşini Məşhədə aparıb dəfn eləmək üçün yola çıxdı. Şahnisə Sultanın bacıları Raziyə Sultan və Fatimə Sultan, qardaşları zavallı şahzadələr Məşhəddəydilər, Xanımız onlara doğmalarıyla vidalaşmaq fürsəti verməkdə düz hərəkət eləmişdi. Mömin xan Mərvinin gedib-qayıtmağı da bir aydan çox çəkdi, bu müddət ərzində cəmi iki dəfə gördüyüm İbrahim xanın ovqatının çətinliklə düzəldiyini sezdim. Həmin müddətdə saraydakı yas havasından canımızı qurtarmaq üçün Mirzə Hüseynlə bağ və şəhər gəzintilərimizi daha da artırmışdıq. Sakit xiyabanda, gediş-gəlişin az olduğu küçələrdə, bəzən də şəhər kənarında, çay qırağında söhbətlərlə günlərimizi yola verirdik. Əslində, bütün bunlar Xanımızın bircə kəlməsilə ehtizaza gəlmiş duyğularımı ovutmaq üçün idi: xəyallarımın son mənzilinə – Tiflisə yola düşəcəyimizi səbirsizliklə gözləyirdim. Mömin xan Mərvi Xanımızın buyruğunu yerinə yetirib Təbrizə dönəndə Mirzə Hüseyndən eşitdim ki, xan Məşhəddən külfətini

də gətirib, görünür, uzun səfər qabağı ailəsinin yanında olmasını məsləhət bilib.

328. Mömin xan Məşhəddən qayıdandan bir neçə gün sonra Xanımız məni hüzuruna çağırtdırdı. Divanxanaya gedə-gedə bu çağırışın səfərlə bağlı olacağını düşünürdüm, amma bağır basıb baş endirəndən sonra İbrahim xan yer göstərdi, dedi, otur, səninlə söhbətim var. Yanında Məhəmməd xan, Mirzə Hüseyn, mərvli Mömin xan, bir də on beş-on altı yaşlarında bığ yeri təzəcə tərləmiş, üz-gözündən mərifət və zəka yağan bir oğlan vardı. Xanımız mən oturandan sonra dedi, Mirzə Yusif, Mömin xan məndən ötrü çox əziz adamdı, dövlətimiz üçün də böyük əmək sərf eləyib; onun oğlu Məhəmməd Kazım, – yeniyetməni göstərdi, – Mirzə Məhəmməd Mərvdə mədrəsə bitirib, Məşhəddə oxuyub, abırlı, dərrakəli uşaqdı; düzdü, yasovul olmaq istəyirdi, amma mən məsləhət bilmədim, fikrindən çətinliklə də olsa, daşındırdıq, onu təhlükələrə atmağı rəva görmərəm; söhbətə çəkib gördüm, tarix yazmağa böyük həvəsi var, məsləhət elədik ki, sənin yanında olsun, görüb-götürsün, gələcək üçün yetişsin. Əlbəttə, Xanımızın buyruğundan boyun qaçırmaq fikrim yox idi, növcavan da elə ilk baxışdanca qəlbimə yatmışdı, üstəlik, hansı sənətin sahibi olur-olsun, həyatının ən böyük məqsədlərindən biri şəyird yetişdirmək, bildiklərini kiməsə verməkdi. Dedim, əmriniz başım üstə, günü sabahdan əlimdən gələni elərəm ki, istəyinə yetsin; sonra tarix, həm də düzgün tarix yazmağın savab iş olduğunu, Məhəmməd Kazımın, inşallah, bu savabı qazanacağını söylədim. İbrahim xan söylədiklərimdən çox məmnun qaldı, bir istəyim olub-olmadığını da soruşdu. Dedim, sizin sağlığınızdan, şan-şöhrətinizdən, uğurunuzdan, bir də Tiflisi görməkdən özgə şey arzulamıram. Həyat hekayəmi, deyəsən, Mirzə Mehdi ucundan-qulağından Xanımıza danışmışdı, inşallah, görərsən, deyib getməyimə icazə verdi.

329. Səhəri gün Xanımızın əmrilə ayrılan otağa daşındım, Məhəmməd Kazım da gəlib ədəb-ərkanla görüşdü, öz yerini tutdu, yavaş-yavaş ordan-burdan danışmağa, bir-birimizə isinişməyə başladıq. Nəvəm yaşında olan yeniyetmənin dərrakəsi, doğrudan da, vardı, üstəlik, mükəmməl dərs almışdı, gözəl də xətti vardı. Mədrəsədəki müəllimi Mirzə Məhəmməd Mərvini, Mirzə

Kəmaləddinin söylədiklərindən tanıyırdım, görünür, deyilən qədər varmış. Məhəmməd Kazımın təkcə ilahiyyatdan yox, dünyəvi elmlərdən də xəbəri vardı. Xəttini yoxlamağa ehtiyac duymadığımdan ilk günlər eşitdiyi əhvalatları kağıza köçürtdürürdüm ki, yazı tərzini, dilə bələdliyini özüm üçün ayırd eləyim. Məhəmməd Kazım atasının danışdıqlarından Muğan çölündəki yığnaqla bağlı bir parça yazmışdı, bəzi qüsurları nəzərə almasaq, xoşuma gəldi. Şübhəsiz, mən Mirzə Mehdi kimi anadangəlmə salnaməçi deyildim, uzun-uzun yollarda gördüklərimi qələmə almışdım, qalanı, azı, qırx illik yazı-pozu təcrübəsinin nəticəsiydi. İlk gündən də Məhəmməd Kazımın bu yöndə uğur qazanacağına əmin oldum, üstəlik, özümə ağıllı həmsöhbət tapdım. İkimiz də sarayın bağçasında gəzməyi, təbiətdən zövq almağı, məmləkətdə baş verənlərdən danışmağı xoşlayırdıq. Məhəmməd Kazımın dediyinə görə, Rzaqulu Mirzə səfərə ciddi hazırlıq görür, Şahımızın əmrilə Təhmasib xan Cəlayirlə, Baba xan Çavuşlu onun sərəncamına gediblər, güman ki, yazda havalar düzələndən, yollar açılandan sonra Türküstana doğru hərəkət eləyəcəklər. Məhəmməd Kazım onu da dedi ki, Əliqulu xan əmisi oğlunun əmrinə tabe olmasından narazılığını pərdələyə bilmir, bunu hətta, Mömin xandan da gizlətməyib. Bu cür söhbətlərlə hicri 1149-cu ilin qışını keçirir, Tiflisə doğru nə vaxt yola çıxacağımızı intizarla gözləyirdim...

# VIII

# İZHARI ÇƏTİN DƏRDLƏR

*Müşkül işdir dərdi hər bidərdə izhar eyləmək,*
*Dərdi bir dərd əhlinə şərhi bəyan etmək gərək.*

*Nişat ŞİRVANİ*
*(XVIII yüzil)*

330. O qış məmləkətin quzey hüdudlarından həyəcanlı xəbərlər gəlirdi. Hələ payızda, cumadiül-axır ayında ləzgilər qəfildən Car və Talaya, sonrasa Kaxetə basqın eləmişdilər. Amma Səfi xan Buxairi ağlagəlməz rəşadət göstərib cəmi beş yüz atlısı və Əlimirzə xanın birləşmiş qoşunuyla ləzgiləri geri oturdub Tiflisə yaxınlaşmağa qoymamışdı. Ardınca Teymurazla Tamaranın ikibaşlı oyunları ortaya çıxmışdı: Şahımızın arxa çevirdiyi, iltifat göstərdiyi kəslər gürcü qaçaqlarıyla gizli danışıqlar aparır, baş qaldırmaq barədə razılığa gəlməyə çalışırdılar. Güdükçüləri bunları Səfi xana xəbər verəndə əvvəl toxunmamışdı, sonra fürsət yetişəndə bircə həmləylə Teymurazı da, qaçaqbaşıları da məsləhət üstündə yaxalamışdı. Səfi xan Buxairi əsirlərini girov sifətilə Məşhədə, Şahımızın ixtiyarına göndərirdi, qəfilə Ərdəbilə çatanda Xanımızın yanına çapar gəlib namə gətirmişdi. Mirzə Hüseyn deyirdi, Səfi xanın bu igidliyindən İbrahim xan hədsiz razı qalmışdı, Şahnisə Sultan tələf olandan bəri ilk dəfə üzü gülmüş, xana bir dəst bahalı paltar bəxşiş göndərmişdi. Əlbəttə, bu xəbərə sevinmək lazım gəlirdi, amma mən sevinə bilmədim, çünki artıq Xanımızın Tiflisə səfər eləmək ehtimalı azalırdı, daha doğrusu, Allahın məsləhət bildiyi vaxta qalırdı, belə görünürdü ki, mənim həsrətim heç vaxt bitib-tükənməyəcək. Mirzə Mehdi də naməmə elə həmin vaxtda cavab vermişdi. Namə İsfahandan göndərilmişdi, Mirzə Mehdi yazırdı ki, Şahımız Allahın köməyilə bəxtiyarilərlə haqq-hesabı çürüdüb, cumadiül-axır ayının doqquzunda İsfahana gəldi, şəhərdə bir şadyanalıq vardı ki, gəl

görəsən; Həzədcərib bağındakı sarayın pillələrinəcən yollara xalı döşənmişdi, kərənaylar, zurnalar, təbillər çalınır, camaat bayramsayağı geyinib Şahımızı salamlayırdı; yazırdı ki, gecələr şəhərin küçələrində çıraqlar yandırılıb, gündüzə çevrildi, Şahımız böyük ziyafət verib şadyanalıq elədi, sonrasa Qəndəhara gedib Hüseyn Sultanı yerində oturtmaq üçün tədbirlər görməyə başladı.

331. Mirzə Mehdi bunu da yazmışdı ki, mənim naməm onu İsfahanda haqlayıb, oxuyub, vəziyyətimdən hali olub, erməni xəlifənin bu cür qarşılanmasından da məmnunluq duyub *(Mirzə Mehdi «məmnunluq» sözünün altından xətt çəkmişdi, anladım ki, bunu «narahatlıq» kimi oxumaq gərəkdi);* yazırdı ki, pəmbəkli Mayılı da, tiflisli Məlik Akopu da yaxşı tanıyır. Şahımıza sədaqətlə qulluq eləyən kəslər *(«sədaqətlə» sözünün altından da xətt çəkmişdi)* olduqlarına inanır; yazırdı ki, İsfahanda beş həftə dincələndən sonra sabah 1149-cu il rəcəb ayının on yeddisində Qəndəhara yola düşürük, mərhəmətli Allahdan Şahımıza qələbə arzulayırıq; axırda yazırdı ki, ya qismət, görüşək, ya görüşməyək, alın yazımızda nə varsa, o da olacaq, vəssalam. Əlbəttə, olacaqlardan nigaran qaldım. Mirzə Mehdinin naməsinin təsirindən qurtulmamışdım ki, şaban ayında daha bir gözlənilməz əhvalat baş verdi: İbrahim xanın oğlu Əliqulu xan qəfil qərarla Teymurazın – Təhmurəs Mirzənin qızı şahzadə Ketevanla evləndi. Qərar, əlbəttə ki, Şahımızın idi, bu yolla gürcü taxt-tacını girov saxlamaq, baş qaldırası bütün yollarını kəsmək fikrindəydi. Çünki Şahımız Qındəhar yolunda olan vaxt Təhmurəs Mirzə xam xəyallara düşmüşdü, Əlimirzə xan da onu tutub hökmdarın hüzuruna göndərmişdi. Şahımız da sərəskərlərindən bir neçəsini Təhmurəs Mirzənin yanına göndərib ondan qızını qardaşı oğluna verməyi, oğlu İraklini də yanına gətirməyi tələb eləmiş, bunu namə yazdırıb İbrahim xana da bildirmişdi. Şahımız amma onun bu izdivaca könülsüz yanaşdığını sezəndə qardaşına xəbər göndərmişdi ki, qoşun yığıb Tiflisin üstünə getsin. O yarımçıq səfərdə halım çox dəyişdi, gecə-gündüzüm bir-birinə qarışdı. Əvvəlcədən də sezmişdim ki, Təhmuras Mirzə çox inad göstərməyəcək. Qoşunumuz Bərgüşada çatanda Xanımız ordugah qurmaq əmri verib ağsaqqalları və sərəskərləri çoxlu hədiyyələrlə onun sarayına elçi göndərdi. Bir ayacan ordugahda qalıb elçilərin yolunu gözlədik. Mirzə Kazıma

söyləməsəm də, istəyirdim ki, Təhmurəs Mirzə inad göstərsin, Xanımız da Tiflisə yürüş əmri versin, mən də həsrətimdə olduğum yurdumu görüm. Amma əvvəl çapar şad xəbər gətirdi ki, Təhmurəs Mirzə qızını Əliqulu xana verməyə razı olub, sonra Səfi Xan Buxairinin göndərdiyi gəlin dəstəsi iki min beş yüz gürcü atlısının müşayiətilə gəlib çıxdı. Xanımız Ketevanı ondan ötrü qurdurduğu şahanə çadırda yerləşdirdi, mübarəkabadlıq elədi, Qarabağdan gətirdiyi çalğıçılar, xanəndələr bir şadyanalıq başladılar, gəl ki, görəsən.

332. Üçgünlük şadyanalıqdan sonra da Təbrizə doğru yola düşdük. Amma hər dəfə ordugah qurulanda şadyanalıq təzədən başlayırdı. Gəlinin qəfiləsi Təbrizə gəlib çatanda camaat küçələrə tökülüb tamaşa eləyirdi, sarayda da əməlli-başlı şadyanalıq hökm sürürdü. İbrahim xan Ketevanı üç gün sarayda saxladı, sonra Fövziyyə Sultanla gəlini götürüb Məşhədə yola düşdülər. O səfərə, təəssüf ki, mən də, Mirzə Hüseyn də gedəsi olmadıq, hadisələrin sonrasını atası Mömin xanla Məşhədə gedən Məhəmməd Kazım danışdı; deyirdi, hələ ömründə o cür şahanə toyun şahidi olmayıb; deyirdi, Əliqulu xan özünü lap hökmdar kimi aparırmış, bircə tacı çatmırmış, geyimi, ədaları, vüqarı yerindəymiş; deyirdi, Təhmurəs Mirzə qızına xeyir-dua verəndə ağladı, görünür, ömrünün axırınacan qürbətdə qalmaq qorxusu canına yerikləyibmiş; deyirdi, İbrahim xan Təhmurəs Mirzəylə üz-üzə gələndə əvvəl xəyanətinə görə ona töhmətli sözlər demək istəyirmiş, sonra oğlunun şad günündə xətrinə dəymək fikrindən daşınıb, həm də yaxın qohum kimi qucaqlaşıblar; deyirdi, gəlin çox gözəldi, hətta indiyəcən kefinə korluq verməyən Əliqulu xan bəxtindən hədsiz məmnun qalıbmış. Elə toy havası hökm sürən günlərdə də Rəvandan Mirzə Nəzir gəlib vergi dəftərlərini təftişə gətirdi. Onu Mirzə Qulamın yanında gördüm, ehtiyatlı da olsa, ağzından bəzi sözlər qaçırdı. Danışdı ki, Şahımızın fərmanı, Xanımızın buyrultusu bizdən ötrü Allahın əmridi, Şahımız Pirməhəmməd xanı Herata çağırıb, Rəvan vilayəti indi naibin ümidinə qalıb, ona görə də erməni xəlifə Təbrizdə gördüyü iltifatdan sonra özünü təkcə Azərbaycanda yox, cəmi məmləkətdə yaşayan ermənilərin havadarı kimi aparır, Nəqşivanın, Rəvanın, Qarabağın, Şirvanın, Gəncənin, Kaxet-Kartlinin xanları, ağaları, bəyləri də ona mehri-

banlıq göstərməkdə bir-birinə aman vermirlər; danışdı ki, erməni xəlifə Arazdan keçəndə Nəqşivan naibi xorasanlı Ağa Həsən adamlarını pişvazına göndərib, təvəqqe eləyib ki, qonağı olsun, Nəqşivan xanı Vəliqulu xan da bu tərəfdən istəyini çatdırıb, ardınca ağalar, bəylər, mirzələr, yüzbaşılar erməni xəlifəni qonaq aparmaq eşqinə düşüblər; danışdı ki, onun pişvazına iki yüzdən artıq atlı çıxıbmış, hətta şəhər meydanında Vəliqulu xanla Ağa Həsən arasında mübahisə də yaranıb, uzun çək-çevirdən sonra belə razılaşıblar ki, erməni xəlifə hərəsinin evində bir neçə gün qonaq qalacaq. Deyəsən, Mirzə Razinin başına gələnlər onlara dərs olubmuş, bu səbəbdən erməni xəlifənin qılığına girib canlarını qorumaq istəyiblər.

333. Mirzə Mehdidən bir namə də şəvval ayında gəldi. O, görünür, Şahımızın səfəri barədə məlumatlı olmağımı istəyirdi, ona görə də hər şeyi yerli-yataqlı yazmışdı ki, lazım bildiyim mətləblərdən faydalanım. Naməni Məhəmməd Kazımla birgə oxuduq, daha doğrusu, o oxudu, mən qulaq asdım. Mirzə Mehdi yazırdı, Şahımızın əmrilə abdali, buxairi, bəxtiyari, kürd tayfalarından ibarət səksən min nəfərlik qoşunla İsfahandan çıxdıq, Rzaqulu xan Səfi xan Buxairinin Məşhədə göndərdiyi gürcü əyanlarını, Təhmurəs Mirzəni, prins İraklini, Givi Amilaxvarini, eristav Araqvi Bardzimanı İsfahana, Şahımızın sərəncamına göndərmişdi *(beynimdən keçirdim, görünür, özü Türküstan səfərinə çıxanda gürcülərin Məşhəddə, Əliqulu xanın yanında qalmalarını istəməyib,onları girov kimi aparıb, bu da Şahzadənin ağlından xəbər verir),* onları da özüylə götürdü; yazırdı ki, Pirməhəmməd xan və Asilmaz xan dörd minlik qoşunla Makrana və Bəlucistana yola düşüblər ki, Abdulla xanın dikbaş oğulları Məhəbbət xanla İlyas xanı itaətə məcbur eləyib Qəndəharda Şahımıza qoşulsunlar; yazırdı ki, Kirmanda bir neçə gün qaldıq, Şahımız Məlik Mahmudun oğlu Fətəli xan Sistaninin yanına çapar göndərib Zabulistan qoşunuyla Qəndahar hüdudlarında hüzuruna gəlməyi barədə əmr göndərdi, sonra Fərəh, Dəlxək, Dilaramdan keçib Kirişkə gəldik, bu naməni də sənə Şah Maqsuddan, Ərgəndab çayının qırağındakı düşərgədən yazıram; əlbəttə, namə xeyli uzun idi, təfərrüatlarla doluydu, mən ancaq başlıca mətləbləri çatdırmağı məsləhət bildim. Məhəmməd Kazımın qənaətinə

görə, Rzaqulu xan Türküstana yola düşsə, İbrahim xanın Tiflis, Dərbənd tərəfə yollanmaq ehtimalı artacaq, çünki Vəliəhd ola-ola Təbrizdə sakitcə oturmaq istəməyəcək, taxt-taca haqqını sübut eləmək üçün hökmü altındakı torpaqlarda qayda-qanun yaradıb Şahımızı razı salmağa çalışacaqdı, bu da, şübhəsiz, mənim ürəyimcəydi.

334. Ramazan ayı sakit keçdi, yaxınlaşan yazın nəfəsini duya-duya orucumuzu tutduq, namazımızı qıldıq, Allahımıza bol-bol dualar elədik, bir neçə kərə Mirzə Hüseyn Mirzə Qulamla məni evinə orucumuzu açmağa dəvət elədi. O mübarək ayda da İsfahandan çapar gəlib yolüstü Təbrizdə dayandı, Xəlifənin iqamətgahında baş verənlərdən bizi hali elədi. Dedi ki, Şahımızın göndərdiyi təklif orda böyük mübahisələrə səbəb olub, Xəlifənin elçiləri Cəfəri məzhəbini qəbul eləməkdən, Kəbədə beşinci sütun ucaltmaqdan bilmərrə boyun qaçırıblar, amma əsirlərin dəyişdirilməsi, elçiliklərin açılması məsələlərində fikir ayrılığı olmayıb, üstəlik də Əmirül-Hacının təyininə razılıq veriblər; dedi, heyətimizdən sədr Mirzə Əbdülqasım Kəşani və mollabaşı Əli Əkbər Şahımızın istəyini yerinə yetirmək üçün çox səy göstəriblər, amma Anadolunun baş qazisi Leyli Əhməd Əfəndi, Osmanlı heyətindən Məsihzadə Abdulla Əfəndi, fətvaçıbaşı Abdulla Paşa, İstanbulun sabiq qazısı Əhməd Əfəndi inadından dönməyib, axırda elçibaşı Əbdülbağı xan anlaşmanı o cür qəbul eləməyə razı olub, Osmanlı tərəfisə Xəlifə Sultan Mahmudun hüzurunda Şahımızı da, hüdudlarımızı da rəsmən tanıyıb; dedi, Əbdülbağı xan Osmanlı elçisi Mustafa bəylə İstanbuldan Məşhədə, ordan da İsfahana gedib Şahımızın hüzurunda olublar. Çapar indi vilayətlərin hakimlərinə namələr aparırdı ki, məsələdən xəbərdar olub Osmanlı hüdudlarından təhlükə gözlənmədiyini bilsinlər. Şübhəsiz, bu xəbərə sevinmək lazım gəlirdi, çünki Şahımızdan ötrü indiki halda günçıxan hüdudlarımızda əmin-amanlıq yaratmaq hər şeydən vacib məsələydi; amma razılıq əldə olunmayan o iki tələbin də hələ çox çəkişmələrə səbəb olacağı şəksiz idi, şahımız günçıxan tərəfdəki işlərini yoluna qoyandan sonra Xəlifəylə də haqq-hesabı çürütmək fikrinə düşəcəkdi.

335. Məhəmməd Kazımla danışıb-barışmamışdıq, amma o, özünəxas fəhmlə diqqətini Rzaqulu xanın yürüşündən gələn

xəbərlər üzərində cəmləşdirmişdi, tez-tez Məşhəddən namələr alır, öyrəndiklərini saf-çürük eləyir, qənaətlərini mənimlə bölüşürdü. Məhərrəm ayında aldığı namədə səfər hazırlığının başa çatdığı bildirilir, səfər ayındasa Rzaqulu xanın Pirməhəmməd xanla birləşib Əndhudun üzərinə getdiyi xəbər verilirdi. Rəbiül-əvvəl ayında artıq Əlimərdan xanın üçgünlük mühasirədən sonra şəhərdə yaxalanıb Herata göndərildiyini, orda da edam edildiyini, sonra gənc Şahzadənin özbəkləri məğlubiyyətə uğradıb, Bəlxi ələ keçirib, Əbdülhəsən xanı tabe elədiyini, amma Çingiz xanın törəmələrindən olduğuna görə, rəhm göstərib öldürmədiyini, əyan-əşrəfi, qoşun başçılarıyla birgə Qəndahara, hökmdarın sərəncamına göndərdiyini, Mərv qoşununun başçısı Şahqulu bəy Qacarı, sonra da Baba xan Çavuşlunu özbək xanı Sayad xanı yaxalamaq üçün göndərdiyini öyrəndik. Eyni xəbərlər Əliqulu xanın Məşhəddən atasına göndərdiyi namələrdə də vardı, Mirzə Hüseynlə söhbətlərimizdə eşidir, Şahzadənin ağlına, fərasətinə və hünərinə heyranlığımızı bildirirdik. Amma onu da sezirdik ki, gələn xəbərlər İbrahim xanın ovqatını təlx eləyir, çünki oğlu yaşında olan bir yeniyetmə Şahımızın etimadını doğruldub, məmləkətin düşmənlərini aradan götürürdü, taxt-tacın varisi, Azərbaycanın valisi, az qala, iyirmi il at çapıb qılınc çalmış İbrahim xansa hələ ölkənin quzey hüdudlarını təhdid eləyən bir ovuc ləzgi basqınçılarının öhdəsindən gələ bilmirdi. Günlərin birində, Qəndəharda əmin-amanlıq yaradandan sonra Şahımız Vəliəhddən haqq-hesab tələb eləyərdi, son məqamdasa taxt-taca Rzaqulu xanın daha artıq layiq olduğu ortaya çıxardı, bu da İbrahim xandan ötrü qəbuledilməz idi. Bütün bunları götür-qoy elədikcə Xanımızın quzey səfərinə çıxacağı ehtimalının daha da artdığını fikirləşirdim, təxminlərimi Məhəmməd Kazımla bölüşməsəm də hər an Xanımızın yürüş hazırlığı barədə əmr verəcəyini gözləyirdim.

336. Elə rəbiül-əvvəl ayının axırında da İbrahim xan divanın yığnağını keçirdi, məmləkətin günçıxan səmtində baş verənlərə toxunub eləmədən ləzgilərin basqınlarının artdığından, bu məsələyə birdəfəlik son qoymaq vaxtının yetişdiyindən, buna görə də dərhal səfər hazırlığının başlanmasının vacibliyindən danışdı. Həmin məqamda yəqin üzümdən sevinc tökülürmüş, bunu

gözlərim Mirzə Hüseynin tutqun simasına sataşanda beynimdən keçirdim. Əlbəttə, Mirzə Hüseyn haqlıydı – altı ay, bəlkə də bir il doğma ocağından uzaq düşəcək, günlərini bürküdə, şaxtada, yağışda, qarda, at belində, çadırda keçirəcək, ölümlər görəcək, özü də ölümün nəfəsini duyacaqdı. Buna görə də keçirdiyim sevinc hissinə görə utanıb ürəyimdə ondan dönə-dönə üzr istədim. Amma mən də haqlıydım – əlli ildən sonra doğulub-böyüdüyüm, yuxularımda, xəyallarımda yaşatdığım şəhəri görəcək, uşaqlığımın, doğmalarımın izini axtaracaqdım. Deməli, *həyatda mümkün olmayan bir şey yoxdu, əgər bir şeyi arzulayırsansa, məqsədinin yarısına nail olmusan; necə olur-olsun, inamı itirməmək lazımdı, yoxsa yaşamağın mənası olmaz.* Xanımız elə o yığnaqdaca saray işlərini baş vəzir Hüseynqulu xanın himayəsində on altı yaşlı oğlu Məhəmmədəli bəyə həvalə elədi. Sonra Mirzə Hüseynə tapşırdı ki, Nəqşivan, İrəvan, Gəncə, Şirvan, Dərbənd, Kaxet-Kartli xanlarına qoşunlarıyla hazır olmaq, zərurət yaranan vaxt sərəncamına gəlmək barədə buyrultu hazırlasın. Qoşunların hazırlığı səfərə Məhəmməd xan Əfşara, digər məsələlərsə vəkil Mömin xana həvalə olundu. Əlbəttə, Məhəmməd Kazım da mənimlə gedəcək, Mərvdən Məşhədə, məşhəddən Təbrizə gəlməsi nəzərə alınmazsa, həyatının ilk uzaq səfərinə çıxacaq, çətinliklər, macəralar, ölümlərlə üz-üzə gələcək, bəlkə də qayıdandan sonra tarix yazmaq istəyindən daşınacaqdı. Hələlik sevinirdi, həyəcanını üz-gözündən oxumaq olurdu, şübhəsiz, onun bu duyğuları gəncliyilə bağlıydı...

# IX

# YOLLARA QALAN GÖZLƏR

*El yoludu,*
*Qoy gəlsin, el yoludu.*
*Təbim bulud oylağı,*
*Gözlərim sel yoludu.*

***Təbrizdə eşitdiyim xoyrat***

337. O yay quzey hüdudlarımızda sakitlik idi, amma İbrahim xan ləzgilərin hücumunu gözləmədən qəfildən yaxalamaq, məsələni birdəfəlik həll eləmək istəyirdi. Şübhəsiz, hər şeyin asan olacağını fikirləşirdi: Nəqşivandan, Rəvandan, Gəncədən, Şirvandan, Kaxet-Kartlidən gələcək qüvvələrlə təxminən əlli minlik qoşununun müqabilində ləzgilərin uzaqbaşı iyirmi minlik dəstəsi o qədər də qorxunc qüvvə deyil. Düzdü, ləzgilər dağ şəraitində vuruşmağı daha yaxşı bacarırlar, amma buna da bir əncam tapılar, şirvanlılar və gürcülər də dağ yerində böyümüş adamlardı, onlardan çevik dəstə yaratmaq olar. Məhəmməd xan Əfşar buna şübhəylə yanaşırdı, İbrahim xansa onun şübhələrinə gülür, deyirdi, ağciyər olma, daha çətin şəraitlərdə döyüşmüşük, kürdlər, abdalilər, uğanlarla döyüşlər heç də asan olmayıb; deyirdi, indi də Allahın köməyilə haqq-hesabı çürüdəcəyik. Divanın yığnağında şahid olduğum bu çəkişmələri o qədər də ciddi qəbul eləmirdim, çünki bütün fikrim-zikrim səfərlə bağlıydı. Gecələr Məhəmməd Kazımla yuxusu ərşə çəkilmiş adamlar kimi bağda gəzir, Qəndəharda, Türküstan hüdudlarımızda baş verənlərdən danışırdıq, səhər tezdən oyanır, yenə bir-birimizə bağda dolaşan vaxt rastlaşırdıq: həyəcanlarımız oxşar olmasa da, narahatlığımız oxşar idi, ikimiz də bu yoldan çox şey gözləyirdik. Divandakı çəkişmələrdən biri də Tiflisə hansı yolla gedəcəyimiz barədəydi. İbrahim xan Mərənd-Culfa-Nəqşivan-Rəvan yolunu məsləhət bilirdi, hələ havalar yaxşıydı, Rəvan-Başkeçid-Tiflis yo-

lunda çətinliyə rast gəlməyəcək, üstəlik, Nəqşivanda və Rəvanda vəziyyətlə tanış olacaqdı. Məhəmməd xan Əfşar Əhər-Kəleybər-Varsan-Muğan-Gəncə yolunu daha rahat sayırdı, üstəlik də Muğandan qayıdanda o yolla gəlmişdilər, bələdlikləri vardı, Muğan-Gəncə-Qazax yolunda çovğun-filan təhlükəsi azdı, bəd ayaqda istənilən vaxt düşərgə qurub dincəlmək olar. Mömin xan Mərvi Ərdəbil-Lənkəran-Salyan-Gəncə yolunu daha yaxın sayırdı, fikrincə, bu səmtdə havalar hələ yumşaqdı, atların ağzı ota çatırdı, ərzaq çətinliyi də görünmürdü.

338. Axırda da Mömin xanın təklifilə razılaşdılar, bizim ürəyimizcə oldu: Məhəmməd Kazım da mənim kimi Ərdəbili görmək, yeni xanədanın dövründə Səfəvilər ocağının hansı ovqatda olduğunu bilmək istəyirdi. İsfahandan başımı götürüb qaçanda keçdiyim Ərdəbil qəlbimdə ağrılı təəssürat oyatmışdı, bu dəfə o təəssüratı silib atmağa ümid eləyirdim, daha vacibi, Mirzə Kəmaləddini tapmaq, sağ-salamat olduğuna sevinmək, bir daha geri qayıtmayacağım duyğusuyla vidalaşmaq ümidindəydim. O günlər Mirzə Hüseynin tutqun görkəmində adamın ürəyini parçalayan nəsə vardı, hər gün saraydan çıxıb atını minəndə elə bilirdim, bir daha onunla görüşməyəcək, səhəri gün qüssədən öldüyü barədə xəbər alacağam. Ailəsində orucumuzu açdığımız günlərdə onu elə rahat, sakit, xoşbəxt görmüşdüm ki, o ovqatın pozulmasını heç istəməzdim. Şübhəsiz, Xanımız Mirzə Hüseynin yanında olmamasını ağlına belə gətirmirdi, çünki buyrultularını yazıb çaparla yola salmağı ondan başqa kimsə yerinə yetirə bilməzdi – hər halda mənə belə gəlirdi. Mirzə Hüseynsə səfərə başqa mirzənin aparılmasını Xanımızdan təvəqqe eləyəcək qədərə cəsarətli adam deyildi, bunu heç ağlından da keçirməzdi. Bu səbəbdən birgə yola çıxacaqdıq, Allah məsləhət bilsə, Mirzə Hüseyn mənim doğulub böyüdüyüm şəhəri görəcək, acılı-şirinli xatirələrimi eşidəcəkdi. Amma mən Xanımızın qulluğundan uzaqlaşmaq barədə fikirləşir, bunu Tiflisdə gerçəkləşdirmək istəyirdim. Yəqin, Xanımız mənim sinnimi, düz əlli il yollarda olduğumu, ahıl vaxtımı doğma yerdə keçirib, başıma gələnləri yazmaq istəyimi nəzərə alıb izin verəcəkdi. Artıq yanında Məhəmməd Kazım kimi dərrakəli, fərasətli, həvəsli bir kəs vardı, ötən aylarda xeyli yetkinləşdiyinin şahidi olmuşdum, bu işi

yaxşı bacaracağına da əmindim. Mənsə, Sultanın, Şahımızın və Xanımızın səxavətindən əlimdə olan sərvətlə Tiflisdəki evimizi təzədən qurmaq, doğmalarımın son mənzilini tapmaq, Züleyxanın taleyilə maraqlanmaq, ömrümün axır məqamında borcumu yerinə yetirmək istəyirdim. Bunun belə olacağına o qədər inanırdım ki, artıq bütün duyğularıma hakim kəsilmişdi...

339. Bir də Təbrizi görməyəcəyim inancıyla Məhəmməd Kazımı yanıma salıb şəhərin küçələrini dolaşmağım ikimizə də faydalı oldu. Az qala, yüz il qabaq dəhşətli zəlzələnin dağıtdığı, on il əvvəlsə osmanlı toplarının viran qoyduğu Şahəstanın – Təbrizin xarabalıqlar altından necə dirçəldiyini görmək mənə ayrı zövq verirdi. O görünməmiş zəlzələ barədə Təbrizə ilk gəlişimdə yaşı yüzə çatan bir qocadan – canlı şahiddən eşitmişdim. Danışmışdı ki, günçıxan şəhərlərinin anası sayılan Təbriz bir göz qırpımında yerlə-yeksan oldu, hətta Şamqazaq, Ustaşagırt kimi nəhəng tikililər belə o silkələnməyə davam gətirə bilməmişdi. Deyirdi, bədbəxtlikdən o qış çox sərt gəlmişdi, qar-çovğundan göz açmaq olmurdu, üstəlik, zəlzələnin fasilələrlə altı ay sürməsi, bəzən gündə beş-altı kərə təkan olması camaatı dəli eləmişdi, o soyuqda evlərini atıb bağlarda, üzümlüklərdə, düzənliklərdə çadıra sığınan adamlar Allahın qəzəbinin nə vaxtsa başa çatacağına inana bilmirdilər. Əlbəttə, o fəlakətdən sonra birinci Şah Təhmasib Təbrizin təzədən tikilməsinə çox səy göstərmişdi. İstanbulda olanda Övliya Çələbinin «Səyahətnamə»sində oxumuşdum ki, şəhərin on min qoşunu, müftisi, şeyx-üs-səadəti, mollası, kələntəri, münşisi, darüqəsi, qorçubaşısı, dizçökənağası, yasavulağası, mehmandarı, üç yüz iyirmi mehrabı var. Məhəmməd Kazımla çox qədim günbəzi, divarları, qapıları şirli naxışlarla bəzədilmiş Zübeydə Xatun məscidinin əzəmətli minarəsinə baxmağı, dəfələrlə uçulub-tikilən Dəməşq məscidinin naxışlarına əl sürtməyi, Sultan Mahmudun İrəm bağında tikdirdiyi, indi gözdən düşmüş Şam-Qazan məscidinin kədərli görkəmindən qüssələnməyi, Şah Təhmasibin həmişə ibadət elədiyi, Ənuşirəvan sarayı hündürlüyündə olan təkminarəli Şah Əmin məscidinin susqunluğundan təsirlənməyi sevirdik. Şah Əmin məscidinin gözətçisi dedi, hər kəsin bir dövranı var – onunla razılaşdım. Məscidin hündür günbəzi, göyümtül, parlaq xatay kağızıyla

bəzədilmiş divarları o qədər gözəldi ki, adam gözlərini çəkmək istəmir. Osmanlı toplarının bir gülləsi məscidin minarəsinə tuş gəlib, dağılmış yer uzaqdan gözə dəyir. Bir vaxtlar dünyada tayı-bərabəri olmayan, «Həşti-behişt» adlanan cənnət-misal bağı indi qüssəli görkəm alıb. Deyilənə görə, məscidi Sultan Əbül Fatehlə döyüşdə basılan Uzun Həsən Misirdəki Zahir Bəybars məscidi üslubunda tikdirib, güney divarı yanındakı qəbir də onundu.

340. Şübhəsiz, Mirzə Hüseyn bütün bunları bilirdi, o sarayları, məscidləri, mədrəsələri, karvansaraları görmüşdü, ona görə də bizə qoşulmağa o qədər də həvəs göstərmirdi. O günlərdə Sultan Hüseynin vaxtında ən məşhur müctəhidlərdən biri, şiə adətləri barədə "Bihar-ül-Ənvar" adlı kitab yazmış Məhəmməd Bakiri-Məclisinin fitvasıyla Təbrizdə baş verən şiə-sünni qarşıdurmalarından da danışdı. Amma indi məni insan faciələri yox, tarixin bizə yadigar qoyduğu gözəlliklər daha çox maraqlandırırdı. Axır ki, bir az fikri dağılsın deyə, onu dilə tuta bildim, mədrəsələri, karvansaraları, səbilxanaları, bazar və bədastanları birgə gəzdik. Ondan öyrəndim ki, şəhərdə əllidən artıq mədrəsə var, ən böyüyü də Şahi-Cahandı, ən yaxşı üləmalar da elə həmin mədrəsədə çalışır. Dedi, sarayların sayı mindən, karvansaraların sayı iki yüzdən artıqdı, bəziləri osmanlı toplarından ziyan çəksə də görməyə dəyər. Şah Cahan, Aləmşah, Şah İsmayıl karvansaralarını yaxından gördük, ikisinə də uzaqdan tamaşa elədik. Mirzə Hüseynin dediyinə görə, vaxtilə şəhərdə yüzlərlə dərviş təkkəsi olub, indi sufilər bir az öz içlərinə çəkiliblər. Hər halda, o təkkələrdən birinə – Şəms Təbrizinin adını daşıyan təkkəyə girdik. İçəridə şamların sısqa işığında dörd dərviş oturmuşdu, bizə ciddi maraq göstərmədilər, öz aləmlərindəydilər. Mirzə Hüseynlə bir gün də bazarı gəzib kərpicdən tikilmiş köşklərə, satılan malların çeşidinə baxdıq. Bazarın ortasındakı nəhəng, günbəzli, dördqapılı bədastan o qədər gözəldi ki, baxmaqdan doymursan. Bir yanda da naxışçıların, zərgərlərin, dülusçuların, sərraçların, dərzilərin… köşkləri sıralanıb. Mirzə Hüseyn Səhənd dağından gələn bulaqların, su saxlanan səbilxanaların bir neçəsini də göstərdi, hətta dağların otuyla cürbəcür xəstəlikləri sağaldan təbiblərdən birinin yanına da apardı.

341. O günlərin birində Məhəmməd Kazımın dalğın görkəmini sezdim. Əvvəl fikir vermədim, bu halımın səfərqabağı həyəcandan ola biləcəyini düşündüm. Amma ovqatının davamlı olduğunu görüb bir qədər ehtiyatla səbəbini soruşdum. Məhəmməd Kazım həyalı oğlan idi, həm də aramızda müəllim-şagird münasibətindən əlavə ata-oğul və böyük-kiçik münasibəti də yaranmışdı, dərdini dərhal yox, mənim uzun sürən israrlarımdan sonra söylədi: Məhəmməd xan Əfşarın qızı Pərixan xatuna aşiq olduğu beləcə ortaya çıxdı. Bu, ola bilsin, oğlanın Məşhədə Əliqulu xanın toyuna getməsindən sonra baş vermişdi, çünki Məhəmməd xan Əfşar da külfətini Məşhədə aparmışdı, yolda-izdə, ya da elə Məşhəddə Pərixan xatunu görə, yaşından irəli gələn duyğusallıqla dərhal vurula bilərdi – halındakı dəyişikliklərin o vaxtdan üzə çıxdığını indi xatırladım. Mənə görə, bu münasibətin xoşbəxtliklə nəticələnməsində elə bir çətinlik ola bilməzdi: Məhəmməd xan Mömin xanı da, Məhəmməd Kazımı da tanıyırdı, qızının belə dərrakəli, əxlaqlı, üstəlik, yaraşıqlı oğlanla evlənəcəyinə sevinməliydi. Məsələni Mömin xana çatdırmağı boynuma götürdüm, amma Məhəmməd Kazım tələsməməyi, səfərdən qayıdanacan gözləməyi məsləhət bildi. Əlbəttə, bu səfərdən dönmək niyyətində olmadığımı ona söyləmədim, fikirləşdim ki, uzaqbaşı ayrılanda Mömin xanı mətləbdən hali elərəm, o da işə bir əncam çəkər. Həmin məqamda öz-özlüyümdə Məhəmməd Kazıma yaxşı mənada həsəd aparırdım: həddi-buluğa təzəcə çatıb, yaraşıqlıdı, ağıllıdı, sevdiyi qız var, deməli, həyatı hələ irəlidədi. Mənsə bu duyğuları bütöv yaşaya bilmədim, bütün arzularım yarımçıq qaldı, çiyinlərimə yolların ağırlığı, xatirələrimin üstünə yolların tozu endi, indi də fikrim-zikrim o ağırlığı qaldırıb, o tozu silməklə bağlıdı, bunun nəsib olub-olmayacağısa Allahdan başqa kimsəyə bəlli deyil.

342. Yır-yığışla bağlı elə bir çətinliyim yox idi: bir sandıq geyim-kecimim, bir sandıq da illər boyu əldə elədiyim kitablar, yazı dəstimdi, uzaqbaşı bir qatırın yüküydü. Atım da, qatırım da Xanımızın tövləsində, mehtərin ixtiyarındaydı, vaxtı çatanda yükümü daşıyacaqdılar. Sultanın, Şahımızın və Xanımızın səxavətindən qazandığım pullar açarını qoynumda, özümün geyim sandığında saxladığım mücrüdəydi. O mücrüdə məndən

ötrü dühyanın bütün mal-dövlətinə bərabər olan bir neçə dəyərli şey vardı: biri unudulmaz anamdan yadigar qalan bir tay başmaq idi ki, yanmış evimizin küllüyündən tapmışdım, həmin başmağı balaca naxışlı torbaya qoyub sandığımda saxlayır, hərdən çıxarıb doyunca qoxulayırdım; ikincisi Dariya xalanın vidalaşanda bağışladığı naxışlı gümüş üzük idi, onu da xırdaca kisəyə qoymuşdum, yeddi il qəhrimi çəkmiş, borcunu verə bilmədiyim qadına sevgimi o üzüyə söyləyirdim; biri də İstanbulda, Üsküdar tərəfdə bir zərgərdən aldığım sinəbənddi. Sinəbəndin naxışları Yusif və Züleyxa mövzusunda işlənmişdi, elə ilk baxışdaca məni xatirələrin axarına saldığından əlimdən buraxmaq istəməmiş, qiymətilə bağlı zərgərlə günortadan günbatanacan çənə-boğaz eləmişdim. Əlbəttə, mənim Züleyxam indi sağdısa, ahıl, kədərli qadındı, yəqin məni də yaddaşının ilğımları içindən çəkib çıxarır, ola bilsin, heç tanıya da bilmir, amma yenə də o sinəbəndi əlli ildə unuda bilmədiyim, ölənəcən unutmayacağam həmin qadına vermək istəyirdim. Şübhəsiz, bu üç əşya bəxtimdən yarıda bilmədiyim adamlara duyğumla verə biləcəyim son borcumdu. Bir də, əlbəttə ki, məndən ötrü çox qiymətli olan, az qala, otuz beş il ərzində – Firəngistandan çıxandan indiyəcən qələmə aldığım, hələ nizama salmağa macal tapmadığım əlyazmalarım, müsafirxanalarda, karvansaralarda, saraylarda, çadırlarda... apardığım, ömür hekayətim olan qeydlərimdi, onun da tarixin sınaqlarından çıxıb-çıxmayacağı təkcə Gözəgörünməzə ayandı.

343. Yol ərəfəsində Məhəmməd Kazımla saray bağını doyunca gəzdik, az qala, hər ağaca, hər gül koluna baş çəkdik; cavan dostum güman ki, sevgilisini o ağaclara, güllərə əmanət eləyirdi, mənsə vidalaşırdım. Onda beynimdən keçirdim ki, *sevgi də elə ağaca oxşayır, öz-özünə bitir, varlığımızın bütün guşələrinə dərin kök salır, çox vaxt qəlbimizin xarabalıqlarında belə yarpaqlayıb çiçəkləyir.* Həmin məqamda Məhəmməd Kazım Məşhəddən aldığı yeni xəbərlərdən danışırdı. Dediyinə görə, Rzaqulu xan Sayad xanı əldən buraxsa da, qunqratları itaətə gətirə bilib, Təhmasib xan Cəlayirin məsləhətilə elə gözlənilməz hücum eləyib ki, Daniyal bəy tərpənməyə macal tapmayıb; dediyinə görə, Mavərənnəhrdə Rzaqulu xanın şücaətindən xəbər tutan Buxara xanı Əbül Feyz qorxuya düşüb, amma Şahımızın Buxaraya soxulmaq barədə

izini yoxdu, Rzaqulu xanın özbaşınalığı ona baha başa gələ bilər. Əlbəttə, Təhmasib xan haqlıdı, Məhəmməd Kazım əlavə elədi, qələbə səy və güc tələb eləyir, bununla belə, Şahımız izin verməmiş məmləkətin hüdudlarından o yana keçmək təhlükəlidi. Məhəmməd Kazım düz deyirdi, eyni zamanda, yəqin iştahın diş altında olduğunu da bilirdi, üstəlik, gənc şahzadənin özünü göstərmək, taxt-taca varisliyə layiq olduğunu sübut eləmək ehtirası da başadüşüləndi. Belə çıxırdı, Vəliəhd İbrahim xan iddialı qardaşı oğlundan nahaq yerə ehtiyat eləməyə başlamayıb. Hər halda, sabah Tiflisə doğru yola çıxırdıq, buna görə də öz-özlüyümdə uzaq Bəlxdə hücuma hazırlaşan Şahzadəyə minnətdarlıq hissi duyurdum. Məhəmməd Kazım gedəndən sonra kiçik hücrəmin pəncərəsindən sarayın qaranlıq bağçasına baxa-baxa gecə yarıdan ötənəcən oyaq qaldım, gecənisə səksəkəli yatdım...

# X

# TƏBRİZ AYRILIĞI

*Dəryada dəryalıqlar,*
*Suda oynar balıqlar.*
*Nə belə dostluq olsun,*
*Nə belə ayrılıqlar.*

*Təbriz bayatısı*

344. Saray münəccimi Xacə Mütəllimin məsləhət bildiyi xoş gündə səfərə çıxırdıq, onun dediklərindən də, qoşunun hazırlığına cavabdeh olan Məhəmməd xan Əfşarın söylədiklərindən də, Tiflisdən gələn çaparın Səfi xan Buxairidən gətirdiyi məktubun məzmunundan da, payızın bu vaxtında havaların mülayim keçməsindən də yolumuzun uğurlu olacağı görünürdü. Mirzə Hüseynin dediyinə görə, Səfi xan Buxairi Xanımıza yazmışdı ki, araqarışdıranların – Teymurazın, Givi Amilaxvarinin, Araqvi Bardzimanın Tiflisdən uzaqlaşdırılmasından sonra gürcülər tərəfdən təhlükə-filan gözlənilmir, Əlimirzə xanın vasitəsilə artıq Kaxet-Kartliyə tam nəzarət eləyir; yazmışdı ki, Teymurazın qızı Ketevanın Rzaqulu xanla nikahından sonra camaat arasında Teymurazın taxt-tacdan könüllü əl çəkdiyi, o nikahla ölkənin tamam Şahımıza təslim edilməsi barədə söz-söhbət dolaşır; yazmışdı ki, ara-sıra baş verən xırda basqınları nəzərə almasaq, ləzgilər axır vaxtlar fərağat durublar, amma nə qədər ki, itaətə gətirilməyiblər, quzey hüdudlarında əmin-amanlıq olmayacaq; yazmışdı ki, qalan məsələləri Tiflisdə məsləhətləşərik, xoş gündə çıxdığınız yolu Allah uğurlu eləsin, sizi Sınıq Körpüdə qarşılayacağıq, Mirzə Hüseynin fikrincə, Şahımız müdriklik eləyib Səfi xan Buxairini Tiflisə hakim qoymasaydı, indi Kaxet-Kartlini də qarışıqlıq başına götürmüşdü, Səfi xan cəmi beş yüz atlı, bir də Əlimirzə xanın qoşunuyla baş qaldıranların əl-ayağını da yığışdırdı, ləzgiləri də geri oturtdu. Əlbəttə, haqlıydı, amma Şahımız Pirməhəmməd

xanı Məşhədə çağırandan sonra hələ Rəvanda möhkəm əl yoxdu, bunu da mən dedim, səssiz-sovsuz razılaşdı. Nə vaxtdan bəri Rəvandan xəbər tuta bilmirdim, yəqin Pirməhəmməd xanın olmaması erməni xəlifədən ötrü ağlagəlməz fürsətdi, o qayıdanacan çox şeyləri yerbəyer eləməyə çalışacaq. Məşhəddən gələn çaparın dediyinə görə, Osmanlı Sultanının Şahımızın yanına göndərdiyi elçi heyətində məsləhətçi kimi Arutyun Tamburi adlı məsləhətçi də varmış. O Arutyun sünni-şiə ziddiyyətlərini yoluna qoymağa can atan tərəflərə hansı məsləhətləri verirmiş, Nəqşivanda erməni xəlifəylə, Qəzvində yerli həmtayfalarıyla görüşəndə nə barədə söhbət eləyiblər?

345. Sandıqları qatıra yüklədəndə Mirzə Hüseyn zənlə üzümə baxdı, elə bil, ürəyimdən keçənləri üzümdən oxumaq, Tiflisdə qalacağıma əminliyimi yoxlamaq istəyirdi. Mənsə Şahımızdan təvəqqe eləmədən, Xanımızdan izin istəmədən buna inanırdım, ən azı, Tiflisə gedib çatmağın gerçəkliyi məndə o inamı doğurmuşdu. Mirzə Hüseyn, deyəsən, özü taleyilə barışmışdı, oğlunun bu səfərə aparılmamasını xahiş eləyib razılıq almışdı, buna görə də ruhi müvazinəti az-çox düzələnə oxşayırdı. Məhəmməd Kazım mənim məsləhətimlə saray kitabxanasından götürdüyü dörd kitabı, yazı dəstini, geyim-kecimini cəmi-cümlətanı bir sandığa qoymuşdu, artıq bir şey istəmirdi, görünür, ehtiyac duyduğu şeylər maddiyyatla bağlı deyildi. Neçə gündü əlində Rəşidəddin Fəzlullah ibn Əbül-Xeyr Əli Həmədaninin «Cami-ət-tavarix»nin ikinci kitabını görürdüm, «Tarixi-oğuz və türkan və hekayəti-cahangiri» bölməsini oxuyurdu; dünənki söhbətimizdə Rəşidəddinin bir çox parçaları «Kitabi-Dədə Qorqud»dan iqtibas elədiyini söyləmişdi, mən də razılaşmışdım, sonra «Kitabi-Dədə Qorqud» barədə uzun-uzadı söhbətimiz olmuşdu. Axşam dilə tutub həkimbaşı Şahabəddini çağırtdırmağı, nəbzimi ölçdürməyi də o məsləhət görmüşdü, dediyinə görə, halımda dəyişiklik sezmişdi. Dəyişikliyin səfər, daha doğrusu, Tiflisə yetmək həyəcanıyla bağlı olduğunu, əlbəttə ki, çox xırdalamamışdım, amma sözündən də çıxmamışdım. Məhəmməd Kazım artıq ömür hekayətimi müəyyən qədər bilirdi, söz-söhbət vaxtı da çalışırdı ki, qəlbimin sarı siminə toxunub könül yaralarımın qaysağını qoparmasın. Özünün doğulub böyüdüyü Mərvdən, uşaqlıq

dostlarından ötrü darıxdığını hiss eləmişdim. *İnsan bir yerindən-yurdundan təzə ayrılanda, bir də qayıtmaq məqamının yaxınlaşdığını hiss eləyəndə bərk darıxır.* Bu mənada indi Məhəmməd Kazımla mənim ruhi vəziyyətim təxminən eyni cür idi. Onun çağırtdırdığı təbib Şahabəddin nəbzimi yoxlayıb ciyərlərimə qulaq asmış, təhlükəli bir şey olmadığını izah eləyəndən sonra çıxıb getmişdi. İndi saray meydanına doğru gedə-gedə öz-özümdən xəstə olub-olmadığımı soruşur, həyatımın məqsədinə uzanan yolda başıma bədbəxt hadisə gələcəyindən qorxurdum. Əgər Tiflisə çatmamış ölsəydim, bu təbii ki, heç Allaha da xoş getməzdi: mən həmişə Onun həqir bəndəsi olmuşdum, axı!

346. Saray meydanında Xanımızın on minlik atlı qoşunu düzülmüşdü, qalan qüvvələr Nəqşivandan, Rəvandan, Gəncədən, Şirvandan gələcəkdi. Sursat və ərzaq yüklü öküz arabaları, belində zənburəklər, ordugah üçün çadırlar olan dəvələr, sandıq, bağlama daşıyan qatırlar saray hasarından qıraqdakı açıqlıqda yığışmışdı. Günəş təzəcə özünü bildirməyə başlasa da, saray meydanının ətrafına camaat gəlməyə başlamışdı, bir parası doğmalarını yola salır, bir parası da Xanımızın səfərini uğurlamaq istəyirdi. Nə vaxtdan bəri yaşadığım, izaholunmaz bir duyğuyla sevdiyim, bəlkə də illər sonra yuxularımda görəcəyim şəhərin şəklini bütün çalarlarıyla yaddaşıma köçürməyə can atırdım, istəyirdim ki, o mənzərədə hər şey – sarayların günbəzləri və məscidlərin minarələri, evlərin qırmızı kərpicləri, karvansaraların hücrələri, bazarların köşkləri, məhəllələrin səbilxanaları, küçələrin dilənçiləri, şəhərətrafının bağları və üzümlükləri, ağacların yarpaqları, Səhənd dağının qarı, yanında qaravaş hamama gedən xanım, evin küləfrəngisindən küçəyə baxan gözəl, barmağını sora-sora tanımadığı adamlara baxan uşaq, işığı öləzimiş gözlərilə yollara baxan, hələ də uğanlarla döyüşdə itirdiyi oğlunu gözləyən qarı, Şah Təhmasib vaxtında at belinə sıçramış, indi yerindən qalxa bilməyən qoca… – olsun ki, ömür vəfa eləyib Təbriz haqqında nəsə yazası olsam, bütün bunları qələmə gətirə bilim. Şübhəsiz, o andakı duyğuları, o rəngləri, o çalarları olduğu kimi kağıza köçürmək mümkünsüzdü, amma ən azı yaddaşımda Venezia saraylarında gördüyüm rəsmlərə oxşar mənzərə canlandıra bilərdim – yeganə təmənnam da elə buydu. Ola bil-

sin, bu şəhərdən hərənin bir umacağı vardı, mənim umacağımsa maddi deyildi, yaddaşıma yığıb apardıqlarımdan özgə nəyəsə ehtiyac duymurdum. Ömrümün, az qala, iyirmi ilini İstanbula vermişdim, amma İstanbuldan ayrıldığım bu qədər duyğulu deyildi; bəlkə ona görə ki, İstanbul çox sınırsızdı, elə indi də o nəhəng şəhəri çətin qavrayıram, daha doğrusu, xəyallarıma tamam sığışdıra bilmirəm; Təbrizsə, eynən Tiflis kimi, elə bil, ruhumun özündən doğulur, yaddaşımın sınırlarını zorlamır, həm də görkəmində məni daim kövrəldən, təsirləndirən nəsə var.

347. Təbillər vuruldu, kərənaylar çalındı, toplaşanların alqış sədaları ucaldı, bildim ki, tərpənməyimizə az qalıb. Carçı meydanı dolaşa-dolaşa Xanımızın saraydan çıxdığını, mübarək gündə mübarək səfərə gedəcəyini hamıya çatdırdı, atlılar, piyadalar, keşikçilər, nasaqçılar, xidmətçilər, arabaçılar, dəvəçilər, qatırçılar özlərini yığışdırdılar. Eşikağasıbaşı hər şeyin yerli-yerində olduğunu bir daha yoxlayandan sonra İbrahim xan, Fövziyyə Sultan, Şahzadə Məhəmmədəli, Məhəmməd xan Əfşar, Mömin xan Mərvi, əyan-əşrəf göründü, dərhal hər tərəfdən Xanımızın şəninə alqışlar ucaldı. Məhəmməd xan Əfşar keçib qoşunun başında öz yerini tutdu. İbrahim xan atlıların cərgəsi önündən keçib meydanın ortasına doğru gəldi, əyan-əşrəfin itaətlə əyilmiş dəstəsi yanından ötüb atını mindi, qoşuna göz gəzdirəndən sonra sağ əlini yuxarı qaldırdı. Bir anlığa, elə bil, hər şey susdu, hətta ağacların yarpağı, göydəki quşlar, yerdəki canlılar da donub qaldı, az qala, ürəyimin tıppıltısını da eşitdim. Xanımız əlini quzey tərəfə uzadanda gurultu təzədən qopdu, əvvəlcə sipəhsalar İbrahim xan Əfşar, ardınca qoşunu saray darvazasından çıxıb şəhərin quzey darvazasına doğru yönəldi. Əlbəttə, on minlik qoşun yola düzələnəcən xeyli çəkdi, atların dırnaqlarından qalxan toz asta-asta ətrafa yayılıb evlərə, ağacların yarpaqlarına, çəpərlərə qonmağa başladı. Sonra, azı, üç yüz nəfərlik mirzələr, dəftərdarlar, həkimlər, aşpazlar, çaparlar, xidmətçilər… dəstəsi, arxamızcasa yüklü öküz arabaları, dəvələr, qatırlar tərpəndi. Küçələrin hər iki tərəfinə düzülənlər, pəncərələrdən, qapılardan, eyvanlardan baxanlar səfərimizin uğurlu olmasını arzulayırdılar. Bu səfərdə də uğurun məndən ötrü bir yox, iki mənası vardı; Tiflisə yetişmək və dağlı basqınlarına son qoyulması.

348. Acıçaydan keçib üzü günçıxana bir qədər də quzeyə – Ərdəbilə sarı yollandıq. Mirzə Hüseynin hesablamasına görə, Ərdəbilə ən yaxşı halda birisi gün axşama çatacaqdıq, iki gecəni ya ordugahda, ya da iri obalarda keçirəcəkdik. Mirzə Kəmaləddinin siması bir an da gözlərim önündən çəkilmirdi, Təbrizin sağ yanımızda qalan mənzərəsinə, Səhənd dağına, burula-burula Urmiya gölünə tələsən Acıçaya baxsam da hər yerdə onu görürdüm. Bu dəfə onunla ömürlük vidalaşacaqdıq, o dünyada da görüşək-görüşməyək, ya qismət. Həyatımın çətin məqamlarında könül dostum, sirdaşım olan, çətinliklərimi bölüşən adamla bir daha görüşmək fürsəti yaratdığına görə Allahıma hədsiz minnətdardım. Əslində, bu minnətdarlığım onu və qatırçı Səfəri mənə həyatımın ağır vaxtında rast gətirdiyi məqamdan vardı, öz yurd-yuvasına dönmək istəyən adamın Allahın hikmətilə bir köynək yaxın olan həmtalesinə rast gəlməsi, boğulanların saman çöpündən yapışmasına oxşayırdı, amma Allahın möcüzəsi sayəsində qurtuldular, uzun ayların sərgərdanlığından sonra Mirzə Kəmaləddin ailəsinə qovuşdu, mən də istəyimə yetmək yolundayam, salamatlıq olsa, uzaqbaşı bir aya Tiflisi görəcəyəm. Allahın fağır bəndəsi, fikri-zikri köç-külfətinin yanında, gündəlik qayğılarında olan Səfərin başına nə gəldiyindən xəbər tuta bilmədim, ümidvaram, sağ-salamat gedib Qəzvinə yetişib, taleyinin xarabalıqları üzərində həyatını təzədən qurub, indi başını aşağı salıb kasıbçılığını eləyir. Bundan sonra onunla hardasa rastlaşmağı ağlımdan belə keçirmirəm, hər halda, bu mənim planlarımda yoxdu. Amma nə vaxtsa Şahımızın və Xanımızın Tiflis səfərində Mirzə Mehdiylə, Mirzə Hüseynlə, lap elə bu cavan oğlan Məhəmməd Kazımla üz-üzə gəlmək ehtimalı vardı, bu da güman ki, istəyimdən yox, Allahın iradəsindən asılıydı.

349. Bir qədər Əhər çayına doğru meyillənmiş, Meşkinə sarı səmt götürmüşdük, çay solumuzda, dağlar sağımızda qalırdı. Əlbəttə, Mirzə Hüseyn hesablamışdı, amma mən Ərdəbilə çatmaq üçün daha bir gün də lazım gələcəyini fikirləşirdim, çünki arabalar payız yağışlarının yumşaltdığı yolda ağır-ağır irəliləyirdilər, qoşun da qafiləmizdən çox aralana bilmirdi. İki dəfə ordugah qurub gecələyəndən sonra üçüncü gün axşamüstü Meşkinə sısqa yağış altında, yüngül duman içində yetişdik. Qoşun yenə şəhər

kənarında qurulan ordugahda, keşikçilər, nasaqçılar, xidmətçilər meydanda qurulan çadırlarda, bizsə imkanı çatanların evlərində yerləşdik. Şəhər hakimi, adını unutduğum bəy çaparın verdiyi xəbərlə qafiləmizi şəhərin bir fərsəngliyində qarşılayıb iltifat göstərirdi, amma elə bil yağış-duman səbəbindən Xanımızın pişvazına çıxan olmadığından xəcalət çəkirdi. Xoşbəxtlikdən, görünür, İbrahim xan belə şeyə fikir verəcək halda deyildi, fikri-zikri dincəlməklə bağlıydı. Mirzə Hüseyn, Məhəmməd Kazım və məni dəftərdar Mirzə Əli qonaq elədi. Əlli yaşlarında arğaz kişiydi, Ərdəbildə Mədrəsə bitirmişdi, şeriyyəti, illah da Şah Xətaini gözəl bilirdi. Şübhəsiz, bir qədər ehtiyatla, amma səmimiyyətlə Xətainin şeirlərindən də söylədi, sonra sənət məqamında xanədan məsələsinin bizi o qədər də maraqlandırmağını görüb Kəmaləddin Behzaddan söz açdı, Sadıq bəy Əfşarı da unutmadı; saxlancındakı miniatürləri göstərib hansını kimin və nə vaxt rəsm elədiyi barədə danışanda üz-gözündə heyrətamiz işıq vardı. Düzü, Mirzə Əliylə görüşümüzdən çox duyğulanmışdım, çünki bu qədər dərin savadlı adamın ömrünü dəftərdarlıqla keçirib kiçik bir şəhərdə səssiz-səmirsiz dünyayla vidalaşacağı gerçəyi məni ağrıdırdı. Deyəsən, Mirzə Hüseyn belə gerçəkliklərə öyrəşmişdi, amma Məhəmməd Kazımın da təsirləndiyini gördüm, yanılmıramsa, gözləri də dolmuşdu. Yollarda keçirdiyim əlliillik ömrümdə oxşar talelər yaşayan adamlarla o qədər rastlaşmışdım ki, həmin məqamda alın yazısından qaçmağın mümkünsüzlüyü barədə əmin olduqlarımı yenə ağlıma gətirdim.

350. Səhər bizi çox tələsdirmədilər, çünki bir günə Ərdəbilə yetişə bilməzdik, iki günəsə arxayın gedib çatardıq; bir halda ki, gecəni yolda keçirəcəkdik, çox tələsməyə dəyməzdi. Amma bu dəfə İbrahim xan qoşunu və qafiləni Məhəmməd xan Əfşara tapşırmış, Mömin xan Mərvini, bir dəstə adamı və keşikçiləri götürüb çaparaq yola düzəlmişdi ki, axşamacan özünü Ərdəbilə yetirsin. Mənsə İsfahan cəhənnəmindən canımı qurtarıb qaçanda müsafir qaldığım şəhəri görməkdən çox o şəhərə pənah gətirən doğma bir adamı – Mirzə Kəmaləddini tapıb sağ-salamat olduğuna əminlik hasil eləmək intizarındaydım. Dəftərdar Mirzə Əliylə vidalaşıb atımıza minəndə Məhəmməd Kazım söz verdi ki, nə vaxtsa mütləq Meşkinə gəlib onunla görüşəcək, söhbətlərindən

ruhi qida alacaq. Mən söz vermədim, çünki bir zaman geri qayıdacağımı ağlıma da gətirmirdim, bu səbəbdən, gördüyüm çaylar, dərələr, dağlar, obalar, şəhərlər, adamlarla fikrən vidalaşırdım. O gecə Ərdəbilin səkkiz-on fərsəngliyində qurduğumuz ordugahda çadırı döyəcləyən yağış damcılarının səsinə qulaq asa-asa Məhəmməd Kazıma dedim, baxma ki, nəvəm yerindəsən, amma dərrakəli oğlansan, məndən sənə vəsiyyət: nəyəsə uyub həyatın başqa nemətlərindən imtina eləmə; tarix yazmaq şərəfli işdi, hər kəsə nəsib olmur, bununla belə, mənim kimi ömrünü yollarda sərf eləmək də ağıllı iş deyil; dedim, bax, mən gizlətmirəm, özü də eşitsin, Mirzə Hüseynə həsəd aparıram, çünki rahatlığını öz ocağında, ailəsində axtaran adamdı, ötəri həvəslərə uyduğunu sezməmişəm. Sonrasını dilimə gətirmədim, beynimdən keçirdim: düzdü, qismət deyilən gerçəklik də var, o sənin hökmündən qıraqdadı, amma qisməti də başlı-başına buraxmaq olmaz, mənim kim yollarda qalarsan. Mirzə Hüseyn nəsə düşünüb köksünü ötürdü, Məhəmməd Kazımsa hələlik dediklərimlə razılaşdı – amma ikimiz də bilirdik ki, nəsihətlərim nə qədər müdrik olsa da *insanın öz taleyinin hakimi olması çətin məsələdi, hər şeyi həyat yerbəyer eləyir, sənə ancaq yaşam qayğılarıyla əlləşib-vuruşmaq qalır...*

# XI

# XANƏDANIN BƏRQƏRAR OLDUĞU YER

*Mürşüdü-kamilim, şeyx oğlu şahım,*
*Bir ərzim var qulluğuna, şah, mənim.*

***Dirili QURBANİ***
***(XVI yüzil)***

351. Ərdəbilə gün günortadan əyiləndən az sonra girdik. Pişvazımıza demək olar, çıxan olmamışdı, ancaq şəhər hakiminin eşikağasıyla nasaqçılar gəlmişdilər ki, kimin harda yerləşəcəyini söyləsinlər. Ordugah şəhərin Qarasu çayı səmtində salındı, görünür, İbrahim xan Əfşar Səfəvilərin və sufilərin məbədgahına qoşunla girməməkdə tədbirli hərəkət eləmişdi, çünki köhnə xanədanın törəmələri hələ zindanda da olsalar, sağ idilər. Bizi şəhərin, az qala, adamsız küçələrilə aparıb evlərə təslim elədilər. Mirzə Hüseyn, Məhəmməd Kazım və məni hörmətlə qarşılayan mustoufi Kərim ağa elə mən yaşlarında xoşsifət kişiydi, ovqatımızla, yolu necə gəldiyimizlə maraqlandı. Dediyinə görə, bəxtimiz varmış, iki gün qabaq şəhərdə selləmə yağışdan göz açmaq olmurmuş, Xanımızın pişvazına da çisək altında çıxıblar, amma bu gün hava açıldı. Kərim ağaya qulaq asa-asa beynimdə Mirzə Kəmaləddinin adını dolandırırdım, bununla belə tələsməməyi, hövsələmi basıb məqam gözləməyi qərara aldım. O, məqam axşam namazını qılıb çörəyimizi yeyəndən sonra söhbətə başlayanda yetişdi. Kərim ağa Mirzə Kəmaləddini tanımırdı, amma dedi, əgər Ərdəbildədisə, narahatlığa əsas yoxdu, yəqin bəzi adamların köməyilə taparıq. Söhbətimiz Şahımızın Qəndəharda, şahzadə Rzaqulu xanın Bəlxdə qazandığı zəfərlərdən, məmləkətin günbatan və quzey hüdudlarında baş verən hadisələrdən, Osmanlı tacirlərinin səfərlərindən, qeyri-mətləblərdən fırlanıb şəhərdəki vəziyyətin üzərinə gəldi. Kərim ağa Şahımızın Ərdəbilə münasibətindən məmnun idi, dediyinə görə, Xanımız da şəhər camaatının Şeyx Səfi nəslinə

olan həssas münasibətini nəzərə almaqda müdriklik göstərirdi. Zaman hər şeyi yerbəyer eləyəcək, yaraları sağaldacaqdı, başlıcası məmləkətdə əmin-amanlıq olmasıydı. Əmin-amanlığın da artıq əlamətləri görünürdü, Şahımız bəxtiyariləri itaətə gətirmişdi, indi Qəndaharla haqq-hesabı çürütmək niyyətindəydi, Rzaqulu Mirzə Mavərənnəhrdə qələbələr qazanırdı, Osmanlı xanədanıyla hələlik dil tapmaq mümkün olmuşdu, Xanımız da ləzgilərinin əl-ayağını yığsaydı, rahat yaşamaq olardı.

352. Səhəri günəş bir adam boyu qalxmışdı ki, Xanımızdan çapar gəlib iki gün Ərdəbildə qalacağımız barədə xəbər gətirdi. Bu xəbərdən elə şadlanmışdım, sevindiyimdən nəfəsim tutuldu. Həmin vaxt Kərim ağanın eyvanından Şeyx Səfi türbəsinin bərq vuran əzəmətli günbəzinə baxa-baxa Axund Mirəlini gözləyirdik, dediyinə görə, o Mirzə Kəmaləddini tanımalıydı, tanımasa da soraqlaşıb izini tapa bilərdi. Mustoufi Kərim ağa saraya tələsirdi, Xanımızın təşrif buyurduğu məqamda şəhər hakimi Müzəffər xanın qulluğunda olmalıydı. Axund Mirəli təsəvvür elədiyimdən də cavan, ortaboylu, ağıllı simalı adam idi, xoş-beşdən sonra dedi, Mirzə Kəmaləddini tanımaq fürsətim olmayıb, amma Şeyx Heydər mədrəsəsində belə bir şəxsin dərs dediyini eşitmişəm, Allahın köməyilə taparıq. Mirzə Hüseyn Kərim ağayla saraya yollandı, dedi, Xanımız iki gün qalmağa qərar veribsə, vacib dövlət işlərilə məşğul olacağı şəksizdi, yəqin yaxın şəhərlərdən, obalardan xanları, bəyləri, ağaları, kəndxudaları hüzuruna çağırıb vacib buyrultular verəcək. Xanımızın bu cür işlərlə adətən günorta namazından sonra maraqlandığını bilsəm də, Mirzə Hüseynə haqq verdim – qulluqda olan adam gərək əmrə müntəzir olmağı bacarsın. Əlbəttə, mənim sarayda olmağım zəruri sayılsaydı, şübhəsiz, eşikağasıbaşı indiyəcən arxamca adam göndərmişdi, göndərməyibsə, deməli, bu gün tarixə düşməli bir hadisə baş verməyəcək, Mirzə Hüseynin zənn elədiyi kimi, idari məsələlərə diqqət yetiriləcək. Bu Şahımızın idarə üsulundan irəli gələn xüsusiyyət idi, Mirzə Mehdinin danışdıqlarından bilirdim: hansı vilayətdə, yaxud şəhərdə bircə günlüyə də olsa dayansa, yerdəki vəziyyəti öyrənir, vergi yığımının, əkin-səpinin vəziyyətilə maraqlanır, günahkarları cəzalandırır, sədaqətlə qulluq eləyənlərə ənam verirdi. Ayrılanda Kərim ağaya Mirzə Kəmaləddinlə görü-

şümün uzana biləcəyi ehtimalını çatdırdım, bu səbəbdən günorta, ola da bilsin, axşam yeməyinə gələ bilməyəcəyimizi söylədim. Sonra Şeyx Səfi türbəsinə doğru gedə-gedə Məhəmməd Kazımı Axund Mirəliyə tanıtdım, o da bir-iki sualına aldığı cavabdan çox məmnun qaldı. Türbənin yaxınlığında mədrəsənin ikitağlı tikilisini görəndə əməlli-başlı həyəcanlandığımı, ürəyimin bərk-bərk döyündüyünü hiss elədim.

353. Qismətdən Mirzə Kəmaləddini çox axtarmalı olmadıq, elə öz hücrəsində dərs dediyi vaxt tapdıq. Məni görəndə yerindəcə quruyub qaldı, sonra kövrəldi, gözləri dolub boşaldı, itiyini tapmış adam kimi boynuma sarılıb bir müddət aralanmadı. Naqolay vaxtda gəldiyimi andırsam da, qulaq asmadı, tələbələrini evə buraxdı, elə hücrədəcə oturub aradan keçən, az qala, bir il ərzində olub-keçənləri bir-birimizdən soruşmağa tələsdik – hətta Məhəmməd Kazımı təqdim eləmək belə xeyli sonra ağlıma gəldi. Mirzə Kəmaləddin qoşulduğu heyətlə Ərdəbilə qayıdıb külfətini pərişan tapıbmış; sən demə, İstanbuldan məndən xəbərsiz üç dəfə göndərdiyi güzəran pulundan ancaq biri gəlib ailəsinə çatıbmış, külfəti, illah da ötən qış, qıtlıq vaxtı çox əziyyət çəkibmiş; Mirzə Kəmaləddin özünü evə çatdıranda arvadını xəstə, oğlunu bazarda xırım-xırda şeylər satan görüb, xəcalətindən, az qala, ağlını itiribmiş; külfətini yığıb Təbrizə aparıb, orda da bircə həftə duruş gətirə bilib, təzədən Ərdəbilə qayıtmalı olub; bir neçə ayı ancaq ailəni düşdüyü girdabdan çıxarmağa sərf eləyib, olan-qalan pulu tükənəndəsə, çıxış yolu axtarmağa çalışıb, amma özünü sındırıb saraya yaxın düşməyib; axırda şəhər qazisinin yanında işləyən qohumu onu mədrəsəyə düzəltmək üçün qazıya ağız açıb, Mirzə Kəmaləddin də saraydan uzaq olmaq ümidilə qohumunun məsləhətinə qulaq asıb, indi altı aydan artıqdı ki, bu mədrəsədə dərs deyir, ailəsinin ruzisini qazanıb Allahına şükür eləyir. Mən də o gələndən sonra Muğan çölündə baş verənlərdən, Allahın təqdiri, Şahımızın istəyilə Azərbaycan bəylərbəyi, Vəliəhd İbrahim xan Zahirüddövlənin sarayına göndərilməyimdən, Təbrizə gəlməyimizdən, Təbrizdə elə ilk günlərdən onu axtarmağımdan, indi Tiflis səfərinə yollanmağımızdan danışdım. Sonra heç bilmirəm necə oldu, dilimdən qaçırdım ki, Allahın verdiyi möhlət get-gedə azalır, ömrümün

bundan sonrasını yurdumda-ocağımda keçirmək niyyətindəyəm. Həmin məqamda Məhəmməd Kazım təəccüblə üzümə baxdı, çünki indiyəcən bu niyyətimi onun yanında dilimə gətirməmişdim, belə şey heç ağlına da gəlməzdi, amma dillənmədi, ola bilsin dediklərimi, könül sirdaşımla görüşümdən təsirlənməyimə yozdu. Onu Mirzə Kəmaləddinə elə həmin məqamda təqdim elədim, tanışlığından çox məmnun oldu.

354. Əlbəttə ki, Mirzə Kəmaləddin bizi buraxmadı, naharımızı onun türbəyə yaxın məhəllədəki evində elədik, sonra şəhəri gəzib, məscidlərə, karvansaralara, qıraqdan da olsa, baxdıq. Ötən dəfə yəqin ovqatımın təlxliyindənmiş, Ərdəbil mənə belə cazibədar görünməmişdi, indi qədimliyi, əzəməti, özünəməxsusluğuyla gözlərimdə böyümüşdü. Mirzə Kəmaləddin Şeyx Səfiəddin məqbərəsini, Eybə Sultanın təqibindən qaçan Şeyx Heydər oğlu İsmayıl və İbrahimin rumlular məhəlləsində gizlədildiyi Şeyx Cüneyd qızı Paşa xatunun evini, Cümə məscidində İsmayılın saxlandığı Allahvermiş ağa sərdabəsini göstərdi, sonra Rüstəm bəy Qaramanlının onu məsciddən necə çıxarıb Baqrov dağına apardığını, Kürkan kəndində xətib Fərruxzadın evində gizlətdiyini, ordan Rəştə aparıb Ağ məsciddə yerləşdirdiyini danışdı, dedi, Piri-mürşidimiz Ərdəbildə olanda anası Aləmşah bəyim belə gizləndiyi yeri bilmirmiş ki, Eybə Sultan ona işgəncə verib söz almaq fikrinə düşsə, İsmayıl ələ keçməsin. Əlbəttə, bunları oxuduğum kitablardan da bilirdim, amma bildiklərimi canı-qanıyla Səfəvilərə bağlı olan Mirzə Kəmaləddinin ağzından eşitmək məndən ötrü daha duyğuluydu. Gördüm, könül sirdaşım hələ də qəlbən xanədanın süqutuyla barışa bilməyib, bundan sonra da çətin ki, barışsın. Yəqin, Piri-mürşidinin mənşəyilə Şahımızın mənşəyini müqayisə eləyib, iki yüz otuz beş illik sülaləni əsil-nəcabəti olmayan, ancaq qolunun qüvvəsinə arxalanan bir kəsin aradan götürməsi ona ağır gəlirdi. Amma belə məqamda Şah Sultan Hüseynin ayaqlar altına saldığı, Şah Təhmasibin qoruya bilmədiyi məmləkəti həmin o əsil-nəcabəti olmayan hünər yiyəsinin qurtardığını xatırlatmağın yeri deyildi, bu həqiqət heç Mirzə Kəmaləddinin dərdinə dərman da olmayacaqdı. Bütün bunları Məhəmməd Kazım da anlamışdı, ancaq bilirdim ki, sezdiklərini ağzından qaçırmayacaq, çünki tarix yazmağın birinci

şərtinin soyuqqanlıq olduğunu ona dəfələrlə söyləmişdim, gərək ki, bunu heç vaxt unutmayacaqdı, unutsa, yazdığı əsl tarix olmayacaqdı.

355. Gəzintidən sonra Məhəmməd Kazım güman ki, bizi tək qoymaq məqsədilə Kərim ağanın evinə qayıtmaq üçün izin istədi. Mirzə Kəmaləddin onu da evinə dəvət elədi, razılığını ala bilməyəndə məni qonaq saxlayacağını Kərim ağaya da, Mirzə Hüseynə də çatdırmağı təvəqqe eləyib izin verdi. O gecə könül dostumun bizə qulluq eləyən on dörd yaşlı oğlunu yanımda oturdub boyunu sevə-sevə söhbətə tutdum, Mirzə Kəmaləddinlə az yatıb, çox söhbət elədik, İstanbulu, Konyanı, Ərzurumu, Rəvanı, Muğanda baş verənləri xatırladıq, ümumiyyətlə, insan ömrünün mənası barədə düşüncələrə daldıq. Mirzə Kəmaləddin şah sarayında yaşayan Saib Təbrizinin: *Əzdikcə fələk torpağa döndüm bu cahanda, /Yox özgə dənim, mən üyüdüm bir daha onda,* – beytini söyləyib hikmət xəzinəsindən dürr payladı, mən də o hikmətin işığında ömrümüzün zaman dəyirmanında dən kimi üyündüyünü, bir vaxt tükənib torpağa qarışacağını söylədim. Əlbəttə, bir daha görüşməyəcəyimizlə barışmaq istəməsə də, öz yurduma, ocağıma dönəcəyimə sevinirdim. Mənim bir daha Təbrizə qayıtmaq niyyətim yox idi, onun da Tiflisə gələcəyi heç ağlımdan keçmirdi, buna görə də taleyimizlə barışıb, acılı-şirinli xatirələrlə yaşamaqdan başqa əlacımız qalmırdı. Mirzə Kəmaləddin İstanbulda olduğu müddətdə arxasınca düşdüyü həqiqəti – bu qədər ayrılığa və faciələrə səbəb olmuş sünni-şiə ziddiyyətinin mənasız olduğunu dərk eləmişdi, indi mədrəsədə çox ehtiyatla da olsa, tələbələrinə bunu aşılamağa çalışırdı. Könül sirdaşım yəqin ki, ömrünün son günlərinəcən o xatirələrlə yaşayıb için-için qovrulacaqdı, mənsə ömür möhlət versə, yaddaşımda, duyğularımda qalanları kağıza köçürüb, az da olsa, təskinlik tapacaqdım. Şübhəsiz, Allahın xoş təsadüfü olmasa, bir-birimizin dünyadan köçməyimizdən xəbər tutmayacaqdıq, beləcə, hər şey, yəni, ömür deyilən şey bitəcəkdi. Bunu dilimizə gətirməsək də, amansız gerçəklik ikimizə də gün kimi aydın idi, ona görə də, söhbətimizin axırında uzun-uzadı susduq.

356. Səhər saraydan adam gəldi, məni divanın toplantısına çağırdılar, yəni, Mirzə Hüseyn orda olmağımı məsləhət görmüşdü.

Mirzə Kəmaləddin axşam görüşmək ümidilə uğurlu gün arzulayıb mədrəsəyə yollandı. Sarayda aydın oldu ki, Xanımız adəti üzrə günorta namazından sonra Əhər, Sərab, Xalxal, Astara, Lənkəran hakimlərilə vəziyyəti aydınlaşdırıb, Dağıstan səfərinə onların necə kömək göstərəcəklərini ayırd eləmək istəyir. O vaxtacan mustoufi Kərim ağanın otağında oturub olub-keçənlərdən danışdıq, namazımızı qılıb, yeməyimizi də orda yedik. Biz divanxanaya girəndə, azı, otuz nəfərin divar boyu oturub Xanımızın gəlişini gözlədiklərini gördüm, hakimlərlə yanaşı mirzələr, dəftərdarbaşılar, tacirbaşılar, bir para kəndlərin kəndxudaları da ordaydılar. Xanımız hər vaxtkı əzəmətilə içəri girdi, bağır basıb təzim eləyənlərin arasından keçib taxtda oturdu, sonra üzünü bir-bir yığışanlara tutub idarəçiliyin, verginin, qoşunun, alış-verişin, əkin-səpinin, mal-qaranın vəziyyətini soruşmağa başladı. Mirzə Hüseyn həmişəki kimi xeyli buyrultu hazırlamaq əmri aldı, yığıncaqdan dərhal sonra da Xanımızın əmrini yerinə yetirməyə getdi. Məhəmməd Kazımla saraydan çıxıb Kərim ağanın evinə yollananda öyrəndik ki, səhər obaşdan yola çıxırıq, Xanımız mümkün qədər tez gedib Bərzənd-Beyləqan-Bərdə yoluyla Gəncəyə, oradan da Tiflisə yetişmək istəyir. Ona görə də axşam Kərim ağanın könlünü qırmadım, adam göndərib Mirzə Kəmaləddini onun evinə çağırtdırdım, birgə çörək kəsib söhbət elədik. Kərim ağa söhbətarası sarayda savadlı mirzəyə ehtiyac duyulduğunu eşitdirsə də, Mirzə Kəmaləddin israrla bu fikri Müzəffər xanın yanında söyləməmək xahişini təkrarladı, mədrəsədəki işindən məmnun olduğunu bildirdi. Şübhəsiz, bu israrında hələ sinirmədiyi xanədana xidmət eləməmək istəyi də vardı, amma mən bilən könül sirdaşımın imtinasının başlıca səbəbi İstanbulda ömrünün, az qala, on ilini verdiyi işə – məzhəb ziddiyyətlərinin çözülməsinə xidmət göstərmək arzusuyla bağlıydı.

357. Səhər nə qədər üz vursam da Mirzə Kəmaləddin əl çəkmədi, bizi şəhərdən çıxanacan ötürdü, qucaqlaşanda göz yaşlarının axıb saqqalına qarışdığını gördüm. Biz Qarasu çayına sarı səmt götürüb xeyli aralananacan durub arxamızca baxdı, yəqin hələ uzun müddət ikigünlük duyğuların əsiri olub qalacaqdı. Atımı yüngülcə dəhmərləyə-dəhmərləyə yenə Həmdullah

Qəzvininin «Nüzhətül-qülub» kitabındakı Ərdəbil-Arran Qarabağ, Qarabağ-Gəncə yolları barədə qeydlərini xatırladım. Bu yolla Rabat, Ərşad, Vərəng kəndlərindən keçib bir vaxtlar böyük şəhər olan Bərzənd kəndinə yetişəcəkdik, sonra yəqin Bəcərvana, Mahmudabada girmədən Biləsuvara, ordan Beyləqana, Bərdəyə, Gəncəyə yetişəcəkdik. Bu yetmiş beş fərsəhglik yolu uzaqbaşı bir həftəyə keçməliydik ki, payızın son ayının hələ ki, xoş olan havasından istifadə eləyək. Yolda ləngiməsək, elə həmin axşamı Vərəngdə, növbəti axşamısa Bərzənddə keçirə bilərdik. Amma hər şey Allahın və Xanımızın iradəsindən asılıdı, bir də gördün, könlünə Lənkəran meşələrində şikara çıxmaq, ya dərya kənarında ordugah salıb dincəlmək düşdü – kim sözünün üstündən söz söyləyə bilər. Mirzə Hüseynin dediyinə görə, Tiflisdən, Səfi xan Buxairidən namə gəlibmiş, hələ ki, quzey hüdudlarımızda Xanımızı təsəldirəcək bir vaqiə baş vermir. Məni daha çox Arazı o taya keçəndən sonra erməni xəlifənin uğurumuza çıxacağı, ilanı yuvasından çıxaran dili, əzabkeş, yaltaq, itaətkar görkəmilə yolundan sapdıracağı, bəlkə də Tiflis səfərindən saxlayacağı barədə ağlıma gələnlər narahat eləyirdi. Məhəmməd Kazım hər yana gənclik marağıyla baxır, aradabir suallar verir, kitablarda oxuduqlarını yada salır, yorulduğunu dilinə gətirmirdi. Mirzə Hüseynlə mənsə artıq ömrümüzün çoxunu yaşamışdıq, daha uzun yola tab gətirə bilmirdik. O məqamlarda düşünürdüm ki, *insan hər şeyə qədərindən artıq rəng verməyi, əzab çəkməyi, əzab verməyi xoşlayır; əslindəsə, ətrafımızda baş verənlərə nə qədər sakit yanaşsaq, o qədər adi olduğunu dərk eləyərik...*

# XII

# QƏFİL GƏLƏN DƏRD

***Yol düşdü, ha Muğana,***
***Sən də gəl, ha Muğana.***
***Şana bir muy üzübdür,***
***Düşmüşük hamı qana.***

***Kür qırağında eşitdiyim bayatı***

358. Amma Xanımız, görünür, biz təsəvvür elədiyimizdən də çox tələsirdi, bu səbəbdən Bərzənd-Beyləqan-Bərdə-Ərəş yolunu seçdi. Arazı çətinlik çəkmədən, Kürü sallarla keçdik. Əvvəlcə Xanımızın fikri Muğan çölündə, yığnağın keçirildiyi iki çay arasındakı düşərgədə bir neçə gün qalıb dincəlmək idi, qamış olacaqların yağışdan-günəşdən yararsız hala düşməsi, yazda sel gəlib körpüləri aparması onu bu niyyətindən döndərdi, az-çox yararlı sığınacaqlara əl gəzdirib ancaq gecəni və sonrakı günün yarısını qaldıq. Həmin müddət ərzində də Cavaddan gətirilmiş ustalar iri sallar düzəltdilər ki, sursat dolu öküz arabalarını, yüklü dəvələri, qatırları, atları, adamları o taya keçirsin. Əlbəttə, mənim taleyimi dəyişdirən bu yeri gəzdim, Məhəmməd Kazıma Şahımızın çadırının qurulduğu yeri, divanxananın, hərəmxananın, məscidin, keşikçi qüllələrinin az-çox salamat qalan qalıqlarını göstərdim. Şahımızın tac qoyub taxta çıxdığı yerdə uzun müddət dayanıb susduq, Məhəmməd Kazım dedi, bir vaxt tarixin dəyişdiyi yerdə ayaq saxlayıb günəşin batmasına baxmağı, gecə tonqalının qırağında oturub özünü tarixin şahidi saymağı heç zaman ağlına gətirməyibmiş. Əlbəttə, bir az xəyalpərvər olsa da, oğlanın söylədiklərində həqiqət vardı, heç mən özüm də məmləkət tarixinin gedişini dəyişən o yığnağın şahidi olacağımı, sarayda yaşayacağımı ağlıma gətirməzdim. İndi Tiflisə on günlük, uzaqbaşı iki həftəlik yolumuz qalırdı. Cavadda, Ərəşdə, Gəncədə, Qazaxda dayanmasaq, daha tez çatarıq – sonra bütün bu xəyallar

sona çatacaq, ardınca tamam başqa aləm başlayacaqdı. İndisə gecəm-gündüzüm yolun nə vaxt mənzilə yetəcəyilə bağlıydı. Məhəmməd Kazımsa yola yenicə qədəm qoyurdu, həyatı hələ irəlidəydi; yəqin bundan belə çox səfərlərə çıxacaq, tarixin gedişatının dəyişdiyi çox yerlərdə olacaqdı. Tale ona tamam başqa ömür qismət eləmişdi, mənim kimi həyatın əlində sərgərdan deyildi, arxa-dayağı, himayəsi, sevgilisi, ümidləri, xəyalları vardı, ümidvardım ki, bəxti üzünə güləcəkdi.

359. Xanımız bəlkə də Ərəşdə dayanmayacaq, birbaşa Gəncəyə gedəcəkdi. Amma heç ağlımıza gəlməyən qorxunc fəlakət bizi Cavad-Gəncə yolunda, Ağdaşı bir qədər ötəndən sonra yaxaladı. Hələ ki, Şahımızın qəzəbindən qurtarmış Uğurlu xan Ziyadoğlunun göndərdiyi çapar özünü qaranəfəs çatdırıb Gəncədə vəba xəstəliyi başladığı, Xanımızın Gəncəyə girməsinin məsləhət görülmədiyi xəbərini gətirmişdi. Xanımız da düzənlikdə ordugah salmağı, Ərəşə çapar göndərib ordakı vəziyyəti öyrənməyi əmr eləmişdi – bütün bunlardan ordugah qurulub qoşun yerbəyer olandan sonra xəbər tutduq. Həkimbaşı Şahabəddin çadırları bir-bir gəzib hamıya sərvaxt olmağı, yad adamlarla ünsiyyətə girməməyi, halsızlıq, qızdırma hiss eləyəndə dərhal xəbər verməyi tapşırırdı. Xanımız ordugahın ətrafında keşikçilər qoymuşdu ki, yerli camaatdan kimsə yaxın düşməsin, özü də gəlişini eşidib pişvazına çıxan hakimləri, bəyləri, ağaları, mirzələri, qazıları düşərgənin yaxınlığından geri qaytarmağı əmr eləmişdi. Axşam Mirzə Hüseyn danışdı ki, artıq Gəncədə yüzlərlə adamın öldüyünü söyləyirlər, bu səbəbdən, gərək ki, Xanımız özünü tez-tələsik Tiflisə yetirməyə çalışacaq. Əlbəttə, vəbanın nə demək olduğunu bilirdim, İstanbulda, Təbrizdə, İsfahanda rastlaşmışdım, özümü mümkün qədər qorumaq üsullarından da xəbərim vardı, o üsullardan Məhəmməd Kazımı da xəbərdar elədim. Vəbanın məni burda əlli il həsrətilə yaşadığım yurduma, uzaqbaşı, bir həftəlik yolda yaxalamasını istəmirdim, amma taleyin işinə bax ki, qorxduğum o xəstəlik həm də Tiflisə çatmağımı tezləşdirirdi. Axşam Ərəşdə də bir neçə xəstə tapıldığı məlum oldu, bu da şübhəsiz, hamıda qorxu yaratdı. Dağ cüssəli, hökmlü, indiyədək saysız-hesabsız bəlalardan qurtarmış, dəfələrlə ölümün gözünün içinə dik baxmış İbrahim xanın xəstəlikdən necə çəkindiyini mənə

Mirzə Hüseyn danışmışdı; amma vəba minlərlə gözü olan əqrəbə oxşayırdı, harda yaxalayacağını kimsə bilmirdi, ona görə də dan yeri ağarmamış yola çıxacağımıza, kəndlərdən, şəhərlərdən qoruna-qoruna Tiflisə yola düşəcəyimizə əmindim. Bu cür qarışıq duyğular içində gecəni də düz-əməlli yata bilmədik.

360. Gözləmədiyimiz fəlakət, elə bil, ac yalquzağa dönüb arxamızca düşmüşdü, bizi Tiflisə sarı qovurdu. Xanımız əmr vermişdi ki, yol üstündəki bütün obalara, hətta Şəmşəddinə, Şəmkürə çaparlar göndərib vəziyyəti öyrənsinlər, bircə nəfər belə xəstə olduğu yerlərin, ən azı, üç fərsəngliyindən ötsünlər, ordugah da açıq çöldə qurulsun. Artıq havaların üzü dönmüşdü, tez-tez yağış yağır, qışın nəfəsi duyulurdu, Xanımız da yolları qar basmamış özünü Tiflisə yetirmək istəyirdi. Amma sən saydığını say, gör fələk nə sayır. Ürəyim atlana-atlana Sınıq körpüyə yaxınlaşanda fəlakət xain düşmən kimi bizi arxadan bıçaqladı. Orda Xanımızı Səfi xan Buxairinin göndərdiyi çapar gözləyirdi, gətirdiyi xəbər də lap qorxunc idi: vəba Tiflisi başına götürüb, camaat çəyirtkə kimi qırılır, Xanımız tez bu səmtdən uzaqlaşsa məsləhətdi. Çaparın dediyinə görə, son bir həftədə beş yüzdən artıq adam ölüb, heç məhrumları düz-əməlli dəfn eləməyə də macal yoxdu, üstəlik, dava-dərman, həkim çatışmır, camaat başını qapıdan çölə çıxarmağa belə qorxur. Xanımız dərhal ordugah qurmağı əmr elədi ki, bundan sonra neyləyəcəyini düşünüb-daşınsın. Arxada və öndə vəba vardı, sağa getmək təhlükəliydi, ləzgilər vəziyyətdən yararlanıb basqın eləyə, qoşuna ziyan verə bilərdilər. Ən təhlükəsizi Pəmbəyə, Pəmbəkdən də Rəvana gedib xəstəlik sovuşanacan orda gözləmək, sonra Tiflisə dönmək idi. Xanımızın qərarını axşam Mirzə Hüseyndən eşidəndə xəyallarım darmadağın oldu. Əlli il ayrı düşdüyüm yurduma birgünlük yol qalırdı, o birgünlük yolu bu dəfə də keçmək iqtidarında deyildim, artıq başıma bir iş gələcəyindən, Tiflisə yetişə bilməyəcəyimdən qorxurdum. Əlbəttə, ölümün gözünün içinə dik baxa-baxa Xanımızdan izin alıb, ya da kimsəyə demədən ordugahdan çıxıb atımı Tiflisə doğru dəhmərləyə bilərdim, amma həsrətilə yaşadığım yurdumu fəlakətin ağuşunda can çəkişən görüb duruş gətirə bilməzdim.

361. O axşam çadırın beş-altı addımlığındakı tonqalın qırağında oturub fikrimdə aranı dağa, dağı arana daşıdım, Mirzə Hüseynlə Məhəmməd Kazım nə qədər üz vurdularsa, boğazımdan bir tikə çörək, bir qurtum su keçmədi. Artıq işığı azalan gözlərimi Tiflis səmtinə dikib xəyalımda taleyimi qarğıyırdım, bu tale yeddi yaşımda ocağımıza su calayıb ata-anamı, qardaş-bacımı əlimdən almış, məni yadlara möhtac eləmişdi; bu tale on dörd yaşlı tifili ucu-bucağı görünməyən yollara salmış, uzaq məmləkətlərə aparıb çıxarmış, zaman küləyinin ağzına vermişdi; əlli ildə görmədiyim yerlər görmüş, tanımadığım adamlar tanımış, Firəngistanda, Veneziada olmuş, İstanbulu, Anadolunu, Təbrizi, İsfahanı, Ərdəbili, Rəvanı dolaşıb nə vaxtsa öz yurduma qayıtmaq ümidimi ölməyə qoymamışdım; əlli ildə dəfələrlə ölümün nəfəsini duymuş, amma yurdumu görmədən ölməyəcəyimə inamımı saxlamışdım; hətta Muğan çölündə Şahımız məndən İbrahim xanın yanında olmağımı istəyəndə belə, o inam mənimləydi, Təbrizdə yaşadığım günlərdə də ömrümü Tiflisdə başa vuracağıma inanırdım; indisə əlli il gəldiyim yolun son birgünlük məsafəsində sədaqətli inamımın məni tərk eləməyə başladığını acı-acı duyurdum. Artıq bu kədərimi könlümdən silməyə nə Mirzə Hüseynin və Məhəmməd Kazımın təskinliyi, nə də fəlakət sovuşandan sonra Xanımızın Tiflisə getmək istəyi bəs elərdi. Dünyanı yorub yola salmışdım, yolun nə demək olduğunu bilirdim, qəlbimin lap dərinliklərində ümid çınqısı qalsa da həsrətə cismən tab gətirə bilməyəcəyimdən qorxurdum. Günlərin birində içindən yeyilən palıd kimi yıxıla, yol qırağında adsız məzara dönə bilərdim. Gecəni də çimir eləmədim, içimdən qopan ahlar sinəmi yandıra-yandıra saman yatacağımda çevrikə-çevrikə qaldım.

362. Səhər obaşdan ordugah yerindən tərpəndi, Anaxatır çayını keçib üzü günbatana, bir az gedəndən sonra güneyə doğru yol başladıq. İkinci gün ordugahımızı Ağlağan dağlarının ətəyində qurub keçidqabağı dincəldik. Qoşun hər dəfə dayananda təbib Şahabəddin adamlarıyla ordugahı gəzir, azacıq üşütmə-qızdırma əlaməti olan şəxsləri ayırır, həblər verirdi. Deyilənə görə, Xanımız xəstəliyə yoluxan adamı dərhal öldürüb meyitini yandırmağı əmr eləmişdi. Ağlağandakı düşərgəmizə Uğurlu xan Ziyadoğludan namə gətirən çaparı keşikçilər yaxın buraxmayıb

Mirzə Hüseyni onun yanına aparmışdılar, Mirzə Hüseyn də əmr üzrə naməyə əl vurmadan, uzaqdan-uzağa oxumuş, məzmununu Xanımıza yetirmiş, əmrini də dilcavabı göndərmişdi. Uğurlu xan Gəncədə hələ də vəbanın tüğyan elədiyini, küçələrdə, meydanlarda, evlərdə yığılıb qalan meyitləri basdırmağa macal tapmadıqlarını, bu səbəbdən, ən azı, yaza qədər dağlılara qarşı getməyin mümkün olmayacağını xəbər verirdi. Belə görünürdü ki, Xanımızın Rəvanda gözləyib təhlükə sovuşandan sonra Tiflisə qayıtmaq istəyi yaxın aylarda baş tutmayacaqdı, bu da məndən ötrü növbəti amansız zərbəydi. Mirzə Hüseyn bunları söyləyəndə özümdən ixtiyarsız axan göz yaşlarımdan çox mütəəssir oldu, dedi, Mirzə Yusif, hamımız İlahinin əmrindəyik, görünür, bizi dönə-dönə sınağa çəkir ki, nə qədər əməlisaleh olduğumuzu yoxlasın; dedi, fikir eləmə, əgər qismətində varsa, yurdunu, ocağını görəcəksən, hər şeyi taleyin ixtiyarına burax. Onun söylədiklərində həqiqət vardı, amma indi bu həqiqət mənə heç gərək deyildi, ömrümü belə amansız gerçəkliklərlə keçirmək qəlbimi göyüm-göyüm göynədirdi. Əlli il yolların damarını ona görə qırmamış, İsfahan cəhənnəmindən ona görə salamat çıxmamışdım ki, bu gerçəkliklə barışaydım. Həmin məqamda sezdim ki, daha nizamlı düşünə, fikirlərimin dolaşığından çıxa bilmirəm, ağlımı itirəcəyimdən qorxdum – bu da məndən ötrü vəbadan pis fəlakət olardı.

363. Növbəti qorxunc xəbər bizi iki gün sonra çatıb nəfəs dərdiyimiz Dərəçiçək yaxınlığındakı düşərgəmizdə yaxaladı. Görünür, Xanımız vəziyyətdən hali olmaq üçün Rəvana çapar göndərmişdi, həmin çapar da qayıdıb o bəd xəbəri gətirdi: vəba artıq Rəvanı da bürümüşdü. Gəncədən və Tiflisdən gələn tacirlərdən ikisi karvansarada ölmüş, ardınca da şəhərdə fəlakət başlamışdı. Xanımız bir daha yerli camaatla ünsiyyətə girməməyi, lazım gələrsə, qoşundakı dəvələri, öküzləri kəsməyi, mümkün qədər tezliklə Nəqşivana çatmağı əmr eləmişdi. Belə çıxırdı, vəbanın hökmü bizi geri Təbrizə qaytaracaq, fəlakətin sovuşmağını orda gözləyəcəkdik; belə çıxırdı, Rəvanda Axund Ələkbərlə görüşə bilməyəcək, Mirzə Nəziri görməyəcək, erməni xəlifənin yeni əməllərindən xəbər tuta bilməyəcəkdim; belə çıxırdı, Gürcü karvansarasına baş çəkib Qara Süleymanın qonağı olmaya-

caq, bir daha Rəvan qalasına tamaşa eləməyəcək, Dəmirbulaq körpüsündən Zəngi çayına baxmayacaqdım. Yəqin, Xanımız günbatana, Arpaçay səmtinə üz tutub Çuxursəddən Dəbilə, ordan da Araz boyu Nəqşivana getməyə üstünlük verəcək. Əgər qismət olsa, dörd-beş günlük yolu salamat getsək, qar yağıb yolları bağlamamış Nəqşivana çatarıq, Mirzə Hüseynin dediyinə görə, Xanımız vəbanın hələ Nəqşivana yetişmədiyinə ümid eləyirdi, buna görə də deyirdi, az dincəlib, çox getməli, mənzilbaşına çatmalıyıq. Xanımız çadırına Məhəmməd xan Əfşar və Mömin xan Mərvidən başqa kimsəni buraxmamağı əmr eləyib, hətta həkimbaşı Şahadəddin də istədiyi vaxt Xanımızın yanına gedə bilmir, ancaq çağırılanda baş çəkir, vəba əlamətlərinin olub-olmamasını yoxlayır. Xəstəlik başlayandan Xanımız xidmətçilərinə ən zəruri kəslərdən başqa kimsəylə görüşməyi, təmasda olmağı bilmərrə qadağan eləmişdi, hətta hərəmxanasına belə baş çəkməmişdi. Vəba xəbərini alandan bəri hərəmlər yaşayan çadırların ətrafına ciddi yoxlanmış nasaqçılardan ibarət ətdən divar çəkdirmişdi, kimsə onun icazəsi olmadan bayıra çıxa bilməz, kiminləsə görüşə bilməzdi. Əlbəttə, Xanımızın bu ehtiyat tədbirlərinin faydası olmuşdu, hələ ki, vəbaya yoluxan bir kəs aşkar olunmamışdı, bundan sonra da Qadir Allahın bizə rəhm eləyəcəyinə bel bağlamaqdan başqa əlacımız yox idi.

364. Rəvandan Çuxursədə, ordan Dəbilə qədər yolumuz çox çətin oldu, dağ keçidlərilə qarın-çovğunun qabağında, vadilərlə yağış altında gedirdik, beləcə, gündə beş-altı fərsəng ancaq irəliləyə bilir, rastımıza çıxan münasib yerdə ordugah qururduq. Qəfiləmizdəki adamların hər biri rastlaşdığı kəsə can hövlüylə baxırdı, elə bil hələ xəstəliyə düçar olmadığını, ölmək istəmədiyini, yaşamaq umudunu andırmağa çalışırdı. Amma iki nəfər bədbəxt tapılmışdı ki, bu istəkləri gözlərində qalmışdı: Rəvanda, deyəsən, qadağanı pozub yerli camaatla təmasa girmişdi, həkimbaşı Şahabəddinin dava-dərmanı kömək eləmirdi. Çuxursəddəki ordugahda dincələndə o iki nəfər səssiz-soraqsız yox oldular, sonradan eşitdim ki, bədbəxtləri elə yataqlı-filanlı götürüb yarıdiri torpağa quylayıblar ki, xəstəlikləri o birilərə keçməsin. İkisini də tanıyırdım, biri dəvəçiydi, zənburəklər daşıyan dəvələrin başını çəkirdi, o biri barıt ehtiyatına cavabdehdi,

yanılmıramsa, Gilan tərəflərdən idi. Onda vəba qoxusu canımızı elə sarmışdı ki, Xanımızın bu əmrində qəddarlıq olub-olmadığını ağlımıza belə gətirmirdik. Məmləkətin vəliəhdinin, adlı-sanlı xanların, sərkərdələrin, on iki minlik qoşunun bu qədər qulluqçu-xidmətçinin həyati təhlükəsi müqabilində bir dəvəçiylə bir barıtçının yoxluğu böyük dərd deyildi – yəqin, çoxları belə fikirləşirdi. Nə deyim, Allahın yaratdıqlarının taleyi barədə hökm vermək mənim ixtiyarımda deyildi, ona görə də bu haqda fikirləşməməyə çalışıb Nəqşivanda dincələcəyimizə, sonra təzədən yönümüzü quzeyə – Tiflisə sarı çevirəcəyimizə ümid bəsləyirdim. Məndən ötrü bütün yollar dolanıb-dönüb Tiflisə sarı uzanırdı, Tiflisdə bitirdi…

# XIII

# YAN KEÇDİYİMİZ NƏQŞİVAN

*Aşığam, ələmim var, haxışta,*
*Qızıldan qələmim var, haxışta.*
*Yaxın gələ bilmərəm, haxışta,*
*Uzaqdan salamım var, haxışta.*

*Yolda eşitdiyim haxıştalardan*

365. Xanımız elə Çuxursəddə olanda Nəqşivana çaparlar göndərib vəziyyətdən hali olmaq istəmişdi. Çaparlardan ancaq biri qayıda bilmişdi, deyilənə görə, o biri yarıyolda bihuş halda yıxılıb qalmış, vəbaya yoluxmağa qorxduğundan o biri çapar özünü ordugaha çatdırmağı yoldaşına əl uzatmaqdan üstün tutmuşdu. Gəlib çatan çaparı da nasaqçılar bir ox məsafəsi uzaqda saxlayıb sözünü orada söyləməyi əmr eləmişdilər. Çaparın qışqıra-qışqıra söylədiyindən belə çıxırdı ki, Nəqşivanda vəziyyət lap fəlakətlidi, ölənlərin sayı-hesabı yoxdu, camaat baş götürüb Culfaya, Ərdəbilə, Təbrizə qaçır, yollarda əcəl tapanlar qurd-quşa yem olur. Çaparın dediyinə görə, naib Vəliqulu xan da yataqdadı, xəbər göndərib ki, aman günüdü, Xanımız şəhərə girməsin, Allah eləməsin, bədbəxtlik baş verər. Onda səkkizinci gün idi, Rəvandan aralanmışdıq, qoşunun ərzağı, atların, dəvələrin, öküzlərin yemi tükənmək üzrəydi. Xanımız əmr eləmişdi ki, heyvanların ağzına ot çatan yerlərdə bir hovurluğa dayanıb dincələk. Axır günlər hər kəsə bölünən payda gözgörəti azalma da vardı, görünür, hər şey birtəhər gedib Təbrizə çatmağa hesablanmışdı. Nəqşivandan xəbər gətirən çaparı heç ordugaha da buraxmadılar, Xanımızın əmrilə bir heybə yemək, bir az da pul verib yerinə-yurduna qayıtmağı buyurdular, məncə, bu daha insani çıxış yoluydu. Sonra carçı hay saldı ki, Xanımız Nəqşivana girməməyi əmr eləyib, ordugah Şərur çölündə qurulacaq, sonra Araz boyu Culfayacan gedib o taya gedəcək,

Mərənd yoluyla Təbrizə yetişəcəyik. Belə çıxırdı, salamatlıq olsa, dörd, ya beş gündən sonra Təbrizə çata bilərik. Amma özümüzə etiraf eləməsək də bilirdik ki, bu təsəllidən başqa bir şey deyil, fəlakətin bizi hatda yaxalayacağını bilmirik. Mirzə Hüseyn deyirdi, vəba qıtlıqdan pisdi, qıtlıq vaxtı adamlar bir-birinə mərhəmət hissilə yanaşır, olanlarını bölüşməyə can atırlar, vəba isə adamları bir-birindən qorxmağa, şübhələnməyə vadar eləyir. Onun dediklərində, şübhəsiz, ürəkağrıdan həqiqət vardı – Ərəşdən bəri Xanımızın bizi qulluğuna çağırması bir yana, ən yaxınkəslər arasında belə get-gəllər azalmışdı, hamı həm özündən, həm də başqasından qorxurdu.

366. Amma Xanımız Şərurdakı düşərgədə təkcə gecələməklə qalmadı, sonrakı günü və gecəni də elə orda keçirib dincəldi, həm də bundan sonra neyləyəcəyi barədə tədbir tökdü. Ərəşdə dayandığımız gündən bəri Xanımızın hüzurunda olmayan Mirzə Hüseyn ilk dəfə baş çadıra çağırıldı. Dediyinə görə, İbrahim xan, Məhəmməd xan və Mömin xandan başqa kimsəni çağırmayıbmış, onun təzimini də uzaqdan-uzağa qəbul eləyib, xeyli aralıda oturmasını məsləhət bilib. Xanlar Nəqşivan naibi Vəliqulu xanın məlumatını dəyərləndiriblər, Təbrizəcən ərzağın bəs eləyib-eləməyəcəyindən danışıblar, yerli camaatdan lazımi şeylər almaq üçün xüsusi dəstəyə vəba əlaməti olan tərəflərə getməyin qadağan olunmasını, bir sözlə, hər şeyin nəzarət altında saxlanmasını qərara alıblar. Xanımız yenə həkimbaşı Şahabəddinin fikrincə, vəbaya yoluxmuş, sağalmağa gümanı olmayan xəstələri vaxtında əzabdan qurtarmağı, qoşunu da, qalanları da xilas eləməyi tapşırıb. Bütün bunlar Məhəmməd Kazımı əməlli-başlı sarsıtmışdı, zəmanənin, şəraitin insanları bunca qəddarlaşdırdığını hələ ki, qəbul eləyə bilmirdi. Onun üzündəki çaşqınlığı, gözlərindəki qorxunu, cismindəki əsintini duyub ürək-dirək vermək istədim. Hələ on altı yaşını təzəcə ötmüşdü, dünyanın sərt üzünü görməmişdi, yurd həsrətini, dost xəyanətini, uzun, naməlum yolların məşəqqətini dadmamışdı, haqsızlığın nə demək olduğunu təzəcə anlayırdı – bir sözlə, ömrü qabaqdaydı. Mirzə Hüseynlə mənsə ömrümüzdə bundan betər vaqiələrlə rastlaşmışdıq, insan taleyinin təsadüflərdən asılı olduğunu bilirdik. Təkcə elə aclıq illərində İsfahanda adamların elə küçənin ortasındaca pencəri, çiy

at ətini, daşla vurub saldıqları qoca qarğanın ətini necə yediklərini, taqətsizlərin yerə yıxılıb can çəkdiklərini görmüşdüm; İsfahandan çıxandan sonra aclıqdan yollara tökülmüş sərgərdanların əllərinə keçən canlını parçalamağa hazır olduqlarını görmüşdüm. İndi üççə fərsəng uzaqlıqdakı şəhərdə – Nəqşivanda baş verən faciələr ömrüm boyu gördüyüm faciələr zəncirində bir həlqəydi, hicri 1150-ci, miladi 1737-ci il Azərbaycanın tarixində qorxunc vəba ili kimi qalacaqdı.

367. Sonrakı gün Məhəmməd Kazımın ağlına gəzmək düşdü, Mömin xandan icazə və kimsəylə təmasda olmamaq, yaşayış yerlərinə yaxınlaşmamaq barədə ciddi xəbərdarlıq aldıq, üç nasaqçı götürüb atları mindik, Naxçıvan səmtinə yollandıq. Mömin xanın tapşırığı səbəbindən Məhəmməd Kazımı tez-tez xəbərdar eləməli olurdum. Şəhərə bir fərsəng məsafədə vəbadan baş götürüb qaçanlara rast gəldik, uzaqdan-uzağa dediklərinə görə, evlərdə, küçələrdə, meydanlarda, yollarda vəbanın yaxaladığı ölü, yarımcan adamlara addımbaşı rast gəlmək olar, əli-ayağı tutanlar başlarını götürüb hara gəldi qaçırlar. Dediklərinə görə, təbib, dava-dərman çatışmır, dükan-bazar bağlanıb, karvansaralar boş qalıb, ölüləri, hələ canı üstündə olanları yığışdırıb arabalara yükləyir, şəhərin qırağında mollasız-filansız çuxurlara atıb üstünü torpaqlayırlar. Onu da dedilər ki, camaatın bir parası var-yoxunu götürüb qaçıb, bir parası düzənlikdə çadır qurub, koma düzəldib vəbanın ötüşməyini gözləyir, bəlanın nə qədər sürəcəyinisə kimsə bilmir. Sonra yaxınlıqdakı təpənin üstünə çıxıb uzaqlarda görünən Qarabağlar, Yusif ibn Kuseyr türbəsinə, Möminə xatun məqbərəsinə, xan sarayına, köhnə qalanın xarabalarına, qış günəşi altında solğun-solğun parıldayan Araza, çayın qırağındakı bir-birindən aralı qaçqın komalarına baxdıq. Məhəmməd Kazımı bilmirəm, mən həmin məqamda ölümün Allahın həqir bəndəsi Mirzə Yusif Tiflisini bu yerdə yaxalaya biləcəyinə zərrəcə şübhə eləmədim. Beynimdən keçirdim ki, Allah bilən məsləhətdi, az qala, dünyanın yarısını gəzdirəndən sonra ocağımın həndəvərinə gətirib çıxarıbsa, buna da şükür. Bir də fikirləşdim əgər bu bəladan da qurtulsam, yəqin Tiflisə dönmək ümidim artacaq, o gözəl duyğuları yenə yaşayacağam. Rəvandan Muğan çölünə gedəndə yolüstü qaldığımız Nəqşivanın

halını indi gözlərimin qabağında canlandırırdım; mənə həmişə insanların görkəmindəki acizlik, əlacsızlıq nişanları, nişanələri əzab vermişdi: fəlakətin lap yaxınlıqda olduğunu duyasan, ancaq qaçıb gizlənməyə, xilas olmağa, aradan çıxmağa yolun qalmaya – bundan böyük faciəni ağlıma gətirə bilmirdim.

368. Səhəri xırdaca qar başlamışdı, güclənmə ehtimalı da vardı, amma Xanımız yola çıxmaq barədə əmr verdi, daha doğrusu, sursatı və yükləri daşıyan dəvələrin, arabaların, adamları qorumaq üçün qoşundan min nəfərlik dəstə ayırıb özünü Culfaya, ordan da Mərəndə çatdırmağa tələsdi. Mömin xan nə qədər dil tökmüşdüsə, Məhəmməd Kazım qaçıb qurtulmağa çalışan qoşunla getməmişdi, görünür, məni tək qoymamışdı, ya bunu şəninə sığışdırmamışdı, indi atımızı yanaşı sürür, sağda qaçqın komalarından qalxan ölgün tüstülərə, solda şəhərin tutqun, donuq mənzərəsinə baxa-baxa irəliləyirdik. Neçə yerdə göydən ələnən qar dənələrinin yiyəsiz meyitlərin üstünə necə qonduğunu gördük. Məhəmməd Kazım elə təsirlənmişdi ki, Mirzə Hüseyn cəmi günahsız ölənlərin ruhuna dua oxuyub salavat çevirəndə göz yaşlarını saxlaya bilmədi. Yol qırağında rastlaşdığımız ölüm qorxusundan yaxınlaşmadığımız, uzaqdan-uzağa danışdığımız biçarələr tələfatın saysız-hesabsız olduğunu, bəlkə də otuz mini aşdığını söyləyirdilər. Mirzə Hüseyn belə müsibəti Osmanlıların Təbrizi topa tutduqları vaxt gördüyünü nəql eləyirdi, mən də İsfahanın mühasirəsində başımıza gələnləri danışırdım. Şübhəsiz, o bəlaların heç biri vəbaya oxşamırdı, adamlar bir-birindən oddan qaçan kimi qaçmırdılar, əksinə bir-birinə əl tutur, tikələrini yarı bölürdülər. İndisə deyilənə görə, can hövlündən hər ölüm ayağında olan arvadına, oğul can çəkişən atasına, qardaş xəstə yatan qardaşına yaxın getmirdi. Kimi qınamaq olardı, su meymunun boğazına çıxanda balasını da ayağının altında qoyur. Xanımızın xəstəliyə tutulmuş kəsləri aradan götürmək əmri hamımızı sərvaxt olmağa, canımızı qorumağa məcbur eləmişdi. Görürdüm ki, Məhəmməd Kazım da sövq-təbilə mümkün qədər məndən aralı dolaşmağa çalışır, amma bundan da, az qala, xəcalət çəkir; yəqin öz canını yox, əksinə mənim canımı qorumaq fikrində olmasını hiss eləyə bilməyəcəyimdən çəkinir. Əlbəttə, onu gözəl

başa düşür, buna görə də ömrümün bu çağında Allahın mənə oğul kimi lütf elədiyi cavana daha da bağlanırdım.

369. Bununla belə, Culfa yaxınlığında gecələyəndə bir nəfərin yenə vəba şübhəsilə xəstələndiyi məlum oldu. Sərablı bir cavan idi, ərzaq işlərinə baxanlardandı, görünür, yerlilərdən nəsə alanda ehtiyatsızlıq eləmişdi. Həkimbaşı Şahabəddin qoşunla getmişdi, Xanımızın yanındaydı, qafiləmizlə qalan iki həkimsə uzun müddət məsləhətləşdilər, görünür, zavallı cavana qıymaq istəmirdilər. Amma minbaşı Cəfərqulu bəy Xanımızdan necə əmr almışdısa, həkimlərin dediklərinə, Mirzə Hüseynin xahişlərinə baxmadı, onun əmrilə nasaqçılardan iki nəfər xəstənin işini bitirib torpağa basdırdılar. O axşam Məhəmməd Kazımın gözlərinə yuxu getmədi, əvvəl xısın-xısın ağladığını, sonra olub-keçənləri sısqa şam işığında kağıza köçürdüyünü gördüm. Əlbəttə, mənim də qəlbim daş deyildi, amma görünür, zaman çox şeyləri yerbəyer eləyir, əzablara, faciələrə, müsibətlərə alışırsan. Məhəmməd Kazım da alışacaqdı, gözlərinin qabağında ölümlər baş verəcək, ara-sıra sarsılsa da, belə şeylərə öyrəşəcəkdi, kağıza köçürdükləri hadisələri təsvir eləyəndə daha soyuqqanlı olacaqdı. Əlbəttə, günlərin birində salnamə yazmaqdan əl çəkib saray mirzəsi olmasaydı, yaxud mədrəsədə elm öyrətmək fikrinə düşməsəydi, yəqin, Şahımızın sayəsində böyük döyüşlər görəcək, gözləri qabağında beş-üç yox, yüzlərlə, minlərlə adam qətl edilib gedərgəlməzə göndəriləcəkdi. İndi kürkümə bürünüb çadırdakı orta ocağının qırağında oturmuşdum, Məhəmməd Kazımın hərdənbir titrəyən çiyinlərinə baxa-baxa bütün bunların elə tarix olduğu barədə fikirləşirdim. Biz gördüklərimizi kağıza köçürəcəkdik, nə vaxtsa bu məmləkətdə baş verənlərdən xəbər tutacaqdılar, olub-keçənlərisə tarix sayacaqdılar. Yəqin, Fəzlullah Rəşidəddin də, Ət-Təbəri də, Sədrəddin Əli Əl-Hüseyni də, İskəndər Münşi də... bir zamanlar buna oxşar hisslər keçiriblər. Əlbəttə, tarixi səfərlərə getmədən, yolun məşəqqətlərini çəkmədən, döyüşləri görmədən də yazmaq olardı, amma o yazılanlar, şübhəsiz, həqiqətə az oxşayacaq, kimsəni inandırmayacaqdı.

370. Xanımızı Mərənddə də yaxalaya bilmədik. Güman ki, heç şəhərə də girməmişdi, şəhərin qırağında ordugah qurub vəziyyətdən xəbər tutmuşdu. Mərənd hakimini nəinki çadırına,

heç ordugahına da yaxın buraxmayıb, vəbanın buralara yetişib-yetişmədiyini adamları vasitəsilə uzaqdan öyrənmişdi, sonra da gecəni narahatlıq içində keçirib səhər Təbrizə tələsmişdi. Hər halda biz Mərəndə yaxınlaşanda Xanımızın çaparı gəlib buna oxşar xəbər verdi. Məlum oldu ki, vəba artıq Nəqşivandan gələn tacir-tüccarlarla Mərəndə də yol tapıb, son günlər ölənlərin sayı yüzü aşıb. Qafiləmizin dayandığı yerin yaxınlığındakı təpəyə qalxıb batmaqda olan solğun qış günəşinin soyuq şəfəqləri altında balaca şəhərin ürəkgöynədən mənzərəsinə baxanda Mirzə Hüseyn dedi, vəba Mərəndə çatıbsa, güman ki, Təbriz də bu bəlaya düçar olub, çünki o karvanlar Təbrizdə dayanır, ordan Qəzvinə, İsfahana, Məşhədə yollanır. Canımızı bürüyən qorxudan həmin gecəni düz-əməlli yata bilmədik. Gözlərimi yumanda özümü Tiflisin küçələrində görürdüm, amma nə illah eləyirdimsə, aradan keçən illər ərzində yaddaşımdan silinməyən evimizə gedib çata bilmirdim, hey üzlərinə ölüm qorxusu çökmüş vəbalı adamlar görürdüm, ardınca da nagahan əllər uzanır, o zavallıları heçliyə çəkib aparırdı. Məhəmməd Kazım sayıqlayırdı, hətta, bir neçə kərə qalxıb çadırdan çıxdı. Bilirdim ki, bu halında ona ürəkdirək verməyin xeyri yoxdu, cəhd eləsəm, dediklərimə özüm də inanmayacağam. Mirzə Hüseynin içindəsə vəba qorxusuyla evinə qayıtmaq duyğusu əlbəyaxa olmuşdu, güman ki, yatağında o üz-bu üzə çevrilməyi daha çox bu səbəbdəndi. Hər halda fani dünyadan öz ocağında köçməyi daha üstün tuturdu, şübhəsiz, bu fikrində haqlıydı. Amma yenə fikirləşirdim ki, ümidi qəti itirmək olmaz, Təbrizə yetişəcəyimiz də, lap elə fəlakət sovuşandan sonra Xanımızın təzədən quzey səfərinə çıxacağına da inanmaq lazımdı.

371. Minbaşı Cəfərqulu bəy hamının dan yeri ağaranda yola hazır olmasını əmr eləmişdi, görünür, işıq gözünə Təbrizə yetişmək niyyətindəydi. Nasaqçılar tez-tez qafilənin başına dolanır, geridə qalanları tələsdirirdilər. Yem çatışmazlığından gücdən düşən bir neçə öküzü elə yoldaca kəsib ətlərini o birilərinə yük elədilər, arabalarısa elə yoldaca atdılar. Günorta bir hovurluğa dayanıb nəfəs dərdik, mədəmizi tələm-tələsik aldadıb dərhal da tərpəndik. Qafiləmizdəki adamların əldən düşdüklərini, yorğunluqdan çox ümid azlığından əziyyət çəkdiklərini görürdüm,

Təbrizin üç fərsəngliyində çapar gəlib şəhərdə də vəbadan ölənlər olduğunu xəbər verəndə ümidsizlik daha da artdı. Hərə duyğusunu bir cür ifadə eləyirdi: bəzisi göz yaşları axıda-axıda fəryad eləyir, bəziləri də hər şeyi dinməzcə ürəyinə salır, öz içində parça-parça olub dağılırdı. Artıq Təbrizdə olan Xanımız xəbər göndərmişdi ki, kimsə qafilədən kənar adamlarla təmasda olmasın, xüsusən də saray adamları diqqətli olsunlar ki, sonra bədbəxtlik baş verməsin. Çapar onu da demişdi ki, vəbanın Şirvan tacirlərindən yayıldığı güman edilibmiş, həmin tacirlərdən biri elə karvansaradaca canını tapşırıb, Xanımız da qalan dörd nəfərin şəhərdən çıxarılıb Şirvana doğru yola salınmasını əmr eləyib, amma artıq bu tədbirin gec olduğu ortaya çıxıb. Çaparın dediyinə görə, Xanımız Təbrizin bütün həkimlərinə səfərbər olmaq, əlacsızları ayırıb xəstəliyin qarşısını almaq əmri verib, bununla belə, vəziyyət çox təhlükəlidi. Qalan üç fərsənglik yol məndən ötrü bitib-tükənməz əzaba çevrilmişdi, elə bil ölümə gedirdim. Ümidlə çıxdığım Təbrizə ümidsiz dönməyim qəlbimi yaralayır, tab-tavanımı əlimdən alırdı. Bundan sonra başıma nələr gələcəkdi, Tiflisdən başlayan yolum harda qurtaracaqdı, bunu bilmirdim, naməlumluq da dözülməz əzaba çevrilirdi…

# XIV

# TƏSƏLLİSİ OLMAYAN İTKİ

*Zalım fələk belə yazdı yazımı,*
*Gör necə çevirdi qışa yazımı.*

*«Aşıq Qərib» dastanından*

372. O qış günü hava qaralana yaxın Təbrizə qara kölgə kimi sürünə-sürünə girdik. Elə ilk təmasdanca aydın duyulurdu ki, bu cəmi üç ay qabaq çıxdığımız şəhər deyil, nələrsə dəyişib, az qala, özgələşib, yadlaşıb. Küçələr, meydanlar, demək olar, bomboş idi, adamlar hasarlardan, eyvanlardan, qapılardan, pəncərələrdən qafiləmizə qorxa-qorxa baxırdılar, elə bil əsl vəba biz idik, şəhərə onların canını almaq üçün gəlirdik. Güman ki, Xanımız şəhərə qoşunla girəndə bundan da betər mənzərəymiş, camaat gələn hər kəsin vəbalı olduğunu zənn eləyirmiş, bu səbəbdən də heç pişvaza çıxmağı ağıllarına gətirməyiblər. Bu halında kimsəni yaxına buraxmağı ağlına belə gətirməyən Xanımız da havadan çox camaatın soyuqluğundan üşürgülənə-üşürgülənə özünü tez-tələsik saraya çatdırmağa çalışıb, arvad-uşağının sağ-salamat olduğuna yəqinlik hasil eləyəndən sonra bir az rahatlıq tapıb. Toranlığın qapladığı küçələrin yaş torpağını ayaqlaya-ayaqlaya saray meydanına doğru gedən qafiləmizi bu məqamda ağır döyüşdən salamat qalmış qoşun tör-töküntüsünə oxşadanlar yanılmazdılar. Ötən aylar ərzində ümidsizliklə döyüşmüşdük, hələ qəlbimizdə bir çınqı ümid vardısa, bunu da qənimət saymalıydıq. Üzlərinin cizgilərini artıq seçməsəm də, Mirzə Hüseynin ailəsinə qovuşmaq üçün evə tələsdiyini, Məhəmməd Kazımın çaşqın-çaşqın boylandığını sezirdim. Halından görünürdü ki, vəba kabusu Təbrizi də boğazlayıb şəhər əhli fəlakət girdabında çapalayır. Belə çıxırdı, Xanımızın ümidlə can atdığı Təbriz ondan ötrü etibarlı sığınacaq olmayacaq, canını götürüb qaçmaq üçün başqa yer arayacaq. Amma bu bəlanın yönünü, məkanını, həmlə məqamını bilmək

çətiniydi. Mənə qalandasa, artıq taleyimlə barışmışdım, ölüm məni bu şəhərdə yaxalasaydı belə, qismətimi dinməzcə qarşılayacaqdım. Həmin məqamda könül dostum Mirzə Kəmaləddin tez-tez yadıma düşürdü, fikirləşirdim ki, dünyanın işinə bax, fələkət bizim bir daha görüşməyimizə imkan yaradıb; əlbəttə, vəbanın cəngindən qurtulsaydıq, buna xeyli ümid vardı.

373. Həkimbaşı Şahabəddin başının dəstəsilə saray meydanında qabağımıza çıxdı. Dediyinə görə, Xanımızın buyruğuydu, qafiləmizin bütün üzvləri bir-bir müayinə olunmalı, saray darvazasından şübhə doğuran kimsənin içəri buraxılmasına imkan verilməməliydi. Bu səbəbdən elə saray meydanındaca iki çadır qurulmuşdu, həkimlər minbaşı Cəfərqulu bəydən başlayıb döyüşçüləri, mirzələri, nasaqçıları, çaparları, aşpazları, dəvəçiləri, arabaçıları… diqqətlə yoxlayır, taleyi barədə hökm çıxarırdılar, qızdırmam yox idi, özümü bir az halsız hiss eləyirdim, həkimbaşı Şahabəddin bir-iki günə keçib-gedəcəyini söylədi; Mirzə Hüseyn sappasağ çıxdı, dərhal da tələm-tələsik sağollaşıb evinə sarı götürüldü; Məhəmməd Kazımda başağırsı, halsızlıq azacıq da olsa şübhə doğurdu, bu da ondan çox mənim ovqatımı təlx elədi, amma həkimbaşı Şahabəddinin məsləhətləşmələrindən sonra ciddi bir şey olmadığı aşkara çıxdı. Buna da bəlkə Məhəmməd Kazımın özündən çox mən sevindim, çünki ötən müddət ərzində ona o qədər bağlanmışdım ki, mübaliğəsiz, indi məndən ötrü ən doğma ən yaxın adam idi. Tiflisdə tapmaq ümidində olduğum itkinlərimin qoxusunu bundan sonra yəqin, ondan alacaqdım, sirdaşım Mirzə Kəmaləddin uzaqlarda, Ərdəbildəydi, bir daha görüşüb-görüşməyəcəyimiz bəlli deyildi. Məhəmməd Kazım atasıyla görüşəndə qəfildən kövrəldim, özümdən ixtiyarsız göz yaşlarımın axıb saqqalımı islatdığının fərqinə vardım. Allahım bu yaşımda mənə kimsənin qayğısını çəkməyi qismət eləməmişdi, bundan sonra da bəxtimə belə bir xoşbəxtliyin düşüb-düşməyəcəyi heç bəlli deyildi. Artıq Peyğəmbər yaşını ötmüş qoca dünyadan başqa nə uma bilərdi, bəxtinə hansı xoşbəxtliyin düşəcəyini gözləyəcəkdi. Mirzə Kəmaləddinlə yenidən görüşmək imkanının yaranması məni o qədər hövlləndirmişdi ki, hətta Xanımız və təbib Şahabəddin icazə versəydilər, elə indi yola düşərdim. Amma Xanımız saray əhlinin kənar adamlarla təmasını bilmərrə

qadağan eləmişdi, mən də bu qadağanı nəzərə almağa məcbur idim. Gecəni fikrimdə dolaşanlardan kövrəldim, yastığımı islada-islada ağlayıb sakitləşdim, yalnız səhərə yaxın yuxulaya bildim.

374. Səhəri heç ağlımıza gəlməyən əhvalat baş verdi: Mömin xan Mərvi otağında ölmüş vəziyyətdə tapıldı. Bunu qulluqçudan eşidəndə dərhal Məhəmməd Kazımın yanına getdim, o ağlamaqdan qızarmış gözlərini döşəməyə dikib oturmuşdu, hələ vəba şübhəsi üzündən atasının nəşinə yaxın buraxmamışdılar. Həkimbaşı Şahabəddin təvəqqe elədi ki, son qənaətə gələnə, ölümün vəbayla bağlı olub-olmadığını aydınlaşdıranacan oğlunu dilə tutum. Məhəmməd Kazımın başını sinəmə sıxıb dedim, ağla, oğlum, ağla, ürəyini boşalt, qismətdən qaçmaq olmaz, görünür, Allah belə məsləhət bilibmiş. Məhəmməd Kazım üzünü sinəmdə gizlədib səssiz-səmirsiz xeyli ağladı, axır ki, sakitləşib rahatlandı. Bir müddətdən sonra həkimbaşı Şahabəddin çıxıb dedi, ölümün vəbayla bağlı əlaməti yoxdu, çox güman ki, ürək çatışmazlığındandı. Bundan sonra Xanımız gəldi, könül dostunun ölümündən çox mütəəssir görünürdü, Məhəmməd Kazımı qucaqlayıb dedi, ən sadiq dostlarımdan birini itirdim, oğlum, toxtaq ol, nə qədər sağam, sən də mənim övladlarımdan birisən; dedi, əlbəttə, indi cənazəni Məşhədə apara bilməzsən, səni saraydan buraxmaram. Məsləhət budu, mərhumu elə sarayın bağında dəfn eləyək, sonrası Allah kərimdi. Ardınca Xanımız cənazəni hazırlamağı tapşırdı, mən də Məhəmməd Kazıma toxtaqlıq vermək üçün bağa çıxardım, Peyğəmbərimizin hədislərindən, taledən qismətdən, özümün yeddi yaşımda atasız-anasız qaldığımdan danışıb bir qədər toxtaqlıq verdim. Məhəmməd Kazımın hələ anası, bacısı vardı, Xanımız kimi himayədarı vardı, sevdiyi qız vardı. Günorta namazı qılınandan, bütün hazırlıqlar görüləndən sonra saray mollası irəli durub dua oxudu, fatihə verdi. Xanımız dostunun tabutunun altına birinci girdi, ardınca Məhəmməd xan Əfşar, xanzadə Məhəmməd Əli bəy, Məhəmməd Kazım irəli durdular. Mirzə Hüseyn nə yollasa xəbər tutub *(görünür, Mirzə Həsən xəbər göndəribmiş)* özünü yetirmişdi, mərhuma biz də borcumuzu verdik. Saray məscidinin həyətində son dua oxunandan sonra rəhmətliyi torpağa tapşırdıq. Əlbəttə, on yeddi yaşında atasız qalmağın nə demək olduğunu gözəl anlayırdım, özüm

vur-tut yeddi yaşım olanda bu taleyi yaşamışdım. O axşam Məhəmməd Kazımın xəstələnib yatağa düşməsi də keçirdiyi sarsıntını büruzə verirdi…

375. Düçar olduğumuz bəlanın miqyası sonrakı günlər aşkar oldu, bunu saray xidmətçilərinin üzündəki təlaşdan, ortaya çökmüş səssizlikdən, adamların bir-birinə yaxınlaşmağa ehtiyat eləməsindən anladım. Xanımız sarayın yalnız ona aid olan qismindən çıxmır, divan yığnaqlarını keçirmir, hüzuruna gələnləri qəbul eləmirdi, darvazadan içəri bir bəni-insan buraxılmırdı. Həkimbaşı Şahabəddin gündə üç dəfə Xanımıza onun əhli-əyalına baş çəkir, saraydakıların halıyla maraqlanırdı. Xanımızın buyruğu üzrə kimsə icazəsiz saraydan çıxa bilməzdi. Atasının səfərdən sağ-salamat döndüyünə sevinən Mirzə Həsənin dediyinə görə, bir aydan bəri davam eləyən xəstəlik artıq minlərlə can almışdı, Böyük bazarda dükanlar bağlanmış, karvansaralar boşalmışdı, can hövlündən məscidlərə gedən belə tapılmırdı. Söylədiyinə görə, axır günlər tələf olanların sayı o qədər artmışdı ki, ölənlərin qayda-qanunla dəfn eləməyə imkan yox idi, bəzən onlarla mərhumun duasını bir molla oxuyur, eyni ailədən olanlar bir qəbirdə basdırılırdı. Söylədiyinə görə, elə dünən Əlişah Ərki tərəfdən üç araba meyit çıxmışdı, xanzadənin ayırdığı nasaqçıların nəzarəti altında arabaları birbaşa qəbiristanlığa sürmüşdülər. Mirzə Həsən onu da dedi ki, indi dava-dərman hər şeydən bahadı, doğmalarını xilas eləməyə ümidi olanlar var-yoxlarını satıb əlac tapmağa çalışırlar. Ona Gəncədə, Tiflisdə, Rəvanda, Nəqşivanla baş verənlərdən yolboyu gördüklərimdən danışdım, bu bəlanın sovuşacağını Allahdan diləməkdən başqa bir yolumuz olmadığını söylədim. Şahımızın Qəndəhar, Şahzadənin Bəlx tərəflərdə məmləkətin əmin-amanlığına səy göstərdikləri bir vaxtda vəba kimi qorxulu düşmənə təslim olmağımız, əlbəttə, əsl faciə idi.

376. Məhəmməd Kazımın xəstəliyi bir həftə çəkdi. O bir həftədə Mirzə Hüseyn də saraydan çıxmadı. Gündə iki dəfə Məhəmməd Kazıma baş çəkir, ürək-dirək verir, şəhərdə, məmləkətdə baş verənlərdən danışırdıq, qalan vaxtlarımı da kiçik hücrəmdə faciəvi yolçuluğumun təfərrüatlarını qələmə almaqla, xatirələrə dalmaqla, sandığımdakı kitablardan əlimə keçəni oxu-

maqla, hava xoş olanda bağda gəzməklə keçirirdim. Şübhəsiz, şəhərdə baş verənlərlə maraqlanırdım, ağızdan-ağıza ötürülən xəbərlərdə hələ də yaxşılığa doğru bir əlamət görünmürdü. Deyilənə görə, tələfat artırdı, şəhər hakiminin buyruq verdiyi dəstələr dan yeri söküləndən hava qaralanacan məhəllələri evbəev gəzir, meyitləri yığıb qəbiristanlığa aparırdı, çox vaxt ölü yiyəsi mərhumun harda, necə basdırıldığından belə xəbər tutmurdu. Şəhər qazisinin arvadı, baş dəftərdarın oğlu, tacirbaşının qızı vəbanın qurbanı olmuşdularsa, deməli, qara camaatın halı bəlliydi, onların çəkdiyi zilləti təsəvvürə gətirmək müşkün deyildi. Göy məsciddə, Cümə məscidində oxunan dualar hələ müstəcəb olmurdu, doğmalarını itirənlərin ah-naləsi sarayın hasarından aşıb qulaqlarımıza çatır, varlığımızı alt-üst eləyirdi. Görünür, Xanımız heç bir tədbirin, buyruğun, əmrin bəlanın qabağını ala bilməyəcəyini elə Təbrizə girən gündən duymuş, bu səbəbdən də əbəs yerə əl-ayağa düşməməyi, hər şeyi öz axarına buraxıb gözləməyi məsləhət bilmişdi. Əsgərin, qılıncın, top-tüfəngin müqabilində zəfərlə addımlayan bu əzazil «düşmən» yorulub, doyub, rahatlanıb əl çəkməyincə kimsənin onu dayandıracağı, öhdəsindən gələcəyi, geri qaytaracağı ağlabatan deyildi. Təbriz zəlzələ görmüşdü, basqın görmüşdü, mühasirə görmüşdü, talan görmüşdü, qıtlıq görmüşdü, indi də vəbayla pəncələşirdi. Düşmən canlı olsaydı, bu yaşımda mən də silah götürər, canımı əsirgəməzdim, amma qəddar yağının üstünə hardan gələcəyin bilməmək adama əzab verirdi.

377. Xanımızın əhli-əyalını götürüb Ərdəbilə getmək qərarı məndən ötrü gözlənilməz olmadı. Vəziyyətin qorxunc şəkil aldığı, qurbanların sayının təxmini hesablamalara görə iyirmi beş mini aşdığı məqamda taxt-tacın varisi özünü və ailəsini təhlükəyə atıb bu ölüm məkanında qala bilməzdi. Şahımız Qəndahar tərəflərdəydi, oğlu Əliqulu xan Məşhəddə, bəladan uzaqdaydı, övladları Məhəmməd Əlini, Hüseyni, Kazımı qorumağı ona kimsə qadağan eləyə bilməzdi. Yəqin uğursuz səfəri və Təbrizdəki vəziyyət barədə qardaşına xəbər göndərib, bəla sovuşanacan Ərdəbildə olacağını bildirmişdi. Vəba qorxusundan, dost itkisindən can qurtarmaq üçün keçirdiyi eyş-işrət məclislərinin də xeyri olmurdu. Bu müddət ərzində Xanımız Mirzə Hüsey-

ni çağırıb dövlət işlərilə bağlı bircə buyrultu da yazdırmamışdı. Baş dəftərdar Mirzə Qulam vəba başlayandan bəri xəzinəyə Şirvandan, Kartli-Kaxetdən, Gəncədən, Qarabağdan, Rəvandan, Nəqşivandan vergi daxil olmadığını, camaatın canının hayına qaldığını söyləyirdi – dediklərində də həqiqət vardı. Şübhəsiz, Ərdəbilə mən də gedərdim, könül sirdaşım Mirzə Kəmaləddinin qonağı olar, bu lənətlənmiş qışın ağırlığını üstümdən atardım. Amma birincisi, Xanımızdan rüsxət almamış bu addımı ata bilməzdim, ikincisi də onunla Ərdəbilə getməkdən nəzakətlə boyun qaçırmış Məhəmməd Kazımı tək buraxa bilməzdim. Anası, bacısı uzaqlarda, Məşhəddəydi, atası saray bağında uyuyurdu, yarası hələ təzəydi, qaysaqlananacan vaxt ötməliydi. Mirzə Həsən Məhəmməd Kazımın yaşıda olsa da, aralarındakı düşüncə tərzi yaxınlaşmalarına imkan vermirdi, heç xanzadələr də onun qəlbinə girə bilmirdilər. Vəba bəlasının nə vaxt bitəcəyi hələ də bilinmirdi, belə məqamda iki tənha adamın bir-birinə söykənib yaşaması vacib idi. Allahın mənə qismət eləmədiyi atalıq hissini ilk dəfə Mömin xan ölən gün Məhəmməd Kazımın başını sinəmə sıxanda keçirmişdim, indi o hiss daha da böyümüş, aydınlaşmışdı – o çacanı canımdan-qanımdan olan oğlum sayırdım.

378. Sarayda səssizlik hakim olmuşdu, qalanlar kölgə kimi hərəkət eləyir, bir-biriylə rastlaşmamağa can atırdılar. Arabir qar yağırdı, belə günlərdə hərə öz hücrəsinə çəkilib işilə məşğul olur, əzablı vaxt axarını birtəhər yola verməyə çalışırdı. Demək olar, hər gün Məhəmməd Kazımla Mömin xanın qəbrinə baş çəkirdik. Cavan dostumun – mənəvi övladımın mərhumu Məşhəddə dəfn eləmək arzusunda olduğunu bilir, hələlik bu istəyini yerinə yetirmək imkanı tapmamasından əzab çəkdiyini sezirdim. Bu yaşında gördüyü faciələrin, başına gələn müsibətin onu nə qədər yetkinləşdirdiyinin fərqinə də varırdım. Adətən axşam namazından sonra mənim hücrəmdə oturub şəhərdə tüğyan eləyən vəbadan, məmləkətin müxtəlif guşələrindən gələn xəbərlərdən, oxuduğumuz kitablardan söhbət eləyirdik. Məhəmməd Kazım tarix yazmağa bundan sonra da səy göstərəcəyini açıqca büruzə verirdi. Görürdüm ki, artıq bu iş ondan ötrü təkcə həvəs deyil, həm də qismətdi, ömrünün axırınacan yolundan dönməyəcək. Hələ çapar göndərmək imkanı olmadığından mənim Mirzə

Mehdidən, özününsə Mirzə Möhsündən namə almamağının ağrısını çəkirdi. Şübhəsiz mən də Qəndəharda, Bəlxdə nələr baş verdiyini bilmək istəyirdim, amma anlayırdım ki, vəba kabusundan qurtulmayınca bu istəyim gerçəkləşməyəcək. İndi Təbrizi asudə gəzib-dolaşmaq iqtidarında deyildik, küçələrdə, tinlərdə, meydanlarda gözlə görünməyən, əllə tutulmayan qorxunc düşmən marığa yatıb yolumuzu gözləyirdi. Məhəmməd Kazıma ürək-dirək verir, həmin məqamda həyatın davam elədiyinə, Allahın bizi sınağa çəkdiyinə, bu bəlanın da gec-tez sovuşacağına, yenidən ümid dolu günlərin gələcəyinə özüm də inanmağa başlayırdım…

# XV

# SIXINTILI VƏ İNTİZARLI GÜNLƏR

*Yaxşı gündə düşmən gələr dost olar,*
*igid odur yaman gündə dayansın.*

*Təbrizdən yadımda qalan atalar sözü*

379. Xanımız Ərdəbilə şəvval ayının əvvəlində getmişdi, qayıtmağı da iki aya yaxın çəkdi. Bu müddət ərzində Xanımızın buyruğu üzrə Təbrizdəki vəziyyəti xəbər vermək üçün həftədə bir çapar göndərilirdi. Çaparların dediklərinə görə, Ərdəbilin bütün giriş-çıxış yollarına nasaqçılar qoyulub, vəbaya yoluxub-yoluxmadığı yoxlanmamış bir nəfər belə şəhərə buraxılmır. Çaparlar qorxub ağızlarından çıxarmasalar da Xanımızın uğursuz səfərini, vəbanı, Mömin xanın ölümünü unutmaq üçün eyş-işrətlə gün keçirdiyini ovcumun içi kimi bilirdim. Vəliəhd məqamına çatmağından bir il ötmüşdü, hələ də Şahımızın etimadını doğruldacaq, könlünü sevindirəcək bir iş görməmişdi, oğlu yaşında olan Rzaqulu Mirzəsə Mavərənnəhrdə bir-birinin ardıca qələbələr qazanırdı – əlbəttə, bunun hansı nəticələrə aparıb çıxaracağını Xanımız gözəl başa düşürdü. Bu müddət ərzində Təbrizdə qırğın kəlləçarxa vurub yavaş-yavaş azalmağa başladı. Şəvval ayının sonunda ölənlərin sayı gündən-günə azaldı. Danışırdılar ki, bu vəba kabusunun ötüb-keçməsinin əlamətidi, artıq Tiflisdə, Gəncədə ara sakitləşib, dükan-bazar açılıb, Rəvandan, Nəqşivandan, Qarabağdan da ümidverici xəbərlər gəlir. Bütün eşitdiklərimiz aradan ötən, az qala, beş ay ərzində gərilmiş, daşlaşmış sinirlərimizi yavaş-yavaş yumşaldırdı, tutqun sifətlərimiz açılır, ağır qışdan sonra çıxan yaz günəşinə, bağda kol dibində baş qaldıran bənövşəyə, hücrəmizin pəncərəsi önündə ötən quşlara gülümsəməyə başlayırdıq. Novruz bayramına yaxın tələfatın lap azalmasından belə çıxırdı, bizi ölümün kandarına gətirib çıxarmış kabus artıq ötüb-keçib, alacağı canları alıb – *həm də nə*

*az, nə çox Mirzə Qulamın dediyinə görə, təkcə Təbriz əlli minəcən adam qurban vermişdi,* – sakitləşib, rahatlanıb. Son çərşənbədə artıq saraya giriş-çıxışa icazə verilmişdi, şəhərdə də bazar-dükanlar açılmağa başlamışdı. O gün Məhəmməd Kazımla səfərdən qayıdandan sonra ilk dəfə şəhərə çıxıb küçələri dolaşdıq, dağıntı gözə dəyməsə də, Təbriz, elə bil, ağır döyüşdən təzəcə çıxmışdı, ağır yaralarını sarımağa çalışırdı…

380. Xanımız Novruz bayramını Ərdəbildə keçirib, bir həftə sonra, zilhiccə ayının yeddisində Təbrizə döndü. Dönüşü də səssiz-səmirsiz oldu, heç pişvazına çıxan da olmadı, sanki, ən ağır vaxtında taleyin ümidinə buraxdığına görə, Təbrizdən və təbrizlilərdən utanırdı. Əlbəttə, Təbrizin bu Novruzu heç bayrama oxşamamışdı, nə evlərdə, küçələrdə, meydanlarda əvvəlki şənlik olmuş, nə doğmalarını itirənlərin üzü gülmüşdü, Mirzə Hüseynin dediyinə görə, Ərdəbildəsə üç gün əməlli-başlı bayram keçirilmiş, Xanımızı minlərlə adam yola salmışdı. Dilimizə gətirməsəm də bu boyda fəlakətin ortasında vəbanın Səfəvilərin yurdu Ərdəbilə yaxın düşməməsi də Allahın bir hikmətiydi, yəqin Mirzə Kəmaləddin olub-keçənləri İlahinin Əfşarlar xanədandan əməllərinə görə qisas almasıyla bağlayırdı. Görünür, fəlakətin ortasında duruş gətirdiklərinə görə, ertəsi gün Xanımız sarayda qalanları süfrəsinə dəvət eləyib, iltifat göstərdi, üstəlik, hamıya xələt verdi. Məhəmməd Kazım Xanımızın hüzurunda özünü toxtaq apardı, sınqınlığını göstərmədi, bununla da yetkinliyini büruzə verdi. Xanımız Tiflisdən, Gəncədən, Şamaxıdan, Rəvandan, Nəqşivandan, Ərdəbilə xəbərlər gəldiyini, artıq Allahın lütfüylə ölkənin hər yerində vəba kabusunun sovuşduğunu söylədi, Mirzə Qulama bu müddət ərzində xəzinəyə nə qədər ziyan dəydiyini hesablamaq əmri verdi. Dediyinə görə, havaların isinməsilə ləzgilər təzədən Şirvanı təhdid eləməyə başlayıblar, görünür, yenə əncam çəkmək barədə fikirləşmək lazım gələcək. Bu kəlmələri onun ağzından eşidəndə ürəyim bərk-bərk döyündü, Tiflisi görmək ümidim yenidən peyda oldu, o gecəni də ilan vuran yatdı, mən yatmadım. Yenə gözümü yuman kimi, özümü Tiflisin küçələrində görürdüm, evimizi axtarır, tapmırdım, diksinib oyanır, yatağımda qurcalanırdım. Xanımız o sözü demişdisə, deməli, yaxın aylarda dediyini gerçəkləşdirəcəkdi – məsələ

ləzgilərin basqınlarından çox Şahımızın Vəliəhdə etimadında, Rzaqulu xandan bir-birinin ardınca gələn qələbə soraqlarındadı.

381. O, günlərdə nə vaxtdan bəri xəbər-ətər almadığım, buna görə də narahat olduğum Mirzə Mehdidən namə gəldi. Həmd-sənadan sonra yazırdı ki, Hüseyn Sultanın Məhəmməd Saydal xan və Yunus xanın başçılığıyla Şahımızın ordugahına basqını Əbdülqəni xanın fədakarlığı nəticəsində uğursuzluğa düçar olandan, düşmənlərin bir qismi Ərgəndab çayında batandan sonra qoşunumuz Qəndəhara yaxınlaşdı; Şahımız Qəndəharın güney-günçıxan səmtində şəhər salmağı, evlər, bazarlar, məscidlər, hamamlar, köşklər tikməyi, qala və qala divarları ucaltmağı əmr elədi, şəhəri də Nadirabad adlandırdı; yazırdı ki, yük heyvanları çatışmadığından Şahımızın əmrilə camaat Kirmandan, Sistandan taxılı bellərində daşıyıb gətirirdilər, İmamverdi xan Qırxlu Hüseyn Sultanın oğlu Məhəmmədi və Saydal xanı ələ keçirəndən sonra Pirməhəmməd xanla Əsilmaz xan Belucistanı itaət altına almağa çalışdılar; yazırdı ki, Pirməhəmməd xanla Əsilmaz xan arasında fikir ayrılığı faciəylə nəticələndi: Şahımıza Pirməhəmməd xanın qiyam qaldırmaq niyyətində olduğunu söylədilər, o da bir vaxtlar etibar göstərdiyi, çox sevdiyi Xorasanı və Məşhədi etibar elədiyi, sonra Rəvan xanı təyin elədiyi sərkərdəsinin boyunun vurulmasını əmr elədi, ardınca da aldadıldığını görüb peşman oldu; yazırdı ki, Novruz bayramından iki gün sonra, zilhiccə ayının ikisində Şahımız könüllülər dəstəsinə hücum əmri verdi, Bürc-dad qalasına qalxan hər kəsin min nadiri alacağını, qaçanlarınsa nasaqçılara boynunu vurduracağını, cəsədini itlərə və milçəklərə yem eləyəcəyini bildirdi; Hüseyn Sultan vəziyyətin ümidsiz olduğunu görüb Qaytul qalasına çəkildi, ordasa mühasirəyə düşüb təslim oldu, bacısı Zeynəbi Şahımızın yanına rəhm diləməyə göndərdi, Şahımız da adətə hörmət göstərib Hüseyn Sultanla ailəsini Mazandarana yolladı, beləliklə, Qəndəharın fəthi başa çatdı.

382. Bir neçə gün sonra məni qəfildən Xanımızın hüzuruna çağırdılar. Mirzə Hüseyn o günlərdə evində xəstə yatırdı, bel ağrılarından əziyyət çəkirdi. Xanımız divanxanada Məhəmməd xan Əfşar, xanzadə Məhəmməd Əli və tanımadığım bir şəxslə əyləşmişdi. Bağır basıb təzim elədim, Xanımız Şahımızın mübarək

naməsinin mənə verilməsini əmr eləyib oxumağımı istədi. Mirzə Möminin xəttini dərhal tanıyıb aram-aram oxumağa başladım: *«Əuzübillahi-təala, hümayün fərman oxundu. Azərbaycanın qüdrətli sərkərdəsi və paytaxt Təbrizin hakimi cürbəcür şah lütflərilə fərəhlənən və qürurlanan ali məqamlı qardaşım İbrahim xan bilsin ki, həmd olsun Allaha, bu Nadirə dövlətin darülqərar qapıları sübhani inayətin kilidlə bizim hümayun nəvvabımızın ruzigarı üzünə açıldığı gündən cilvəli xosrovanə şadlıq atının çatdığı hər tərəf ki, dəniz olub, səhravari torpağı gözünə doldurmuşuq və şahanə hümmət atının üz qoyduğu hər tərəf ki, dağ olub qarşıdan saman çöpü kimi çıxartmışıq. Qəndahar qalası mühasirəsinin tam bir ilə qədər uzandığı bu birgə qələbə anlarında «Yaxşı hikmət və öyüdlə (adamları) öz Rəbbinin yoluna çağır». (Nəhl surəsi, ayə 125) şərafətli əmrə əsaslanıb Qəndəharın mühasirəyə alınmış əfqanları itaətin şah yoluna dəvət olundular. O tayfa «Onlar zənn edirdilər ki, qalanları onları qoruyacaq» (Həşr surəsi, ayə 2) yazısı ilə qalanın istehkamlarına və qüllələrin möhkəmliyinə bel bağlayıb, taxılla sursat ehtiyatının çoxluğuna və öz adamlarının çoxluğuna arxalansa da, onlar şir ovlayanların qarşısında din əshabələrinin hümmətilə həşərat küylü və qarğalar dəstəsi hökmündə olub, yalnız şərlə həyəcana düçar və itaətlə təslimə layiq idilər. Dünyaca böyük qüdrətə malik birinci bir dəstə qazi qüsurlu qalanın üzərinə hücuma keçmiş, Səngi qülləsinə və Bürc-dad tərəfdə dağın başında ucaldılmış digər qüllələrin alınmasına məmur olunmuşdur. Adları çəkilən qüllələr ələ keçəndən sonra qaladakıların var-yoxu top və qumbarayla «Qaranlıqda göydən gurultu və şimşəklə yağış yağar» kimi atəşə tutulub xırman buluduna çevrildi.*

383. *Həmin qüllələrin alınmasından on beş gün sonra, bazar ertəsi, bu ayın otuzuncu günündə, düşmən dövlətin süqut vaxtı olan zöhrün əvvəlində əjdaha dəlilər və şir bahadırlar qala dağının ətrafına qalxıb yürüşə məmur oldular. Qaladağıdan toplar Dədə adıyla məşhur qalanın özülünə rəxnə salandan sonra həmin səmtin mühafizəsi bəxtiyari camaatına tapşırıldı və Tanrının köməyilə mədədi o tayfaya nəsib oldu. Onlar digər qaziləri qabaqlayaraq Bürcdədəni bu qalanı qoruyanlardan təmizləyib, Qadiri-Zülməninin inayəti sayəsində köməkləşib mərdanəliklə hücum çəkərək qalanın darvazasını açdılar və Qəndəhar qalasını tamamilə ələ keçirdilər. Belə şad xəbərin günbəgün, fasiləsiz gözləri təzə müjdələrin gəldiyi yolda və qulaqları ürəkaçan fəthlərin*

*avazında olan bu dövlətin tərəfdarlarının sevincinə səbəb olacağını nəzərə alaraq, əyanların başçısı söhbət-yasavul*[1] *Səfiyar bəy Əfşarı bu fərəhli sözü çatdırmaq, belə fəthlərin nisarını və rəsmi muştuluğunu almaq üçün yolladıq. Lakin hər vilayətin əhli bu fəthin üçillik xərcin məbləğinə bərabər muştuluğu vaxtından əvvəl və minnətdarlıqla ödədiklərinə görə lazımdır ki, bu şərəfli məktubun yetişməsilə on iki tümən nağd pulu və bir dəst xələti bu ali naməni gətirənə öz malından verib, bundan və yuxarıda qeyd edilmiş ehtiyaclardan və nisarla muştuluq şəklində olanlardan savayı heç nə verməsinlər və şərafətli hökmü köçürüb bütün Azərbaycan vilayətinə göndərsinlər ki, onlar da bu əbədi fəthə görə nağara şadyanalığını keçirmək üçün hazırlıq görüb İlahinin uzunömürlü lütflərindən atəşlər hasil etsinlər. Qərara alınır ki, Nadirabadı və təbəələrini Nişapurda və Xorasanın qalaq vilayətlərində yaşayan əbdalı elinin sakinlərinə məxsus edib, əbdalını köçürüb o məkanda yerləşdirsinlər, Hutəni qəlicə tayfasını onların yerlərində sakin etsinlər və o camaatı adı çəkilmiş ayın iyirmi dördündə Qəndabdan götürüb adı çəkilmiş əraziyə yollasınlar…»*

384. Mirzə Mömінin qələmə aldığı ibarəli naməni bitirib Xanımıza yenə bağır basıb təzim elədim, beynimdən keçdi ki, tanımadığım şəxs çox güman sözügedən Səfiyar xan Əfşardı. Xanımız Qəndəharın fəthinə sevinib şükranlığını bildirdi, sonra xəzinədarbaşını çağırtdırıb Səfiyar xana on iki tümən nağd pul, bir dəst xanlara layiq xələt verilməsini əmr elədi. Xanımızın icazəsilə divanxanadan çıxanda namənin onda yaratdığı ovqatı da unuda bilmədim: Şahımızın fərəh dolu naməsi qardaşında narahatlıq doğurmuşdu, görünür, həmin məqamda uğursuz quzey səfərini xatırlayıb xəcalət çəkirdi. Əlbəttə, vəba kabusu araya girməsəydi, çox güman ki, indi Tiflisdə, Tabasaranda, ya da Dərbənddə olardıq, mən də yurd həsrətimi ovudardım. Amma Şahımızdan gələn namənin yeni səfərə təkan verəcəyini də istisna eləmirdim. Şübhəsiz, yazın girməsilə ləzgilərin quzey hüdudlarımıza basqınları artacaqdı, Xanımız da Azərbaycan valisi və vəliəhd olandan bəri məmləkətin nəfinə dəyərli bir iş görmədiyini sinirə bilməyib Şahımızın etimadını doğrultmağa, öz nüfuzunu qorumağa çalışacaqdı. Mənə görə bütün dəlillər

[1] Məclisdə qızıl və ya gümüş əsanı, ya da çanağı əlində tutub dayanan şəxs

Xanımızın yeni quzey səfərini qaçılmaz eləyirdi, bu da təbii ki, qəlbimdəki ümid gözərtilərini yelpikləyirdi. Bu qənaətimi üstüörtülü də olsa Məhəmməd Kazıma bildirdim, fikrimə şərik çıxdı, üstəlik, dedi, Şahımızın Qəhdəhar zəfəri barədə namə göndərməsi ismarışa oxşayır, nə qədər ki, Osmanlılarla arada əmin-amanlıq var, ləzgiləri yerində oturtmaq lazımdı, çünki nə Xəlifə o iki tələblə razılaşacaq, nə də Şahımız dediyindən dönəcək – bu da yeni toqquşmaların olacağı deməkdi. Fikir-xəyaldan o gecəni də çimir eləyə bilmədim, səhərəcən yatağımda çevrikə-çevrikə yenə qarşıdakı səfər ovqatına köklənməyə, xəyalımda Tiflisə yetməyə başladım. Əlliillik həsrətin bitəcəyinin nə qədər həyəcan doğurduğunu yalnız mənim taleyimi yaşayanlar bilər…

385. Elə həmin günlərdə də Məhəmməd Kazım mustoufibaşı Mirzə Möhsündən namə aldı. Mirzə Möhsün Mömin xanın vaxtsız vəfatından kədərləndiyini bildirir, sonra Şahzadə Rzaqulu xanın apardığı döyüşlərdən xəbər verirdi. Yazdığına görə, Buxara hakimi Əbülfeyz Əndican, Səmərqənd, Xocənd, Daşkənd tayfalarından, qaraqalpaqlardan, qazaxlardan, hətta Xarəzm xanı İlbarsdan kömək alıb, Rzaqulu xan Bəlxə qayıtmaq fikrinə düşsə də, Təhmasib xan Cəlayir Şahzadəyə döyüşə girmək barədə dil töküb. Amma Şahımız bundan xəbər tutub, oğlunu töhmətləndirib, Təhmasib xana da yazıb ki, *ey qoca dəllal, mən sənə Bəlxi tutandan sonra orda qalmağı əmr eləmişdim, sənsə əvəzində fateh olmaq fikrinə düşmüsən, üstəlik, sevimli oğlumu, cavanlığı üzündən ehtiyatsız və qorxmazlığıyla məşhur olan Rzaqulu Mirzəni də öz çirkin və şöhrətpərəst niyyətinə cəlb eləmisən, sən öz arxanca oğlumu da, müzəffər ordumu da fəlakətlər girdabına salmısan… Bu əmri alan kimi dərhal Qubətül-İslama qayıtmalısan, mən əmr eləyəcəyəm ki, sənin başını bədənindən ayırıb aləmin bəzəkləri olan saraya göndərsinlər.* Mirzə Möhsünün yazdığına görə bundan sonra Rzaqulu xanla Təhmasib xan Cəlayir Bəlxə qayıdıblar, amma Gündüz vilayətində özbəklərin başçısı Seyid xanın baş qaldırdığından xəbər tutub, ora yollanıblar, vilayətdə əmin-amanlıq yaradıb, Bədəxşana, ordan da Külaba keçəndən sonra yenə Şahımızdan Bəlxə dönmək barədə əmr gəlib. Məhəmməd Kazım dedi, Şahzadənin cəsarəti hörmətə layiqdir, amma Şahımız dün-

yagörmüş və müdrikdi, insan iştahının hüdudlarını bilir, oğlunu nahaqdan güdaza verməmək üçün vaxtında tədbirlər görür. Şübhəsiz, Xanımız Şahzadənin zəfərlərindən xəbərdardı, bütün bunları sinirə, Təbrizdə oturub qala bilməzdi, günlərin birində səbir kasası daşacaq, səfər əmri verəcəkdi…

# XVI

# MƏHƏMMƏD KAZIMIN SEVGİSİ

*Təbrizin küçələri dolanbadolan,*
*Qaragilə, dolanbadolan,*
*Əgər məni sevmirsən, get ayrı dolan,*
*Qaragilə, get ayrı dolan…*

***Bir Təbriz mahnısından***

386. Sonrakı üç gün Şahımızın qardaşına yolladığı mübarək fəthnaməsinin üzünü köçürməklə məşğul olduq. Məhəmməd Kazımla hücrədə oturub pəncərədən o yanda canlanan təbiətin cürbəcür səslərini dinləyə-dinləyə yazmaq, hər şeyin dəyişdiyini, vəba fəlakətindən doğan qaramatı üstündən ata-ata öz rənginə, səsinə, qoxusuna, görkəminə qayıtdığını duymaq xoşumuza gəlirdi. Səhər və günorta namazından sonra bağçaya çıxıb uzun sürən qış kəsalətinin altından təmkinlə, ağır-ağır boy verən yaz rayihələrini ciyərlərimizə çəkir, adətən Mömin xanın qəbrinəcən gedib dua oxuyur, salavat çevirir, dinib-danışmadan geri qayıdırdıq. Həmin məqamda Məhəmməd Kazıma həsəd aparırdım: heç olmasa, atasının qəbri vardı, baş çəkib qəlbinin göynərtisini ovudurdu, doğmaları vardı, həsrətdən üzüləndə onların yanına qayıdıb təskinlik tapacaqdı. Mənsə hələ ki, bu dünyada tək-tənhaydım, ata-anamın, qardaş-bacımın qəbri çox-çox uzaqlardaydı, Züleyxamsa sağ idisə, indi məni tamam-kamal unutmuşdu, saçları ağarmış, gözlərinin işığı öləzimiş, yanaqları qırışmış, kədərli, ahıl qadındı. Hərdən üzünü torpağına söykəyib ağlamağın, boşalıb təskinlik tapmağın necə gözəl olduğunu Məhəmməd Kazımın halından duyurdum, daşa dönmüş dərdin insanın sinəsindən asılıb çəkilməz yükə döndüyünü özümün çəkdiklərimdən hiss eləyirdim. Məhəmməd Kazım həssas adam idi, bəzən öz miskin xoşbəxtliyindən utandığını, gözlərimin içinə baxa bilmədiyini sezirdim, belə vaxtlarda öz varlığıma, dərdimlə

dünyanın bütün sevinclərini duymağa haqqı çatan bir insanın səadətinə mane olduğuna görə, özümə acığım tuturdu, amma bir-birimizə hava, su kimi ehtiyacımız olduğu bir vaxtda aralanmağın da mümkünsüzlüyünü anlayırdıq. Bir-birimizə elə vaxtda rast gəlmişdik ki, elə bil, allah hər şeyi ölçüb-biçmişdi: əvvəllər onun mənə ehtiyacı vardı, müstəqil həyatda ilk addımlarını atmaqda kömək eləməliydim; sonra içimdə atalıq hissi doğuldu, mən ona daha çox ehtiyac duymağa başladım; Mömin xanın ölümündən sonrasa, artıq bir-birimizə möhtacdıq – görünür, doğmalıq hissi elə bu cür olur.

387. Çaparlar yazdığımız fəthnamələri götürüb ölkənin dörd bucağına – Tiflisə, Şamaxıya, Gəncəyə, Rəvana, Nəqşivana, Ərəşə, Cavada, Mərəndə, Ərdəbilə, Zəncana, Əhərə, Marağaya, Xoya… doğru uzanan yollara çıxır, Şahımızın Qəndəharda qazandığı zəfəri xanlara, bəylərə, hakimlərə, məliklərə, usmilərə, şamxallara çatdırmağa tələsirdilər. Bir azdan ölkənin hər yerində şadyanalıq başlayacaq, sağ qalan camaat Şahımızın qüdrətini alqışlaya-alqışlaya bir neçə ay qabaq yaşadığı vəba faciəsindən beş-üç günlüyə də olsa, qurtulmağa can atacaqdı. Namələrdən birinə erməni xəlifənin adını yazanda barmaqlarım titrədi, qara cübbəsi, qara papağı, pırpız qaşlarının altında bic-bic oynayan gözləri, yaşına rəğmən hələ qıpqırmızı olan yanaqlarının rəngi gözlərimin qabağına gəldi, öldü-qaldığını hələ də dəqiq bilmədiyim *(sağ olsaydı, güman ki, Xanımız Rəvan civarında olanda pişvazına tələsəcək, ya da elçisini göndərəcəkdi)* kəsə namə göndərməyin mənasızlığını ağlımdan keçirdim, sonra fikirləşdim ki, sağ olmasa, yəqin kimsə naməni oxuyub, Şahımızın zəfərindən, Xanımızın buyruğundan agah olacaq. Əgər qismət olub bu yay quzey səfərinə çıxsaq, şübhəsiz, erməni xəlifənin özündən olmasa da, əməllərindən xəbər tutacaqdıq. Şahımız Qəndəharda, şahzadəmiz Bəlxdə düşmənlərlə döyüşdüyü, Xanımızın Təbrizdə canının hayına qaldığı vaxtda fürsətdən istifadə eləyib mülklər ələ keçirən, həmqövmlərini köçürüb torpaqlarımızda yerləşdirən, məbədləri kilsələrə çevirən, üstəlik, kilsələr tikdirən, gizli yığnaqlar keçirib pisniyyətli tədbirlər tökən erməni xəlifənin vəba ilindən sağ çıxmasını heç istəmirdim, amma onu da bilirdim ki, onun yerinə gələn də eyni əməllərin sahibi olacaq, yoxsa bir gün də olsa

xəlifə məqamında əyləşməyə imkan verməzlər. Əlbəttə, Allahın işinə qarışmaq fikrində deyildim, amma mənə görə, Allah da o niyyətləri puça çıxarmalı, haqqı nahaqqa verməməliydi.

388. Məhəmməd Kazım bir qədər toxtadı, Mirzə Hüseyn sətəlcəmdən sağalıb saraya qayıtdı, həyatımız yavaş-yavaş öz axarına düşdü. Yaz öz gücünü bildirir, Təbrizin bağları yaşıllaşır, ağacları çiçəkləyir, elə bil Nuh tufanından sonra yeni yaşam başlayırdı. Xanımız istirahətə daldığı, bizə ehtiyacı olmadığı məqamlarda şəhərə çıxıb öz iş-gücüylə məşğul olan adamlara baxa-baxa gəzməyi, olub-keçənlərdən söhbət eləməyi sevirdik. Bir gün mənim istəyimlə Sahib-ül Əmr türbəsini ziyarət elədik. Birinci Şah Təhmasibin qırmızı kərpicdən tikdirdiyi, Təbrizi ələ keçirəndən sonra üçüncü Sultan Əhməd xanın əmrilə «əl gəzdirilən» türbənin minalı girişi, şəbəkəli pəncərələri, örtüklü minarəsi məni valeh elədi. Sonra böyük şair və mütəfəkkir Saitəddin Mahmud bin Əbdülkərim bin Yəhya Şəbüstərinin Gülşən bağındakı türbəsinə getdik. Şeyxin «Gülşən-i raz» divanını dönə-dönə oxumuşdum, indi də həmin divanın nüsxəsi sandığımdaydı. İri, tağlı pəncərələrdən düşən yaz işığında ustadın ruhuna dualar oxuyanda özümü xeyli rahat hiss elədim. Bir gün də Rəbi-Rəşidiyyə mədrəsəsinə getdik, şəhər qələbəliyindən qıraqda yerləşən girdə formalı əsas və çoxlu yardımçı tikililərdən ibarət mədrəsəni Mirzə Hüseynin köhnə tanışı Mirzə Siracəddinin müşayiətilə gəzib dolaşdıq. O günlər namazımızı Böyük Məsciddə, Cümə məscidində, Göy məsciddə qıldıq. Cahan Şahın zövcəsi Xatun Canbəyimin, az qala, üç yüz il əvvəl usta Nemətullaya tikdirdiyi Göy məscidin şahanə görkəminə baxa-baxa aldığım həzzi ömrüm boyu unuda bilmərəm. Günümüzün birini də Böyük bazarda dolaşıb, kəsişib-ayrılan karvansaraya, məscidə, badəstana aparıb çıxaran dükan sıralarına baxmaqla keçirdik. Təbriz təzədən doğulurdu, özünə qayıdırdı, zəifləmiş, az qala, qırılmış həyat bağlarını təzədən düyməyə çalışırdı. Bunu görüb-duymaq bizə də ruh verirdi, dinməzcə bir-birimizə baxıb gülümsəyir, ümidlərimizi və duyğularımızı beləcə paylaşırdıq.

389. O arada Məhəmməd Kazımın halında gözgörəti dəyişiklik duydum. Əslində, bu dəyişiklik ötən ildən biz uğursuz səfərə çıxmamışdan vardı, onda özünü təzə-təzə bildirməyə

başlamışdı. Şübhəsiz, Xanımızın və atasının mənə etibar elədikləri oğlanın yetkinlik duyğuları yaşadığının fərqindəydim, bunu hər hansı səbəblə bağlamaq istəmirdim. Heç səfərimizin başlanğıcında, Məhəmməd Kazım çalxantılı hallar keçirəndə də Məhəmməd xan Əfşarın qızı Pərixan xatunla bağlı nəsə soruşmaq ağlıma gətirməmişdim, halını ilk dəfə uzaq, həm də tarixi səfərə çıxmağının əlaməti saymışdım, amma elə onda məsələ ortaya çıxmış, həlli səfərdən dönənə qalmışdı. Sonra araya vəba kabusu girdi, vəsvəsəli günlər başladı, ardınca atasını itirdi, sarsıntılarla üzbəüz qaldı, mən də həmin məsələni hələ yada salmamağa qərar vermişdim. Bütün bu müddətdə Məhəmməd Kazımın halındakı o dəyişiklik kölgədə qalmışdı, elə bil, yazın özünü bildirməsilə kölgədən çıxmağa, günbəgün böyüməyə, özünü bildirməyə başladı. Bir kərə onu Məhəmməd xan Əfşarın qızı Pərixan xatunun pəncərəsinə baxan yerdə yaxaladım, oğlan oğurluq üstündə yaxalanmış kimi tutuldu, rəng verib, rəng aldı, bununla da, duyğularının əsassız olmadığını təsdiqlədi. Həmin məqamda içimi anlaşılmaz, eyni zamanda, qarşısıalınmaz sevinc dalğası bürüdü, sanki, özümün nakam eşqimin Məhəmməd Kazımın simasında gerçəkləşəcəyinə, xoşbəxt sonluqla bitəcəyinə sevinirdim. Təbii ki, oğlanı sorğu-suala tutmadım, hələ yaraları təzəydi, amma sevgi vaxt-vədə tanımır, heç ölüm-itimi də eyninə almır. Həmin gündən Məhəmməd Kazımı bir qədər tək buraxmağa, öz duyğularıyla əlləşmək üçün vaxt verməyə çalışır, buna görə minnətdarlığını üzünün ifadəsindən sezirdim. Yəqin məsələni arzusuna çatandan – atasının nəşini Məşhədə aparıb dəfn eləyəndən sonra açacaqdıq. Şübhəsiz, bu məsələyə Məhəmməd xan sevinməliydi, qızı belə tərbiyəli, dərrakəli bir oğlana qismət olacaqdı; Xanımız da yaxın sirdaşının yadigarını gözündən qırağa buraxmamaq üçün bundan yaxşı vasitə tapa bilməzdi – bir sözlə, Məhəmməd Kazımın xoşbəxtlik yolu açığıydı.

390. O günlərdə Mirzə Mehdidən bir namə də aldım. Hal-əhval tutandan sonra yazırdı ki, Şahımız günçıxan hüdudlarımızda əmin-amanlıq yaratmaq üçün böyük səy göstərir, abdalilərin başçısı Zülfüqar xana və qardaşı Əhməd xana rəhm eləyib, onları Mazandarana göndərib, ələ keçirilən qəniməti səxavətlə qo-

şunlara paylayıb, şəhərin alınmasında ağlagəlməz igidlik göstərib Bürc-dada birinci qalxan bəxtiyari mollası mustoufi Ədinə bir kisə qızıl bağışlayıb; yazırdı ki, Şahımız Qəndəhar camaatını Nadırabada köçürmək barədə fərman verib, Gilzay qalasınısa yer üzündən silməyi buyurub, indi minlərlə adam qalanı dağıtmaqla məşğuldu. Yazırdı ki, Şahımız Nadirabadı Qəndəhar vilayətinin paytaxtı elan eləyib, Nişanpurda və Xorasanın digər yerlərində yaşayan abdaliləri Qəndəhara köçürmək barədə düşünür; yazırdı ki, Şahımız altı il qabaq Mahmuddan aldığı yenilginin rüsvay-çılığını bu zəfərlə yudu, indi Böyük İsgəndərin və Əmir Teymurun fateh əlbisəsini geyinməyi bacardı, bundan sonra onun qılıncının qabağında kimsə duruş gətirə bilməz. Mənə görə, Mirzə Mehdinin yazdığı bu fəthnamə Xanımızı yerindən oynatmalı, quzey səfərinə təhrik eləməliydi. Şübhəsiz, Şahımız daim Tiflisdən, Səfi xan Buxairidən məmləkətin quzey hüdudlarındakı vəziyyət barədə namə alırdı, bəlkə də öz-özlüyündə vəliəhdin, Azərbaycan valisi olan qardaşının bir tədbir görməməsindən narazıydı, bu narazılıq da özünü nə vaxtsa büruzə verəcəkdi. Fikrimcə, Xanımız o məqamı gözləməyəcək, yaxın müddətdə səfərə çıxmaq niyyətini bildirəcəkdi. Axır vaxtlar üst-üstə yığılan dəlillər ancaq ümidlərimin yenidən dirçəlib möhkəmlənməsinə xidmət eləyirdi, ola bilməzdi ki, gümanımda yanılaydım, Xanımız günlərin birində Şahımızın töhmətinə, ya da qəzəbinə tuş gələ bilərdi. Beləliklə, ehtimal ki, uzun müddət belə davam eləməyəcək, ömrümün arzusuna qovuşmaq üçün daha bir, bəlkə də, sonuncu kərə fürsət tapacaqdım…

391. Həmin vaxtlarda da Osmanlı elçisi Mustafa Paşa Əbdülbağı xanın müşayiətilə Təbrizə təşrif buyurdu, iki gün qalandan sonra İsfahana, ordan Nadirabada yola düşüb, Xəlifənin naməsini Şahımıza apardılar. Danışılanlardan belə məlum olurdu ki, Şahımızla Xəlifə arasında o iki məsələdə hələ razılıq əldə olumayıb, belə getsə, dil tapacaqlarına da ümid yoxdu. Gümanım doğru çıxdı, bir müddət keçmiş Mirzə Mehdidən olub-keçənlər, Şahımızın elçiləri qəbul elədiyi barədə namə aldım. Yazdığına görə, Xəlifə yenə də cəfəriliyin, Kəbədə beşinci sütunun ucaldılmasının mümkünsüzlüyünü bildirir, zəvvarlarımızın Məkkəyə Şamdan yox, Nəcəfdən getməsini məqsədəuyğun sayır, Şahımız-

sa bu iki məsələni çox vacib hesab eləyir, izahat istəyirdi. Mirzə Mehdi Xəlifəyə cavab naməsinin bəzi məqamlarını olduğu kimi yazmışdı: «*...Böyük səltənətin mərkəzindən və ulu xilafətin paytaxtından alicah kəraməti vəzir və məşhur xadim Mosul valisi Mustafa Paşanın, dərinbilikli alimlərin alimi, sədri-Anadolu Abdullah Əfəndinin və mərhəmətlər yiyəsi, Ədirnənin qazisi Xəlil Əfəndinin vasitəsilə göndərilmiş ali rəyli vacibüt-təzim hümayün naməni və lazimüt-təkrim şərafətli məktubu almaq şərəfinə nail olduq... İlahi dərgahına ehtiyacı olan dostluğun və ittifaqın əsaslarını, islam millətinin nizam-intizamını, bütün insanların asayişini və əmin-amanlığını möhkəmləndirməkdən ötrü bir məqsədi yoxdur və bu əbədi dərgaha möhtac olanla əlaqədar nə varsa, Muğan çölünün Böyük Şurasında qüvvəyə saldıq... Sülhün bağlanması üçün ən vacib və tələb olunan əsasların böyük bir qismini təşkil edən iki şərtin çözülməsindən imtina olunub, bu məsələ düyün vəziyyətində qaldığına görə alicah ümdətül-imərail-izam, Luristani-Filinin bəylərbəyisi Əlimərdan xanı elçi təyin etdik, seyyidlik, şərafət və fəzilət sahibi, Heratın şeyxülislamı əllamə Mirzə Möhsünlə əyalət və cəlalət sahibi, Turiyan hökmdarı Uğurlu xan Şamluya onunla birlikdə həmin işi tapşırdıq... Rum məmləkəti əsirlərinin dustaqxanadan buraxılması məsələsi qəbul səviyyəsinə yetişəndən sonra həmin alirütbəlini yoldaşları ilə müraxxəs edib adları çəkilən elçilərlə sultanın xilafətmədar sarayına yola saldıq və Əlimərdan xana təslim edilən məktubda məlum maddələrə aydınlıq gətirərək onların qüvvəyə salınmasının vacibliyini izah etdik...*»

392. Mirzə Mehdinin yazdığından belə çıxırdı, Şahımız Qəndəharın fəthilə kifayətlənib Məşhədə dönmək istəmir. Səbəb də bir il əvvəl sərhədlərini uğan basqınçılarının üzünə bağlamaq tələbilə Dehliyə, Məhəmməd Şahın sarayına göndərdiyi elçisi Məhəmməd xan Türkmənin hələ də qayıtmamasıdı. Yayılan şayiələrdə bunu Məhəmməd xanın hind rəqqasəsinə vurulub orda qalmasıyla bağlayırdılar, amma Mirzə Mehdinin fikrincə, əsl səbəb Məhəmməd xanın gizli niyyətilə bağlıydı: o, Şahımızın Qəndəharı fəth eləməyə qüdrəti çatıb-çatmayacağına əmin olmaq istəyirdi. Şahımızsa daha Dehliyə cavab vermək fikrində deyildi, bir neçə gündən sonra yürüş başlanacaqdı. Nadirabaddan Xanımıza da namə gəlmişdi, Mirzə Hüseynin dediyinə görə, Şahımız Hindistan səfəri barədə qardaşını xəbərdar eləyib, günbatan və

quzey hüdudlarımızda əmin-amanlığa diqqət yetirmək barədə məsləhətlər vermişdi. Belə çıxırdı, artıq Xanımızın ləzgiləri yerində oturmaq istəyi gerçəkləşəcəkdi. Məhəmməd Əliylə ara-dabir görüşüb, şəhər kənarında seyrə çıxan Məhəmməd Kazım da xanzadəylə söhbətlərindən eyni qənaətə gəlmişdi.

Əlbəttə, bu səfər onun üçün Pərixan xatunla ayrılığı deməkdi. Söhbətlərimizdə deyirdim, oğlum, *əgər həqiqətən sevmirsənsə, sevdiyini dilinə gətirmə, bununla təkcə başqalarını yox, özünü də aldadarsan; başqasının könlünü sındırma, bil ki, kimsə sənin də könlünü sındıra bilər; yerinə yetirməyəcəksənsə, söz vermə...* Amma görürdüm ki, Məhəmməd Kazım danışanda gözümün içinə baxır, deməli, hisslərində səmimiydi.

Bu səfər məndən ötrü, axır iki il ərzində Tiflisə qovuşmaq yolunda üçüncü cəhd idi. Artıq çoxdan hər şeyi taleyin ixtiyarına buraxsam da, yenə içimdə təlatüm baş qaldırmışdı…

# DÖRDÜNCÜ KİTAB

## YOL VERMƏYƏN DAĞLAR

*Bən ölücək, yoluna gömün bəni,*
*Baqa dursun yarə torpağım bənim.*
*Torpağımda bitə həsrətlə ağac,*
*Qıla zari cümlə torpağım mənim.*

*İzzəddin HƏSƏNOĞLU*
*(XIII yüzil)*



# I

# İÇİMDƏ KÖZƏRƏN UMUD

*Allahı çağırıb düşürəm yola,*
*Bu dərdi sinəmdə qala qoymaram...*

*«Koroğlu» dastanından*

393. Qismət deyilən sirri-Xudadan baş açmaq çətin şeymiş. İnsan başına nə gəldiyini qabaqcadan bilsəydi, heç bu kədər faciələr, fəlakətlər, müsibətlər olmazdı, həyat çox sakit, çalxantısız, nizamlı keçərdi, amma tarix bu qədər maraqlı, talelər bunca rəngarəng olmaz, şairlər yazmağa söz tapmazdılar. Biri elə mən – yeddi yaşım olanda o məşum gecə basqınını qabaqcadan görsəydim, atama xəbər verərdim, qaçıb qurtulardıq, tifil vaxtımda başqa ailəyə düşməz, qürbətə getməz, əlli il yolları ölçməzdim; yaxud taleyimin bu cür olacağını bilsəydim, Rəvanda Muğan yığnağına getmək fikrinə düşməz, ən azı, Şahımız təklif eləyəndə qocalığımı, ya da xəstəliyimi səbəb gətirib İbrahim xanın qulluğunda olmaqdan boyun qaçırardım; amma bütün bunları taleyin, qismətin ixtiyarına buraxdım, Təbriz sarayında intizar dolu günlər keçirdim, bir kərə arzumun tam gerçəkləşdiyi vaxtda araya vəba kabusu girdi, özüm də o qorxunc günlərdən Allahın mərhəməti sayəsində sağ çıxdım. Yenə bu fikirdəydim ki, taleyin işini bilmək olmaz, nəzərində saxlayanda Allah insanı Simurq quşunun lələyilə də istədiyi yerə çatdırır. Əgər qismətimdə varsa, Xanımızın quzey səfəri baş tutacaq, mən də yurdumu-ocağımı görəcək, əlliillik həsrətimi az-çox ovudacağam. Ötən dəfəki də Allahın bir sınağıydı, həmin sınaqdan necə çıxdığımız İlahiyə məlumdu, əgəq üzüağ çıxdıqsa bundan sonra içimizi avand eləyib bizi mənzilimizə çatdıracaq, yox, üzüağ çıxmadıqsa, yenə hardasa fəlakətlər üstümüzü kəsdirəcək, arzularımız gözümüzdə qalacaq. Əlbəttə, indi vəziyyət eləydi ki, xanımızı məqsədindən döndərəcək bir qüvvəni təsəvvürümə gətirə bilmirdim, bütün

fəlakətlərə sinə gərib zədələnən qürurunu xilas eləməli, taxt-taca layiq olduğunu sübuta yetirməliydi. Xanımızın fəlakəti ləzgilərlə yanaşı Rzaqulu Mirzə tərəfdən də yaxınlaşırdı, bunun qarşısını mütləq almalıydı. Bu düşüncələrimi, əlbəttə, o vaxt kağıza köçürmürdüm, çünki daim beynimdə fırlanırdı, mənimlə o qədər doğmalaşmışdı ki, bir daha ağlıma gəlməyəcəyinə heç cür inana bilmirdim…

394. Xanımız səfər ayının onunda divanı topladı. Nə vaxtdan bəri bu cür yığnaqları yadırğamış əyan-əşrəf artıq ciddi hadisələrin baş verəcəyini gözləyirdi. Xanımız qabaqca Mirzə Qulamdan ölkədə vergi yığılmasının vəziyyətini soruşdu, Mirzə Qulam da hələlik vəba səbəbindən işlərin yolunda getmədiyini, əsl vəziyyətin payızda, camaatın gəlir-çıxarını hesablayandan sonra aydın olacağını söylədi. Dediyinə görə, Şirvan bu məsələdə bütün vilayətlərdən geri qalırdı, səbəbini də dağlıların basqın eləyib var-yoxlarını əllərindən almasıyla bağlayırdılar. Üstəlik, Car camaatının itaətsizlik göstərməsi də çoxlarını şirnikləndirib, üstəlik cəsarətləndirmişdi. Bu məqamda Xanımız taxtından ayağa sıçradı, divandakılar onun üzündəki halətdən üşürgələnib bir-birinə baxdılar. İbrahim xanın qaraşın sifəti qapqara qaralmışdı, gözləri parıldayır, əlləri əsirdi, o günəcən hamının gizlində danışdığı, fikrində dolandırdığı acı həqiqəti özü dilinə gətirdi, dedi, dünənki uşaq cəmi Mavərənnəhri fəth elədi, mənsə hələ Şirvanı bir ovuc dağlının basqınlarından qurtara bilməmişəm; ardınca dərhal son qərarını verdi: artıq Dağıstanla hesablaşmaq vaxtı çatıb. Sonra üzünü Məhəmməd xan Əfşara tutdu, buyruğunu verdi: on beş günə qoşunun səfər hazırlığı bitsin, Nəqşivandan bu yana bütün vilayətlərin qoşunları Təbrizdə cəmləşsin. Xanımız Mirzə Hüseynə də tapşırdı ki, İrəvana, Gəncəyə, Şamaxıya, Qarabağa, Lənkərana çaparlarla namələr göndər ki, qoşunlar bir ayın tamamında məni Qarabağda, Bərdə altında cəmləşib gözləsinlər, Tiflis qoşunusa bir həftə sonra Qaxa gəlsin. Sonra əlavə elədi ki, hamının məlumu olsun ki, Təbrizdə oğlum Məhəmməd Əli qalacaq, mən quzey hüdudlarımızda əmin-amanlıq yaradıb geri dönənəcən hamı onun əmrlərinə boyun əyəcək. Axırda Xanımız Məhəmməd xanın, Məhəmməd Əlinin, Mirzə Qulamın, bir də Məhəmməd Kazımın qalmasını buyurub, hamını mürəxxəs

elədi. Onsuz da Xanımız ayağa sıçrayıb səfərə çıxmaq vaxtını deyəndən sonra beynimdə uğultu başlamışdı, qalanını dumanlı şəkildə eşidib-qavrayırdım, divan otağından çıxandasa, həmin uğultu artıb qarşısıalınmaz gurultuya çevrilmişdi, daha heç nə eşitmirdim.

395. Sonra divanda olub-keçənləri axşam namazının ardından bağda gəzəndə Məhəmməd Kazımdan öyrəndim. Dediyinə görə, Xanımız Məhəmməd xan Əfşarla qoşunun hazırlığı barədə danışıblar, Zəncandan, Marağadan, Xoydan, Mərənddən, Əhərdən nə qədər atlı gələcəyini, nə vaxt səfərə çıxacaqlarını, Ərdəbildə neçə gün qalacaqlarını razılaşdırıblar; Xanımız Məhəmmədlinin ipini Mirzə Qulamın əlinə verib, onunla məsləhətləşmədən hərəkət eləməməyi tapşırıb, axırda Məhəmməd Kazıma Təbrizdə qalmağı, belə uzaq və təhlükəli səfərə çıxmamağı məsləhət görüb, amma istəkli sirdaşının oğlu inadından dönməyib, Xanımızın yanında olmağı üstün tutub. Belə çıxırdı ki, artıq hər şey qərarlaşdırılıb, Allahın izini, münəccim Xacə Mücirəddinin rəyilə səfər ayının axır günlərində Təbrizdən çıxıb, Qarabağa doğru yol başlayacağıq. Əlbəttə, həmin məqamlarda külfətindən ayrılmağa dözümü olmayan Mirzə Hüseynin əndişəsi, səfər macəralarını üstün tutsa da, yarı canı Təbrizdə Pərixan xatunun yanında qalacaq Məhəmməd Kazımın dolaşıq duyğuları, bu gedişin dönüşü olub-olmayacağını düşünən kəslərin qayğıları barədə fikirləşmirdim. Uzağı bir aya Qaxda, Tiflisdən cəmi-cümlətanı üç-dörd günlük məsafədə olacaqdıq, Allahım bu fürsəti məsləhət bilmişdisə, rəhmdilliyini göstərib aradakı həsrətə də son qoyacaqdı. Əlbəttə, Rəvanda məni yolumdan eləmiş qüvvə məlum idi – ömrümün əlli ilini yollarda keçirib o cür fövqəladə hadisənin yanından səssiz-səmirsiz ötə bilməzdim; Sınıq körpü yanında, xəyallarımın bir addımlığından İlahinin əlilə dönmüşdüm, indisə gərək məni yolumdan döndərən elə bir səbəb olmayaydı. Düzdü, yanımca gələn bu cavana qəlbən bağlanmışdım, amma onun daha doğma adamları, öz arzuları, öz hədəfləri vardı. Məhəmməd Kazım nəsə danışırdı, amma dedikləri şüuruma çatmırdı, bunu duyduğumdan da əzab hissi keçirir, utanırdım. Yay gecəsinin ruhuma sığal çəkən sərinliyindən elə məst olmuşdum ki, Məhəmməd Kazım yaşında olsaydım, mütləq duyğularımı misralara çevirərdim.

İndisə gecənin tez keçməsini, günlərin su kimi axmasını, səfər vaxtının yetişməsini arzulayırdım…

396. Şeriyyəti nahaq xatırlamadım, Firəngistanda sıxıntılı günlər keçirdiyim, darıxdığım, qapalı pansionda dustaq kimi yaşadığım vaxtlarda oxuduqlarımdan təsirlənib nəsə yazmağa cəhd eləmişdim, amma gözümü açandan eşitdiyim türkcə, oxuduğum ərəbcə, yazdığım farsca, daha sonra danışdığım gürcücə, öyrəndiyim firəngcəydi, hələ yetkinləşməmiş duyğularım dillərin bu tünlüyündə çaşır, vurnuxur, boğulurdu. Duyğularımın durulmağı, aydınlaşmağı uzun çəkdi, yalnız İstanbula yerləşəndən, Yenaki bəyin yanında qulluğa başlayıb sakit həyat keçirməyə başlayandan sonra düşüncələrimdən baş çıxarmağa, hisslərimin axarını ayırd eləməyə başladım. Sonralar Təbrizdə, Qəzvində, İsfahanda yaşayıb firəng elçisi müsyö Syör dö Gardənin dilmancı olanda çox oxudum, bununla belə, duyğularımı misralara düzə bilmədim, əvəzində o çağlarda baş verən hadisələrdən «Vaqiətü-Mir Veys və Şah Hüseyn»i yazdım ki, əlyazması indiyədək sandığımda yatıb qalır. Məhəmməd Kazımın gizli-gizli şeir yazdığındansa, vəbalı günlərdə xəbər tutmuşdum. Məşhəddə mədrəsə bitirən, bu yaşında çox oxuyan səfərlərə çıxan, ata itkisi görən, üstəlik, ilk eşqini yaşayan Məhəmməd Kazımın şeir yazmaması, əlbəttə, təəccüblü olardı. Bir dəfə hücrəsində yazı üstündə yaxalamışdım, gizlədə bilməyib yazdığını göstərmişdi, məncə, Asəf təxəllüslə yazdığı, hələ ki, yalnız eşq əzabından söz açan beytləri, rübailəri yaşına görə heç də fəna deyildi. Şübhəsiz, ömrünün qaynar çağını yaşayırdı, Pərixan xatuna olan duyğuları nədəsə özünü bildirməliydi; ola bilsin, Xanımızdan səfərə getməyi israrla istəməsi də o duyğuların doğurduğu əndişədəndi, bir müddət sevgilisindən ayrı qalıb hisslərini zamanın sınağından keçirmək istəyir. Hər halda Məhəmməd Kazıma yaxşı mənada həsəd aparıram: ömrünün çoxu irəlidəydi, atasını itirsə də, güclü himayəsi, doğmaları, sevdiyi kimsə vardı – əsl həyat ondan ötrü yenicə başlayırdı…

397. Məndən ötrü, elə bil, vaxtdan daş asılmışdı, günlər ağır ötürdü, Mirzə Hüseynsə, əksinə, hər axşam günün tez başa çatdığından şikayətlənirdi. Səhərlər, bir də günorta namazından sonra Mirzə Hüseynin hücrəsində oturub Xanımızın vilayət

xanlarına, bəylərə, hakimlərə, kələntərlərə, məliklərə, usmilərə, şamxallara naməsini yazır, hər kəsin nə vaxt, harda, nə qədər atlıyla pişvaza çıxmalı olduğunu bildirirdik. Namə hazır olan kimi, möhrdar möhürünü basır, hazır gözləyən çapar naməni alıb ayaq üzəngidə, diz qabırğada quzeyə doğru çapırdı. Bir müddət sonra xanlar, bəylər, hakimlər, kələntərlər, məliklər, usmilər, şamxallar Xanımızın taxt-tacın varisi, Azərbaycanın valisi və sərdarı İbrahim xan Əfşarın naməsini alacaq, divanı toplayacaq, əmri götür-qoy eləyəcəkdilər. Erməni xəlifəyə namə yazanda yenə barmaqlarım titrədi. Mirzə Hüseynin dediyinə görə, Xanımız, şübhəsiz, ondan atlı istəmirdi, quzey hüdudlarına səfərə çıxdığını xəbər verir, məbədlərində Şahımızın və Vəliəhdin zəfərləri üçün dua eləməsini istəyirdi. Əgər sağ idisə, erməni xəlifənin bu naməni alanda nələr fikirləşəcəyini təxmini bilirdim: həmişəki kimi, adamlarını yığıb xosunlaşacaq, tədbirlərini görüb Qarabağ düşərgəsində Xanımızın başının üstünü kəsdirəcək, yarınacaq, ağlayıb-sıtqayacaq, əzabkeş xalqının faciələrindən danışacaq, istədiyi buyrultuları almamış əl çəkməyəcəkdi. Şübhəsiz, qiymətli bəxşişlər, üstəlik, bu cür məqsədlər üçün seçdikləri, böyüdüb-yetişdirdikləri kəniz də gətirəcəkdi; belə şeyləri sevən Xanımız da erməni xəlifəyə Şahımızın da, özünün də hörmətini bildirəcək, istədiklərini artıqlamasıyla verəcəkdi. Bunu Mirzə Hüseyn də bilirdi, amma biz buyruq quluyduq, Şahımızın, Xanımızın sözünün qabağına söz çıxara, özümüzü güdaza verə bilməzdik, taleyimizə bəzən istəmədiyimiz işi görmək də yazılmışdı. Yenə o əzablı, təhqiramiz acizlik, əlacsızlıq duyğusu qəlbimi bürümüşdü, özümü nə qədər toxtatmağa çalışsam da kirpiklərimin nəmləndiyini hiss elədim...

398. Bir həftə keçməmiş yaxın vilayətlərin qoşunları gəlib Təbriz ətrafında, Acıçaydan o yanda düşərgə salmağa başladılar. Əvvəlcə Mərənddən iki min atlı gəldi, sonra Zəncandan dörd, Marağadan üç min nəfərlik qoşunun yetişməsi xəbərini eşitdik. Xanları, hakimləri, minbaşıları Xanımızın hüzuruna gələndə görürdük. Nəqşivan, Xoy, Səlmas, Əhər atlılarının artıq yola çıxdıqları bildirilirdi. Mirzə Hüseynin qənaətinə görə, Təbrizdə Məhəmməd xan Əfşar dörd min nəfərlik qoşun hazırlamışdı. Beləliklə, Ərdəbilə on səkkiz – iyirmi min nəfərlik qoşunla

yetişəcəkdik. Ərdəbil, Lənkəran, Rəvan, Qarabağ, Gəncə atlılarıyla birgə Xanımızın ixtiyarında azı otuz minlik qoşun olacaqdı. Gürcü və Şirvan qoşununu da nəzərə alsaq, əlli min nəfərlik qoşundan söhbət aça bilərdik, bu qədər qüvvəylə dağlıların kürkünə birə salmaq olardı. Mənə görə, Xanımız bu səfərdə Tiflis hakimi Səfi xan Buxairinin cəsarətinə, ağlına və təcrübəsinə bel bağlayırdı, iki ildən artıq idi ki, az qüvvəylə o tərəflərdə əmin-amanlıq yaratmışdı, əgər Kartli-Kaxetdə narahatlıq olmasa, yəqin Səfi xan da Xanımıza qoşulub dağlıların üzərinə gedəcəkdi. Şübhəsiz, bu qədər qoşunun topunu, sursatını, ərzağını, daşımaq üçün dəvələr, öküzlər, yabılar, qatırlar, arabalar lazım gəlirdi, Məhəmməd xan Əfşar da indi bu işlə məşğul idi. Deyilənə görə, Xanımızın əmrilə öküzünü, at-arabasını qoşuna könüllü verməyənləri ciddi cəza gözləyirdi, hətta, bəri başdan bir-iki nəfəri camaatın gözü qabağında möhkəm döymüşdülər ki, başqalarına da dərs olsun. Xanımızın xəzinədən ayırdığı pulla dükan-bazarlardan gərəkli şeylər alıb, arabalara yükləyir, topları yağlayıb təmizləyirdilər. Xanımızın elə divanın səhəri günü Dağıstan səfəri barədə Şahımıza da namə yazdırıb göndərmişdi, mənə görə quzey hüdudlarından narazı olan Şahımız qardaşının bu qərarından razı qalacaqdı – ləzgilərin basqınlarından qurtarmaq hökmdarın da başlıca qayğılarından biriydi.

399. Xoşbəxtlikdənmi, bədbəxtlikdənmi yola hazırlaşmağın qayğısını çəkmirdim, yüküm yenə cəmi-cümlətanı iki sandıqdan ibarət idi, birinə pal-paltarımı, o birinə kitablarımı, əlyazmalarımı, yazı dəstimi yığacaqdım, atımla-qatırım sarayın tövləsində, mehtərin xidmətindəydi. Tərəziyə qoysaq, içimin yükü o iki sandıqda olandan qat-qat ağır gələrdi – bunu da çox az adam bilirdi. Həmin adamlardan biri könül sirdaşım Mirzə Kəmaləddindi, güman ki, vəbadan qaçıb Təbrizə dönməyimizi eşidib, indi yəqin Xanımızın quzey hüdudlarına səfərə hazırlaşmasından, yolunun bu dəfə də Ərdəbildən keçəcəyindən xəbər tutub, Allahın hökmüylə bir də görüşəcəyimizin intizarını çəkir. Məhəmməd Kazımın da yük sarıdan qayğısı yoxudu, amma Təbrizdə çox dəyərli şeylərini – atasının qəbrini, bir də aşiq olduğu Pərixan xatunu qoyub gedirdi. Qızın son günlər tez-tez qaravaşlarıyla bağda gəzməyə çıxmasından anlayırdım

ki, aralarında mübhəm ünsiyyət yaranıb, bəlkə cavan dostum aşiqanə şeirlərindən birini də göndərməyə fürsət tapıb. Hər dəfə Pərixan xatunla rastlaşanda Məhəmməd Kazımın halı gözgörəti dəyişir, söhbətimiz rabitəsiz olurdu, gəzintidən qayıdandan sonrasa oğlan öz hücrəsinə çəkilir, ola bilsin, duyğularını misralara düzürdü. İndi boynuma alım, mən buna oxşar hissləri üç kərə – Firəngistanda, İstanbulda və İsfahanda keçirmişdim, daha doğrusu, üçüncü kərə öləziyən duyğularımı dirçəltməyə can atmışdım, bilirdim ki, *sevgi kişini xeyirxah varlığa çevirən, qadını daha da gözəlləşdirən, qəlbə rahatlıq gətirən, həyatı gözəlləşdirən duyğudu* – amma o məqamlar artıq illərin tozu altında qalmışdı. Şübhəsiz, səfərimiz uğurla başa çatıb Təbrizə qayıdandan sonra Məhəmməd Kazımın öz istəklisinə qovuşmasına heç bir maneə qalmayacaq, Xanımızın himayəsində olan aşiq muradına yetəcəkdi. İndiki vaxtımda Tiflis həsrətini nəzərə almasaq, bu ən böyük arzularımdan biriydi, təəssüflənirdim ki, Məhəmməd Kazımın xoşbəxtliyinin şahidi olmayacağam…

# II

# KÖNÜL SİRDAŞIMLA GÖRÜŞ

*Könül qalxıb Bərdə sarı yeridi,*
*Orda bir ölkə var, adı Gəncə hey!*

*Dirili QURBANİ*
*(XVI yüzil)*

400. Səfər ayının son günü erkəndən saray meydanında yığışdıq. Təbii ki, nə qədər çalışsam da əvvəlki gecəni çimir eləməmişdim, amma qəribəsi buydu ki, özümü həmişəkindən gümrah hiss eləyirdim. Bir azdan Xanımız əhli-əyalı, əyan-əşrəfilə meydanda görünəndə hər tərəfdən alqışlar ucaldı. Təzimlər bitəndən sonra carçı elan elədi ki, taxt-tacın varisi, Azərbaycanın valisi və baş sərdarı Vəliəhd Məhəmməd İbrahim xan Əfşar həzrətləri məmləkətin quzey hüdudlarında əmin-amanlıq yaratmaq üçün Allahın izini, ulduzların rüsxətilə səfərə çıxır. Sonra Mollabaşı səfər duası oxudu, Xanımız oğlu Məhəmməd Əliylə, əhli-əyalıyla, sarayda qalan əyan-əşrəflə görüşüb halallaşdı, sonra onun işarəsilə zurnalar, kərənaylar, nağaralar gurladı, qafiləmiz yerindən tərpəndi. İrəlidə Xanımız, yanında qoşunların sərdarı Məhəmməd xan Əfşar gedirdi, Mühafizəçilər, nasaqçılar, keşikçilər dəstəsinin ardınca mirzələr, dəftərdarlar, mollalar, möhrdar, eşikağası, xəzinədar, cürbəcür xidmətçilər, sonra səfər ləvazimatı yüklənmiş dəvələrin, qatırların, atların, öküz arabaların başını çəkənlər, mehtərlər, aşpazlar… dəstəsi meydandan tərpənib quzeyə sarı yollandı. Ötənilki kimi yenə hasarlardan, eyvanlardan, qapılardan, pəncərələrdən, divar diblərindən qafiləmizə baxırdılar, amma bu dəfə camaatın görkəmində qorxu yox, şadyanalıq vaedı, Xanımızı alqışlayırdılar, qafiləmiz də küçələrdən, döngələrdən, meydanlardan keçib Ağıçaya doğru irəliləyirdi. Atın üstündən boylanıb uzaqlarda Əlişah Ərkini, Böyük bazarın damını, Böyük məscidin minarəsini

görürdüm, bir daha görməyəcəyimi beynimdən keçirib Təbrizlə fikrən vidalaşırdım. Ağıçayı keçdik, atlara süvar olub Xanımızın yolunu gözləyən ordugah da qafiləmizi görəndə tərpəndi, alqış sədalarından sonra arxasınca tozu asimana bülənd eləyib Ərdəbil yoluna düzəldi. O məqamda ürəyim elə bərk-bərk döyündü ki, elə bil həyatımın son məqsədinə doğru yola çıxmışdım – əslində, bu həqiqətdən başqa bir şey deyildi…

401. Yenə Mirzə Hüseyn, Məhəmməd Kazım və mən atımızı yanaşı sürürdük. Mirzə Hüseyn fikirliydi, şübhəsiz,Təbrizdən çıxmaq, ailəsindən ayrılmaq həmişəki kimi onun könlüncə deyildi, tərpədən olmasaydı, ömrünün axırınacan evdən saraya, saraydan evə gedər, bir kərə də olsun, bundan şikayət eləməzdi. Məhəmməd Kazımınsa içində təlatüm vardı, bəlkə də elə bu təlatüm dilini açmışdı, Mərvdə keçən uşaqlığından, ilk dəfə Xanımızı görməsindən danışırdı. Deyirdi, on iki il əvvəl cəmi altı yaşı olanda İbrahim xan Mərvə gəlmişdi, onda Nadir xan olan Şahımız abdaliləri məmləkətdən sıxışdırıb çıxarmağa, Heratı təmizləməyə can atırdı. Həmin vaxt Mömin xan məmləkətin xilasına öz töhfəsini verib, altmış atlıyla onlara qoşulmuş, düz iki il səfərlərdə olmuşdu. Nadir xan Xorasanı təmizləyib qardaşını Məşhədə hakim təyin eləyəndən sonra İbrahim xan sədaqətini çox dəyərləndirdiyi Mömin xanı yanına çağırıb özünün ən yaxın adamlarından biri eləmişdi. O vaxtdan da Mömin xan ailəsini Mərvdən Məşhədə köçürmüş, orda məskunlaşmışdı. Məhəmməd Kazım da səkkiz yaşından Məhəmməd Əliylə bir yerdə böyümüşdü, mədrəsəyə birgə getmiş, şikara birgə çıxmış, çövkən oyununu birgə oynamışdılar. Məhəmməd Əli elə başlanğıcdan mədrəsəyə o qədər də maraq göstərməmişdi, Məhəmməd Kazımsa oyunlarına, gəzintilərinə rəğmən oxuyub-yazmağa da həvəsliydi, mədrəsənin kitabxanasından götürdüyü kitabları gecələr şam işığında oxuyur, özünü sehrli aləmə düşmüş kimi hiss eləyirdi. Mömin xan Muğan çölünə İbrahim xanın heyətində getmişdi, Xanımız uca məqama yetişib Təbriz sarayında oturanda könül sirdaşını Məşhədə buraxmamışdı, üstəlik, oğlunu da Təbrizə gətirtmişdi, bir qədər sonra arvadını və qızını da gətirmək fikrindəydi, amma fələk aman vermədi. Məhəmməd Kazımın Təbrizdə peyda olmasının sirri bundan ibarətmiş.

Əslində, bu sirr deyildi, taleyin şükranlığa layiq təsadüflərindən biriydi ki, Xanımızın ağlına istəkli dostunu mənim himayəmə vermək gəlmişdi, beləcə Allahın təqdirilə rastlaşmışdıq…

402. Məhəmməd Kazımla bağlı bilmədiyim başqa məqamlar da varmış, bunları utancaq təbəssümlə danışdı. Dediyinə görə, Mömin xan Fövziyyə Sultanın nəşini Məşhəddə torpağa tapşırıb artıq həddi-büluğa çatmış oğlunu qulluğa düzəltmək üçün özüylə Təbrizə gətirəndə heç razı qalmayıbmış, bığ yeri tərləyən oğlan anasından və bacısından, tay-tuşlarından ayrılığın xiffətini çəkir, az qala, uşaq kimi ağlayırmış. Qırx gündən artıq çəkən yolçuluq müddətində Mömin xan onu ovutmaq üçün nə əziyyətlər çəkmişdi, bunu bir Allah bilir. Təbrizə çatıb Məhəmməd Əliylə görüşəndən sonra da yasavul olmaq istəyini beynindən çıxara bilmirdi. Dəbdəbəli geyimdə, silahlı daim Xanımızın yanında görünmək, özünün fərqli məqamını hamıya göstərmək istəmişdi. İbrahim xan əvvəlcə ərköyün oğlanın inadını təbəssümlə qarşılayıb bir söz deməmişdi, iki ayağını bir başmağa dirəyəndəsə könlünü qırmamaq üçün yaxşı, demişdi amma gərək saray qanunlarını öyrənmək üçün bir müddət mirzələrin yanında olasan, onlardan görüb-götürəsən, Məhəmməd Kazım da razılaşıb nə vaxtsa arzusunun gerçəkləşəcəyi məqamı gözləməyə başlamışdı. Görünür, rəhmətlik Mömin xan yeganə oğlunu səfərlərdən, döyüşlərdən, təhlükələrdən uzaqda saxlamağa çalışırdı, Xanımızın səyləri də elə buna yönəlmişdi. İlk vaxtlar verilən vədə inansa da bir azdan yasavul olmaq arzusuyla vidalaşmalı olacağının dərk eləmişdi. Elə o vaxtlarda da oğlanın Məşhəddən, qayğısız günlərdən ötrü darıxdığını sezmişdim, amma o da vardı ki, oxuyub-yazmağa həvəsi müvazinətini saxlamağa kömək eləyirdi, vəbalı səfərimizdən, atasının qəfil ölümündən sonrasa yasavul olmaq istəyini dilə gətirmirdi, deyəsən, taleyilə barışmış olub-keçənləri kağıza köçürmək istəyi üstün gəlmişdi, buna da mən bəlkə elə Xanımız qədər sevinirdim, hər halda, fikrimcə, yazmaq da döyüşmək qədər gərəkliydi, döyüşən adamların igidliyini qazandıqları qələbələri, düçar olduqları məğlubiyyətləri kimsə tarixin səhifələrinə köçürməliydi…

403. Məhəmməd Kazımın etirafı bununla da bitmədi. Divanın yığıncağından sonra baş verənləri o axşam ötəri danış-

mışdısa, indi yerli-yataqlı nəql elədi. Dediyinə görə, bu səfərə çıxmaq niyyətində deyilmiş, atasının nəşini Məşhədə aparıb dəfn eləmək, anasına və bacısına həyan olmaq fikrindəymiş. İbrahim xan oğlanın bu fikrini təqdir eləsə də, məsələni quzey səfərindən sonraya saxlamağı məsləhət görübmüş, Məhəmməd Kazımasa Təbrizdə qalıb Məhəmməd Əlinin yanında olmağı, Marağadakı müqəddəm kürdlərinin Xəlilbənd tayfasını Xorasan vilayətinə köçürülməsinə başçılıq eləməyi tapşırmaq istəyirmiş. Amma, görünür, son məqamda Mömin xanın yadigarını gözündən qırağa buraxmamağı qərara alıb, ona səfərə hazırlaşmağı tapşırıb. Əlbəttə, Xanımızın bu vəfasını təqdir eləyirdim, inşallah, səfərdən qələbəylə dönəndə Məhəmməd Kazımın istəklərini gerçəkləşdirəcəyinə, Pərixan xatuna duyğusundan xəbər tutarsa, izdivaca razılıq verəcəyinə inanırdım. Vaxtında qabaq yetkinləşməyə başlasa da, onun hələ gediləsi uzun yolu vardı, on səkkiz yaş mənə görə şüurlu ömrün çıxış nöqtəsi, həyat kitabının müqəddiməsiydi. Məhəmməd Kazım hələ çox səfərlərə çıxacaq, ağlagəlməz gerçəkliklərlə qarşılaşacaq, dünyanın yaxşı və pis üzünü görəcək, haqsızlıq və ədalətin şahidi olacaq, bir sözlə, taleyin verdiyindən çox görüb-götürəcəkdi. Ola bilsin, mənim yaşıma çatanda üst-üstə qalanmış ömür yükündən əziyyət çəkəcək, həyatın ötəriliyi və qəddarlığı barədə düşüncələrə də qapılacaqdı. Mənə görə, yaşam deyilən şey də elə budu: *əgər ömrünün sonunda xatırlanası günlərin, məqamların varsa, deməli, ömrünü yelə verməmisən, yaşamağına dəyərmiş…*

404. Bu minvalla gedirdik, iyirmi minlik qoşun, azı üç yüz nəfərlik qafiləmiz, dəvələr, qatırlar, atlar, öküz arabaları arxasınca toz qaldıra-qaldıra quzeyə doğru sürünürdü. Günortalar bir hovurluğa dayanır, istidən qaya altında, kol-kos dibində daldalanıb namazımızı qılır, qarnımızı doydurur, az-çox dincəlir, kərənayların səsilə təzədən yola düzəlirdik. İki tərəfimiz artıq otu bozarmış təpələr idi, vadilərdə, xırdaca çayların, çeşmələrin, suyu qurumuş çökəkliklərin ətrafında hələ göy otluq gözə dəyirdi, biz namaz qılıb yemək yediyimiz müddətdə elə dayandıqları yerdəcə yay otlarını dadar-doymaz qırpan atlar, qatırlar, dəvələr, öküzlər aradabir o göylüyə sarı dartınırdılar, bu vaxt da atlıların, dəvəçilərin, qatırçıların, arabaçıların acıqlı səsləri, şallaq-

ların şappıltısı eşidilirdi. Həmin məqamlarda yadıma Anadolu çölləri, Mirzə Kəmaləddin, qatırçı Səfər düşürdü. Gecələr cəmi üç çadır qurulurdu, bilirdik ki, biri Xanımızın o biri Məhəmməd xan Əfşarın, üçüncüsüsə hərəmlərindi. Qalanlarsa eləcə açıq səma altında, göy üzündəki ulduzları saya-saya yatırdılar. Hər gecə də cırcıramaların səsinə qulaq asa-asa Karvanqıranı axtarırdım, fikrən ondan rəhm eləməsini, ömür karvanımın mənzilə çatmasına mane olmamasını istəyirdim. Məhəmməd Kazımsa gözlərini səmaya dikib, güman ki, bəxt ulduzunu axtarırdı, istəklisilə o ulduzun timsalında görüşür, danışırdı. Firəngistanda gecələr səmaya baxıb duyduğum soyuqluqdan, yadlıqdan, sıxıntıdan qurd kimi ulamaq istədiyim günləri də xatırlayırdım, onda elə Məhəmməd Kazım yaşındaydım, amma yanımda doğma bir kimsəm yox idi ki, hənirindən qəlbim toxtaqlıq tapsın.

405. Ərdəbilə səfərimizin üçüncü günü, günəş qüruba əyiləndə çatdıq. Carçılar atlarını irəli-geri çapıb bu gecəni və sabahı dincələcəyimizi, birisigün erkəndən yola çıxacağımızı xəbər verir, mənim gözlərimsə pişvaza yığışanlar arasında Mirzə Kəmaləddini axtarırdı. Axır ki, onu gördüm, həmin məqamda da ürəyim atlandı, atımdan nə vaxt enib üstünə yüyürdüyümü xatırlamıram, bir də onda ayıldım ki, isti göz yaşlarımız bir-birinə qarışıb. Xoş-beşdən sonra Mirzə Kəmaləddin Tiflisə yetişməməyimi özünə dərd eləmədi, ancaq vəba ilindən sağ çıxmağıma sevinib dedi, qismətində var ki, Allah o sınaqdan sonra bir də yola çıxmağını məsləhət bilib. Mirzə Hüseyn Xanımıza yaxın əmrinə müntəzir olmaq məqsədilə saray mirzəsinin hücrəsində qalacağını söylədi, mən də eşikağasına Mirzə Kəmaləddinin qonağı olacağımızı söylədim, yüklərimizi etibarlı adama tapşırandan sonra Məhəmməd Kazımla birgə onun evinə yollandıq. Bu dəfə şəhəri xeyli abad gördüm, Mirzə Kəmaləddinin dediyinə görə, Allahın təqdirilə vəba Ərdəbildən yan keçmişdi, vaxtında ticarət yollarını, karvansaraları, bazarları nəzarət altına alıb tədbir görmüşdülər, nəticədə bu boyda şəhərdən cəmi-cümlətanı on yeddi meyit çıxmışdı ki, onun da səkkizi quzeydən gələn tacir-tüccar idi. Könül sirdaşım bu dəfə bir az toxtamış kimi görünürdü, deyəsən, daha dünya işlərini özünə çox yaxın buraxmırdı. Səfərimizdən söhbət düşəndə dedi, insan övladı taleyin müqabilində çox aciz

məxluqdu, talelərə hökm eləyənlərin özləri belə, taleyin əlində oyuncaqdılar. Duydum ki, Məhəmməd Kazımın saraya yaxınlığını nəzərə alıb çox dərinə getmir, üstüörtülü danışır, ona görə də sözü hara vurduğunu başa düşüb olub-keçənlərlə hələ də barışa bilmədiyini dərk elədim. Onu yarım kəlməsindən anlayırdım, hətta üzünün ifadəsindən nə barədə düşündüyünü çox az fərqlə söyləyə bilərdim…

406. Mirzə Kəmaləddinin evində qismətimə düşməyin ailə rahatlığını gen-bol duyub kövrəldim. İstanbulda çarəsizlik girdabında olduğumuz, Anadolu çöllərini əriş-arğac elədiyimiz, Ərzurumun gədiklərində çovğuna düşdüyümüz, Rəvanda taleyimizə boyun əydiyimiz vaxtlarda onun öz ocağı üçün nə qədər darıxdığını sezmişdim, bununla belə, məni Arazdan keçəndə də tək buraxmamışdı, nə qədər üz vurmuşdumsa, inadından dönməmişdi, demişdi, səni Tiflisə qovuşdurmamış ocağıma dönmərəm. Amma taleyimizə başqa cür yazılıbmış, mən Tiflisə yetişmədim, o da Təbrizdə yaşaya bilmədi. Gətirdiyim Təbriz sovqatını görəndə necə doluxsunduğunu gördüm, dedi, oranın suyundan, havasından, nemətlərindən ötrü burnumun ucu göynəyir. Gecədən xeyli keçənəcən olub-keçənlərdən söhbət elədik, yorğun olmasaydıq, yəqin səhəri dirigözlü açacaqdıq. Səhər də biz yuxudan oyananacan mədrəsəyə dəyib qayıtmışdı, günorta namazınacan vaxtımızı söz-söhbətlə, xatirələrin tozunu silməklə məşğul olduq, sonra şəhərə başmaq seyrinə çıxdıq. Mirzə Kəmaləddin deyirdi, Ərdəbil ticarət məkanıdı, amma mən şəhərə baxıb tamam başqa Ərdəbil görürdüm: məscidləri, türbələri, mədrəsələri, sarayları, kəhrizlərilə yanaşı bu şəhərin ruhunda Şah İsmayıl Xətainin əməlləri yaşayırdı. İstədim Mirzə Kəmaləddindən Təbrizi, Məhəmməd Kazımdan Məşhədi nəyə görə sevdiyini soruşam, amma soruşmadım, çünki əvəzində məndən Tiflisə sevgimin səbəbini soruşardılar, izaha çətinlik çəkərdim. *Canın-qanınla bağlı olduğun torpağa bəslədiyin duyğuları izah eləmək mənasız işdi.* Təxminən eyni fikri axşam yeməyindən sonra eyvanda söhbət eləyəndə Mirzə Kəmaləddindən eşitdim, həmin məqamda da bəbəklərində qaynayan yaşı sezib hönkürməkdən özümü güclə saxladım, eləcə köksümü ötürməklə kifayətləndim…

# III

# «ŞƏHƏRLƏR ANASI»NDAN KEÇƏN YOL

*Səhrada keçərdi salü mahi,*
*Dəşt idi həmişə agahi.*

*Xəlifə TƏBRİZİ*
*(XVI yüzil)*

407. Son il yarımda Mirzə Kəmaləddinlə üçüncü kərə vidalaşdıq. Bir daha Təbrizə qayıtmağı, üstəlik, Ərdəbildə olmağı ağlımdan belə keçirmirdim, görünür, könül sirdaşım da birdəfəlik ayrılığımızdan təsirlənib göz yaşları axıtdı, nə qədər üz vurdumsa, razılaşmayıb ordugahacan yanımızca gəldi, Xanımız qoşunun başına keçəndən, kərənaylar çalınıb, nağaralar vurulandan, qafiləmiz hərəkətə gələndən sonra məhzun-məhzun dayanıb arxamızca baxdı. Mirzə Kəmaləddini birgə xatirələrimizlə toz-dumanın içində qoyub tərpəndik. Yenə yollar başladı, Ərdəbildən Astaraya, Astaradan Lənkərana, Lənkərandan Bərzəndə, Bərzənddən Varsana, Varsandan Beyləqana, Beyləqandan Bərdə altındakı ordugahımıza uzanan, təfərrüatlarına varmaq istəmədiyim səfərimiz düz on gün çəkdi. Təkcə bunları deyim ki, yolda Lənkəran hakiminin min, Astara hakimininsə beş yüz atlısı Xanımızın əmrinə hazır oldu. Yenə ordugahlarda yalnız üç çadır qurulurdu, qafiləmizdəkilər yol yorğunluğunu canlarından çıxarmaq üçün yataqlarını səma çadırının altında açır, Ayla, ulduzlarla söhbətləşir, bürclərə, ulduzların axışına baxa-baxa talelərinin necə olacağını, get-gedə yaxınlaşan döyüşlərdən sağ çıxıb-çıxmayacaqlarını öyrənməyə can atırdılar. Məhəmməd Kazım bir dəfə dedi, seçdiyim bəxt ulduzu əvvəlcə öləzidi, az qala, söndü, qəfildən də elə işıq saçmağa başladı ki, lap gözlərim qamaşdı. Mənim seçdiyim bəxt ulduzusa, əgər gözlərim aldatmırsa, iki kərə yer dəyişdirdi, sonra qəfildən söndü, yerində açıq-aydın sezilən boşluq qaldı. Bunu Məhəmməd Kazıma demədim, ömrümün son məqsədinə doğru

getdiyim məqamda münəccimlik-filan eləmək, könlümü bulandırmaq istəmirdim, indiki halımda mənhus alın yazısının ziddinə də olsa, yurduma-ocağıma yetişmək, ən azı, əlli illik sərgərdan həyatdan sonra təskinlik tapmaq, narahat ruhumu ovutmaq istəyirdim. Bundan sonra rastıma çıxan bütün tale əlamətlərini xeyirliyə yozmalıydım ki, ümidlərimi qoruyub saxlaya bilim.

408. Məhəmməd Kazımın yaxşı yaddaşı varmış. Səkkiz-on il qabaq baş verən hadisələri elə yerli-yataqlı nağıl eləyirdi ki, heyran qalırdım. İbrahim xan Məşhəd hakimi olandan, Mömin xan ailəsilə onun yanına köçəndən sonra olub-keçənləri də ilk dəfə ondan eşitdim. Dediyinə görə, qəndəharlı Hüseyn Sultanla Nadir xan arasında çəkişmə elə o vaxt başlayıbmış. Hüseyn Sultan hər vəchlə abdaliləri onun əleyhinə qaldırmağa çalışırdı. Herat hakimi Allahyar xan bundan boyun qaçırmışdı, amma Zülfüqar xan abdali onun tərəfinə keçib Məşhəd üzərinə gəlmişdi. Məhəmməd Kazım Xoca Rəbi yaxınlığında qoşunların üz-üzə dayandığını, İbrahim xanın qardaşından hücum eləməmək əmri aldığını, amma yaxınlarının təhrikilə irəli soxulduğunu, nəticədə ağır məğlubiyyətə düçar olduğunu elə yerli-yataqlı danışırdı ki, bütün bunları nə vaxtsa qələmə alacağına inanırdım. Onda İbrahim xan utandığından üç gün çadırından çıxmamışdı, Nadir xanın Məşhədə yaxınlaşdığından xəbər tutan Zülfüqar xan Herata dönmüş, buna görə də qardaşı Tehrana qayıtmış, hər şey İbrahim xandan ötrü yaxşı qurtarmışdı: əgər Nadir xan qardaşının ordugahına gəlsəydi, yəqin ki, qəzəbini saxlaya bilməyəcək, nəticədə qanıqaralıq yaranacaqdı. Onsuz da Şahımızın hələ cavanlığından məğlubiyyəti sinirə bilmədiyini, məğlubiyyətin səbəblərini ciddicəhdlə araşdırdığını, günahkarı, qardaşı olsa belə, bağışlamadığını bilirdim. Əgər itaət məsələsinə belə diqqət yetirməsəydi, bu qədər qələbələr qazana, məmləkəti dağılmaqdan qurtara, taxttaca sahib ola bilərdimi? Elə bunun sayəsində də Allah qoysa, Hindistanı da fəth eləyəcək, Osmanlıların da öhdəsindən gələcək. Məhəmməd Kazım o çağlarda Rzaqulu xanın Şah Sultan Hüseynin qızı Fatimə Sultan bəyimlə evləndiyindən də danışdı, Kelat və Əbavərd yaxınlığında olan şahzadələrə layiq toyda ailəlikcə iştirak elədiklərini, bəyin qardaşı Nəsrullah Mirzənin İbrahim xanın oğulları Əliqulu və Məhəmməd Əliylə necə at çapdıqlarını,

tüfəng atdıqlarını təsvir elədi. Dediyinə görə, yeddi gün, yeddi gecə sürən toyda Nadir xan sevincindənmi, içdiyi şərabın çoxluğundanmı, az qala, ağlını itirmişdi, səkkiz adam onu sakitləşdirə bilmirdi, yalnız Gövhərşad bəyimin ricalarından sonra çadırına çəkilib yuxulamışdı.

409. Məhəmməd Kazım Nadir xanın Heratı mühasirəyə almasını elə təfsilatıyla nağıl elədi ki, elə bil o vaxtlar mən – İstanbulda ümidsiz günlər yaşayan Mirzə Yusif Tiflisi həmin hadisələrin iştirakçısıydım. Dediyinə görə, həmin məqamda Nadir xan iki dəfə ölümdən qurtarmışdı. Bir dəfə Məhəmməd Saydal xan gözlənilmədən onun qoşununa hücum eləmiş, Nadir xan cəmi-cümlətanı səkkiz döyüşçüylə canını qurtarıb qalada gizlənə bilmişdi. İkinci dəfə abdali topçuları onun şahanə çadırını nişan alıb atəş açmışdılar, top gülləsi çadırın damını deşib Xanın yatağının yanına düşmüşdü, xoşbəxtlikdən ona xətər yetirməmişdi. Görünür, Allah-taala Nadir xanı qoruyurdu, kölgəsində saxlamağı, qələbələrə çatdırmağı, taxta çıxarmağı, yüz minlərlə insanın arasında mənim də taleyimi dəyişdirməyi nəzərdə tutmuşdu. Fikirləşirdim ki, əslində, bütün təsadüflərin kökündə ağla sığışmayan məntiq və zərurət durur, yoxsa insanlığın, məmləkətlərin tarixi bu qədər maraqlı, rəngarəng olmazdı. Əgər, qulaqlara qurğuşun, o iki, yaxud onlara oxşar saysız-hesabsız təsadüflərin birində Nadir xanın başına bir qəza gəlsəydi, mən Muğan çölündə olmayacaq, Təbrizə dönməyəcək, bu qədər hadisələrə şahidlik eləməyəcək, ən azı, Məhəmməd Kazımla rastlaşmayacaqdım. Ömür deyilən şey elə budu – *yaşayırsan, bir an sonra başına nələr gələcəyini bilmirsən, gözlənilməz hadisələrdən heyrətlənirsən, beləcə özün də hiss eləmədən həyatın mənasına varırsan.* Bütün başıma gələnlər olmasaydı, yaşadığım ömrün dəyərindən danışa bilərdimmi? Əgər o faciə baş verməsəydi, ola bilsin, ya Şeytanbazardakı dükanlardan birində kasıbçılığımı eləyəcək, ya da Şah Abbas məscidində axund olacaqdım; bəlkə də Züleyxayla evlənib bir dəstə övlad sahibi olacaqdıq – bu artıq tamam başqa, əksərin bəxtinə düşən adi bir ömür olacaqdı. Belə çıxırdı ki, mən Allahın sevimli bəndəsiydim ki, bu qədər əzablardan keçirsə də, ağlagəlməz hadisələrin şahidi olmağı, tarixi dəyişdirən şəxslərlə üz-üzə gəlməyi məsləhət bilmişdi.

410. Bərdə altındakı ordugahımıza bir həftə qaldıq. Qoşun dincini aldı, Xanımız Rəvandan, Gəncədən, Qarabağdan, Şirvandan gələn xanları, bəyləri, məlikləri, minbaşıları qəbul elədi, məlum oldu ki, indi ixtiyarında otuz iki min atlı var. Qəndəhardan, Şahımızın yanından təzəcə dönmüş Teymuraz da beş yüz atlıyla Kaxetdən gəlib çıxmışdı, iki min nəfərlik gürcü qoşunusa Xanımızı Qaxda gözləməliydi. O bir həftə ərzində atların nalları dəyişdirildi, arabalar təmir olundu, top-tüfəng, yaraq-əsləhə silinib təmizləndi. Həmin günlərin birində də Məhəmməd Kazımla Bərdəni görmək fikrinə düşdük, nə vaxtsa «şəhərlər anası» adlandırılan, Arranın paytaxtı olan, təkcə ticarətilə yox, həm də alimlərilə ad çıxaran məkanı üç nasaqçının və yerli dəftərdarın müşayiətilə gəzdik. Düzdü, şəhər əvvəlki şöhrətindən çox az şeyləri qoruyub saxlamışdı, amma Əcəminin ardıcıllarından Memar Əhməd ibn Əyyub Fəyyaz Nəqşivaninin ucaltdığı türbələrə, xüsusilə Axsadan baba türbəsinə, Güloğlular məqbərəsinə, üzərində yüzillərin möhürünü daşıyan məscidlərə, körpülərə, hamamlara heyranlıqla baxdıq. Yadıma Şeyx Nizaminin «İsgəndərnamə»sindəki tərif düşdü. Şübhəsiz, quzey hüdudlarında əmin-amanlıq yaradandan sonra Xanımız şəhərlərin abadlıq işlərinə də diqqət yetirəcəkdi. Hələ ki, Şahımızın başı məmləkətin günçıxanında döyüşlərə qarışmışdı, yəqin ki, Hindistanı fəthindən qayıdandan sonra çox sevdiyi Xorasanın əsas şəhəri Məşhədi dövlətinin mərkəzinə çevirəcəkdi, bununla belə, fikrimizcə, nəzərini Azərbaycan vilayətinin şəhərlərindən – Təbrizdən, Ərdəbildən, Nəqşivandan, Rəvandan, Gəncədən, Tiflisdən, eləcə də Bərdədən əskik eləməyəcəkdi. Yəqin Xanımız da bu barədə düşünürdü, dağlıları yerində oturdub, aclığın və vəbanın fəsadlarını aradan qaldırandan sonra abadlıq işlərilə də maraqlanacaqdı. Birgünlük təəssüratla bu şəhər mənim könül dəftərimə yazıldı, əmin oldum ki, hüzura qovuşub yaddaşımdakıları qələm alanda müsafiri olduğum, hələ görməyə-görməyə sevdiyim Bərdəni unutmayacağam…

411. Xanımızın tərifəlayiq səxavətindən elə o günün axşamı xəbər tutdum. Mirzə Hüseynin dediyinə görə, Bərdənin ağsaqqalları və üləmaları ordugaha bir heyət göndərib şəhərin birillik vergisinin bağışlanmasını, daha doğrusu, o məbləğin məscid

inşasına sərf olunmasını təvəqqe eləmişdilər. Xanımız da çox düşünüb-daşınmadan razılıq verib camaatı hədsiz sevindirmişdi. Görünür, düşmənlə üz-üzə gəlməmiş bərdəlilərin alxışını qazanmaqla girəcəyi döyüşlərin uğurla başa çatacağına inanmaq istəyirdi, amma hər necə olsa da savab iş görmüşdü. O axşamı da oturub Xanımızın buyruğuyla dağlı hakimlərə, usmilərə, şamxallara namə yazdıq. Namələrdə Xanımız birləşməyi, itaət göstərməyi məsləhət görürdü, əgər bu addımı atarlarsa, Şahımızın himayəsi altında olacaqlarını bildirirdi. Mirzə Hüseynin fikrincə, bu cür namələr dağlılara təsir eləməyəcəkdi, çünki Şahımızın uzaqlarda – Hindistanda olduğundan, Şahzadənin Türküstanda əmin-amanlıq yaratdığından xəbərdardılar, Xanımızdan da çəkinmirdilər, çünki Azərbaycanın valisi olduğu müddətdə, az qala iki ildə onlara sərt üzünü göstərməmişdi, bu səbəbdən axıracan dikbaşlıq eləyəcək, burunları ovulmamış dincəlməyəcəkdilər. Məhəmməd Kazım sursatçılardan Şahımızla Dağıstan səfərində olan bir nəfəri tapmışdı, onu sorğu-suala tutur, gördüyünü, bildiyini danışdırırdı. Axırda bu qənaətə gəldi ki, Xanımız soyuqlar düşənəcən dağlılarla haqq-hesabı çürütməsə, çətin olacaq, çünki böyük bir qismi aran şəraitində döyüşməyə alışmış qoşun, dağlıq yerdə basqınlara çətin tab gətirəcək. Əlbəttə, onun dediklərində həqiqət vardı, yəqin Xanımız da bütün bunları artıq nəzərə almış, müəyyən tədbirlər görmüşdü. Ümidvardım ki, dağlara qar yağmamış Xanımız istəyinə çatıb dikbaş tayfalarla haqq-hesab çürüdəcək, sonra Tiflisə yollanacaqdı, beləcə, mənim də yolum mənzilə çatacaq, həsrətim ovunacaqdı…

412. Səhəri gün tezdən qoşun düşərgədən qalxdı, qafiləmiz yola düzəldi. Gün qızanacan Tərtər çayından keçdik, Bərdəni ötüb Ağdaş-Ərəş-Şəki səmtinə yol aldıq. Yeganə qorxum Kürdən keçməklə bağlıydı, canımdan daha çox ömrümün bütün qazancı – kitablarım və əlyazmalarım olan sandığın zərər görəcəyindən qorxurdum. Məni bu əndişədən Məhəmməd Kazım qurtardı – onu tanıdığım müddətdə bu qədər çevik, cəsur və tədbirli olduğunu sezməmişdim. O, barıt islanmasın deyə, Xanımızın əmrilə düzəldilən salların birində Mirzə Hüseynlə mənə, həm də sandıqlarımıza yer elədi, özüsə atlarımızı yedəyinə alıb öz atını suya vurdu. Məhəmməd Kazımın atının salımızın yanında dalğalarla

necə əlləşdiyinə qorxu içində baxır, sağ-salamat o biri sahilə çıxmağımız üçün Allahımıza dua eləyirdim. Xoşbəxtlikdən dualarım müstəcəb oldu, hər şey istədiyimiz kimi oldu. Bir azdan çayın o tərəfində tonqal qalayıb paltarını qurudan Məhəmməd Kazıma ilk dəfə döyüşçü nəzərilə baxdım, otuz iki min nəfərlik qoşun, üç yüz nəfərlik qafiləmiz çayın sol sahilindəki düzənliyə səpələnmişdi, insan qışqırtısı, dəvə nəriltisi, at kişnərtisi, qatır anqırtısı, öküz böyürtüsü, yaraq-əsləhə cingiltisi arasında bu on səkkiz yaşlı oğlanın beynindən nələr keçdiyini oxumaq istədim. Dedi, ötən il Sınıq körpünü keçib Anaxatır çayının qırağında ordugah saldığımız axşam tonqal qırağındakı söhbətimiz yadıma düşdü, düzdü, onda soyuqlar başlamışdı, indisə hələ yaydı, amma qəfildən mənə elə gəldi ki, hər şey təkrar olunur. Əlbəttə, üzü Tiflisə oturub dərddən, az qala, ağlaya-ağlaya söylədiklərim yadımdaydı, onda vəba bütün ümid yollarını kəsmişdi, yalquzaq kimi diş ağardırdı, indisə hələ naümid olmağıma ciddi səbəb yox idi: bir neçə gündən sonra Şəkiyə çatacaqdıq, ordan da Tiflisə cəmi-cümlətanı üç-dörd günlük yol olar – qismətimdə varsa, ömür möhlətim qalıbsa, Allahım məni bu arzuma qovuşduracaq. Altmış beş yaşına girmişdim, hələ at belində otura bilir, piyada yol getməyə, tonqal qırağında yatmağa tab gətirirdimsə, deməli, dözümüm hələ tamam tükənməmişdi, Allahım mənə bir az da möhlət verirdi.

413. Xanımız aran istisində qoşunu yormamaq üçün asta-asta irəliləməyi buyurmuşdu, günün qızmar vaxtında dayanır, başımızı gizləmək üçün kol-kos axtarır, sərin düşənəcən dəvələrin, atların, qatırların, öküzlərin, arabaların kölgəsində mürgüləyirdik. Ərəşi keçib Şəki meşələrinə çatanda məşəqqətli istidən qurtulub rahatlandıq. Beləcə Bərdədən Şəkiyə gəlib çatmağımız düz dörd gün çəkdi. Xanımızın ordugah salmaq əmri verməyindən belə başa düşdüm ki, Şəkidə bir neçə gün qalıb sonra yola çıxacağıq. Mirzə Hüseynin dediyinə görə, Xanımız göndərdiyi namələrin cavabını gözləyirdi ki, bundan sonra necə hərəkət eləyəcəyini müəyyənləşdirsin. Cavablarsa bir-bir gəlirdi: Qax və Qanıq vilayətinin «kiçik usmisi», itaət göstərmişdi; Qaraqaytağın «böyük usmisi» Əhməd xan, Molla Şaban, Şamxal Surxay, onun oğlu Mürtəza Əlisə Şahımızın himayəsindən boyun qaçırmışdı-

lar, üstəlik, Mürtəza Əli açıq-açığına meydan oxuyub Xanımızı hədələmişdi. O cavanın nəyə arxayın olduğunu bilmirdim, görünür, indi tərəddüd göstərənlərin cəsarətlənib ona qoşulacaqlarını, Xanımızın otuz iki minlik qoşununun qabağına sayca üstün qüvvə çıxaracaqlarına bel bağlayırdı. Beynimdə çək-çevir eləyib bu fikrə gəldim ki, əslində, Məhəmməd Kazım haqlıdı, Xanımız soyuq düşüb, qar yağanacan dağlıların əl-ayağını yığışdırmasa, ortaya ağlagəlməz çətinliklər çıxacaq, dağlılar ovuclarının içi kimi tanıdıqları qar basmış, üstəlik, dağlıq, qayalıq, meşəlik yerlərdə daha artıq təhlükəli olacaqlar. Əlbəttə, mən döyüş aparılmasının incəliklərini bilmirdim, görünür, Xanımız qoşun başçılarıyla məsləhətləşib qələbənin yolunu tapacaqdı. Onu da fikirləşdim ki, səfərin nəticəsi məlum olmamış dərdimi Xanımıza açsam, hörmətsizlik olar, hərəkətimi fərariliyə yozar, hələlik dözməyim, sonun uğurlu olacağına inamımı saxlamağım gərəkdi…

# IV

# DAĞLARLA ÜZ-ÜZƏ

*Ordumun xəbərin bilirmisən, degil mana,*
*Qara başım sağlığında eyiliklər edəm, köpək, sana.*

*«Kitabi-Dədə Qorqud» dastanından.*

414. Şəkidə üç gün qaldıq. Görünür, Xanımız hələ harda ordugah quracağını qətiləşdirməmişdi, çünki qoşunun ovqatında səfər havası vardı, Mirzə Hüseyn də tezliklə yenə yola çıxacağımızı fikirləşirdi. Bu tərəflərdə Kiş məbədi olduğunu eşitmişdim, mümkün olsaydı, gedib görərdim, amma ayağa qalxmış Car-Balakən çox da uzaq deyildi, Mirzə Hüseynin qənaətincə, qoşundan ayrı düşmək təhlükəliydi, ona görə də Şəkini gəzməklə kifayətləndik. Qumsal səhranın ortasında, boz təpələr arasında yerləşən Mərvdə doğulmuş, oxşar təbiətli Məşhəddə böyümüş Məhəmməd Kazım dağların ətəyində, meşələrin əhatəsində salınmış şəhərdən çox təsirlənmişdi, üstəlik, təzəcə girmiş payızın adamı valeh eləyən rəngləri qarşı dağların örtüyünə bir ayrı gözəllik vermişdi. Şəhərin yoxuşa qalxan, enişə enən küçələrini, bazarını, karvansarasını gəzdik, məscidinə baxdıq, tikililərinin yerli şəraitlə necə uyuşduğuna diqqət yetirdik. Yerlilərin danışığındakı şivə Məhəmməd Kazımı çox əyləndirirdi, dediyinə görə, bu albanlardan qalmış miras ola bilərdi, mən də mübahisəyə girişmədim, çünki təxminən eyni cür danışığa Tiflis altında yaşayan camaatda da rast gəlmişdim: uşaq vaxtı Şeytanbazarda bir-birinə qarışan səslər arasından ağartı satan o camaatın səsini dərhal seçirdim, elə indi də qulaqlarımdaydı. Mən erməni xəlifənin əlinin hələ bura çatmadığına sevinirdim, çatsa, bu tərəflərdəki alban məbədləri möcüzə nəticəsində erməni kilsəsinə çevriləcək, göz yaşları altında tarixi siması dəyişdiriləcəkdi. Məhəmməd Kazım deyirdi, günahı albanca yazılmış kitabları toplamamağımızda, o kitabları oxuyan adamları üzə çıxarıb himayə altına almamağı-

mızdadı. Tamamilə haqlıydı, amma son Səfəvi şahları bu barədə düşünə bilməzdilər, çünki, hərəmxana tərbiyəsi görmüşdülər, yeni xanədan da hələ döyüşlərdən, Səfəvilərdən qalan mirasın izini silməkdən vaxt tapmırdı, bunda sonra o həqiqətə üz çevirəcəyini də hələlik demək olmazdı.

415. Dördüncü gün yola çıxmaq əmri verildi, Mirzə Hüseyn dedi, ordugah Qax altında qurulacaq, Xanımız da qəti buyruğunu da orda verəcək. Payız rənglərinin gündən-günə daha aşkar bilindiyi meşəliyin ortasından uzanan yolla getmək xoşuma gəlir, ruhuma sığal çəkirdi. Burdan cəmi üç-dörd günlük yolu başında mənim doğulduğum şəhər vardı, əlli ildən artıqdı ki, o şəhərə can atırdım, getdiyim yollar, az qala, dünyanın yarısını dolaşıb üçüncü kərə o məkana yaxınlaşmışdı, bundan o tərəfi qismət məsələsiydi. Bəlkə bu yerlərin təbiəti Tiflisin təbiətinə çox oxşadığındandı, özümü çox rahat hiss eləyirdim, Məhəmməd Kazımın halındasa, bunun əksinə, gözgörəti sıxıntı duyurdum. Səhradan ötrümü darıxmışdı, ana-bacısımı yadına düşmüşdü, Pərixan xatunun xiffətinimi çəkirdi, ötən səfərində sağ-salamat olan, qayğısına qalan atasınımı xatırlamışdı – bunu hələ deyə bilməzdim. Yolboyu susur, Mirzə Hüseyn, ya mən dilləndirəndə fikri dağınıq halda bir neçə kəlmə deyir, sonra yenə öz aləminə dalırdı. Mirzə Hüseyn günlərin hiss olunmadan ötməsindən, havanın get-gedə sərinləşməyindən danışırdı, deyirdi, bir neçə həftədən sonra dağlara qar yağacaq, onda aran havasında böyümüş adamların işi heç də asan olmayacaq. Bunu deyəndə, əlbəttə, təkcə Məhəmməd Kazımı nəzərdə tutmurdu, otuz iki min nəfərlik qoşunda, üç yüz nəfərlik qafiləmizdə belələri az deyildi. Fikrimcə, başlıca təhlükə bu deyildi, qoşunun dağlıq yerdə döyüşmək təcrübəsinin olub-olmamasıydı. Mirzə Hüseyn deyirdi, başlıca ümid Şirvan, Qarabağ, Rəvandan gələnlərə, bir də gürcülərədi. Bəlkə də bu qənaətində haqlıydı, amma hər qayasını, hər daşını, hər cığırını tanıdıqları, mənim təxmini hesabımla sayı iyirmi mindən az olmayan qoşunla uzaqbaşı beş-altı min döyüşçünün bacaracağı o qədər də ağlabatan deyildi. Yəqin Xanımız Qaxdakı düşərgəsində bunu nəzərə alacaq, bu çətin sınaqdan məğlubiyyətsiz çıxmaq üçün yollar arayacaqdı.

416. Qax altındakı düşərgə salacağımız yerə elə o günün axşamı çatdıq. Carçılar xəbər çatdırdılar, qoşun dayandı, qafiləmiz ayaq saxladı, hamı atlardan, dəvələrdən, qatırlardan arabalardan endi, çadırlar quruldu, tonqallar yandı. Axşamın toranlığı enəndə artıq ordugah öz gündəlik həyatıyla yaşayırdı. Sonra axşam namazı qılındı, yemək yeyildi, yorğunlar öz yataqlarına çəkildilər, yolçuluğa öyrəşənlərsə tonqalların qırağında oturub söhbətləşdilər. Gəncə qoşununun olduğu tərəfdə saz çalıb oxuyurdular, kimsə Tufarqanlı Abbasdan deyirdi: *Mən sənə yar dedim, sən də mənə can, /Alış eşq oduna mənim kimi yan. /Adım Aşıq Abbas, yerim Tufarqan, /Gahdan ağla, gahdan yada sal məni.* Qulağıma arabir güney ağzında, Şirvan gözəlləməsi üstündə oxunan nisgilli nəğmələr gəlib çatır, o nəğmələrə bəzən mehin gətirdiyi çonqar səsi də qarışırdı. Mirzə Hüseyn yeməkdən sonra yorulduğunu söyləyib çadırımıza çəkilmişdi, Əyriçaydan keçəndə ehtiyatsızlıq eləyib qurşağınacan islandığından üşütməsi hələ də kəsməmişdi. Məhəmməd Kazımla öləziməkdə olan tonqalın qırağında oturub uzun-uzadı susduq. Səfərimiz müddətində ilk dəfə sıxıntısını dilə gətirdi, dedi, hələ atasının nəşini Məşhədə apara bilməməsinin əzabını çəkir. Düzdü, Xanımız könül sirdaşının külfətinə göz-qulaq olmaq barədə oğlu Əliqulu xana namə göndərmişdi, amma Mömin xanın ruhunun yalnız Məşhəddə rahatlıq tapacağını da anlayırdı. Onu başa düşürdüm, sözlərimin təsirinə bel bağlamasam da bacardığım qədər ürək-dirək verdim. Sözün düzü, bu yaşında həyatın dəyərlərinə belə sədaqətlə bağlı olmağı mənə çox xoş gəldi; yəqin sonralar, yüksək bir məqama çatanda məni də xatırlayacaq, ən azı, ömrünün bu çağında yanında olduğumu xatırlayacaqdı – bu da məndən ötrü yetərliydi. Axırda ikimiz də hər şeyin qismətdən asılı olduğu qənaətinə gəldik, xeli dinməzcə oturandan sonra yatıb dincəlmək ümidilə tonqalın üstünü torpaqlayıb çadırımıza çəkildik…

417. Səhəri gün günorta namazından sonra üçümüzü də Xanımızın böyük çadırına çağırdılar. Getdik, bağır basıb təzim eləyib əyləşdik. Çadırdakılardan Məhəmməd xan Əfşarı, Təhmurəs Mirzəni, Gəncə xanı Uğurlu xan Ziyadoğlunu, Rəvanlı Sərdar xanı, Gürcüstan sərdarı Xəncan xanı, Bərdə hakimi, Uğurlu xanın qardaşı Həsən xanı, Şirvan hakimi Məhəmmədqulu xan Əfşarı,

Marağa hakimi Məhəmmədrza xanı, Ərdəbil hakimi İmamqulu xanı, Dünbüli camaatının hakimi Murtuzqulu xanı, Soyuqbulaq xanı Ənnağı xanı, Muğan çölündə, Təbrizdə gördüyüm bəzi şəxsləri tanıdım. Xanımızın Məhəmməd xan Əfşarla Təhmurəs Mirzənin arasındakı taxtı hələ boşuydu. Az sonra özü əzəmətli vücuduyla çadırın girişində göründü, hamı dərhal ayağa durub təzim elədi, Xanımız da dik tutduğu başını vüqarla tərpədib ağır addımlarla yuxarı başdakı taxtına doğru getdi. Xanımız taxt-taca qarşı çıxıb itaətsizlik göstərən Car və Tala camaatını Şahımızın əmrilə itaətə gətirmək üçün səfərə çıxdığını, bundan sonrakı hərəkətləri barədə məsləhətləşmək fikrində olduğunu bildirdi, hamının fikrini açıq-aydın söyləməsini istədi. İlk ayağa duran Məhəmməd xan Əfşar oldu, onun fikrincə, ən qısa müddətdə əmin-amanlıq bərqərar olmasa, qış gəlib yolları qap basanda dağlıların öhdəsindən gəlmək çətin olacaq. Ardınca Uğurlu xan Ziyadoğlu dedi, bu qədər araba-filanla dağ yollarında irəliləmək ağlabatan iş deyil, dağlarda döyüşmək üçün çevik, təcrübəli, yerli şəraitə uyğunlaşmağı bacaran dəstələr gərəkdi. Təhmurəs Mirzə onun fikrinə şərik çıxdı, amma əlavə elədi ki, bunun da bir qorxusu var: dağlılar sursatın və ərzağın mühafizəsiz qaldığından xəbər tutub basqın eləyə, qoşunu çətin vəziyyətdə qoya bilərlər. Məhəmmədqulu xan dedi, yaşlıların söylədiyinə görə, Şah Abbas Səfəvi Tiflisin üstünə gedəndə bu tərəflərdə iqamətgah tikdiribmiş, bəlkə o iqamətgahdan qoşunun xeyrinə yararlanmaq olar. Xaçın məliyi Suren günü sabah hücuma keçib dağlıları quzeyə doğru sıxışdırmağı təklif elədi, onun nəsə demək xətrinə söylədiyi bu düşüncəsiz sözlər Xanımız qarışıq hamını güldürdü…

418. Xanımızın yanındakı yığnaq şər qarışanacan çəkdi. Fikirlər haçalanır, bəzən bir-birinə zidd olur, bəzən də üst-üstə düşürdü. Mən də arabir gözaltı Məhəmməd Kazımın sıxıntılı simasına baxa-baxa bütün söylənənlərdən öz-özlüyümdə ortaq mövqe çıxarmağa çalışırdım. Əlbəttə, nə mənim, nə Mirzə Hüseynin, nə Məhəmməd Kazımın fikrini soruşacaqdılar, bizim borcumuz tarixi yaradan bu adamların əməllərinə şahidlik eləmək, olub-keçənləri kağıza köçürmək idi. Nəhayət, son sözü Xanımız söylədi, dedi, belə nəticə hasil olur ki, elə bu düşərgənin

yerindəcə istehkam tikmək, ərzağımızı, sursatımızı mühafizə altında saxlamaq gərəkdi: sonra qoşunumuz Cara, Şah Abbasın Ağ Bürcdəki iqamətgahına yollanacaq, daha bir istehkam Ağ Bürcdə tikiləcək, o istehkamdan da dağlılarla döyüşə başlayacağıq. Xanımızın qərarına etiraz eləyən tapılmadı, o da dərhal üzünü Mirzə Hüseynə tutdu, dedi, elə bu gecə bir buyrultu yaz, o buyrultunun üzünü köçürüb Ərəşdən, Şəkidən, Şirvandan belə bütün hakimlərə, bəylərə, kəndxudalara göndər ki, ləngimədən ustalar göndərsinlər; ardınca yığnaqdakılara dedi, kimin qoşununda bu işi bacaranlar varsa, günü sabah üzə çıxarıb Məhəmməd xanın sərəncamına göndərsinlər ki, yağışlar başlamamış istehkamları tikib qurtarsınlar. Axırda Uğurlu xan Ziyadoğlu Car və Talaya heyət göndərib bir daha dil tapmağı sınaqdan keçirmək barədə təklifini dilinə gətirdi, Xanımız bu təklifə çox sərt cavab verdi, dedi, Uğurlu xan, yersiz qalxan başı kəsməsən, çox fəsadlar törədər; Şahımız məndən quzey hüdudlarımızda əmin-amanlıq barədə xəbər gözləyir, vaxtımı danışıqlara sərf eləyə bilmərəm. Bu sözlərin Uğurlu xana neçə pis təsir elədiyini, istər-istəməz Muğan çölündəki hərəkətini xatırlatdığını beynimdən keçirdim. Xanımızın icazəsilə çadırdan çıxanda Mirzə Hüseynin nigaran baxışlarını da sezdim, görünür, irəlidə daha bir yuxusuz gecənin durduğu barədə düşünürdü…

419. O axşam namazdan sonra şam işığında, sandığımızın üstündəcə eyni məzmunlu namələri kağıza köçürdük: Allahın kölgəsi Şahımızın əmri, Xanımızın buyruğuyla məmləkətimizin nəfinə görüləcək işlər üçün ustalar göndərməyiniz əmr olunur. Səhəri namələri alan çaparlar atlanıb şəhərlərə doğru yola çıxdılar. Günorta namazından sonra da Məhəmməd Kazımla məni Məhəmməd xan Əfşar yanına çağırtdırdı, dedi, tikiləcək istehkamın kağızda şəklini çəkmək lazımdı ki, Xanımız baxıb buyruğunu versin. Məhəmməd Kazımın belə şeydə səriştəsi yox idi, amma mən İstanbulda Bonneval Paşanın yanında çalışanda istehkamların şəklinin necə çəkildiyini görmüşdüm. Məhəmməd xan istehkamda nələr olacağını, təxmini ölçülərini söylədi, mən də onun istədiklərini kağız üzərində gözəyarı cızdım, o günüm də buna sərf olundu. Gecə yatağıma uzananda Məhəmməd Kazıma dedim, heç ağlıma da gəlməzdi ki, bir vaxt taleyin oyu-

nuyla gəlib Tiflisdən üç-dörd günlük məsafədəki bir yerdə istehkam cizgiləri çəkəcəyəm, günlərin birində atıma süvar olub əlli il həsrətini çəkdiyim yurduma getməyimsə, müşkülə dönəcək. Məhəmməd Kazım dedi, bu tale işidi, ola bilsin, mənim də ayağım qırx il Mərvə və Məşhədə dəyməsin, ya da elə günü sabah geri dönmək fürsəti yaransın, bunu Allahdan başqa kimsə bilməz. Mirzə Hüseyn susdu, görünür, yenə külfəti barədə düşünür, bu səfərin nəticəsinin necə olacağını yox, Təbrizə nə vaxt dönəcəyini fikirləşirdi. Həmin məqamda beynimdən keçirdim ki, *əslində, ümumi məqsəd çox dumanlı şeydi, həyatda hər kəsin öz məqsədi var, hər kəs də öz yolunu gedir.* Sonra ağlıma gəldi ki, Məhəmməd Kazımın sıxıntısı get-gedə böyüyüb xoşagəlməz həddə çatır. Əlbəttə, belə bir sıxıntı yalnız atasının nəşini Məşhədə aparıb dəfn eləməməsi, anasından və bacısından nigaran qalmağı, yaxud Pərixan xatundan ayrı düşməyilə bağlı ola bilməzdi, bu səfərə çıxmaq barədə israr eləyəndə yəqin bütün bunları götür-qoy eləmişdi. Onun canına hopmuş nəhs duyğu güman ki, tamam başqa bir şeylə bağlıydı, o da özünə məlumdusa, gec-tez ortaya gözləmədiyim nəsə çıxacaqdı.

420. İstehkamın tikintisinə ertəsi gün başlandı. Yer elə seçilmişdi ki, qəfil basqına imkan qalmasın, oranı mühafizə eləyənlər basqınçıları vaxtında görə bilsinlər. Məhəmməd xan Əfşar dünən cızdığım kağıza baxa-baxa ustalara göstəriş verir, nəyin harada yerləşəcəyini, eninin, uzunluğunun, hündürlüyünün nə qədər olacağını başa salırdı. Məhəmməd Kazımı sıxıntıdan qurtarmaq, fikrini dağıtmaq üçün bura dartıb gətirmişdim, fikrimcə, Məhəmməd xan ona bacardığı bir iş tapşırsaydı, daha yaxşı olardı, darıxmağa vaxtı qalmazdı. Görünür, bundan ötrü mütləq Xanımızın izini lazımıydı, indiki vaxtında onu narahat eləməyin düzgün olub-olmayacağını da bilmirdim. Mirzə Hüseyn dəftərdar Mirəliylə Xanımızın çadırına getmişdi, Arazdan quzeydəki vilayətlərin vergi ödəmə vəziyyətini araşdırır, gərək olan yerlərə Şahımızın buyrultusunu göndərirdilər. Axşam danışdı ki, Şirvan hakimi Xanımıza yüz tümən dəyərində qiymətli bəxşiş, iki gözəl ayğır göndərmişdi, bəxşişləri gətirən ağasının tezliklə yenə bəxşişlər göndərəcəyini bildirəndə Xanımız yasavulunu çağırıb demişdi ki, bu adamla gedərsən Şirvana, qalan

bəxşişləri gətirərsən; dedi, bunu eşidəndə elçinin heyrətdənmi, qorxudanmı gözləri kəlləsinə çıxdı, amma ağzını açıb dillənə bilmədi. Şübhəsiz, həmin məqamda Məhəmməd Kazım yanımızda deyildi, bununla belə, olub-keçəni şərh eləmək fikrinə düşmədik. Bayıra çıxanda gördüm oğlan tonqalın qırağında oturub gözlərini korun-korun yanan ağaca dikib, xəyalı çox-çox uzaqlarda, bəlkə də Mərvdə, Məşhəddə, ya da Təbrizdədi. Söz-süz-sovsuz onunla üzbəüz oturdum, yerdən götürdüyüm çubuqla ocağı qurdalaya-qurdalaya mən də fikrə cumdum. Qəfildən ağlıma gəldi ki, günlərin birində bu cavan da öz yolunu tutub gedəcək, onu bir daha görməyəcəyəm…

V

# MƏHƏMMƏD KAZIMIN NƏHS YUXUSU

*Qəzayi-hökmi-ilahi irişdi leyki əcəl,*
*Götürdi nari-həsrət, zəvalə döndü kamal.*

*Əfsəhəddin HİDAYƏTULLAH*
*(XV yüzil)*

421. Qax istehkamının tikilməsi bir aya yaxın sürdü. Quzey səmtdə enli xəndək qazıldı, xəndəyin üstündə torpaq bənd çəkildi, sonra özülü çaydaşından, yuxarısı tirlərdən olan üç keşikçi qülləsi ucaldıldı. Keşikçi qüllələri arasında tirdən möhkəm hasar çəkildi. Hasarın arxasındasa ərzaq və sursat anbarları, mühafizəçilərin torpaq qazmaları, örtülü tövlələr, arabaları saxlamaq üçün xüsusi talvarlar yerləşirdi. O bir ayda, az qala, hər gün Məhəmməd Kazımla tikinti yerinə gedir, özümüzü çox sanballı və gərəkli işin iştirakçısı sayırdıq. Deyəsən, bütün bunların oğlana təsiri olmuşdu, indi yalnız axşam namazından sonra, yazmağa həvəsi olmayanda sıxıntılı halına qayıdır, tonqal başında oturub ocağı qurdalaya-qurdalaya susurdu. Məhəmməd xan Əfşar tikililərin taleyini şirvanlı usta Əbdüləzimə tapşırmışdı, özü hər gün axşamüstü gəlir, görülən işlərin həcmi, sanbalıyla maraqlanırdı. Həftədə iki dəfə də Xanımız başının adamlarıyla istehkamı gəzir, əlavə buyruqlarını verir, sonra üzü quzeyə dayanıb xeyli hərəkətsiz qalırdı. Mənə görə, bu qarşıdurmada qələbə Xanımızdan ötrü həm nüfuz, həm də heysiyyət məsələsiydi, az qala, iki il ərzində Şahımızla Şahzadə Qəndəharı, Mavərənnəhri, Türküstanın yarısını ələ keçirmişdilər, indi Hindistanın yolu açılmışdı, Vəliəhd, Azərbaycanın valisi, Azərbaycan qoşunlarının baş sərdarı İbrahim xan Əfşar Zahirüddövləsə hələ bircə vilayəti düşməndən təmizləyib xanədana layiq olduğunu sübuta yetirə bilməmişdi. Bu səfər onun taleyini həll eləyəcək, ya taxt-tacın əsl

varisi olduğunu hamıya göstərəcək, ya da hamının qınaq hədəfinə çevriləcəkdi: üçüncü yol taxt-tacdan könüllü əl çəkməsi, qılıncıyla özünü qətlə yetirməsiydi. Əlbəttə, ki, İbrahim xan kimi adam düşmənlə döyüşdə canından ola bilməzdi, Allahımız indiyədək baş verən döyüşlərdən onu salamat çıxarmışdısa, deməli, bundan sonra da xatadan-baladan qoruyacaqdı.

422. Bir ay ərzində payız özünü əməlli-başlı bildirməyə başlamışdı, gecələr, bəzən də gündüzlər yağış yağır, palçığa dönən qara torpaqda işləmək bir yana, yerimək belə çətinləşirdi. Yağışlı günlərdə çadırımıza çəkilib sandığımızdakı kitabları oxuyur, ya qeydlərimizi eləyir, ya da olub-keçənlərdən, bildiklərimizdən söhbət eləyib vaxt keçirirdik. Səfərimiz boyu Mərv atlılarıyla ünsiyyət bağlayıb, yaxınlaşan, aradabir onlarla həmsöhbət olan Məhəmməd Kazım belə havada özünə çəkilmişdi, əlinin tərpənişindən daha çox şeirlər yazdığının fərqinə varırdım. Yəqin xəyalında Təbriz sarayının bağçası, on dörd gecəlik Ay, Pərixan xatunun gözəl siması canlanırdı, ayrılıqdan doğan qüssəni, vüsal həsrətini misralara düzürdü. Mirzə Hüseyn axır vaxtlarda dəftərdar Mirəliylə ülfət bağlamışdı, Xanımızın hüzurunda işi olmayanda bir müddət Mirəlinin çadırında ləngiyir, vaxtını onunla söhbətdə keçirirdi. Qonşuların çadırlarının sıralandığı yerə getmirdik, Rəvan qoşununda Sərdar xandan başqa kimsəni tanımırdım, onunla da yaxın ünsiyyətimiz-filanımız olmamışdı. Ürəyimdən gürcü qoşununun içinə getmək, ruhuma yaxın bir kimsə axtarıb tapmaq, ya da eləcə dayanıb əlli ilin o tayında itib-batmış günlərimi xəyalımda canlandırmaq istəyirdim. Yaddaşımda qalan gürcü sözlərini bir-bir üzə çıxarır, çox şeyi unutmadığımın fərqinə varırdım, cəmi üç-beş günə, uzaqbaşı, bir həftəyə hafizəmi bərpa eləyə, gürcücə danışa bilərdim. Amma məni o adamlarla nəyin bağladığını, niyə onları özümə bir köynək yaxın hiss elədiyimi anlamaqda çətinlik çəkirdim. Görünür, bu yaxınlıq hissində eyni torpaqda doğulub-böyüməyin, eyni havanı udmağın, eyni çörəyi yeməyin, eyni suyu içməyin böyük rolu var – bütün bunlar özün də bilmədən qanına hopur, həmişə də üzə çıxır. İndi Xanımızın bu səfəri uğurla başa çatandan sonra Tiflisi görsəydim, ruhumdakı hava əziyyətsiz-filansız özünü göstərəcək, məni ilkinliyimə qaytaracaqdı. Mən bilən, Məhəmməd Kazım da

indi eyni ağrıları yaşayırdı – səhralar övladı olan ruhu meşələrin, dağların əhatəsində əziyyət çəkirdi, yəqin, axır vaxtlardakı sıxıntısının əsas səbəbi də elə bu idi. Vaxtilə mən ucsuz-bucaqsız Anadolu çöllərində, sonra Muğan çölündə özümü elə köməksiz, elə müdafiəsiz hiss eləyirdim ki…

423. İstehkamdakı işlərin başa çatmasına az qalmış xəbər çıxdı ki, Şahımızın göndərdiyi iki çapar ay yarımlıq yolçuluqdan sonra özlərini ordugaha çatdırıb gətirdikləri naməni Xanımıza veriblər, Mirzə Hüseynlə Məhəmməd Kazım dərhal Xanımızın hüzuruna çağırıldılar, mən də intizar içində onların qayıtmasını gözləməyə başladım. Gedənlər şər qarışanda qayıtdılar, hallarından sezdim ki, nəsə gözlənilməz hadisə baş verib. Mirzə Hüseyn dedi, Şahımız mübarək naməsində Hindistandakı vəziyyət barədə məlumat və qardaşına məsləhət verir, sərəncamındakı Mərv atlılarının yola salınmasını istəyir. Məhəmməd Kazımın halı özündə deyildi, sorğu-sualımın cavabında yalnız onu öyrəndim ki, Xanımız əziz dostunun oğlunun sıxıntılı halını duyub, ona Mərv qoşunuyla yola çıxmağı, Təbrizdə atasının nəşini götürüb Məşhədə aparmağı təklif eləyib, amma oğlan Xanımızın yanında qalmaq arzusunu bildirib, nə Məhəmməd Xanın israrı, nə də Mirzə Hüseynin nəsihəti onu fikrindən döndərib, axırda Xanımız çar-naçar razılaşmalı olub. Mən heç könlümcə olmasa da, Məhəmməd Kazımın getməsinin tərəfdarıydım, çünki nə qədər əzab çəkdiyini, sıxıntı keçirdiyini, gündən-günə özünə daha çox qapandığını sezirdim. Düzdü, onun gedişindən sonra bu işıqlı dünyada tamam tək qalacaqdım, amma mənə həyan olsun deyə, cavan sirdaşımın vəsvəsəli günlər yaşamasına razı ola bilməzdim. Mirzə Hüseynin dediyinə görə, cəmi-cümlətanı altmış atlı olan mərvlilər Xanımızın buyruğuyla yola hazırlaşırlar, sabah Ərəş-Bərdə-Ərdəbil yoluyla səfərə çıxacaqlar. Çaparlardan onu da öyrənmişdi ki, Şahımız kimlərinsə fitvasına uyub eşikağasıbaşı Fəzləli bəydən şübhələnib, onun boynunu vurulmasını əmr eləyib, sonra duyduğu peşmançılıq hissindən qurtarmaq üçün də o bədbəxtin qardaşı Pənahəli bəyi eşikağasıbaşı qoyub. Dərhal ağlıma Şahımızın ətrafında ustalıqla tor quran pəmbəkli Mayılla tiflisli məlik Akop düşdü, heç şübhə eləmirdim ki, Fəzləli bəy onların badına gedib; görünür hansı işdəklərindənsə xəbər tutubmuş, binəvanı

qabaqlayıb, Şahımızın qılığına girib aradan götürüblər. Gecədən xeyli keçənədək tonqal qırağında oturub susduq, o müddətdə Məhəmməd Kazımın özüylə əlbəyaxada olduğunu, içinin uçun-tusunu saxlamağa çalışdığını görürdüm. Yatağa də məndən çox sonra uzandı, xeyli o tərəf-bu tərəfə çevrikib axır ki, yuxuya getdi…

424. Deyəsən, səksəkəli yatdığımdan idi, dan yeri ağarmamış oyandım, alaqaranlıqda sezdim ki, Məhəmməd Kazımın yatağı boşdu. Bir anın içində ağlıma yüz cür fikir gəldi, tələm-tələsik geyinib eşiyə çıxanda gördüm, oğlan tonqalın qırağında oturur. Üzünün rəngi qaçmışdı, gözləri parıldayır, sinəsi qalxıb-enirdi. Mənim çadırdan çıxdığımı sezəndə diksindi, bəbəkləri böyüdü, hülqumu tərpəndi, az qala, nəsə qışqırmaq istədi, amma səsini çıxara bilməyib boğula-boğula susdu. Onunla üzbəüz oturub şəfqətlə halını soruşdum, hövlləndi, elə bil boğazı tutuldu, axır ki, dedi, Mirzə Yusif, gecə nəhs yuxu gördüm. Bacardıqca yumşaq səslə dedim, oğlum, yuxu görmək insan övladına xas olan şeydi, buna görə özünə əzab vermə. Məhəmməd Kazım qızdırmalı nəzərlərini qaldırıb üzümə dikib dilləndi, yox, bu yuxu o yuxulardan deyil, Mirzə Yusif, gördüm dağlılar Xanımızın qoşununu darmadağın eləyib, yaralı bayraqdarın dik saxlamağa çalışdığı bayrağımız qapqara qaralıb, Xanımız da, atı da qara palçığa bulaşıb; Xanımıza doğru əllərimi uzadıram, ona çatmır, bağırmaq istəyirəm, səsim çıxmır; qan-tər içində oyandım, daha gözümə yuxu getmədi. Mümkün qədər əmin-arxayın səslə dedim, oğlum, adətən yuxunu tərsinə yozarlar, deməli, Xanımızı zəfər gözləyir, sən gördüklərini ürəyinə salıb özünə zülüm eləmə, get, axar suya danış, onda yüngülləşəcəksən. Məhəmməd Kazım başını buladı, kədərlə gülümsəyib dedi, yox, atam rəhmətə gedən gecə qayadan yıxıldığını görmüşdüm, heç kəsə danışmadım, amma yuxum çin oldu; onda fikirləşdim ki, yəqin, bu, təsadüfdü; başına gələn başmaqçı olar, deyiblər, indi gördüklərimi tərsinə yozub özümə təskinlik verə bilmərəm, bəlkə Xanımıza danışıb, onu səfərdən döndərməyim gərəkdi. Dedim, oğlum, bu səfərin Xanımızdan ötrü nə demək olduğunu yaxşı dərk eləyirsən, bir yuxuyla yolundan dönməz, üstəlik, sənin barəndə başqa fikrə düşər, ola bilsin, könlün qayıtmaqdan yanadı, əgər istəyin budusa, gecikmə,

get məramını Xanımıza söylə, mərvlilər getməmiş, onlara qoşul, rəhmətlik atanın narahat ruhunu da şad elə. Məhəmməd Kazım dillənmədi, gözlərini tonqalın zəif alovuna dikib susdu, hava tamam işıqlananacan da beləcə oturduq…

425. Yüngül payız dumanına bürünmüş səhər açılanda, ordugahdan cürbəcür səslər, istehkam tərəfdən taqqıltılar eşidiləndə Məhəmməd Kazım ayağa durdu, dedi, mən Xanımızın hüzuruna gedirəm. Həmin məqamda döyüküb qaldım, dillənib nə deyəcəyimi kəsdirə bilmədim. Olub-keçənləri eşidən Mirzə Hüseynin siması daha da tutuldu, uzun müddət başını bulaya-bulaya oturduğu yerdəcə qaldı. Məhəmməd Kazım qayıdanacan özümə yer tapa bilmədim, əlim qoynumda çadırın ətrafına, tonqalın başına dolandım, gözlərim Xanımızın çadırına uzanan cığırda qaldı. O məqamda canımdan can ayrıldığını, kimsəsizləşdiyimi sözsüz-sovsuz duyur, əlacsızlığımı anlayırdım. Axır ki, Məhəmməd Kazım gəlib çıxanda ağzını açmamış artıq hər şeyin bitdiyini anladım. Gəlib mənimlə üzbəüz oturdu, nəzərlərini ocağa dikib dedi, çox istədim, amma yuxumu Xanımıza danışa bilmədim, mərvlilər gedəndən sonra burda darıxacağımı söylədim, o da halımı görüb getməyimə izin verdi, üstəlik, yenə Təbrizdən atamın nəşini götürüb Məşhədə aparmağımı da tapşırdı. Sonra susdu, gözlərini qaldırıb üzümə baxdı, haqqını halal elə, Mirzə Yusif, dedi, səni atam kimi sevdim, harda olsam, unutmayacağam, dünyanın işini bilmək olmaz, bəlkə nə vaxtsa görüşdük; dedi, sən mənim taleyimi dəyişdin, Mirzə Yusif, rastlaşmasaydıq, yəqin, yasavul da olmasam, dəftərdar-filan olacaqdım, amma indi sayəndə tarix yazmağın da nə qədər çətin və vacib iş olduğunu dərk elədim. Ardınca barmağındakı üzüyü çıxarıb mənə uzatdı, dedi, bu da məndən yadigar qalsın. Bərk-bərk qucaqlaşdıq, göz yaşlarımı da, hıçqırığımı da saxlaya bilmədim. Bu vaxt iki nasaqçı gəlib Məhəmməd Kazımın sandıqlarını ata yükləmək üçün çadırdan çıxardılar. Ağlıma başqa bir şey gəlmədi, mən də Sədi Şirazinin İsfahandan yadigar qalan kitabını cavan dostuma bağışladım. Bu müddətdə qıraqda fikirli-fikirli dayanmış Mirzə Hüseyn axır ki, irəli durdu Məhəmməd Kazımı qucaqlayıb uğurlu yol arzuladı. Onlar bir müddətdən sonra yəqin Təbrizdə görüşəcəkdilər.

Həmin məqamda tənhalığın acısı içimi yandırdı, hönkürməkdən özümü güclə saxladım…

426. İş başa çatandan sonra Xanımız, Məhəmməd xan Əfşar, Teymuraz, Uğurlu xan Ziyadoğlu və digər xanlar, sərdardar, minbaşılarla istehkamı gəzdi, son buyruqlarını verdi, Rəvan qoşununu mühafizə üçün saxlayıb Cara doğru yola çıxmaq barədə əmr verdi. Çadırlar yığışdırıldı, tonqallar söndürüldü, kərənaylar, nağaralar guruldadı, atlara süvar olub Qaxdakı ordugahdan Cara doğru tərpəndik. Xanımız ehtiyatı əldən verməyib bu yerləri yaxşı tanıyan atlılardan ibarət yüz nəfərlik dəstələr düzəltmişdi, həmin dəstələr irəli gedir, yollarda pusqu olub-olmadığını araşdırır, nəticə barədə Xanımıza xəbər çatdırırdı. Hələ ki, Surxayın, Mürtəza Əlinin, yaxud onların toruna düşənlərin izi-tozu gözə dəymirdi, görünür, hardasa marığa yatıb Xanımızın son məqsədini unamağa çalışırdılar, basqınlar, həmlələr, hücumlar, pusqular ondan sonra başlayacaqdı. Hərdən fikirlərimi bölüşmək üçün yanımdakı Məhəmməd Kazıma üz tutmaq istəyirdim, amma dönüb yalnız Mirzə Hüseynin fikirli simasını görəndə, elə bil, yuxudan ayılır, ucunu bir yana çıxara bilmədiyim fikirlərə baş vururdum. Məhəmməd Kazımın nəhs yuxusu Xanımızı bu səfərdən döndərərdimi? Mən oğlanı yuxusunu danışmamağa təhrik eləyib günah işlətmədim ki? Yuxular tərs yozulursa, Məhəmməd Kazımın canındakı o qorxunun səbəbi nə idi? Mömin xanla bağlı yuxusunun çin çıxması bunun bir daha təkrarlanacağına əsas verirdimi? Mən Məhəmməd Kazımın yuxusunu Xanımıza danışsaydım, ağıllımı iş tutardım, yoxsa başımı itirmişmi olardım? Hələ düşmənlə üz-üzə gəlməmişdik, Xanımızın qoşunu öz gücünü sınamamışdı, dağlıların nəyə qadir olduğunu bilmirdik, məncə, ona görə hələlik əndişəyə əsas yox idi. İndi yəqin Məhəmməd Kazım altmış Mərv atlısıyla Şəkiyə çataçatdaydı, bəlkə də hələ yuxusunun təsirindən özünə gəlməmişdi…

427. Xanımız qoşunu tələsdirirdi, elə o günün axşamı da İlisudan yan keçib Cardakı ordugahımıza çatdıq. Neçə on illər qabaq Tiflisə yürüş eləmiş Şah Abbasın tikdirdiyi iqamətgah qismən dağılmışdı, bərpası üçün, yəqin ki, bir neçə həftə vaxt gərək olacaqdı. Qafiləmizin arxasınca gələn Şirvan, Şəki, Ərəş ustaları, qoşunumuzdan seçilən adamlar elə səhəri gün iqamətgahı

abıra salmağa, həm də yeni istehkam qurmağa girişdilər. Mən özümdən xəbərsiz Məhəmməd xan Əfşarın köməkçisinə çevrilmişdim, onun istədiklərini kağız üzərində cızır, o, Xanımızın məsləhətlərini nəzərə alandan sonra tələb olunanı ustalara başa salırdım. Xanımız hər gün iqamətgahda və istehkamda gedən işləri yoxlayır, buyruq verir, hamını tələsdirirdi, görünür, dağlılar özlərinə gəlib qüvvə toplamamış haqq-hesabı çürütmək istəyirdi, üstəlik, qar yağıb sıldırımlı dağ yollarını tutanacan Şahımıza zəfər naməsi göndərmək fikrindəydi. Bununla belə, havalar soyuyur, yağışlar daha tez-tez yağır, işsə qurtarmaq bilmirdi. Xanımız ustalardan bir neçə nəfərinə bəxşiş verib, bir neçəsini də döydürmüşdü ki, o birlərə görk olsun. Axşamlar Mirzə Hüseynlə tonqal qırağında, yaxud çadırımızda üzbəüz oturub çox vaxt susur, ya da başımızı qatmaq üçün gün ərzində baş verənlərdən danışırdıq. Məhəmməd Kazımı unuda bilməsəm də, yuxusunu heç xatırlamaq, gördüklərini xəyalıma gətirmək istəmirdim. Beynimdən keçirirdim ki, ola bilsin, yuxusu onun getmək istəyindən ötrü təsadüfi təkandı, əsl səbəb anası və bacısına qovuşmaq, atasının nəşini Məşhədə aparmaq, yaxud Pərixan xatunun həsrətiydi. Hər nəydisə, artıq Məhəmməd Kazım yoldaydı, onu kimsə qaytarmayacaqdı, görüşümüz də qismətimizə düşəcəkdi, ya düşməyəcəkdi, bunu bilmirdim. Həmin məqamda bir də Təbrizə qayıdacağımı desəydilər, yalnız istehzayla gülümsəyərdim: ölüm bundan daha real görünürdü...

# VI

# YUXUDAN AĞIR GÜNLƏR

***Dün gecə bən duşda bən səni bənim ilə görür idim,***
***Bu duşumun təbirini yarayım, andan öləyim.***

***Qazi BÜRHANƏDDİN***
***(XIV yüzil)***

428. Ağ Bürcdəki tikinti yağışa-filana baxmadan davam etdirilirdi, hətta bəzi işləri gecələr məşəl işığında görürdülər ki, qış özünü göstərməmiş döyüşə girə bilsinlər. O biri tərəfdən də qoşun hazırlaşırdı, dağlılara hücum eləyəcək dəstələr seçir, yerli camaatdan adamlar tapıb yollar, dağ keçidləri, sıldırımlar barədə məlumatlar toplayır, iki-üç nəfərlik dəstələri dağlı qiyafəsinə salıb o səmtləri öyrənməyə göndərir, silahları, dağ şəraitində gərək olan şeyləri qablaşdırırdılar. Məhəmməd Kazımın gedişindən sonra çadırda oturmaq məndən ötrü məşəqqətə dönmüşdü, ona görə də yazı-pozum olmadığı məqamlarda ordugaha gedir, gücüm çatan işlərdə Məhəmməd xan Əfşarın xidmətində olurdum. Dəfələrlə Məhəmməd Kazımın nəhs yuxusu barədə, heç olmasa, ona bir söz deməyə çalışmışdım, amma dilim gəlməmişdi çünki bu döyüş Xanımızdan ötrü nüfuz sarıdan ölüm-qalım məsələsiydi, məqsədinə bu qədər yaxın olduğu bir məqamda nəhs xəbər vermək İbrahim xanı təbdən çıxarardı, bunun nəticəsini də qabaqcadan bilmək mümkün deyildi. Dərdimi kağıza köçürüb sandığa qoyurdum, ruhi müvazinətimi bu cür saxlayırdım, qalan vaxtlar da, dediyim kimi, içimdəki təlatümü ovutmaq üçün hücuma hazırlaşan qoşunların arasında vurnuxurdum. Xanımız Gəncə və Şirvan qoşununa, bir də Təhmurəs Mirzənin dəstəsinə bel bağlayırdı, görünür, onların bu yerlərə tam da olmasa, az-çox bələdliyinə güvənirdi, amma Xorasan cəzayirlərini də hazır saxlamağı da düşünürdü, bunu onların ciddi hazırlığından, iqamətgahın yaxınlığındakı bir tərəfi

dağa söykənən düzənlikdə təlim keçmələrindən anlamaq o qədər də çətin deyildi. Bütün bunlara baxa-baxa beynimdə keçirirdim ki, Allah eləməmiş, Məhəmməd Kazımın yuxusu bu dəfə də çin çıxsa, şübhəsiz, vicdan əzabı çəkəcəyəm, canım bahasına olsa belə, bildiklərimi Xanımıza danışmamaq məni qəbir evinəcən yandıracaq.

429. Aradabir yaxınlıqda dağlı atlılarının görünüb-yox olduğundan danışırdılar, deyilənə görə, onlar düşmən casuslarıdılar, qoşunumuzun niyyətindən xəbər tutmağa can atırlar. Günlərin birində də Car yolunda iki dağlı ələ keçirilmiş, Xanımızın hüzurunda dindirilmişdi, axırda məlum olmuşdu ki, Carda da, Talada da Xanımızın niyyətindən xəbərdardılar, tələm-tələsik qoşun toplanır, Dağıstana, ləzgi və qaraqaytaq başçılarına da xəbər göndərilib artıq ilk dəstələr gəlməyə başlayıb. Ələ keçənlər gələn köməyin təxminən iyirmi min atlıdan ibarət olduğunu söyləyirdilər, əgər bu həqiqət idisə, yerli şəraitdə yaxşı döyüşən belə sanballı qüvvəyə qarşı döyüşməyimiz mənə olduqca çətin görünürdü. Şirvan, Gəncə, gürcü atlılarının və Xorasan cəzirələrinin cəmi on mini aşmazdı, bura oxşar şəraitdə yaşamış Mərənd atlılarını da əlavə eləsək, uzaq başı on iki minlik qüvvə alınırdı. Bu qoşun otuz minə yaxın dağlı atlısının müqabilində nəyə ümid eləyə bilərdi? Xanımız hücumqabağı yığnaq keçirəndə çox inamlı görünürdü, amma, nədənsə, onun inamının üzəyarı olduğu hissindən qurtula bilmirdim. O yığnaqda cürbəcür çıxış yolları aradılar, bir-birinə zidd fikirlər söylədilər; Məhəmməd xan Əfşar nə yollasa dağlıları düzənliyə endirməyi təklif eləyirdi, Təhmurəs Mirzə açıq döyüşdən yox, pusqulardan ehtiyatlanırdı, Uğurlu xan Ziyadoğlu danışığa cəhd göstərməyin faydalı olacağını söyləyirdi, Şirvan və Dərbənd hakimləri də onun fikrinə şərik çıxırdılar; amma Xanımız inadından dönmədi, dedi, bir ovuc dağlının taxt-tacımıza meydan oxumasına yol verə bilmərik, hüdudlarımızda əmin-amanlıq yaratmaq naminə bütün təhlükələri göz altına almalıyıq; dedi, gəlmişik ki, bu məsələylə birdəfəlik qurtaraq, düşmənlərimizi məğlub eləyib Şahımıza zəfər naməsi göndərək. Xanımızın bu qətiyyətindən sonra döyüşün olub-olmayacağı barədə tərəddüdlər aradan qalxdı, Mirzə Hüseyn demiş, işimiz yalnız Allaha qaldı. Əlbəttə, sabah nələr baş verəcəyini

kimsə bilməzdi, əgər Xanımızın taleyinə qələbə yazılmışdısa, o zəfər qazanılacaq, dağlı basqınlarına son qoyulacaqdı.

430. Bir neçə gün sonra təğyiri-libas olub Car səmtinə gedən iki şirvanlı xəbər gətirdi ki, yerli ləzgilərin başçıları İbrahim Divanla Xəlil atlılarımızın yolunu kəsmək üçün tədbirlər görüb, dəstələrini dar dağ keçidlərinə yerləşdiriblər. Xanımız dərhal hərəkətə gəlmək barədə əmr verdi: Şirvan və gürcü dəstələri düşmənin mövqeyinə cinahdan və arxadan zərbə endirib keçidi təmizləməli, Gəncə və Xorasan döyüşçülərisə əsas qüvvələri qəflətən yaxalamalıydılar. Döyüşə gedən dəstələrimizdən axşamacan xəbər çıxmadı, sonra çapar xəbər gətirdi ki, dağlılar şirvanlıları və gürcüləri keçidə yaxın buraxmırlar, artıq yüzdən artıq itkimiz var, yaralılar ondan da çoxdu. Xanımız qəzəbindən titrədi, dərhal Xorasan cəzirələrini döyüş yerinə göndərdi. Xorasanlılar qayalara dırmaşa-dırmaşa dağlıların qoruduğu keçidə yaxınlaşıb bir həmlədə döyüşün taleyini həll eləmişdilər. Amma sağ budundan yaralanmış şirvanlı yüzbaşı Məmmədquludan öyrəndiyimə görə, İbrahim Divanın və Xəlilin dəstələri geri çəkilib yüksəklikdə mövqe tutmuşdular, hücumu davam etdirmək daha çox itkilərə səbəb ola bilərdi. Sonrakı gün Xanımız ölənləri və yaralananları gətirmək üçün döyüş yerinə dəstələr göndərdi, məlum oldu ki, tələf olanların cəmi yetmişdən artıqdı, azı yüz əlli nəfərsə yaralanıb. Düşmənin itkisinin də təxminən o qədər olduğu söylənirdi, belə çıxırdı ki, dağlıları azacıq geri oturtmaqdan savayı hələ qələbədən danışmaq yersizdi. Amma gözlənildiyi kimi, Xanımız baş verənləri artıq uğur kimi qəbul eləmişdi, tezliklə düşməni qovub Car və Talanı təmizləyəcəyinə inanırdı. Mən döyüş məsələlərindən baş çıxarmırdım, amma mövcud gerçəkliyi məntiqin süzgəcindən keçirəndə sayı beş yüzü aşmayan xorasanlıların dağlıları üstələyəcəyinə inanmırdım; üstəlik, bundan sonra döyüşlər daha sərt şəraitdə aparılacaq, daha şiddətli olacaqdı. Mənə görə, Uğurlu xan Ziyadoğlunun təklifi daha ağlabatan idi: dağlılarla dil tapmaq, nələrisə güzəştə gedib əmin-amanlıq yaratmağa cəhd göstərmək lazım idi...

431. Səhəri gün döyüşdə öldürülmüş, yaraları ağır olan şirvanlılar və gürcülər yurdlarına yola salındı, cəzirələrin tələf olan on bir nəfərisə elə iqamətgahın yaxınlığındaca dəfn edildi. Yaralılar ayrıca çadırlarda yerləşdirildi, həkimbaşı Şahabəddinin

adamları dava-dərmanlarını işə saldılar. Bir gün sonra Xanımız dağlılara kömək aparan arabalar barədə xəbər gətirən bir yerliyə səxavətlə xələt verib, beş yüz nəfərlik dəstəni basqına göndərdi. Basqın uğurla başa çatmışdı, arabaların mühafizi olan təxminən altmış atlı qəfil həmlədən göz açmamış, otuza qədər adam itirəndən sonra sağ qalanlar qaçıb canlarını qurtara bilmişdilər. Ələ keçirilən iyirmi səkkiz arabada Dağıstandan və Qaraqaytaq-dan göndərilən ərzaq və sursat çıxdı. Xanımızın bu qənimətdən kefi xeyli kökəlmişdi, Mirzə Hüseynin dediyinə görə, basqınçılara layiqli xələt söz vermiş, düşmənə ağır zərbə vurulduğu barədə xeyli danışmışdı. Əlbəttə, arabaların ələ keçirilməsi dağlılardan ötrü ağır itkiydi, amma fikrimcə, bununla silahı yerə qoyub itaət eləməyəcəkdilər, əksinə, daha da amansız olacaq, intiqam almağa çalışacaqdılar. Mən döyüşlərin uzanacağı, qış vaxtına çəkəcəyi, beləliklə də, düşmənin daha bir üstünlük qazanacağı barədə düşünürdüm, üstəlik, pusqulardan, ordugaha qəfil basqınlardan qorxurdum. Ağlıma gəlmişdi ki, öldürülmüş gürcüləri aparan dəstəyə qoşulub Tiflisə yollanım, amma belə vaxtlarda Xanımız-dan izin istəmək təhlükəliydi, özbaşına çıxıb getməyim də pis yozulardı; o biri tərəfdən də bu qarşıdurmanın necə bitəcəyinin şahidi olmaq, gördüklərimi kağıza köçürmək istəyirdim. Belə çıxırdı, qismətimə axıracan bu ordugahda qalmaq, əgər alnıma yazılıbsa, hələ dağlı gülləsindən ölmək də yazılmışdı…

432. Sonrakı günlər Xanımız Şirvan, Gəncə və gürcü atlı-larıyla İbrahim Divanın və Xəlilin mövqelərinə hücuma keçdi, amma dəstələrimizin həmləsi uğursuzluğa düçar oldu. Dağlılar ensiz dağ yollarını iri qaya parçalarıyla kəsmiş, dar cığırlar-da tüfəngçilər qoymuşdular, hər qayanın, hər daşın, hər kolun dibindən təhlükə gözlənirdi. Yuxarı dırmaşan döyüşçünün başına hər an qaya parçası düşə, cisminə hardan atıldığı məlum olma-yan güllə sancıla, yaxud kəməndlə tutulub sürüklənə bilərdi. Üç-günlük hücumun nəticəsi acıydı, həmlə eləyənlər üç yüzə yaxın adam itirmişdilər, ondan bir qədər çoxu da yaralı halda orduga-ha gətirilmişdi. Həkimbaşı Şahabəddinin heyəti yaralıların sarğı-filanını çatdıra bilmirdi, içimdəki təlatümləri yatırtmaq üçün mən də onlara əl tutur, uzun yolçuluğumda mənimsədiklərimdən fay-dalanmağa çalışırdım. Qıçından, qolundan, qarnından, köksün-

dən yararlanan adamların əzabına tab gətirmək məndən ötrü asan deyildi, amma çadırıma çəkilib özümlə təkbətək qalmaq daha da əzablıydı. Şirvana, Gəncəyə, Tiflis səmtinə yola salınan meyitlərin, ağır yaralıların yaratdığı kədərli mənzərəni təsvir eləmək çox çətindi, uğursuzluqdan sonra ordugahdakı abhava barədə danışmaq da asan deyil. Gecələr yatağıma uzananda Mirzə Hüseynin hıçqırtısını eşidib hönkürtmək istəyirdim, amma elə bil dərdim içimdə daşa dönmüşdü, gözlərimdən bir damcı yaş çıxmırdı. Fikrim hərdən Məhəmməd Kazımın yanına qanadlanırdı, çox istəyirdim ki, yuxusu çin çıxmasın, özü də sıxıntısından qurtarıb rahat nəfəs alsın; hələ cavandı, həyatının çoxu irəlidədi, sevinməli, sevməli, xoşbəxt olmalı vaxtıdı, insan yaşlaşdıqca belə şeylərə çatmaq imkanı çox azalır. Xanımızın son günlərdəki qəzəbli, uçuntulu görkəmi yaddaşımdan silinmirdi: qələbə ona çox lazım idi, bəlkə də bütün həyatı ondan asılıydı, bu quzey səfərindən məğlub dönsəydi, güman ki, ya vərəmləyib ölərdi, ya da, ən azı, dərddən ağlını itirərdi…

433. Xanımız iki günlük susqunluqdan sonra qoşun başçılarını çadırına çağırdı, bundan sonra necə hərəkət eləyəcəkləri barədə hamının fikrini soruşdu. Özü bu qənaətdəydi ki, ordugahda cəmi iki min nəfərlik qüvvə saxlayıb həlledici hücuma keçsinlər. Məhəmməd xan Əfşar susdu, Təhmurəs Mirzə belə hücumun uğur gətirəcəyinə şübhəsini bildirdi. Uğurlu xan Ziyadoğlu dedi, İbrahim Divanla Xəlilin dəstələrinin tutduğu mövqe ön tərəfdən alınmazdı, düzənlikdə döyüşməyə alışmış adamlar dik qayalara dırmaşmağı, özlərini pusqularda qorumağı bacarmırlar. Cəzirələrin başçısı Zahir Dövran başqa yol seçməyi, qalın meşəlikdən keçən dik cığırla qalxıb dağlıların arxasına çıxmağı məsləhət gördü. Uzun çək-çevirdən sonra Zahir Dövranın təklifi məqbul hesab olundu, amma Xanımız dəstələrə özü başçılıq eləyəcəyini söyləyəndə çəkişmə təzədən qızışdı. Məhəmməd xan Əfşar Xanımızın ordugahdan çıxmasına tərəfdar olmadığını dedi; Uğurlu xan Xanımızın ön tərəfdə dağlıların başını qatmağının daha düzgün olacağını bildirdi; Nəcəf Sultan Xanımıza döyüşü dağın ətəyindən vasitəçilərlə idarə eləməyi tövsiyə elədi; amma Xanımız inadından dönmədi. Görünür, artıq əsəbləri tarıma çəkilmişdi, onu yalnız qələbə sakitləşdirə bilərdi. Yığnaq

bitəndən sonra xanların, qoşun başçılarının ovqatı yerində deyildi, bununla belə Xanımızın istəyilə axşam yeməyinə qaldılar. O axşam bəlkə də ilk dəfəydi ki, Mirzə Hüseynlə danışmağa söz tapmadıq. Şam işığında sandığımın üstündə qeydlərimi elədim, yazdım ki, sabah şaban ayının birinci günü, min yüz əlli birinci ildi, Xanımız dağlılara həlledici zərbəni vurmaq üçün hücuma hazırlaşır. O məqamda yadıma Məhəmməd Kazımın yuxusu düşdü, dərhal əlim-qolum boşaldı, şamı söndürüb paltarımı soyunmadan yatağa uzandım…

434. Gecəni çox pis yatmışdım, iki dəfə mənə elə gəlmişdi ki, nagahan bir əl boğazımı sıxır, boğuluram, dikəlib yatağımda oturmuşdum. Hər dəfə də hiss eləmişdim ki, Mirzə Hüseyn yuxusunda ağlayır. Sözləri anlaşılmırdı, amma gedən kimsəni yoldan saxlamağa çalışdığı məlum olurdu, o kimsə də, deyəsən, insafsızcasına çıxıb gedirdi, zavallı adamsa hıçqıra-hıçqıra qalırdı. İstədim oyadım, yastığını çevirsin, amma qıymadım. İkinci kərə oyanandan sonra da yata bilmədim, durub eşiyə çıxdım. Ulduzsuz səmada görməli bir şey yox idi, arabir ordugahdan boğuq səslər gəlirdi. Beynimdən keçirdim ki, indi Məhəmməd Kazım mərvlilərlə Təbrizə çatmış olar, yəqin, bir neçə gün dincini alıb atasının nəşini Məşhədə aparacaq, üstəlik, Məhəmməd xan Əfşarın səfərdə olmasından istifadə eləyib Pərixan xatunla ünsiyyətini nizama salacaq. Sonra yadıma Axund Ələkbər düşdü, əlbəttə, Rəvan qoşunuyla gəlsəydi, çox yaxşı olardı, bu qədər darıxmazdım. Qəfildən Firəngistandakı qapalı pansionda yaşadığım sıxıntılı günləri xatırladım, indiki halım ondakından fərqlənmirdi, sonralar İsfahanda ölümlə üzbəüz qalanda, İstanbulda ümidsiz günlər yaşayanda, Anadoluda sərgərdan dolaşanda da eyni ovqatı keçirmişdim. İndi tutqun bir payız gecəsində nagahan ayılıb canımdakı uçuntunu ovutmağa çalışırdım, beynimdə sabahkı döyüşlə bağlı qarmaqarışıq fikirlər dolaşırdı. Ocağın qırağında oturub külü eşələdim, sönməmiş közləri yığıb üstünə xırda quru çırpı atdım. Dan yeri ağarır, ordugah oyanmağa başlayırdı, bir azdan kərənayların, nağaraların səsi eşidiləcək, qoşun səfə düzüləcək, dağlara sarı yön alacaqdı. Cavanlığıma qayıtmaq, at belinə qalxıb o dəstəyə qarışmaq istəyirdim, amma ordugahda qalıb gələn xəbərləri öyrənməyə məhkumdum…

# VII

# ÇİN ÇIXAN YUXU

*De görüm nəyə talibsən,*
*Dərsini kimdən alıbsan?*
*Neçə min yol boşalıbsan,*
*Neçə min yol dolan dünya.*

*Xəstə QASIM*
*(XVII yüzil)*

435. Ordugah oyanırdı, gözətçilərin qiyyəsi, adamların çağırtısı, atların kişnərtisi, silahların cingiltisi get-gedə daha aydın eşidilir, on minlik qoşun dağlılarla döyüşə hazırlaşırdı. Axşam, sabah, yaxud birisi gün başlarına nə gələcəyini bilməyən adamlar adi səfərə çıxan kimi, döyüş hazırlığı görür, talelərinə boyun əydiklərini itaətlərilə büruzə verirdilər. O yoxuşlarda, qalın meşələrdə, dik cığırlarda, qaya altında, kol dibində başlarına gələcək qəzaları qabaqcadan bilsələr belə, bu səfərə çıxmağa məhkumdular, artıq hökm verilib, taleləri həll olunub, o zavallılara yalnız olacaqları qəbul eləmək qalır. Durub asta-asta ordugaha doğru getdim. Qarabağ, Mərənd, Marağa, Şirvan və Gəncə atlılarının, gürcü dəstələrinin, Xorasan cəzirələrinin açıq çöldə düzülmüş dəstələri Xanımızın əmrini gözləyirldilər. Əvvəlcə Uğurlu xan Ziyadoğlunu gördüm, çadırından çıxıb ayaq saxladı, dan yerindən çırtlayan günəşə baxa-baxa dua oxuyub, salavat çevirdi, sonra atının yüyəni mehtərindən alıb Gəncə atlılarına sarı getdi. Sonra Təhmurəs Mirzəni gələn gördüm, görkəmində əlacsızlıqmı deyim, çaşqınlıqmı deyim, anlaşılmaz ifadə vardı. Ardınca Məhəmməd xan Əfşar gəldi, ayaq saxlayıb bir müddət döyüş səfərinə hazır dayanmış qoşuna baxdı, yəqin, bu qoşunla dağlıların öhdəsindən gəlib-gəlməyəcəkləri barədə düşünürdü. Yasavulunun gətirdiyi atın ayağı çuxura düşüb büdrəyəndə Məhəmməd xanın bədəni gərildi, əlini qılıncı-

nın qəbzəsinə apardı, amma, görünür, günə ölümlə başlamaq istəmədiyindən fikrindən daşınıb atımı, yasavulumu ölümdən qurtardı. Deyəsən, əlini qəbzəyə atandan fəryada oxşar səs çıxarmışdım, Məhəmməd xan mənə sarı çevrildi, tanıyıb təzimimi başını yüngülcə tərpətməklə qəbul elədi. Çox gözə dəyməməyə çalışıb ürəyimdə ölümün üzərinə gedən bu adamlar üçün dua oxudum, həmin məqamda da beynimdən keçirdim ki, qarşı tərəfdəkilər də eynilə mənim kimi, döyüşün uğurlu olması üçün dua eləyirlər, Gözəgörünməzin bu dəfə kimin tərəfində olacağısa kimsəyə məlum deyil.

436. Taxt-tacın varisi, xanədanın vəliəhdi, Azərbaycanın valisi, bütün qoşunların baş sərdarı İbrahim xan Əfşar Zahirüddövlə görünəndə səfərə hazır olan qoşundan alqış sədaları qopdu. Mənə elə gəldi, Xanımız gecəni yaxşı yatmayıb, çünki artıq hava tamam açılmışdı, onun simasını aydın görürdüm, qaraşın dərisinin rəngi nəsə əvvəlkinə oxşamırdı. Dünən iki min nəfərlik dəstəni Cara göndərmişdi ki, yerlilərə toy tutsun, amma dəstə ancaq beş-on əsirlə qayıdıb gəlmişdi. Xanımızın xüsusi mühafizəçiləri, seçmə cəzirələr olan yüz atlıdan ibarət dəstə işarə gözləyirdi, carçılar, çaparlar, kərənay və nağara çalanlar, keşikçilər, nasaqçılar, yasavullar, əyan-əşrəf, qoşun başçıları amanabənd idilər, aldıqları işarədən sonra yola çıxacaqdılar. Xanımız mollanın üzünə baxdı, molla dərhal hər iki əlini irəli uzadıb səfər duası oxudu, döyüşə gedənlərə xeyir-dua verdi. Həmin məqamda gözümə Mirzə Hüseynin solğun siması dəydi, narahat gecədən sonra hələ özünə gəlməmişdi. Mollanın səsi bu payız səhərində talelərinin ardınca yollanan adamlara hansı mətləbləri anladırdı, bunu başa düşmək o qədər də çətin deyildi. Salavatdan sonra Xanımız yasavuluna, yasavul da çalğıçılara işarə verdi, kərənaylar səsləndi, nağaralar guruldadı, İbrahim xan Əfşar at belinə qalxıb qoşunun başına sarı yollandı. Bayraqdarın üzü günəşə apardığı bayrağı qəfildən qara rəngdə görəndə Məhəmməd Kazımı xatırlayıb bədənimdən üşütmə keçdiyini duydum, içimdə o yuxunu Xanımıza danışmamağın peşmançılığını bir də yaşadım. Artıq gecdi ox yaydan çıxıb, Xanımız on minlik qoşunun başında özü döyüşə girir, nə vaxtdan bəri ona əziyyət verən rüsvayçılıq ləkəsini yumağa gedir. Bədənimdəki üşütmə xoşagəlməz giziltiyə çevrildi, beynimdən

keçirdim ki, yəqin, bu xəstələnməyimin əlamətidi, əgər bu qədər yaralının olduğu bir vaxtda mən də yatağa düşsəm, həkimbaşı Şahabəddinin işi bir az da artacaq. Altmış beş yaşındaydım, Allah-taala əsirgədiklərinin müqabilində mənə cismi sağlamlıq bəxş eləmişdi, İsfahanda və İstanbulda, uzun-uzun yollarda çəkdiyim o qədər zillətə baxmayaraq, qısamüddətli naxoşluqlarım vaxtı ölüm qorxusu duymamışdım. Amma indi yaşım o yaş deyildi, qocalığı boynuma almalıydım.

437. Mən yalnız güman eləmişdim, amma ağlıma gələn doğru çıxdı: qoşun toz qaldırıb günçıxan səmtdə gözdən itəndən, Xanımızı yola salanlar dağılışandan sonra Mirzə Hüseynlə çadırımıza gedə-gedə hiss elədim ki, bayaqkı gizilti artıq uçuntuya çevrilib, bir azdansa titrətməyə dönəcək. Çadırımıza girən kimi, özümü yatağıma saldım. Sinəmdən qalxan nagahan inilti Mirzə Hüseyni də qorxutdu, əlini alnıma qoyub dedi, deyəsən, qızdırman var, indi Şahabəddinə xəbər göndərərəm. Düşündüm ki, bu məqamda xəstələnməyim heç yerinə düşmədi, savaş meydanında olmasam da, bir az yaxına gedə, atəş səsini, döyüş səs-küyünü, yaralıların iniltisini, zəfər bağırtılarını eşidə bilərdim, əvəzində olub-keçənlərdən, ən azı, Mirzə Hüseynin araçılığıyla xəbər tutacağam. Həkimbaşı Şahabəddin gəlib çıxanacan ortada ciddi bir şey olmadığını fikirləşdim, amma həkimbaşı nəbzimi yoxlayandan, dilimə baxandan, ciyərimə qulaq asandan sonra Mirzə Hüseynə dedi, sətəlcəmdi, bir müddət yataqdan qalxmamalıdı, mən dava-dərman, həm də xidmətçi göndərərəm. Bütün bunları eşidir, dillənməyəsə özümdə hey tapmırdım, elə bil asta-asta dibi görünməyən uçuruma yuvarlanır, zülmətdə yox olurdum. Altmış beş illik ömrümdə iki dəfə – İsfahandan canımı qurtarıb Ərdəbilə yetişəndə və Xalicdə körpüdən yıxılanda bu cür xəstələnmişdim, birincisində Allah adamı olan karvansara sahibinin insafı, ikincisində Mirzə Kəmaləddinlə qatırçı Səfərin qayğısı məni ölümün pəncəsindən almışdı. Bu dəfə həyatım boyu can atdığım yurdumdan – Tiflisdən üç-dörd günlük məsafədə, dağlılarla həlledici döyüş ərəfəsində ölüm yatağına yıxılırdım, bu xəstəlikdən sağ qurtulub-qurtulmayacağımı da bir Allah bilirdi. İndi Mirzə Kəmaləddin Ərdəbildə, ondan sonra ürək qızdırdığım yeganə adamsa Təbrizdə, bəlkə də Məşhəd yolunday-

dı, təkcə öz dərdindən başını itirmiş Mirzə Hüseynin ümidinə qalmışdım. Təbii ki, bu halında ona da əl tutan lazım idi, bu səbəbdən həkimbaşıdan qolumuzdan qaldırmaq üçün bir nəfər göndərməsini istədi, sağ olsun, o da sözümü yerə salmadı.

438. Həkimbaşı Şahabəddinin göndərdiyi xidmətçi cavan idi, huşum özümə qayıdanda onun yatağımın böyründə oturduğunu gördüm. Gözlərimi açanda sevindi, dedi, adı Qütbəddindi, Təbriz altındandı, neçə illərdi həkimbaşının qulluğundadı, onun buyruğu üzrə mən sağalanacan yanımda olacaq, özü də Məhəmməd Kazımın yatağında yatacaq, hər istəyimi yerinə yetirəcək. Qütbəddin gətirdiyi məlhəmlərdən içirtdi, isti yemək yedirtdi, qorxulu bir şeyin olmadığı barədə uzun-uzadı danışdı. Elə bil doğrudan da beləydi, günorta namazından sonra halımın bir qədər yaxşılaşdığının fərqinə vardım. Şər qarışanda Mirzə Hüseyn gəlib baş verənlərdən danışdı, dedi, Xanımız Məhəmməd xan Əfşarı düşərgəyə qaytarıb, bütün işləri və burda qalan qoşunu, Qax altındakı istehkamın qorunmasını ona tapşırıb; dedi, gün ərzində Xanımızdan iki çapar gəlib, birincisi qoşunun sağ-salamat dağın ətəyinə yetişdiyini, ordugah qurub döyüşə hazırlaşdığını çatdırıb, ikincisisə, Xanımızın ətrafda dağlı dəstələrinin dolaşdığından düşərgəni basqından qorumaq üçün əlavə tədbirlər görülməsinin zəruriliyi barədə məsləhətlərini Məhəmməd xan Əfşara yetirib; dedi, Xanımız dan üzü dağlıların mövqelərinə hücum əmri verəcək, əgər Allahın mərhəməti bizimlədisə, bir neçə gündən sonra qoşunlarımız düşməni hüdudlarımızdan o tərəfə qovacaq. Mirzə Hüseynin dedikləri Qütbəddinin qayğısıyla birləşib halımı xeyli yaxşılaşdırmış, məni əməlli-başlı tərlətmişdi. Bəlkə də qoşunumuzun zəfərini ən çox gözləyənlərdəndim, çünki Xanımız Car və Talanı təmizləyib yönünü Tiflisə sarı çevirəcəkdi, mən də muradıma yetib uzun illərin sərgərdanlığımdan sonra ruhi, ola da bilsin, cismani təskinlik tapacaqdım. Bu səbəbdən tez sağalmalı, yol ərəfəsində başqaları üçün yükə çevrilməməliydim. İndi hər şey – başqaları bir yana, Xanımızın da, mənim də taleyimiz – sabahkı döyüşdən asılıydı.

439. Səhəri gün günortaya yaxın düşərgəyə çapar yox, meyitlər və yaralılar gəldiyi barədə həkimbaşı Şahabəddinə baş çəkib qayıdan Qütbəddin xəbər gətirdi. Dediyinə görə, dağlılar

Cara casuslar göndərib Xanımızın niyyətindən xəbər tutublarmış, ona görə də qabaqcadan ehtiyat tədbirləri görüblər, qayadan uçub bizimkilərin əlinə yaralı keçən talalıdan öyrəniblər ki, aşırımı qoruyan İbrahim Divanla Xəlil bir neçə yüz könüllünü qoşunumuzun irəlilədiyi dar çığırın hər iki tərəfindəki kolluqlarda yerləşdiriblər; gəncəlilər, şirvanlılar, gürcülər, kürdlər, cəzirələr pusqudan xəbərsiz xeyli irəliləyiblər, qəfildən dağlıların çarpaz atəşi altına düşüblər. Qütbəddinin dediyinə görə, ölənlərin, yaralananların sayı get-gedə artır, indiyəcən altmışacan meyit, bəlkə də iki o qədər yaralı gətiriblər. Bu xəbər halımı pisləşdirdi, amma Qütbəddinə israrla dedim ki, mən birtəhər dözərəm, gedib həkimbaşı Şahabəddinə kömək eləsin, o da inadımı görüb çar-naçar getməli oldu. Axşamacan yarıbayğınlıq içində qaldım, ilğım kimi titrəyən xəyalımda Xanımızın qaralan bayrağını, arı kimi havada uçuşan güllələri, gülləyə tuş gəlib, uçurumdan yıxılan adamların üzünü, o adamları çəkib udan dibsiz uçurumları görürdüm. Hava qaralandan xeyli sonra Mirzə Hüseyn qayıtdı, gördüm, elə vəziyyətdədi ki, mənə ürək-dirək verməyə belə çətinlik çəkir. Təkcə onu dedi ki, döyüş qaranlığın düşməsilə ara verib, amma meyitlərin və yaralıların arası kəsilmir. Məhəmməd xan Əfşar uzaqdan olan mərhumları gecəykən basdırmağı, yaralıları Qaxdakı düşərgəyə göndərməyi, qoşunasa səfərə hazır olmağı əmr eləyib. Beynimdən keçdi ki, Məhəmməd xan Xanımıza kömək göndərmək fikrindədi, yəqin sabah döyüşün taleyi barədə dəqiq xəbər çıxar…

440. O biri gün günorta olmamışdı ki, elə bil, düşərgədə ildırım çaxdı. Xanımızın yasavulu xorasanlı Sərxan sol qolundan yaralanmış halda özünü Məhəmməd xan Əfşara yetirmiş, gözləri önündə baş verənləri ağlaya-ağlaya danışmışdı: dediyinə görə, Xanımızın şəxsi mühafizəçiləri, cəzirələr, gəncəlilər, şirvanlılar, gürcülər, kürdlər cığırın hər iki tərəfindən dolu kimi yağan atəşdən özlərini itiriblər, düşməni görmədən hara gəldi, atəş açıblar; Uğurlu xan Ziyadoğlu Xanımızı dilə tutub ki, döyüş meydanından uzaqlaşsın, məmləkəti başsız, taxt-tacı vəliəhdsiz, qoşunları sərdarsız qoymasın, amma Xanımız bunu özünə yaraşdırmayıb, deyib ki, sərdarı qaçan qoşundan qələbə gözləmək olmaz; get-gedə sıraları seyrəlib, bundan sonra döyüşməyə yox,

canlarını qurtarmağa çalışıblar, dağlıların arasında olan İbrahim Divan da həmin məqamda Xanımızı tanıyıb, onun başını nişan alıb; Xanımız yaralı halda qurtulmağa can atıb, elə həmin vaxt da bayraqdarın, üstəlik, Uğurlu xan Ziyadoğlunun yerə sərildiyini görüb; qardaşı Həsən xan özünü ona çatdırıb, Uğurlu xan deyib ki, bir yol tapıb İbrahim xanı döyüş meydanından uzaqlaşdırsın, onun başına bir şey gəlsə, Şahımızın qəzəbindən bütün Azərbaycan od tutub yanacaq; amma biçarə sözünü qurtarmamış Həsən xan da dağlıların amansız gülləsinə tuş gəlib; İbrahim Divanın və Xəlilin dəstələri sağ qalanları məngənəyə salıblar, İbrahim Divan Xanımızı əlindən də yaralayıb, sonrasa başına atəş açıb; sağ qalan qoşunbaşlıların döyüş meydanından uzaqlaşmaq barədə təkidlərinə qulaq asmayan Xanımız yaralı-yaralı dikəlib, yaxınlıqdakı ağaca söykənib, içməyə su istəyib; minbaşı Əlixan bəy yanındaymış, qumqumasındakı suyu Xanımıza içirdəndə rahatlanıb, gözlərini yumub; beləcə, necə deyərlər, binəva *taxtını qurdu, baxtını qura bilmədi.* Xanımızın öldürüldüyünü görənlər dağlılarla əlbəyaxa döyüşə giriblər, o döyüşdən çox az adam qurtula bilib; Təhmurəs Mirzə dərhal gürcülərin qalan qismilə Kaxetə sarı qaçıb, gəncəlilər və şirvanlılar artıq yola çıxıblar; dağlılar zəfərdən ruhlanıb Cara yaxınlaşdıqlarından meyitlərimizi və yaralılarımızı götürməyə imkan yoxdu. Bütün bunları mənə ağlaya-ağlaya söyləyən Mirzə Hüseyn dedi, Məhəmməd xan yola çıxmaq əmri verib, cəld yığışmalıyıq. Bunları eşidəndə təkcə dilim tutulmadı, düşünüb-daşınmaq qabiliyyətimi də itirdim. Bu xəstə halımda, dağlıların Tiflis yolunu tutub Təhmurəs Mirzənin qoşunundan qalanları izlədikləri vaxtda taleyimin qulu olmaqdan başqa çarəm vardımı? Göz yaşlarım səssiz-səmirsiz yanaqlarıma axdı, gözlərimi bir nöqtəyə dikib xeyli susdum, elə burda, bu çadırdaca ölüb qurtulmağı arzuladım…

441. Qütbəddin çox vəfalı çıxdı, göz yaşları yanağında qurumuş halda özünü yetirdi, geyinməyimə, ayağa qalxmağıma kömək elədi, sandıqlarımın qatıra yüklənməsinə, özümün ata mindirilməyimə göz qoydu, çadırımızı yığışdırıb, ayrıca qatıra yüklətdi, xarabalığı xatırladan ordugahdan keçib Qax yoluna çıxdıq. Çadırlar yığışdırılmış, ocaqlar söndürülmüş, arabalar qoşulmuş, dəvələr, qatırlar yüklənmişdi, məğlub qoşunumuz geri

dönmür, düşmən təqibindən qaçırdı. Ordugahda qalan Əhər, Xoy, Ərdəbil, Zəncan, Səlmas, Lənkəran, Astara, Qarabağ atlıları, az qala iyirmi minlik ordu Xanımızın ölüm xəbərini alandan sonra gücsüz, köməksiz kütləyə çevrilmişdi, tələm-tələsik aradan çıxıb canını qurtarmaq istəyirdi. Məhəmməd xan Əfşar ölüm sükutuna bürünüb atlıların az qala bir-birini ayaqlaya-ayaqlaya ordugahdan çıxmasına baxırdı. Döyüşdən salamat çıxan xan mühafizəçiləri kürdlər və cəzirələr Məhəmməd xana yaxın yerdə yığışmışdılar, elə bil ölümqabağı İbrahim xandan onu qorumaq əmri almışdılar. Məhəmməd xanın yanında bayraqdar yox idi, bayraqdar döyüşdə öldürülmüş, bayraq dağlıların əlinə keçmişdi. Əlbəttə, uzaq Hindistanda zəfərlə irəliləyən Şahımız bu rüsvayçılığı bağışlamayacaq, qardaşının qanını yerdə qoymayacaqdı. İndisə Məhəmməd xan Əfşarın işarə eləməyinə ehtiyac yoxdu, qoşun artıq payız yağışından islanmış yola düzülmüşdü mümkün qədər bu lənətə gəlmiş yerdən uzaqlaşmaq istəyirdi. Allah üzümə baxmışdı bu dəfə, Qütbəddin yanımdaydı, Allahın möhlət verdiyi vaxtacan həyan olacaqdı, əgər ilin bu vaxtında canıma çökən xəstəlik axırıma çıxmasaydı, əgər alnıma bu yerlərdə dünyadan köçmək yazılmamış olsaydı, bir daha Təbrizə dönəcəkdim…

# VIII

# BAĞRI YARA YOLLAR

***Ey Ahura Məzda, səndən soruşuram, mənə bildir:***
***Kimdir yelə və bərk gedən buluda iti getməyi öyrədən?***

***«Avesta»dan.***

442. Umudsuzluğun tutqun rəngdə olduğunu sübut eləməyə ehtiyac varmı? Günəş işığıyla dolu günlərdə belə umudsuzluq hər şeyi soldurur, cansıxıcı eləyir. Mən də tutqun simalar, tutqun mənzərələr görür, tutqun səslər eşidirdim, bu tutqunluq da acı bağırsaq kimi gündən-günə uzanırdı. Allahın mərhəmət göstərib rastıma çıxardığı Qütbəddin yanımdan aralanmırdı, təkcə mənə yox, hər şeyə biganələşib, yalnız Təbrizə can atan Mirzə Hüseynə də həyan olurdu. Onun bu dar günümdə məndən ötrü Tanrı bəxşişi olduğuna inanmağa haqqım vardı: çuxamın üstündən geyindirdiyi başlıqlı kürkü olmasaydı, xəstə canımla yağış altından salamat çıxa bilməzdim. O gün axşamdan xeyli keçmiş Qax altındakı istehkamda Məhəmməd xan Əfşar heç tonqal yandırmağa da qoymadı, Mirzə Hüseynin dediyinə görə, gecə basqınından ehtiyatlanırdı. Xan ixtiyarında qalan qoşun başçılarını yığıb Xanımızın meyitini düşmənin əlindən almaq yollarını götür-qoy eləmişdi, amma axırda bunun faydasız olduğunu anlayıb, obaşdan Təbrizə sarı üz tutmağı qərarlaşdırmışdı. Əvvəlcə meyitin harda, kimin əlində olduğunu öyrənmək, sonra da gözgörəti ölümə gedəcək oğulları tapmaq gərəkdi, Xanımızın yolunda canlarını fəda eləmiş, sayları azalıb, sıraları seyrəlmiş Xorasan cəzirələri belə buna qadir deyildilər. Böyük bir qismi səhra şirləri olan qoşunumuzun dağ qaplanları qarşısında bu qədər köməksiz olacaqlarını bilsəydi, Xanımız hücuma qərar verməzdi, Məhəmməd xanın təklifini eşidib düşməni düzənliyə – Qaxla Car arasına endirmək üçün yollar axtarardı. İndi ləzgilərin və qaraqaytaqların qüvvəsilə güclənmiş qiyamçılara, qulaqla-

ra qurğuşun, heç Şahımızın say-seçmə qoşunu da üstün gələ bilməzdi. Güman ki, artıq dağlılar bütün yolları kəsib, etibarlı pusqu qurublar, heç Qazax-Tiflis səmtinə üz çevirmək barədə də düşünmək olmaz, ona görə də, təkcə güney yolumuz qalırdı. Bütün bunları götür-qoy elədikcə fikirləşirdim ki, çıxmayan cana çox ümid var, bəlkə bir az özümə gələndən sonra, lap elə Şəkidə, Ərəşdə qoşundan ayrılıb quzeyə üz tutaram.

443. Şirvan qoşunundan qalanlar, Şəki və Ərəş atlıları gedəndən sonra sayımız xeyli azalmışdı, Kürə çatanda da Qarabağ atlıları, Gəncə qoşunundan qalan Şəmşəddil bölüyü aralandı. Məhəmməd xan Əfşar qoşunu tələsdirirdi, günorta ancaq bir hovurluğa nəfəsimizi dərmək, namaz qılmaq, Allah verəndən yeyib aclığımızı söndürmək üçün dayanırdıq, sonra yorğunluğumuz çıxmamış carçıların səsi eşidilir, hamı atlanır, dəvələr, qatırlar, öküz arabaları hərəkətə gəlib güneyə sarı sürünürdü. Yolların palçığında batan arabaları çıxarmağa çox vaxt sərf eləmirdilər, başağrısı olanda yükündən lazım olanları götürür, öküzlərin belinə yükləyirdilər, bəzən də heydən düşən öküzü dərhal şaqqalayıb, yararlı yerlərini kəsir, artığını qurda-quşa yem qoyurdular. Heç yaralılara əməlli-başlı diqqət göstərməyə də aman yox idi, ölənləri ayaqüstü duayla yolun qırağındakı çalarda basdırır, üstünə daş, ya da ağac parçası qoyurdular. Qaxdan ta Ağdaşdan güneydəki Kür keçidinəcən yol qıraqlarında onlarla adsız qəbir qoyub gəlmişdik, yəqin ki, o qəbirlərin sayı bundan sonra da artacaqdı. Mübaliğəsiz, Qütbəddin olmasaydı, o adsız qəbirlərdən biri də mənim qismətimə düşəcək, heç Kürü keçməyə də amanım qalmayacaqdı, amma görünür hələ ömür möhlətim bitməyibmiş. Məhəmməd xan Əfşar Kürün güneyində az-çox toxtadı, üç günlük qaçaqaçdan sonra çadır qurub, heç olmasa, yarım gün dincəlməyə izin verdi. Qafiləmizi arxadan qoruyan Xoy və Səlmas atlıları, eləcə də amansız qırğından salamat qurtarıb gözdən iraq yerlərdə gizlənmiş, ölüm qorxusu canında güneyə sarı üz tutmuş döyüşçülər artıq təhlükənin uzaqda qaldığını söyləsələr də, kimsə rahat deyildi. Üstəlik, Mirzə Hüseynin dediyinə görə, Məhəmməd xan Əfşar Şahımızın qəzəbindən qorxurdu: əgər qardaşını güdaza verib canlarını qurtardıqlarını

güman eləyəcəkdisə, qoşunbaşılar nə vaxtsa paylarına düşəni alacaqdılar…

444. Qütbəddin hələ ki, sandıqlarımı sağ-salamat gətirib bura çıxarmışdı, Allahın köməyilə bundan sonra həyatımın yeganə yatırının başına bir şey gəlməzdi. Üç gün əvvəlcədən var-yoxum o sandıqlarımın birindəki kitablardan, əlyazmalardan, bir də Tiflisi görmək ümidindən ibarət idisə, indi ümidimin yerində külə oxşar toz qalmışdı, bundan sonra yönümün daha quzeyə dönəcəyinə inanmırdım. Məhəmməd Xan Əfşarın Qaxdakı ordugahdan Peşavərə, Şahımızın yanına göndərdiyi çaparlar artıq yoldaydılar, yəqin Araza doğru çapırdılar, canlarında bu bəd xəbəri Aləmin Fatehinə çatdıracaqlarının qorxusu vardı. Şahımız xəbər tutanda qoşununun yönünü günbatana çevirib dağlıların üstünəmi gələcəkdi, yoxsa Məhəmməd Şahı diz çökdürüb kədərini zəfərləri içindəmi boğacaqdı – bunu özündən başqa kimsə qət eləyə bilməzdi. O gecə Kürün güney tərəfindəki ordugahımızda halım qəfildən pisləşəndə, Qütbəddinin əl-ayağa düşüb məni ölümün pəncəsindən qurtarmaq üçün vurnuxduğunu dumanlanmış şüurumla sezəndə, qarışmış xəyalımda keçdiyim uzun yollarla yox, uşaqlıq çağlarımla bağlı qarabasmalar boy verəndə hər şeyin bitdiyini zənn eləmişdim. Amma səhəri, elə bil, minillik yuxudan oyanmışdım, özümü bir qədər gümrah hiss eləyirdim, yatağımın böyründəcə yuxuya getmiş zavallı Qütbəddini oyatmamaq üçün ehmalca qalxıb eşiyə çıxanda, hələ də sağ olduğuma kədərlənməli, yoxsa sevinməli olduğumu kəsdirə bilmədim. Amma o qədər zəifləmişdim ki, təkbaşına Tiflis bir yana, heç Gəncəyə sağ-salamat çıxa bilməzdim. Bir azdan carçılar ordugaha dağılışacaq, hamını yola çıxmağa tələsdirəcəkdilər, yenə bulanlıq sel kimi üzü güneyə tələsən axın baş alıb gedəcəkdi. Yadıma Məhəmməd Kazım düşdü, beynimdən keçirdim ki, o nəhs yuxusunu Xanımıza söyləməməsinin əzabını hələ uzun illər çəkəcək, elə mən də bundan sonrakı olan-qalan ömrümdə o ağrını yaşayacağam…

445. Kürdən Arazacan bir həftəlik yolumuz ağlagəlməz əzabla doluydu. Payız yağışlarının ara vermədiyi günlər idi, Beyləqandan yan keçib Kəleybər səmtinə doğru sürünən qafiləmiz, doğrudan da, məğlub ordunun tör-töküntülərini xatırladırdı. Yolun

ağırlığına dözməyib dünyadan köçünü sürən yaralılara, islaq paltarını qurutmağa imkan tapmayan, qızdırıb-üşüdən xəstələrə, palçığa batan, yaxud çarxları çıxan arabalara baxmağa kimsənin amanı yox idi, hamı birtəhər sürünüb mənzilə çatmaq, yaşadığı ağrı-acını unutmaq istəyirdi. Qarabağ, Rəvan, Nəqşivan, Lənkəran, Astara atlılarının ayrılmasından sonra qoşun yarıbayarı azalmışdı, Arazı keçəndən sonra Ərdəbil, Zəncan, Mərənd atlıları da ayrılacaqdılar, beləcə, sovurula-sovurula, azala-azala Təbrizə yetişəcəkdik. Təbrizdəsə bizi mərhum Xanımızın yolunu gözləyənlər – zövcəsi, oğulları, saray əhli gözləyirdi, yəqin, indi çaparlar saraya yetişmiş, acı xəbəri çatdırmış, sonra üzü gündoğana yola çıxmışdılar. Ağlımdan Ərdəbil atlılarına qoşulub Mirzə Kəmaləddinə pənah aparmaq, ara sakitləşib, sular durulanacan ona sığınmaq, taleyin işdəklərini gözləmək keçdi, amma bunu Məhəmməd xan Əfşara, Mirzə Hüseynə lap elə cəfakeş Qütbəddinə necə başa sala bilərdim? Üstəlik, öz hayına qalan Ərdəbil atlılarına bel bağlayıb həyatımı təhlükəyə ata bilməzdim, yolda qurda-quşa yem olub həyatımın yatırını əldən verərdim. Hələ axına qoşulub gedirdim, qismətimdə vardısa, su axan yerdən bir də axdığı kimi, mən də ölməyib təzədən quzey səfərinə çıxacaqdım. Şübhəsiz, Şahımız bu qisası yerdə qoymayacaq, gec-tez dağlılarla haqq-hesabı çürüdəcəkdi, əgər bu dəfə də ölümün pəncəsindən qurtulmuşdumdsa, mənə yalnız o vaxtacan birtəhər yaşamaq, səbirlə gözləmək, ümid eləmək qalırdı…

446. Görünür, Xanımızın ölümündən sonra duyduğumuz qorxu çox böyükmüş, çünki fəlakətdən qurtulduğumuza yalnız Kəleybər səmtində Arazı keçəndən, Məhəmməd xan Əfşar dincəlmək izini verəndən sonra əmin olduq. Mirzə Hüseyn Məhəmməd xanın çadırına gedib qayıdandan sonra dedi, təxmini hesablamalara görə, üç minə yaxın adam itirmişik, beş yüzə yaxın da hələ at belində oturmağa taqəti qalan yaralı var. Təbii ki, ən çox itkini şirvanlılar, gəncəlilər, gürcülər, Marağa kürdləri və Xorasan cəzirələri vermişdilər, ən böyük itkisə Xanımızın nəşinin düşmən əlində qalması, bir də Uğurlu xan Ziyadoğlunun öldürülməsiydi. Gəncəlilərin Uğurlu xanın cəsədini döyüş meydanından çıxarıb-çıxarmadıqlarını kimsə bilmirdi, çıxarsalar belə, o itkinin yerini bundan sonra kimsə doldura bilməzdi.

Mənə görə, Şahımızı qardaşının ölümündən çox nəşinin düşmən əlində qalması yandıracaqdı, bunu kimsəyə, heç doğma əmisi oğlu Məhəmməd xana da bağışlamayacaqdı. Qışın ortasında, şöhrətinin zirvəsində, uzaq bir məkanda bu xəbəri eşidən vaxt neyləyəcəkdi: çaparlarımı asdıracaqdı, düşmən əsirlərinimi kirişlə boğduracaqdı, köhnə qəzəbini yatırtmaq üçün əyan-əşrəfdən kiminsə boğazına ərinmiş qurğuşunmu tökdürəcəkdi, yoxsa çadırına çəkilib günlərlə bayıra çıxmayacaq, susacaq, intiqam almaq üçün tədbirmi tökəcəkdi? Bunu sonra biləcəkdik, indisə Təbrizə yetişmək üçün hələ irəlidə üçgünlük yol dururdu, Məhəmməd xan Əfşar çadırından çıxmayıb Şahımızın qəzəbindən necə qurtulacağı, faciəni Xanımızın əhli-əyalına necə izah eləyəcəyi barədə düşünürdü. Əlbəttə, ortada üstündə ağlamağa, dua oxumağa, dərdini söyləməyə nəşin olmamağı ağır şeydi, üstəlik, o nəşin nə vaxtsa qəbir şəklində olmayacağını, ürəyini boşaldıb yüngülləşmək istəyəndə üz tutmağa bir səmt tapmayacağını dərk eləmək daha ağırdı. Düzdü, dağ meşələrində qurda-quşa yem olan cəsədlər, gəbərmiş qoşqu heyvanı kimi yol qıraqlarındakı xəndəklərə atılıb üstü torpaqlananlar da vardı – bu da bir ayrı dərddi. Xanımız qardaşının töhmətindən qurtarmaq üçün özünü qurban vermişdi, amma, özü qurban getmək bir yana, üstəlik, dərs vermək istədiyi dağlıları daha da cəsarətləndirmişdi.

447. Araz qırağındakı ordugah son məkanım ola bilərdi, həmin axşam halim təzədən qarışdı, qızdırma, üşütmə, titrətmə bir-birini əvəz elədi, o məqamda heç Təbrizə sağ-salamat gedib çıxmayacağıma tam əmin oldum. Amma Qütbəddin fikirləşdiyimdən də vəfalı çıxdı, Mirzə Hüseynlə köməkləşib, həkimbaşı Şəhabəddindən aldığı cürbəcür ot cövhərləri içirtməklə, kürkə bürüyüb tərlətməklə məni ölümün pəncəsindən aldı. Bilmirəm, tarixin bu qədər gözlənilməz dönümlər elədiyi vaxtda tarix yazmağımın dəyərinimi anlamışdı, həkimbaşının buyruğunumu yerinə yetirirdi, yoxsa ortada mənim bilmədiyim başqa bir səbəbmi vardı, hər halda, ordugah yerindən qalxanda mən də tərpənə bildim. Ancaq Qütbəddin məni ata mindirməyə ürək eləmədi, çadırlar yüklənmiş arabaların birində yer tapdı, özü də yolboyu atını arabanın yanınca sürdü. Arxası üstə uzanıb bozbulanıq payız səmasına baxır, yaşamla ölüm arasındakı hüdudun

nə qədər yaxın və gözlənilməz olduğu barədə fikirləşdim: görünür, Allahım hələ ömür möhlətimin bitməsini istəmir, irəlidə ağlıma gətirə bilmədiyim başqa sınaqlar da var. Bir vaxt İsfahanda ölümün çox yaxın olduğu məqamda, sonra İstanbulda umudsuz günlərimdə, Konyadan Ərzuruma səfərimdə elə bil gözəgörünməz bir əl uzanıb cismimi sığallamış, yaşamağın nə qədər gözəl olduğunu qulağıma pıçıldamışdı. Birində qismətin rast gətirdiyi əcnəbi, o biri ikisində Mirzə Kəmaləddinlə Səfərin mərhəməti və səxavəti, indisə Qütbəddinin vəfası həmin o gözəgörünməz əldi, alın yazımda vardısa, bu da sonuncu olmayacaqdı. Cavanın araba çağından bir az hündürdə gördüyüm siması bu məqamda məndən ötrü mələk Cəbrayıl misalındaydı, o mələk məni aparıb Təbrizə çatdıracaq, ayağa qalxmağıma, təzədən taleyimin yiyəsi olmağıma yardım eləyəcək, bəlkə də həyatımın məqsədinə qovuşduracaqdı…

448. Qara xəbər özünü Təbrizə bizdən qabaq yetirmişdi. Getgedə ayrılıb, sovurulub cəmi dörd min qalan qoşunumuz Acıçayı keçib şəhərə girəndə, divar diblərindən, eyvanlardan, qapılardan, pəncərələrdən səssiz-səmirsiz, bir qədər də hürkək-hürkək baxan adamların arasından keçib saray meydanına doğru yollananda, sarayın darvazasından, saray məscidinin minarəsindən asılmış ələm bayraqlarını görəndə daha da miskinləşmiş, qaçqın dəstəsini xatırlatmışdı. Şahımızın taxta çıxmağından, az qala, iki il ötürdü, bu iki ildə Şahımız və Şahzadəmiz məmləkətin bir tərəfində əmin-amanlıq yaratmışdılar, o biri tərəfindəsə qaş düzəltmək yerinə vurub gözü də çıxartmışdılar – dağlılarla haqq-hesabı çürütmək əvəzinə taxt-tacın vəliəhdi güdaza getmişdi. Arada qulağıma söz-söhbət çatmışdı ki, bu faciənin baiskarı minbaşı Səməd bəy Təbrizidi, mərhum xanı o yoldan çıxarıb, beynini doldurub ki, hərəkət eləməsən, şah səni qətlə yetirər. Guya həm də təhrik eləyirmiş ki, Dağıstanı hökmü altına alandan sonra qardaşından aralansın, Azərbaycanın şahı olsun. Əgər bu şairələr Şahımızın da qulağına çatsaydı, şübhəsiz, Səməd bəyin nəslini kəsəcəkdi. Məhəmməd xan Əfşar saray meydanında atdan enib əyan-əşrəflə darvazanın ağzında dayanmış Məhəmməd Əlini qucaqlayanda Qütbəddin məni arabadan endirirdi, xanın çiyinlərinin titrədiyini görüb istər-istəməz

mən də qəhərləndim. Ardınca mollabaşı dua verdi, hamı salavat çevirəndən sonra bir-bir Məhəmməd Əliyə təzim eləyib, başsağlığını çatdırdı. Xanzadəylə üzbəüz gələndə on yeddi yaşına təzəcə qədəm qoymuş yeniyetmənin görmədiyim altı ay ərzində nə qədər böyüyüb-yetkinləşdiyinin fərqinə vardım. Şübhəsiz, Azərbaycanın valisi yenə İbrahim xanın törəmələrindən biri olacaq, ya Məşhəddə Rzaqulu Mirzənin kölgəsi sayılan Əliqulu xan, ya da xasiyyətcə də, görkəmcə də mərhum Xanımıza oxşayan elə bu yeniyetmə onun yerini tutacaqdı, amma taxt-taca varislik artıq Rzaqulu xanın qismətindəydi. O məqamda beynimdən keçdi ki, Xanımızın törəmələri gerçəkliyi anlasalar da, bununla barışa bilməyəcəklər, ola bisin, qabaqda çox ağlagəlməz hadisələr baş verə. Sonra Qütbəddindən sandıqlarımı hücrəmə apartdırmasını istədim və Xanzadənin dəstəsinin ardınca sarayın darvazasından içəri girdim…

# IX

# GÜNLƏRİN TUTQUNLUĞU

*Atın qara, zil qara,*
*Mindin getdin ilqara.*
*Sən iqardan gəlincə,*
*Anan geydi zil qara!*

***O gün eşitdiyim ağı***

449. Saray meydanında qurulmuş matəm çadırı ramazan və şəvval ayları boyunca dolub-boşaldı. Vəfalı Qütbəddinin sayəsində mən də bir həftə sonra yatağımdan qalxıb camaat arasına çıxdım. Bayram ovqatı olmadığından ramazanı səssiz-səmirsiz başa vurduq, Xanımızın ölümündən qırx gün də keçdi, amma çadırı yığışdırmağa kimsə ürək eləmirdi, elə bil hansı möcüzəyləsə mərhumun nəşinin qəfildən peyda olmağını, urvatlanıb, dəfn üçün Məşhədə aparılacağını gözləyirdilər. Amma ramazan bayramının səhəri günü Şirvan xanının çaparı gəldi, gətirdiyi xəbərin əzabını çəkə-çəkə dedi, İbrahim Divan Xanımızın cəsədini şəriət qaydalarına uyğun yudurdub, üstündə dua oxutdurub, indi Təbriz zindanındakı on altı ləzgi sərəskərinin və tayfa başçısının buraxılmasını istəyir, yoxsa cəsədi yandıracaqlar, Məhəmməd xan Əfşar divanı topladı, məsləhətləşdi, həmin on altı nəfərin buraxılandan sonra başlarına bəla olacağı qərarına gəlib çaparla rədd cavabı göndərdi. Məhəmməd xan Əfşar da, mərhumun oğlu Məhəmməd Əli də Xanımızın ruhunu təhqir olunmuş saydılar, nə vaxtsa dağlılardan amansız intiqam alacaqlarına and içdilər. Bir neçə gün sonra Məşhəddən, Əliqulu xandan çapar gəldi. Xanzadə atasının həlakından kədərləndiyini bildirir, Şahımızın məsləhət bildiyi vaxt Şirvanın üzərinə gedəcəyini, müqəssirləri amansızlıqla cəzalandıracağını xəbər verirdi. Mirzə Hüseyn bunu danışanda Azərbaycan valisinin taxtında kimin oturacağını narahatlıqla soruşdu: açıq-aşkar duydum ki, ipə-sapa yatmayan, eyş-

işrəti çox sevən, şöhrətpərəst və xudpəsənd Əliqulunun Təbrizə qayıtmağını heç arzulamır, ondansa Məhəmməd xan Əfşara, bir də Məhəmməd Əliyə daha çox ürək qızdırır. Əlbəttə, Şahımız qardaşı oğlunu qoyub əmisi oğluna bel bağlamazdı, üstəlik, özünün Hindistan, Rzaqulu xanın Türküstan tərəflərdə olduğu vaxtda Əliqulu xanı Məşhəddən buraxmazdı. Bunu Şahımızın tezliklə göndərəcəyi namədən biləcəkdik…

450. Namə, doğrudan da, gecikmədi, şəvval ayının axırında gəldi. Mirzə Hüseynin dediyinə görə, Mirzə Möhsünün ramazan bayramı səhəri yazdığı namədə Şahımız qardaşının və Vəliəhdin ölümündən bərk kədərləndiyini bildirir, xanzadələrə baş sağlığı verir, hücumun uğursuzluğunda üstüörtülü Məhəmməd xan Əfşarı da günahlandırır, gündoğan hüdudlarında hər şeyi yerbəyer eləyəndən sonra dağlıları diz çökdürəcəyinə söz verirdi. Gözlədiyimiz də olmuşdu, Şahımız Azərbaycan valisinin taxtını Məhəmməd Əliyə və qoşunların baş sərdarlığını da Məhəmməd xan Əfşara yox, Əmiraslan xan Qırxluya etibar eləmişdi, üstəlik, Məhəmməd Əli bəyə bundan sonra ikinci İbrahim xan Əfşar adını götürməyi məsləhət görmüşdü ki, düşmənlər qardaşının öldüyünü zənn eləməsinlər; Məhəmməd xan Əfşara da cavan Xanımızın yanında qalıb məsləhətçisi olmağı buyurmuşdu; yeni Xanımız üstəlik, dövlət işlərində böyük təcrübəsi olan Mirzə Qulamın sözünü eşitməli, əmr gələnəcən vergi yığımını qaydaya salmaqla, qoşun üçün ərzaq və sursat hazırlamaqla, Təbriz ətrafındakı kürdləri Xorasana köçürməklə, İsfahan tərəflərdən Nəqşivana, Rəvana, Qarabağa, Gəncəyə, Şirvana köçən ermənilərə yardım göstərməklə, ticarət yollarında əmin-amanlığı təmin eləyib quldurları cəzalandırmaqla məşğul olmalıydı. Əlbəttə, Şahımız ədalətli qərar vermişdi, Məhəmməd Əli mərhəmətli, ürəyiyumşaq, dərrakəliydi, amma hələ cavan idi, dünyagörmüş, taxt-taca sədaqətli adamların əhatəsində yetişəcək, xanədana layiq şəxs olacaqdı. Üstəlik, məsələ burasındaydı ki, Şahımız Xanımızın Əmiraslan xan və digər güvənməli adamlar arasında Mirzə Qulam və Mirzə Hüseynlə yanaşı, mənim adımı da çəkmişdi, belə çıxırdı, artıq onun izini olmadan Təbrizdən çıxa bilmərəm, acığına gələr. Həmin məqamdan günlərin birində halal-hümbət eləyib Tiflisə doğru yola düşəcəyim xülyasından

bilmərrə əl çəkdim: o xülyanın gerçəkləşməsi artıq Xanımızın yox, Şahımızın hökmünə bağlıydı, bu məqamda mənim səbr eləməkdən başqa əlacım qalmırdı…

451. Mirzə Hüseyn bütün bunları yerli-yataqlı danışandan sonra Mirzə Mehdinin naməsini vermişdi, görünür, çox həyəcanlanacağımı zənn eləyib səbir göstərmişdi. Mirzə Mehdidən axırıncı naməni yaddaşım aldatmırsa, Şahımız Hindistan səfərinə çıxmazdan qabaq almışdım. 1152-ci il, şəvval ayının ilk günü yazdığı bu namədə istəkli dostum dörd həftədən bəri Peşavərdə dincəldiklərini, amma mərhum Məhəmməd İbrahim xanın faciəsilə çox sarsıldıqlarını xəbər verirdi, yazırdı, xəbəri gətirən çapar Şahımızın hüzurunda meyit rəngi almışdı, diz çökdüyü yerdən ayağa qalxmağa taqəti yox idi, iki əliağaclı sürüyüb aparmasaydı, yəqin canı ordaca çıxacaqdı; yazırdı, Şahımız bütün vücuduyla taxtından dikəldi, qaraşın sifətinin daha da boğulduğunu, yanağının səyridiyini, əlinin qılınca doğru dartıldığını sezdim, amma daş kimi susdu, bir anmı, bir əbədiyyətmi çəkən qorxunc sükutdan sonra hamımız mürəxxəssiniz, dedi, başsağlığı verib, təzim eləyib çıxanlara durğun nəzərlərlə baxıb Mirzə Zəkiylə tək qaldı; yazırdı, üç gün kimsəni qəbul eləmədi, kimsəylə görüşmədi, sonra sərkərdələrini, əyanlarını toplayıb çaparla birgə Turabəli xan Gəncəli və Abdulla bəy Zurabadinin Təbrizdən gətirdikləri qara xəbərin müqabilində neyləmək olduğu barədə məsləhətləşdi, amma son qərar yenə özünün oldu: yolun yarısından qayıtmaq təhlükəli olar, Məhəmməd Şah elə bilər, ondan qorxub-çəkindim; ona görə də yola hazırlaşmaq əmri verdi, sabah Peşavərdən çıxıb Hind çayına doğru gedəcək, Şahımızın neçə aydan bəri tikdirdiyi körpüdən keçib, Vəzirabada yollanacağıq; yazırdı, Şahımız bu hüdudlarımızda işlərini tez bitirib Dağıstana getmək niyyətindədi, bu da Allahın köməyilə çox çəkməz. Sonra atasının nəşini Təbrizən aparıb Məşhəddə dəfn eləyən, İbrahim xanın ölümünü eşidib bir daha Təbrizə dönməməyi qərara alan, Əliqulu xana o qədər də ürək qızdırmadığına *(bəlkə də gördüyü yuxunu açıb deməddiyindən özünü həmişə onun yanında günahkar hiss eləyəcəyinə)* görə Mərvə gedib bəylərbəyinin yanında qulluğa girən Məhəmməd Kazımdan namə aldığını, məmləkətin tarixilə maraqlanan cavanın məsləhət

istədiyini, bütövlükdə onun dərrakəsini çox bəyəndiyini yazırdı. Məhəmməd Kazımdan belə qəfil xəbər alıb, çox sevindim, görünür, hər halda, mirzəliklə məşğul olmur, çünki Mirzə Möhsün Şahzadənin yanındaydı, buyrultu yazmağa, yaxud dəftərdar kimi çalışmağa da hövsələsi çatmaz, başlıcası, sağ-salamat olmağıdı…

452. Elə o həftə də çapar Rzaqulu Mirzənin Məhəmməd Əliyə – əmisi oğlu İkinci İbrahim xana, Məhəmməd Kazımın cavan Xanımıza və ayrıca mənə yazdığı namələri gətirdi. Şübhəsiz, Rzaqulu xanın adından Mirzə Möhsünün qələmə aldığı namə başsağlığından, Şahımızın buyruğunu yerinə yetirmək üçün həmişə hazır olmağın vacibliyindən bəhs eləyirdi. Məhəmməd Kazım da göz yaşları içində yazılmış naməsində atası qədər sevdiyi, həmişə güvəndiyi arxası-dayağı saydığı mərhum Xanımızın ruhu qarşısında borclu, həm də günahkar olduğunu yazır, ömrü boyu özünü bağışlaya bilməyəcəyini etiraf eləyirdi. Ola bilsin, cavan Xanımız bunu Məhəmməd Kazımın atasının nəşini Məşhədə aparmaq niyyətilə qayıtmasına yozdu, o günahın nəhs yuxuyla bağlı olduğunusa təkcə mən bilirdim, bəlkə də açıb deməmək barədə dilə tutduğuma görə, onun qədər günahkardım. Amma bütün baş verənlərin alın yazısı, qismət olduğunu, yəqin, özü də yaxşı bilirdi, o yuxusunu danışmaqla alın yazısında düzəliş eləyə biləcəyini fikirləşirdisə, deməli, böyük yanlışlığa yol verirdi. Əgər möhləti bitmiş olsaydı, mərhum Xanımız ötən il vəba qırğınından sağ çıxmazdı, yaxud o vaxtacan girdiyi döyüşlərin birində gülləyə tuş gələrdi. Ola bilsin, cəsarətsizliyi ömrü boyunca Məhəmməd Kazımın yol yoldaşına çevriləcək, ona əzab verəcəkdi, əgər məmləkətin tarixini qələmə almaq fikrinə düşsəydi, şübhəsiz, o məqamın ağrısını da təsvir eləyəcəkdi, amma bütün bunlar həqiqəti anlaması üçün əngələ çevrilməyəcəkdi, çünki elə özünün indi Mərvə gedib çıxması da alın yazısıydı; ümidvardım ki, elə Məhəmməd xan Əfşarın qızı Pərixan xatuna münasibəti də alın yazısıyla bağlıydı, əgər qismətində vardısa, bu sevda nə vaxtsa baş tutacaqdı. Əlbəttə, bütün bunları Mirzə Hüseynə söyləmədim, səbəbi də bu məqamda o məşum yuxunun xatırlanmamasıyla, Məhəmməd Kazıma olan münasibətin dəyişməsini istəməməyimlə bağlıydı,

Allahın təqdirilə olub-keçənlər ikimizin aramızda qalıb tarixin malına çevriləcəkdi…

453. Məhəmməd Kazımın mənə yazdığı müfəssəl məktubu, bəlkə də, elə bu səbəbdən Mirzə Hüseynin yanında deyil, öz hücrəmə çəkilib qapını bağlayandan sonra oxudum. Həmd-sənadan sonra Mərv atlılarıyla yola çıxmağından, üç həftə tamamında Təbrizə çatmağından, üç gün sarayda qalmağından, gecələr yatağına qor dolmuş kimi çevrikdiyindən, ruhi müvazinəti yerində olmadığından, könül məsələlərini *(şübhəsiz, Pərixan xatuna bəslədiyi duyğularını nəzərdə tuturdu)* Allahın məsləhət bildiyi vaxtacan təxirə saldığından, ardınca şəriət qaydasınca mərhum atasının nəşini aparıb Məşhəddə dəfn elədiyindən, indi yeganə qayğısının ana-bacısına həyan durmaq olduğundan, bəylərbəyinin yanında da bu niyyətlə qulluğa girdiyindən yazırdı; cavan dostum həyatının sıxıntılı keçdiyini də gizlətmirdi, yazdığına görə, məcbur qalıb yerinə yetirdiyi iş könlünü şad eləmir, bu səbəbdən Şahımızın Hindistan səfərindən dönməsini gözləyir ki, bəlkə atasının xidmətləri sayəsində bir qulluq ala bilsin. Şübhəsiz, Məşhəd sarayında qalmamasının əsl səbəbini gizlətmişdi, bu da yəqin Əliqulu xana münasibətinin faş olmaması istəyindən irəli gəlirdi. Məhəmməd Kazım Pərixan xatun barədə açıq, yaxud üstüörtülü başqa şey yazmamışdı, amma namənin axırındakı Asəf imzalı iki şeir parçasından anladım ki, istəklisinin fərağından od tutub yanır. Əlbəttə, Xanımızın ölümü onu bu tərəfdən də yandırırdı, əgər İbrahim xan sağ olsaydı, dərdini deyər, Pərixan xatuna qovuşmağına əngəl çıxmazdı. Onun halına acıdım, aradan bir müddət keçib yara qaysaqlanandan, toxtayandan sonra Mirzə Hüseyn və Mirzə Qulamla məsləhətləşməyi, əgər ortada başqa mətləb yoxdusa, məsələni Məhəmməd xan Əfşara çatdırmağı qət elədim. Beynimdən keçdi ki, *ölüm – həyatın mövcudluğunu daha aydın andırmaq vasitəsidi,* yəqin bu həqiqəti Məhəmməd xan da dərk eləyər…

454. Məhəmməd Kazım naməsində yazırdı, Şahımız kefinin duru vaxtında Mirzə Mehdini xan məqamına ucaldıb, deməli, onun keçmiş xidmətlərini unutmayıbmış; yazırdı, Muğan çölündən tanıdığın sarıcalı Fəzləli bəyin yerinə eşikağası məqamı verilmiş qardaşı Pənahəli bəy Şahımızın uzaqda olmasından istifadə

eləyib, altı sarıcalı atlısıyla birgə qaçıb; yazırdı, dalınca atlılar salsalar da, yaxalaya bilməyiblər, Qəzvindən Araz qırağına, ordan Muğan çölünə qaçıblar, deyilənə görə, dağlılar tərəfə keçiblər ki, təqibçilərdən yaxa qurtarsınlar. Görünür, qardaşının başına gələnin onu da gözlədiyini hiss eləyirmiş, qaçmaqdan başqa yolu qalmayıbmış. Düz deyiblər, zaman bütün yaraları sağaldır, sağaltmasa da, hovunu alır. Saray meydanındakı matəm çadırı da söküldü, qara bayraqlar da endirildi, qış da yavaş-yavaş köçünü çəkib, yerini puçur-puçur yaxınlaşan yaza verdi. O günlərin birində Əmiraslan xan Təbrizə yetişib divanın toplantısını çağırdı. Mollabaşı xeyir-dua verəndən, Məhəmməd İbrahim xan Əfşarın ruhuna fatihə oxuyub rəhmət deyəndən sonra Mirzə Qulam danışdı, üzünü əyan-əşrəfə, xan, bəy, hakim, qazı, üləmalara tutub Allahın rizası, Şahımızın hökmüylə İkinci İbrahim xanın Azərbaycan ölkəsində hökm-fərma olduğunu, onun buyruqlarını Allahın kölgəsinin əmri kimi qəbul eləməyin vacibliyini, Əmiraslan xan Qırxlunun Azərbaycan qoşunlarının sərdarı təyin olunduğunu söylədi, ardınca hamı təzim eləyib yeni Xanımıza itaətini bildirdi, o da gözlənilmədən çiyinlərinə düşən hakimiyyət yükünün ağırlığından sıxıla-sıxıla Şahımızın etimadına layiq olmağa çalışacağını, lazım gəlsə, məmləkətin və taxt-tacın yolunda canını fəda eləyəcəyini dedi, bütün bunları söyləyə-söyləyə, elə bil, dirçəlib böyüdü, yetkinləşdi. Yığnaqda vergi yığımının vəziyyətindən tutmuş, yaz əkininəcən, çox şeylərdən danışıldı, bütün bunların təfərrüatına varmağa ehtiyac görmürəm, amma Mirzə Hüseyn Tiflisdən çapar gəlib dağlıların tez-tez Kaxetə basqın elədikləri, rədd cavabı alan dağlıların mərhum İbrahim xanın meyitini çıxarıb ağacdan asdıqları, zindandakılar buraxılmayınca, əzab verəcəkləri barədə xəbər gətirdiyini söyləyəndə, yeni Xanımızın qəzəbdən qızardığını, Əmiraslan xanın gözlərinin qan çanağına döndüyünü, Məhəmməd xanınsa utancdan üzünü gizlətməyə yer axtardığını sezdim. Xanımız üzünü Mirzə Hüseynə tutdu, dedi, Şahımıza təfsilatıyla namə yaz, qoy baş verənlərdən hali olsun. Mirzə Hüseyn dillənmədi, amma şəksiz bilirdi ki, namənin biri də artıq Hindistan yolundadı, haradasa ünvanına çatıb qəzəb tonqalında alışacaq…

455. O yığnaqda yeni Xanımızdan Novruzu el qaydasınca keçirmək izini alınmışdı,Təbriz əhli uzun qışdan, matəm ovqatından qurtulmaq üçün özünü yaz və bayram havasına təslim eləmişdi. Həmin günlərin birində Təbrizə dönəndən bəri ilk dəfə şəhərə çıxdım, vəfalı Qütbəddinin yanımda olmasına sevinə-sevinə Əlişah Ərkinin əzəmətinə heyran-heyran baxdım, Gülüstan bağını doya-doya gəzdim. Tutqun və kədərli aylardan sonra gülən üzlər, işıq saçan gözlər görür, elə bil, sonsuz zülmətin içindən asta-asta çıxır, nura qovuşmağa can atırdım. Böyük Bazar meydanından keçəndə divar dibində oturmuş bir uşaq gördüm, uzaqbaşı, yeddi-səkkiz yaşı olardı, görkəmində, illah da gözlərinin dərinliklərində çılpaq kimsəsizlik oxunurdu. Az qala, altmış il əvvəl mən də o nagahan gecə basqınından qorxmuş, sarsılmış halda beləcə divar dibinə sığınmışdım, yanımdan keçən ayaqlara baxır, gözlərimi yerdən qaldırmağa çəkinirdim. Sonra ayaqlardan biri dayandı, kimliyimi soruşdu, dillənmədiyimi görüb, əlimdən tutdu, mən də üzüyola uşaq kimi yad adamın yanına düşüb getdim. O gedən yollardayam, indi, az qala, dünyanın yarısını dolaşıb, Təbrizdə özümlə rastlaşmışdım, gördüyüm vücuda çaşqın-çaşqın, bəlkə də, qorxa-qorxa baxırdım. Əlimi atıb mərhum Xanımızın səxavəti sayəsində dolmuş kisəmdən bir qızıl sikkə çıxardım, Qütbəddinə dedim, bazar ağzında dəyişdirib o uşağın könlü istəyən şeyləri alsın. İndi özüm divar dibində oturmuşdum, rəhmdil Allah bəndəsinə rast gəlib xəyalımda belə sahib olmadığım geyim-gecimə, şirniyyata necə yiyələndiyimə baxırdım. Qütbəddin uşağı yola salıb qayıdanda səssiz-səmirsiz ağlayırdım, göz yaşım axıb saqqalımı isladırdı, amma xeyli rahatlanıb yüngülləşmişdim. Deməli, *hər bir adam həyatında özünün və başqalarının qəlbini sındırmalı, sonra da özünün də başqalarının qəlbinə qayğıyla yanaşmağı öyrənməliymiş.* Mən ürək də sındırmışdım, ürəyimi də sındırmışdılar, indi bunların bədəlini ödəyirdim...

# X

# GÜNÇIXANDAN GƏLƏN XƏBƏR

*Bu cəh-cəh edən bülbül,*
*Bax, gör nə gözəldir!*
*Güllər arası sünbül,*
*Bax, gör nə gözəldir.*

***Təbrizdə eşitdiyim mahnıdan.***

456. Məhəmməd Kazımın göndərdiyi o uzun naməsindən bir mətləbi də xatırlatmasam olmaz. Cavan dostum Qaxdan Təbrizə gəlib, Təbrizdən atasının nəşini götürüb Məşhədə aparanda, daha doğrusu, dəfn əsnasında eşitdikləri barədə yazmışdı. Yazdığına görə, Şahımız əfqan torpaqlarında, Şahzadəmiz Bəlx tərəflərdə olduğu vaxt Xivədən gələn xəfiyyə İlbarsın Xorasana hücuma hazırlaşdığı xəbərini Əliqulu xana çatdırır, Əliqulu xan da dərhal Şahımıza namə göndərir, Şahımızsa Şahzadəylə Təhmasib xan Cəlayirə tez Xorasana qayıdıb təhlükəni sovuşdurmağı əmr eləyir; yazırdı ki, o vaxt Təhmasib xan elə qorxubmuş ki, qıçları titrəyirmiş, amma Şahımızın ürəyinə rəhm gəlir, üzr dilədiyinə görə, köhnə dostunun təqsirindən keçir; sonra Hindistan səfərinə çıxmaq niyyətini söyləyib, Rzaqulu Mirzənin məmləkətdəki naibi təyin olunması barədə qərarını bildirib; Bahar Sufla düşərgəsində üç gün, üç gecə bayram şənliyi olub, Şahımız əyan-əşrəfə, adlı-sanlı xanlara, qoşun başçılarına qiymətli parçadan xələt verib hamıdan məmləkətdə olmadığı müddətdə Şahzadənin əmrlərinə itaət göstərməyi istəyib; Əliqulu xan o şənliyə dəvət olunmamasını, Şahımızdan xələt almamasını sinirə bilmirmiş, üzə vurmasa da qəzəbindən zəncir çeynəyir, qaş-qabağı açılmırmış; belə çıxırdı, onun yaşıdı olan Rzaqulu Mirzə artıq taxt-tac yolundadı, atasının diqqəti, Mirzə Məhəmməd Möhsünün həmişə yanında olub bilik verməsi, ondan ötrü məxsusi «Zübdət-üt-tavarix» yazması, Şahımızın öz oğlunu buraxdığı səhvlərə görə cəzalandırmaması bü-

tün bunlardan xəbər verirdi; bəs onda Muğan çölündə taxt-tacın varisi, Şahımızın vəliəhdi elan olunan atası Məhəmməd İbrahim xan Əfşar necə olacaqdı, bununla barışacaq, yoxsa Azərbaycanı qardaşından qoparmaq fikrinə düşəcəkdi?.. Əlbəttə, onda İbrahim xan hələ sağ idi, quzey səfərindəydi, amma qardaşının artıq ona güvənməməsindən xəbəri yox idi; bəlkə də Şahımızın bu qərarının səbəbi qardaşının uzaqda olmasıyla bağlıydı, hər halda bu iki məqam Əliqulu xana çox ağır gəlmişdi.

457. Məhəmməd Kazımın yazdığına görə, Şahımız sonra Rzaqulu Mirzəyə uzun-uzadı öyüd-nəsihət verib, deyib, məmləkətin naibi taxtına oturan kimi, Səfəvi ailəsinə, Şah Təhmasibə diqqətə və hörmətə yol vermə, Səbzavər şəhərinin zindanında saxladığın Şah Təhmasibə etibarlı adamlarından mühafizə göndər ki, başqa kəslərin onunla ünsiyyətdə olmasına imkan verməsinlər; deyib, məmləkətin hansı tərəfində olur-olsun, vilayət, şəhər hakimlərini, onların naiblərini təyin eləyəndə üstlərindən gözünü çəkmə, həm də yerlərini tez-tez dəyişdirmə; deyib, səhranişinlərə, yəni, özbəklərə lazımi diqqət göstər, onların qayğılarıyla daim maraqlan; deyib, Allah eləməsin, işdir-şayəd Türküstanın, Osmanlının, ya da Məşriq məmləkətlərinin qoşunları məmləkətimizə soxulsa, davanı aparmağın yönlərilə bağlı ağsaqqallardan, tayfa başçılarından məsləhət istə, əgər hər şeyi sülhlə yoluna qoymaq mümkünsə, davaya girəcək qədər axmaq olma; deyib, oğruları, əyriləri, quldurları, yaramazları cəzalandır, məmləkətə gələn karvanlarla, tacirlərlə yaxşı davran ki, sənin ədalətini, xeyirxahlığını, əzəmətini aləmə yaysınlar; deyib, xəzinədən israfçılıq eləmə, amma səltənət təhlükə altındadısa, tərəddüd eləmədən xələt ver; deyib, Allah eləməsin, altı ay bizdən əsər-əlamət olmayacağını heç ağlına da gətirmə; axırda deyib, İlbarsa hücum eləmə, tez-tez hərəkətləri barədə mənə xəbər göndər ki, qayıdanda ona elə qulaqburması verim, cəmi qiyamçılar və canilər başlarını qaldıra bilməsinlər; yazırdı, bütün bu olub-keçənlərdən xəbər tutanda indi haqq dünyasında olan İbrahim xanın neyləyəcəyini düşündüm, heç ağlıma da gəlməzdi ki, yuxum çin çıxacaq, quzey hüdudlarımızdan zəfər əvəzinə faciə xəbəri eşidəcəyəm. Əlbəttə, Şahımızın Rzaqulu Mirzəyə verdiyi öyüdlər, artıq Vəliəhd məsələsində qəti qərara gəldiyindən xəbər verirdi; görünür, Qar-

daşının Azərbaycanda əmin-amanlıq yarada bilməməsi, oğlununsa Mavərənnəhri və Türküstanı itaətə gətirməsi bu məsələdə həlledici olmuşdu.

458. Fikirləşdim, bu da Allahın işidi, Şahımız quzey hüdudlarında olan qardaşının ölümündən xəbərsiz öz oğlunu səltənətin naibi təyin eləyib, qardaşı da bundan xəbərsiz taxt-tacın varisi kimi Car dağlarında döyüşə girib və düşmən gülləsinə rast gəlib, beləcə, ehtimal olunan narazılıq ilahi təsadüf üzündən aradan qalxıb. Amma Əliqulu xan bunu çətin unuda, tay-tuşunun varis olması, taxta çıxmasıyla çətin barışaydı. Bunu Mirzə Hüseynə də söyləmişdim, fikrimlə qeydsiz-şərtsiz razılaşmışdı, üstəlik, demişdi, cavan Xan da əmisinin qərarına sevinmədi, Mirzə Hüseyn əlavə eləmişdi, əlbəttə, bu, İbrahim xanın ölümündən sonra baş versəydi, ortada narazılıq-filan olmazdı, sonra elə bil həddini aşdığını duyub susmuş, qorxa-qorxa üzümə baxmışdı. Onda yazın Novruz bayramından sonrakı günlərindən biriydi. Mirzə Hüseynlə saray bağında gəzirdik, tez-tez Məhəmməd Kazım, onun nəzərlərini gizlicə dolandırıb ətrafda Pərixan xatunu axtarması, tapmayanda, qızın pəncərəsinə sarı boylanması xəyalımda canlanırdı. Beynimdən keçirdim ki, yəqin, indi zavallı Pərixan xatun hicran alovunda yanır, Məhəmməd Kazımın gizlicə göndərdiyi namələri, o namələrdəki eşq şeirlərini oxuyub, gül qoxulu yastığının altında saxlayır. Şübhəsiz, bu cür eşq yaşamağın özü hər kəsin bəxtinə düşməyən xoşbəxtlikdi, fikirləşdim ki, əgər, Allah eləməsin, Məhəmməd Kazım istəklisinə qovuşmasa belə, bu sevgi onu yetkinləşdirəcək, şeirlərinin dəyərini artıracaq. Amma çinlilərin bir məsəli də yadıma düşdü: *sevdiyiniz kəsi sərbəst buraxın, qayıdacaqsa sizindi, qayıtmayacaqsa, heç vaxt vüsala çatmayacaqsınız.* Məhəmməd Kazımın Pərixan xatuna duyduğu həqiqi eşq idisə, günlərin birində Təbrizə qayıdacaqdı. İndi Mömin xanın qəbrinin yerində gül kolları əkilmişdi, daha tənha qəbir barədə duyğular mənə əzab vermirdi. Hasarın dibindən axan arxda əl-üzümüzü yuyub cənnət rahatlığına qovuşduq, həmin məqamda yenə axır vaxtlar xatırlamamağa çalışdığım Tiflis yadıma düşdü, təpədən-dırnağa titrədim…

459. O ilin saray həyatını quzeyə uzanan yollara baxa-baxa, uzaq Hindistanda Şahımızın zəfərlərinə şahid olan Mirzə

Mehdidən, Mərvdə məmurluq eləyən Məhəmməd Kazımdan, Ərdəbildə guşənişin ömür sürən Mirzə Kəmaləddindən namə gözləyə-gözləyə keçirdim. Mirzə Mehdidən birini yazda, o birini yayın ortalarında olmaqla iki namə aldım. Birincidə məmləkətin hüdudlarından keçəndən sonra rastlarına çıxan şəhərləri ələ keçirib, yağmalayıb Lahora necə çatdıqlarından, Zəkəriyyə xanı itaətə gətirib, Karnal üzərinə getdiklərindən, Məhəmməd Şahın qoşunuyla baş verən döyüşdən, Şahımızın min nəfərlik əfşar atlısının başında şir kimi vuruşduğundan, düşmən sərdarlarından Səadət xanın öz filinin «namərdliyi» sayəsində əsir düşdüyündən, Xan Dövranın yaralanıb döyüş meydanından çıxarıldığından, zəfərdən sonra Şahımızın diz çöküb Allaha dua elədiyindən, üstəlik, oğlu Murtuzaqulunun adını dəyişdirib Nəsrullah – Allahın zəfəri qoyduğundan, xan Dövranın Şahımızın Məhəmməd Şahla görüşməsinə mane olmaq üçün Nizam-ül-mülkə yalvardığından, baş vəzir Nizam-ül-mülkün Əbdülbağı xanla barışıq şərtlərini müzakirə eləməsindən, Şahımızın Məhəmməd şahı öz çadırında böyük hörmətlə qarşılamasından, taxtının böyründə oturdub mehribancasına söhbət eləməsindən, amma Mirbaxşı – Baş xəzinədar məqamında gözü olan Səadət xanın Şahımızı Dehli üzərinə getmək üçün dilə tutmasından, məqsədinə çatıb vəkil-ül-mütləq məqamına yüksəlməsindən, zilhiccə ayının ilk günü yola çıxacaqlarından yazırdı. Əlbəttə, Mirzə Mehdinin təfsilatına varmaq istəmirəm, belə çıxırdı, Şahımız tezliklə Dehlini ələ keçirib gündoğan hüdudlarımızdakı təhlükəyə birdəfəlik son qoyacaq, sonra da, şübhəsiz, dağlıların üzərinə gedəcəkdi…

460. Mirzə Mehdi ikinci naməsində yazırdı, zülhiccə ayının yeddinci günü Dehli altındakı Şalimar bağlarına çatdıq, iki gündən sonra böyük təntənəylə şəhərə girdik, irəlidə belində cəzirələrin oturduğu yüzlərlə fil, arxasınca şahanə atında əzəmətli Şahımız gedirdi, axırda qoşunumuz gəlirdi; yazırdı, Məhəmməd Şah sarayında əziz qonağının şərəfinə təntənəli ziyafət verdi, hətta xəzinəsini qəbul eləmək barədə ricasını bildirdi, Şahımız da uzun müddət boyun qaçırandan sonra razılaşmağa məcbur oldu; yazırdı, Şahımız Cahan Şahın əzəmətli sarayında bərqərar oldu, zilhiccənin onuncu günü Novruz, həm də Qurban bayramında, onun adına məscidlərdə xütbələr oxundu, üstündə «Na-

dir Yer üzündə Sultanlar Sultanı, hökmdarlar Hökmdarı, Uğur Sahibidir» yazılmış pul kəsildi; yazırdı, elə o gün Səadət xan canını Allaha tapşırdı, deyilənə görə, Şahımızın istəyindən canına qıymışdı; yazırdı, elə o axşam da, Allah göstərməsin, Şahımızın ölümü barədə şayiələr yayıldı, Səadət xanın adamları nasaqçılara, gözətçilərə, döyüşçülərə hücum eləyib öldürdülər, səhəri gün qarmaqarışıqlığı yatırtmaq üçün şəhərə çıxan Şahımız da, az qala, qəfil güllənin qurbanı olacaqdı; yazırdı, Şahımızın əmrilə qiyamçılara divan tutuldu, on minlərlə adam qətlə yetirildi, xanların var-dövləti ələ keçirildi, üstəlik, Şahımız şahzadə Yəzdan Baxşının qızını oğlu Nəsrullaha istədi, moğol qaydasınca adaxlı barədə, yeddi arxa dönəni barədə məlumat istəyəndə onlara dedi, deyin Nadir Şahın oğludu, qılıncın oğludu, qılıncın nəvəsidi, yeddi əvəzinə yetmişəcən bunu təkrar eləyin, bundan sonra səsini çıxaran olmadı, Şahımız da onlara şahanə toy elədi; yazırdı, səfər ayının üçüncü günü Məhəmməd Şahı ziyafətə çağırıb Hind çayından quzey və günbatan tərəfdəki torpaqları Xorasan vilayətinə qatmaq üçün razılıq aldı; yazırdı, bundan sonra xütbələrdə Şahımızın adı çəkiləcək pullar onun adına kəsiləcək…

461. Məhəmməd Kazım Təbrizdən ötrü darıxdığını dönə-dönə yazmışdı, mən də o sözün hansı məna daşıdığını gözəl anlayırdım. Əlbəttə, məni görmək, söhbətləşmək arzusu təbiiydi, amma güman ki, yarı canı Pərixan xatunun yanındaydı. Yazırdı, yəqin Şahımız Rzaqulu Mirzəni səltənət naibi təyin eləyəndə məmləkətdə olmadığı müddətdə qardaşı İbrahim xanın ona göz olacağını düşünürmüş, amma indi sözünə – hərəkətinə qoruq-qaytaq yoxudu; yazırdı, Şahzadə Məşhədə qayıdandan sonra Xorasan cəzirələrindən on iki minlik qoşun düzəldib, o qoşun seçmə atlar, bahalı parçadan paltarlar, qızıl-gümüş işləməli silahlarla təmin olunub, lap Çin rəsmlərindəki mənzərə yaranıb; yazırdı, Şahzadə ticarəti də öz əlində cəmləşdirməyə çalışır, buna görə də, ona qarşı gizli narazılıqlar əmələ gəlməyə başlayıb, bundan şirnikənlər də Fars bəylərbəyi Tağı xan Şirazi kimi soyğunçuluqla məşğul olurlar, indi Şahzadənin özü belə Tağı xanı əməllərindən çəkindirə bilmir; yazırdı, çoxdan xəbər alınmadığından Məşhədə Şahımızın, Allah eləməsin, ölümü barədə xəbərlər gəlməyə başlayıb, bunun həqiqətimi, yoxsa şayiəmi olduğunu hələ kimsə dəqiq

söyləyə bilməz; yazırdı, bu təhlükə mənbəyi olaraq qalır, çünki şayiələrdən istifadə eləyib qiyama həvəslənənlər tapılar, ara qarışıb məzhəb itər. Belə şayiələr, bilmirəm, hansı yollasa Təbrizə də gəlib yetişmişdi, sarayda gözgörəti narahatlıq sezirdim, Mirzə Hüseyn yeni Xanımızın əndişəsini dilinə gətirmişdi, söylənənləri aydınlaşdırmaq məqsədilə Məşhədə adamlar göndərildiyini demişdi. Mirzə Mehdinin son naməsindən üç, ya dörd ay keçmişdi, bu müddətdə nələr baş verdiyindən mənim də xəbərim yox idi, ona görə də, əsl həqiqəti söyləyə bilməyəcəkdim, uzaq Hindistanda, əslində, nələr baş verdiyini tək Allah bilirdi. Əgər söylənənlər doğruydusa, onda yəqin Rzaqulu xan taxt-taca sahib olmağa hazırlaşırdı, şübhəsiz ki, belə məqamda Əliqulu xan da dinc oturmayacaq, nə vaxtdan bəri içində yığılıb qalan narazılığı büruzə vermək, əmisi oğlunun kölgəsindən qurtulmaq üçün bu fürsətdən faydalanmağa çalışacaqdı, bu da, şübhəsiz, xanədanı fəlakətə sürükləyəcəkdi.

462. Mirzə Mehdi son naməsində Hindistan ölkəsindəki misli-bərabəri olmayan bir almaz barədə yazmışdı. Yazdığına görə, çox-çox qədimlərdə tapılan həmin səkkiz yüz karatlıq almaz Malva raclarının xəzinəsindəymiş, sonra Sultan Əlaəddinin xəzinəsinə, ordan teymuri Babur Şahın xəzinəsinə köç eləyib, ondan padşah Hümayuna, Hümayundan Şah Cahana miras qalıb, Şah Cahan almazı əvvəlcə bir firəng zərgərinə yondurub, sonra Venezia zərgərinə cilaladıb, onun da işini bəyənməyib, heç haqqını verməyib, taxtının üzərindəki tovuzquşu rəsminin gözünə qoydurubmuş, cəmi yüz səksən altı karat qalan o olmaz hələ də baxanın ağlını başından çıxarırmış; yazırdı, almazın Şah Cahandan Məhəmməd Şaha miras qaldığını söyləmişdim, hələ «Babur-namə»dən almazın vəsfini də oxumuşdum, Şahımız da hind hüdudlarını keçəndən həmin sərvətə sahib olmaq intizarındaydı, Məhəmməd Şahın xəzinəsini alanda o möcüzəni görməyib səbirsizlik göstərirdi; yazırdı, Şahımız almazın hökmdar çalmasının içində saxlandığını hardan öyrənmişdi, deyə bilmərəm, amma Məhəmməd Şahla vidalaşan vaxt dostluq əlaməti kimi öz təhməzini onun çalmasıyla dəyişəndə bunun dəyərini kimsə bilməmişdi: yazırdı, sonra çalmanı açıb almazın günəş kimi bərq vurduğunu görəndə vəcdə gəlib «Koh-i-nar!» qışqırmışdı, bunu

mənə o məqamda yanında olan Mirzə Zəki söyləmişdi: yazırdı, Mirzə Zəkinin təsvirinə görə, almaz, doğrudan da, nur topasına oxşayır. Şahımız gündə bir neçə dəfə bu ölçüyəgəlməz sərvətinə tamaşa eləyir, onu, az qala, Hindistanda xəzinəsinə qatdığı cəmi sərvətə bərabər tutur; yazırdı, Məhəmməd Şah Cahan şahdan miras qalan tovuzquşulu taxtı yan-yana yeriyən səkkiz dəvəyə yüklədib məmləkətinə gətirəcək. Əlbəttə, bütün bunlar mənə gözəl bir nağıl kimi gəlmişdi, amma hər nəydisə, o sərvət Şahımızın əlindəydi, Allah qoysa, o nəhs şayiələr yalan çıxacaq, Şahımız sağ-salamat geri dönəcək, almaz da məmləkətə qismət olacaqdı…

# XI

# ŞÜBHƏ VƏ HƏQİQƏT

*Ayın beş gün qaranlığı olanda,*
*beş gün də aydınlığı olar.*

*Mirzə Hüseyndən eşitdiyim*
*atalar sözü*

463. O ilin yazında ləzgilər yerlilərdən adamlar tapıb Təbriz zindanından on altı dustağı qaçırdılar, mərhum İbrahim xanın cəsədini də ağacdan asıb yandırdılar. Bundan qəzəblənən Şahzadənin Şirvandakı dikbaşlardan qisas almaq, həm də qiyamı yatırtmaq üçün ora Səfi xan Sultanın başçılığı altında qoşun göndərdiyini eşitdim. Qoşun Təbrizə girməmişdi, görünür, Qəzvin-Zəncan-Ərdəbil yoluyla keçib getmişdi, bu da, ola bilsin, Səltənət Naibinin İbrahim xan törəmələrinə münasibətinin əlamətiydi. Cavan Xanımız Səfixanın səfərindən qoşun Ərdəbilə çatanda xəbər tutub pərişan olmuşdu, çünki nə vaxtdan bəri öz borcunu yerinə yetirmək, üstəlik, atasının qisasını almaq üçün quzeyə üz tutmaq istəyirdi, amma bundan ötrü Şahımızın, sonra da Səltənət Naibinin Azərbaycan valisinə izini lazımıydı, amma nə vaxt idi ki, birincisindən xəbər gəlmirdi, ikincisi də, az qala, öz səltənətini qurmağa çalışırdı, hökmdarın yoxluğunda hökmü fərmaydı, həm də o qədər hökm-fərmaydı ki, Azərbaycan ölkəsinə qoşun göndərəndə valiylə məsləhətləşməyi lazım bilməmişdi. Sonrakı bir neçə ay ərzində Şirvandan gələn xəbərlər yaxşı heç nə vəd eləmirdi, Mirzə Hüseynin dediyinə görə, Səfi xan Sultan nə qədər baş kəsib, göz çıxarıb, girov götürsə də, nə vergilərin çoxluğundan şikayət eləyən camaatın narazılığını tamam yatırda bilmiş, nə də dağlı basqınlarına bir çarə tapmışdı. Səfi xan Sultanın qoşunu heç geri qayıdanda da Təbrizdən keçmədi, elə gəldiyi yolla da Xorasana getdi. Qoşunun bu cür geri qayıtması, üstəlik, nə vaxtdı Şahımızdan doğ-

ru-dürüst xəbər çıxmaması, Mirzə Hüseyn kimi, məni də bərk əndişələndirirdi. Allah eləməsin, Şahımızın başına Hindistanda bir bədbəxtlik olsaydı, xanədanın saysız-hesabsız düşməni üzə çıxacaq, hər kəs öz vilayətində şah olmaq xəyalına düşəcəkdi. Təzədən Şah Sultan Hüseynin zamanındakı qarmaqarışıqlığı yaşamağı heç istəmirdim, fikrimcə, öz torpaqlarını qorumaq, başqalarının torpağına göz dikməmək ən doğru yol olardı…

464. İl başa çatanda Məhəmməd Kazımdan bir namə də aldım. Bu dəfə şeriyyətə-filana uymamışdı, yazırdı, indiyəcən Şahımızdan səhih xəbərin çıxmaması ortaya ardı-arası kəsilməyən başqa şayiələri də çıxarır; yazırdı, Mirzə Möhsünün qənaətinə görə, bəzi şəxslər Şahımızın ölümüylə bağlı Şahzadənin qəlbinə şübhə toxumu səpməyə çalışır, onu ehtiyat tədbirləri görməyə təhrik eləyirlər; yazırdı, Mirzə Möhsünün dediyinə görə, Astarabadın Yuxarıbaş qacarlarından Məhəmməd Hüseyn xan Şahzadəni dilə tutub, deyib Şah Təhmasib və iki oğlunu aradan götürsün ki, əgər, Allah eləməsin, Şahımızın ölüm xəbəri doğru çıxsa, Səbzavərdəki Səfəvi tərəfdarları baş qaldırmaq fikrinə düşməsinlər; yazırdı, atamın yaxşı tanıdığı mərvli Rəhim Sultan da bu fikirdədi, söhbətimizdə açıq dilinə gətirməsə də, buna işarə vurdu; yazırdı, indi Şahzadə tərəddüd keçirir, hökmdarın əmrindən çıxmağa ürək eləmir, onun sağ olduğunasa sübut tapa bilmir, Səfəvi törəmələrini qətlə yetirəndən sonra ortaya nələr çıxacağını da xəyalına belə gətirmir; yazırdı, yaxınlaşan faciənin qabağını ancaq Şahımızın Hindistandan sağ-salamat dönməsi barədə xəbər ala bilər, o xəbər də hələlik yoxdu; Məhəmməd Kazım axırda Şahımızın salamatlığı üçün dualarını bildirir, hamımıza Allahdan səbir diləyirdi. Nədənsə, bu məqamda yadıma Mirzə Kəmaləddin düşdü; əgər Məhəmməd Kazımın bu qədər əndişəylə çatdırdığı faciə baş versəydi, könül sirdaşımın necə dərin sarsıntıyla üzləşəcəyini beynimdən keçirdim. Əlbəttə, o faciənin vaxtı mənə məlum olsaydı belə, qabağını almağa gücüm çatmazdı, çünki indi məmləkətdə Şahzadənin hesablaşacağı bir kəs yox idi, amma Ərdəbildə könül dostumun yanında olub, onun ağrı-acılarını mümkün qədər ovuda bilərdim. Şübhəsiz, belə dolaşıq və narahat bir vaxtda Xanımızdan məmləkətimizə, illah da Ərdəbilə getmək üçün izin istəməyim yersiz olardı, ağlı-

na yüz cür fikir gələrdi, beləcə, sarayda oturmaq da mənə ondan betər əzab verirdi, amma nə qədər götür-qoy eləsəm də, başqa çıxış yolu tapmırdım, yenə ümidvardım ki, vaxt hər şeyi yoluna qoyub, həqiqəti ortaya çıxaracaq.

465. Təbrizin arabir sərt, arabir yumşaq havalı qışını həyəcan çalxantıları içində keçirdim. Sarayda həyat, demək olar, dayanmışdı, cavan Xanımızdan, Əmiraslan xandan, Məhəmməd xan Əfşardan tutmuş, xidmətçilərəcən hamı qulağını şəkləyib Şahımızdan xəbər gözləyirdi, divanın yığnaqlarında da, Mirzə Hüseynlə, Qütbəddinlə, vaxtı olanda Mirzə Qulamla gəzintilərimizdə də, istər-istəməz Şahımızın sirr dolu səfərindən danışırdıq. Şəvval ayını beləcə ötürdük, zülqədə ayında da Şahımızdan xəbər çıxmadı, get-gedə havalar isinməyə, yaz özünü göstərməyə başladı. Nədənsə ağlıma bu ilin Novruzunu Ərdəbildə keçirmək gəldi; vəfalı Qütbəddinin də rüsxətini alsaydım, Mirzə Kəmaləddinin qonağı olar, şayiələrin baş alıb getdiyi bir vaxtda onun nələr düşündüyündən xəbər tutardım. Amma Mirzə Qulam yenə bu məqamda Xanımıza belə şeylər üçün üz tutmamağı məsləhət gördü, üstüörtülü dedi, Xanımız Məşhəddə baş verənlərdən xəbərdardı, tez-tez Əmiraslan xanla, Məhəmməd xan Əfşarla məsləhətləşir, görünür, ağlagəlməz məqamda necə hərəkət eləyəcəklərini razılaşdırırlar. Cavan Xan neyləyə bilərdi: Nəqşivan, Rəvan, Gəncə, Qarabağ, Şirvan, Gürcüstan qoşunları uzaqdaydı, Təbriz ətrafındakı qoşunların sayı da iyirmi mini ötmür. Xoşbəxtlikdən Osmanlıların və rusların başı bir-birinə qarışmışdı, dağlı basqınlarını nəzərə almasaq, quzeydən və günbatandan ciddi təhdid gözlənmirdi. Əgər zənnim aldatmırdısa, o səmtdəkilər də yayılan şayiələri eşitmişdilər, qulaqlarını şəkləyib uzaq Hindistandan alınacaq xəbəri gözləyirdilər: əgər Şahımız zəfərlə dönsəydi, aləmin birinci fatehi sayılacaqdı, yox, ölüm xəbəri gerçəkləşsəydi, onun qurduğu səltənətdən hər kəs öz payını qoparmağa çalışacaqdı. Bilmirəm, təbrizdəkilər hökmdarımızın Xorasanı məmləkətin özəyi eləmək istəməsilə razılaşırdılarmı, Təbrizin, Qəzvinin, İsfahanın Məşhədə bərabər tutulmamasını görürdülərmi? Əlbəttə, Şahımız Səfəvilərdən qalan miras kimi, Təbrizi paytaxt eləməzdi; İsfahanı da heç ağlına gətirməzdi, çünki ona hələ ki həyatının ən ağır məğlubiyyətini xatırladırdı;

Qəzvində, demək olar, Səfəvi xanədanının varlığına son qoymuşdu; Məşhədsə öz hökmünə tabe elədiyi ilk böyük şəhər idi, həm də bu vilayətdə böyüdüyündən ruhuna doğma sayırdı. Fikrimcə, Hindistandan sağ-salamat dönsəydi, Məşhəddə yerləşəcəkdi.

466. Novruz bayramı sıxıntılı keçdi, hər halda mən özümü nə qədər ələ almağa çalışdımsa, qəlbimdə bayram ovqatı yarada bilmədim ki, bilmədim. Saray əhliylə bayramlaşmağımızda da nəsə gizli həyəcan, əndişə duyulurdu. Puçur-puçur gələn yazın həniri canımızı tamam-kamal isitməmiş gözlənilən faciə baş verdi; məhərrəm ayının axırında Böyük Bazar karvansarasında dayanmış mərvli bir tacir məni saray meydanına çağırtdırdı, Məhəmməd Kazımın naməsini ehtiyatla qoynundan çıxarıb gizli oxumağımı istədi, adını belə söyləmədən də çıxıb getdi. Naməni hücrəmə girib qapını bərk-bərk bağlayandan sonra oxudum, yazılanlardan da matım-qutum qurudu. Məhəmməd Kazım yazırdı, Şahzadə axır ki, Novruz bayramından bir neçə həftə qabaq Səfəvi törəmələrinin axırına çıxmaq barədə Məhəmməd Hüseyn xan Qacarın məsləhətinə əməl eləməyi qərarlaşdırıb, qətlin icrasını da onun özünə tapşırıb, Məhəmməd Hüseyn xan da elə həmin gün Səbzavara yollanıb, Şah Təhmasibin saxlandığı yerə soxulub; yazırdı, bədbəxt Şah artıq axırının çatdığını duyubmuş, qaçıb hərəmxanada gizlənib, amma cəlladı onu hərəmxanada yaxalayıb, elə ordaca iplə boğub, sonra özünü atasının nəşi üstünə atan səkkiz yaşlı Abbasın da eləcə nəfəsini kəsib, ardınca balaca İsmayılı həyətdəki quyuya atıb, amma keşikçilərdən biri rəhmə gəlib, uşağı quyudan çıxarıb, İsmayıl da qaçmaq əvəzinə atasının və qardaşının meyitinə sarı cumub, Məhəmməd Hüseyn xansa tifilin başını bədənindən ayırıb; yazırdı, nə qədər gizlətməyə çalışsalar da, camaat baş verənlərdən bir neçə gün sonra xəbər tutub, qatillərə lənət yağdırıb, illah da dərrakəsi və gözəlliyi dildə-ağızda gəzən İsmayılın qətli hamının ürəyini parçalayıb; yazırdı, Şahzadənin və qətli törədənlərin adamları olub-keçənləri qarət niyyətilə bağlamağa, bu məqsədlə şayiələr yaymağa başlayıblar, amma elin ağzını bağlamaq mümkün olmayıb, indi Şahzadə həqiqətin üzə çıxmamasından ötrü həmfikirlərini aradan götürməyə belə razıdı…

467. Məhəmməd Kazımın yazdığı, müxtəsər söylədiyim hadisənin davamı bədbəxt Şah Təhmasib və tifillərinin nəşinin Məşhəddə gizlicə dəfn olunmasıyla bağlıydı. Yazdığına görə, Şahzadə baş verənlərdən razı qalıbmış, hətta başına yığışan yaltaqların təriflərindən beyni dumanlanıb, özünü şah elan eləmək fikrinə düşübmüş, amma sən saydığını say, gör fələk nə sayır: qəfildən Şahımızdan çapar gəlib, hökmdarın Dehli zəfəri barədə xəbər gətirib, bundan da Şahzadənin də, xanların da canını qorxu alıb; yazdığına görə, Şahzadə əməlindən peşman olub, qələtini düzəltmək məqsədilə Şahımızın gəlişinə hazırlıq görüb, şəhərin küçə-bazarlarını bəzətdirib, sonra da can hövlünü unutmaq üçün eyş-işrət məclisi qurub; yazdığına görə, Şahzadənin zövcəsi Fatimə bəyim olub-keçənlərdən elə o məqamda xəbər tutub, özünə qəsd eləyib, hələ də ölümünün zəhər içməsi, yoxsa Rzaqulu Mirzənin həqiqəti gizlətmək üçün susdurmaq istəməsi üzündən baş verdiyini kimsə bilmir; yazdığına görə, Şahzadə Fatimə bəyimi tələm-tələsik İmam Rzanın məqbərəsində, qardaşının yanında dəfn eləyəndən sonra Novruz bayramını keçirmək üçün Tehrana yollanıb; yazdığına görə, hər yerə Şahzadənin bütün vilayətlərin və şəhərlərin hakimlərini Tehrana çağırdığı, sonra atasının əmrilə taxta çıxacağı barədə şayiələr yayılıb, belə getsə, şayiələr artıq sağ-salamat olduğu, zəfərlə geri döndüyü şəksiz olan Şahımızın qulağına çatacaq, bundan sonra nə baş verəcəyini ağla gətirmək çətindi; yazdığına görə, Şahımız da Məşhəddən gündoğana bütün hökm yiyələrinə səfər ayında Herata gəlib istiqbal şənliklərində iştirak eləmələri barədə əmr göndərib, özü də bu fürsətdən yararlanıb Şahımızın nəzər-diqqətinə düşmək, onun yanında vəzifə almaq niyyətindədi; yazdığına görə, Şahımız Türküstana üz tutmayıb günbatana sarı gəlsə, görüşmək imkanı yaranacaq. Naməni oxuyandan sonra şamın alovunda yandırdım – dünyanın işini nə bilmək olar…

468. Görünür, Şahımızdan Xanımıza da namə gəlmişdi, Mirzə Hüseyn bu barədə açıq bir söz deməsə də bunu söz-söhbətindən, elə saraydakı ab-havanın qəfil dəyişməsindən duymaq olurdu. Xanımız axır vaxtlar əndişəsini ört-basdır eləmək üçün tez-tez getdiyi şikara ara verib dövlət işlərilə məşğul olmağa başlamışdı. Əlbəttə, Herata getməyəcəkdi, Şahımızdan belə bir əmr

almamışdı, bundan sonra əmr də alsaydı, yəqin ki, Tehrana Şahzadənin yanına getməzdi, çünki hamı intizar içində Şahımızın Səfəvilərin qətlinə görə onu necə cəzalandıracağını gözləyirdi. Məndən ötrüsə, bir məsələ çox maraqlıydı: Şahımız qardaşının qisasını almaq üçün yönünü quzeyə nə vaxt çevirəcəkdi və həmin vaxt onun yanında olmaq üçün neyləməliydim? Şübhəsiz, Mirzə Mehdi olan yerdə mənə ehtiyac yox idi, amma Mirzə Mehdi xeyirxahlıq eləyib kefinin kök vaxtında qocalığım, xəstəliyim, yurd nisgilim barədə Şahımıza təsirli sözlər söyləyə bilərdi, üstəlik, Məhəmməd Kazım məqsədinə çatsaydı, Şahımıza mənim istəyimi yetirməyə imkan yaranardı. Günlərim beləcə intizar içində keçirdi, ehtiyat üzündən nə Mirzə Mehdiyə, nə də Məhəmməd Kazıma namə yazmağa cəsarət eləyirdim. Mirzə Hüseyn də Şirvandan və Kaxetdən həyəcanlı xəbərlər gəldiyindən, dağlı basqınlarının ara vermədiyindən danışırdı, görünür, aradan keçən iki il ərzində ciddi müqavimətə rast gəlmədiklərinə görə şirnikmişdilər, ola bilsin, Şahımızın Hindistanda öldüyü barədə şayiələr ora da gedib çatmışdı, zəfərlə dönməsi xəbərinisə hələ almamışdılar. Mirzə Hüseynin verdiyi o xəbərləri həyəcan içində dinləyirdim, beynimdən keçirirdim ki, dünyanın işinə bax, mənim taleyim uzaq quzeydə kimlərinsə əməllərindən asılıdı. O intizarlı günlərdə özümə təzədən ürək-dirək verməyə, əgər qismətimdə varsa, istəyimin gerçəkləşəcəyinə, insanın ümidinin sonsuzluğuna da inanmağa başlamışdım, əslində, şübhə eləmirdim ki, həyatımın mənası elə bundan ibarətdi. Ona da inanırdım ki, Şahımız dediyindən dönməyən adamdı, əgər and içibsə ki, Hindistandan dönəndən sonra dağlıları diz çökdürəcəm, deməli, dediyini yerinə yetirəcək, ola bilsin, bu vədi bir qədər geciksin, amma taxta çıxmazdan əvvəl o tərəfdə yarımçıq qoyduğu işini mütləq axıra çatdıracaq.

469. Rəbiül-axır ayının sonunda Təbrizə Şahımızla Şahzadə arasında çəkişmələr olduğu barədə şayiələr gəlib çatdı, ondan bir neçə həftə sonra da Məhəmməd Kazımdan müfəssəl namə aldım. Axır dediyini eləmiş, Mərv heyətilə Şahımızın hüzuruna getməyə müvəffəq olmuşdu. Yazdığına görə, Şahzadənin Herata, atasının hüzuruna getməyi elə hey təxirə salması, Tehranda dövlət işlərilə məşğul olduğu barədə bəhanələri can hövlündənmiş,

Şahımızın Səfəvilərin qətlinə görə onu bağışlamayacağını bilirmiş, üstəlik, çox güman ki, «göz-qulaqları» artıq oğlunun taxt-taca iddia elədiyini hökmdara çatdırıblarmış; Şahzadə nə qədər gecikdirsə də, o görüş Heratda yox, Qaratəpədə baş tutub, Şahımız bərbəzəkli filin belindən düşüb oğlunun on iki min nəfərlik şahanə xüsusi qoşununa baxıb, bir söz deməyib, vəliəhdlə mehribancasına görüşüb, amma elə o axşam da divanı yığıb Şahzadənin dəbdəbəli qoşununun buraxıldığını bildirib; Şahzadə bundan bərk sarsılıbmış, Şahımızsa onu çadırına aparıb, qoşunun halından əndişə duyduğunu, camaatın məmləkətdə iki Şah olduğunu düşünməsinin ziyanını söyləyib, nəhayət, qərarını açıqlayıb: Şah Təhmasibi öldürtdüyünə görə oğlunu Səltənət Naibliyindən uzaqlaşdırdığını, yerinə Nəsrullah Mirzəni təyin elədiyini, Rzaqulu Mirzəni özüylə Türküstan səfərinə aparacağını bildirib. Məhəmməd Kazım yazırdı, mən onda Mirzə Mehdinin yanındaydım, Şahzadənin qorxudan ağarmış sifətini, böyümüş gözlərini Şahımızın çadırından çıxanda gördüm, hətta o qədər yaxındım ki, yanağının dartıldığını belə sezdim; yazırdı, sonra Şahımız Mirzə Mömini yanına çağırtdırdı, bu hökmünü fərmana salmağı əmr elədi; yazırdı, Şahımızın hüzuruna Əliqulu xan da gəlmişdi, eşitdiyimə görə, hökmdar ona başsağlığı verib, deyib Türküstan səfərindən qayıdandan sonra mütləq atasının qisasını alacaq. Deməli, Şahımız Türküstan səfərinə gedirdi, o səfərin nə qədər çəkəcəyini də bir Allah bilirdi, bu müddət ərzində mən yenə ümidimi Allaha bağlamalı, səbir eləməli, gözləməliydim…

# XII

# DAHA BİR ÜMİD ARXASINCA

*Keçər dövran, belə qalmaz,*
*Şad ol könül, nə məlulsan?*

*«Koroğlu» dastanından*

470. Şahımız Türküstana yola düşməzdən qabaq Əmiraslan xan Qırxlunu da, Məhəmməd xan Əfşarı da Herata çağırtdırmışdı. Mən bilən, qardaşının faciəli ölümünü ona bağışlaya bilmirdi. Muğan çölündə Mirzə Mehdidən eşitmişdim ki, Məhəmməd xanla uşaqlıq, cavanlıq illəri bir yerdə keçmişdi, əmisi Bəktaş bəyin oğlunu qardaşı İbrahimdən seçmirmiş; cəsur, mərhəmətli olan İbrahim xan hərb məsələlərində o qədər də qabiliyyətli deyildi, Şahımız da bunu yaxşı bilirdi, əmisi oğlunu Təbrizdə ona görə saxlamışdı ki, Vəliəhdin yanında olsun, onu qorusun; amma Məhəmməd xan borcunu yerinə yetirə bilməmişdi, taxt-tacın varisi elə ilk döyüşlərdəcə güdaza getmiş, üstəlik, meyiti düşmən əlində qalmış, ən pisisə, qardaşının ruhu təhqir olunmuşdu. Məhəmməd xan Əfşar köç-külfətini yığışdırıb Herata yola çıxanda saray meydanında toplaşmışdıq, onun halətindən özündə olmadığını sezirdim, yəqin beynində Şahımızın hansı cəzasına layiq görüləcəyini çək-çevir eləyirdi. Bu məqamda mənim sevindiyim bir şey vardı: Pərixan xatun da Herata gedirdi, Məhəmməd Kazımın bəxtinə gün doğur, vüsal imkanı yaranırdı. Yəqin, Mirzə Mehdiyə, ya da başqa bir kəsə desəydi, cavanın dərdini Şahımıza çatdırar, o da bircə kəlməsilə hər şeyi yerbəyer eləyərdi. Bu gedişin başqa bir tərəfi də vardı: Şahımız Məhəmməd xanın yerinə elə onun qardaşı Aşur xan Əfşarı göndərmişdi, indən sonra Xanımızın yanında Aşur xan olacaq, Azərbaycan qoşunlarının sərdarlığını eləyəcəkdi. Şahımızın Dehlidən zəfərlə dönməsi çoxlarının murazını gözündə qoymuş, əl-ayağını yığışdırmışdı, amma qınlarına çəkilib fürsət

gözləyənlər onun Türküstan səfərinə çıxmasıyla dişlərini itiləyib ortaya çıxacaqdılar, belə bir vaxtda yeni Xanımızın saysız-hesabsız döyüşlər görmüş, qətiyyətli, bir qədər də qəddar qoşunbaşıya hava-su kimi ehtiyacı vardı. Mən Aşur xanı tanımırdım, amma Mirzə Hüseyn ona yaxşı bələdmiş, Şahımızın tədbirinə dönə-dönə əhsən dedi. Mirzə Hüseynin dediyinə görə, Şahımız Türküstan səfərindən dönənəcən Aşur xan, ən azı, Şirvanda baş qaldıranların əl-ayağını yığışdıracaqdı.

471. Məhəmməd Kazımın yazdığına görə, Heratda baş verənlər arasında ən maraqlı, bəlkə də Şahımızın Rzaqulu Mirzənin oğlu, altı yaşlı nəvəsi Şahruxu yanına gətirtməsi, onun adına pul kəsdirməsi, sevib-oxşamasıydı. Üç yüz il qabaq Əmir Teymurun öz oğlu Şahruxu bu cür şərəfləndirməsi onun yadına niyə düşmüşdü, bəlkə şayiələr doğru deyil, Şahımız özünü erməni xəlifənin dediyi kimi, adına cürbəcür şayiələr gəzən İskəndər Zülqərneynə yox, Əmir Teymura oxşatmaq istəyirdi? Məhəmməd Kazımın yazdığına görə, Heratda qaldığı müddətdə uşaq hökmdarın dizinin üstündən düşmürmüş, Şahımız həmin məqamda daha mərhəmətli, daha səxavətli olurmuş. Şübhəsiz, Allah məsləhət bilsə, Şahrux da Nəsrullahın varisi olacaqdı – bu sevginin başqa anlamı ola bilməzdi. Amma hökmdar gələcəyi görəndi, məmləkəti qorumaq, hüdudları genişləndirmək, taxt-tacı saxlamaq üçün çox qanlar tökdüyünü, bəzən ədalətsizlik elədiyini başa düşür, adamların içindəki qəzəbin yığılıb, qəfildən püskürəcəyini bilir, ona görə də indidən ehtiyat tədbirləri görməyə can atır, yoxsa Herat yaxınlığında qala ucaltmağa o qədər sərvət sərf eləməzdi. Məhəmməd Kazım yazırdı, deyəsən, Mirzə Zəki soruşub ki, ey Allahın kölgəsi, İran, Əfqanıstan, Hindistan torpaqlarına sahib olduğun bir vaxtda bu qala nəyinə gərəkdi, Şahımız da deyib, iç düşmən dış düşməndən daha qorxuludu, bu qalanı tikdirirəm ki, qəfil hücum baş verəndə sığınmağa yerimiz olsun. Məhəmməd Kazım, əlbəttə, Məhəmməd xan Əfşarın taleyindən də xəbər verəcəkdi, hələ ki, yalnız özünün arzusunun gerçəkləşdiyini, Şahımızla Türküstan səfərinə çıxacağını, işinin dəftərxanada sursatın gəlir-çıxarını hesablamaqdan ibarət olduğunu, cümadiül-əvvəl ayının ortalarında yola düşəcəklərini yazırdı. Ona əlim çatmasa da, istəklisinə qovuşmasını, şahidi

olduğu hadisələri kağıza köçürməsini arzuladım, bir də görüşməyimizi istədim. Məhəmməd Kazımın Şahımızın yanında olması qəlbimi rahatlatdı, bundan sonra daha çox eşitdiklərini yox, görüb şahid olduqlarını yazacaqdı, bu da tarix yazan adam üçün çox vacib idi.

472. Sonrakı altı ayı, demək olar, Mirzə Mehdidən və Məhəmməd Kazımdan namə gözləməklə keçirdim. Xanımız Aşur xan Əfşarla tez dil tapmışdı, Şahımızın uzaqda olduğundan ürəklənib özbaşınalıq yoluna düşmüş kəslərin əl-ayağı dərhal yığışdırılmışdı, təkcə Şirvandan və Kaxetdən həyəcanlı xəbərlər gəlirdi. Dağlılar tez-tez Kaxeti talan eləyirdilər, Şirvanda qiyamların ardı-arası kəsilmirdi. Şahımız Türküstan səfərindən qabaq Əbdülqəni xanı, iyirmi minlik qoşunla Şirvana göndərmişdi, o da quzeyə Təbrizdən yan keçib getmiş, bir az baş kəsib, göz çıxarıb, girov götürüb hər şeyin yerbəyer olduğunu düşünmüş, geri dönmüşdü, dönər-dönməz də olub-keçənlər təzədən baş vermişdi. Şahımız Əliqulu xana və Xanımıza quzey səfərinə çıxmağı əmr eləməmişdi, heç Səltənətin Naibi Nəsrullah Mirzəyə də dağlıların üzərinə getməyi tapşırmamışdı, bunu Türküstan səfərindən qayıdandan sonra özü yerinə yetirəcəkdi. O ilin yay və payız axşamları Mirzə Hüseynlə saray bağında gəzəndə Şahımızın səfərinin uğurlu olması üçün dua eləyirdik. Mənim Tiflis həsrətimə son qoymağım o uğurdan asılıydı, hələ də ümidvardım ki, Şahımız Gündoğandan zəfərlə qayıdıb quzey səfərinə çıxanda taleyimi bir də sınaqdan keçirəcək, son beş ildə dördüncü kərə üzü yurd yerinə sarı yola çıxacağam. Artıq Təbrizdə keçirdiyim Novruz, ramazan, qurban bayramları könlümü o qədər də tərpətmir, yazın gəlişi, yayın ötüşü qəlbimdə xoş duyğular oyatmırdı. Vəfalı Qütbəddinlə arabir şəhər gəzintisinə çıxdığım məqamlarda belə, gördüyüm mənzərələrdən könlümcə zövq ala bilmirdim. Xanımızın divan yığnaqlarında götür-qoy edilən dövlət işləri bir-birinə oxşadığından çox vaxt özümü artıq hesab eləyib sıxıntı keçirirdim. Səhər-axşam gözüm yolda, qulağım səsdəydi, Gündoğandan gələcək çaparı, onun gətirəcəyi naməni gözləyir, beləcə, intizarlı gündüzləri, sıxıntılı axşamları yola verirdim…

473. O namə 1153-cü ilin zilhiccə ayında, Novruz bayramına bir həftə qalmış gəldi. Məhəmməd Kazım döndüyü səfərin

həyəcanı duyulan naməsində Cərcoya necə çatdıqlarından, Şahımızın Buxara əmiri Əbülfeyzə Əfrasiyab dəbdəbəsilə hüzuruna gəlmək barədə əmr göndərdiyindən, amma vaxtilə Rzaqulu Mirzənin yendiyi kəslərin əmirə köməyə gəlib onu döyüş üçün dilə tutduqlarından, Əbülfeyzin aldanıb məğlub olandan sonra Şahımızın pişvazına çıxmasından yazırdı. Yazdığına görə, Şahımız Əbülfeyzi mehribancasına qarşılayıb, üstəlik, bəxşiş də verib, amma Buxaranın sərvətindən razı qalmayıbmış, ələ keçirilən Məhəmməd Şahın xəzinəsilə müqayisədə çox kasadmış; sonra Şahımız Əbülfeyzi Buxaranın şahı elan eləyib, öz əlilə onun başına tac qoyub, ardınca qızlarından birini Rzaqulu xana, digərinisə Əliqulu xana verməsini istəyib, o da çar-naçar razı olub, amma Rzaqulu bəxtinə düşən böyük qızın əvəzinə təriflənən kiçik qızla evlənmək arzusunu bildirib, Şahımız da deyib, əgər Rzaqulu fikrindən dönməsə, böyük qızla özü evlənəcək; yazırdı, Şahzadə inadından dönməyib, beləcə, üç gün sonra Şahımızın və Əliqulu xanın toyu olub; Şahımız Nəsrullah Mirzəni və Əliqulu xanı hərəmlərlə Məşhədə yola salandan sonra İlbarsla Əbülxeyri itaətə gətirmək üçün Xivə və Xarəzm üzərinə gedib; bu vaxt Rzaqulunun düşməni Tağı xan Şirazi də Buxaradaymış, Şahımızın qılığına girib özbaşnalığına görə azad olunduğu Fars bəylərbəyiliyinə qayıdıb, üstəlik, Şahzadənin taxt-taca can atması barədə Şahımızın qulağını yaxşıca doldurub, o da deyilənə inanıb, oğlunu Məşhədə göndərib. Məhəmməd Kazım naməsini Mərvdən göndərmişdi, belə çıxırdı, Şahımız Türküstan səfərini başa vurub Məşhədə dönür. Bir vaxtlar Şahımızın göz bəbəyi, taxt-tacın varisi olan Şahzadənin belə etibardan düşməsi ürəyimi ağrıtdı, fikirləşdim, belə getsə, bunun axırı heç xeyir olmayacaq…

474. Novruz bayramından sonra Məşhəddən gələn çapar Şahımızın Xanımıza naməsini gətirdi. Mirzə Hüseynin dediyinə görə, hökmdar quzey səfərinə çıxacağı barədə onu xəbərdar eləyirdi. Cavab naməsini gözləyən çapar qəzvinliydi, az qala beş il əvvəl Muğan çölündə Mirzə Mehdinin xidmətində görmüşdüm. Mirzə Hüseynin hücrəsinə girəndə o da məni tanıdı, bir qədər söhbət eləyə bildik. Dedi, Şahımız Mərvə Məhəmmədrza xan Qırıqlunun əvəzinə Şahqulu xan Qacarı hakim qoydu, Səfəviləri öldürməkdə, Şahzadəni taxta çıxmağa təhrik eləməkdə günahkar

saydığı Rəhim Sultanı və onun tərəfdarlarını edam etdirdi. Sonra çapar Şahımızın Əbivərdə, ordan da yurdu Dəstgirdə gəlib mövludxana tikdirdiyindən danışdı; dediyinə görə, mövludxananın üstündə qızıldan qılınc olan elə böyük qübbəsi var, baxanda heyran qalırsan; Şahımız Dəstgirddən də Kelata gedib Hindistandan gətirdiyi sərvəti orda gizlədib, qalada abadlıq işləri aparıb, sonra Xivəabadda camaatla görüşüb, səxavət kisəsinin ağzını açıb, ordan da Məşhədə qayıdıb; çaparın dediyinə görə, indi Şahımız Məşhəddə abadlıq işləri aparır, İmam Rzanın türbəsinə çoxlu ipək xalılar, xalis qızıldan lampalar verib, fəvvarə tikdirib, üstəlik, Məşhəddə də özünə sərdaba ucaltdırıb, görənlər deyirlər, çox əzəmətlidi; çapar danışdı ki, deyilənə görə, kimsə sərdabının üstündə yazıbmış *hər açarın üstündə sənin nişanın var, cəmi aləm sənə məxsusdu, amma əsl yerin boşdu,* amma "göz-qulaqları"nın xəbər tutacağından qorxub tez-tələsik siliblər, Şahımız xəbər tutsaymış Allah bilir, neçə zavallının başı bədənindən ayrılacaqmış. Çapar bəlkə də çox şeylər danışardı, amma həm tələsirdi, həm də ehtiyat eləyirdi, üzündə açıq-aşkar qorxu nişanəsi vardı, mən də binəvanın halətini sezib artıq sıxma-boğmaya salmadım, o da Mirzə Hüseyn cavab naməsini bitirən kimi, halal-hümbət eləyib yola çıxdı ki, Şahımızın naməsini vaxtında aparıb başını salamat saxlasın.

475. Əlbəttə, həm macal tapmamışdım, həm də lüzum görməmişdim ki, Mirzə Mehdiyə namə yazıb təvəqqemi bir də xatırladım, amma çapara dilcavabı demişdim, yadına salacaqdı, qalanısa qismətdən asılıydı. Bir yerdə duruş gətirmək Şahımızın təbiətində yox idi, taxta çıxdığı beş il ərzində kimsə onun üç aydan artıq hardasa qaldığının şahidi olmamışdı. Əmindim ki, nə qədər sevsə də, nə qədər görməli işi olsa da, Məşhəd də onu darıxdırır, səfərə çıxmaq, zəfər qazanmaq, düşmənləri itaətə gətirmək istəyir. Deyəsən, Mirzə Mehdinin naməsindəydi, yəqin, o da hardansa eşitmişdi, əslində, Şahımızın səltənətinin əsl paytaxtı atının beli, yəhərin üstüydü. İndi güman ki, darıxa-darıxa Xorasan əyalətinin gəlir-çıxarını yoxlayır, hətta arada qəzəblənməyə səbəb tapıb bir neçə nəfəri edam etdirəcək ki, o sıxıntılı məşğuliyyətdən canını qurtarsın. Dəbdəbəli sarayların şahanə otaqlarında Şahımızın özünə yer tapmadığını da

Mirzə Mehdidən eşitmişdim: onun ruhunda ölgün, eyş-işrətlə dolu saray həyatı yox, yollar, at beli, səfər çadırı, döyüşlər, zəfərlər, təhlükə, qisas… vardı, güman ki, Məğribdən Məşriqəcən bütün məmləkətləri itaətə gətirsə belə, heç bir şəhərdə duruş gətirməyəcək, həmişə Dəstgirdə və Kelata can atacaqdı. Bu, yəqin, insan xislətinin izaholunmaz tərəfidi: elə mən də İstanbulda Sultan sarayında xidmətə girib yaşaya, yaxud Allah möhlət verdiyi qədər Təbriz sarayında ömür sürə bilərdim, amma ruhumda Tiflis havası var, o şəhərin köhnə məhəlləsindəki kasıb bir evdə, kiçicik hücrədə ömür sürmək üçün hər şeydən keçməyə hazıram. Altmış səkkiz yaşında taledən istədiyim özgə bir şey yoxdu, son naməmdə Mirzə Mehdiyə də elə beləcə yazmışdım. Əlbəttə, arzulamaq bir, alın yazısı başqa şeydi, amma yadımda deyil, əvvəl xatırlatmışdımmı, arzulamaq da məqsədə yetməyin yarısına bərabərdi.

476. Mirzə Mehdinin çaparı Tehrandan gəldi, naməni açmamış ürəyim elə bərk-bərk döyündü ki, işıqlı yaz günü bir anlığa gözlərimdə qaraldı. Mirzə Mehdi yazırdı, ovqatının xoş vaxtında təvəqqeni Şahımıza çatdırdım, dedi, hər Allah bəndəsinin öz yurdunda ölmək haqqı var, Mirzə Yusif xidməti müqabilində xələtini alıb, mürəxxəs ola bilər. Bunu oxuyanda bir anlığa nəfəsim tutuldu, göz yaşlarım axıb, yanaqlarımı islatdı. Mirzə Mehdi sonra yazırdı, zilhiccə ayının iyirmi altısında Məşhəddən çıxdıq, Novruz bayramını Xabuşanda keçirdik, sonra Gürgan vadisindən keçib Astarabada çatdıq, səfər ayının sonunda Qaduk aşırımından keçib Tehrana yetişdik; yazırdı, bir neçə gündən sonra Tehrandan yola çıxırıq, yəqin Qəzvin, Zəncan, Qaradağ yolu gələcəyik, sən bizi Qaradağda qarşılasan, daha yaxşı olar. Sonra üstüörtülü bəzi təfsilatları görüşündə söyləyəcəyinə işarə vururdu. Məndən ötrü ən gözlənilməz mətləb buydu ki, Məhəmməd Kazım bu səfərə çıxmayacaq, Şahqulu xan Qacarın xidmətində olacaqdı. Əlbəttə, görüşüb vidalaşsaq yaxşı olardı, amma görüşdən sonrakı ayrılığın daha ağrılı olacağını da başa düşürdüm. Heç olmasa, onun könül məsələsini Mirzə Mehdiyə açmaq fürsəti yaranmışdı, mənə az da olsa övlad sevgisi daddırdığına görə borcumdan bu cür çıxa bilərdim. Elə o gün Mirzə Hüseyn olub-keçəndən xəbər tutanda çox qüssələndi, hər halda

beş ildən bəri ünsiyyətdəydik, acılı-şirinli günlər keçirmişdik. Mirzə Qulam da gedişimə təəssüf elədi, amma dedi, Şahımızın buyruğu bizdən ötrü Allahın buyurduğudu, sonra hörmətlə vidalaşdı. Xanımız təzim eləməyə qoymadı, səltənətə xidmətimə görə xələt və yolxərci verilməsini xəzinədarbaşıya tapşırdı, sonra dedi, Mirzə Yusif, yazdığını bitirəndə əlyazmanı Tiflis hakiminə verərsən, o da etibarlı adamla mənə göndərər. Xanımızdan yalnız bir şey – məni Şahımızın hüzurunacan müşayiət eləyəcək adam istədim, o da şübhəsiz ki, vəfalı Qütbəddin idi. Qütbəddin də bu səfərə ürəklə razılaşdı, axşamdan sandıqlarımızı hazırladıq, atları-qatırları ayırmağı mehtərbaşıya tapşırdıq, amma onu bilmirəm, mənim gözümə yuxu getmədi ki, getmədi…

# XIII

# VƏFALI QÜTBƏDDİN

*Kim ki, diləməz mərhəməti-lütfün ki, Məsiha,*
*Çərx üzrə dəxi xəstə o dərmanın üçündür.*

*Ağa Məsih ŞİRVANİ*
*(XVIII yüzil)*

477. Getdiyim yollardan çox söz açmışam, bu dəfə yol yoldaşımdan – vəfalı Qütbəddindən danışmaq istəyirəm. Bircə onu deyim, bizi saray meydanından, sonra da Təbriz civarından yola salan Mirzə Hüseynin dediyinə görə, əgər Mirzə Mehdi naməni Tehrandan göndəribsə, indi Şahımız Zəncan, ya Rəşt tərəflərdə olar, Qaradağa gəlib çatmağı azı bir həftə, on gün çəkər. Bu səbəbdən Ərdəbilə sarı üz tutmuşduq, könül sirdaşım Mirzə Kəmaləddinlə son kərə vidalaşıb rahatlanmaq istəyirdim. Sözün düzü, Qütbəddinin bu qədər də sədaqətli olacağını ağlıma gətirməmişdim: nə düşünüb-daşındı, nə haqq istədi, nə də qaş-qabaq tökdü, həmişəki təbii və səmimi tövrüylə baş əyib, yola nə vaxt çıxacağımızı soruşdu, vəssalam. Cəmi ailəsini – ata-anasını, bir qardaşını, iki bacısını vəba qırğınında itirdiyi barədə o faciəli səfərimizdə danışmışdı, o vaxtdan da uzaq qohumu həkimbaşı Şahabəddinin xidmətinə girmişdi, bir növ onun əlaltısıydı. İlk görüşümüzdəcə altmış beş yaşlı xəstə səyyahla iyirmi iki yaşlı dərdli baxıcının arasında səmimiyyət ruzigarı əsmişdi, o ruzigar indiyəcən də ünsiyyətimiz davam eləyirdi. Aradan, az qala, üç il keçmişdi, o səfərdə məni ölümün pəncəsindən qoparan, bəlkə də itkilərinin ağrısını dindirməyə çalışan Qütbəddin, ola bilsin, xatirələrdən qaçmağa can atırdı. Birinə sandıqlarım, o birinə gündən-yağışdan qorunmaq üçün balaca səfər çadırı yüklənmiş qatırların kəndirini atının yəhərinə bağlayıb yanımca gələn, aradabir mələk Cəbrayıl kimi başımın üstündə uçduğunu hiss elədiyim vəfalı Qütbəddin məni Mirzə Mehdiyə çatdırıb Təbrizə

qayıdacaqdı. Sözün düzü, bir vaxtlar Məhəmməd Kazıma duyduğum atalıq hissi yenə baş qaldırmışdı, amma bu dəfə də fələk bu hissi doya-doya yaşamağa imkan verməyəcəkdi. İndi gündüz istisində ağac, ya da qaya kölgəsində, gecə ikinəfərlik çadırımızda namazımızı qılır, yeməyimizi yeyir, ordan-burdan söhbət eləyir, yatıb dincəlir, sonra yenə yola çıxırdıq…

478. Ərdəbil görünəndə, daha doğrusu, qürub günəşinin Şeyx Səfi türbəsinin qübbəsindəki əksini sezəndə ürəyimin döyüntüsü qulaqlarımda gurultu salmışdı. Sonra ağır-ağır axşamın toranlığı enən küçələrlə Mirzə Kəmaləddinin evinə sarı gedir, onu tapmayacağımla bağlı qəfildən beynimə gələn fikirdən tez-tez eymənirdim. Amma könül sirdaşımı tanış eyvanda oturub yola baxan görəndə yenə ürəyim atlandı. Deyəsən, ilk məqamda gələnin kim olduğunu unamadı, küçəyə çıxıb, axşam toranlığını əlindəki lampanın işığıyla aydınladıb üzümə baxandan sonra bütün vücuduyla titrədi, sinəsindən boğuq səs çıxardı, məncə, həmin vaxt Qütbəddin çırağı əlindən almasaydı, ya yerə atacaq, ya da kürəyimi yandıracaqdı: qucaqlaşdıq, bir-birimizi qoxuladıq, gözümüzün yaşını axıtdıq. Bu müddətdə külfəti eyvana çıxmış, oğlu pişvazımıza gəlmişdi. Görmədiyim müddətdə oğlanın xeyli böyüdüyünün fərqinə vardım, onu bağrıma basanda da övladımın qoxusunu aldım. Sonra yuyunub, rahatlanıb, namazımızı qılıb, çörəyimizi yeyib, eyvanda Ayın nurunun, lampa işığının bir-birilə qarışmış ziyasında oturmuşduq, ötən illərin apardıqlarından, gələcək illərin gətirəcəklərindən danışırdıq. Mirzə Kəmaləddinin həyatında oğlunun mədrəsəni bitirməsindən başqa dəyişiklik yoxudu: mədrəsədə dərsini deyir, evdə kitab oxuyurdu, dükan-bazara, camaatın yığışdığı yerlərə getməyi xoşlamazdı, təkcə cümə namazlarını məsciddə qılmaq üçün evdən çıxır, ləngimədən evə dönürdü. Ən gözlənilməz olan buydu ki, Mirzə Kəmaləddin Qütbəddinin kənkan atasını tanıyırmış, uşaqlıqları bir məhəllədə keçibmiş; oğlanın başına gələnə çox acıdı, dedi, bundan sonra qapım sənin üzünə açıqdı, elə bilərsən, Ərdədbildə də bir evin var. Bir daha görməyim müşkül olan könül sirdaşıma Qütbəddin kimi vəfalı bir insanın rast gəlməsinə çox sevindim. Mirzə Kəmaləddin oğlandan söz aldı ki, geri qayıdanda yolunu

Ərdəbildən salıb, məni necə yola saldığını ona söyləyəcək, sonra rahat oldu…

479. Ərdəbildə üç gün qaldıq. Qütbəddinlə hər gün saraya gedib Şahımızın qoşununun bu səmtlərə yetişib-yetişmədiyindən xəbər tutmağa çalışır, məscidləri, türbələri, mədrəsələri dolaşır, dükan-bazara baş çəkirdik ki, Mirzə Kəmaləddin işindən qalıb bizimlə məşğul olmasın. Axşamlar eyvanda oturub olub-keçənlərdən, İstanbuldan, Anadolu xatirələrindən, Nəqşivandan, Rəvandan, Muğan çölündən, şeriyyətdən danışmağı sevirdik. Qütbəddin yazıb-oxumağı az-çox bilirdi, amma bizim danışdığımız mətləblərə vaqif olmadığından əzab çəkdiyini görürdüm. Belə vaxtlarda bir qıraqda dinməzcə oturan Səfiəddin – könül sirdaşımın oğlu aradabir səsini çıxarıb heyrətini bildirir, sonra da ədəblə susurdu. Mirzə Kəmaləddin oğlunun mədrəsəni yaxşı bitirdiyini, bir müddət dəftərxana işlərində çalışandan sonra mədrəsədəki yerini ona verəcəyini söyləmişdi, hətta gizli-gizli nələrsə yazdığına da işarə vurmuşdu. Onda yadıma Məhəmməd Kazım düşmüşdu – Mirzə Kəmaləddin də, elə bil, fikrimi oxuyubmuş kimi, onu soruşmuş, ardınca o dərrakəylə həyatda öz yerini tapacağını söyləmişdi. Mirzə Kəmaləddin mümkün qədər məmləkət işlərindən danışmamağa çalışırdı, amma aradabir vergilərin çoxluğunu, hakimlərin özbaşınalığını dilinə gətirirdi. Dediyinə görə, hamını bir tərəziylə ölçmək olmaz, imkanı olanla imkansız arasında fərq qoyulmalıdı, elə ailə var, ancaq qarnını doydurmağa gücü çatır, vergiləri necə versin. Əlbəttə, deyirdi, dövlət qulluğunda olanları dolandırmaq, qoşunu saxlamaq, xəzinəni doldurmaq lazımdı, amma yerlərdəki hakimlər əliuzunluq eləməsələr, camaata da bu qədər sitəm olmaz. Şübhəsiz, bunu Şahımız da gözəl bilirdi, amma o kəslərin nəfsini təmin eləməsən, taxt-tacın düşməninə çevrilərlər, necə ki, Tağı xan Şirazi Şahzadəylə qəvi düşmən olmuşdu – belələri məmləkətdə bir deyil, iki deyil…

480. Gözlədiyimiz xəbər üçüncü gün çıxdı, Şahımız Sərab-Meşkin–Ərdəbil yoluyla gəlirmiş, belə çıxırdı, biz qoşunu Ərdəbildə gözləməliyik, uzağa getməyə hacət yoxdu. O gecə Qütbəddini yatmağa göndərib xeyli dərdləşdik. Dedim, yəqin bu son görüşümüzdü, altmış səkkiz yaşım var, bundan sonra səfərlərə çıxa bilmərəm, yeganə istəyim Tiflisi görmək, ömrü-

mü orda başa vurmaqdı; dedim, neçə illər ünsiyyətdə olduq, dostluq elədik, bir-birimizin könlünə toxunan bircə hərəkətə yol vermədik, çətin günlərimizdə bir-birimizə dayaq durduq, amma Allahın məsləhət bildiyi şeylər var ki, onlara boyun əyməyə məcburuq; dedim, haqqımızı bir-birimizə halal eləyək, hərdən ünsiyyətdə olduğumuz məqamları xatırlayaq, könlümü-zü isindirən o xatirələrlə yaşayaq – bundan sonra bu bəsimizdi; dedim, qismət olub, Tiflisə sağ-salamat çatsam, Allahım da ömür möhləti versə, gələn karvanlarla namələrimi, sovqatlarımı göndərərəm, əgər xəbər çıxmasa, məni bu dünyadan köçünü sürmüş bil. Sonra uzun-uzadı susduq, dua oxuyub, salavat çevirib yuxuya getməyə çalışdıq. Səhəri də külfətilə halallaşdıq, şəhərin günbatan səmtindəki darvazalarınacan bizi ötürən könül sirdaşımı boynu buruq qoyub yola çıxmaq məndən ötrü asan olmasa da, həyətin gerçəkliyindən qaçmaq olmazdı. Bu halımız vəfalı Qütbəddini də kövrəltmişdi, dedi, yolu Təbrizə düşəndə mütləq Ərdəbilə dönüb Mirzə Kəmaləddindən hal-əhval tutacaq. Könlümdən keçdi ki, kaş, Qütbəddin sirdaşımın qızını görüb vurulaydı, qohum olaydılar, bir-birinə dayaq duraydılar. Yay səhərinin xoş havasında Ərdəbil ətrafında Şahımızın ordugahına üz tutmuşduq, ordan da Kəleybərə gedəcəkdik qismətimizdə vardısa, Şahımızın ordugahına rast gələcəkdik, sonra da vəfalı Qütbəddinlə vidalaşma məqamı yetişəcək, yollarımız ayrılacaqdı…

481. Görünür, Şahımız quzey hüdudlarımıza tez yetişib qardaşının qisasını almağa can atırdı, çünki qoşunu nə Ərdəbil ətrafında, nə Kəleybərdə yaxalaya bildik, lap nağıllardakı kimi, dedilər, Şahımız Əmiraslan xan Qırxlunun gətirdiyi əvvəlcədən Təbrizə gedib özüylə gətirdiyi Azərbaycan qoşununa baxış keçirib, hazırlığını bəyənib, sonra öz qoşununa baxıb, elə həmin gün də Səməd bəy Təbrixinin boynunun vurulmasını (görünür, söylənənlər Şahımıza da çatıbmış), var-dövlətinin xəzinənin nəfinə alınmasını əmr eləyib, səhəri də yola çıxıb. Əlbəttə, vəfalı Qütbəddinə bu qədər əziyyət vermək istəməzdim, amma əvvələ, Xanımızın buyruğunu yerinə yetirib məni qoşuna çatdırmalıydı, ikincisi, lap iki aləm bir olsa, mən yaşda adamı yarıyolda qoyub qayıtmazdı. Gecəni Kəleybərdəki kiçik karvansarada

keçirib səhəri Araz qırağına doğru yol başladıq. Qütbəddinə qalsaydı, çoxdan Şahımızın ordugahındaydıq, mən atın löhrəm yerişinə dözmürdüm, üstəlik, at belində çox oturanda yorulurdum, belim ağrıyırdı, bu səbəbdən gün ərzində üç-dörd dəfə dayanıb dincimizi almalı olurduq. Elə buna görə də Kəleybərdən Araz qırağınacan birgünlük yolu iki günə gəldik, ordasa saysız-hesabsız at, dəvə, qatır, öküz dırnaqlarının, araba təkərlərinin izindən, çadır və ocaq yerlərindən başqa bir şey tapmadıq. Vəfalı Qütbəddin heç tövrünü pozmadı, dedi, görünür, alnımıza belə yazılıbmış, Dərbənddə də olsa, səni Mirzə Mehdiyə çatdırmamış qayıtmayacağam. Onun sədaqəti məni bir daha kövrəltdi, heç minnətdarlıq eləmək üçün də söz tapmadım. Ağlıma gəldi ki, ayrılanda olan-qalanımdan xələt verim, çəkdiyi bu zəhməti mənə halal eləsin, amma bilirdim ki, belə şeyə razı olmayacaq. O gecəni Araz qırağında keçirdik, Ayın çay səthindəki əksinə baxa-baxa həyatın mənası barədə danışdıq. Qütbəddin deyirdi, itkilərlə yaşamaq adamın qüvvəsini tükədir, bu fikrilə razıydım, çünki həyatım başdan-başa itkilərdən ibarətiydi, bu mənada Qütbəddin elə bil mənim ömrümü təkrarlayırdı. Mənsə bunu istəmirdim, istəyirdim, onun oturaq həyatı olsun, ailəsi olsun, yaxşı qulluğu olsun, mənim kimi taleyin ümidinə qalıb dünyanın yollarında pəsələng olmasın. Amma buna tale deyərlər, kim ömrünü istədiyi kimi yaşayıb ki…

482. Qütbəddin sandıqların, daha doğrusu, sandığın birinin məndən ötrü nə qədər dəyərli olduğunu bilirdi. O sandığı da Acıçaydan, Əhər çayından keçirdiyi kimi, Arazdan da elə keçirdi ki, bir damcı su belə düşmədi. Özü qurşağacan islanmışdı, ocaq qalayıb paltarını qurutmaq üçün dilə tutdumsa, istəmədi, yay gününün havası, bir də cavanlığı öz sözünü dedi. Yolumuzun üstündəki obalardan yemək-suyla yükümüzü tutur, qoşunun getdiyi səmti soruşub-öyrənir, günorta gün şaxıyanda kölgəliklərdə daldalanır, daha çox səhər və axşam sərinində yol gedirdik. Artıq Təbrizdən çıxandan sonra keçən günlərin sayını dolaşdırırdım, Qütbəddinlə köməkləşib hesabladığımıza görə, Təbrizdən Ərdəbilə üç günlük yolu, Ərdəbildə üç gün qalmağımızı hesablamasaq, Araz qırağına səkkiz, ya doqquz günə çatmışdıq, əgər Şahımız Bərdədə dayanıb qoşuna dinclik versəydi, uzaq-

başı iki həftəyə ordugaha yetişərdik. Qütbəddinə deyirdim, güman ki, keçən dəfəki kimi, Şahımız Bərdədə dincəlib Rəvandan, Qarabağdan, Gəncədən gələn qoşunları gözləyəcək, həm də məsləhətləşmələr aparıb, Şirvandakı, Kaxetdəki və Dağıstandakı vəziyyəti öyrənməmiş yola çıxmayacaq. Amma Bərdəyə ikigünlük məsafədə Məşhədə gedən iki çapara rast gəldik. Çaparlar Şahımızın Nəsrullah Mirzəyə naməsini aparırdılar, dediklərinə görə, qoşun bu gün, ya sabah yola çıxmalıdı, Şahımız payız gəlib yağışlar başlananacan Dağıstanı itaətə gətirmək istəyir, ona görə də Bərdə altındakı ordugahda çox ləngimək fikri yoxdu. Çaparlardan eşitdiyim məni kədərləndirdi, amma vəfalı Qütbəddinin üzünə kölgə belə düşmədi, gülümsünüb, dedi, Mirzə Yusif, heç fikir eləmə, Allahın köməyilə haqlarıq, haqlamasaq da, Ərəşdə, ya Ağdaşda gedib çatarıq; dedi, əslində, bu da məndən ötrü bir səyahət eləmək fürsətidi, sarayda oturub qalmaqdan qat-qat yaxşıdı, adamlar, kəndlər, şəhərlər, dağlar, düzlər görürəm, ya qismət, yolum bu tərəflərə düşə, ya düşməyə. Yaşımın bu çağında rastıma belə dürüst kimsə çıxardığına görə, Uca Yaradana dönə-dönə dua elədim…

483. Doğrudan da, Bərdə düşərgəsində bəzisi hələ də tüstülənən ocaq yerlərindən, atların, dəvələrin, qatırların, öküzlərin, bir də çadırların izlərindən başqa bir şey tapmadıq, Kür qırağında rastlaşdığımız bərəçilər qoşunların iki gün qabaq keçib Ərəşə sarı getdiyini söylədilər. Şahımızın tikdirdiyi körpüdəki bərəçilərin kefi kök idi, görünür, əlahəzrətdən yaxşı ənam almışdılar, biz də halallığımızı verib rahatca o taya keçdik, üstəlik, bərəçilər balıq şorbasına qonaq eləyib, uğurlu yol arzuladılar. Dediklərinə görə, hökmdarın qoşunu o qədər çox imiş ki, elə bil, atların ayaqlarını isladan sudan çayın səviyyəsi xeyli azalıbmış; əgər hamısını bərəylə keçirməli olsaydılar, yəqin otuz bərə azı üç həftə durub-dincəlmədən işləyəydi; ona görə də Şahımız elə düşərgədə olanda körpü tikməyi əmr eləyibmiş; körpüdən, bir də bərələrlə ancaq ərzağı, sursatı, məsləhət bilinən şeyləri bir günün ərzində keçiriblər, qoşunsa atları çaya vurub. Cənnətlik İbrahim xanın səfərində keçidin necə olduğunu görmüşdüm, bərəçilərə qoşunun dağlıları itaətə gətirib bir neçə aya geri dönəcəyini söyləyib sevindirdim, halallaşıb yola düzəldik. Qoşunu nə Ərəşdə, nə

Şəkidə haqlaya bildik, düşərgənin Qəbələdən, ya Qaxda qurulacağı ümidilə yenə yolun damarını qırmağa başladıq. Şəkidən təzəcə çıxmışdıq ki, bulaq başında Şahımızın Şirvana göndərdiyi çaparla rastlaşdıq, dedi, düşərgə Qəbələdə salınıb, artıq üç gündü ki, qoşun hazırlıqla məşğuldu. Qocafəndi yolçuluğumu, axşamdan bəri sancan, işığı azalan gözlərimin gözləmədiyim namərdliyini lənətləyə-lənətləyə bu dəfə Mirzə Mehdiyə yetişməyi Allahdan arzuladım, vəfalı Qütbəddin də dedi, inşallah, tezliklə Şahımız dağlıları itaətə gətirər, mən də Təbrizə zəfərlə dönərəm. O məqamda arzuladığım bircə şey vardı: Allahım mənə ömür möhləti versin, Tiflisi görüm, kitabımı tamamlayım. *Onda 1153-cü il cümadiül-əvvəl ayı təzə girmişdi, təbiətin gözəl vaxtıydı, hələ yaşamağa dəyərdi…*

# XVI

# ALLAHIN ENDİRDİYİ ZÜLMƏT

*Çayda balıq yan gəzər,*
*Açma yaram, qan gedər.*
*Həkim, təbib neyləsin,*
*Əcəl gəlib, can gedər.*

***Şirvanda eşitdiyim bayatı***

484. Keşikçilər bizi qəfil yaxaladılar, keşikçibaşı sorğu-sual eləyib məramımızı biləndən sonra iki nəfər tüfəngçiyə Mirzə Mehdinin çadırına aparmağı tapşırdı. Sonra insan dənizinin içilə, irili-xırdalı çadırların arasıyla xeyli yol getdik, hər tərəfdən at kişnərtisi, dəvə nəriltisi, qatır anqırtısı, öküz böyürtüsü eşidilirdi, qılıncları itiləyir, tüfəngləri silib-təmizləyir, əsləhəni nizama salırdılar, bir-iki yerdə qılıncla qüvvəsini sınayan, tüfənglə nişan alanlar gördük. Qulağımıza hind, urdu, puştun, özbək, cığatay, uyğur, fars, ərəb, kürd, talış, gürcü... kəlmələri də gəlib çatırdı, bunları Qütbəddin ayırd eləyə bilməzdi, neçə illərin vərdişi və fəhmlə bir-birindən seçirdim. Yüzbaşıların, minbaşıların, qoşunbaşıların bir-birindən təkcə iriliyinə görə yox, həm də əzəmətinə görə seçilən çadırları yay günəşinin işıq saçdığı vadiyə yağışdan sonra çıxan göbələklər kimi səpələnmişdi. Şahımızın şahanə çadırını uzaqdan tanıdım, Muğan çölündə gördüyüm qədər əzəmətliydi, qübbəsində qızılı rəngli bayrağı dalğalanırdı. Mərhum xanımızın qoşunundan dörd-beş kərə çox olan bu ordunun qabağında dağlıların inadı tab gətirərdimi? Hindistanı, Türküstanı, Əfqanıstanı diz çökdürən bu qüdrət sahibi Dağıstanı, Avarıstanı, lap elə hərdən uzaqdan-uzağa dişini göstərən Qırımı itaətə gətirməzdimi? Şahımız vaxtı-vədəni gözləyirmiş, gündoğar hüdudlarında əmin-amanlıq yaradandan sonra quzeydə işləri yoluna qoyacaq, ardınca təzədən günbatana, ya da güneyə yön çevirəcək, belə dinclik-rahatlıq tapma-

dan məmləkətin sınırlarını genişləndirib möhkəmləndirəcək, bəlkə də bir vaxt daha döyüşlərin olmamasından darıxıb, yeni məmləkətlərin fəthinə başlayacaq, qoşunlar görmədikləri və tanımadıqları yerlərdə döyüşəcək, yeni-yeni qələbələr qazanacaq, itkilər verəcək, qənimətlər ələ keçirəcəkdi, amma nə qədər ki, Şahımız at belindəydi, yenə dayanmayacaqdı. Bunu da Mirzə Mehdidən eşitmişəm: sərf olunmayan güc çox təhlükəlidi, yığılıb qalsa, fəlakət törədə bilər…

485. Bu sözləri deyən Mirzə Mehdi məni görəndə kövrəldi, xeyli qucaqlaşdığımız yerdəcə dayanıb bir-birimizi süzdük. Yəqin, görmədiyim beş il ərzində qocaldığımı düşünürdü, dedi, şükür, səni pis görmədim; özü də az dəyişməmişdi, çallaşmış saç-saqqalında illərin yükü açıq-aşkar bilinirdi. Dedim, Mirzə Mehdi, gözlərimin işığı get-gedə azalır, deyəsən, həsrətimi söndürməmiş zülmət başımın üstünü alacaq. Mirzə Mehdi təəssüflə dedi, Şahımızın həkimi Hindistandan gətirdiyi Ələvi xan Qəzvində izin alıb Məkkə ziyarətinə getdi, o bir əlac tapardı, amma qəm eləmə, yerbəyer ol, bir çarə qılarıq. Çadırın qabağında keçə döşəkçələrin üstündə oturub hal-əhval tutduq, bu müddətdə Qütbəddin Mirzə Mehdinin xidmətçilərilə köməkləşib çadırımızı qurdu, sandıqlarımızı yerbəyer elədi, atları, qatarları mehtərlərə tapşırıb rahatlıq tapdı. Mirzə Mehdi fikirliydi, arada fürsət tapıb bircə onu dedi ki, Ələvi xan gedəndən sonra Şahımızın əhvalında dəyişiklik var, qəzəb ruzigarının nə vaxt əsəcəyini, kimləri sovurub-aparacağını bilmək olmur, Şahzadənin son əməlləri – Səfəvi törəmələrini öldürtməsi, taxta çıxmaq qəsdi, dəbdəbəli qoşun yaratması, Buxarada Əbülfeyzin böyük qızından imtina eləməsi Şahımızın səhhətinə çox fəna təsir göstərib, üstəlik, yoldakı sui-qəsdi də sonra danışaram, pıçıltıyla əlavə elədi, onun adıyla bağlayırlar. Mirzə Mehdinin bu halətindən qəlbimə nigaranlıq çökdü, uzun-uzadı günəşin üfüqdə batmasına qan rəngli iri ləkənin, elə bil, damcı kimi dağların arxasına düşməsinə baxdıq. Şahzadənin Tehranda saxlanması bu halda nə anlam daşıyırdı, Şahımız beşillik hakimiyyəti müddətində niyə bu qədər tənhalaşmışdı? Yəqin, Mirzə Mehdi daha da çox şeylər bilirdi, amma onun nə vaxtı, nə də yeriydi, indi qalxıb axşam namazımızı qılmalı, Allah verəndən yeməli, yolun yorğunluğunu canımdan çıxarmaq üçün

yatmalıydım. Yaxın günlərdə Mirzə Mehdi fürsət tapıb məni Şahımızın hüzuruna aparacaq, Allahın kölgəsindən son iltimasımı eləyəcəkdim. İndi başlıcası bura gəlib çatmağımızıydı, onu da Allahımız bizə qismət eləmiş, dualarımızı eşitmişdi…

486. O gecə korluq zülmətinin iç dünyama necə çökdüyünü duyub bütün vücudumla titrədim. Gördüyüm qarmaqarışıq yuxular da işıqsız idi, daha doğrusu, zülmət içində sayrışmalara oxşayırdı, hərdən sonu görünməyən yolda özümü görür, uçunub ayılır, əlimi üz-gözümə çəkib xəyalda, yoxsa gerçəklikdə olduğumu unamağa çalışırdım. O zülmət içində nəhəng ordugahın boğuq uğultusunu eşidirdim, aradabir keşikçilərin səsi, atların kişnərtisi, ayırd eləyə bilmədiyim cürbəcür tappıltılar gəlirdi. Gecənin nə vədəsisə özümü zülmət quyunun dibində hiss eləyib yatağımdan dikəldim, əlimi çadırın divarına sürtə-sürət bayıra çıxıb elə girişdəcə yerə çökdüm: nə səma, nə ulduzlar, nə də aydınlıq yay gecəsində ağarışan çadırlar vardı, görə bilmədiklərimi iç dünyam yerbəyer eləmək cəhdim də anlaşılmaz, xoşagəlməz boz-bulanıq kütləni açıq-aşkar duymağımla nəticələndi. Firəngistandan, Veneziadan, İstanbuldan, Anadoludan, Səfəvi məmləkətinin şəhərlərindən keçən yollarım indi gəlib Qəbələdə, Tiflisdən üç-dörd günlük məsafədə zülmətə dirənmişdi, ömrüm boyu fəqir və həqir bəndəsi olduğum Allahım məni, qismətinə sərgərdanlıq düşmüş Mirzə Yusif Tiflisini bunca gözardı eləyə bilməzdi. İlk dəfə ötən gecə Şəki karvansarasında içimi qarsalayan korluq duyğusu indi elə dözülməz yükə çevrilmişdi, hətta əlimlə çadırın ipini axtardım ki, boğazıma keçirib dünyayla haqq-hesabı üzüm. Vəfalı Qütbəddin sərvaxt yatıbmış, həmin məqamda nəfəsini boynumun ardında hiss elədim, çiyinlərimi qucaqlayıb yanımda oturdu, beləcə, hava işıqlananacan yerimizdən tərpənmədik. Havanın işıqlanmağını bir də görmək istədiyim dünyanın bozarmağından, ordugahdakı səslərin daha aydın, daha gur olmağından, qəfil ucalan azan səsindən, üzümün qocafəndi dərisilə hiss elədiyim gün işığından duydum…

487. Qütbəddin özünü Mirzə Mehdiyə çatdırıb olanı xəbər veribmiş, o da Ələvi xanın yanında görüb-götürmüş isfahanlı təbib Xeyrullahı gətirmişdi. Xeyrullah məni gün işığında oturdub uzun-uzadı gözlərimə baxdı, sonra cürbəcür suallar verdi, axırda

qırağa çəkilib Mirzə Mehdiylə nə barədəsə danışdı, öz çadırına gedib bir müddət sonra gətirdiyi məlhəmi gözlərimə çəkib bağladı, üç gün gözübağlı qalacağımı, müalicənin nəticəsinin sarğı açılandan sonra məlum olacağını söyləyib getdi. Onun səsində ümidverici bir şey duymadım, amma gözlərim bağlanandan sonra içimin işığı, elə bil, artmış, gerçək aləmdə olanlar ora köçmüşdü. Mirzə Mehdi səbir eləməyi, Qadir Allahın mərhəmətinə sığınmağı, hər zülmətin sonunda mütləq işıq olduğunu söyləyib ürək-dirək verdi. Günorta namazından sonra Mirzə Mömin də iltifat göstərib gəldi, onun şişkin gözlərini, ətli buxağını, dodaqlarındakı təkəbbürlü təbəssümü görməsəm də, lütfkarlıqla söylədiyi sözlərə görə minnətdarlıq elədim. Səsində beş il əvvəlki tərəddüd yox idi, yerini əminlik, bir qədər də hökm tutmuşdu. Gedəndə dedi, iltimasını Şahımıza çatdırarıq, yəqin xidmətini xələtsiz qoymaz, şəfanısa Allahdan dilə. Allahım mənə qarşı yetərincə mərhəmətliymiş, çünki güneyə doğru çıxacaq ilk çaparla getmək niyyətində olan vəfalı Qütbəddin məni bu halımda tək qoymamaq qərarına gəlmişdi, nə qədər israr elədimsə, inadından dönmədi. Şükranlığımdan göz yaşlarımı içimə axıtdım, bundan sonra işıqlı dünyanı görməyə bir elə ümidim olmasa da, Allahım mənə bu ağır vaxtımda da insan vəfası bəxş eləmişdi. Beynimdən keçdi ki, axırım necə olur olsun, var-yoxumu Mirzə Kəmaləddinə və Qütbəddinə bağışlayacağam. Onsuz da Tiflisə yetişsəm belə, özümə doğma bildiyim kimim vardı ki? Bir David idi, o da Haqqa qovuşmayıbsa indi məndən də ahıl bir adamdı. Hələ son mənzilimin harda olacağını bilməsəm də, bu fikirdən azacıq da olsa, rahatlıq tapdım, özümü uzun zülmət səfərinə hazırladım…

488. Üç günüm, əslində, zülmət yolçuluğumun başlanğıcıydı. Hər səhər havanın işıqlaşmağını ordugahdakı səslərin ahəngindən duyur, əl havasına çadırdan çıxıb girişin ağzındaca oturur, azan oxunanda üzümü dan yerinə tutub namaz dualarımı oxuyurdum. Vəfalı Qütbəddinin gətirdiyi teştin içində əl-üzümə su vurub, verdiyini yeyəndən sonra kürəyimi çadıra söykəyib oturur, eşitdiyim səslərdən günün axışını izləyirdim. Mirzə Mehdi gündə iki dəfə baş çəkir, səfər müddətində olub-keçənlərdən ehtiyatla danışa-danışa başımı qatırdı. Dediyinə görə, şıdırğı yağış

altında Gürcan vadisindən keçəndə qəfil sel minlərlə döyüşçünü və yük heyvanlarını silib-süpürüb aparmışdı. Şahımızın vadinin ortasında qurulan səfər çadırı da selin içində qalıbmış, böyür-başındakı çadırların, keşikçilərin, xidmətçilərin ağac parçası kimi dalğaların üzündə yırğalandığını görən əyan-əşrəf Şahımıza dil töküblər ki, yaxınlıqdakı təpəyə qalxıb canını qurtarsın, amma Aləmin Fatehi azğın dalğaları da ram eləmək istəyib, nəzərlərini oturduğu yerdən baş alıb gedən nəhəng axına dikib; elə bil, sel Şahımızın iradəsi müqabilində təslim olub, get-gedə azalıb, sakitləşib və Allahın bu möcüzəsinə hamı heyran qalıb; dedi, Mirzə Zəki həmin yerə Təxti-Nadiri adı verdi, amma Şahımızın əsl taxtı könüllərdədi, inşallah, bu səfərindən də zəfərlə dönəcək. Dedim, ordugaha girəndə Allahın kölgəsinin qüdrəti qarşısında o qədər təsirləndim ki, gözlərim yaşardı, gözlərimin belə zəifləməsi də yəqin keçirdiyim hisslərin təsirindəndi, əlbəttə ki, bu qüdrətin qarşısında duruş gətirən tapılmaz. Mirzə Mehdi dedi, cümadiül-əvvəl ayının ilk günü ordugah yerindən tərpənəcək, onda yəqin sən çox uzaqlarda olacaqsan. Dedim, inşallah, Şahımızın izinindən sonra Şəkiyə gedib bir müddət karvansarada qalmaq, ondan namə gözləmək, həm də cismən və ruhən dincəlmək fikrindəyəm, yolun sonuna üzgün, bitkin çatmaq istəmirəm. Mirzə Mehdi bu fikrimlə razılaşdı, dedi, tamam özünə gəlməmiş yola çıxsan, gözlərinə də zərər verərsən, sən hələ yaşamalı, Şahımızın xeyir-duasıyla başladığın bu tarixi bitirməlisən.

489. Mirzə Mehdinin çox həyəcanla, üstəlik, gizlicə söylədiyi digər vaqiə Rzaqulu Mirzəylə, daha doğrusu, Şahımızla Şahzadə arasındakı təhlükəli gərginlik barədəydi. Sən demə, Şahımız Qadun keçidindən adlayan gün – səfər ayının iyirmi səkkizinci günü Savadguh meşəsində sui-qəsdlə üzləşibmiş; hökmdar hərəmləri, qoruqçuları, keşikçilərilə qoşundan aralı düşübmüş, qəfildən cəmi iyirmi addımlıqdakı ağacların arxasından atılan güllə Şahımızın əlini yaralayıb, atının boynuna sancılıb; at da hökmdarımız da yerə yıxılıb, amma Şahımız həmin məqamda çox ağıllı hərəkət eləyib, yıxıldığı yerdən tərpənməyib, özünü ölmüş kimi göstərib, beləliklə də ikinci güllədən yayınıb. Bu vaxt özünü yetirən Şahzadə qoruqçuların və xacələrin köməyilə ətrafı nə qədər axtarıbsa, güllə atanı, ya da atanları tapmayıb;

xoşbəxtlikdən Şahımızın yarası yüngül olub, amma Əlvi Xan o vaqiənin hökmdarın ruh halına çox fəna təsir göstərdiyini Mirzə Mehdiyə söyləyibmiş; bununla yanaşı, Mirzə Mehdinin qorxusu başqa yöndənmiş: gəzən şayiələrə görə Şahımızı öldürtməyi Şahzadə düzüb-qoşubmuş, hələ Mərvdə olanda Məhəmmədhüseyn xan Qacar və Rəhim Sultanın yanında sərrast atıcılarından birinə atasını qətlə yetirməyi tapşırıbmış. Mirzə Mehdi dedi, bu şayiəni kimlərin yaydığını bilmirəm, əgər Şahımızın qulağına çatsa, faciə qaçılmazdı. Eşitdiyimdən o qədər mütəəssir oldum ki, öz dərdim bilmərrə yadımdan çıxdı. Əlbəttə, zavallı Şahzadə yanlış əməllərə yol verə, hökmdarın öldüyü barədə şayiədən sonra şirnikib başqalarının təhrikilə taxt-taca iddia eləyə bilərdi, amma Şahımızı aradan götürməyə cürəti çatmazdı, buna şəkk-şübhəm yox idi. Mirzə Mehdinin güman olunan faciə qarşısında acizliyini səsinin titrəməsindən anladım. Əlbəttə, o şayiələr gedib Şahımızın qulağına çatacaqdı, marığa yatıb fürsət gözləyənlər kifayət qədər idi, amma ona qədər Şahımızın qəlbindəki şübhə toxumunu məhv eləmək lazım gəlirdi, buna da kimsənin qüdrəti çatmırdı – əsl fəlakət bundaydı. Allahın mərhəmətinə bel bağlayıb Şahımızı düz yoldan sapdırmayacağına ümid eləməkdən başqa əlac qalmırdı.

490. O günlərin birində həmişəki yerimdə oturub yaddaşımı vərəqlədiyim bir vaxtda Əbdülhəsən xanın səsini eşidib heyrətimdən çaşdım. Ordugahda olduğumu, başıma gələn vaqiəni Mirzə Mömindən eşitmişdi. Beş il ərzində görmədiyim, amma üzünün cizgilərini apaydın xatırladığım Əbdülhəsən xan Şahımızın mühafizəsində minbaşıymış, Savadkuh meşəsindəki suiqəsddən sonra hökmdarın qəzəbindən güclə qurtulubmuş, indi ordugahı qoruyan keşikçilərin minbaşısıdı. Səsində yorğunluqmu, bezginlikmi vardı, bunu anışdıra bilmədim, amma Qarabağa qayıtmaq istədiyini gizlətmədi, dedi, Fəzləli bəyin qətlindən, Pənahəli bəyin qaçışından sonra sarıcalılara etibarı azaldı, mən də burda lap təkləndim, bu səfər başa çatandan sonra Şahımızın ayağına düşüb xidmətdən buraxılmasını istəyəcək, öz mülkümdə arzuladığım ömrü yaşayacağam. Dediyinə görə, erməni xəlifə Bərdədə keşişlər, kələntərlər, məliklərlə birgə Şahımızın istiqbalına gəlib, bəxşişini verib, göz yaşını axıdıb, istədiyi fərmanları

alandan sonra işinin dalınca gedib; dedi, sahib çıxmasaq, bir də görəcəyik, halal dədə-baba torpaqlarımız o kilsələrə, kələntərlərə, məliklərə satılıb; dedi, Şahımız Arazı keçəndən bəri Pənahəli bəyi axtardır, onun dağlılara qoşulmasından şübhələnir, görünür, bu tərəfdə gizləndiyini xəbər veriblər. Əbdülhəsən xanın haqq-salama sədaqəti də, təəssübkeşliyi də ürəyimi qızdırdı, bir də üzünü görməyəcəyimdən təəssüflənə-təəssüflənə vidalaşdım. Bu halımda, əlbəttə, mənə Allahdan başqa kimsənin köməyi dəyə bilməzdi, qismətimə nə yazılmışdısa, o da olacaqdı. Şübhəsiz, Tiflisi görmək arzum get-gedə xülyaya çevrilirdi, neçə illərdən bəri gördüklərimi, öyrəndiklərimi, bildiklərimi kağıza köçürməklə bağlı borcumsa, hələ qalırdı. Onsuz da gündə bir dəfə baş çəkən təbib Xeyrullahın səsində ümid əlaməti sezmirdim, məni qorxudan gözlərimə çökən zülmətin ruhuma da çökməsiydi. Bir yana baxanda, altmış səkkiz il o qədər də qısa vaxt deyildi, bu mənada naşükür olmamalı, əgər ömür möhlətim çatmışdısa qədərə boyun əyməliydim…

# XV

# BOŞLUĞA UÇUŞ

*...Quş olub göyə uçdular, Yusifi axtarmağa başladılar...*
***Yusif-Nəsib quşu haqqında əfsanədən.***

491. Hər şey bitdimi? Təbib Xeyrullah gözlərimdəki sarğını açıb həyəcandan nəfəsim tıncıxa-tıncıxa kirpiklərimi aralayanda, qarşımda üzləri tanış olan adamlar əvəzinə üç tutqun və uzunsov ləkə görəndə beynimdən bu keçdi. O ləkələrdən biri – Təbib Xeyrullah əllərini yana açıb digərinə – Mirzə Mehdiyə əlacsızlığını ifadə elədi, mənəsə başqa sözlər eşitdirdi, dedi, ümidini Allaha bağla, Mirzə Yusif, verən də Allahdı, alan da, nagüman olma, bir də gördün, hər şey əvvəlki düzəninə döndü. O gedəndən sonra Mirzə Mehdiylə xeyli susduq, elə bil, daha danışmağa sözümüz qalmamışdı. Axırda Mirzə Mehdi dedi, belə halda qoşunla gedib Şahımızın münasib zamanını gözləməyə ehtiyac yoxdu, axır vaxtlar əhvalını qarışıq görürəm, üstəlik, erməni xəlifənin Bərdədə peşkəş elədiyi Anuşun dadını-tamını çox bəyənib, deyəsən; dedi, mən elə indi Mirzə Zəkiylə danışıb izinini alaram, gedərsən Şəkiyə, bir müddət qalıb dincələrsən, sonrasa Allah Kərimdi, necə məsləhət bilirsə, elə də olar. Mirzə Mehdinin bu acı həqiqətinin müqabilində nəsə deməyə ehtiyac yox idi, ona görə də susdum. Gün batanacan çadırımızın qabağında oturub ordugahdan gələn səsləri dinlədim, hərdənbir gözlərimin önündən keçən kölgələrdən ötənin insan, ya heyvan olduğunu sezirdim. Vəfalı Qütbəddin böyrümdə oturub səsini çıxarmırdı, amma halından duymuşdum ki, dərdimə ağlayıb, indi özünü mümkün qədər şax tutmağa çalışır. Axşam azanında dualarımı dinməzcə elədim, yeməyimi Qütbəddinin köməyilə yeyib səsimi çıxarmadan oturdum. Mirzə Mehdi gələndə içimin sükutunda, az qala, boğulurdum. Dedi, Mirzə Zəki hər şeyi anlayıb izinə boyun oldu, üstəlik, xərclik, bir dəst də xələt göndərdi. Ardınca əlavə elədi ki, səhər tezdən çıxmağınız məsləhətdi, çünki

çox güman, bir gün sonra ordugah yürüşə qalxacaq, o qarışıqlıqda yola düzəlməyiniz asan olmaz. Susub uzun-uzadı ordugahın uğultusunu dinlədik, Mirzə Mehdi sükutdan yorulanda səhər ötürməyə gələcəyini deyib çadırına getdi. Öz halımı unudub onun halına acıdım: neçə illərdi köç-külfətini Astarabadda qoyub Şahımızın qulluğundaydı, yolunun harda bitəcəyini bilmirdi…

492. Səhər obaşdan ordugahdan dörd atlı və iki sandıq yüklü qatır çıxırdı. Mirzə Mehdi keşikçilərdən biri yanında kiçik qəfiləmizi – məni və Qütbəddini karvan yolunacan ötürdü. Daha Qutbəddinlə atları yanaşı sürmürdük, mənim atımın yüyəni onun atının yəhərinə bənd olunmuşdu, arxasınca gedirdi. Neçə gündən bəri öyrəşdiyim səslərdən ucu-bucağı görünməyən insan selinin halətini duyur, fikrən hamıyla, hər şeylə vidalaşırdım. Səfərlər, yollar, ordugahlar, saraylar, divan yığnaqları – hər şey bitdi, arxada qaldı, öndə yalnız kiçik karvansara hücrəsi, ömrün sanılı günləri, olub-qalan yatırım, yəni kağıza köçürülüb-köçürülməmiş xatirələr var. Şübhəsiz, Qütbəddin nə qədər vəfalı olsa da onu son günüməcən yanımda saxlaya bilmərəm: cavandı, öz qisməti, ömür yolu, arzuları var, külfət yiyəsi olmaq, təbii və insani qayğılarla yaşamaq istəyir, bu neməti onun əlindən ala bilmərəm; ən düzü, Şəkidə insaflı bir Allah bəndəsi tapandan sonra Qutbəddinin halallığını verib yola salmaqdı. Ərdəbildə Mirzə Kəmaləddinə baş çəkib başıma gələnləri söyləsə, könül sirdaşım taleyimə göz yaşı axıdacaq, amma alın yazısına düzəliş eləmək kimin əlindən gəlir ki? Əslində, son bir neçə ildə, illah da Xanımızı itirdiyimiz o faciəli səfərdə xəstələnəndən sonra dünyanın gözlərimdə get-gedə bozardığını, tutqunlaşdığını sezir, bunu qocalığımla bağlayırdım, amma bunca sərgərdanlıqdan sonra, həyatımın məqsədinə çataçatda Allahımdan bu cür sınaq, gözlərimdən bu cür namərdlik gözləmirdim. Gedib Tiflisə çıxsam belə, o mənzərəni – Sənan dağını, Narınqalanı, çay üstündəki Metex qalasını, üzbəüzdəki Şah Abbas məscidini, Şeytanbazar məhəlləsinin hamamlarını, dükan-bazarını, meyxanalarını, evimizin xarabalığını, bəlkə də yerində kiminsə tikdirdiyi imarəti gerçəkdəki kimi görə bilməyəcəyəm, xəyalımda yaşadıqlarıma yeni rənglər, çalarlar, cizgilər əlavə eləyə bilməyəcəyəm, bu da mənə daha çox əzab verəcək, həyatımı çəkilməz məşəqqətlə dol-

duracaq. Bəlkə də ömrümün son dayanacağı Şəkidəki o karvansara hücrəsidi, bəlkə də alın yazımda elə bu cür yazılıbmış, mənim xəbərim yoxmuş, o hücrədə Allah məsləhət bilənəcən yaşayıb, xatirələrimlə baş-başa qala, dərdimi bacardığım qədər ovuda bilərəm…

493. Mirzə Mehdiylə vidalaşdığımız günün axşamı Şəkiyə çatdıq. Bunu gözlərimin qarşısındakı Toran aləmin zülmətə dönməsindən, atlarımızın, qatırlarımızın nallı dırnaqlarının küçələrə döşənmiş daşlara toxunmasından, insan səslərinin, araba təkərlərinin, uşaq çığırtılarının, baqqal bağırtılarının, qəfildən lap yaxınlıqda ucalan azanın bir-birinə qarışıb içimi doldurmasından anladım. Qaranlığın içində əlhavasına gedən adamsayaq qollarımı yana açıb ağacların, divarların, dirəklərin olub-olmadığını yoxlamaq istədim, amma qorxdum ki, əllərimi yəhərin qaşından ayırsam, yıxılaram. Əvvəlcə, deyəsən, dikə qalxırdıq, sonra enişlə getdik, bunu da irəliyə doğru əyilməyimdən, atın qabaq ayaqlarını yerə daha bərk dayamasından duydum. Sonra vəfalı Qütbəddinin atı dayandı, mənim atım da dayanmamış darvaza döyüldü, şirin ləhcəylə deyilən «gəldim, gəldim» kəlmələri eşidildi, atım dayanıb bir kərə fınxırandan sonra alaqapı cırıltısı eşidildi, Qütbəddin salam verib dedi, Allah qonağıyıq, bir müddət qalmağa hücrə, miniklərimizə yer tapılarmı? "Allaha da qurban olum, qonağına da, ha indi darvazanı açaram," – həmin səs cavab verdi, onda bildim ki, kimdisə, karvansaranın buyruqçularındandı. Ardınca bərkdən, həm də uzun-uzadı darvaza cırıltısı, «buyurun, buyurun, xoş gəldiniz» sözləri eşidildi, atlarımız, qatırlarımız, deyəsən, tava daşları döşənmiş karvansara həyətinə girib yavaşdılar. «Ağa, qonaqlarımız var» – buyruqçu kiməsə müraciət elədi, "Qonaq Allah qonağıdı, – eyni şirin ləhcəli qocafəndi səs eşitdim, – buyursunlar, gözümüz üstə yerləri var." Tappıltıdan Qütbəddinin sıçrayıb atdan düşdüyünü duydum, sonra əli qolumdan yapışdı, "Çatmışıq," dedi, məni, az qala, qucağına götürüb yerə qoydu, amma əlini qolumdan çəkmədi, həmin buyruqçuya "Atları, qatırları tövləyə aparın, – dedi, – sandıqları, bağlamaları da hücrəmizə gətirin, ağam bir az naxoşdu, tez yatağını hazırlamaq, yeməyə bir şey vermək lazımdı". "Gözlərim üstə, ağa", – qocafəndi səs Qütbəddinin

ötkəmliyindən payını götürüb hörmət və itaət çalarını artırdı. Həmin məqamda beynimdən keçirirdim ki, Mirzə Yusif, bu qədər yollar keçdin, məmləkətlər gördün, heç ağlına gətirmədin ki, ömrünü illərlə həsrətini çəkdiyin yurddan cəmi bir neçə günlük məsafədə, bir karvansara hücrəsində başa vuracaq, öz içinin öləziyən işığında xatirələrinlə baş-başa qalacaqsan; sən taleyinə boyun əymiş adamsan, gərək bununla da barışasan.

494. Zülmətin içində qəfil sayrışmalardan başqa bir şey görmürdüm, o sayrışmalar, yəqin, çıraq, məşəl, yaxud şam işıqlarıydı, titrəyib-dalğalanırdı. Uzun, məncə, bir az da qövsvarı, daş döşənmiş dəhlizdən keçdik, bir neçə dəfə açıq-örtülü qapılar arxasında səslər eşitdim, sonra qapı cırıltısı, qocafəndi səsi *(«Bu hücrə sizə yarayar, ağa, hər şeyi yerli-yerindədi, indi tapşıraram, yemək-içməyi də hazırlayarlar»)* eşitdim, Qütbəddinin qolumdan yapışmış əli məni kandardan içəri çəkdi, sonra zülmətdə iki zəif işıqlı nöqtə gördüm, bildim ki, taxçalardakı çıraqlardı. Vəfalı Qütbəddin əvvəlcə məni alçaq kətildə oturtdu, üst paltarımı soyundurdu, çalmamı götürdü, çəkmələrimi çıxardı, dedi, əl-üzünü, ayaqlarını yuyaq, rahatlanarsan, onacan yeməyimizi də gətirərlər. Sonra ayaqlarımın tasa salındığını duydum, vücuduma elə xoş gizilti yayıldı ki, bir anlığa korluğumu unudub, özümü anamın dizlərinin üstündə xumarlanan kimi hiss elədim. Qəhər dalğa-dalğa yuxarı qalxıb boğazıma yığıldı, özümü ha bərkitdimsə, olmadı, üzbəüzdə çöməlib ayaqlarımı yuyan Qütbəddinin başını ikiəlli qucaqlayıb sinəmə sıxdım, elə hönkürdüm ki, az qala, hücrənin divarları titrədi. Ömrümün bu çağında, dünyanın yollarını yorandan, yurd-yuvama çatmaq üçün ağlagəlməz məşəqqətlərə dözəndən sonra tale mənimlə amansız oyun oynamış, son istəyimi gerçəkləşməyə qoymamışdı. Bundan sonra Tiflisə yetişib-yetişməməyin məndən ötrü bir qara qəpiklik dəyəri yox idi, içimdəki acılı-şirinli xatirələrə sığınıb elə bu Şəki karvansarasındaca ömrümü başa vurmaq daha düzgün olardı. Vəfalı Qütbəddin də ağlayırdı, göz yaşlarından sinəmin islandığını duyurdum, əllərimin altında çiyinləri titrəyirdi. Beləcə, ağlayıb-toxtayanacan durduq, sonra Qütbəddin əlimi-üzümü də yuyub alçaq taxtın üstündəki yatağıma uzatdı. Onun dəstəmaz alıb namaza durduğunu hiss elədim, dedim, mənim əvəzimə də

dua elə, nə günahım vardısa, dualarım gedib Allaha çatmadı, görünür, belə məsləhətmiş, olacağa çarə yoxdu, mən Mirzə Yusif Tiflisi yollarda ölməliyəmmiş…

495. Beləcə zülmət günlərim başladı. Daha səhərin açılmağını, axşamın düşməyini, gün çıxmağını, yağış yağmağını görmürdüm, ancaq duyurdum. Amma bu da Allahın hikmətiydi, zahiri aləmin zülməti çoxaldıqca içimin işığı artırdı, olub-keçənləri, tanıdığım üzləri daha aydın xatırlayır, eşitdiyim səslərdən adamları və hadisələri, xəyalımda canlandırmağa çalışırdım. Karvansaranın qocafəndi səsli sahibi Kərbəlayı Mahmudun buyruqçusu Murtuzəlinin, Qütbəddin həyətə gəzdirməyə çıxaranda rastlaşdığım kəslərin səslərindən görkəmlərinin təfərrüatını xəyalımda canlandırmağa başlamışdım. Vəfalı Qütbəddin hər gün məndən qabaq oyanır, mən qalxmaq istəyəndə qolumdan tutub həyətin o başındakı ayaqyoluna aparır, sonra əlimə-üzümə su vurmağıma kömək eləyir, yeməyimizi yeyəndən sonra yatağımda yerimi rahatlayır, özü atlara-qatırlara baş çəkməyə, ya da xırda-para işlərini görməyə gedirdi. Axır vaxtlar az danışmağa başlamışdıq, daha doğrusu, Qütbəddin söhbətlə başımı qatmağa çalışsa da, mən danışmağa həvəs göstərmirdim. Aradabir Təbrizdəki günləri, adamları, Mirzə Kəmaləddini, Məhəmməd Kazımı yada salırdıq, tez-tez Mirzə Mehdidən bir xəbər olub-olmadığını soruşurdum. Axır günlər Qütbəddinin halallığını verib Təbrizə yola salmaq barədə də fikirləşməyə başlamışdım: cavandı, ömrünün qızıl dəyərində günlərini dünya işığına həsrət qalmış bir qocaya həyan olmaqla keçirməsi günaha yazılardı, evlənməli, köç-külfət yiyəsi olmalı, öz həyatını yaşamalıydı. Bunu da Şahımızın Dağıstan səfərinin başa çatmasına saxlamışdım. Qütbəddin müzəffər qoşunumuzla geri qayıdacaq, Təbrizə zəfərlə girəcəkdi. Bundan sonra mənə karvansara rahatlığı, həyan olan insaf yiyəsi, söyləyəcəklərimi kağıza köçürəcək qələm sahibi, nəşimi torpağa tapşıracaq Allah bəndəsi bəs eləyirdi. Artıq özümü bu balaca hücrədə zahirimdəki zülmət, içimdəki işıqla yaşamağa hazırlamışdım, taleyə boyun əyməkdən, keçdiyim sonsuz yollarımı bu karvansarada başa vurmaqdan başqa güman yerim yox idi. Günlərim beləcə gəlib keçir, ömür möhlətim sona yaxınlaşırdı…

496. Mirzə Mehdidən birinci naməni o ilin ramazan ayının son günlərində Məşhədə gedən çapar gətirdi. Həmd-sənadan, halıma dair suallardan sonra yazırdı, cümadi-əvvəl ayının ilk günü ordugahdan qalxıb Qazıqumuqa getdik, burda Şahımız özbəklərin, Aral tatarlarının, kazakların Xarəzmə basqını barədə xəbər alıb çox qəzəbləndi, neçə gün özünü-sözünü bilmədi. Yazırdı, bir aya yaxın Qazıqumuqda qalandan sonra Şahımız dağlara qar yağdığına görə, Dərbəndə sarı üz tutdu, amma qoşunumuz Çıraqda qaraqalpaqların və tatarların basqınlarına məruz qaldı, hətta bir gecə basqınçılar Şahımızın iqamətgahınacan soxulub hərəmindən bir neçəsini qaçırdılar, hökmdar da bundan bərk qəzəblənib əyan-əşrəfindən və gözətçilərindən bəzilərini edam etdirdi, and içdi ki, Dağıstanı diz çökdürməyincə geri dönməyəcək. Yazırdı, Dərbəndə şaban ayının beşinci günü çatdıq, Şahımız ləngimədən qaraqaytaqlarla haqq-hesabı üzmək qərarına gəldi, üstəlik, ləzgilərin basqınlarından qorunmaq üçün bir-birindən iki-üç fərsəng aralı olan qalalar tikmək barədə əmr verdi, amma qış qapını aldığından gözlənilən nəticə hasil olmadı. Yazırdı, indi Şahımız Dərbəndin quzey-günbatan səmtində Dəşti-Qafaridə qışlamağı, Novruz bayramını burda keçirməyi, yaz girib, yollar açılana kimi Tabasarana hücum eləməyi qərara alıb. Yazırdı, Məhəmməd Kazımdan namə gəlib dediyinə görə, səfərdən qayıdıb toplara, dəvələrə, qatırlara cavabdeh olan cəbbəxananın vəziri məqamını alıb, başını qaşımağa vaxtı yoxdu, məndən də sənin əhvalını soruşur, mən də yazdım ki, narahat olmasın, Mirzə Yusuf yaxındadı, Allah qoysa Tiflisə yetişəcək. O hüznlü gönlərimdə Məhəmməd Kazımın Pərixan xatuna aşiq olduğunu Mirzə Mehdiyə danışmışdım, xatırladırdı ki, bu məsələni ovqatının yaxşı vaxtında Şahımıza açacaq, ümid eləyir ki, bu sevdanın baş tutmasına ciddi maneə olmayacaq. Mirzə Mehdi axırda Allahın mərhəmətinin böyük olduğunu, səbir eləməyi, əgər Şəkidə olsam, inşallah, gələn yaz Şahımız səfərini zəfərlə başa vurub Məşhədə dönəndə güman ki, yolüstü görüşəcəyimizi yazırdı. Əlbəttə, Qütbəddinin aramla oxuduğu bu namə dərdimə dərman olmasa da, mənə bir qədər toxtaqlıq verməyə bəs elədi…

497. Ramazan bayramı könlümə fərəh gətirmədi, orucumu tutub əl-havasına namazımı qılsam da, müvazinətimi tarazla-

yammadım. Uzun qış gecələri arabir Qütbəddinlə kəlmə kəsmək, uzun-uzadı yaddaşımın işgəncələrilə üz-üzə qalmaq, gündüzlər hərdən çıxıb karvansaranın həyətində aləmin səslərini dinləmək hələlik yeganə məşğuliyyətim idi. Novruz bayramını da elə o ovqatla yola verdim. Mirzə Mehdinin ikinci naməsi bayramdan bir ay, ya da qırx gün sonra, ılıq yaz günündə gəldi. Yazırdı, Şahımız bu müddətdə boş dayanmayıb, bəhriyyə işlərilə məşğul olub, gəmilər düzəltdirib, üstəlik, ruslarla xeyli görüşlər keçirib, rus elçisinə qiymətli xələt, çoxlu pul verib, ondan dağlılara qarşı hücumda yardım eləməyi, həm də Həştərxandan ərzaq gətirməkdən ötrü gəmilər tutmağı təvəqqe eləyib. Yazırdı, Şahımız bunun xətrinə rus çarının sarayında olub-keçənlərə, taxta Dəli Petronun qızı Yelizavetanın çıxmasına göz yummaq fikrindədi. Yazırdı, Novruz bayramı günlərində Şahımız hamını çaşdıran hökmünü verib, bunu hələ cəmi beş-on nəfər yaxın adamı bilir: hökmdarımız Dağıstanı itaətə gətirəndən, Osmanlı sultanıyla hər şeyi ayırd eləyəndən sonra taxtdan əl çəkmək, səltənəti oğullarından birinə vermək niyyətindədi, o da yəqin Nəsrullah Mirzə olacaq, çünki artıq bədbəxt Rzaqulu Şahımızın etibarını itirib. Yazırdı, arada-bərədə Rzaqulu barədə gəzən xəbərlərin axırı, deyəsən, xeyir olmayacaq, eşitdiklərimdən faciənin addım-addım yaxınlaşdığını duyuram. Axırda yenə Allahdan mənə səbir və şəfa diləyib tezliklə görüşməyimizə ümid bəslədiyini yazırdı. O namədən sonra öz dərdim yadımdan çıxmışdı, hey bədbəxt Rzaqulunun halını düşünürdüm. Mirzə Mehdinin bədgümanlığından belə çıxırdı ki, Şahımızın oğluyla bağlı şübhələri get-gedə artır, bu məsələni ayırd eləyib günahkarı cəzalandırmayınca dinclik tapmayacaq. Qəfildən onlarla barmağın gözlərimə tuşlandığını, məni kor eləmək istədiyini *(guya kor deyildim)* xəyalımda canlandırıb titrəyirdim…

# XVI

# KÖNÜL HÜCRƏSİNDƏ

***Görəsən, insan kamalı sayəsində xariqələr yaratmaq qüdrətində olan nə qədər adamlar başını bostanda işlədir, ömrü boyu bir qarpızı o birindən seçə bilməyənlərin də nə qədəri saraylarda, məbədlərdə yer tuturlar.***

***Xacə Nəsirəddin TUSİ***
***(XIV yüzil)***

498. Bir-birindən seçilməyən günlər məni darıxdırmırdı, ona görə ki, səhərin açılıb, axşamın düşdüyünü ancaq günün əlamətlərindən, qulağıma çatan səslərdən bilir, vəfalı Qütbəddinin əzab çəkdiyinisə danışığından, nəfəsindən, gizlicə çəkdiyi ahlardan duyurdum. Qət elədim ki, qış düşüb yol-riz çətinləşməmiş onu dilə tutub Təbrizə göndərim. Artıq bundan ötrü əlaltından hazırlıq da görmüşdüm: aradabir həyətdə oturub özümü havaya verəndə yanıma gələn, ordan-burdan söhbət eləyən Kərbəlayı Mahmudla ünsiyyət yaratmışdım, bir dəfə dərdimi ona açdım, mənə halal, abırlı bir həyan tapmasını istədim. Şahımızın və Xanımızın xidmətində olduğumu biləndən mənə hörmətlə, bir az da ehtiyatla yanaşan Kərbəlayı Mahmud söz verdi, istədiyim adamı tapdı, aylıq-illik haqqını danışıb-barışdı, üstəlik, hücrələrindən birində qalan iki təbrizli tacirin üç gündən sonra yola çıxacaqlarını xəbər verdi. Əlbəttə, Qütbəddinlə vidalaşmaq üçün bundan yaxşı fürsət yarana bilməzdi. Amma vəfalı yol yoldaşımı dilə tutmaq o qədər də asan olmadı, axırda yalvarışa keçdim, özümə yeni həyan tapdığımı söylədim. Axır ki, Qütbəddin gerçəkliklə barışıb çar-naçar razılaşdı. Şahımızın bəxşişi olan, Muğan çölündəki görüşümüzdən bəri sandığımda yatıb qalan bir dəst şahanə paltarı, halallıq haqqını qəbul etdirməyim də o qədər asan olmadı. İstanbulda bir zərgərdən sərfəli qiymətə

aldığım, üstündə Qurandan ayə yazılmış gümüş üzüyümü də ona yadigar verdim. Miniklərdən ancaq öz atıyla qatırını götürdü, təbrizli tacirlərlə də yol yoldaşlığı barədə danışdı. O gecəni dirigözlü açdıq, Qütbəddinə Təbrizdə Mirzə Hüseynə və Mirzə Qulama Ərdəbildə Mirzə Kəmaləddinə yetirmək üçün namələr yazdırdım. Çox istəyirdim ki, bu iki abırlı adam bir-birinə rast gəlsin, Qütbəddin könül sirdaşımın qızıyla evlənib köç-külfət yiyəsi olsun. Səhər obaşdan vidalaşmağımız da əsl müsibət oldu, qucaqlaşıb ağlaşdıq, bir-birimizin sinəmizi-çiynimizi göz yaşıyla islatdıq. Şübhəsiz, vəfalı Qütbəddinin yola necə düzəldiyini görmədim, amma qəfildən elə rahatlandım ki, elə bil, cənnətə düşmüşdüm – onun cavan ömrünün qiymətli günlərini mənə sərf eləməsilə bağlı vicdan əzabından qurtulmuşdum.

499. Yeni həyanım Kərim adlı on beş-on altı yaşlı yeniyetməydi, Kərbəlayı Mahmudun uzaq qohumlarındadı, başlıcası fağır, dili-ağzı özündə, Allahdan qorxan bəndəydi, Qütbəddinin yatağında yatır, öz borcunu abırla yerinə yetirir, bir söz soruşmasam, dinib-danışmırdı. Ondan razı qalmışdım, çünki öz içimlə əlləşməyimə mane olmurdu, çölümdənsə bir ildən artıqdı ki, xəbərim yox idi, daha doğrusu, zahiri dünyamı təkcə səslər, nəfəslər, təmaslar vasitəsilə «görürdüm». Barmaqlarım kütləşmiş, qələmi unutmuşdu, hərdən zərif kağıza toxunmaq, lələk qələmi götürmək, mürəkkəbə batırmaq, kağız üzərində axıb getmək istəyirdi. Amma bütün bunlar artıq keçmişdə qalmışdı, gecələr şam, gündüzlər gün işığında könlümdən keçənləri sözlərə çevirmək, sətirlərə düzmək səadətini daha yaşamayacaqdım, bundan sonra ancaq söylədiklərimi başqa bir kimsə qələmə ala bilərdi, o kimsəni tapmağı da Kərbəlayı Mahmuddan təvəqqe eləmişdim. Az qala, yetmişi haqlamışdım, Allahın nə qədər möhləti qaldığını bilmirdim, istəyirdim, bu fani dünyayla vidalaşmamış, heç olmasa, yaddaşımdakıları kağıza köçürtdürüm, uşaqlıq yaşantılarımı, qəfil faciəmizi, yad mühiti, uzaq məmləkətləri, bitib-tükənməyən yolları, o yollarda olmuşları ipə-sapa düzüm, yəni yazıb sandığıma yığdığım parçaları bir-birilə bağlayım, çatışmayan məqamları diktə eləyim, möhlətim tükənməmiş ortaya həyat hekayəmi, bununla yanaşı, görüb-eşitdiklərimi qoyum. Yazdıqlarım yəqin bir insaflı Allah bəndəsinin əlinə keçər, o da oxuyub üzrə çıxarar,

ən azı, özümdən sonra yalan dünyada bir izim qalar. Şübhəsiz, bu vaxtacan saysız-hesabsız kitablar yazılıb, bundan sonra da yazılacaq, mən bilən, Mirzə Mehdi də Şahımızdan kitab yazır, bu gedişlə Məhəmməd Kazımın da nəsə yazacağına inanıram. O sırada, əlbəttə, mənim yazdığım daha çox özümə məxsus olacaq, onu cavan Xanımıza göndərməyə dəyməz. Qismətimdə varsa, yazdığım itib-batmayacaq, məqamı çatanda üzə çıxacaq. Əlbəttə, tarixdə qalmaq iddiasında da deyildim, İsgəndər Münşi, Övliya Çələbi, Rəşidəddinlə bir cərgədə dayanmaq fikrimdə yox idi, mən məmləkətin, xanədanın tarixini yox, öz taleyimin keşməkeşlərini qələmə almaq istəyirdim.

500. O yeknəsəq payız günlərindən birində Mirzə Mehdinin üçüncü naməsini aldım. Amma nə çapar oxumaq bilirdi, nə də yaxın ətrafda savadlı bir kəs tapıldı. O gecə namə açarı itmiş sehrli sandıq kimi qaldı, üstəlik, elə bil, itirəcəyimdən qorxurdum, əvvəlcə xeyli müddət əlimdə saxladım, sonra yastığımın altına qoydum. Ömrümün, az qala, əlli ilini tərcümanlıq, mirzəlik, salnaməçilik eləmiş, sandıq-sandıq kitabları dönə-dönə oxumuş adamın indi bir qarışlıq kağızı oxumaqdan məhrum olması sinəmi dağ-dağ elədi. Bu da taleyin işiydi, olub-keçənlə barışmışdım, kürkçünün, çarvadarın oğlunu səltənətə ucaldan qüvvə səltənətdəkini də zindanlar küncündə boğdurur. Səhəri gün vəziyyətdən xəbər tutan Kərbəlayı Mahmud buyruqçu Murtuzəlini göndərib xanın dəftərdarı Mirzə Tahiri gətirtdi, o da naməni oxuyub məzmunundan məni hali elədi. Mirzə Mehdi həmişəki kimi həmd-sənadan sonra yazırdı, Tabasaranda, Qubden yaxınlığında, Şahımızın «İran-i xarab» adı verdiyi ordugahdayıq, hələ ki dağlıları itaətə gətirmək mümkün olmayıb. Yazırdı, ləzgilər, qaraqaytaqlar, avarlar tez-tez qoşunlarımıza, gözətçi dəstələrimizə basqın eləyirlər, kumıklar bizə at və ərzaq satmaq istəmirlər, tələf olanların, yaralananların sayı get-gedə artır, üstəlik, istidən və sudan uğan dəstələri vəba xəstəliyinə tutuldular, Şahımız xəstələnənləri Buynağa göndərməyi əmr elədi. Yazırdı, hökmdarımızın avarlara və kumıklara dərs vermək niyyəti də rus qoşunlarının yaxınlaşması səbəbilə baş tutmadı, qoşunumuz Ağquşu, Quraişi ələ keçirsə də itkilərimizin çoxluğu, Əhməd xanın Avarıstana qaçması Şahımızın hüdudsuz qəzəbinə

səbəb oldu, heç edamlar da onun hiddətini yatıra bilmədi; yazırdı, Sultan Mahmud Əhməd xanın Qaytaq usmisi olması barədə fərman verib, fərmanı da İbrahim Mütəfərrikəylə göndərib – bu da Allahın işiydi: nə vaxtsa bir yerdə çalışmışdıq, indi ayrı-ayrı tərəflərdəydik; yazırdı, Şahımızın göz-qulaqları Sari və Əşrəf arasında ona güllə atan adamı Heratda yaxalayıb hüzuruna gətiriblər, hökmdar da onunla təkbətək söhbət eləyib, sonra Şahzadə Rzaqulu Mirzəni Tehrandan hüzuruna gətirmək üçün dəstə göndərib, görünür, daha fəlakətin qabağını daha heç bir qüvvə ala bilməz. Mirzə Tahirdən oxuduqları barədə susmağı təvəqqe elədim, haqqını verib yola salandan sonra dərin-dərin düşüncələrə daldım…

501. Bilirdim ki, Şahımız gecə-gündüz oba-oba, tayfa-tayfa, el-el itaətə gətirdiyi, birləşdirdiyi bu məmləkətin taleyini fikirləşir. Bu yolda Zahir-üd-dövlə məqamına ucaltdığı qardaşına belə rəhm eləməzdi. Mirzə Mehdinin mənə gözlərimin nurunun qayıdacağına ümidli günlərimdə mərhum Xanımızın səksəkəli günləri barədə danışdığı bundan xəbər verirdi. Dediyinə görə, hicri 1139-cu ildə *(miladi 1726/1727-ci illərdə)* Durundakı əlisli, imrəli, çorlu, şeyxvanlu tayfalarını itaətə gətirəndə, rəhmətlik İbrahim xan onun əmrilə Mərvdəki Sultanbəndi uçurub camaatı susuz qoyanda xələt almışdısa, bir neçə ay sonra çemişkəzək və qaraçorlu kürdlərilə döyüşdə basılanda, az qala, başını itirəcəkdi. Rəhim xan Kərailiylə Kərmənəxanada kürdlərə hücum eləyən xan əvvəl üstün gəlib düşmənə xeyli tələfat vermişdi, amma qaçanları təqib eləməyib səhv buraxmışdı, kürdlər təzədən toplaşıb arın-arxayın ordugaha qayıdan İbrahim xana arxadan zərbə endirmişdilər. O dəhşətli davada min nəfər itirib məğlub olan xan qaçıb Qalayi-yüzbaşıda gizlənmiş, Rəhim xanın qaçdığından xəbər tutandan sonra gecə qaranlığında özünü Raz qalasına yetirib canını qurtarmışdı. Bu vaxt Dəşti-Qıpçaqda türkmənləri itaətə gətirməklə məşğul olan Təhmasibqulu xan – indiki Şahımız qəzəbindən zəncir çeynəyə-çeynəyə qarlı yollarla özünü Kərmənəxanaya yetirmişdi. Onda İbrahim xan qoşundan olan-qalanlarla qardaşının qabağına çıxıb bağışlanması üçün yalvarmışdı. Amma Mirzə Mehdinin danışdığına görə, Böyük xanın üz-gözündən qəzəb yağırmış, əmr eləyib ki, qarda-

şını tərk-silah eləyib, ələ keçən çemişkəzək kürdlərinin başçısı Məhəmmədhüseyn xanın yanına salsınlar. Sonra qardaşına hansı cəzanı verəcəyini uzun-uzadı fikirləşmiş, götür-qoy eləmiş, hətta qoşunun gözü qabağında qırmancla döydürmək fikrinə də düşmüşdü; bununla belə, çox fikirləşəndən sonra ürəyində rəhm tapıb təqsirindən keçmiş, əvvəlki məqamına qaytarmışdı, amma bu tamam bağışlamaq anlamına gəlmirdi, qardaşına yalnız səhvindən nəticə çıxarmaq üçün fürsət verirdi, əgər İbrahim xan o fürsəti lazımınca dəyərləndirməsəydi, qardaşının cəzasından qurtara bilməyəcəkdi.

502. Elə beşcə il sonra, hicri 1143-cü ildə Xarəzm türkmənlərinin Əbivərdə hücumlarının qabağını almaq üçün göndərdiyi İbrahim xana inanmayıb geri çağırmış, özü şaban ayının ikinci günü *(yəni miladi 1731-ci il fevralın 28-də)* yürüşə çıxıb, üç gündə qırx altı fərsəng yol keçib Tecendə türkmənlərin düşərgəsinə basqın eləmiş, kişilərini qılıncdan keçirib arvad-uşaqlarını əsir almış, yerlərini-yurdlarını yandırmışdı. Mirzə Mehdinin danışdığına görə, İbrahim xan Fərəhə gedəndə də, Böyük xanın qoşununa qatılmış türkmən dəstələrinin başıpozuqluğunun qabağını almağa yollananda da qardaşından təqdir almamış, hətta göklən tayfasını itaətə gətirəndə belə, yalnız Xorasanın hüdudlarında əmin-amanlığı qorumaqla «mükafatlandırılmışdı». Üç il sonra İbrahim xan Naib-üs-səltənədən özünün dağıtdığı bəndi bərpa eləmək əmri alıb Mərvə getmişdi. Sultanbəndi əvvəlki halına qaytarmaq qardaşının etibarını qaytarmaqdan ötrü Zahir-üd-dövlə gecələr yatmamış, gündüzlər dincəlməmişdi. Düzdü, bundan sonra etibarın əlamətləri görünməyə başlamış, Muğan çölünə dəvət almışdı, üstəlik, Vəliəhd məqamına yüksəlib Azərbaycanın valisi, cəmi Azərbaycan qoşunlarının sərdarı olmuşdu. Amma Şahımızın canında olub-keçənləri unutmaq, uğursuzluqları bağışlamaq yox idi, mərhum Xanımız quzey səfərindən sağ-salamat dönsəydi belə, yəqin ki, onunla məsləhətləşməmiş səfərə çıxdığını, üstəlik, basıldığını sinirməyəcək, bəlkə də vəliəhdlikdən kənarlaşdıracaq, əyalətlərdən birinə göndərəcəkdi. Bu məsələdə Mirzə Mehdinin fikrinə şərikdim, indi Rzaqulunu gözləyən fəlakəti dərk eləyəndə qəlbimdə ağrıdan başqa bir duyğu hiss eləmədim. Məsələ Şahzadənin günahsız, yada günahkar olmasında deyildi, Şahı-

mız get-gedə tənhalaşır, ətrafındakı hər kəsdən şübhələnməyə başlayırdı, ən yaxın kəsləri belə, artıq ondan qorxurdular, bu da, şübhəsiz, həddən artıq təhlükəliydi. Əgər gənclik illərindən bəri yanında olan könül sirdaşları Mirzə Zəki və Təhmasib xan Cəlayir artıq ona söz deyə, məsləhət verə bilmirdilərsə, deməli, Şahımızın şəkkaklığı artıq xəstəliyə çevrilirdi. Mizə Mehdi haqlıydı, Ələvi xanın yanında olmaması Şahımız üçün əsl fəlakətə çevrilirdi, görünür, bir yadellinin köməyilə tapdığı yezuit türkəçarəçinin dava-dərmanının o qədər də köməyi olmurdu.

503. Öz dərdimi unudub Şahzadəni gözləyən fəlakət, Şahımızın şahanə tənhalığı barədə düşünürdüm: bu tənhalığı doğuran, nifrətiydimi, qorxuydumu, yoxsa ruhani duyğulardımı – bundan baş çıxarmağa can atırdım. Axı, ola bilməzdi ki, barmağının bircə işarəsilə gözlər çıxaran, boyunlar sındıran, qulaqlara qurğuşun tökdürən, başlar kəsdirən, şəhərlər dağıdan, qalalar uçuran Şahın bu dünyada könlünə yaxın bir kəsi olmayaydı, insan mehrinə ehtiyacı duyanda həmin adamla baş-başa qalıb dərdini ovutmaq istəməyəydi. Köçəri tayfanın sıra nəfəri kimi çöldə-çadırda doğulan, ona-buna sərdarlıq-sarbanlıq eləyən, kürkçülüklə çulunu sudan çıxaran atasının qolundan tutmuş, sonra basqınçılara qoşulub çalıb-çapıb gətirmiş, hökm sahiblərinin qulluğunda olmuş, yavaş-yavaş arxa-dayaq toplamış, yoluna çıxanları aradan götürüb taxt-tacın bir addımlığına gəlmiş, uzun illər hökmdarın adından məmləkəti idarə eləmiş, axırda iki yüz otuz illik xanədanı tarixin xarabalığına gömüb, taxt-tacın yiyəsi olub ölkələr fəth eləmiş Şahımızın Allahın kölgəsi məqamına çatması, əlbəttə, Yaradanın iradəsiydi. Bütün bunlara qol zoruna yetmək olmazdı, bundan ötrü ağıl, səbir, tədbir gərəkdi, məğlubiyyəti dünyanın sonu kimi qəbul eləməmək, hər atacağın addımın zamanını gözləmək, həmlə vaxtı gələndə fürsəti qaçırmamaq, əyanları itaətdə saxlamaq, düşmənləri qorxuya öyrətmək gərəkdi, o da bunu yaxşı bacarırdı, yoxsa bir ucu gündoğana, bir ucu günbatana çatan ucsuz-bucaqsız məmləkət qurmazdı, yarınma da olsa, İkinci İskəndər adlandırılmazdı. Az qala, iyirmi illik bu yolda yanında saxladığı, güvəndiyi kəsləri qəzəbi, şübhəsi, qəddarlığı ucbatından bir-bir itirirdi, qorxu səbəbindən dil tapıb birləşənlər sonralar öz canlarını qurtarmaq üçün Şahımızın ba-

şağrısına çevrilə bilərdilər. Şahzadə bu fəlakətdən qurtulmasaydı, məmləkətin faciəsi qaçılmaz olacaqdı – son görüşümüzdə Mirzə Mehdiylə bu qənaətə gəlmişdik. Amma bədbəxt Şahzadəni xilas eləyəcək bir qüvvə vardımı?

504. O qışı ağlar keçirdim, heç vəba ilində də bu cür mənəvi sıxıntı keçirməmişdim. Günlərim hücrədəki yatağımda fikir-xəyal içində, keçdiyim yolları əriş-arğac eləyə-eləyə keçirdi, hərdənbir Kərbəlayı Mahmudla kəlmə kəsirdik, o, Dağıstan tərəfdən gələn xəbərləri mənə çatdırmağı özünə borc bilirdi. Kərimə həftədə iki dəfə rüsxət verirdim ki, ailəsinə baş çəksin, adətən günorta namazından sonra gedir, axşam azanı başlamamış qayıdırdı. Bu cür sıxıntı içində kitab barədəki niyyətimdən müəyyən müddətə əl çəkdim, fikrimdəkiləri Şahımızın quzey səfərini başa vurmasından sonraya saxladım, ona görə də yazacaq mirzə axtarışına son verdim. Hələlik olub-keçənləri xəyalımda ipə-sapa düzürdüm, yerləri, yolları, adamları, hadisələri xatırlayır, təfərrüatları bərpa eləməyə çalışır, aralarında bağlar qurmağa cəhd göstərirdim. Əlbəttə, hər gün eyni şeylə məşğul olmaq məni yorur, darıxdırırdı, amma başqa əlacım olmadığını da anlayırdım. Xəyalən atımı minir, Tiflisə doğru yola çıxır, şəhərin küçələrindən keçir, tanış məscidi, məbədi, qalanı, meydanı görür, yaddaşımda dipdiri qalan evimizin eyvanında oturur, şəhərə tamaşa eləyirdim, sonra atla, arabayla, gəmiylə uzun səfərə çıxır, Firəngistana çatır, zindan həyatına oxşayan pansion günlərini yaşayır, yenə atla, arabayla, gəmiylə Veneziaya, İstanbula, Konyaya, Təbrizə, İsfahana, Ərdəbilə… üz tuturdum. O yollarda müsyölər, bəylər, xanlar, mirzələr, üstəlik, dost, sultan, şah rastıma çıxır, hər kəs öz yerini tutur, mənim yaddaşımda taleyinə düşən ömrü yaşayırdı. Günəşin, Ayın çıxması və batması, günün başlanıb-bitməsi, Kərimin çırağı yandırıb-söndürməsi o yolları, adamları, hadisələri yaddaşımdan silə bilmirdi, çünki artıq hər şeyi öz içimə köçürmüşdüm, zahiri aləmsə yalnız səslərdən və təmaslardan ibarət idi. Həmin məqamda yadıma Ömər Xəyyamın bir rəvayəti düşürdü: *bir müdrikdən soruşurlar ki, niyə kasıblar varlılardan daha mehriban, daha səxavətlidilər; müdrik deyir, pəncərədən bayıra bax, orda nə görürsən; soruşan baxıb cavab verir ki, uşaqların oynadığını*

*görürəm; müdrik deyir, indi güzgüyə bax, de nə görürsən; həmin adam deyir, özümü görürəm; pəncərə də, güzgü də şüşədəndi, amma şüşəyə bir az gümüş əlavə eləyən kimi yalnız özünü görürsən.* Allahın endirdiyi zülmət elə bil məndən ötrü şüşəyə çəkilmiş təbəqəsiydi, onun güzgüyə çevirdiyi şüşədə yalnız özümü və öz həyatımı görürdüm...

# XVII

# ÖZ GÖZLƏRİNİN İŞIĞI

***Verdilər o binəvayə təxti-rəxti-şəhvar,***
***Səltənət təxtində mənsub etdilər divan üçün.***

***Şakir ŞİRVANİ***
***( XVIII yüzil)***

505. O qışın axır ayı – hicri1155-ci ilin zilhəccə ayı *(miladi 1743-cü ilin fevralı)* başa çatmamış yeknəsəq günlərimə ildırım kimi çaxan bir hadisə baş verdi: karvansaradakı hücrəmin qapısını Mirzə Mehdi döydü. Bəlkə də kimsə inanmaz, onu dillənməmiş nəfəsindən tanıdım, bütün vücudum gərildi, boğazım tıxandı, özümdən ixtiyarsız əlimi irəli uzatdım, sonra sədaqətli qələmdaşımın (*«Mirzə Yusif, qonaq istəmirsən*?») səsini eşitdim, o səsdə gizlədilməsi çətin olan əndişə duydum, nələrinsə baş verdiyini beynimdən keçirəndə qucaqlaşdıq, saqqalımızın tükləri bir-birinə qarışdı, həmin məqamda onun kövrəldiyini duydum, özümsə, deyəsən, əməlli-başlı ağlayırdım. Mirzə Mehdinin gəlişi Şahımızın quzey səfərinin başa çatdığını bildirirdi, deməli, bundan sonra daha bir həyanımı da görməyəcəkdim. Elə bil yaxında olması mənə təpər verir, o təpər bunca ruhi iztirabın içində salamat qalmağıma kömək eləyirdi. Amma səsindəki əndişədən artıq öz haqq-hesabımı götürmüşdüm, əmindim ki, o qaçılmaz faciə baş verib, Mirzə Mehdinin əndişəsi də daha çox olmuşlarla yox, olacaqlarla bağlıdı. Şahımızın qəzəb atının cilovunu Mirzə Zəki kimi bəlkə də yeganə can sirdaşı çəkə bilməmişdisə, deməli, təhlükə lap yaxındaydı. Mirzə Mehdinin üzünü, az qala, il yarımdan bəri görməsəm də, səsindən xeyli qocaldığı qənaətdəydim, ola bilsin, cismən bir elə dəyişməmişdi, amma ruhən çox dəyişdiyini, sarsıldığını dördcə kəlməsindən duymuşdum. Azacıq toxtayıb aralanandan sonra da xeyli susduq, elə bil çıxılmazlıqdan çıxış yolu axtarırdıq. Axır ki, Mirzə

Mehdi dedi, Xəlifənin Kəbədə beşinci sütun ucaltmaqdan qəti boyun qaçırması Şahımızı daha bir qəzəb atına mindirib, dağlılara qarşı Əbdülqəni xan Abdalinin sərdarlığıyla əlli minlik qoşun qoyub, özü osmanlılarla haqq-hesab çəkməyə gedir. Bunun daha bir fəlakət olduğunu, şübhəsiz, Mirzə Mehdi gözəl anlayırdı: qışın bu vaxtında uzaq səfərə çıxmaq onun heç ürəyincə deyildi, bundansa «İran-i Xərab»da qalıb dağlılarla qarşıdurmanın nəticələrini gözləməyə üstünlük verərdi. Amma, şübhəsiz, əlində ixtiyar olsaydı, heç dağlılara qarşı səfərə də çıxmazdı.

506. Qoşun Şəkinin iki fərsəngliyində dincəlmək üçün dayanmışdı, Mirzə Mehdi də rahatlanmaq əvəzinə bircə gözətçiylə at sürüb məni görməyə gəlmişdi, bu sədaqətini də dəyərləndirməyə bilməzdim. Kərimin əl-ayaq tərpətməsindən, isti xörək yeyib rahatlanandan sonra xəbərdar adam kimi, dedim, danış, Mirzə Mehdi, bədbəxt Rzaqulu Mirzənin başına nə gəldiyini söylə. Mirzə Mehdi köksünü ötürdü, xeyli susandan sonra dedi, o binəvanın günahı yox idi, səhvi vardısa, bu da cavanlığı üzündəndi, zənnim aldatmırsa, bu Məhəmməd Hüseyn xan Qacarın ustalıqla qurduğu tordu, Şahzadə də o tora düşdü, onu kimsə xilas eləyə bilmədi; deyilənə görə, Şahımıza güllə atan Nikqədəm adlı şəxs Dilavər xan Taymanının mühafizəsində olub, guya Şahzadə onun mahir atıcı olduğunu görüb, şəxsi mühafizəsinə xidmətə götürüb, bir dəfə Məhəmməd Hüseyn xanın və Rəhim Sultanın yanında atasını öldürməsini istəyib, guya Nikqədəm də boyun olub, amma Heratda sözünə əməl eləməyə fürsət tapmayıb, Şahımız məmləkətin naibliyini tapşırdığı oğlunun dəbdəbəli şəxsi qoşununu buraxandan sonra Şahzadə təzədən Nikqədəmi atasını öldürmək üçün dilə tutub, o da fürsət axtarıb, axır ki, Mazandaran meşəsində o fürsət əlinə keçib, amma Şahın salamat qalmasını biləndən sonra qorxusundan Herata qaçıb, bununla belə, Şahımızın «göz-qulaqlarından» qurtula bilməyib, onu yaxalayıb «İran-i Xaraba» gətiriblər, Şahımız da günahkarı təkcə dindirib; Mirzə Mehdinin dediyinə görə, əvvəlcə Nikqədəm hər şeyi boynundan atırmış, Şahımızın, sifarişçinin adını söyləsə, günahından keçəcəyi barədə dedikləri zavallını yoldan çıxarır, elə bilir, bununla canını qurtaracaq, ona görə də Şahzadənin adını dilinə gətirir, Şahımız da varından yox olur, elə nərə çəkir ki, çadı-

rının dirəkləri titrəyir, sonra keşikçibaşını çağırıb deyir, bunun gözlərini oyun, özünü də buraxın getsin, Mirzə Zəkiyə də əmr eləyir ki, Tehrandan Şahzadəni gətirmək üçün dəstə göndərsin. Mirzə Mehdi davam elədi ki, o vaxt Mirzə Zəkiylə xəlvətcə görüşdüm, Şahımızın qəzəbini yatırtmaq, onu bu bədxah oyundan qurtarmaq üçün yollar aramasını məsləhət gördüm, söz verdi, amma, görünür, Şahımızın könlünə yol tapa bilməmişdi…

507. Mirzə Mehdi deyirdi, Şahzadə Tehrandan gəlib çıxanacan Şahımızın nə hallar keçirdiyini təsəvvürünə gətir, elə halətdəydi, kimsə, hətta Mirzə Zəki də yaxın düşə bilmirdi, çadırında pələng kimi vurnuxur, hər şeyi doğramaq, dağıtmaq, yıxmaq istəyirdi, söylənənin yalan, qəsdinə duranların qurğusu ola biləcəyinə inanmırdı, bəlkə də bunu ağlına belə gətirmirdi; bir tərəfdən də dağlıların basqınları, ərzaq və at çatışmazlığı, qışın zilləti, ruslarla, az qala, kəllə-kəlləyə gəlmək təhlükəsi onu tamam təbdən çıxarmışdı; Şahzadənin olub-keçəndən xəbəri yox idi, amma atasından əvvəlki mehribanlığı *(Şahımız naiblikdən kənarlaşdırandan sonra da oğluna mehribanlıq göstərirdi)* görməyəndə dalağı sancıb; Şahımız oğlundan günahını boynuna almasını istəyib, Şahzadə də göz yaşları içində günahı olmadığını söyləyib, and-aman eləyib, yalvarıb-yaxarıb; o məqamda Şahımızın varlığını çulğayan kor qəzəb həqiqətin üzərinə qalın pərdə çəkib, hökmdarın hökmü artıq hazır olsa da, oğlunun aparılmasını əmr eləyib, vəzir-vəkili, əyan-əşrəfi yığıb tədbir tökülməsini buyurub; özü heç, doğma oğlunu bağışlamayacaqdı, qənaətinə görə, düşmənlərinin get-gedə artıb-çoxaldığı, orda-burda baş qaldırdığı bir vaxtda lap günahsız da olsa, oğlunu cəzalandırması çoxlarının canına qorxu salar, hökmdarın məmləkətin və səltənətin istiqbalı naminə kimsəni bağışlamayacağını göstərərdi: oğlu tək deyildi, birini qurban verməklə çox şey itirmirdi, qurban gedənin qardaşları vardı, nəvələri böyüyürdü, amma məmləkət, səltənət tək idi, onu marığa yatanlara yem eləyə bilməzdi; Mirzə Mehdi dedi, hüzurunda olanlar susdular, hətta Mirzə Zəki belə, səsini çıxarmadı, hamı öz canından qorxurdu *(o məqamda öz qorxaqlığımdan iyrəndim, Mirzə Mehdi əlavə elədi);* Şahımız ağır nəzərlərini hamının üzərində gəzdirdi, sonra hökmünü verdi: «Gözlərinə mil çəkilsin!» Mirzə Mehdi dedi, hamının üzündə çaşqınlıq, heyrət

görünsə də, yenə kimsə cınqırını çıxarmadı, həmin anlarda az qaldı ürəyim getsin, az qala, on beş iliydi ki, yanındaydım, çox qəzəbli vaxtlarını görmüşdüm, çox edam hökmlərinin şahidi olmuşdum, amma ömrümdə bu qədər ağır hal keçirməmişdim; dedi, mən bilən, Qacarlar elə əvvəlcədən Şahımızın taxta çıxmasını sinirə bilmirdilər, bunu təkcə Uğulu xan Ziyadoğlu açıq bildirdi, digərləri onu yıxmaq üçün hər yola əl atacaqlar.

508. Mirzə Mehdi Şahzadənin gözlərinə mil çəkilməsini danışanda özünü saxlaya bilmədi, hiss elədim ki, ağlayır *(elə mən də səssiz-səmirsiz ağlayırdım, nursuz gözlərimin yaşı yanağımı isladır, saqqalıma süzülürdü),* elə ağlaya-ağlaya dedi, Şahımız oğlunun gətirilməsini əmr elədi, özü də durub getmədi, cəlladın qorxudan özünü itirmiş halda, amma vərdişkar səliqə-sahmanla işini necə gördüyünə qəlbindən qara qanlar axa-axa baxdı; Şahzadə artıq taleyilə barışmışdı, yalvarıb-yaxarmırdı, cəllad hazırlıq görənəcən də gözlərini taxtında oturan hökmdarın daşa dönmüş üzündən çəkmədi, təkcə cəllad surğuclu iynəni göz damarına batıranda içini çəkib susdu, həmin məqamda gözlərində itirdiyi işıq üzünə vurmuş kimi, sifəti gözgörəti nurlandı; dedi, əyan-əşrəf qorxudan alacalanmış gözlərini yerə dikib keçirdikləri sarsıntıdan quru ağaca dönmüşdü, Şahımız duyğusuz cəsəd kimi taxtından dikəlib çadırdan çıxanacan kimsə yerindən tərpənib həyat əlaməti göstərmədi, sonra Mirzə Zəkinin sinəsindən inilti qopdu, mən də hönkürməkdən özümü güclə saxladım; dedi, üç gün Şahımızın mübarək üzünü kimsə görmədi, hətta hərəmləri belə çadırına yaxın düşə bilmədilər, amma üçüncü gün geyinib-keçinib taxtında oturdu, əyan-əşrəfi hüzuruna çağırdı; dedi, Şahımız əvvəlki əzəmətini itirməsə də, qaraşın sifətinin rəngi daha da boğulmuşdu, boz-kül rənginə çalırdı, gözlərindən daşan qəzəb adamı alov kimi qarsırdı; dedi, hüzurunda itaətlə boyun bükənləri bir-bir ağır nəzərlərlə süzüb kədərli səslə dilləndi ki, sizin aranızda bir nəfər də olsun, mömin, nəcib adam yoxdu, olsaydı, o zavallının xeyrinə saqqal tərpədib, bircə kəlmə söz deyərdiniz; dedi, qəzəbim yatanda əmr eləyəcəyəm, üç-dördünüzü assınlar, amma bununla dərdim azalmayacaq, öz əlimlə özümə vurduğum yara ömürlük qalacaq, indisə rədd olun, gözüm sizi görməsin; dedi, o məqamda ölüb-itməyi hər şeydən üstün tutardım, amma bu

da qismət olmadı, büzüşüb balacalaşdım, çadırıma çəkilib ağlamadan başqa bir çarə tapa bilmədim, bu da məni lap əlacsızlıq girdabına yuvarlatdı.

509. Mirzə Mehdinin danışdığına görə, sonra Şahımız ayrıca çadırda saxlanan oğluna baş çəkib, nə qədər qəzəbli olsa da, Şahzadənin pərişan halından qəlbi qan ağlayıb; dedi, Şahımız guşənişin olduğu üç gündə böyük bir günah işlətdiyini, gizli düşmənlərinin ustalıqla qurduqları tora düşdüyünü, içini qurd kimi gəmirən şübhəsinin, kor qəzəbinin qurbanı olduğunu anlayıbmış, amma təskinliyi bircə şeydə tapırmış: yəqin ki, bundan sonra o düşmənləri taxt-taca qarşı çıxanları, oğlu da olsa belə, bağışlamayacağını dərk eləmişdilər; dedi, bütün bunları Şahzadə də anlayıbmış, ata-oğul qucaqlaşıb xeyli ağlaşıblar, Şahzadə atasının keçirdiyi duyğulardan kövrəlib, deyib, sən məni dünya işığına həsrət qoysan da, unutma, bununla, əslində, öz gözlərinin işığını itirmisən, üstəlik, öz həyatını alt-üst eləmisən; dedi, Şahımız bu acı həqiqət müqabilində deməyə söz tapmayıb, durub qəddi əyilmiş halda çadırdan çıxıb; dedi, Şahzadə bir müddət qalıb az-çox toxtayandan sonra Şahımız oğlunu bir dəstəylə Məşhədə yola saldı, o vaxtdan da ruhi vəziyyəti düzəlməyib, bəlkə elə dağlıların basqınlarından, ərzaq və at çatışmazlığından, qışın zillətindən çox o «İran-i Xarab»dan uzaqlaşmaq məqsədilə Xəlifənin inadını əldə dəstəvuz eləyib, güneyə doğru yola çıxmaq qərarına gəlib; dedi, amma Şahımız verdiyi vədi unutmayıb, oğlu barədə hökm çıxaranda ağzına su alıb susanların bir neçəsini asdırıb, amma bu da onun qəlbini qaplayan tənhalıq kədərini dağıda bilməyib, əksinə, hökmdarımızı daha dərin girdaba yuvarlayıb ki, o girdabdan da çətin ki, ömrünün axırınacan çıxa bilsin. Əlbəttə, Mirzə Mehdi bütün bunları danışsa da, son qənaətini dilinə gətirmədi, bunu sözsüz-sovsuz beynimizdən keçirdik, bircə onu dedi ki, həkimbaşı Ələvi xan Şahımızın yanında olsaydı, bəlkə də bütün bunlar baş verməzdi, o hökmdarın qəzəbini yatırtmaq üçün əlac tapırdı. Amma ümumiyyətlə, bu işıqlı dünyada taledən, qismətdən qaçan olubmu – bunu dilimizə gətirməsək də olub-keçənləri qəbul elədik…

510. Mirzə Mehdi Təhmuras Mirzədən də danışdı, dedi, Şahımızın vəkil çini verdiyi Givi Amilaxvari Şahımıza qarşı çıx-

madığına görə onunla Əlimirzə xanın arasını vurubmuş. Amma Şahımız onun comərdliyini dəyərləndirib, arvadı Tamarayla birgə Dərbəndə çağırıb, bir neçə gün qonaq saxlayıb, qiymətli hədiyyələr bağışlayıb, "dövləti-şərik" çininə layiq görüb, üstəlik, Araqvi vilayətini də hökmü altına verib, təhmurəs Mirzəni Kartliyə, oğlu İraklinisə Kaxetə hakim təyin eləyib. Başqa çox şeylərdən də danışdıq, son görüşümüz idi, bunu ikimiz də gözəl dərk eləyirdik, bu səbəbdən söhbətdən doymurduq. O, Dağıstanın dağlıq və meşəlik yerlərində dağlılarla döyüşməyin necə çətin olduğundan danışırdı. Dediyinə görə, iki il ərzində qazandıqları, cəmi-cümlətanı vadiləri bir neçə də qalanı ələ keçirməkdi, basqınlarda on minlərlə əsgər tələf olub, üstəlik, nə qədər də at, silah-sursat itiriblər, bədbəxt Şahzadənin başına gələnlər, ola bilsin, Şahımızın bu uğursuzluqlarla azalan nüfuzunu nəyləsə qaytarmaq istəyinin nəticəsiydi. Mirzə Mehdi amansız şaxtanın, qar qasırğalarının, aclığın törətdiyi görünməmiş müsibətlərdən elə danışdı ki, göz yaşım təzədən sel oldu. Dediyinə görə, Samur çayından Şabrana çatanacan itkiləri görünməmiş həddə çatıb, atlar, dəvələr, qatırlar, öküzlər bir yana, adamlar da həm soyuqdan, həm aclıqdan çəyirtkə kimi qırılıblar, yollar əsgər meyitləri, heyvan cəsədlərilə dolubmuş, əvvəlcə öküzləri, dəvələri, sonra atları, qatırları kəsib yeməyə məcbur olublar. Dərbənddən buracan olan uzaqbaşı bir həftəlik yolu üç həftəyə gəlmişdilər, Muğan çölünə də, yəqin, azı, bir həftəyə çatardılar. Mirzə Mehdi həyatının ən ağır səfəri saydığı bu səfərdən sonra Şahımızdan əfv istəyib, yurduna dönmək, Astarabadda yazı-pozuyla məşğul olmaq barədə düşündüyünü söylədi, amma istəyini hökmdarın hüzurunda dilə gətirə biləcəyini güman eləmirdim. Bəlkə buna özü də o qədər əmin deyildi, çünki başladığı işi sona çatdırmaqdan, Şahımızın tarixini yazmaqdan əl çəkə bilməzdi – bu gerçəkliyi səsindən duyurdum. Bir sözlə, mənim kimi o da taleyindən qaça bilməzdi; Aşağıbaş qacarlarının başçısı Fətəli xan Qacarın xidmətində olduğu vaxt Nadir xana rast gəlmişdi, neçə illər idi ki, onun yanından ayrılmırdı, ağır və şad günlərinin şahidi olmuşdu, hətta Rzaqulu Mirzəylə Fatimə bəyimin nikah şəhadətnaməsini öz əlilə yazmışdı. Şahımızın aradabir şeir söylədiyini mənə Mirzə Mehdi danışmışdı; demişdi, bir şeir söyləyib soruşdu ki, necədi, imanı-

mı yandıra bilmədim, dedim, zəifdi, o da qəzəbləndi, əmr verdi ki, məni axur təmizləməyə göndərsinlər; əlbəttə, sonra yumşalıb əmrini dəyişdi; bir dəfə də şeir oxuyanda dinməzcə durub qapıya doğru getdim, soruşdu ki, mirzə Mehdi, hara gedirsən, dedim, Şah sağ olsun, axur təmizləməyə; bunu eşidəndə qəhqəhə çəkdi, sonra mənə şeir oxumadı. Şahımız şəkkaklıq bəlasına düçar olanacan ona sözünü deyə, qəlbinə yol tapa bilirdi, amma indi ondan çox aralı düşmüşdü, bununla belə, mən bilən, tale ayıranacan hökmdardan ayrılmayacaqdı.

511. O gecə söz-söhbətimiz çox uzun çəkdi, ürəyimizi tam boşalda bilməsək də, içimizdəki ağır yükün bir qismindən azad olub, az da olsa yüngülləşdik. Mirzə Mehdini də buraxmadım, Kərimlə gözətçiyə xidmətçilərin hücrəsində yer düzəltdirib, sədaqətli qələmdaşımın yatıb rahatlanması üçün mümkün olanı elədim. Kərimə tapşırmışdım, pul vermişdim ki, obaşdan qalxıb qonağımın yoluna əlinə keçəndən, yeməli nə tapsa, tədarük görsün. Ayrılanda da İstanbulda bir əntiqfüruşdan od qiymətinə aldığım gözəl yazı dəstini – mürəkkəbqabını, altı ədəd lələk qələmi, bir də Təbrizdən yadigar olan Nəsirəddin Tusinin «Əxlaqi-nadiri» kitabının əlyazmasını bağışladım. Mənə bir şey bağışlamasına razı olmadım, dedim, bu halımda dünya malından heç nəyə ehtiyacım yoxdu, öz içimlə əlləşə-əlləşə Allahın verdiyi möhlətin nə vaxt bitəcəyini gözləyirəm. Amma sədaqətli qələmdaşım Şahımızın tarixinə çəkdiyi miniatürlərdən bir neçəsini verdi, dedi, bu da məndən bir nişanə qalsın; təskinlik verməyəsə söz tapmadı, duyğularını uzun-uzadı sinəsinə sıxıb, səssiz-səmirsiz ağlamaqla ifadə elədi. Ayrıldıq, daha doğrusu, vidalaşdıq, Kərim qoçaqlıq göstərib aldığı ərzağı qatıra yüklədi, kəndiri gözətçiyə verəndə *(bunu Mirzə Mehdinin dil-ağız eləməsindən sezdim)* bir qədər rahatlandım. Beləcə, məni böyük dünyayla bağlayan son bağ da qırıldı, bundan sonra kiçik hücrəmə qapanıb fürsət düşəndə Mirzə Mehdidən, ya da Məhəmməd Kazımdan namə, bir də ölümümü gözləyə-gözləyə yaşadığım ömrün acılı-şirinli xatirələrini çək-çevir eləyəcəyəm. Daha dış aləmin yox, iç aləmin səyyahıydım, o aləmdəsə yolları keçmək, yaxud, istədiyin yerindən başlamaq, istədiyin şəhərin sakininə çevrilmək, istədiyin hadisəni canlandırmaq, istədiyin adamı istədiyin yerdən tapıb «həmsöhbət olmaq»

çox asan işdi; o aləmdə ancaq sənin hökmün işləyir, şah da, sultan da sənsən. Bundan sonra yeganə qayğım savadlı, qabiliyyətli, insaflı bir Allah bəndəsi tapıb hələ ki, diri olan, amma artıq ordan-burdan deşilən, süzülən yaddaşımdakıları kağıza köçürtdürməklə bağlıydı. Kərbəlayı Mahmud Şirvanda Nişat adlı bir şəxsin sorağını çatdırmışdı, gərək bu fürsəti əldən verməyəydim. Hələ ki, canımda can vardı, yaddaşım olub-keçənləri saxlayırdı, dilim söz tuturdu, bunu tez eləməliydim, başıma bir iş gəlsəydi, sandığımdakı kağızları nizama salmaq asan olmayacaqdı...

# XVIII

# BİTİB-TÜKƏNMƏYƏN DƏRDLƏR

*Ağlayıb yalvardım pərvərdigara,*
*Dərdimin nə həddi, nə hesabı var.*

***Sarı AŞIQ (XVII yüzil)***

512. Ömrümün sonrakı dörd ili möcüzə sayəsində gəlib çatacaq namələri gözləməklə, suların durulmasına, aranın sakitləşməsinə ümid bəsləməklə, dış aləmdən aldığım xəbərləri yaddaşımdakı xatirələrin zəncirinə düzüb yerbəyer eləməklə, Şəkidə camaatın baş qaldırıb Şahımızın qəzəbinə düçar olması, dava, qıtlıq, qəhətliklə keçdi. Tiflisə getməkdən bilmərrə əl çəkmişdim, elə imkanım olsa da Şəkidə ev almaq, köçüb rahat yaşamaq fikrində də deyildim; karvansara məndən ötrü təkcə yaşamaq, ömrün qalan günlərini keçirmək yeri deyildi, həm də mövcudluğumun bəlkə ilkin şərtiydi; Şəkiyə gələnlərin çoxu karvansarada əylənirdilər, təzə adamlar təzə xəbərlər gətirirdilər, təkcə Dərbənddən, Şamaxıdan, Tiflisdən, Gəncədən, Rəvandan, Nəqşivandan, Ərdəbildən, Təbrizdən yox, İstanbuldan, Ərzurumdan, İsfahandan, Məşhəddən, Qəndəhardan da xəbərlər gətirirdilər. Ünsiyyətə girmək imkanı olanda özüm, olmayanda Kərbəlayı Mahmudun, Kərimin vasitəsilə o tərəflərdə baş verənlərdən xəbər tuturdum. Hələ ki, könül açan söz-söhbət eşitməmişdim, camaat qiyamlardan, qətllərdən, dolanışıq çətinliyindən yanıb-yaxılırdı, deyirdilər, Şahımız osmanlılarla davaya başlasa, günümüz bundan da qara olacaq. Könül dostum Mirzə Kəmaləddindən, Mirzə Mehdidən, Mirzə Hüseyndən, Məhəmməd Kazımdan, Axund Ələkbərdən, lap elə vəfalı Qütbəddindən qalan xatirələr hələ ki, içimi isidirdi, qızınmağa nəyimsə vardı. Qış günlərində artıq hər qoxusuna alışdığım hücrənin divarları arasında, yaz-yay aylarında həyətin bir küncündəki şabalıd ağacının kölgəsində, payız günlərində

örtülü talvarın altında xatirələrimlə əlbəyaxa olurdum, kədərlə sezirdim ki, get-gedə o əlbəyaxadan yenik çıxıram. Kərbəlayı Mahmudun şəfqəti, üzünü görə bilmədiyim, tutqun kölgə kimi sezdiyim Kərimin abrı, hörmət-izzəti olmasaydı, bəlkə də bu məğlubiyyətdən payımı götürüb özümə qəsd eləyərdim. Amma yox, Mirzə Mehdinin dediyi kimi, *Allahın işinə qarışmaq olmazdı,* bir də ki yaddaşımdakıları kağıza tökməmiş ölmək fikrində deyildim.

513. Aldığım xəbərlərə görə, Şahımız qoşununu dörd qismə ayırmışdı, bir qismi Şamaxı ətrafında, o biri qismi Muğan çölündə, üçüncü qismi Qarabağda, qalanısa Gəncədə ordugah qurmuşdu. Kərbəlayı Mahmud deyirdi, ağıllı iş görüb, bu qədər qoşunu təkcə Şamaxıda, ya da Muğanda saxlamaq olmaz, nə ərzaq, nə ot-alaf çatar; deyirdi, Şahımız indi yaralı aslan kimi pəncələrini yalayır, Dərbənddən Kürün qırağınacan sürünə-sürünə çatdığı qırx gün ərzində itkilərinin sayı-hesabı yoxdu, indi qoşunun pozulmuş səfini nizama salmağa çalışır ki, Osmanlıların üstünə gedə bilsin; gələn xəbərlərdən belə məlum olurdu ki, Şahımız iyirmi günəcən Şamaxıdakı ordugahda qalıb, sonra Muğan çölündəki ordugaha gedib, sərəskərləri yığıb, osmanlılara qarşı getməklə bağlı fikirlərini öyrənib, Kərbəlayı Mahmud deyirdi, osmanlılarla dava məmləkətə baha başa gələcək, çünki o davanın bütün xərclərini binəva camaatın canından çıxaracaqlar, onun da verməyə bir şeyi olmayanda baş qaldıracaq; deyirdi, Şahımız Hacı xan Çəmişgəzəyi Gəncəyə bəylərbəyi göndərib, bununla da ziyadoğlulardan da, bütövlükdə qacarlardan da qisasını bir daha alıb; deyirdi, Qazax, Şəmşəddil, Borçalı Gəncədən alınandan, Uğurlu xan küncə sıxışdırılandan sonra ziyadoğluların qürubu başlamışdı, əgər Uğurlu xan o səfərdə tələf olmasaydı belə, Şahımız onu bir yolla taxtından salacaqdı, çünki dikbaşları, əmrlərinə sözsüz-sovsuz itaət eləməyənləri sevmir, bunu heç doğma oğluna da bağışlamır; deyirdi, amma bununla da artıq qacarları özünün qəvi düşməninə çevirib, inanmıram ki, bu böyük tayfa dinc otursun, intiqam almağa çalışmasın; deyirdi, *insan başqasına əzab verirsə, deməli, özü çox bədbəxtdi, çünki xoşbəxt adam ətrafındakılara ancaq sevgi bəxş eləyər;* onun dedikləri həqiqət idi, eşitdiklərimdən əlimdə sanballı tutarlar da vardı, amma bununla

camaatın baş qaldırmasına səbəb yaranacağından ehtiyatlanırdım, məmləkəti sonsuzacan qılınc gücünə saxlamaq ağlabatan deyil, əksinə, tayfalar arasında əmin-amanlığın yaranması Şahımıza daha çox xeyir verə bilərdi.

514. Mirzə Mehdiylə bu barədə son görüşümüzdə söhbətimiz olmuşdu, cavanşirlər tayfasından eşikağasıbaşı Fəzləli bəyin başına gələnləri danışmışdı. Sən demə, Fəzləli bəy Şahımızın xəbərçisi Mailin əməllərindən şübhələnibmiş, Mailin də onu görməyə gözü yoxmuş, ona görə də bir yol tapıb aradan götürməyə çalışırmış; axırda istəyinə çatır, Şahımız Xorasanda, ya Türküstanda olanda girəvə tapıb ona eşikağasıbaşından olar-olmaz şeylər çatdırıb, guya, Fəzləli bəy Qibleyi-aləmin hərəminə xor baxırmış; Mailin söylədikləri Şahımızın qəzəbli vaxtına düşüb, xəbərçisinin dediklərini araşdırıb içinə yetməmiş eşikağasıbaşının boynunun vurulmasını əmr eləyib, sonra da elə Mailin məsləhətilə qardaşı Pənahəli bəyi eşikağasıbaşı qoyub ki, uzaqda olub baş qaldırmaq fikrinə düşməsin; Pənahəli bəy də ayıq-sayıq adammış, əvvəl carçıbaşı, sonra Şahımızın qoşununda Qarabağ atlılarının minbaşısı olub, dərdinin üstünə daş basıb, sonra hiss eləyib ki, günlərin birində özü də qəzəbə tuş gələcək; düşünüb-daşınıb, onu gözləyən ölümdən qurtulmaq üçün yollar arayıb, axırda özünü xəstəliyə vurmaqdan başqa bir çarə tapmayıb; Mirzə Mehdinin dediyinə görə, şayiə gəzir, Pənahəli bəy tiryəkə qurşanıb, axırda məlum olub ki, sağlamlığı qoşunda olmağa yol vermir, Şahımızın ürəyinə rəhm gəlib, əmr eləyib ki, onu Qarabağa yola salsınlar, biz mərhum İbrahim xanla məşum Dağıstan səfərinə çıxanda Pənahəli bəy də altı atlıyla yarımcan halda Sarıcalı oymağına qayıdıb; amma həqiqət elə deyil, Pənahəli bə Şahımızın uzaqda olmağından istifadə eləyib oğlu İbrahim, bacısı oğlu Lütfəli bəy, həmtayfaları Hacı Məhəmməd bəy, Şahverən bəy, Seyidəli bəy, Hümbətəli bəy, Küküş bəylə qaçmağa nail olub, Şahımız da Azərbaycan sərdarına, Gəncə, Tiflis və Şirvan hakimlərinə fərmanlar göndərib ki, onu tutub hüzuruna göndərsinlər; amma Pənahəli bəy başının adamlarıyla Qarabağ dağlarında gizlənib, sonra Şəki vilayətinin Qəbələ mahalına keçmişdilər, deyilənə görə, indi öz zərbi-dəstini göstərmək üçün vaxtını-məqamını gözləyir; Əbdülhəsən xan da mənə Pənahəli

bəyin Şahımızın Xorasanda olmasından istifadə eləyib qaçmasını söyləmişdi, deməli, xeli hissəsi Xorasana köçürülən sarıcalıların da, cavanşirlərin də, otuzikilərin də, kəbirlilərin də Şahımızdan üz çevirdikləri aydın idi.

515. O ilin payızında Şəki hakimi Nəcəf Sultana Şahımızın buyrultusunu gətirən çapar məni də karvansarada tapıb Mirzə Mehdinin naməsini yetirdi. Sədaqətli qələmdaşım həmdi-sənadan sonra yazırdı, Novruz bayramından bir həftə qabaq Muğan çölündəki ordugaha yetişdik, Şahımız bayramı burda keçirmək niyyətində olduğundan havanın isinməsini gözlədik; yazırdı, bayram ovqatı bir elə hiss olunmurdu, ərzaq, at-alaf çatışmazlığı özünü bildirirdi, ətraf mahalların camaatı olan-qalanlarını yığıb verir, ümidlərini bir parça çörəyə bağlayırdılar; yazırdı, Şahımız Dağıstan əsilzadələrinin törəmələrindən yüz altmışacan adamı girov aparırdı ki, doğmaları baş qaldırıb aranı qarışdırmasınlar, beş yüz nəfərlik dəstənin qoruduğu girovlar Muğandan Təbrizə, Təbrizdən də Məşhədə göndəriləcəkdi; yazırdı, bayramdan sonra ordugah qalxıb Təbrizə doğru hərəkət eləyib, Həştrud-Qaraçəmən yoluyla irəlilədik; yazırdı, Şahımız Təbrizə girməyi məsləhət bilmədi, bu dəfə Əmiraslan xanı yanında saxlayıb ora ancaq Aşur xanın getməsini əmr elədi, Rəvana, Qarabağa, Şirvana, Dərbəndə fərmanlar yolladı ki, qoşunlarını yığıb Osmanlılarla dava üçün göndərsinlər; yazırdı, Osmanlıların Şahımız Hindistanda olanda ölüm xəbəri çıxmasından sevinmələri, Dağıstan səfəri vaxtı Şahımıza qarşı olanlara kömək vəd eləmələri onu qəzəb atına mindirmişdi, üstəlik, ötən qış İstanbula göndərdiyi Hacı xan Çəmişgəzək Xəlifə Sultan Mahmudun elçiləri Münif Əfəndi və Nəzif Mustafa Əfəndiylə gəlib çıxmışdı, amma məzhəb birliyində yenə razılıq əldə olunmadığından Şahımız bu məsələni zor gücünə yoluna qoymaq fikrindəydi. Naməylə bir miniatürünü də göndərmişdi. Oxuyan çaparın izah elədiyinə görə Şahımızla Osmanlı Abdulla Paşanın döyüş səhnəsiydi, qoşunlar üz-üzə durmuşdular, topçular ön sıradadılar, mərkəzdə əllərində qalxan, qılınc, başlarında burunluqlu, şiş uclu dəbilqələr olan süvarilər vardı, top atəşlərindən ətrafı tüstü bürüyüb, irəlidə də üç təkərli top görünürdü. Şahımız at belindəydi, əlində qılınc tutmuşdu, onun qarşısında çalmalı və dəbilqəli üç sərkərdə vardı; yəqin

onlardan biri Mirzə Mehdinin özüydü; ortadasa Abdulla Paşanın cəsədi Şahımızın atının ayaqları altındaydı...

516. Mirzə Mehdi ikinci naməsini düz bir il bir ay sonra Həmədandan göndərdi, Şəkiyə, burdan da Tiflisə gedəcək çaparlar karvansarada iki gün qalıb dincəldilər. Gələnlər ətraflı bir şey danışmasalar da Mirzə Mehdi Sənəndəc altındakı düşərgədə Şahımızın qüdrətli qoşununu osmanlılarla döyüşə hazırlanmasından ta İraqda qələbə qazanıb Həmədana gələnəcən hər şeydən yazmışdı. Yazdığına görə, Şahımız ordugahda bütün sərdarları, səreskərləri, tayfa başçılarını, minbaşıları, yüzbaşıları, əllibaşıları, onbaşıları hüzuruna çağırdı, vəzifələrini izah elədi, sonra bütün qoşunlara baxış keçirdi; yazırdı, Təbriz, Marağa, Urmiya, Sulduz, Soyuqbulaq, Dünbüli, Əhər, Bərgüşad, Qaradağ, Gəncə, Qarabağ, Rəvan, Tiflis, Şirvan, Şamaxı, Nəqşivan, Dərbənd, Şəkidən gələn qoşunun sayı altmış beş minə çatırdı, ümumilikdə Şahımızın sərəncamında olan əsgərlərin sayı üç yüz əlli mindən çox idi; yazırdı, şahzadələr Nəsrulla Mirzə, İmamqulu Mirzə və Şahrux Mirzə də Şahımızın hüzuruna gəlmişdilər, amma Şahımız onların Bağdad səfərinə getməsinə izin vermədi; sonra qoşunların Leylana girməsindən, Samirəni, Hiləni, Nəcəfi, Bəsrəni, Kərkükü, Mosulu ələ verməsindən, Şahımızın Kazımeyndə İmam Musa Əl-Kazımın və İmam Məhəmməd Təqinin məqbərələrini ziyarət eləməsindən, Bağdad ətrafında Əhməd paşa tərəfindən ehtiramla qarşılanmasından yazırdı. Yazdığına görə, Şahımız Nəcəfdə üləmaları yığıb yenə məzhəb birliyindən söz açdı, onun fikrincə, bu məsələ yoluna qoyulmasa, iki məmləkət arasındakı qovğalar bitib tükənməyəcək. Yazdığına görə, o tərəflərdə belə bir əhvalat da danışmağa başlayıblar: Şahımız bu müqəddəs şəhərə it girmədiyini, üstəlik, burda şərabın sirkəyə çevrildiyini eşidib, ötən səfərində bunu sınamaq qərarına gəlibmiş, bu məqsədlə də şəhərə girəndə itini və bir şüşə şərab götürür, amma nə illah eləyirlərsə, heyvan şəhərə girmir, bir az sonra Şahımız görür ki, götürdüyü şərab, doğrudan da, sirkəyə çevrilib, bundan sonra imamlara ürəkdən inanıb. Əlbəttə, Mirzə Mehdi bu əhvalatla həm də Şahımızın sünni və Hənəfi olmasıyla bağlı şayiələrə dair bir fikir söyləmirdi. Amma əgər Əbülbərəkət Abdullah ibn Hüseyn əl-Bağdadi əs-Süveydinin sədrliyilə Nəcəfdəki

Həzrəti Əli məqbərəsində keçirilmiş yığnaqda Cəfəri-Sadiqin Muhamməd Peyğəmbərin nəslindən olduğu, məmləkətdə yaşayanların da Cəfəri məzhəbinə məxsusluğu rəsmən təsdiqlənmiş, Şahımız "Fərman-i Şahi"ni vermişdisə, deməli, Osmanlılarla qarşıdurma qaçılmaz idi, hökmdar Xəlifəni diz çökdürmək, bəlkə də Konstantiniyyəni ələ keçirib Xəlifə məqamında oturmaq fikrindəydi.

517. Mirzə Mehdinin naməsindən belə başa düşdüm ki, Xəlifə də bunu bilir, ona görə də Şahın o yığnaqda iki Osmanlı üləmasının iştirakı tələbindən cürbəcür bəhanələrlə boyun qaçırıb. Şahımızın Bağdad və Mosul ətrafından Həmədana doğru çəkilməsinin başlıca səbəbi Farsda, Xarəzmdə, Xoyda, Astarabadda başlanan qiyamlardı. Elə o vaxt Şirvan da qaynayırdı. Nəcəf Sultanın vergiləri camaatın dərisini soyub dabanından çıxarırdı. Şayiə gəzirdi ki, Rzaqulu Mirzə Səfəvi xanədanına son qoymaq üçün qətl törədəndə şahzadələrdən biri – Şah Sultan Hüseynin nəvəsi – Sam Mirzə qaçıb canını qurtarıb, əvvəlcə Gürcüstanda, sonra Qırımda gizlənib, fürsət yarananda Avarıstana, ordan da Şirvana keçib, indi Şirvanda Səfəvilərin taxt-tacını qaytarmaq üçün qoşun yığır. Şaiyə gəzirdi ki, uğanlar İsfahanı mühasirəyə alan vaxt Sam Mirzə Fətəli xan Qacarın köməyilə saraydan qaçıb. Həmin vaxt mən İsfahandaydım, Mirzə Mehdi də Fətəli xanın xidmətindəydi, belə bir şey olsa, təbii ki, bundan xəbər tutardıq. Guya, Təbrizdə gecələdikləri bir karvansarada dərvişlər şahzadəni tanıyıb məsləhət görüblər ki, bir müddət gizlənib şəraitin yaranmasını gözləsin, sonra üzə çıxsın. Deyilənə görə, sonra Sam Mİrzə Surxay xanla birləşib, hətta Şirvan hakimi Məhəmmədəli xan Qırxlu da ona qoşulub, əlli minlik qoşunla Yeni Şamaxını tutublar, camaat Sam Mirzəni elə şadyanalıqla qarşılayıb ki, sevincin həddi-hüdudu yoxmuş; amma az sonra Nəsrulla Mirzənin qoşununun Şirvana gəldiyi barədə xəbər çıxdı. Kərbəlayı Mahmudun söylədiyinə görə, Şahımız Əhər, Qaradağ, Çuxursəd, Qarabağ, Muğan, Gəncəyə kömək göndərib ki, basqın olanda özlərini qoruya bilsinlər. Payızda Şirvan düzənliyində Nəsrullah Mirzəylə Sam Mirzənin qoşunları qarşılaşdılar, Nəsrulla Mirzənin döyüşlərdən çıxmış qoşunu üstün gəldi. Surxay xan bu dəfə də qaçıb canını qurtara bildi, amma Sam Mirzə

ələ keçdi, Nəsrulla Mirzə əmisi oğlunun səhvini təkrar eləməyib onu gedər-gəlməzə göndərdi. Kərbəlayı Mahmud deyirdi, Şirvan elə talan olunub ki, indi Şamaxı-Dərbənd yolunda sədəqə diləyənlərin sayı-hesabı yoxdu. Onun söylədiyinə görə, yerli hakimlər Şahımıza on dörd batman çıxarılmış göz göndəriblər, bundan sonra bir kimsə baş qaldırıb canını oda sala bilməz. Belə fikirləşirdim ki, bu cür şeylər camaat arasında daha böyük narazılığa səbəb olacaqdı, çünki artıq itirməli bir şeyi olmayan adam daha qorxuludu, kəfəni boğazına dolayıb qılıncın altına, güllənin qabağına getməkdən başqa əlacı yoxdu.

515. Zənnim məni aldatmadı: bir neçə aydan sonra ikinci, həm də tanıdığım burnukəsik Sam Mirzə peyda oldu. İkinci İbrahim xan Ərdəbildə peyda olub özünü xanədanın varisi elan eləyən o şəxsi tutmuş, burnunu kəsib buraxmışdı, heç ağlına da gəlməzdi ki, beş il Şirvanda, Dağıstanda gizlənib taxta çıxmaq üçün yollar axtarırmış. Deyilənə görə, Surxay xanın oğlu Məhəmməd xan, hətta davalardan təngə gələn şah qoşununun bir hissəsi də ona qoşulubmuş. Burnukəsik Sam Mirzə Ağsunu tutan vaxt Şahımız Şirvan hakimi Heydər xana, sonra da Azərbaycan qoşunlarının sərdarı Aşur xan Əfşara əmr eləyib ki, yalançı şahzadəyə qarşı getsinlər. Sonra Nəsrulla Mirzə dayısı Fətəli xanla təzədən Şirvana qayıtmalı olub, şəhəri dövrəyə almışdı, Kərbəlayı Mahmud deyirdi, Nəsrullah Mirzənin qoşunu üç dəfə yenik düşüb, amma top gülləri Ağsu qalasını dağıdandan sonra şəhərə girə bilmişdi. Amma Burnukəsik Sam Mirzə nə yollasa Tiflisə sarı qaçıb qiyam eləmiş Ksani eristavı Givi Amilaxvarinin dəstəsinə qoşulmuşdu. Cəmi iki aydan sonra xəbər çıxdı ki, Təhmurəs Mirzə Givi Amilaxvarinin dəstəsini dağıdıb Burnukəsik Sam Mirzəni tutub Bərdəyə, Nəsrulla Mirzənin hüzuruna göndərib. Şahzadə də onun gözünün birini çıxarıb eşşəyin belində Qarsa yollamışdı ki, orda Osmanlıların taxt-taca hazırladıqları Səfi Mirzəylə görüşsün. Amma görüş qismət olmamışdı, Burnukəsik Sam Mirzə yolda xəstələnib ölmüş, elə öldüyü yerdəcə dəfn olunmuşdu. Bununla belə, Kərbəlayı Mahmud Xəlifə Sultan Mahmudun niyyətindən əl çəkmədiyini, Şirvan, Dərbənd, Tabasaran əsilzadələrinə namələr göndərib Səfi Mirzəyə kömək göstərmələrini istəmişdi. Deyilənə görə, taxt-taca yiyə çıxmaq istəyən o şəxsin adı Məhəmməd Əlidi,

Kermanın Rəfsəncan kəndindəndi, dərvişlibas olub şəhərləri dolaşırmış, Şüştərdə bəzi adamlar ona gözlərindən Səfi Mirzəyə oxşadığını söyləyiblər, o bədbəxt də fürsətdən istifadə eləyib, özünü Şahzadə Səfi Mirzə kimi tanıtmağa başlayıb. Hətta Şüştər hakiminin tənbehi də onu qorxutmayıb, Bəsrəyə, sonra Bağdada gedib, İstanbulda da bundan xəbər tutub, saraya aparıb, Səfəvi şahzadəsi kimi qəbul eləyiblər, Əhməd Paşaya qoşub Qarsa göndərib, tezliklə Səfəvi taxtında oturacağını vəd veriblər. O da Əcəm ölkəsinin hər tərəfinə namələr göndərib ki, ona qoşulsunlar. Bir müddət sonra Şahımız Nəqşivandan Qarsa qoşun çəkdi, Qars qalasını mühasirəyə alıb Səfi Mirzəni tələb elədi, əsiri Seyid Mustafayla Sərəskər Əhməd paşaya namə göndərdi ki, *"iki tərəf də əhli-İslam ola-ola, müharibə və cihadla tökülən qanın qiyamət günü cavabını kim verəcək? Dövləti-Aliyyəylə dil tapıb, sülh-salaha səy eləməyiniz sizə də, bizə də xeyirlidi"*. Çarəsiz qalan Osmanlılar o biçarəni Şahımıza vermiş, üstəlik də barışıq istəmişdilər. Amma Şahımız Qarsda qalmaq niyyətində deyilmiş, Axılsıxa, Axılkələyə, ordan da Bərdəyə qayıdıb düşərgə qurmuşdu…

# XIX

# MÖHNƏT DOLU GÜNLƏR

*Saraldı rəngi-ruhim, qəm yükündə, qamətim kəmdir,*
*Ənisim guşeyi-möhnətdə hər dəm xuni-didəmdir.*

*Məhcur ŞİRVANİ*
*(XVII-XVIII yüzil)*

519. Daha olan olmuşdu ki, Haqqa qovuşanacan korluğun içimə enməməsindən ötrü dua eləyirdim. Yaddaşımdakıları kağıza köçürmək, həm də öz başına gələn kimi, duyğuyla təsvir eləmək qabiliyyəti olan bir qələm sahibi tapmaq müşkülə çevrilmişdi. Kərbəlayı Mahmudun vasitəçiliyilə gətirtdiyim kəslər sınaqdan yaxşı çıxmadılar: birinin təhsili yetmədi, gördüm yazdırdığım parçanı duruxa-duruxa oxuyur; o biri xəstəhal mirzəydi, səsinin tövrü xoşuma gəlmədi, ona görə də qorxdum, başına bir şey gələ, ondan sonra hər şeyi təzədən başlamalı olam; üçüncüsü köç üstündəydi, bundan sonra Gəncədə yaşamağa qərar vermişdi, iki-üç ay ərzində mənim dediklərimi yazıb çatdıra bilməzdi, gərək hər parçanı söyləməzdən qabaq yaddaşımda yerbəyer eləyəm, buna da vaxt lazımdı. Beləcə, günlər ötürdü, o günlərin sıxıntısını ancaq Kərbəlayı Mahmudun, ya da Kərimin dış aləmdən gətirdiyi xəbərlər, həftədəbir, ongündəbir gələn müsafirlərin söylədikləri, ağızdan-ağıza keçib yayılan yarıhəqiqət-yarımşayiələr bir qədər azaldırdı. Uzun yolçuluğum ərzində hər eşitdiyimə inanmayacaq qədər təcrübə toplamışdım, bir xəbər eşidəndə onunla bağlı başqa xəbər qulağıma çatanacan deyilənləri hökm kimi qəbul eləmirdim, sonra fikrimin sapına düzür, nəyin doğru, nəyin yalan ola biləcəyini aydınlaşdırmağa çalışırdım. Düzünü deyim, Şahımızla bağlı gəlib bu karvansara guşəsində qulağıma çatanlar məndə əndişə yaradırdı. Məmləkətdə bu qədər üsyanlar, qiyamlar, taxt-taca xəyanətlər vardısa, deməli, idarə işində nəsə düzgün deyildi, yaxud Şahı-

mızın ətrafındakılar bu qarışıqlıqların baş verməsində maraqlıydılar, ya da basqılar, zorakılıqlar dözülməz həddə çatmışdı. Əlbəttə, bütün bunlara mən – dünyanın, az qala, yarısını dolaşıb, bir karvansara küncündə taleyinin sonunu gözləyən Mirzə Yusif Tiflisi hökm verə bilməzdim, amma Şahımızın dağılmaqdan qurtardığı məmləkəti saxlamaqda necə çətinlik çəkdiyini canımqanımla duyurdum.

520. O iki ildə Şahımızın Şəkiyə hakim göndərdiyi Məlik Nəcəflə Hacı Çələbinin çəkişməsi ən çox danışılanlardan idi. Deyirdilər, Məlik Nəcəf hökmdarın gözünə girmək, daha böyük məqama çatmaq üçün camaatın dərisinə saman təpir, vergini birə üç çıxartmamış əl çəkmir, sözünün qabağında söz deyənləri də ölüncəyədək döydürür, gözünü çıxartdırır, dilini kəsdirir, əhli-əyalının başına oyun açır; deyirdilər, Şahımız Bərdə altında olanda camaat onun yanına adamlar göndərib dərdlərini hökmdara çatdırıblar, hökmdar da öz aralarından Məlik Nəcəfin işlərinə göz olmaqdan ötrü vəkil seçmələrini tapşırıb, vəkillik məqamısa Hacı Çələbiyə qismət olub, Şahımız da bununla razılaşıb, çünki həm camaat, həm də möminlər arasında hörməti-izzəti var, ümid eləyib ki, bundan sonra şikayətlərə son qoyulacaq, ədalət öz yerini tapacaq; deyirdilər, amma hər şey tərsinə olub, Hacı Çələbi camaatdan da, Şahımızdan da qüvvət alıb Məlik Nəcəfi elə küncə sıxışdırıb ki, o da durub hökmdarın hüzuruna getməkdən başqa bir çarə tapmayıb, yalan-doğru Şahımıza deyib, Hacı Çələbi hökmdarın fərmanlarını saya salmır, üstəlik, camaatı dilə tutur ki, buyurulanlara əməl eləməsinlər; deyirdilər onu da deyib ki, Hacı Çələbi fürsət gözləyir, siz üzünüzü güneyə çevirən kimi, Şəkini ayırıb, Şirvanı tutub ayrıca xanlıq qurmaq istəyir; deyirdilər Məlik Nəcəf Şaha bu cür çox şeylər söyləyib, həmin vaxt da Şahımız qiyamlardan cana doyubmuş, Təbrizdə, Xoyda, Səlmasda, Xarəzmdə, Farsda da elə o vaxtlar baş qaldıranlar olmuşdu. Şahımız qardaşı oğlu Əliqulu xanı Xarəzmdə baş qaldıranları yerində oturtmağa göndərmişdi. Bu tərəfdən də Şahımızın qaynı Kəlbəli xanı öldürüb qiyam qaldırmış Tağı xan Şirazini yola gətirməyi sədr-ül-məmalik Mirzə Məhəmməd Əliyə həvalə eləmişdi. Sonra Fətəli xanın oğlu Məhəmməd Həsən xan Astarabadda itaətdən çıxmışdı. Beləcə, məmləkət qaynayır, par-

çalanır, iğtişaşlar ara vermirdi. Bu səbəbdən Şahımız qəzəbindən zəncir çeynəyir, gözü hər yerdə qiyamçı axtarır, taxt-taca qarşı hər əməli sözsüz-sovsuz kökündən qazımağa can atırdı. Həmin məqamda Şahımızın Hacı Çələbi barədə söylənənlərə inanmasında təəccüblü heç nə ola bilməzdi.

521. Kərbəlayı Mahmud deyirdi, hökmdar eşitdiklərindən qəzəb atına minibmiş, əmr eləyib ki, Hacı Çələbi hüzuruna gəlsin, o da kəfənini geyinib, Şahımızın düşərgəsinə yollanıb, hökmdar ona deyib, mən səni vəkil elədim ki, Şəkidə işləri nizama salasan, sənsə həddini aşıb mənim fərmanlarıma qarşı çıxırsan, camaatı taxt-taca qarşı təhrik eləyirsən, ona görə də cəzan edamdı; deyirdi, Şahımız buyurub ki, dar ağacı qurulsun, günahkar hamının gözü qabağında boğazından asılsın ki, bu fikrə düşənlərə görk olsun; deyirdi, Hacı Çələbi də ölümü gözünün altına alıbmış, fikirləşir, ölmək ölməkdi, xırıldamaq nə deməkdi, elə cəllad kəndiri boğazına keçirəndə son sözünü söyləməyə izin istəyir, Məlik Nəcəfin öz yaramaz əməllərilə camaatı xanədandan narazı saldığını dəlil-sübutlarla ərz eləyir; deyirdi, Şahımız da onun dəyanətindən riqqətə gəlib günahını bağışlayır, üzünü əmirlərinə tutub deyir ki, mənim hüzurumda kimisə danışmağa belə cürət eləmədiyi halda bu şəkili Çələbi kəndir boğazında özünü itirmədən fikirlərini söyləmək cəsarəti göstərdi, düzdü, onu bağışladım, amma görərsiniz, bir xəta çıxaracaq, mən heç vaxt zənnimdə yanılmaram; deyirdi, sonra Şahımız Hacı Çələbiyə buyurub ki, qayıt Şəkiyə, Məlik Nəcəflə əl-ələ ver, işləri nizama sal; deyirdi, Hacı Çələbi də ölümdən qurtulduğuna inanmırmış, bu səbəbdən qalan ömrünü qənimət bilib, Şəkiyə qayıdandan sonra öz nüfuzuyla Məlik Nəcəfin meydanını daha da daraldıb, Məlik Nəcəf də yenə Şahımızın Sənəndəcdəki düşərgəsinə namə göndərib, Hacı Çələbidən yenə şikayət eləyib, amma həmin baxt Şahımızın başı Osmanlılarla davaya qarışdığından Şəki hakiminin şikayətini araşdırmağa macalı olmayıb; deyirdi, elə bu da Hacı Çələbini ölümdən qurtarıb, amma çox güman hökmdarın başı açılanda Məlik Nəcəfin şikayətilə maraqlanacaq, bu məsələyə birdəfəlik son qoyacaqı. Bütün bunları öz iç dünyamda saf-çürük eləyir, məmləkətdə əmin-amanlığın yaranması üçün dua oxumaqdan başqa əlac tapmırdım. Muğan

çölündə yeni xanədan qurandan bəri məmləkət çalxantılardan göz açmırdı, hərə öz iddiasını ortaya qoyur, aradasa binəva camaat qanına qəltan olurdu.

522. O vaxtlar xanədanın işi, doğrudan da, müşkül idi. Sam mirzələr, Səfi Mirzə təhlükəsi aradan götürülsə də, Farsda Tağı xan Şirazi, Astarabadda Məhəmməd Həsən xan, Xoy və Səmasda köçəri kürdlər, Bəhreyn və Məsqətdə köçəri ərəblər, Xorasan, Kerman və Luristanda yerli hakimlər baş qaldırmışdılar, bu səbəbdən Şahımız müəyyən müddətə də olsa, Hacı Çələbini diqqətdən yayındırmışdı. Şahımız Farsda və Astarabadda qiyamları yatıran vaxt Məlik Nəcəfin daha bir şikayəti hüzuruna yetirilmiş, onu möhkəm qəzəbləndirmişdi. Bu səbəbdən o Hacı Çələbiyə yüz tümən cərimə verməyi, üstəlik, hüzuruna gəlməyi əmr eləmişdi. Hacı Çələbi bilirdi ki, bu gedişin dönüşü yoxdu, ona görə kəfəni bir də boğazına dolayıb cərimədən də, hökmdarın hüzuruna getməkdən də boyun qaçırdı. Bütün bunları danışan Kərbəlayı Mahmud deyirdi, bu artıq Şahımızın üzünə ağ olmaq, taxt-taca qarşı çıxmaqdı. Bir neçə həftədən sonra Hacı Çələbinin Məlik Nəcəfi öldürdüyü, adamlarını qovub, özünü Şəki mahalının hakimi elan elədiyi, üstəlik, xan adlandırdığı barədə xəbərlər yayıldı. Bu xəbəri eşidəndə, elə bil, içimdə nəsə uçulub dağıldı, dualarımın Allaha gedib çatmamasından yanıb-yaxıldım. Hacı Çələbini qınamırdım, amma məmləkətin param-parça olduğu bir vaxtda bu addımı atması da xoşagəlməz sonluğa varacaqdı. Əgər Şahımız qəzəb atını minib Çələbi xanın üstünə qoşun göndərsəydi, yenə arada binəva camaata zülm olacaqdı. Hələ ki, Məlik Nəcəfdən canını qurtaran camaatın şadyanalıq səsləri karvansaranın həyətinəcən gəlib çatırdı. Onda Kərbəlayı Mahmudla şabalıd ağacının altında oturub özümüzü günə verirdik, üzünü görməsəm də, onun içindəki qorxunu bütün canımla duyurdum. Dərdli-dərdli dedi, bundan sonra nə olacaq, Mirzə Yusif. İstədim deyəm, Şahımız bu dikbaşlığa dözməyəcək, yəqin güneydə nizam yaradandan sonra qoşununu çəkib Şəkinin üstünə gələcək, onda da qan su yerinə axacaq: Hacı Çələbi döyüşmək fikrinə düşsə, Şahımızın böyük qüvvəsi, toplarıyla üz-üzə qalacaq, itaət göstərsə, hökmdar qəzəbini yatırtmaq üçün neçə-neçə baş vuracaq, göz çıxaracaq, girov aparacaq. Amma susdum, bu həqiqətləri

Kərbəlayı Mahmud da bilirdi; onun istəyi buydu ki, məmləkətdə əmin-amanlıq olsun, Şəkidən karvanlar gəlib keçsin, karvansaranı həmişə müsafirlərlə dolub-daşsın, bir parça çörək üçün zillətə qatlaşmalı olmasın.

523. Qorxduğumuz oldu, hicri 1156-cı, miladi 1744-cü ilin yayında Şahımızın üzünü quzeyə doğru çevirdiyi barədə xəbərlər yayıldı. O günlərin birində Kərbəlayı Mahmud dedi, Hacı Çələbi xan camaatın «Gələsən-görəsən» qalasına çəkilməsi barədə əmr verib. Doğrudan da, karvansara həyətindən xan carçılarının qışqırtılarını, şəhərin bir neçə fərsəngliyindəki qalaya doğru yollanan atların, qatırların, arabaların tappıltılarını, cırıltılarını tez-tez eşidirdim. Hər gün Kərimin köməyilə çıxıb həyətdəki mindərin üstündə oturur, kürəyimi ağaca söykəyib, o əndişə, ölüm-itim dolu səslərə qulaq asırdım. Bir neçə dəfə Kərbəlayı Mahmud qalaya getmək fikrində olub-olmadığımı soruşdu, dedim, mənim Şahımızdan qorxum yoxdu, neçə illər ona xidmət eləmişəm, karvansara küncündə dünya işığına həsrət qalmış bir qoca kimə lazımdı; üstəlik, Kərbəlayı Mahmuda deməsəm də, Şahımızın yanında Mirzə Mehdi kimi sədaqətli qələmdaşım vardı, şübhəsiz ki, Şahımız bura gəlməsə belə, Mirzə Mehdi gələn qoşunun sərdarına mənim barəmdə nəsə deyəcəkdi, bu da yetərliydi. Təkcə Kərimlə bağlı əndişəm vardı, amma gələnlərin arasında korun qolundan tutan kəsi öldürəcək qədər zalım kimsəylə qarşılaşacağıma inanmırdım. Kərbəlayı Mahmud özü mütərəddid vəziyyətdə qalmışdı, axırda belə qərara gəldi ki, külfətini qalaya yox, Qəbələdəki qohumlarının yanına göndərib özü karvansarada qalsın. Dedi, mənim taxt-taclıq işim olmayıb ki, qorxum, onsuz da ömrümün çoxunu yaşamışam, Allah-tala canımı harda məsləhət bilirsə, orda alacaq, əcəldən kim qurtulub, axı. Üç həftədən sonra ən pis vaxtlarda belə, ən azı, yarıyacan dolu olan karvansarada üçümüzdən, bir də dərvişlibas bir sərgərdandan başqa kimsə qalmadı. Kərbəlayı Mahmudun dediyinə görə, tiflisli iki tacir Şahımızın qoşunlarına rast gəlməmək üçün geri qayıtmışdılar, karvansaradakılardan üç nəfər tələm-tələsik Gəncəyə, iki nəfər Dərbəndə, iki nəfər də Ərəşə yollanmışdı. Hələ kimsə Şah qoşununun buralara nə vaxt gəlib çıxacağını bilmirdi, arada-bir Kərbəlayı Mahmud kimdənsə xəbər tuturdu ki, Hacı Çələbi

xan qalanı möhkəmləndirmək, ərzaq və su ehtiyatı yığmaqla məşğuldu, belə görünür ki, son məqamacan duruş gətirmək fikrindədi.

524. Bir ayacan çəkən səksəkəli günlərdən, yuxusuz gecələrdən sonra xəbər çatdı ki, Şahımız qoşunuyla Bərdə altındakı sevimli yerində düşərgə salıb, məsləhət-məşvərətdən sonra əmr eləyib ki, on beş min nəfərlik qoşun Şəkinin üstünə gedib olan-qalan ərzağı yığsın, «Gələrsən-görərsən» qalasını da darmadağın eləsin. Sonrakı günlərdə gah Kərbəlayı Mahmud, gah Kərim ana yola çıxır, rastlaşdıqları adamlardan cürbəcür xəbərlər gətirirdilər. Deyilənə görə, mahalın kəndləri artıq boşalmış, camaat ərzağı götürüb meşələrə, dağlara çəkilmişdi, hətta orda-burda şah qoşununa basqın eləyir, silah-sursat ələ keçirirlər. Deyilənə görə, Şahımız özü ordugahını Bərdədə qoyub Cavad yaxınlığında saldırdığı körpüdən keçmiş, Dərbəndə sarı üz tutmuşdu. Deyirdilər, «Gələrsən-görərsən» qalasının üstünə gələn şah qoşunlarının çoxu Daşbulaq tərəfdəki Kotan düzündə qalıb, çünki ensiz, sərt yoxuşla qalaya yaxınlaşa bilmirlər. Qışın bu vaxtında Şahımızın Şəkinin üstünə gəlməsi mənə çatmırdı, çünki ötən səfərindən dərs götürməliydi. İki ay boyunca aldığımız xəbərlərdən məlum olurdu ki, hər iki tərəfdən itkilər var. Hücrəmizdə belə eşidilən top atəşləri Şah qoşunlarının çətinliklə qarşılaşdığından xəbər verirdi. Sonra xəbər çıxdı ki, Şahımız Dağıstanda işləri yoluna qoyub, əksər hakimlərin itaətini qəbul eləyib Dərbəndə, ordan da Tabasarana, sonra Bərdə altındakı düşərgəsinə qayıdıb. Üç-dörd həftədən sonra Şahımızın Kürü keçib Ərəşdə düşərgə saldığı barədə xəbər eşitdik. Mirzə Mehdinin bu qədər yaxında olmasından o qədər həyəcanlandım ki, günlərlə dilimə nə çörək, nə su dəydi. Amma içimə şübhə də enmişdi: sədaqətli Mirzə Mehdi belə yaxındaydısa, niyə qələmdaşının taleyilə maraqlanmırdı; bu müddət ərzində mənimlə maraqlanmamışdısa, deməli, ya Şahımızla səfərə çıxmamışdı, ya da arzusuna çatıb Şahımızın qulluğundan çıxmış, doğulub-böyüdüyü Astrabada getmişdi. Əlbəttə, ikinci fərziyyəmə özüm də inanmırdım, çünki o mənim tanıdığım Mirzə Mehdiydisə, məmləkətin belə çətin vaxtında kənara çəkilib guşənişin ola bilməzdi.

525. Bir neçə ay döyüşlər səngidi; deyirdilər, Şahımız istirahətlə məşğuldu, yəqin qüvvə toplayıb yaz girəndə qalaya qəti hücum eləyəcək. Sonra daha bir xəbər çıxdı, deyirdilər, qalanın dörd yanındakı meşəyə baltaçılar dəstəsi göndərib ki, ağacları qırıb toplara yol açsınlar; deyirdilər, bundan xəbər tutan bəzi bəylər, kəndxudalar, tayfabaşılar Şahımızın yanına gedib itaətlərini bildirmişdilər, hökmdar da onlara xələt vermiş, Hacı Çələbi xana xəbər göndərmişdi ki, daşı ətəyindən töksün, gəlib təslim olsun. Amma Hacı Çələbi xan boyun əymək fikrində deyildi, qalanın bütün yollarının kəsilməsi belə onu qorxutmamışdı. Üç ayın tamamında dedilər, Şahımız qəfildən Ərəşdəki düşərgəsinə qayıtdı, Kürü adlayıb Xaçına, Göyçə yaylağından keçib Rəvana doğru getdi, Osmanlı sərkərdəsi Yegen Mehmet Paşayla döyüşə yollanır. Amma on beş min nəfərlik Şah qoşunu qalıb, qalanı üzük qaşı kimi dövrəyə almışdı. Düz bir ilimiz beləcə, intizar içində keçdi, o bir ildə Şahın qoşunları Şəkiyə od vurdular, Hacı Çələbi xan itaət eləmədi, yaz-yay getdi, payız-qış gəldi, Hacı Çələbi xan təslim olmadı. Amma sonrakı ilin Novruz günlərində xəbər çıxdı ki, Hacı Çələbi xan itaət göstərməyə qərar verib. Deyirdilər, axır aylarda qalada adambaşına bir tikə çörək, bir qurtum su paylanırmış, üyüdüləsi, kəsiləsi nə varmış, hamısı tükənibmiş; deyirdilər, Şah qoşunları qalaya ərzaq çatdırmaq istəyən dəstələri yaxalayıblar, qoymayıblar ki, qalanın üzərindən bir quş da uçsun. Bir neçə gün sonra qalada sağ qalanların evlərinə qayıtdıqları, Hacı Çələbi xan və ətrafındakılarınsa həbsə alınıb Şahımızın hökmünü gözlədikləri barədə Kərbəlayı Mahmud xəbər gətirdi. Bir neçə ay sonra eşitdik ki, hökmdar Xorasandan fərman göndərib Məlik Cəfəri mahalın hakimi, Hacı Çələbi xanı da onun vəkili təyin eləyib. Allahın lütfündəndimi, nədəndi, bilmirəm, Şahımızın əsgərləri Şəkiyə od vuranda Kərbəlayı Mahmudun karvansarasına bir şey olmamışdı, heç Şahımızın əsgərləri gəlib olan-qalan ərzağına da toxunmamışdılar. Görünür, Allah məsləhət biləndə binəsibləri də nəzərində saxlayır.

# XX

# SONUN BAŞLANĞICI

*Aləmin məmurəsin hər gündə bir sultan tutur,*
*Nikibəxt ol kəs ki, ol məmurəni viran tutur.*

***Arif ŞİRVANİ***
***(XVIII yüzil)***

526. Mirzə Mehdinin niyə məni axtarıb-aramadığından bir neçə ay sonra Təbrizdən gəlib Tiflisə gedən təsadüfi yolçudan xəbər tutdum: sən demə, Şahımız onu İstanbul sarayına göndərdiyi heyətə daxil eləyibmiş. Düzü, buna təəccübləndim, fikirləşdim, görən, hansı zərurət yaranıbmış ki, Şahımız öz tarixçisini Sultanın sarayına göndərməli olub. Ağlıma gəldi, yəqin, yenə məzhəb məsələsilə bağlıdı, Mirzə Mehdi gedib ki, tarix boyu məzhəb birliyinin mövcudluğundan, faydasından və ilaxır məsələlərdən oxuyub-bildiklərini Osmanlılara danışsın, Xəlifə Sultan Mahmudu inandırsın, amma belə tez dönmədiyindən görünürdü, daş qayaya rast gəlib. Mən bilən, Xəlifə Sultanı inad göstərməyə vadar eləyən Şahımızın qorxusuydu: çox güman ki, məzhəb birliyindən sonra Allahın kölgəsinin təkcə Bursaya yox, İstanbula, hətta Ədirnəyəcən gedib çıxacağından, onu həm Sultan taxtından, həm Xəlifə məqamından endirəcəyindən ehtiyat eləyir. Şahımızın beynində bu cür fikir, istək, niyyət vardımı, bunu bilmirəm, amma Ağ Banuyla evlənib, dünyanın yarısına yiyələnəcəyi barədə ortada gəzən şayiələri yox, Mirzə Mehdinin şəxsən söylədiklərini eşitmişdim. Şahımız Gündoğanda o böyüklükdə Hindistanı diz çökdürmüşdüsə, Günbatanda heç də onlar kiçik olmayan Osmanlı məmləkətinə yiyələnməyi, yəqin ki, istəyirmiş. Əcəm məmləkətini bürüyən qiyamlarda Osmanlı izlərinin bir-bir üzə çıxması da Sultanın buna qarşı ehtiyat tədbirləri görməsindən xəbər verirdi. Elə Şahımızın dağlılarla haqq-hesabını yarımçıq qoyub üzünü güneyə çevirməsi, Yegen

Mehmet Paşayla döyüşə girməsi Osmanlılarla çəkişməyə son qoymaq istəyilə bağlı ola bilərdi. Amma Şahımızın kürəyinə saplanan xəyanət xəncərləri onu göz açmağa qoymurdu, elə hey xəbər gəlirdi ki, filan vilayətin xanı baş qaldırıb, şah olmaq iddiasına düşüb. Öz-özlüyümdə Hacı Çələbi xanın əməllərinə haqq qazandırmırdım, Məlik Nəcəfə qarşı elədiklərində haqlıydı, amma qalaya çəkilib Şahımıza dirsək göstərmək müdriklik əlaməti deyildi, Şəki mahalı təzədən dağlıların, gürcülərin, hətta rusların qapazı altına düşə bilərdi.

527. Az qala, iki illik sərgərdanlıqdan sonra camaat öz yurduna-ocağına qayıtdı. Amma talanmış yurdlar, yandırılmış evlər, əkilməmiş torpaqlar, becərilməmiş bağlar ürəkləri göynədirdi, bahalıq, qıtlıq, səfalət hamıya qan ağladırdı. Kərbəlayı Mahmud deyirdi, az qala, şəhərin yarısı yanıb, camaat meşələrdən, çöllərdən tapdıqları yeməli ot-əncərlə birtəhər sağ qalmağa, əkib-səpməyə çalışır; deyirdi, Hacı Çələbi xan var-yoxunu ortaya qoyub, ətraf vilayətlərə dəstələr göndərib ki, un, dən, yavanlıq, mal-heyvan, at, qatır alsınlar, Məlik Cəfəri də məcbur eləyib ki, bu halda vergilərin alınmaması üçün Şahımıza xahişnamə göndərsin. Kərbəlayı Mahmud əlaqələri sayəsində ordan-burdan yeməli nəsə tapır, məni ac qoymurdu. Əslində, o qədər yemək ehtiyacım yox idi, bir parça çörək, bir tikə pendir, yaxud, arpa ununun horrası aclığımı söndürməyə bəs eləyirdi. Dünyanın hər üzünü görmüşdüm, kasıb süfrəsindən şah süfrəsinəcən cürbəcür süfrələrdə əyləşmişdim, həmişə yemək məndən ötrü yalnız salamat qalmaq vasitəsi olmuşdu, indisə heç anlamı yox idi. Fikrim-zikrim bu dünyayla haqq-hesabımı üzməmiş bir savadlı, dərrakəli, insaflı Allah bəndəsi tapıb, yaddaşımdakıları kağıza köçürməkdi. Kərbəlayı Mahmud deyirdi, bir az səbir elə, qoy camaat özünə gəlsin, ara sakitləşsin, bir kəs tapıb Şirvana göndərərəm, Mirzə Nişatı tapıb gətirər, onun savadını, mərifətini çox tərifləyirlər; sonra Kərbəlayı Mahmud yaddaşından onun bir qəzəlini söyləmişdi, görmüşdüm ki, bunu yazan kəs, doğrudan da, irfan əhlinə oxşayır, ona görə də, arxayınlaşıb əmin-amanlıq olmasını gözləməyə başlamışdım. Günlər bir-birinin ardınca ötür, öz içimin öləzimәkdə olan işığına qısılıb qulağım səsdə, könlüm intizarda gözləyirdim. Artıq karvansarada yolçular da əylənməyə

başlamışdılar, Tiflisdən Bakıya, Bərdəyə, Ərdəbilə, Təbrizə, Qəzvinə, hətta İsfahana və Məşhədə gedənlər bir gecəliyə də olsa, qalır, yollarına davam eləyirdilər. Hələ üzübəri gələn yox idi, amma hələ də ümidimi itirməyib Mirzə Kəmaləddindən, Mirzə Hüseyndən, Məhəmməd Kazımdan (*Mirzə Mehdi artıq uzaqdaydı*) nagahan xəbərlər gözləyirdim.

528. Hər halda, dünyada möcüzələr baş verir. Camaat «Gələrsən-görərsən» qalasından enən ilin payızında Təbrizdən Tiflisə gedən bir çapar mənə iki namə gətirdi. Namələrin biri Mirzə Hüseyndən, o biri Mirzə Kəmaləddindəndi, görünür, vəfalı Qütbəddinin qeyrəti sayəsində gəlib çatmışdı, bunu çaparın söylədiklərindən anladım. Çapar özü oxumaq bilmirdi, Kərbəlayı Mahmud da münasib adam tapanacan üç gün keçdi, o üç gündə də onsuz da çoxdan perik düşmüş yuxum lap ərşə çəkildi. Axır ki, bir gecə Hacı Çələbi xanın dəftərdarını gətirdi. Dəftərdar şam işığında əvvəlcə Mirzə Kəmaləddinin naməsini oxudu. Yazırdı, bu ölüm-itim dünyasında naməsinin mənə çatıb-çatmayacağını bilmir, amma Allahın mərhəmətinə sığınıb arzusunun çin olacağına inanır; yazırdı, vəfalı Qütbəddinin söylədiklərindən qəlbi dağ-dağ olub, amma taleyin, qismətin qaçılmaz olduğunu da başa düşür; yazırdı, görüşmədiyimiz illər ərzində məmləkətdə olub-keçənlərdən yəqin ki, xəbərim var, bu səbəbdən olub-keçənlərə toxunmur; yazırdı, Qütbəddini sənin oğlun kimi qəbul elədim, bir həftə də qonağım oldu, o bir həftədə sənin iyini ondan aldım; yazırdı, oğlanın mərifətini, qanacağını, tərbiyəsini çox bəyəndim, az qala, doğmalaşdıq, sonra onu Təbrizə yola saldım; yazırdı, qismət beləymiş, altı ay keçəndən Qütbəddinin uzaq bir qohumu qapımı döydü, Allahın rizası, Peyğəmbərimizin şəriətilə qızım Sonaxanımı Qütbəddinə istədi, mən də çıxan qismətə qarşı getməyib razılığımı verdim, elə o payız da gözümün nurunu Təbrizə gəlin köçürdük – bu da sənin mənə qardaş bəxşişin oldu; yazırdı, məndən ötrü çox darıxır, bəlkə gələn karvanların birinə qoşulub Ərdəbilə qayıdım, ömrümün qalan günlərini də onun yanında başa vurum; yazırdı, Təbrizdən ötrü çox qəribsəyib, axır vaxtlar hətta, ata-baba yurduna qayıdıb ömrünü orda başa vurmaq barədə fikirləşir. Könül dostumun bu iltifatından çox təsirləndim, dünyanın zülməti enmiş gözlərim dönə-dönə dolub-

boşaldı. Əlbəttə, Ərdəbilə, lap elə Təbrizə qayıtmaqdan söhbət belə gedə bilməzdi, qismətimdə Tiflisi bir daha görmək yoxdusa, elə yurduma yaxın bir yerdə – Şəkidəcə dünyayla vidalaşmaq daha məntiqli olardı. Ağır günahların sahibi olmamışdım, yəqin, məni Haqq evinə yola salmaq üçün bir-iki mərhəmətli Allah bəndəsi tapılar, qəbrim üçün bir parça torpağı da əsirgəməzdilər.

529. Mirzə Hüseynin naməsisə daha çox məmləkətdə olub-keçənlər barədəydi. Əvvəl yazırdı ki, Məhəmməd Kazımla Pərixan xatunun ulduzları barışıb, Şahımızın kefinin kök vaxtında Mirzə Mehdi məsələni açıb, Qibleyi-Aləm də bu izdivaca xeyir-dua verib, sonra Məhəmməd Kazım Behbud xanın qoşunuyla Türküstan səfərinə çıxıb; yazırdı, Şahımız Yegen Mehmet Paşanı sınıq salandan sonra Xorasana gedəndə yolüstü Təbrizdə və Marağada qalıb dincəldi, ətraf vilayətlərin hakimlərini hüzuruna çağırıb haqq-hesab istədi, ardınca Həmədandan və Fərəhandan keçib İsfahana getdi, orda da hakimləri divana çəkdi, nəhayət, Məşhədə yollanıb dövlət işlərilə məşğul oldu; yazırdı, Şahımız Xorasanın vəziri Mirzə Məhəmmədəli İsfahanini, bir də öz adamı Baba Kərimini yüz nəfər fırıldaqçıyla edam elətdirdi ki, bir də kimsə xəzinəyə əl uzatmasın; yazırdı, Şahımız Novruzu Məşhəddə keçirdi, sərdarlara, sərəskərlərə, minbaşılara, yüzbaşılara on iki min dəst xələt, on iki min tümən əşrəfi payladı, sonra Kelat, Əbivərd, Dərəggəzdə olub İraqa yola düşdü ki, Məhəmmədəli xan Qırxlunun özbaşınalığına son qoysun; yazırdı ki, Şahımız Məhəmmədəli xanın dəstəsini dağıdıb, özünüsə tutub gözlərini çıxarandan sonra Sistanda Fətəli xan Sistaninin baş qaldırmasından xəbər tutdu, bu səbəbdən Osmanlılarla barışığa gedib yönünü Sistana doğru çevirdi, Məhəmmədrza xan Qırxlunun əlilə Fətəli xanı tutdurub dünya işığına həsrət qoydu; yazırdı, sistanlılar bununla təslim olmadılar, Şahımız da Xacə dağındakı qalanı tutmağa bu dəfə Əliqulu xanı göndərdi; yazırdı ki, Şahımız hətta doğmalarının üzərinə belə, ağlagəlməz məbləğdə vergi qoyub, İbrahim xanın bütün əmlakını müsadirə elədi, üstəlik, Əliqulu xanın Sistanda bir nəticəyə nail olmaması Şahımızda qardaşı oğluna qarşı şübhə oyandırdı, İbrahim xanın başına gələnləri eşidən Əliqulu xan da daha Şahımıza iradət eləməmək fikrinə düşdü, bu tərəfdən də təzədən Sistana göndərilən Məhəmmədrza

xan Qırxlu itaətdən boyun qaçırdı; yazırdı, Şahımız Əliqulu xanın üzərinə yüz min tümən vergi qoydu, həm də Əfqanıstan və Hindistan Hakimi Təhmasib xan Cəlayiri Əliqulu xanın yanına göndərdi ki, onu itaətsizlik fikrindən daşındırsın, yola gəlməsə, boynunu vursun. Mirzə Hüseynin yazdığı bu sözləri eşidəndə tüküm yenə ürpəşdi: bu qədər kənar düşmənləri olduğu bir vaxtda Şahımızın doğmaca qardaşı oğlunu özünə qarşı qaldrması yeni faciədən xəbər verirdi;

530. Mirzə Hüseyn özü barədə ancaq sağ-salamat olduğunu yazmışdı, görünür, həyatında xüsusi bir dəyişiklik yoxdu, günləri yenə buyrultular yazmaqla keçir. Amma onun Şahımız barədə yazdıqları tüklərimi ürpətdi, hiss elədim ki, Əfşarlar xanədanını quran kəs qurdlar əhatəsinə düşmüş aslan kimi çarpışır, məmləkətin bütövlüyünü saxlamaq, özünü qorumaq üçün bütün yollara əl atır. Şahımız ta yeniyetməliyindən, türkmənlərin əsirliyindən qaçıb qurtarandan sonra dəfələrlə ölümlə üz-üzə gəlmişdi, amma, elə bil, Allah onu saxlayır, ağlasığmaz təhlükələrdən çıxarır, məğlubiyyətlərdən sındırmır, qələbələrə, taxt-taca doğru aparırdı. Bəs onun bu qədər satqınlıqlar, xəyanətlər, itaətsizliklərlə üzləşməsinin səbəbi nəydi? Təkcə hökmündən çıxanlara qarşı amansızlığıydımı? Əlbəttə yox, buna inanmırdım. Axı, doğmaca qardaşı oğlunun itaətsizlik yolu tutması nədən qaynaqlanırdı? Cavanca yaşında öz övladlarından ayırmamışdı, o boyda hökm yiyəsi eləyib, ixtiyarına qoşun vermişdi. Şübhəsiz, iştah diş altındadı. Xorasan boyda vilayətdə hökm-fərma olan Əliqulu xan daha irəli gedib taxt-taca göz tikəcəkdi. Bəs Məhəmmədəli xan Qırxlu, bəs Fətəli xan Sistani, Tağı xan Şirazi, neçə-neçə belələri Şahımızın sayəsində məqama çatmamışdılarmı? Mirzə Hüseynin naməsindən, azı, altı ay sonra könül dostunun şübhəsi, üstəlik, əlli min tümən vergisilə üzləşən Təhmasib xan Cəlayirin Əliqulu xanla birləşdiyi, Şahımızın onu da edam eləmək üçün fərman verdiyi barədə şayiələr yayıldı. Karvansarada əylənən yolçulardan Kərbəlayı Mahmudun öyrənib mənə çatdırdığına görə, Şahımızın qardaşı oğlunu itaətlə gətirmək cəhdləri boşa çıxıb, cəmi Xorasanın Əliqulu xanın tərəfinə keçdiyini, həlqənin get-gedə daraldığını hiss eləyən Şahımız törəmələrinin hamısını Kəlata göndərib, sonra əvvəl Xəbuşan kürdlərini, sonra da nankor qar-

daşı oğlunu itaətə gətirmək üçün yola çıxıb. Yazırdı, Şahımız Kelat qalasının girişindəki iri qaya üzərində öz doğma türkcəsində Gülbun Əfşarın bir şerini yazdırıb, *Şəh-i cəm hişmət-i Dara dərayət, Nadir-i dövran, /Ki təxt-i dövlət-i Cəmşid'ə varisdir cahan üzrə...* beytilə başlayan şeir onun talenaməsinə oxşayır...

531. Hicri 1160-cı, miladi 1747-ci ilin yayını ölüm duyğusu içində keçirdim, qəlbim qan ağlaya-ağlaya gözlədiyim xəbərsə o ilin ilk payız günlərinin birində yetişdi. Hardansa Hacı Çələbi xanın yanına çapar gəlib Şahımızın öldürülməsi barədə xəbər gətirmişdi, şəhərdə bir şadyanalıq başlamışdı ki, gəl görəsən. Bir neçə dəfə top atıldı, tüfəng səsləri gəldi, bağırtı-çığırtı karvansara həyətində də eşidildi; dedilər, onsuz da Novruz günlərindən Məlik Cəfəri qovub özünü mahalın hakimi elan eləmiş Hacı Çələbi xan artıq Şəki xanıdı, bundan sonra Əcəm şahlarına tabe olmayacaq. Şahımızın qətlinin təfərrüatınısa bir ay sonra Təbrizdən gələn bir dərvişdən eşitdik. Söylədiyinə görə, Şahımız Fərəhabadda düşərgə salanda yuxusunda neçə illər əvvəl gördüyü vaqeəni bir də görüb, bu dəfə bir nurani qoca onu on iki şəxsin hüzuruna aparıb, belinə qılınc bağlayan pirani deyib, qılıncı bu qabiliyyətsizin belindən açın, Şahımız nə qədər çalışsa da qılıncı açırlar; deyirdi, Şah çox narahatmış, amma onu sakitləşdiriblər ki, kimsə Allahın kölgəsinə əl qaldıra bilməz, amma hökmdar təhlükənin lap yaxında olduğunu duyurmuş, daha çox da öz həmtayfası, keşikçilər dəstəsinin başçısı Məhəmmədqulu xan Əfşardan şübhələnirmiş, sən demə, o da Musa bəy Əfşar, Qoca bəy Qoyunlu, Məhəmməd xan Qacar Rəvani, Saleh xan Qırxluyla dil tapıbmış, bu fikrə düşənlərin sayı yetmiş nəfərə yaxınmış; Şahımız Cuki xanımın yanında olan gecə çadırına soxulublar, hökmdar onları görəndə duyuq düşüb dəli nərə çəkib, toppuzunu axtarmağa başlayıb, amma Məhəmmədqulu xanla Saleh xan özlərinə gəlib ona hücum eləyiblər, Saleh xan ayağı çadırın kəndirinə ilişib yıxılan Şahımızın bir qolunu kəsib, Məhəmməd xan Qacarsa hökmdarın başını bədənindən ayırıb; deyirdi, Şahın başını Heratda xəbər gözləyən Əliqulu xana göndəriblər; deyirdi, bütün bunlar baş verəndə Şahın xəbərçisi Mailin oğlu Lazar Məlik Apoyla özlərini Kelatdakı xəzinəyə çatdırıblar, hərəsi bir

neçə almaz, o cümlədən, «Dərya-i-nur»u götürüblər, indi Əliqulu xanın adamları Üçmüəzzinə sarı qaçan oğruları axtarır.

532. Bitdi, hər şey bitdi, elə mənim ömrüm də bitdi, bundan sonrası quru qəfəsdi, nə canım var, nə də ruhum. Şahımızın qətlindən keçən bir ay ərzində Məşhəddə Adil şah adıyla taxta çıxan, Kelat qalasını tutub Mərvə qaçmaq istəyən Nəsrulla Mirzə, İmanqulu Mirzə, dünya işığına həsrət olan Rzaqulu Mirzə qarışıq on yeddi törəməsini – doğma əmizadələrini qətlə yetirməsi insanın tükünü ürpədən məşum vaqiəydi. Bundan sonra hər şey köhnə qaydayla getdi: Adil şah onu taxta çıxaran Məmmədqulu xanı Şahımızın hərəmlərinə qətl etdirdi, sonra İsfahan hakimi olan qardaşı İbrahim xanın taxt-taca göz dikdiyindən şübhələnib onu aradan götürmək fikrinə düşdü, amma İbrahim xan Əmiraslan xanla birləşib onu yendi, gözlərinisə çıxartdırdı. Ardınca İbrahim Şahla Azərbaycan bəylərbəyi olan Əmiraslan xan arasında çəkişmə baş verdi, Şahrux Mirzə bundan istifadə eləyib İbrahim Şahı taxtdan saldı, Təbriz hakimi olan Məhəmməd xan Əfşar öldürüldü, Təbriz Nadir şahın Urmiyaya xan qoyduğu qayını Fətəli xan Qacarın əlinə keçdi, ardınca Şahrux Şah taxtdan salınıb kor edildi, sonra təzədən taxta çıxarıldı. O hadisələrdən uzaqda Şəkidəki karvansara hücrəsində oturub tacirlərin, səyyahların, dərvişlərin gətirdikləri bu xəbərləri qəlbim parçalana-parçalana qulaq asırdım. Bir vaxtlar Böyük Şah İsmayılın qurduğu Birinci Şah Təhmasibin yaşatdığı, Birinci Şah Abbasın qüdrətləndirdiyi, Nadir Şahın dağılmaqdan xilas elədiyi Əcəm məmləkəti bölünürdü, tikə-tikə olurdu. Vilayətlər, bəylərbəyliklər, əyalətlər o çəkişmələri fürsət bilib özlərini xanlıq elan eləyirdilər. Əgər yaddaşımdakıları kağıza köçürməyə borclu olmasaydım, Allaha ağır getsə də, özümü elə bu karvansara hücrəsindəcə həlak eləyib içimi gəmirən əzablardan qurtulardım. Tiflisdən Parisə, Parisdən Veneziaya, Veneziadan İstanbula, İstanbuldan İsfahana, İsfahandan yenə İstanbula, İstanbuldan Konyaya, Konyadan Rəvana, Rəvandan Muğana, Muğandan Təbrizə, Təbrizdən üzü quzeyə *(həm də düz üç kərə uğursuz)* səfərlərimi özümlə axirət evinə necə apara bilərdim? Ömrümün axarını dəyişən faciəni, uzan məmləkətlərdə gördüyüm yerləri, rastlaşdığım adamları, gizli həm də nakam eşqimi, yasaq istəklərimi, yaşadığım sa-

rayları, çəkdiyim dərdləri kağıza köçürmək istərdim. Axır ki, İkinci İbrahim xan Əfşar özünü Təbrizdə şah eləyən ilin bir yaz günündə Kərbəlayı Mahmud dedi, Ağsuya adam göndərmişəm ki, Nişat Şirvaniylə danışıb gətirsin. O gündən içim işıqla doldu, gözlərim yaddaşımdakı yola dikildi, qulaqlarımsa bir şad xəbərin sorağını gözlədi.

Allahım özün kömək ol!

# MİRZƏ NİŞAT ŞİRVANİNİN SÖYLƏNƏNLƏRƏ ƏLAVƏSİ



# I

# EŞQ ODUNUN RÜSVAY ELƏDİYİ ADAM

*Hər təbibə söylədim dərdim, dəvasın görmədim,*
*Möhnətü-dərdü-qəmin heç intəhasın görmədim.*

Dərsxanadan təzəcə qayıtmışdım, çay-çörəkdən sonra çırağın işığını artırıb qələmdaşım Ağa Məsih Şirvaninin göndərdiyi «Əhvali-Şirvan» mənzuməsini bəlkə də yüzüncü kərə oxuyurdum. «Dərsxana» deyəndə ki, bir neçə yüz addım o tərəfdə elə mənim qamış komam kimi bir komaydı, beş-altı fağır Allah bəndəsinin elm öyrənmək istəyən tifilini başıma yığıb kasıbçılığımı eləyirdim: o tifillərin gündə biri yavanlıq gətirirdi, yavanlıq da pendirdən, şordan, hərdənbir süddən, ya da şorbadan ibarət idi, bayram günlərində qismətimə ət xörəyi, bir ovuc noğul da düşürdü. Şamaxıdan öz əlimlə tikdiyim evi yıxıb, qohum-qardaşdan, dost-tanışdan, yar-yoldaşdan üz çevirib yayı məşəqqət, qışı müsibət olan Salyana qaçanda bu güzəranımı gözümün altına almışdım: daha geri dönə bilməzdim.

Düzdü, bir dəfə – Şah Hüseyn taxtdan əl çəkən il həsrətə dözə bilməyib getdim, ümidvardım ki, aradan keçən yeddi sənə ərzində hər şey unudulmuş olacaq, mən də üstümə yağan, günümü göy əskiyə düyən tənələrdən canımı qurtarıb evimi təzədən tikəcəyəm, mədrəsədə dərs deyib, birtəhər həyatımı qurmağa çalışacağam, amma kimsə üzümə baxıb rəhm göstərmədi. Günlərlə küçələrdə, hasarların, ot tayalarının dibində gecələdim, rastıma çıxan otəncərdən, meyvədən yedim, bir insaf yiyəsi qolumdan tutmağa, bir tikə çörək verməyə, gecələmək təklif eləməyə həvəs göstərmədi, mən də əhli Şamaxıdan birdəfəlik üz döndərib yenə Salyana qayıtdım.

Sonra Nadir xan gəldi, Şamaxını yandırıb kül elədi, camaatını da Ağsuya köçürdü. Bir az vicdan və abır hissini itirmiş olsaydım, gördüyüm nahaq tənələrə görə buna sevinməliydim, amma ürəyimdən qara qanlar axdı, çünki Şamaxı məndən ötrü təkcə fitva qorxusu çəkən o bir yığın adam deyildi, doğulub-böyüdüyüm Sarıtorpaq məhəlləsi, könlümə doğma adamlar, məscidlər, karvan-

saralar, bazarlar, əşarını eşidə-eşidə öyrəndiyim söz xiridarlarıydı. İndi də yeganə arzum nəşimin Şah Xəndan qəbiristanlığının bir küncündə torpağa verilməsidi, başqa yerdə ruhum od tutub yanacaq, məhşər gününəcən sakitlik tapmayacaq.

Mən binəvanın günahı nəydi: Allah bəxtimi qara yazıb bir gəlinə vurulmuşdum. Yeddi il mollaxanada oxuyandan, pay-piyada Ərdəbilə gedib on il mədrəsədə təhsil görəndən sonra Şamaxıya qayıdıb dərs demək, artıq gizli-gizli yazdığım əşarımı üzə çıxarmaq, Şamaxı məclislərinə getmək istəyindəydim, amma elə birinci il də baltanı daşa vurdum: bilmirəm şeytan qəlbimə hardan girdi, o qədər həddi-büluğa çatmış gözəl-göyçək qızlar dura-dura Allahdan xəbəri olmayan bir gəlinə vuruldum.

O zalım qızı iki il idi ərə getmişdi, əri Gəncədən xırım-xırda şeylər gətirib satırdı, yaxşı da malı-mülkü vardı. Mənsə gəncdim, iyirmi altı yaşım vardı, savadlıydım, şeir yazırdım, elə bilirdim, bütün bunlar məni cəmi Şamaxı əhlindən fərqləndirir. Mədrəsə aşağı məhəllədə yerləşirdi, mən də ora getmək üçün yolumu o xırdavatçının evinin yanından salırdım. Bir belə, beş belə, axırda gəlin bu daimi gediş-gəlişi sezib pərdə arxasından mənə göz qoymağa başlayıbmış. Düzdü, Ərdəbildə ötəri hiss yaşamışdım, amma o duyğu pərvazlanmağa imkan tapmamışdı, indisə məni gətirib ərli gəlinə rast eləmişdi.

Gəlini birinci kərə ayna arxasından görmüşdüm, ondördgecəlik Aya oxşayırdı, ərdə olduğunu öyrənəndə elə bil, başıma daş düşdü, amma geri dönəmmədim, daha doğrusu, gəlin ərinin tez-tez uzun səfərə çıxmasındandı ki, mənə cazibə qapısını açdı. Aynada onun ağ kəlağayı altında qara zülfünü, tər buxağını, sinəsini, əndamını xəyalıma gətirir, qızdırmalı kimi titrəyirdim. Elə o vaxtlar da yazmışdım: *Tazədən düşdü yenə başıma sevda, sevda, /Eşq odu qıldı məni, aləmə rüsva, rüsva.* Əgər o vaxt mənim diqqətimi qəbul eləməyib cazibəsini əsirgəsəydi, ayılar, geri çəkilər, ən azı, sevgimi içimdə boğardım. Amma yox, elə bil qəsdimə durmuşdu, baxışlarımdan tutub məni gedər-gəlməz aparırdı, mən də gerçəklik duyğusunu itirib kor-koranə qara sevdamın ardınca gedirdim.

O vaxt Sarıtorpaqda ikigözlü ev tikdirirdim, bir az baqqallıqla məndən sonrakı dörd uşağını saxlayan atam kömək eləmişdi, bir az da mədrəsədən aldığım məvaciblə birtəhər evi qaraldıb köçməyə hazırlaşırdım. Baş yoldaşı barədə ailəmizdə ciddi götür-qoy eləyirdilər, hələ gözaltılar da vardı. Belə vaxtda gərək ayağımı

o küçədən kəsəydim, ayna arxasındakı cazibəyə, şeytani təbəssümə, əlinin salamlayan kimi, güclə sezilən hərəkətinə uymayaydım, amma uydum, üstəlik də, ona bir qəzəl ərməğan elədim: *Sağın, ey qönçədəhan, gül kimi xəndan gəzmə, /Dağıdıb zülfi pərişan, pərişan gəzmə.*

Qəzəl yazılmış kağızı həyəcandan titrəyə-titrəyə, amma qorxu hissini tamam unudub hasarın üstündən həyətə atdım, ürəyimdə çırpıntı, fikrimdə ümid mədrəsəyə getdim. Amma heç günorta olmamışdı, bir mərəkə qopdu ki, səsi asimana bülənd oldu: gəlinin xırdavatçı əri evdəymiş, hasardan həyətə nəsə düşdüyünü görüb, əvvəl fikir verməyib, gəlin də götürməyə macal tapmayıb, sonra baqqal o düşən şeylə maraqlanıb, içindən kağız çıxanda əvvəl dua hesab eləyib, mollanın yanına aparıb, amma molla deyib qəzəldi, sevgiyə yazılıb, altında da «sənin eşqindən rahatlığını itirmiş zavallı Nişat» imzası var.

Xırdavatçı dərhal kim olduğumu başa düşüb evimizə cumur, orda məni tapmayıb yanındakı baş-altı adamla mədrəsəyə hücum çəkir. Özümə gəlməyə macal tapmamış dartıb hücrəmdən çıxardılar, xub deyincə döydülər. Bir-iki insaflı adam çıxmasaydı, yəqin öldürəcəkdilər. Evimə yarımeyit gətirib çıxardılar.

Deyərlər, *ölüsü olan bir gün ağlayar, dəlisi olan hər gün.* Əlbəttə, heç bir bəhanə kömək eləyə bilməzdi, hərəkətimin, daha doğrusu, əlacsız eşqim yolunda atdığım addımın bağışlanmasını uma bilməzdim, üstəlik də xırdavatçı məni döyməklə işini bitmiş hesab eləmirdi, ya öldürməliydi, ya da bu şəhərdən çıxıb getməliydim. Duyğumun cismani yox, ruhani olduğunu kimə sübut eləyəydim, üstəlik, qəzəli həyətə atdığımı görən pisniyyətli qonşunun cəngindən necə qurtaraydım. Xırdavatçı hər axşam qapımza gəlirdi, atam yalvarıb-yaxarır, çıxıb gedəcəyimi, hələ özünün də bu məhəllədən köçəcəyini söyləyirdi.

Sonralar yazdığım kimi: *Gər misli-hübab özgə həva başıma düşdü, /Bir dəmdə evim tikdim və yıxdım, yola düşdüm.* Ayağa qalxmağa tavanım olanda gecəynən o əlimlə tikdiyim evimi yıxıb heybəmdəki bir neçə kitabım, yazı dəstim, ağlamaqdan üzülmüş anamın qoyduğu bir az yavanlıq, iki dəst dəyişəcəklə yola düşdüm. Atam aşağı yolacan ötürdü, boynuma sarılıb zülüm-zülüm ağladı, məni Allaha tapşırıb geri döndü: o da evimizi satıb aşağı məhəlləyə köçmək məcburiyyətindəydi.

Hələ özümə gələ bilməmişdim: olsa-olsa cavanlıq duyğusundan doğan xətanın namus məsələsinəcən qalxacağı, hətta mədrəsədəki mollaların belə çıxıb getməli olduğum barədə fitva verəcəyi

xəyalıma gəlməzdi. Mənə ağır gələn o idi ki, kimsə qalxıb nəfimə bir söz demədi, bunu bağışlanası xəta sayıb şairliyimlə bağlamadı, içində az-çox insaf olanlar susub heç məni tanıdıqlarını büruzə vermədilər. Könül dostlarım Rəşidlə Raci gizlicə namə göndərib, təəssüflərini bildirib, əlacsızlıqlarını ifadə eləmişdilər. Belə halda kimdən inciyə bilərdim, axı?

Üzü güneyə yol gedirdim, rastıma çıxanlar məni səyyah, yaxud Şamaxıdan Bərdəyə, Ərdəbilə, Təbrizə gedən yolçu sayırdılar. Atamın verdiyi, özümün qalan iki tümənimi bir neçə abbası və şahımı ancaq yeməyə xərcləyirdim, erkən payız olub, hələ hava imkan verdiyindən kolların dibində, karvansara tövlələrində, ot tayalarının, talvarların altında gecələyirdim. Qismətimdən yanıb-yaxılırdım, sevda yolunda oxumu daşa elə vurmuşdum ki, bir daha özümə gələcəyimə inanmırdım. İndi taleyimin arxasına düşüb gedirdim, bundan sonra qismətimə nələrin çıxacağını bilmirdim. Hələ ümidvardım ki, beş-üç il qürbətdə yaşayandan sonra Şamaxıya qayıdıb öz həyatımı quraram, keçmişi unudub bəxtimə düşən ömrü yaşayaram, çünki arada ölüm-itim yoxdu, qan tökülməyib, namusa toxunulmayıb, olsa-olsa, xəta baş verib, vəssalam.

Niyə Gəncəyə, Bərdəyə, Ərdəbilə, Təbrizə getmədim, Salyanda yurd saldım? Bəlkə elə həmişə qayıtmaq ümidilə yaşamağım yönümü Salyana saldı, fikirləşdim, ordan Şamaxıya qayıtmağım asan olar. İllərlə yayın qovuran istisinə, mığmığasına, qışın quru soyuğuna dözdüm, çaya yaxın yerdə qamışdan koma tikib kötüyün üstündə şeirlərimi yazdım, beş-üç insaf əhli balasını oxutmaq fikrinə düşəndəsə, köməkləşib o biri, bir qədər iri komanı tikdik, mənim komama üçüncü adam girəndə tərpənmək çətinləşirdi – isti olsun deyə, balaca tikmişdim.

Tifillərə təkcə ərəbcə yazıb-oxumağı yox, həm də hesabı, təbiət elmlərindən də bildiklərimi öyrədirdim. Axıracan dözəni də olurdu, yarımçıq çıxıb gedən də tapılırdı, dörd sənəyə nəzərdə tutduğumu tez mənimsəyənlərə xeyir-dua verib Bərdədə, yaxud Gəncədə mədrəsəyə davam eləmələri barədə tövsiyə verirdim. Şamaxıya getmələrini istəmirdim, ona görə yox ki, doğma yurduma nifrətim vardı, sadəcə, başıma gələnləri kimsənin öyrənib Salyana yaymasını istəmirdim.

Şəhər əhlindən də qaçırdım, ünsiyyətdə olduğum şagirdlərimin ikisinin atası, bir də salçı Səmid idi. Müştərisi olmayanda Səmid

gəlib şeriyyətdən danışmağı, mənə şeir oxutmağı çox sevirdi, hər gələndə bir-iki balıq gətirirdi, hələ şorba bişirməyi də öyrətmişdi. Aləmdə baş verənləri ondan öyrənirdim. Şamaxının köçürülməsini də, Nadir xanın Muğanda özünü şah elan eləməsini də, baş verən qiyamları da, Sam Mirzənin peyda olmasını da… ondan öyrəndim.

Vaqiənin yeddinci ilində Şamaxıda sınıb qayıdandan sonra təkcə hərdənbir Ağa Məsihdən və Zülalidən namə, daha doğrusu, mənzumələr alırdım, göndərdiklərini salçı Səmidə verirdilər, o da balıq qoxusu hopan naməni elə həmin gün mənə çatdırırdı. Ötən ay Ağa Məsih Şakir Şirvaninin «Əhvali-Şirvan» mənzuməsini göndərmişdi, mən də dönə-dönə oxuyurdum, yurdumun-ocağımın başına gələnlərdən ürəyim parçalanırdı. Şamaxı köçürüləndən sonra doğmalarımın izini də itirmişdim, Zülali yazırdı Ağsuda yoxdular, başqa harda axtaracağımısa bilmirdim.

Xülasə, mənzuməni oxuduğum vaxt komanın qapısı döyüldü, durub açdım ki, buralar adamına oxşamayan bir kəs atının cilovundan tutub dayanıb. Məni görəndə sifəti dəyişdi, hiss elədim ki, ya səhv gəldiyini, ya da axtardığı adamın mən olmadığımı düşünür. Dedi, qonaq istəmirsənmi, cavab verdim, qonaq kasıb komama girmək istəyirsə, şad olaram. Soruşdu, şamaxılı Mirzə Nişat sənsənmi, dedim, mirzə də deyirlər, molla da, amma elə həmin adamam. Əvvəl ağlıma gəldi ki, Ağa Məsihin, ya Zülalinin göndərdiyi adamdı, salçı Səmidi tapa bilməyib, naməni özümə gətirib, amma danışığından Şəki tərəflərin adamına oxşayırdı, bundan sümüyüm bir balaca sancdı.

Qonaq komama girdi, güzəranımı görüb açıq-aşkar qəmləndi, tökülmüş pal-paltarıma, mitil yorğan-döşəyimə, kötüyün üstündəki yazı dəstimə baxıb pərişan oldu. hələ bir şey soruşmadım, çöl otlarından qaynatdığım ətirli suyu bir tikə şəkərlə içəndən sonra dedi, yola çıxmalıdı, vaxtı yoxdu, ona görə də mətləbə keçdi: onu şəkili Kərbəlayı Mahmud göndərib, karvansarasında aləmin yarısını gəzmiş, saraylarda yaşamış bir səyyah var, indi dünya işığından məhrum olub, yaxşı haqq müqabilində söylədiklərini kağıza köçürəcək bir mirzə axtarır; Kərbəlayı Mahmud gələn adamı Ağa Məsihin yanına göndəribmiş, o da məni nişan verib, bu işi boynuma götürməyə hazırammı?

Bir igidin ömrü qədər uzun çəkən fərəhsiz, boz, miskin həyatımda bu qızıl balığın bəxşişinə oxşayırdı. Razı olsan, gələn adam dedi, burdan bir dəst paltar, bir at alacağıq, işin bitənəcən

bütün xərclərin Mirzə Yusif Tiflisinin hesabına ödənəcək; həmin adam bunu da əlavə elədi ki, şeirlərindən əlinə keçəni var, bəyənib, şeriyyətinizi da mükəmməl sayır. Bütün bunlar, doğrudan da, nağıla oxşayırdı. Fikirləşdim, yəqin Allah günahımı bağışlayıb, qapısını bir az aralayıb, o qapını örtmək ağılsızlıq əlaməti olardı, onsuz da itirməli bir şeyim yox idi, getsəydim, həyatımda nəsə dəyişərdi.

Gələn adam – demişdi, məni Şəkidə Göynüklü Xanoğlan kimi tanıyırlar – məndən cavab gözləyirdi, xeyli susduğumu görüb narahat olmağa başladı. Qəfildən içimdə nəsə çaxdı, ayağa sıçrayıb, dedim, gedirəm, amma izin ver, bir-iki nəfərə deyiləsi sözümü çatdırıb elə yola düşək. Etiraz eləmədi, mən də komadan çıxdım, çay səmtində oynayan uşaqlardan birini salçı Səmidin, o birini şagirdlərimin birinin atasının dalınca göndərdim, gözlədiklərim gəlib çıxanacan da neçə illər qabaq Şamaxıdan gətirdiyim heybəyə kitablarımı, yazı dəstimi, olub-qalan yavanlığımı qoydum.

Əvvəl şagirdlərimdən birinin atası gəldi, dedim, bu vaxtacan tikənizi mənimlə böldüyünüzə görə sağ olun, mən gedəsi oldum, qismət olsa, bir neçə aydan sonra qayıdıb dərsimə davam elərəm, olmasa, haqqınızı halal eləyin; ardınca Səmid özünü yetirdi, başıma gələni ona da çatdırdım, gedişimə çox pərişan oldu, amma xeyirli səfər olduğuna da sevindi. Elə komaları da onlara tapşırıb halal-hümmət elədim.

Gələn adam əvvəlcə məni hamama apardı, kir-pasağımı tökənəcən bir dəst paltar alıb gətirdi, sonra axtarıb at aldıq, bu müddətdə hava qaraldığından elə bazarın yaxınlığındakı karvansaradaca gecələyib səhər obaşdan yola çıxmağı razılaşdırdıq. O gecəni ilan vuran yatdı, mən yatmadım, karvansara hücrəsindəki dünyanın yarısını dolaşmış adam yuxuma girdi, məndən yardım istədi, mən də cavab verməmiş qan-tər içində oyandım, beynimdən keçdi ki, bu da Allahın işidi ki, birinin cismən korluğu, o birinin mənən korluqdan qurtulmasında vasitəçi rolu oynayır. O qamış komada get-gedə içimin işığı azalırdı, bir vaxt ora zülmət çökəcəyindən qorxurdum. Taleyin gətirib, Şəki karvansarasındakı hücrəsinə məhkum elədiyi o şəxs Simurq quşu kimi məni qurtarır, könlümə elə bil təzədən işıq dolmağa başlayırdı.

Şübhəsiz, o şəxs də ömrünün Şəkidə başa çatacağını düşünməmişdi, elə mən özüm də həyatımın harada qırılacağını bilmirəm – bu tale məsələsidi…

II

# KARVANSARA HƏYƏTİNDƏ QƏRİB MƏZAR

*Cahan bağında, ey arif, budur məqbul insi-çin,*
*Nə kimsə səndən incisin, nə sən bir kimsədən incin.*

***Naməlum şairdən***

Hicri 1161-ci, miladi 1748-ci ilin son payız günlərindən birində Şəkinin Aşağı karvansaranın hücrəsində, otuzluq çırağın işığında Mirzə Yusif Tiflisini görüb açılmamış xəzinəyə bənzətdim. Orta boydan bir qədər hündür, arğaz, nurani sifətli, sıx ağ saqqallı kişiydi, durğun gözlərində belə adamda mərhəmət, hörmət doğuran nəsə vardı. Elə bil gələcəyimi bilirmiş, üstəlik, məni nəfəsimdən tanıdı, hücrənin qapısı açılanda səsi uçuna-uçuna «Gəldinmi» dedi, duydum ki, bunu arxamca göndərilmiş göynüklü Xanoğlana yox, mənə söyləyir; iki əlini də irəli uzatmışdı, dərviş təskülahına oxşayan papağından tutmuş ta nəleyinlərinəcən titrəyirdi, görünür, bu da boğa bilmədiyi həyəcanındandı. Məni içəri gətirən cavan Kərim yaxınlaşıb «Gəldi, ağam, – dedi, – axtardığın adam gəlib çıxdı», sonra onun əlini mənim əlimlə qovuşdurdu. Mirzə Yusifin nursuz gözlərində iki damcı yaş göründü, «Şükür mərhəmətinə, Ya Rəbbim, – pıçıldadı, mənə bu işi bitirənəcən möhlət ver».

Bu müddət ərzində ilk dəfə dilləndim, Kərimin təbirincə «Ağam, – dedim, – inşallah, hər şey könlünüz istəyən kimi olar». Kərim Mirzə Yusifi buxarıya yaxın yerdə, mindərin üstündə oturtdu, sonra mənə yer göstərdi, başmaqlarımı çıxarıb Mirzə Yusiflə üzbəüz oturdum. Məndən yolu necə gəldiyimizi soruşdu, "Cəmi-cümlətanı bir kərə yağışa düşdük, – dedim, – qalanı elə də çətin olmadı". Sonra üzünü Kərimə tutdu, "Mirzə Nişata yolu göstər, – dilləndi, – yuyunsun, rahatlansın, bir tikə çörək yeyək, sonra söhbətimizi elərik".

Yemək yeyəndə, demək olar, danışmadıq, sonra Kərim şərbət gətirdi, bu vaxt Kərbəlayı Mahmud da təşrif buyurdu, məlum oldu

ki, əşarımdan məni əməlli-başlı tanıyırlar, hətta *«Gövhəri mə`ni idin, ab ilə rəngin yox idi»* misrasıyla başlayan məsnəvimdən belə xəbərdardılar, bu da, görünür, Ağa Məsihin xidmətiydi. Mirzə Yusif şeriyyətimi bəyəndiyini söylədi, bundan da çox sıxıldım: onun təki aləmin, az qala, yarısını görmüş, böyük söz xiridarlarıyla ünsiyyətdə olmuş bir kəsin mənim yazdıqlarımı tərifləməsi ağlasığmaz xoşbəxtlik idi. O gecə söhbətimiz uzun çəkdi, dünyanın hər üzündən danışdıq, sonra səhər işə başlamaq qərarıyla yatmağa yollandım.

Kərbəlayı Mahmud mənə mümkün qədər rahat hücrə ayırmışdı. İlahi, Şamaxını tərk eləyəndən *(yazmışdım: Şamaxı torpağından ta ki, mən qət olmuşam key tək, /Qəmişdən ev tikib Salyan mülkin tutmuşam məva)* sonra ilk dəfəydi, rahat hücrədə, təmiz yorğan-döşəkdə, buxarının adamı xoşhallandıran istisində yatırdım. Taxçada otuzluq çıraq yanırdı, üstəlik, karvansara sahibi hücrəmə yazı-pozu üçün alçaq miz də qoydurmuşdu. Bütün bunlar, az qala, otuzillik miskin həyatımdan sonra mənə nağıl kimi gəlirdi. Əynimdə təzə, təmiz paltar vardı, əlim pul görəcəkdi *(əgər bir tümən belə verməsəydilər belə, səsimi çıxarmazdım, bu rahatlığın içində bir neçə ay yaşamağın özünü də qənimət sayırdım),* yəqin, bundan sonra Salyana, o qamış komaya qayıtmayacaqdım, elə bu karvansarada qalıb muzdla ərzi-hallar, namələr yazıb, şeirlərin üzünü köçürüb birtəhər yaşayaram, axırı da Allah bilən məsləhətdi.

Mirzə Yusif Ərdəbildə kimdən dərs aldığımı soruşmuşdu, Mirzə Əbdülxalıq Ərdəbilinin adını çəkmişdim, razılıqla başını tərpədib demişdi, "Könül dostum Mirzə Kəmaləddin ondan xoş sözlər söyləyirdi," sonra vaqif olduğum xətləri soruşmuşdu, "Çoxuna bələdəm, – demişdim, – amma nəstəliq və şikəstə məndə daha yaxşı alınır." Qərarlaşdırmışdıq ki, söylədiklərini şikəstə xəttilə yazım. Ömrümdə görmədiyim bahalı yazı dəsti məni Mirzə Yusifin otağındakı balaca mizin üstündə gözləyirdi. Salyandakı qamış komamda Ağa Məsihin göndərdiyi kağızla mürəkkəb bitəndə dəliyə dönürdüm, az qalırdım, ağlıma gələn beytləri, bənzətmələri, təşbehləri həsirin üstünə yazım. Beləcə nə qədər qəzəl, qəsidə, müxəmməs, məsnəvi itirdiyimi söyləmək çətindi. Allahın səxavətindən Mirzə Yusifin kağız-mürəkkəbi tükənməz, izin istəyib öz yaddaşımdakıla-

rı da köçürərəm. İndi şükür duası oxuyub yatmalı, dincəlməli, dünyanın yollarını yormuş ahıl və dünya işığından məhrum səyyahın söylədiklərini kağıza köçürməliyəm.

Görünür, gecəni ikimiz də narahat yatmışdıq, səhər süfrəsindən sonra Mirzə Yusif yaddaşının dərinliklərindən qayıtmaqda xeyli çətinlik çəkdi: əvvəl uzun-uzadı susdu, deyəsən, nədən başlamaqla bağlı xeyli götür-qoy elədi, mən də balaca mizin üstündə kağızı düzəldə-düzəldə gözlədim, axır ki, illərin ağırlığı, yolların yorğunluğu, yaşantılarının yükü altından səsini eşitdim: «Mən Allahın həqir bəndəsi…» Lələk qələmim kağızın üstündə sağdan-sola hərəkətə gəldi, elə həmin an da gerçək aləmdən qopub bir ömrün hekayətinin mövcud olduğu nağılvarı aləmə düşdüm. Mirzə Yusif durğun gözlərini başımın üstündən tavan altındakı kiçik pəncərə, daha doğrusu, pəncərədən düşən solğun payız işığına dikib yaddaşını ərşi-arğac eləməyə, mən də bitən səhifələri elə böyrümdəcə həsirin üstünə yığa-yığa yazmağa başladım.

Söylədikləri o qədər rəvan, duyğulu, riqqət doğurandı ki, tez-tez gözlərimin nəmləndiyini, cismimin gərildiyini hiss eləyir, xəttimə xələl gəlməsin deyə, özümü tarazlamalı olurdum. Mirzə Yusif qələmimin səsindən sövq-təbiilə söylədiklərini yazıb çatdırmağımı gözləyir, sözləri aram-aram deyir, bəzən sükut eləyirdi. Bir oturuma yeddi səhifə yazırdım, hər parçadan əvvəl Mirzə Yusif yaddaşında heyrətamiz dəqiqliklə saxladığı şeir parçaları, hikmətli sözlər, şah beytlər, bəndlər, bayatılar söyləyirdi, hətta bir yerdə mənim əşarımdan da beyt gətirdi. Parçanı bitirəndən sonra yazdığımı oxuyurdum, adətən təshih-filan olmurdu, görünür, uzun illər hər şey iç dünyasında yerbəyer olmuşdu. Günün qalan hissəsini hava yaxşı olanda karvansaranın həyətində, tutqun günlərdə elə hücrədəcə bəzən Kərbəlayı Mahmudla, bəzən ancaq ikimiz olub-keçənlərdən, şeriyyətdən söhbət eləyirdik. Görürdüm, həmsöhbətim bir vaxtlar Osmanlı, rus, Hindistan, Əfqanıstan məmləkətlərilə döş-döşə gələn Əfşarlar dövlətinin dağılmağından çox qüssələnir.

Günlərimiz beləcə keçirdi, bir vaxtlar Nadir Şahın Şəkiyə hakim göndərdiyi şiə Məlik Nəcəfin əməllərindən sünni camaatını qorumaq üçün vəkil seçilib hökmdarın fərmanını almış, sonra Məlik Nəcəfin fitnələrindən qorxmayıb Şahın hüzurunda dəyanət

göstərmiş Əlican oğullarından Kəndxuda Qurbanın törəməsi Çələbi düşmənini külfətilə qətlə yetirəndən, «Gələrsən-görərsən» qalasına çəkilib Şaha dirsək göstərəndən sonra yenə vəkilliyində saxlanmışdı. O vaxt Nadir Şah şəhərin gözəl imarətlərini, böyük dükanlarını yandırtmış, bir neçə para kəndin camaatını da Xorasana sürgün eləmişdi.

Deyirdilər, o vaxt Hacı Çələbi xan oğlu Həsən ağanı Şahın hüzuruna göndərib əsirləri istəmişdi, Şah da demişdi, ey bədzat, neyçün sənin atan mənə qarşı çıxdı, itaət eləmədi? Həsən ağa da deyib, sənə fəda olum, Şahım, mənim o həddim yoxdu ki, sənə cavab verəm, o ixtiyarım da yoxdu ki, atama bir söz deyəm, mən qulluğuna ölməyə gəlmişəm, ya məni öldür, ya da izin ver, əsirləri aparım. Onun belə cəsuranə danışığı Şahın xoşuna gəlib Həsən ağaya əsirləri aparmaq üçün izin vermişdi.

Nadir Şahın qətlindən sonra Hacı Çələbi xan Təbrizdən quzeyə cəmi Azərbaycana xanlıq eləmək istəyirdi, Sədrəddin Əfəndi, Mirzə Qasım, Yusifoğlu kimi dərrakəli, tədbirli, məsləhətçilərinin, Ağakişi bəy, Həsən ağa kimi igid övladlarının sayəsində xanlığının hüdudlarını xeyli genişləndirdi, hətta Təbrizdə şahlıq iddiasına düşən Əmiraslan xan Qırxlunu sınıq salıb, Sədrəddin Əfəndi kimi fazil və alim kimsəni Təbrizə naib göndərdi, Qarabağlı Pənah xan Cavanşiri, Qaradağlı Kazım xanı, Naxçıvanlı Heydərqulu xanı, gəncəli Şahverdi xanı, Gürcüstan valisi İrakli xanı hüzuruna gəlməyə məcbur elədi.

Düzü, bütün bunlardan Kərbəlayı Mahmud vasitəsilə xəbər tuturduq, arabir Mirzə Yusiflə şəhəri gəzməyə çıxmağımı nəzərə almasaq, fikrim-zikrim get-gedə daha maraqlı olan, kağıza köçürə-köçürə həyəcanlandığım hekayətin yanındaydı. Bu ahıl, pirani insan gözlərimdə gündən-günə böyüyürdü, indiyəcən belə zəngin ömür yaşamış kimsəyə rast gəlməmişdim.

Bəzən bir neçə gün çalışmırdıq, Mirzə Yusif özünü halsız hiss eləyirdi, fikirlərini cəmləşdirə bilmirdi, belə vaxtda Kərim yuxarı məhəllədəki təbibin ardınca qaçır, dava-dərmandan sonra xəstənin halı düzəlirdi. Görünür, Gözəgörünməz lütfünü ondan əsirgəmək, işini yarımçıq qoymaq niyyətində deyildi. O dincəldiyi günlərdə mən yazdıqlarımın üzünü səliqəylə köçürürdüm ki, əlimdə iki

nüsxə olsun, dünyanın işlərini bilmək olmaz, qalan vaxtımı da öz əşarımın tərtibinə sərf eləyirdim.

Kərbəlayı Mahmudun sayəsində Ağsuya gedən bir Allah bəndəsi tapıb Ağa Məsihə və Zülaliyə namə göndərmiş, olub-keçənləri yerli-yataqlı yazıb vəziyyətimdən hali eləmişdim. Dörd ay sonra nəzmlə cavab aldım. Mənim: *Gövhəri-nəzmin, Nişat, eyləmə hər yerdə sərf, / Bir belə bazaridə kim sənə qiymət verir,* – beytilə tamamlanan qəzəlimə Ağa Məsih: *Gövhəri-nəzmin, Nişat, düşsə Məsih əlinə, /Rağiyi bazar edib aləmə şöhrət verir,* – beytilə, Zülalisə: *Nəzmi-Nişatü Məsih düşsə Zülali ələ, /Feyzi-həyat əbəd eyşi-məsərrət verir,* – beytilə bitən nəzirə göndərmişdi, bu da məni çox məmnun elədi. Məni unutmamışdılar, əşarıma dəyər verirdilər, bircə beytim belə könüllərə yazılmışdısa, hələ yaşamağa dəyərdi. Bundan belə necə olacaqdı, ömrü boyu vətəni Tiflisi görməyə can atan, amma qismətindən sonunu bu karvansarada gözləyən qoca Haqqa qovuşandan sonra həyatım adi axarına dönməyəcəkdimi? Mirzə Yusifin Firəngistanda, İstanbulda, İsfahanda, Muğan çölündə, Təbrizdə yaşadıqlarının, heç olmasa, yüzdə, mində birini yaşamamışdım, bu boyda zəka, mərifət, yaddaş dəryası gözlərimin qarşısında sönüb-sovurulub gedirdi, bir müddətdən sonra qüssəli xatirəyə çevriləcəkdi.

Mirzə Yusifin yaddaşındakıları kağıza köçürməyim iki il çəkdi, daha dəqiq desəm, hicri 1163-cü, miladi 1750-ci ilin erkən payız günlərinin birində son parçanı danışıb yüngülləşdi, ağır yükdən qurtulmuş kimi, köksünü ötürüb dedi, “Şükür kəməminə, İlahi, daha arxayın ölə bilərəm,” Sonra qurşağından pul kisəsi çıxarıb əlavə elədi, “Bu sənin haqqındı, haqqını halal elə. Əlini atıb bir kisə də çıxardı, dedi, “Görürəm, Allah adamısan, səndən iki ricam var: Kərbəlayı Mahmudla məni dəfn elərsən, əlyazmaların birini Ərdəbildə Mirzə Kəmaləddinə göndərər, birini də özündə saxlarsan, nə qədər ki, saraylarda rahatlıq yoxdu, şahların biri gəlib, biri gedir, bu hekayət kimsəyə gərək deyil.”

Ardınca sandığının birini açmağı buyurdu, dedi: “Bu kitablar, yazı dəsti, səfərlərim boyu apardığım qeydlər də səndə qalsın, özünə lazım olanı əxz elərsən, – sonra ikinci sandığı açdırdı, dedi, – burda üç dəst bahalı libas var, birini Kərbəlayı Mahmuda, o birini Kərimə verərsən, biri də sənə halaldı; bir tay başmaq, bir

sinəbənd, bir də qolbağı var, onu da məzarıma qoyarsan". Son sözlərini söyləyəndə səsi titrədi, qırıldı bu məqamda, az qala, hönkürəcəkdim. Əlindən tutdum, "Mirzə Yusif, – dedim, – Allahın lütfüylə ömür hekayətimizi qələmə aldığıma görə taleyimə minnətdaram, həyatıma nə qədər məna qatdığınızı təsəvvürünüzə gətirə bilməzsiniz; rahat ola bilərsiniz, istəklərinizi övladınız kimi yerinə yetirəcəyəm".

Sonra özümü saxlaya bilməyib bayıra çıxdım, şabalıd ağacının altında ağlayıb boşaldım. Elə o axşam da Kərbəlayı Mahmudla söhbətləşdik, dedi: "Ölüm əmri hamımıza gələcək, müsafirim olduğu bu yeddi il ərzində Mirzə Yusif həyatımın bir parçasına çevrilib, onun itkisi məndən ötrü də ağır olacaq: axır vaxtlar qalxan sünni-şiə məsələsinə görə onu elə karvansaranın həyətində dəfn elərik, sonra hər şey durular, qəbiristanlığa köçürərik". Axırıncı dəfə gələndə həkim bizi qırağa çəkib, hər gün nəhs xəbərə hazır olmağımızı söyləmişdi, biz də ölümün lap yaxında olduğunu duyurduq.

Mirzə Yusif Tiflisi axır günlərini yataqda keçirdi. Daha qalxmağa heyi qalmamışdı, Kərim gündə üç dəfə başını dikəldib şorba suyu içirdirdi. Şüurunun get-gedə zəiflədiyini, danışmaq iqtidarının tükəndiyini, gözümüzün qabağındaca söndüyünü görürdük. Vəsiyyətə oxşar söhbətinin yeddinci günü səhər Kərim gözüyaşlı qapımı döyüb dedi: "Mirzə Yusif ağa gecə canını tapşırıb". Kərbəlayı Mahmudla özümüzü çatdırdıq, fatihəsini oxuduq, köməkli yuyub kəfənlədik, məzarını qazıb karvansaradakı üç-dörd müsafirin yardımıyla dəfn elədik. Dediyi kimi, anasından yadigar qalan bir tay başmağı da, yeddi il anasını əvəz eləmiş aysor qadının verdiyi gümüş qolbağı da, bir vaxt hansı istəkləsə İstanbulda aldığı sinəbəndi də məzarına qoydum. İki həftə sonra Kərbəlayı Mahmud daşyonan usta gətirtdi, sinədaşı və başdaşı yondurdu, üstündə *«Allahın həqir bəndəsi səyyah Mirzə Yusif Tiflisi»*, doğum və ölüm tarixini yazdırdı, yol şəkli çəkdirdi, bir də mənim «Görmədim» rədifli mürəbbemdən iki misra yazdırdı: *Bu cəzanın bir həqiqi aşinasın görmədim, /Hər kimin çəkdim cəfasın, bir vəfasın görmədim.*

Qırxıncı gün ömür hekayətimə az-çox bələd olan Kərbəlayı Mahmud dedi, Mirzə Nişat, hara gedəcəyini bilməməkdənsə, elə burda qalmağın məsləhətdi, mən də qismətimə boyun əyib onun

sözündən çıxmadım. Bir neçə aydan sonra Ərdəbilə gedən Allah bəndəsi tapıldı, Mirzə Yusifin ömür hekayəti köçürülmüş *(yaşadığı illərin sayına görə hərəsi yeddi səhifədən ibarət yetmiş yeddi sərlövhəyə ayırmışdım)* beş yüz otuz iki səhifəlik əlyazmanın bir nüsxəsini müfəssəl naməylə Mirzə Kəmaləddin Təbriziyə göndərdim.

O vaxtdan hər gün karvansara həyətindəki tənha məzarla həmsöhbətəm, ona öz ömrümün hekayətini danışıram. Cavan yaşımda bir səhvim ucbatından quş kimi eldən-elə düşdüm, axırda tale gətirib məni Mirzə Yusif Tiflisinin müdriklik ağacının budağına qondurdu. İndi bir müddət dolanmağa imkanım var, qələmimlə güzəranpulu da qazana bilərəm.

Mirzə Yusif düz deyibmiş, *insan ömrünün harda bitəcəyini bilsəydi, həyat mənasız olardı…*

**Hicri 1164-cü,**
**Miladi 1751-ci il**

# MÜNDƏRİCAT

## BİRİNCİ KİTAB
## MƏĞRİBLƏ MƏŞRİQ ARASINDA

FAŞ ELƏMƏK İSTƏDİYİM SİRR ........ 7
DÖRD GÜN ƏVVƏLİN YUXUSU ........ 13
ALLAHIN HİFZİ ........ 19
AH, BU JOZEF QRENYÖ... ........ 25
YOL VƏ QƏMLİ GÖZLƏRİN HEKAYƏTİ ........ 31
AH, PARİS, PARİS... ........ 37
ALTI İL VƏ BÜTÖV BİR ÖMÜR ........ 43
VENEZİADA ÜÇ İL, YAXUD EHTİRAS GİRDABINDA ........ 49
YEDDİ TƏPƏ ÜZƏRİNDƏKİ XƏYAL ........ 55
SƏADƏT ASTANASINDA ON BİR İL ........ 62
ÜZÜ GÜNÇIXANA DOĞRU ........ 69
ÖZ CİYƏRİNİN QANINI İÇƏN ÇAQQAL ........ 76
ÖMRÜN UÇAN QUŞU ........ 83
AĞLAR GÖZLƏRİN KƏDƏRİ ........ 90
DƏRDİN MİN ÜZÜ ........ 97
ÜÇ İLİN SƏRGƏRDANLIĞI ........ 104
YENƏ SƏADƏT ASTANASINA DOĞRU ........ 111
AH, ƏLAHƏZRƏT DÖZÜM... ........ 118
QUL OLMAQ QORXUSU ........ 125
XƏYALLARIYLA GÖRƏN SEVGİ ........ 134

## İKİNCİ KİTAB
## MUĞAN ÇÖLÜNÜN YOVŞANI

YOLLARIN YARASI VƏ YARALILARI ........ 143
QANLA DOLU GÖZLƏR ........ 150
BİTMƏYƏN YOL ........ 158
TALEYİMİN BİR DAHA DƏYİŞDİYİ AN ........ 165

BAŞIMDA SƏRVÜ-RƏVANIN XƏYALI ..... 172
İLĞIMLAR İÇİNDƏ YOLÇULUQ..... 179
VƏLİNEMƏTİN İNTİZARINDA..... 186
BƏNDƏ YOLUNA GƏLƏNLƏR ..... 193
İNTİZARLI GÜNLƏR..... 200
VƏLİNEMƏTİN ZİYAFƏTİ..... 207
TAXT-TACA DOĞRU ..... 214
CANLA KÖNLÜN QOVĞASI ..... 221
GÜNƏŞƏ AÇILAN ƏLLƏR..... 229
MƏMLƏKƏTƏ DÜŞƏN NUR ..... 236
ŞAHIN XİDMƏTİNDƏ..... 243
ERMƏNİ XƏLİFƏNİN NİYYƏTİ ..... 250
QITLIQ GİRDABINDA..... 257
UYĞUSUZ GECƏLƏR..... 264
TAXT-TACA DÜŞƏN NUR ..... 271
NOVRUZDA YOVŞAN ƏTRİ..... 278

# ÜÇÜNCÜ KİTAB
# İLĞIMLAR ARDINCA

ÜZÜ TƏBRİZƏ DOĞRU ..... 287
DƏRDİMİN DƏRMANI SÖZ..... 294
TƏBRİZƏ APARAN YOLLAR..... 301
SARAYDAKI QƏRİB ..... 308
RƏVANDAN GƏLƏN QƏFİLƏ ..... 315
AYRI DƏRDİN YÜKÜ..... 322
SÖZ BAĞININ PÖHRƏSİ ..... 329
İZHARI ÇƏTİN DƏRDLƏR..... 336
YOLLARA QALAN GÖZLƏR..... 343
TƏBRİZ AYRILIĞI..... 350
XANƏDANIN BƏRQƏRAR OLDUĞU YER ..... 357
QƏFİL GƏLƏN DƏRD..... 364
YAN KEÇDİYİMİZ NƏQŞİVAN ..... 371
TƏSƏLLİSİ OLMAYAN İTKİ..... 378
SIXINTILI VƏ İNTİZARLI GÜNLƏR..... 385
MƏHƏMMƏD KAZIMIN SEVGİSİ ..... 392

# DÖRDÜNCÜ KİTAB
# YOL VERMƏYƏN DAĞLAR


İÇİMDƏ KÖZƏRƏN UMUD ........ 401
KÖNÜL SİRDAŞIMLA GÖRÜŞ ........ 408
«ŞƏHƏRLƏR ANASI»NDAN KEÇƏN YOL ........ 414
DAĞLARLA ÜZ-ÜZƏ ........ 421
MƏHƏMMƏD KAZIMIN NƏHS YUXUSU ........ 428
YUXUDAN AĞIR GÜNLƏR ........ 435
ÇİN ÇIXAN YUXU ........ 441
BAĞRI YARA YOLLAR ........ 448
GÜNLƏRİN TUTQUNLUĞU ........ 455
GÜNÇIXANDAN GƏLƏN XƏBƏR ........ 462
ŞÜBHƏ VƏ HƏQİQƏT ........ 469
DAHA BİR ÜMİD ARXASINCA ........ 476
VƏFALI QÜTBƏDDİN ........ 483
ALLAHIN ENDİRDİYİ ZÜLMƏT ........ 490
BOŞLUĞA UÇUŞ ........ 497
KÖNÜL HÜCRƏSİNDƏ ........ 504
ÖZ GÖZLƏRİNİN İŞIĞI ........ 512
BİTİB-TÜKƏNMƏYƏN DƏRDLƏR ........ 520
MÖHNƏT DOLU GÜNLƏR ........ 528
SONUN BAŞLANĞICI ........ 535


# MİRZƏ NİŞAT ŞİRVANİNİN
# SÖYLƏNƏNLƏRƏ ƏLAVƏSİ


EŞQ ODUNUN RÜSVAY ELƏDİYİ ADAM ........ 545
KARVANSARA HƏYƏTİNDƏ QƏRİB MƏZAR ........ 551